# AZƏRBAYCAN DİLİ 4

tədris dili

# METODİK VƏSAİT



Rafiq İsmayılov
Ülkər Nurullayeva
Şəhla Zahidova
İradə Bayramova
Aysel Xanalıyeva
Könül Cəlilova

Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(tədris dili)*

fənni üzrə dərsliyin

METODİK VƏSAİTİ

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**trm@arti.edu.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

## İÇİNDƏKİLƏR


**GİRİŞ**

**1. Dərsliyin strukturu**...................................... 3
**3. Məzmun vahidlərinin saatlar üzrə bölgüsü** 4
**4. Məzmun standartları və təlim nəticələri** .... 6
**5. Akademik anlayışlar** ................................... 9

**DƏRSLƏR ÜZRƏ ŞƏRHLƏR VƏ TÖVSİYƏLƏR**

**I BÖLMƏ. FƏRD VƏ TOPLUM**
Bölmənin icmalı ...........................................11
1. Dostluğun gücü..........................................13
2. Özünə inan ................................................19
3. Ünsiyyət .................................................. 23
4. Hüquqlarımız........................................... 29

**II BÖLMƏ. QARABAĞ – ANA YURDUM**
Bölmənin icmalı .......................................... 34
1. Qarabağ xanlığı......................................... 37
2. Yaddan çıxmaz Qarabağ............................ 44
3. Qarabağ Azərbaycandır!........................... 51
4. Qəhrəmanlarımızı tanıyaq........................ 56

**III BÖLMƏ. SEVİMLİ QƏHRƏMANLARIM**
Bölmənin icmalı .......................................... 62
1. Vəfalı dost ................................................ 65
2. Dəniz gözəli ............................................. 72
3. Macəralar aləmində ................................. 79
4. Yenilməz qəhrəmanlar ............................. 86

**IV BÖLMƏ. İŞARƏLƏR VƏ SİMVOLLAR**
Bölmənin icmalı .......................................... 94
1. Yazıda işarələr .......................................... 96
2. Musiqidə işarələr ................................. 102
3. Simvollar ............................................... 107
4. Həyatımızdakı işarələr.............................113

**V BÖLMƏ. BİRİNCİLƏR: "İLK" VƏ "ƏN"**
Bölmənin icmalı ..........................................121
1. Şərqdə ilk dəfə........................................124
2. Ginnesin rekordlar kitab.......................... 132
3. Amerikanın kəşfi .....................................138
4. Sürət, sürət, sürət ...................................144

**VI BÖLMƏ. TARİXİ ŞƏXSİYYƏTLƏR**
Bölmənin icmalı ..........................................152
1. Elm dünyasının şahı.................................155
2. Fatehlər...................................................161
3. Adil hökmdar...........................................167
4. Tarixdə iz qoyan qadınlar .........................173

**VII BÖLMƏ. ELMİ FANTASTİKA**
Bölmənin icmalı ..........................................181
1. Yadplanetlilər ..........................................184
2. Keçmişə səyahət .....................................192
3. Kosmosa səyahət ....................................199

**VIII BÖLMƏ. İXTİRALAR VƏ KƏŞFLƏR**
Bölmənin icmalı ...........................................205
1. Coğrafi kəşflər .........................................208
2. Süni intellekt ...........................................214
3. Ölçü vahidləri ..........................................219
4. Tibdə ixtiralar ..........................................225

# GİRİŞ

## 1. Dərsliyin strukturu

4-cü sinifdə Azərbaycan dilinin tədrisi 8 mərhələdən ibarətdir. Dərslik komplektində bu mərhələlər ayrı-ayrı bölmələr (tədris vahidləri) şəklində təqdim olunmuşdur. Hər yarımil üçün 4 bölmə nəzərdə tutulmuşdur. Hər bir bölmə giriş dərsi, dörd fəsil və ümumiləşdirici təkrardan ibarətdir. Dərsliyin birinci hissəsinin sonunda "Söz boğçası" rubrikasında verilmiş sözlərin izahı, 2-ci hissəsinin sonunda isə Azərbaycan dili fənni üzrə ibtidai təhsil mərhələsində təqdim olunmuş terminlərin izahı verilmişdir.

Giriş dərsində bölmənin ümumi mövzusu ilə bağlı mətn və vizual materiallar üzərində iş aparılır: şagirdlərin mövzu ilə bağlı bilikləri dinlənilir, açar sözlər izah olunur, dinləmə və ya oxu mətni əsasında mövzu haqqında təsəvvür dərinləşdirilir.

Ümumiləşdirici təkrar dərsində müvafiq bölmədə mənimsədilmiş filoloji bacarıqlar xatırladılır, dil qaydalarının tətbiqi üzrə çalışmalar yerinə yetirilir.

Dərslikdə ən kiçik məzmun vahidi fəsildir. O, əsasən, dörd dərsi əhatə edir. Fəsildə müəyyən mövzu zəminində hər bir nitq bacarığının inkişafı üçün materiallar verilir. Ona görə də dərsliyin məzmun kompozisiyası haqqında danışarkən bir dərsi deyil, ümumilikdə fəsli təşkil edən mərhələlərdən danışmaq lazım gəlir. Hər dərs bir mərhələni əhatə edir:

| | |
|---|---|
| 1-ci dərs | Oxuyub-anlama |
| 2-ci dərs | Nitq bacarıqlarının inkişafı (dinləmə, danışma, yazı) |
| 3-cü dərs | Analitik bacarıqların inkişafı (Filoloji anlayışlar) |
| 4-cü dərs | Dil qaydaları |

1) **Oxu.** Şagirdlər mətni oxuyur, mövzu üzrə yeni məlumat əldə edirlər; bu zaman müxtəlif oxu strategiyaları tətbiq olunur: növbəli oxu, istiqamətləndirilmiş oxu və s.

2) **Dinləmə, danışma, yazı.** Əldə etdikləri məlumat və ya ideya ətrafında danışır (müzakirə, debat), yazır (təqdimat, esse), dinlədiklərini oxuduqları ilə müqayisə edirlər.

3) **Təhliletmə bacarığı.** Bu dərsdə mətnin təhlili üçün vacib olan filoloji anlayışlar mənimsədilir. Şagirdlər janrlar, kompozisiya elementləri, leksik kateqoriyalar, təqdimat üsulları və s. ilə bağlı yeni terminləri mənimsəyirlər; yaradıcılıq tələb edən tapşırıqları yerinə yetirməklə həmin anlayışları mənimsədiklərini nümayiş etdirirlər.

4) **Dil qaydaları.** Hər fəsildə ekspressiv nitq bacarıqları (danışma, yazı) üçün praktiki əhəmiyyət daşıyan müəyyən dil qaydası mənimsədilir. Möhkəmləndirici tapşırıqlardan sonra şagirdlər həmin qaydanı yazıda tətbiq edirlər.

Fəsillərdə əsas fəaliyyət oxu üçün nəzərdə tutulmuş mətn(lər) üzərində qurulur, bütün məzmun xətləri üzrə standartlar müvafiq mövzuya aid nitq materialı üzərində reallaşdırılır.

Bu struktur hər bir fəsildə müxtəlif məzmun xətlərinə aid standartların taksonomiyanın mərhələlərinə uyğun reallaşdırılmasına imkan yaradır.

## 2. Məzmun vahidlərinin saatlar üzrə bölgüsü

3-cü sinifdə Azərbaycan dilinin tədrisinə 306 saat ayrılır: 34 həftə x 9 saat.

### 1-ci yarımil

| Fəsil | Mövzu | Dil qaydası | Dərs | Saat |
|---|---|---|---|---|
| **1-ci bölmə. FƏRD VƏ TOPLUM** | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Dostluğun gücü | Sözlərin düzgün yazılışı | 4 | 8 |
| 2 | Özünə inan | Qoşa samitlə bitən təkhecalı sözlər | 4 | 8 |
| 3 | Ünsiyyət | Sözlərdə bəzi saitlərin yazılışı | 4 | 8 |
| 4 | Hüquqlarımız | Qoşasaitli sözlər | 4 | 8 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 1-ci bölmə üzrə cəmi | | | 18 | 36 |
| **2-ci bölmə. QARABAĞ – ANA YURDUM** | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Qarabağ xanlığı | İsmin hallanması | 4 | 8 |
| 2 | Yaddan çıxmaz Qarabağ | Sifətin dərəcələri | 4 | 8 |
| 3 | Qarabağ Azərbaycandır! | Zərf | 4 | 8 |
| 4 | Qəhrəmanlarımızı tanıyaq | İşarə əvəzlikləri | 4 | 8 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 2-ci bölmə üzrə cəmi | | | 18 | 36 |
| **3-cü bölmə. SEVİMLİ QƏHRƏMANLARIM** | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Vəfalı dost | İsmi və feili birləşmələr | 4 | 8 |
| 2 | Dəniz gözəli | Cümlə üzvləri | 4 | 8 |
| 3 | Macəralar aləmində | Feili xəbər və ismi xəbər | 4 | 8 |
| 4 | Yenilməz qəhrəmanlar | Cümlənin ikincidərəcəli üzvləri | 3 | 6 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 3-cü bölmə üzrə cəmi | | | 17 | 34 |
| **4-cü bölmə. İŞARƏLƏR VƏ SİMVOLLAR** | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Yazıda işarələr | Üç nöqtə | 4 | 8 |
| 2 | Musiqidə işarələr | “O”, “Bu” işarə əvəzliklərindən sonra vergül | 4 | 8 |
| 3 | Simvollar | Defis işarəsi | 4 | 8 |
| 4 | Həyatımızdakı işarələr | Plakatda işarələr | 3 | 6 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 4-cü bölmə üzrə cəmi | | | 17 | 34 |
| I yarımil üzrə ümumiləşdirici təkrar | | | 1 | 2 |
| CƏMİ | | | 71 | 142 |

## 2-ci yarımil

| Fəsil | Mövzu | Dil qaydası | Dərs | Saat |
|---|---|---|---|---|
| **5-ci bölmə. BİRİNCİLƏR: "İLK" VƏ "ƏN"** | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Şərqdə ilk dəfə.. | Sözün leksik və qrammatik mənası | 4 | 8 |
| 2 | Ginnesin rekordlar kitabı | Qoşma | 4 | 8 |
| 3 | Amerikanın kəşfi | Ədat | 4 | 8 |
| 4 | Sürət, sürət, sürət | Modal sözlər | 4 | 8 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 5-ci bölmə üzrə cəmi | | | 18 | 36 |
| **6-cı bölmə. TARİXİ ŞƏXSİYYƏTLƏR** | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Elm dünyasının şahı | Sözlərin qrammatik mənasının müəyyənləşdirilməsi | 4 | 8 |
| 2 | Fatehlər | Mürəkkəb feillər | 4 | 8 |
| 3 | Adil hökmdar | Şəxsə və zamana görə dəyişməyən feillər | 4 | 8 |
| 4 | Tarixdə iz qoyan qadınlar | Sual əvəzlikləri | 4 | 8 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 6-cı bölmə üzrə cəmi | | | 18 | 36 |
| **7-ci bölmə. ELMİ FANTASTİKA** | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Yadplanetlilər | İxtisar və durğu işarələri | 5 | 10 |
| 2 | Keçmişə səyahət | Terminlər | 4 | 8 |
| 3 | Kosmosa səyahət | Mötərizə və dırnaq işarəsi | 3 | 6 |
| Ümumiləşdirici təkrar | | | 1 | 2 |
| 7-ci bölmə üzrə cəmi | | | 14 | 28 |
| **8-ci bölmə. İXTİRALAR VƏ KƏŞFLƏR** | | | | |
| Giriş | | | 1 | 2 |
| 1 | Coğrafi kəşflər | Təkrar (Orfoqrafiya) | 4 | 8 |
| 2 | Süni intellekt | Təkrar (Nitq hissələri) | 3 | 6 |
| 3 | Ölçü vahidləri | Təkrar (Cümlə və cümlə üzvləri) | 4 | 8 |
| 4 | Tibdə ixtiralar | Təkrar (Durğu işarələri) | 4 | 8 |
| 8-ci bölmə üzrə cəmi | | | 16 | 32 |
| II yarımil üzrə ümumiləşdirici təkrar | | | 1 | 2 |
| CƏMİ | | | 67 | 134 |

Əvvəlki siniflərdə olduğu kimi, bu sinifdə də sərbəst saatlar nəzərdə tutulmuşdur. Müəllimlərə həmin dərsləri aşağıdakı fəaliyyətlər üzrə qurmaq tövsiyə olunur:

1. Sinifdənxaric oxu
2. Müxtəlif tipli imla mətnlərinin yazılması
3. Həftə ərzində gözlənilən səviyyədə reallaşmamış təlim nəticələri üzrə iş
7. Layihə tapşırıqları üzrə təqdimatlar
8. Formativ və kiçik summativ qiymətləndirmənin, eləcə də özünüqiymətləndirmənin təşkili

## 4. Məzmun standartları və təlim nəticələri

Aşağıda məzmun standartlarının tədris prosesində reallaşdırılması yolları açıqlanır. Hər dərsdə bir və ya bir neçə alt standart reallaşdırılır. Dərslərdə qoyulan təlim məq sədləri – gözlənilən şagird nailiyyətləri məzmun standartlarına doğru aparan addım ları və ya standartların reallaşma üsullarını göstərir.

### 1. Dinləyib-anlama və danışma

**1.1. Dinləmə**

**1.1.1. Dinlədiyi mətni anladığını nümayiş etdirir.**
- Qeyd götürməklə dinləyir.
- Dinlədiyi mətndəki məlumatları mənimsədiyini nümayiş etdirir.
- Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir.

**1.1.2. Dinlədiyi fikrə münasibət bildirir.**
- Dinlədiyi fikirlə bağlı mövqeyini şərh edir.
- Müzakirə zamanı tərəflərin mövqelərinə adekvat reaksiya verir.

**1.2. Danışma**

**1.2.1. Müşahidə etdikləri, dinlədikləri və oxuduqları haqda danışır.**
- Araşdırdığı məlumatlar və tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur.
- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir.
- Sitat gətirməklə fikrini əsaslandırır.
- Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır.
- Fikirlərini arqumentlərlə izah edir.
- Dinlədiyi mətnin mövzu və məzmununa yaradıcı yanaşmaqla danışır.

**1.2.2. Mövzu üzrə əldə etdiyi məlumatları rabitəli mətn şəklində təqdim edir.**
- Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır.
- Mətni götürdüyü qeydlər əsasında nəql edir.
- Mövzu üzrə apardığı araşdırmaların nəticələrini təqdim edir.
- Oxuduğu və ya dinlədiyi mətni nəql edir.
- Təqdimat zamanı cəlbedici danışıq tərzindən istifadə edir.

**1.2.3. Danışarkən ədəbi dilin normalarına və mətnin məzmun-struktur tələblərinə riayət edir.**
- Danışarkən dil normalarına uyğun sintaktik konstruksiyalardan istifadə edir.
- Şifahi nitqində fikirlərin məntiqi ardıcıllığına riayət edir.
- Şifahi nitqində öyrəndiyi yeni söz və ifadələrdən istifadə edir.
- Şifahi nitqində standart ifadələrdən (nitq etiketləri, atalar sözü və məsəllər) istifadə edir.

### Oxu

### 2.1. Söz ehtiyatı

**2.1.1. Rast gəldiyi yeni sözlərin mənasını müəyyən edir.**
- Sözün kontekstə uyğun mənasını müəyyən edir.
- Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir.
- Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir.
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir.
- Kontekstdən çıxış edərək terminin aid olduğu elm sahəsini müəyyən edir.
- Terminləri ümumişlək sözlərdən fərqləndirir.

**2.1.2. Söz və ifadələrin həqiqi və məcazi mənalarını fərqləndirir.**
• Sözün həqiqi və məcazi (törəmə) mənaları arasındakı bağlılığı müəyyən edir.
• Frazeoloji birləşməni həqiqi mənalı söz birləşməsindən fərqləndirir.
• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir.
• Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir.
• Kontekstə uyğun obrazlı ifadələr seçir

**2.1.3. Bədii ifadələrin nitqdəki rolunu dəyərləndirir.**
• Bədii nümunələrdə fikrin təsirli və dəqiq ifadə olunmasında yaxınmənalı və əksmənalı sözlərin rolunu müəyyən edir.
• Situasiyaya uyğun gələn standart ifadələr (atalar sözü, məsəl, aforizm) seçir.

**2.1.4. Söz və ifadələri izah etmək bacarığını nümayiş etdirir.**
• Ümumi məna və özəl əlamətləri göstərməklə anlayışı izah edir.
• Yaxınmənalı və əksmənalı sözlərin köməyi ilə söz və ifadələri izah edir.
• Söz tərkibindəki leksik şəkilçi və söz-hissəciklərin semantik mənasından çıxış edərək sözün mənasını təxmin edir.

**2.2. Oxuyub-anlama**

**2.2.1. Müvafiq mətnləri düzgün, səlis, intonasiya ilə oxuyur.**
• Mətni sürətli, səlis, aydın səslə oxuyur.
• Mətni intonasiya ilə oxuyur.

**2.2.2. Açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir.**
• Epizodların mətndəki ardıcıllığını müəyyən edir.
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir.
• Bədii mətndə hadisələrin ardıcıllığını müəyyən edir.
• Oxuyarkən qabaqcadan müəyyən olunmuş sualların cavablarını mətndən seçir.
• Tarixi-informativ mətndəki hadisələrin xronoloji ardıcıllığını müəyyən edir.
• İnformativ mətndə fikir və faktlar arasındakı məntiqi əlaqəni müəyyən edir.
• İnformativ mətndəki əsas faktları müəyyən edir.
• Mətndə açıq şəkildə ifadə olunmuş məlumatları mənimsədiyini nümayiş etdirir.
• Mətnin məzmunu ilə bağlı suallar tərtib edir
• Verbal-qrafik informasiyanı (məlumat vərəqi, cədvəl, sxem) mənimsədiyini nümayiş etdirir.

**2.2.3. Mətni məzmun, struktur, dil-üslub və obrazlar sistemi baxımından təhlil edir.**
• Mətndəki obrazları xarakterizə edir.
• Mətnin bitkin hissələrini yarımbaşlıqlarla adlandırır.
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir.
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir.
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir.
• Oxuduğu mətnlərin ideya yaxınlığını müəyyən edir.
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir.
• Müxtəlif bədii janrları (təmsil, bayatı və s.) səciyyətləndirən xüsusiyyətləri müəyyən edir.
• Mətnin məzmunu ilə bağlı suallar tərtib edir.
• Obrazlar xəritəsi tərtib edir.
• Mətnlərin bədii, poetik xüsusiyyətlərini müəyyənləşdirir və ekspressiv təsirini izah edir.
• Sətiraltı fikir və informasiyanı izah edir.
• Mətndə müəllif mövqeyini faktlardan, təxəyyülü real hadisədən fərqləndirir.

• Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirilir.
• Bədii mətnlərin janrlarını səciyyələndirən xüsusiyyətləri müəyyən edir.

**2.2.4. Mətndəki hadisə və faktlardan nəticə çıxarır və əsas fikri müəyyən edir.**
• Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir.
• Mətndə sətiraltı fikir və informasiyanı izah edir.
• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir.
• İnformativ mətndəki fakt və fikirlərdən çıxış edərək müəllifin məqsədini müəyyən edir.
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir.
• Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir.

**2.2.5. Mətndəki fakt, hadisə və obrazlara münasibət bildirir.**

• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir.
• Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərə münasibət bildirir.
• Əldə etdiyi məlumatlara əsasən fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir.

**2.2.6. Mətnin məzmununa yaradıcı yanaşmaqla onu təxəyyülünə uyğun dəyişdirir və ya genişləndirir.**
• Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir.
• Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır.
• Dialoji mətni səhnələşdirərkən improvizələr edir.
• İnformativ mətndə tanış olduğu ideyanı (kəşf, ixtira, fərziyyə və s.) təcrübədə tətbiq edir.

## 3. Yazı

**3.1.1. Dinlədiyi, oxuduğu, həyatda gördüyü hadisə və faktlar əsasında mətn yazır.**
• Hər hansı hadisəni ssenari və ya dialoq şəklində yazılı təqdim edir.
• Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir.
• Mənzum mətni nəsrə çevirərək yazır.
• Oxuduğu informativ mətndəki əsas faktları yazıda əks etdirir.
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır.
• İnformativ mətnlər əsasında tezislər yazır.

**3.1.2. Fakt, hadisə, fikir və duyğularını yazıda əks etdirir.**
• Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir.
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır.
• Məqsədə uyğun olaraq sadə praqmatik mətnlər (təlimat, gündəlik, açıqca, elan, şüar, xülasə, izahat) yazır.
• Mövzu üzrə münasibətini bildirmək üçün esse yazır.
• Oxuduğu mətn haqqında rəy yazır.
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır.

**3.1.3. Mövzu ilə bağlı yazılı təqdimat hazırlayır.**
• Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir.
• Tarixi hadisələrə aid xronoloji cədvəl tərtib edir.
• Mövzu üzrə divar qəzeti üçün materiallar hazırlayır.
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır.

**3.1.4. Yazıda ədəbi dilin normalarına və mətnin məzmun-struktur tələblərinə riayət edir.**

• Fakt, hadisə və fikirləri mətnin abzas və hissələri üzrə strukturlaşdırır.
• Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir.

## 4. Dil qaydaları

**4.1.1. Sözün tərkibi və söz yaradıcılığı üzrə bilik və bacarıqlarını nümayiş etdirir.**

• İşarə əvəzliklərini fərqləndirir.
• Şəkilçiləri söz və cümlədəki funksiyalarına görə fərqləndirir.
• Sözə şəkilçi artırmaqla yeni sözlər düzəldir.
• Sözlər arasında uyğunluğu müəyyən edərək mürəkkəb sözlər düzəldir.

**4.1.2. Mənimsədiyi orfoqrafiya qaydalarını sözlərin yazılışında tətbiq edir.**

• Sözlərdə samitlərin düzgün yazılış qaydalarına əməl edir.
• Sözlərin böyük hərflə yazılış qaydasına əməl edir.
• Sözlərdə saitlərin düzgün yazılış qaydalarına əməl edir
• Azaltma və çoxaltma dərəcəsində işlənən sifətləri düzgün yazır.
• Mürəkkəb sözləri tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək düzgün yazır.
• Xüsusi isimlərin böyük hərflə yazılış qaydasına əməl edir.
• Sayları söz və rəqəmlə düzgün yazır.
• Köməkçi nitq hissələrinin düzgün yazılış qaydalarına əməl edir.
• Orfoqrafiya və punktuasiya qaydalarına uyğun yazmaq üçün müvafiq lüğət və sorğu kitablarından istifadə edir.
• Mürəkkəb adları düzgün yazır.

**4.1.3. Cümlədə sözləri leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir.**

• Əsas nitq hissələrinin (isim, sifət, əvəzlik, zərf) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir.
• Söz birləşməsi və cümlədə əsas nitq hissələrini uyğun qrammatik formada işlədir.
• Köməkçi nitq hissələrinin ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir.
• Cümlələrdə köməkçi nitq hissələrindən yerli-yerində istifadə edir.
• Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir.

**4.1.4. Mənimsədiyi qrammatik qaydalara uyğun söz birləşməsi və cümlə qurur.**

• Sözlər arasında məna əlaqəsini müəyyən etməklə söz birləşməsi və cümlələr qurur.
• Söz birləşmələrini növünə görə bir-birindən fərqləndirir.
• Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir.
• Söz birləşməsi və cümlə qurarkən uyğun qrammatik şəkilçilərdən istifadə edir.
• Məqsəddən asılı olaraq nəqli, sual, əmr cümlələri qurur.
• Sadə cümlələr arasında məna əlaqəsini müəyyən edərək mürəkkəb cümlə qurur.
• Mürəkkəb adları söz və söz birləşmələrindən fərqləndirir.

**4.1.5. Cümlədə müvafiq durğu işarələrindən istifadə edir.**

• Mürəkkəb cümlənin tərkib hissələri arasında vergül işarəsindən istifadə edir.
• Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir.
• Durğu işarələrinin funksiyasını müəyyən edir.
• O, bu əvəzliklərindən sonra vergülün düzgün işlənmə qaydasını müəyyən edir.

## 5. Akademik anlayışlar

Dilin tədrisinə müasir yanaşma şagirdlərə yalnız dil qaydalarının öyrədilməsini deyil, həm də oxu və yazı bacarıqlarının formalaşdırılmasını və inkişafını tələb edir. Bu isə yalnız dilçilik deyil, ümumiyyətlə, filologiya üzrə bir sıra termin və anlayışların mənimsənilməsini nəzərdə tutur. Bu proses 1-ci sinifdən başlanır və ibtidai siniflərdə şagirdlər bir çox sadə və daha ümumişlək terminləri mənimsəmiş olurlar.

İbtidai təhsil mərhələsində şagirdlər aşağıdakı filoloji anlayışları mənimsəyirlər.

abzas
açar söz
adlıq hal
aforizm
ahəng qanunu
alqış
anket
annotasiya
antonim
arqument
atalar sözü
bağlayıcı
baş qəhrəman
başlıq
bayatı
bədii mətn
bənd
bənzətmə
cədvəl
cümlə
cümlə üzvü
cümlənin əsası
çıxışlıq hal
çoxmənalı söz
dastan
daxili əlifba
defis
dialoq
dırnaq işarəsi
dodaqlanan sait
dodaqlanmayan sait
durğu işarəsi
düzəltmə söz
elan
ensiklopediya
epizod
esse
ədat
əfsanə
əksmənalı söz
əlifba
elmi-fantastik əsər
əmr cümləsi
əsas nitq hissəsi
feil
feili birləşmə
feili xəbər
frazeoloji birləşmə
gündəlik
haşiyə
heca
hekayə
hekayə xəritəsi
hekayət
həqiqi məna
hərf
hikmət
xarakter
xəbər
xronologiya
xüsusi isimlər
ideya
ikincidərəcəli cümlə
üzvü
incə sait
informativ mətn
isim
ismi birləşmə
ismi xəbər
istinad
işarə əvəzliyi
ixtisar
izahlı lüğət
jest
kəlam
köməkçi nitq hissəsi
konkret isim
lakonik ifadə
leksik məna
lətifə
lüğət
məcazi məna
mənbə
məsəl
məzmun
mifik obraz
mimika
miqdar sayı
misra
modal söz
mötərizə
mövzu
mübaliğə
mübtəda
mücərrəd isim
müəllif
mühakimə
mülahizə
mündəricat
mürəkkəb ad
mürəkkəb cümlə
mürəkkəb söz
müsahibə
nağıl
nəqli cümlə
nida cümləsi
nitq hissələri
nöqtə
obraz
omonim
orfoqrafik norma
plakat
qafiyə
qalın sait
qaravəlli
qoşma
qrammatik məna
rəvayət
rəy
ritm
sait
samit
şeir
şəkilçi
şərh
sərlövhə
səs
sətir
şəxs adları
şəxs əvəzliyi
şəxsləndirmə
sifət
sinonim
sıra sayı
sitat
söz
söz birləşməsi
sözün kökü
ssenari
sual cümləsi
sual əvəzliyi
şüar
tapmaca
təmsil
termin
təxəyyül
təsirlik hal
tire
üç nöqtə
ümumi isimlər
vergül
yaddaş xəritəsi
yarımbaşlıq
yer adları
yerlik hal
yiyəlik hal
yönlük hal
zərf

bölmə **1**

# FƏRD VƏ TOPLUM

<table>
<tr><th colspan="2">Mövzu</th><th>Fərd və toplum</th></tr>
<tr><td rowspan="4">Nitq bacarıqları</td><td>Şifahi nitq</td><td>• Hər hansı hadisə, varlıqla bağlı fikir və təəssüratları haqqında danışma<br>• Oxuduğu və ya dinlədiyi mətni nəql etmə</td></tr>
<tr><td>Söz ehtiyatı</td><td>• Yeni sözlər: akkord, cürətlənmək, təbəssüm, suflyorluq, mızıldanmaq, sözləşmək, qürur, mənlik, heyət, nigaran, gərgin, intizarla, gicitkən, büzüşmək, alışmaq, göynəmək, dalamaq, bərbər, ülgüc, fitil, həsir, koramal, meh.<br>•Frazeoloji birləşmələr: çulunu sudan çıxarmaq, göz-qaş eləmək, götür-qoy etmək, özünü o yerə qoymamaq, fikrə getmək, xələl gəlmək, ayağına getmək.</td></tr>
<tr><td>Oxu</td><td>• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirmə<br>• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirmə<br>• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirmə<br>• İnformativ mətndəki əsas faktları müəyyən etmə<br>• Təmsildə şəxsləndirilmiş obrazları fərqləndirmə</td></tr>
<tr><td>Yazı</td><td>• Hər hansı hadisənin ssenari və ya dialoq şəklində yazılması<br>• Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirlərin yazıda əks etdirilməsi<br>• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazılması<br>• Məlumatlardan istifadə etməklə təlimata uyğun elan tərtib edilməsi</td></tr>
<tr><td>Akademik biliklər</td><td>Dil qaydaları</td><td>• Sözlərdə saitlərin düzgün yazılışı<br>• Qoşasaitli sözlərin yazılışı<br>• Sonu eyni qoşa samitlə bitən təkhecalı sözlərin düzgün yazılışı<br>• Sonu müxtəlif qoşa samitlə bitən təkhecalı sözlərin yazılışı<br>• Bir “y” və qoşa “yy” ilə yazılan sözlərin düzgün yazılışı</td></tr>
<tr><td>Kompetensiyalar</td><td colspan="2">Uşaq hüquqlarının qorunması, sosial davranışla bağlı bilgilərin aşılanması, əxlaqi dəyərlərin təbliği.</td></tr>
</table>

Bu bölmənin mövzusu insanların cəmiyyətdə bir-biri ilə münasibəti, toplum içində davranışı ilə əlaqədardır. Şagirdlərdə dostluq və qarşılıqlı yardım vərdişlərinin formalaşdırılması, ədalət, təmkinlik, düzlük, etibar, özünəinam və s. kimi hisslərin aşılanması çox vacibdir. Bölmədə təqdim olunmuş bədii mətnlər vasitəsilə şagirdlərin dinləmə, danışma, oxu və yazı bacarıqları inkişaf etdirilir, söz ehtiyatı zənginləşdirilir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

– Bədii mətni müvafiq intonasiya ilə oxuyur, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir;

– Şəkil üzrə mətn qurub danışır;

– Müzakirə zamanı fikirlərini əsaslandırır;

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

– Frazeoloji birləşmələr üzrə biliklərin mənimsədilməsi;

– Orfoqrafik normaların mənimsədilməsi.

**1-ci bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:** orfoqrafiya və izahlı lüğət, elanın tərtibi üçün vatman kağızı və s.

## **Giriş dərsi.** Bölmənin mövzusu ilə tanışlıq

• Dərslik: səh. 6–7 • İş dəftəri: səh. 2

**Təlim məqsədləri**

• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 1.2.2).
• Mətni intonasiya ilə oxuyur (st. 2.2.1).
• Sətiraltı fikir və informasiyanı izah edir (st. 2.2.3).
• Epizodların mətndəki ardıcıllığını müəyyən edir (st. 2.2.2).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
• Mətndəki obrazları xarakterizə edir (st. 2.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Yay tətili haqqında söhbət. |
| 2 | **Danışma** | Şəkil üzrə mətnin qurulması. |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Körpə Nəğmənin nağılı” mətninin oxusu.<br>Söz boğçası üzrə iş. |
| 4 | **Oxuyub qavrama** | Mətnin məzmunu üzrə iş. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər verilmiş açar sözlərdən istifadə etməklə yay tətilini necə keçirdikləri haqqında danışırlar. Uşaqların təəssüratları, xüsusilə oxuduqları kitablar ətrafında müzakirə aparılır.

### Danışma

1.2.2 **Tapşırıq B (dərslik). Qruplarla iş.** Şagirdlər dörd qrupa bölünür. Hər qrup şəkil üzrə bir situasiyanı müzakirə edib verilmiş başlıqlara uyğun mətn qurub danışmalıdır. Müzakirə iki mərhələdə aparıla bilər:

1. Şagirdlər müzakirədə əvvəlcə şəkildə gördüklərini detallı təsvir edirlər.

2. Daha sonra başlıqla şəkildə gördüklərini əlaqələndirirlər. Müəllim qruplara şəkil ilə başlıq arasında əlaqə yaratmaq üçün yönəldici suallar yazıb təqdim edə bilər.

Məsələn, şagirdlər 1-ci şəkli belə təsvir edə bilərlər:

*Şəkildə voleybol yarışması təsvir olunub. Oyun idman meydançasındadır. Hər komandada 6 oyunçu var. Komandalarda qızlar da, oğlanlar da iştirak edirlər. Sağdakı komandanın üzvləri mavi, soldakı komandanın üzvləri sarı köynək geymişlər. Uşaqlar həvəslə oynayırlar.*

Şəkil və “Biz mehriban dostlarıq” başlığı arasında əlaqə yaratmaq üçün müəllimin təqdim etdiyi yönəldici suallar belə ola bilər:

*– Sizcə, bu uşaqları bir araya gətirən hansı səbəblərdir? Nə üçün oyunun nəticəsi onların şən əhval-ruhiyyəsini poza bilməz?*

### Oxu. Söz ehtiyatı

2.2.1 **Körpə Nəğmənin nağılı. Səsli oxu.** Mətn şagirdlər tərəfindən obrazların xarakterinə uyğun intonasiya ilə oxunur.

**“Söz boğçası” rubrikası.** Müəllim şagirdlərin diqqətini söz boğçası rubrikasına yönəldir. Şagirdlər sözlərin mənasını mətnin məzmununa əsasən təxmin edirlər, sonra dərsliyin sonunda verilmiş izahlı lüğətdən həmin sözləri tapıb mənalarını oxuyurlar.

**Müəllimin nəzərinə!** Dərsliyin sonunda verilmiş izahlı lüğətə yalnız “Söz boğçası”nda yer alan sözlər daxildir.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər hadisələrin ardıcıllığını müəyyənləşdirirlər:

**Doğru cavab:** 5, 3, 1, 4, 2

2.2.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnin məzmunu əsasında hekayə xəritəsini tamamlayırlar.

2.2.3 **Tapşırıq Ç (dərslik). Musiqi fənni ilə inteqrasiya.** Notların sıra nömrələrini bilən şagirdlər sualın cavabını asanlıqla tapa bilərlər. Do 1-ci, fa 4-cü, lya 6-cı notdur. Oğlanın mənzilinin nömrəsi 164 olduğu üçün Körpə Nəğmə “Do, lya, fa” oxuyanda mənzili tapdı.

2.2.3 **Tapşırıq D (dərslik).** Şagirdlər Körpə

Nəğmənin seçimini obrazların xarakteri ilə izah edirlər. Ovçu qəddar, oğlan isə qayğıkeş və xeyirxahdır.

**Tapşırıq E (dərslik).** Şagirdlər oğlanın üzündəki xoş təbəssümü qayğıkeş və xeyirxah xarakteri, insanlara yaxşılıq etməsi, mehribanlığı ilə izah edə bilərlər.

**Tapşırıq Ə (dərslik). Musiqi fənni ilə inteqrasiya.** Şagirdlər musiqi fənnindən öyrəndikləri nəğmələri xatırlayıb müqayisə edirlər. Şagirdlərin diqqətini nəğmələrin məzmununa yönəltmək olar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkil üzrə mətn qurub danışır. | Tap. B (dərslik) |
| Bədii mətndəki hadisələrin ardıcıllığını müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Sətiraltı informasiyanı müəyyənləşdirir. | Tap. Ç, D (dərslik) |
| Obrazın davranışının və keçirdiyi hisslərin səbəbini izah edir. | Tap. E (dərslik) |
| Mətnə əsasən hekayə xəritəsini tamamlayır. | Tap. A (İş dəftəri) |

## fəsil 1 DOSTLUĞUN GÜCÜ

## 1-ci dərs. “Birinci addım” (I,II hissə)

• Dərslik: səh. 8–9 • İş dəftəri: səh. 3

**Təlim məqsədləri**

- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
- Sözün həqiqi və məcazi (törəmə) mənaları arasındakı bağlılığı müəyyən edir (st. 2.1.1).
- Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st. 2.1.1).
- Mətndəki obrazları xarakterizə edir (st.2.2.3).
- Mətnin bitkin hissələrini yarımbaşlıqlarla adlandırır (st. 2.2.3).
- Dinlədiyi fikirlə bağlı mövqeyini şərh edir (st. 1.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Atalar sözünün şərhi. |
| 2 | **Oxu** | “Birinci addım” mətninin ilk iki hissəsinin oxunması. |
| 3 | **Söz ehtiyatı** | Söz boğçası üzrə iş. |
| 4 | **Oxuyub-qavrama** | “Birinci addım” mətnindəki obrazların xarakterizə olunması. |
| 5 | **Dinləmə-danışma** | Debat. |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər verilmiş atalar sözünün mənasını izah edirlər, həyatlarından misallar gətirməklə doğruluğunu sübut etməyə çalışırlar.

### Oxu

**Qruplarla oxu.** Müəllim şagirdləri qruplara ayırır. Hər qrupa mətnin bitkin bir hissəsini oxumağı tapşırır.

**Mətnin bitkin hissələri:** 1. Dostlar məktəbə gələrkən; 2. Tənəffüs vaxtı; 3. Dərs zamanı.

Müəllim qruplara mətnin oxunması üçün zaman verir və tapşırır ki, yeni rastlaşdıqları söz və birləşmələri qeyd etsinlər. Qrup üzvləri mətni səssiz oxuyur və hadisələrin baş verdiyi

məkanı, zamanı müəyyənləşdirirlər. Yeni rastlaşdıqları ifadələrin mənasını mətnin məzmununa əsasən izah edirlər.

Daha sonra qrup üzvlərindən biri oxuduqları bitkin hissənin təqdimatını edir.

## Söz ehtiyatı

Müəllim "Söz boğçası" rubrikasındakı söz və ifadələri səsləndirir, hər qrup oxuduğu bitkin hissəyə aid söz və ya ifadənin işləndiyi cümləni seçib oxuyur və mətnin məzmununa əsasən onların mənalarını izah edir. Bu üsul iş dəftərindəki A tapşırığının yerinə yetirilməsində şagirdlərə kömək edəcək.

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər "Söz boğçası" rubrikasında verilmiş frazeoloji ifadələrin mənalarını müəyyənləşdirirlər.

**Doğru cavab:** 1 – c; 2 – ç; 3 – a; 4 – b.

## Oxuyub-qavrama

2.2.2 **Tapşırıq B (dərslik).** Mətnin bitkin hissələri ardıcıl nəql olunduqdan sonra şagirdlər tapşırıqda qoyulmuş faktoloji sualları cavablandırırlar. Bununla mətndə baş verən hadisələri qavradıqlarını nümayiş etdirirlər.

2.2.3 **Tapşırıq C (dərslik). Cütlərlə iş.** Şagirdlər mətnin hissələrini məzmuna uyğun başlıqlarla adlandırırlar. Müəllim şagirdlərə kömək məqsədi ilə istiqamət verə bilər:

– Bitkin hissələrə ad vermək üçün mətndə zaman və məkan, obrazların davranışını xarakterizə edən açar sözlərdən istifadə edə bilərsiniz.

Məsələn, I yarımbaşlıq: Çalışqan Arif və tənbəl Vaqif; II yarımbaşlıq: Vaqifin məsuliyyətsizliyi; III yarımbaşlıq: Çətin vəziyyət və ya məsuliyyətsizliyin nəticəsi və s.

2.2.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər *səhlənkar, təmkinli, lovğa, çalışqan* və *məsuliyyətli* sözlərinin mənalarını obrazların davranışlarından nümunələr gətirməklə izah edirlər.

**Tapşırıq B (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər mətnin baş qəhrəmanı olan Arifin xarakterini analiz etməklə mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

## Dinləmə-danışma

1.1.2 **Tapşırıq D (dərslik).** Müəllim şagirdlər arasında sadə debat keçirə bilər. Şagirdlər verilmiş fikirlərə münasibət bildirir və mətndəki məlumatlardan çıxış edərək fikirlərini əsaslandırırlar.

Məsələn, "Arif Vaqifə kömək etməməli idi" fikri ilə razılaşan şagirdlər fikirlərini belə əsaslandıra bilərlər:

– *Axı Arif dərsdən öncə dəfələrlə dostuna köməyini təklif etmişdi. O isə köməkdən imtina etmişdi. Həm də Arif dürüst şagird idi. Həmin vaxt dostuna suflyorluq etməklə müəllimin gözündə dostunu da, özünü də hiyləgər və yalançı çıxarmış olardı.*

Müəllim çalışmalıdır ki, şagirdlər bir-birinin fikirlərinə adekvat reaksiya versinlər. Məsələn, müəllim: "*Sən yoldaşının fikri ilə razısan? Doğrudanmı Vaqif Arifdən küsməkdə haqlı idi?*" deyib digər şagirdə müraciət edə bilər.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətn üzrə faktoloji sualları cavablandırır. | Tap. B (dərslik) |
| Mətnin hissələrini adlandırır. | Tap. C (dərslik) |
| Frazeoloji ifadələrin mənasını müəyyənləşdirir. | Tap. A (iş dəftəri) |
| Baş qəhrəmanın obraz xarakterini tamamlayır. | Tap. Ç (dərslik)<br>Tap.B (iş dəftəri) |
| Dinlədiyi fikirlə bağlı mövqeyini şərh edir. | Tap. D(dərslik) |

## 2-ci dərs. "Birinci addım" (III hissə)

• Dərslik: səh. 10-11 • İş dəftəri: səh. 4

**Təlim məqsədləri**

• Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir (st. 2.2.6).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 2.2.5).
• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 2.2.4).
• Hər hansı hadisəni ssenari və ya dialoq şəklində yazılı təqdim edir (st. 3.1.1).
• Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin davamının təxmin edilməsi |
| 2 | **Danışma** | Mətnin davamı ilə bağlı təxminlərin mətnlə müqayisəsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | Mətnin oxusu, söz boğçası üzrə iş. |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş. |
| 5 | **Yazı** | Mətn əsasında ssenarinin və rəyin yazılması. |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Birinci addım" mətninin məzmunu ilə bağlı suallar verməklə mətnin oxunan hissəsini şagirdlərə xatırladır.

### Danışma

2.2.6 **Tapşırıq A (dərslik).** Şagirdlər mətnin son hissəsini oxumazdan əvvəl hekayə qəhrəmanları arasında münasibətlərin necə davam edəcəyi haqqında mülahizə yürüdürlər.

### Oxu. Söz ehtiyatı

**Rollu oxu.** Şagirdlər mətni səssiz oxuyurlar. Müəllim şagirdlərin diqqətini "Söz boğçası" rubrikasına yönəldir. Şagirdlər mətnin məzmunundan çıxış edərək sözlərin mənalarını izah edirlər.

Daha sonra müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Şagirdlər mətni obrazların hiss-həyəcanını nəzərə almaqla oxuyurlar.

Mətn oxunduqdan sonra şagirdlər oxudan əvvəl təxmin etdikləri fikirlərini mətnin məzmunu ilə müqayisə edirlər.

2.1.1 **Tapşırıq B (dərslik).** Tapşırığı yerinə yetirən şagirdlər verilən sözlərin müxtəlif mənalarda işləndiyini müəyyənləşdirirlər.

**Doğru cavab:** "Yüngülləşmək" sözü mətndə məcazi mənada – *sakitləşmək, rahatlanmaq* mənasında işlənmişdir. Tapşırıqda bu söz "b" cümləsində həmin mənada işlənib. "Sözləşmək" sözü isə mətndə və tapşırığın "b" cümləsində *mübahisə etmək, küsüşmək* mənasında işlənib.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C (dərslik).** Mətnlə bağlı faktoloji suallar cavablandırılır.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər Arif və atası arasında gedən söhbətdən çıxış edərək "*Arifin atasının hansı cəhətləri xoşunuza gəldi?*" sualını cavablandırırlar. Məsələn, ata oğluna qarşı diqqətli və həssasdır. O, Vaqifin son zamanlar onlara gəlməməsini və oğlunun narahatlığını görüb Ariflə dostcasına söhbət edir. Oğluna "dostum" deyib ona çətin vəziyyətdən çıxış yolu tapmağa kömək olur.

Sonda şagirdlər öz həyatlarından misallar gətirməklə tapşırıqdakı *"Siz çətin anlarda kimlə məsləhətləşirsiniz?"* sualını cavablandırırlar.

2.2.4 **Tapşırıq D (dərslik).** Mətnin son hissəsində atanın oğluna məsləhətləri mətnin ideyasını təşkil edir. **Doğru cavab:** 1, 3 və 5-ci fikirlər.

2.2.5 **Tapşırıq E (dərslik).** Şagirdlər özlərini baş qəhrəmanın yerində təsəvvür etməklə həmin situasiyada necə davranacaqları barədə düşünürlər. Bununla da şagirdlər müəllif mövqeyinə münasibət bildirmiş olur. Məsələn, şagirdlər belə bir fikir söyləyə bilər:

– Mən müəllif olsaydım, Arifin birinci addım atmasına imkan verməzdim. Yazardım ki, Vaqif Arifin köməyinə ehtiyac yarandığını görür və o, səhvini anlayıb Arifdən üzr istəyir.

### Yazı

3.1.1 **Tapşırıq Ə (dərslik). Qruplarla iş.** Yaradıcı xarakter daşıyan bu tapşırığın dərslikdə verilən cədvəl əsasında reallaşdırılması tövsiyə edilir. Müəllim əvvəlcə suallar verib ssenarinin yazılması ilə bağlı şagirdlərin əvvəlki dərslərdə

əldə etdikləri bilikləri xatırladır.

**Diferensial təlim.** Müəllim IV qrup üzvlərini daha bacarıqlı şagirdlərdən seçir. Çünki "Arifin birinci addımı" epizodu mətndə əks olunmayıb. Şagirdlər bu epizodu məhz təxəyyüllərinə görə yazmalıdırlar.

Qrup üzvləri fikir mübadiləsi apararaq ssenari hazırlayırlar. Sonra yazdıqları ssenarini təqdim edirlər. Ssenaridə məkanın, rolların hərəkətinin və hiss-həyacanının əks olunub-olunmamasına müəllim diqqət yetirir.

Sonra qruplar yazdıqları ssenari əsasında mətni növbə ilə səhnələşdirirlər.

Qruplar müəllimin təqdim etdiyi meyarlar əsasında bir-birilərini qiymətləndirirlər.

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər oxuduqları mətnə rəy yazmaqla oxuyub-qavrama və yazı bacarıqlarını inkişaf etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin davamı ilə bağlı fərziyyə irəli sürür. | Tap. A (dərslik) |
| Mətnin məzmunu ilə bağlı faktoloji sualları cavablandırır. | Tap. B (dərslik) |
| Çoxmənalı sözün mətndəki mənasını müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Mətndəki obrazların davranışlarına münasibət bildirir. | Tap. Ç, E (dərslik) |
| Mətnin ideyasına uyğun fikirləri seçir. | Tap. D (dərslik) |
| Mətnin məzmununa uyğun ssenari yazır. | Tap. Ə (dərslik) |
| Mətn haqqında rəy yazır. | Tap. A ( iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərsdə frazeoloji birləşmələrin mahiyyətini anlatmaq məqsədi ilə bir qədər əyləncəli şəkillərdən istifadə edə bilər. Məsələn, baş sındırmaq (çəkic və baş ), ağzı qıfıllanmaq (ağız və qıfıl), qulaq asmaq (paltar ipi, sancaq və qulaq) və s. frazeoloji birləşmələrini həqiqi mənada düşünüb uyğun rəsmlər çəkmək və ya internetdən əldə etmək olar.

## 3-cü dərs. Frazeoloji birləşmələr

• Dərslik: səh. 12 • İş dəftəri: səh. 5

**Təlim məqsədləri**

• Sözün həqiqi və məcazi (törəmə) mənaları arasındakı bağlılığı müəyyən edir (st. 2.1.2).
• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st. 2.1.2).
• Frazeoloji birləşməni həqiqi mənalı söz birləşməsindən fərqləndirir (st. 2.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sözün məcazi mənasının müəyyənləşdirilməsi. |
| 2 | **Dil qaydaları** | Frazeoloji ifadənin mənasının müəyyənləşdirilməsi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Tapşırıq iki mərhələdən ibarətdir.

I mərhələdə şagirdlər cümlələrdə işlənmiş "ilişmək" sözünün mənalarına uyğun izahları müəyyənləşdirirlər.

**Doğru cavab:** *1– b; 2 – a.*

*II mərhələdə "İlişmək" sözünün məcazi mənada işləndiyi cümləni tapırlar: Vaqif pıçıldadı: "Yaman ilişdim".*

Şagirdlər "Birinci addım" mətninə əsasən Vaqifin çətin vəziyyətə düşməsini yada salıb "ilişmək" sözünün məcazi mənasını şərh edirlər. Müəllimin köməyi ilə bu sözün həqiqi və məcazi mənası arasındakı bağlılığı müqayisə edirlər.

### Dil qaydaları

2.1.2 **"Yadda saxla" rubrikası.** Müəllim şagirdlərin diqqətini rubrikadakı şəklə yönəldir. Şəkildə "ağzına su almaq" söz birləşməsinin mənaları ilə tanış olurlar. Müəllimin köməyi ilə bu qənaətə gəlirlər ki, söz birləşmələri də məcazi məna daşıya bilir. Şagirdlər mətnlərdə belə ifadələrlə tez-tez rastlaşır, onların mənasını mətnin məzmununa əsasən müəyyənləşdirir və söz ehtiyatlarını artırırlar. Bu dərsdə isə həmin ifadələrin "frazeoloji birləşmə" adlandığını öyrənirlər.

**Kollektiv iş.** Müəllim frazeoloji birləşmələrə dair çəkdiyi rəsmləri və ya internetdən əldə etdiyi şəkilləri şagirdlərə nümayiş etdirir və

şagirdlər şəklin məzmununa əsasən söz birləşmələri söyləyirlər. Məsələn, qulaq asmaq. Müəllim soruşur:

– *Qulaq asmaq dinləmək deməkdir. Şəkil bu mənanı əks etdirirmi?*

Şagirdlər bu üsulla frazeoloji birləşmənin mahiyyətini – frazeoloji birləşməni əmələ gətirən sözlərin birlikdə vahid məna ifadə etməsi xüsusiyyətini anlayırlar.

**Tapşırıq B (dərslik). Cütlərlə iş.** Cütlər frazeoloji birləşmələrlə həqiqi mənalı sözləri uyğunlaşdırırlar. **Doğru cavab:** 1 – d; 2 – c; 3 – ç; 4 – a; 5 – e; 6 – b.

**Diferensial təlim.** Müəllim daha bacarıqlı cütlərə frazeoloji birləşmələri cümlələrdə işlətməyi tapşıra bilər.

Sonda cütlərin təqdimatı dinlənilir.

2.1.2 **Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş frazeoloji birləşmələrin mənalarını müəyyənləşdirib bir sözlə ifadə edirlər.

**Düzgün cavab:** *Gözə dəymək – görünmək, özündən çıxmaq – hirslənmək, əldən düşmək – yorulmaq, ürəyi düşmək – qorxmaq.*

**Diferensial təlim.** Frazeoloji birləşmələri bir sözlə ifadə etməkdə çətinlik çəkən şagirdlərə frazeoloji birləşmələri cümlədə işlədib təqdim etmək olar. Məsələn, *Ramiz kitabının yoxa çıxdığını eşidib* ***özündən çıxdı.***

Bu zaman frazeoloji birləşmənin mənası cümlə daxilində aydın olar və həmin birləşmələri bir sözlə ifadə etmək asanlaşar.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər cümlələrin sonunda həqiqi mənalı feilləri uyğun frazeoloji ifadə ilə əvəz etməklə həmin ifadələrin mənalarını anladığını və kontekst daxilində işlətməyi bacardıqlarını nümayiş etdirirlər.

**Doğru cavab:**

1. Ustalar günün sonuna qədər işlərini *başa çatdırdılar.*
2. Müəllim ev tapşırıqlarına *nəzər saldı.*
3. Koroğlunun nərəsindən dağ-daş *lərzəyə gəldi.*
4. Arif kənddəki dostlarını tez- tez *yada salırdı.*

**Müəllimin nəzərinə!** Azərbaycan dili frazeoloji ifadələrlə çox zəngindir. Müəllim özünün və ya şagirdlərin nitqində rast gəlinən belə ifadələri seçib nəzərə çatdırmaqla şagirdlərin söz ehtiyatını zənginləşdirə bilər.

2.1.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərdə frazeoloji birləşmələri həqiqi mənalı söz birləşmələrindən fərqləndirmək bacarığının inkişafına yönəlib. Belə ki, *evə gəlmək, kitab vermək, arabadan düşmək, şəkil çəkmək* söz birləşmələri həqiqi məna bildirdiyi halda, *xoşu gəlmək, söz vermək, taqətdən düşmək, baş çəkmək* ifadələri məcazi məna daşıyan frazeoloji birləşmələrdir.

**Tapşırıq B, C, Ç (iş dəftəri).** Bu tapşırıqlar da frazeoloji ifadələri həqiqi mənada işlənən söz birləşmələrindən fərqləndirmək bacarığının möhkəmləndirilməsinə xidmət edir.

**B tapşırığı üzrə doğru cavab:** ayaq saxlamaq – dayanmaq; baş çəkmək – yanına gedib haləhval tutmaq, yoxlamaq; acığa düşmək – inad etmək, tərslik etmək; canından keçmək – bir şey uğrunda özünü fəda etmək, yolunda ölümə getmək.

**C tapşırığı üzrə doğru cavab:** 1– kefi açılmaq; 2 – gözünün acısını almaq; 3 – qəm dəryasına batmaq; 4 – dilə gəlmək.

**Ç tapşırığı üzrə doğru cavab:**

1. cin atına minmək – hirslənmək;
2. gözünün odunu almaq – qorxutmaq;
3. ağzına su almaq – susmaq;
4. ayaq saxlamaq – dayanmaq;
5. gözünün suyunu axıtmaq – ağlamaq;
6. xəcalət çəkmək – utanmaq.

**Müəllimin nəzərinə!** Tapşırıqlar yerinə yetirildikcə şagirdlərin bilmədikləri frazeoloji birləşmələrin mənalarının aydınlaşdırılması və söz boğçasına əlavə edilməsi tövsiyə olunur.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Frazeoloji birləşmələri həqiqi mənalı söz birləşmələrindən fərqləndirir. | Tap. B (dərslik)<br>Tap. A, B, C (İş dəftəri) |
| Frazeoloji birləşmələri həqiqi mənalı feillə əvəz edir. | Tap. C (dərslik)<br>Tap. Ç (İş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə orfoqrafiya lüğətindən istifadə olunacaq.

## 4-cü dərs. Sözlərin düzgün yazılışı

• Dərslik: səh. 13 • İş dəftəri: səh. 6

**Təlim məqsədləri**

• Sözlərdə samitlərin düzgün yazılış qaydalarına əməl edir (st. 4.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Aşağı siniflərdə mənimsədilmiş orfoqrafiya qaydalarının təkrarı. |
| 2 | **Dil qaydaları** | Sözlərdə samitlərin düzgün yazılış qaydalarının (**y**, yoxsa **yy** və **n**, yoxsa **m**) mənimsədilməsi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq B (dərslik).** Şagirdlər aşağı siniflərdə qazandıqları biliklərdən istifadə etməklə sözlərdə nöqtələrin yerinə uyğun hərf yazırlar. Müəllim dilimizdə yazılışı diqqət tələb edən başqa sözlərin də olduğunu qeyd edib şagirdlərin diqqətini “Bunları bilməliyik” rubrikasına yönəldir.

### Dil qaydaları

4.1.2 **“Bunları bilməliyik” rubrikası.** Şagirdlər rubrikadakı məlumatı nəzərdən keçirirlər.

**Tapşırıq B (dərslik).** Şagirdlər fərqləndirilmiş sözlərdəki səhvləri lüğətin köməyi ilə müəyyənləşdirirlər və həmin sözləri düzgün şəkildə yazaraq cümlələri köçürürlər.

**Doğru cavab:** *xeyriyyəçi, şəxsiyyət, təxəyyül, ehtiyac, qabiliyyət.*

**“Bunları bilməliyik” rubrikası.** Bəzi sözlərin yazılışı orfoqrafik cəhətdən diqqət tələb edir. Belə sözlərdən bir qismi də söz ortasında əksər hallarda [m] kimi tələffüz olunan [n] samitinin yazılışıdır. Bu dərsdə şagirdlər belə sözlərlə tanış olacaq, dərslik və iş dəftərindəki tapşırıqları yerinə yetirməklə orfoqrafik cəhətdən düzgün yazı vərdişlərini inkişaf etdirəcəklər.

**Tapşırıq C, Ç (dərslik).** Tapşırıqların yerinə yetirilməsi zamanı lüğətdən istifadə olunması vacibdir. Bu, şagirdlərin lüğətlə işləmək, həmçinin düzgün yazı vərdişlərinin inkişafına kömək edir.

**C tapşırığı üzrə doğru cavab:** çərşənbə, tənbəl, bomba, hambal

**Ç tapşırığı üzrə doğru cavab:** 3-cü sütundakı sözlər səhv yazılmışdır.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər lüğət vasitəsilə səhv yazılmış sözləri müəyyənləşdirir və düzgün şəkildə yenidən yazırlar: *nəqliyyat, ədəbiyyat, təyyarə, sünbül, tramvay, çərşənbə.*

**Tapşırıq B (iş dəftəri).** Bir qədər fərqli xarakter daşıyır. Şagirdlər bu tapşırıqda həm də verilmiş izaha görə sözü müəyyənləşdirmək bacarığını nümayiş etdirməlidirlər.

• Həftənin altıncı günü – şənbə;

• Taxıl, ərzaq və s. saxlamaq üçün xüsusi tikili – anbar;

• Taxıl, pambıq və s. yığan maşın – kombayn;

• İşıq verən elektrik cihazı – lampa.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıqda düzgün yazılışı tələb olunan sözlər bunlardır: *1 – pambıq; 2 – kombinat; 3 – zənbil; 4 – mənbə; 5 – qumbara; 6 – emblem.*

**Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər sözləri aşağıdakı kimi qruplaşdırmalıdırlar:

**Y ilə yazılan sözlər:** haşiyə, saniyə, məyus, riayət, olimpiya, ehtiyat;

**yy ilə yazılan sözlər:** hədiyyə, ünsiyyət, riyaziyyat, cəmiyyət.

**Müəllimin nəzərinə!** Dərsdə şagirdlərin rastlaşdıqları yeni sözlərin mənaları aydınlaşdırılmalı və söz boğçasına əlavə edilməlidir. Sərbəst dərslərdə həm söz ehtiyatı, həmçinin də orfoqrafik biliklərin möhkəmləndirilməsi istiqamətində işin aparılması tövsiyə olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bir “y” və qoşa “yy” ilə yazılan sözləri fərqləndirir. | Tap. B, Ç (dərslik)<br>Tap. A, Ç (iş dəftəri) |
| Söz ortasında səslənən [m] samitinin bəzən “m”, bəzən də “n” kimi yazıldığı sözləri fərqləndirir. | Tap. C (dərslik)<br>Tap. B, C (iş dəftəri) |

fəsil 2 ÖZÜNƏ İNAN

## 1-ci dərs. "Xoşbəxtlik nədir"

• Dərslik: səh. 14–16 • İş dəftəri: səh. 7

**Təlim məqsədləri**

• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
• Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st 2.1.1).
• Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.2).
• Epizodların mətndəki ardıcıllığını müəyyən edir (st. 2.2.2).
• Tanış olduğu məlumatları yazıda əks etdirir (st. 3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzu ilə bağlı mətnlərin xatırlanması |
| 2 | **Oxu. Söz ehtiyatı** | Mətnin oxunması, yeni sözlərin mənimsədilməsi |
| 3 | **Oxuyub-qavrama** | Mətn üzrə iş |
| 4 | **Yazı** | Epizodların yazıda təsviri |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** "Özünə inan" fəslinin mövzusuna diqqət yönəltmək üçün şagirdlərin aşağı siniflərdə keçdikləri mətnlər xatırladılır. Şagirdlər "Uğurun sirri" (2-ci sinif) və "Yeni dostlar" (3-cü sinif) mətnlərinin qəhrəmanlarının ortaq cəhətini müəyyənləşdirirlər. Onların həyatda uğur qazanmalarının səbəbini xarakterlərindəki əzmkarlıqla, özünə inam hissinin güclü olması ilə izah edirlər.

### Oxu. Söz ehtiyatı

2.2.2 Müəllim mətnin oxunmasına maraq oyatmaq üçün şagirdlərə onun məzmununu təxmin etməyi tapşırır. Şagirdlər xatırladıqları mətnlərin ideyasından və "Xoşbəxtlik nədir" mətninə çəkilmiş illüstrasiyalardan çıxış edərək onun məzmununu təxmin edirlər. Mətn şagirdlər tərəfindən müəyyən vaxt ərzində səssiz oxunur.

**Tapşırıq B (dərslik).** Tapşırıqdakı faktoloji suallar cavablandırılır.

2.1.1 **Tapşırıq C (dərslik).** Şagirdlər əvvəlcə "Söz boğçası"nda verilmiş sözlərin mənasını mətndən çıxış edərək izah edirlər, sonra tapşırıqda verilmiş cümlələrdə onlara yaxınmənalı sözləri müəyyənləşdirirlər: heyət – tərkib, gərgin – çətin, nigaran – narahat, intizarla – həsrətlə.

2.1.2 **Tapşırıq Ç (dərslik).** Mətndə "xal" sözü "İdman yarışlarında və oyunlarda qiymət qoyarkən hesablama vahidi" mənasında, "düymə" sözü isə müxtəlif mexanizmləri işə salmaq üçün nəzərdə tutulan düyməcik mənasında işlənmişdir. Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur və "xal" "düymə" sözlərinin məhz həmin mənada işləndiyi cümlələri müəyyənləşdirirlər.

**Düzgün cavab:** 1. **"**xal" sözü "b"; 2. düymə sözü "a".

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnin məzmununu necə qavradıqlarını nümayiş etdirirlər. **Düzgün ardıcıllıq: 5, 3, 4, 2, 1.**

### Yazı

3.1.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər aşağıdakı epizodları öz sözləri ilə təsvir edirlər.

1. Raminin komanda heyətinə seçilməsi;
2. Raminin komandanın kapitanı seçilməsi;
3. Qalibiyyət

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnlə bağlı faktoloji sualları cavablandırır. | Tap. B (dərslik) |
| Yaxınmənalı sözləri müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir. | Tap. Ç (dərslik) |
| Epizodların mətndəki ardıcıllığını müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətnin illüstrasiyalara uyğun epizodlarını yazır. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** A tapşırığının (dərslik, səh. 17) yerinə yetirilməsi zamanı əyaniliyi təmin etmək üçün "Xoşbəxtlik nədir?" mətninin son hissəsində olduğu kimi üç qutu hazırlamaq tövsiyə olunur.

## **2-ci dərs.** Mətn üzərində iş

• Dərslik: səh. 17 • İş dəftəri: səh. 8

**Təlim məqsədləri**

• Mətndəki obrazları xarakterizə edir (st. 2.2.3).
• Bədii mətndə hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.2).
• Mətni götürdüyü qeydlər əsasında nəql edir (st. 1.2.2).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 2.2.3).
• Araşdırdığı məlumatlar və tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur (st. 1.2.1).
• Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir (st. 3.1.2).
• Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st. 3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Xoşbəxtlik nədir? mətninin xatırlanması. |
| 2 | **Oxuyub-qavrama** | Mətnin tərkib hissələrinin adlandırılması və planın tərtib edilməsi. Obrazın keçirdiyi hisslərin səbəbinin müəyyən olunması. |
| 3 | **Dinləmə-danışma** | Dinlənilən mətnin qeydlər və şəkillər əsasında nəql edilməsi. Müsahibə üzrə təqdimat. |
| 4 | **Yazı** | Əsərin qəhrəmanına məktub yazılması. Dinlənilən mətnin qısa məzmununun yazılması. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim üç rəngdə qutunu masanın üzərinə yerləşdirir, mətndə Raminə verilən sualı səsləndirir. Şagirdlər Raminin cavabını xatırlayıb bu cavabın doğruluğunu əsaslandırırlar.

**Düzgün cavab:** Oyunun şərtinə görə qutudakı şar qutunun rəngində ola bilməz. Deməli, yarı qırmızı, yarı göy rəngli qutuda yalnız yaşıl şar ola bilər. Qırmızı qutuda göy, yaşıl qutuda isə qırmızı şar olacaq.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Cavab təxminən belə ola bilər: Dərslikdəki illüstrasiyadan məlum olur ki, Ramin fiziki baxımdan tam sağlam deyil. Adətən, belə uşaqlarda özünə inamsızlıq daha çox olur. Ramin boynuna düşən məsuliyyətin nə qədər böyük olduğunu başa düşür. O, müəlliminin, dostlarının etimadını doğrultmağa var gücü ilə çalışır və istəyinə nail olur. Buna görə də özünü xoşbəxt hiss edir.

2.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər tapşırığın tələbinə uyğun olaraq mətnin hissələrinə başlıq verib plan tərtib edirlər. Məsələn, 1-ci hissə: Bilik yarışması; 2-ci hissə: Çətin vəzifə, 3-cü hissə: Həlledici xal.

**Plan:** 1-ci hissə: 1) Divardakı elan, 2) Bilik yarışmasına hazırlıq, 3) Raminin komanda heyətinin üzvü seçilməsi. 2-ci hissə: 1) Komandanın kapitanının xəstələnməsi, 2) Komandaya rəhbərliyin Raminə tapşırılması. 3-cü hissə: 1) Gərgin mübarizə, 2) Rəngli qutular və toplar, 3) Raminin düzgün cavabı, 4) Xoşbəxt Ramin.

**Müəllimin nəzərinə!** Şagirdlər planı suallar şəklində də tərtib edə bilərlər.

### Dinləmə-danışma

1.2.2 **Tapşırıq Ç (dərslik).** Müəllim mətni səsləndirməzdən öncə şagirdlərin diqqətini illüstrasiyalara yönəldir və tapşırır ki, "Məşhur riyaziyyatçı" mətninin məzmununu təxmin etsinlər. Şagirdlər təxminlərini söylədikdən sonra müəllim mətni səsləndirir, şagirdlər mətni dinlədikcə qeyd götürürlər.

**"Məşhur riyaziyyatçı"**

*Professor Lev Semyonoviç Pontryagin məşhur alimdir. O öz xatirələrində dostlarını minnətdarlıq hissi ilə xatırlayır.*

*Hələ məktəbdə oxuyarkən Lev riyaziyyata xüsusi maraq göstərirdi. Sinif yoldaşları çətinlik çəkəndə onları maraqlandıran sualları həvəslə izah edər, köməyini əsirgəməzdi.*

*13 yaşı olanda Lev qəza keçirir. Qaz partlayışından gözləri ağır zədə alır. Həkimlər onun gözlərini əməliyyat edirlər. Lakin nəticə uğursuz olur. Lev görmə qabiliyyətini tamamilə itirir. O artıq məktəbə getmir. Anası bütün həyatını oğluna həsr edir. Saatlarla ona kitablar oxuyur. Alman və fransız dillərini mükəmməl şəkildə öyrənir ki, oğluna da öyrətsin. O, oğlunu ruhdan düşməyə qoymur.*

*Levin məktəbə gəlmədiyini görən yoldaşları sinif rəhbərinin köməyi ilə iş qrafiki qururlar. Onlar hər gün növbə ilə Levi məktəbə aparırlar. Dərslərdə yanında oturub yazıb – oxumasına kömək edirlər. Dərsdən sonra evə qaytarırlar. Beləcə, dostları Levin məktəbdən, sevdiyi riyaziyyat fənnindən kənarda qalmasına, imkan vermirlər.*

*Anasının və dostlarının sayəsində Lev məktəbi qızıl medalla bitirir. O, universitetə daxil olur. Lev 27 yaşı olanda professor adını qazanır.*

*Lev heç vaxt əlillər üçün yaradılmış avadanlıqlardan istifadə etmir. O, xizək sürməyi, qayıqla səyahət etməyi öyrənir.*

*Dostları da Levi həmişə məmnunluqla yad edirlər. Çünki Lev dostlarının zəhmətini dəyərləndirdi, yorulmadı, həyatdan küsmədi. Əzmkarlığı və iradəsi sayəsində elm aləminin tanınmış simalarından biri oldu.*

*Bu gün dünyaca məşhur riyaziyyatçı alim Lev Semyonoviç Pontryagin bir çox insanlara nümunədir.*

Müəllim faktoloji suallar verməklə şagirdlərin mətni diqqətlə dinlədiklərini yoxlayır. Şagirdlər götürdükləri qeyd və dərslikdəki şəkillər əsasında dinlədikləri mətni nəql edirlər.

**Müəllimin nəzərinə!** Dinləmə mətnini nəql etməzdən öncə D tapşırığının yerinə yetirilməsi tövsiyə olunur.

**Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin dinləmə mətnini necə qavradıqlarını yoxlamağa yönəlmişdir. Dinləmə zamanı götürdükləri qeydlər şagirdlərə tapşırıqdakı fikirləri əsaslandırmağa imkan verəcək.

2.2.3 **Tapşırıq E (dərslik).** Şagirdlər dərslikdəki mətnin bədii, dinləmə mətninin informativ olduğunu müəyyənləşdirdikdən sonra onları məzmun və ideyasına görə müqayisə edirlər. Hər iki mətndə söhbətin sağlamlıq imkanları məhdud olan uşaqların həyatından getdiyini söyləyirlər. Mətnləri birləşdirən ideyanı müəyyənləşdirirlər:

– Hər bir insanın həyatda uğur qazana bilməsi ilk növbədə onun özünə inamı və iradəsindən asılıdır.

1.2.1 **Tapşırıq Ə (dərslik). Qruplarla iş.** Hər qrupa bir obraza aid müsahibə mətni hazırlamaq tapşırılır. Şagirdlər mətnlərdə verilən məlumatlardan istifadə edərək suallar tərtib edirlər və müsahibin adından onları cavablandırırlar. Sonda hər qrupdan iki üzv seçilir və hazırlanan müsahibə mətni rollu oyun şəklində oxunur.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin yazılı nitqinin inkişaf etdirilməsinə yönəlmişdir. Nahid məktubunda komandaya bacarıqla rəhbərlik etdiyinə, məktəbin adını ucaltdığına görə Raminə təşəkkürünü bildirə və onu bu böyük uğura görə təbrik edə bilər.

3.1.1 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin yazılı nitqinin inkişafına yönəldilmişdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Baş qəhrəmanın keçirdiyi hisslərin səbəbini müəyyən edir. | Tap. B (dərslik) |
| Dinlədiyi mətni nəql edir. | Tap. Ç (dərslik) |
| Oxuduğu və dinlədiyi mətnləri müqayisə edir. | Tap. E (dərslik) |
| Müsahibə hazırlayıb təqdim edir. | Tap. Ə (dərslik) |
| Obrazın dilindən baş qəhrəmana məktub yazır. | Tap A (iş dəftəri) |
| Dinlədiyi mətnin qısa məzmununu yazır. | Tap B (iş dəftəri) |

## **3-cü dərs.** Elanın yazılması

• Dərslik: səh. 18 • İş dəftəri: səh. 9

**Təlim məqsədləri**

• Məqsədə uyğun olaraq sadə praqmatik mətn (elan) yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Xoşbəxtlik nədir" mətnində elanla bağlı epizodun xatırlanması. |
| 2 | **Yazı** | Müxtəlif mövzular üzrə elanların yazılması. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim "Xoşbəxtlik nədir" mətninin əvvəlini xatırladaraq şagirdlərdən Raminin bilik yarışması haqqında xəbəri haradan öyrəndiyini soruşur.

### Yazı

3.1.2 **"Faydalı məsləhət" rubrikası.** Müəllim şagirdlərin diqqətini rubrikada elan haqqında verilmiş məlumata yönəldir. Şagirdlər elanın tərtibi üzrə tövsiyələri oxuyurlar.

**Tapşırıq B (dərslik).** Şagirdlər əvvəlcə tapşırıqda verilmiş elan nümunəsi ilə tanış olurlar. Daha sonra tapşırığın şərtində verilmiş məlumatlardan istifadə edərərk elan hazırlayırlar.

**Tapşırıq A (iş dəftəri).** Tapşırığın şərtində verilmiş məlumatlardan istifadə edərək elan yazırlar.

**Tapşırıq C (dərslik). Qruplarla iş.** Şagirdlər mövzular üzrə elan hazırlayıb təqdim edirlər.

**Müəllimin nəzərinə!** Elana mövzuya uyğun tərtibat vermək üçün hər qrupda rəssamlıq qabiliyyəti olan şagirdin olması tövsiyə olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təlimata uyğun elan hazırlayır. | Tap. B, C (dərslik)<br>Tap. A (iş dəftəri) |

## 4-cü dərs. Qoşa samitlə bitən təkhecalı sözlər

• Dərslik: səh. 19 • İş dəftəri: səh. 10

**Təlim məqsədləri**

• Sözlərdə samitlərin düzgün yazılış qaydalarına əməl edir (st. 4.1.2).
• Başqasının yazısını dil qaydalarına uyğun təkmilləşdirir (st. 3.1.4).
• Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir (st. 2.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Nümunə üzrə müzakirə. |
| 2 | **Dil qaydaları** | Eyni və müxtəlif qoşa samitlə bitən təkhecalı sözlərin düzgün yazılış qaydalarının mənimsədilməsi. |
| 3 | **Yazı** | Səhv yazılmış sözlərin dil qaydasına əsasən düzgün yazılması. |
| 4 | **Söz ehtiyatı** | Bir hərfə görə fərqlənən sözlərin mənalarının müəyyənləşdirilməsi. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər cümlələri oxuyub xətt sözünün fərqli yazılışına diqqət yetirirlər. Yazılışdakı fərqi izah etməyə çalışırlar.

### Dil qaydaları

4.1.2 **"Bunları bilməliyik" rubrikası.** Müəllim Eyni qoşasamitlə bitən təkhecalı sözlərin yazılışı ilə bağlı qaydanı izah edir.

**Tapşırıq B (dərslik).** Şagirdlər öyrəndikləri qaydanı tətbiq edərək "sirr" və "hədd" sözlərini cümlələrdə düzgün yazırlar.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq eyni qoşa samitlə bitən təkhecalı sözlərin yazılış qaydasının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər *haqq, hədd, sirr, həll, xətt, fənn* kimi sözlərə samitlə başlanan şəkilçi artırıldıqda qoşa samitlərdən birinin düşməsi qaydasını mənimsədiklərini nümayiş etdirirlər.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər müxtəlif qoşa samitlə bitən təkhecalı sözlərin yazılışı haqqında rubrikada verilən qayda və nümunəni nəzərdən keçirirlər.

### Yazı

3.1.4 **Tapşırıq C (dərslik).** Şagirdlər aldıqları məlumata əsaslanaraq tələffüz formasında verilmiş sözləri (*zülm, qəsr, hökmdar, əmr, sehrli, mətn, həsr*) düzgün yazmaqla cümlələri köçürürlər.

**Müəllimin nəzərinə!** Şagirdlərdən cümlələrin məzmunundan çıxış etməklə fərqləndirilmiş sözlərin təxmini mənalarını soruşmaq tövsiyə olunur.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər müxtəlif qoşa samitlə bitən təkhecalı sözlərin yazılış qaydası üzrə biliklərini nümayiş etdirirlər.

**Doğru cavab:**
1. rəsm; 2. hökm; 3. dövr; 4. film.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər lüğətdən istifadə etməklə oxşar səslənən, lakin mənasına görə fərqlənən sözləri izah edirlər:

***həsr** – yalnız bir şeyə, bir işə sərf etmə; **həsir** – yerə sərmək məqsədi ilə küləşdən, qamışdan və s.-dən toxunan məmulat*

***əmr** – Bir işin görülməsi üçün verilən hökm, göstəriş; **əmir** – orta əsrlərdə hökmdar və sərkərdələrə verilən ad;*

***mətn** – cümlələrdən təşkil olunmuş, müəyyən məzmuna malik yazı; **mətin** – dözümlü, etibarlı, sarsılmaz.*

***xeyr** – bir şeylə razı olmadıqda verilən mənfi cavab; **xeyir** – fayda, qazanc.*

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər oxşar səslənən, lakin mənasına görə fərqlənən sözləri cümlələrdə işlətməklə söz ehtiyatını zənginləşdirirlər və cümlə qurmaq bacarıqlarını inkişaf etdirirlər.

**Müəllimin nəzərinə!** Dərslik və iş dəftərində rast gəlinən sözləri söz boğçasına əlavə etmək və sərbəst dərslərdə bu istiqamətdə fəaliyyət qurmaq tövsiyə olunur. Bu, şagirdlərin həm söz ehtiyatının artırılmasına, həm də savadlı yazı bacarıqlarının inkişafına kömək edər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Eyni qoşa samitlə bitən təkhecalı sözlərin yazılış qaydasına əməl edir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Müxtəlif qoşa samitlə bitən təkhecalı sözlərin yazılış qaydasına əməl edir. | Tap. C, Ç (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Oxşar səslənən, lakin mənasına görə fərqlənən sözlərə aid cümlə qurub yazır. | Tap. C (iş dəftəri) |

## fəsil 3 ÜNSİYYƏT

## 1-ci dərs. Təmsil. Tənha Qu quşu

• Dərslik: səh. 20–22 • İş dəftəri: səh. 11

### Təlim məqsədləri

- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
- Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 1.2.2).
- Danışarkən dil normalarına uyğun sintaktik konstruksiyalardan istifadə edir (st. 1.2.3).
- Şifahi nitqində fikirlərin məntiqi ardıcıllığına riayət edir (st. 1.2.3).
- Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 2.2.4).
- Qeyd götürməklə dinləyir (st.1.1.1).
- Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st. 3.1.2).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Təmsil janrını səciyyələndirən xüsusiyyətlərin müəyyənləşdirilməsi. |
| 2 | **Danışma** | Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışma. |
| 3 | **Oxuyub-qavrama** | Obrazların xatakterizə edilməsi, ideyanın müəyyənləşdirilməsi. |
| 4 | **Dinləmə** | Dinlənilən mətnin nəqli, plan üzrə məzmunun yazılması. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə (Danışma)

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər 3-cü sinifdə təmsil janrının xüsusiyyətləri ilə tanış olublar. Bilirlər ki, təmsilin əsas obrazları heyvanlar və cansız varlıqlar olur. Bu obrazlar insana aid xüsusiyyətləri daşıyır. Müəllif təmsil vasitəsilə oxuculara ibrətamiz fikirlər çatdırır. Təmsil şeir və ya nağıl formasında yazılır.

Daha sonra şagirdlər aşağı siniflərdə keçdikləri və ya özləri mütaliə etdikləri təmsilləri xatırlayırlar. (Məsələn, “Tülkü və Qarğa”, “Sığırçın və Göyərçin”, “Siçan və Dələ”, “Ağıllı Qarışqa”, “Ayı və Şir”, “Sincab və Balıq” “Bir dəstə

göyərçin" və s.) Yaxşı olar ki, onlar bu təmsillərin aşıladığı ibrətamiz fikirləri də söyləsinlər. Məsələn, "Bir dəstə Göyərçin" nağılının ideyasını "Güc birlikdədir" atalar sözü ilə ifadə etsinlər.

**Tapşırıq B (dərslik).** Şagirdlər 2-ci sinifdə oxuduqları "Qanqal" mətnini xatırlayırlar. Həmin hekayədə Qanqal gözəl olmadığına, insanların onu dərmədiyinə görə kədərlənir. Amma həkim onun insanların sağlamlığı üçün çox xeyri olduğunu deyəndə sevinir. Şagirdlər müəllifin baş qəhrəman kimi qanqalı seçməsini də məhz bununla izah edə bilərlər. Qanqal zahirən o qədər də gözəl olmasa da, çox faydalı bitkidir. Mətnin ideyası "A" variantında ifadə olunub: *Daxili keyfiyyətlər zahiri görünüşdən daha vacibdir.*

**Tapşırıq C (dərslik).** Şagirdlər, çox güman ki, tülkünün adını çəkəcəklər, çünki nağıllarda, təmsillərdə tülkü həmişə hiyləgərliyi ilə seçilir. Şagirdlər seçimlərini əsaslandırmaq üçün oxuduqları nağıl və təmsillərdən nümunələr gətirə bilərlər.

**Müəllimin nəzərinə!** Bu dərsdə əsas məqsəd şagirdlərin diqqətini təmsillərdə heyvan, quş obrazlarının təsadüfi seçilmədiyinə yönəltməkdir. Müəllim bu məqamı açıqlamaq üçün əlavə suallar da verə bilər: *Əgər kobudluq (yal-taqlıq, müdriklik, hökmranlıq) haqqında təmsil yazsaydınız, hansı heyvan obrazını baş qəhrəman seçərdiniz?*

## Vizual oxu və danışma

1.2.2 **Tapşırıq Ç (dərslik).** Təqdim olunan məlumat vərəqlərində qu quşu və çöl qazı haqqında həm verbal, həm də qrafik informasiya verilmişdir. Məlumat vərəqlərində istifadə olunmuş simvolik işarələrin mənaları açıqlanır. Şagirdlər hər iki quşa aid məlumatları müqayisə edərək bu quşların fərqli xüsusiyyətlərini müəyyənləşdirirlər. Tapşırıq verbal-qrafik informasiyanı mənimsəmə və müqayisəetmə bacarığının inkişafına yönəlmişdir.

**Tapşırıq D (dərslik).** Tapşırığın yerinə yetirilməsi üçün şagirdlərə xeyli material təqdim olunmuşdur: şəkillər, plan, əsərin mövzusu, ideyası, hekayə qəhrəmanlarının özəl xüsusiyyətləri. Bütün bunlar şagirdlərə təmsil janrının tələblərinə uyğun kiçik mətn qurmağa imkan verir. Mətn təxminən belə ola bilər:

*Bir gölün sahilində Çöl qazları yaşayırdı. Bir dəfə onlar göldə tək üzən çox gözəl Qu quşuna rast gəldilər. Onlar Qu quşunun gözəlliyinə heyran oldular. Ona dost olmağı təklif etdilər. Lakin gözəlliyi ilə lovğalanan Qu quşu qazları özünə yaraşdırmadı, onlarla dost olmaq istəmədi.*

*Günlər, aylar keçdi, qış gəldi. Göldə tənha yaşayan Qu quşu soyuqdan donmağa başladı. Çöl qazları onun köməyinə gəldilər, əhatəyə alıb qızındırdılar. Qu quşu etdiyi hərəkətdən peşman oldu. Bundan sonra qazlarla dost oldu.*

**Ç və D tapşırıqlarının** icrası zamanı müəllim rabitəli mətnin strukturu, cümlələrin sintaktik normalara uyğunluğu və fikirlərin dolğun ifadə olunması ilə bağlı qeydlərini bildirir.

1.2.3 **Ç tapşırığı.** Müəllim şagirdlərin diqqətini bu cür müqayisəli şərhlərdə istifadə olunan bəzi standart ifadələrə yönəldir:

- Çöl qazı ilə qu quşunu ***müqayisə etsək, görərik ki***, ...
- ***Gəlin əvvəlcə*** oxşar xüsusiyyətlərə ***diqqət yetirək ...***
- ***O ki qaldı*** fərqli xüsusiyyətlərə ...
- ***Belə məlum olur ki***, çöl qazı daha balaca quşdur.

**D tapşırığı.** Şagirdlər verilmiş plan əsasında mətn qurarkən müəllim onların diqqətini iki məqama cəlb edir:

1. Mətnin giriş, əsas və sonluq hissələri olmalıdır.
2. Şagirdlər mətnə obrazlar arasındakı dialoqları əlavə etməlidirlər.

2.2.4 **Tapşırıq E (dərslik).** Düzgün cavablar təxminən belə ola bilər:

1. ... insanları özündən uzaqlaşdırmayasan.
2. ... insanın daxili xüsusiyyətlərinin gözəl olması daha vacibdir.
3. ... dostlar hər zaman sənə dayaq olar.

## Dinləmə

1.1.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin dinləmə bacarığının inkişafına yönəlmişdir. Şagirdlər mətni qeydlər götürməklə dinləyirlər. Sonra mətndəki obrazların xüsusiyyətlərini cədvəlin uyğun xanasında qeyd edirlər.

**Dinləmə mətni:**

**"İpəkqurdu və Hörümçək"**

*Zəhmətkeş İpəkqurdu tut yarpağının üstündə özünə məskən salmışdı. O, həvaslə barama sarıyırdı. Hörümçək isə ona tamaşa edirdi. O artıq bir küncdə torunu qurmuşdu.*

*Hörümçək İpəkqurduna baxıb güldü:*

*– Qonşu, çox yavaş işləyirsən. Mən isə işimi çoxdan bitirmişəm. Gör nə qəşəmg tor hörmüşəm.*

*İpəkqurdu dedi:*

*– Doğrudur, sən cəld işləyirsən. Hördüyün tor da çox qəşəngdir, amma ondan heç kəsə fayda yoxdur. Sənin torunu süpürüb atacaqlar. Mənim baramamdan isə ipək parça toxuyub paltar tikəcəklər.*

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin dinləmə bacarığının yoxlanılması ilə bərabər yazı bacarığının (ifadə) inkişaf etdirilməsinə yönəlmişdir. Bu zaman dialoqlarda durğu işarələrindən düzgün istifadəyə xüsusi diqqət yetirilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A, B, C (dərslik) |
| Verbal və qrafik materialları müqayisə etməklə danışır. | Tap. Ç, D (dərslik) |
| Şifahi nitqində uyğun sintaktik konstruksiyalardan və ifadələrdən istifadə edir | Tap. D (dərslik) |
| Şifahi nitqində fikirlərin məntiqi ardıcıllığına riayət edir. | Tap. D (dərslik) |
| Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir | Tap. E (dərslik) |
| Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. B (İş dəftəri) |

## 2-ci dərs. Gicitkən

• Dərslik: səh. 22-23 • İş dəftəri: səh. 12

**Təlim məqsədləri**

• İnformativ mətndəki əsas faktları müəyyən edir ( st. 2.2.2).
• Mətndəki obrazları xarakterizə edir (st. 2.2.3).
• Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.2).
• Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 2.2.4).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 2.2.3).
• Fakt, hadisə və fikirləri mətnin abzas və hissələri üzrə strukturlaşdırır (st. 3.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Varlığın informativ mətndə verilən xüsusiyyətlərinin müəyyənləşdirilməsi |
| 2 | **Danışma** | Əsərin baş qəhrəmanının səciyyələndirilməsi |
| 3 | **Oxu** | “Gicitkən” təmsilinin oxusu |
| 4 | **Söz ehtiyatı** | “Söz boğçası” rubrikası üzrə iş |
| 5 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 6 | **Yazı** | Şeirin nəsrlə yazılması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim keçən dərsdə şagirdlərin mənimsədikləri bilik və bacarıqları xatırladır:

*– Təmsil üçün heyvan obrazları seçilərkən həmin canlıların xüsusiyyətləri nəzərə alınır. Təmsil yalnız heyvanlar haqqında olmur; bitkilər və cansız əşyalar haqqında da təmsillər var. Bu təmsillərdə də bitkilərin təbiətdəki xüsusiyyətləri öz əksini tapır. Məsələn, “İki Gül” təmsilində güllərin zərifliyi, “Qanqal” təmsilində bu bitkinin gözəl olmasa da, faydası əks olunur.*

### Oxuyub-qavrama. Söz ehtiyatı

Bu dərsdə şagirdlər üç mətnlə tanış olurlar:

1. Hamını dalayan dərman bitkisi (dərslik)
2. Gicitkən (dərslik)
3. Kobudluğun sonu (iş dəftəri)

Dərsin sonunda bu mətnlərin növ, mövzu, məzmun, ideya baxımından müqayisəsi aparılmalıdır.

2.2.2 **Tapşırıq A (dərslik).** Şagirdlər "Hamını dalayan dərman bitkisi" informativ mətnini oxuyurlar. Gicitkən bitkisi haqqında verilən məlumatlardan onun ölçüsü, xarici görkəmi, dərman bitkisi olması, toxunarkən dəriyə təsiri kimi xüsusiyyətlərini müəyyənləşdirirlər.

**Tapşırıq B (dərslik).** Gicitkənin xüsusiyyətləri arasında şagirdlər, çox güman ki, onun dəriyə etdiyi təsiri seçəcəklər. Yazacaqları təmsildə bu xüsusiyyəti onun mənfi cəhəti kimi verəcəklərini bildirəcəklər. Şagirdlər bu bitkini 2-ci sinifdə tanış olduqları və bu fəsildə xatırlanan "Qanqal" mətninin qəhrəmanı ilə müqayisə edə bilərlər. Qanqal xarici görkəmi ilə, gicitkən isə dərini göynədib incitdiyinə görə insanları özündən uzaqlaşdırır.

2.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər "Gicitkən" şeirini oxuyurlar, məzmunu ilə öz fikirlərini tutuşdururlar. Müəllim əlavə tapşırıq kimi təmsilin ideyasını müəyyənləşdirməyi təklif edə bilər. Təxminən belə bir fikir səslənə bilər: *Pislik edən adam çətin gündə tək qalar.*

**Tapşırıq Ç (dərslik).** Tapşırıqdakı faktoloji sualları cavablandırmaqla şagirdlər təmsilin məzmununu nə dərəcədə qavradıqlarını nümayiş etdirirlər.

2.1.2 **Tapşırıq D (dərslik).** "Dalamaq" və "büzüşmək" sözləri "A" variantında, "alışmaq" sözü "B" variantında olan cümlələrdə mətndəki mənasında işlənmişdir.

2.2.3 **Tapşırıq E (dərslik).** Təmsildə Gicitkən heç kəsə xeyir vermək istəməyən, ona yaxınlaşanları dalayaraq özündən uzaqlaşdıran, üstəlik, başqalarını incitməkdən həzz alıb gülən bitki kimi təqdim olunub. Şagirdlər onun bu xüsusiyyətlərini xarakterindəki eqoizm və qəddarlıqla izah edə bilərlər.

2.2.4 **Tapşırıq Ə (dərslik).** Düzgün cavab: "C" variantı. Gicitkən çoxlarını dalayıb incitdiyinə görə dar günündə onun köməyinə gələn olmadı.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Mətn oxunduqdan sonra müəllim onu başqa adla adlandırmaq üçün atalar sözləri təklif edə bilər:

A. Nə əkərsən, onu da biçərsən
B. Gəmiyə minib gəmiçi ilə dalaşma.
C. Nə tökərsən aşına, o da çıxar qaşığına
Ç. Cücəni payızda sayarlar.
(Cavab: "A" və "C" variantları)

**Tapşırıq B (iş dəftəri).** Mətnlərin növü müxtəlifdir: "Gicitkən" təmsil, iş dəftərindəki mətn hekayədir.

Mətnlər mövzu baxımından yaxındır: "Gicitkən" təmsili Gicitkənin ətrafdakıları dalaması, sonda kömək istəyəndə heç kimin ona yaxın gəlməməsi haqqındadır. "Kobudluğun sonu" mətnində isə Vasif adlı kobud oğlan haqqında danışılır; kobud davranışları nəticəsində heç kim onunla ünsiyyətdə olmaq istəmir.

İdeya isə ortaqdır: İnsan ətrafındakılarla necə davranırsa, özünə qarşı da eyni mü-nasibət görür.

Daha sonra müəllim şagirdlərə "Hamını dalayan dərman bitkisi" və "Gicitkən" mətnlərini müqayisə etməyi tapşırır. 1-ci mətn informativ, 2-ci bədiidir. Mövzu baxımından eynilik var: hər iki mətn gicitkən haqqındadır. Mətnlərdə ifadə olunan əsas fikir fərqlidir: 1-ci mətndə gicitkənin faydalı dərman bitkisi olduğu, lakin onunla ehtiyatlı davranmaq lazım gəldiyi barədə danışılır. 2-ci mətndə isə Gicitkənin hamını daladığı qabardılır, çünki müəllifin məqsədi kobudluğun mənfi xüsusiyyət olduğunu qabartmaqdır.

### Yazı

3.1.4 **Tapşırıq F (dərslik).** Tapşırıq şagirdlərin şeiri öz sözləri ilə yazmaq bacarığının inkişafına yönəlmişdir. Eyni zamanda mətnin tərkib hissələrini müəyyənləşdirmək bacarığı da yoxlanılır. Bunun üçün mətnin planını tutmaq təklif olunur.

**Plan:**

Giriş. Hamını dalayan Gicitkən.

Əsas hissə. 1. Solub məhv olmaq təhlükəsi. 2. Gicitkənin kömək istəməsi. Heç kimin köməyə gəlməməsi.

Sonluq. Gicitkənin tək qalması onun kobudluğunun nəticəsi idi.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İnformativ mətndən varlığın əsas xüsusiyyətlərini seçir. | Tap. A, B (D) |
| Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. | Tap. C, Ç (D) |
| Sözün mətndəki mənasını müəyyənləşdirir. | Tap. D (D) |
| Obrazın xarakteri haqqında fikir yürüdür. | Tap. E (D) |
| Əsərin ideyasına uyğun atalar sözü seçir. | Tap. Ə (D) |
| Mətnləri növünə, məzmununa və ideyasına görə müqayisə edir. | Tap. B (İ.D.) |
| Tərkib hissələrini müəyyənləşdirməklə şeiri öz sözləri ilə yazır. | Tap. F (D) |

## 3-cü dərs. Şəxsləndirmə

• Dərslik: səh. 24 • İş dəftəri: səh. 13

**Təlim məqsədləri**

• Sözlərin böyük hərflə yazılış qaydasına əməl edir (4.1.2).
• Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir (st. 3.1.4).
• Mənzum mətni nəsrə çevirərək yazır (3.1.1).
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Təmsildə obraz adlarının yazılışı. |
| 2 | **Oxu** | Təmsildə obrazların şəxsləndirilməsi. |
| 3 | **Yazı** | Şeirin nəsrlə yazısı; dialoji mətnin yazılması. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Şagirdlər bir sıra adların (şəxs, yer və s.) böyük hərflə yazılışı qaydaları ilə tanışdırlar. Eyni zamanda, onlar əsərlərdəki heyvan obrazlarının da adlarının böyük hərflə yazıldığını bilirlər. Dərsin əvvəlində müəllim bu bilikləri sual-cavab yolu ilə, əsərlərdən nümunələr gətirməklə xatırlada bilər.

4.1.2 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini cümlələrdə heyvan və bitki adlarının yazılışına cəlb edir. Bu adlarda ilk hərfin böyük yazılmasının səbəbini soruşur.

"Yadda saxla" rubrikasındakı qaydaya keçməzdən əvvəl müəllim sualla müraciət edir:

*– Şir çox təhlükəli yırtıcı heyvandır". Bu cümlədə "şir" sözü hansı suala cavab verir?*

Düzgün cavab (nə?) müəyyənləşdirildikdən sonra müəllim "Kral və Şir" təmsilindən cümlələr deyir:

*– "Bir gün Şir xəstələndi. Heyvanlar buna qətiyyən kədərlənmədilər, qərara gəldilər ki, ona kömək etməsinlər. Çünki Şir onlara çox zülm etmişdi". Bəs bu mətn parçasında "Şir" sözü hansı suala cavab verir?*

Bu cümlələrdə isə "Şir" sözü kim? sualına cavab verir. Şagirdlər bu fərqi izah etməlidirlər (bədii mətndə istənilən obraz kim? sualına cavab verir)

Daha sonra "Yadda saxla" rubrikasındakı nəzəri material şərh edilir. Müəllim nağıllarda, təmsillərdə obraz kimi çıxış edən heyvan və cansız əşya adlarının ilk hərfinin nə üçün böyük hərflə yazıldığını izah edir.

**Tapşırıq B (dərslik).** Şagirdlər hansı cümlələrdə heyvanların şəxsləndirildiyini müəyyənləşdirməlidirlər. Düzgün cavab:

2-ci cümlədə Canavar;
3-cü cümlədə Tırtıl və İlbiz;
5-ci cümlədə Kəpənək və Qarışqa.

**Tapşırıq A (iş dəftəri).** Düzgün cavab: 2, 3, 5-ci cümlələrdəki heyvanlar şəxsləndirilib.

3.1.4 **Tapşırıq C (dərslik).** Şagirdlər şəxsləndirilmiş adları müəyyən edib ilk hərfini böyük yazmaqla cümlələri köçürürlər:

1-ci cümlədə Qarğa;
2-ci cümlədə Günəş və Külək;

3-cü cümlədə Günəbaxan;
4-cü cümlədə Qanqal.

3.1.1 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq iki məqsədə xidmət edir:

1. Nəzmlə yazılmış mətni nəsrə çevirərək öz sözləri ilə yazmaq. Bu zaman şagirdlərin cümlələrdə söz sırasına əməl etmək bacarığı yoxlanılır.
2. Alleqorik əsərdə heyvan obrazlarının adlarının böyük hərflə yazılışı.

3.1.1 **Tapşırıq Ç (dərslik).** Qrup şəklində yerinə yetirilən bu tapşırıqda şagirdlər bildiyi, oxuduğu, həyatda gördüyü məlumatlardan istifadə etməklə obrazların xüsusiyyətlərinə və xarakterinə uyğun dialoji mətn qurmalıdırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təmsildə obraz adlarının böyük hərflə yazılma səbəbini izah edir. | Tap. A, B (D)<br>Tap. A (İ.D.) |
| Mənzum mətni nəsrə çevirərək yazır | Tap. B (İ.D) |
| Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir. | Tap. C (D)<br>Tap. B (İ.D) |
| Mövzuya uyğun dialoji mətn yazır. | Tap. Ç (D) |

## 4-cü dərs. Sözlərdə bəzi saitlərin yazılışı

• Dərslik: səh. 25 • İş dəftəri: səh. 14

**Təlim məqsədləri**

• Sözlərdə saitlərin düzgün yazılış qaydalarına əməl edir (st. 4.1.2).
• Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir. (st. 3.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sözlərdə saitlərin düzgün yazılışı. |
| 2 | **Dil qaydaları** | Sözlərdə saitlərin düzgün yazılış qaydalarının mənimsədilməsi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Müəllimin nəzərinə!** 3-cü sinifdə Azərbaycan dilinin tədrisi zamanı sözlərin orfoepik normaları öyrədilmir. Lakin məlumdur ki, orfoqrafiya səhvlərinə daha çox deyilişi və yazılışı fərqlənən sözlərdə rast gəlinir. Buna görə də orfoqrafik normaların tədrisində tətbiq olunan prinsip belədir: “Bu söz bəzən belə tələffüz olunsa da, onun düzgün yazılışı belədir”.

4.1.2 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərə sözlərin düzgün yazılışını müəyyən etməyi tapşırır. Sonra “Bunları bilməliyik” rubrikasında verilmiş “O, YOXSA A” qaydasını izah edir.

**Tapşırıq B (dərslik).** Düzgün cavab: kombayn, motor, kolbasa, kompot, poçtalyon, şokolad.

Daha sonra müəllim şagirdlərin diqqətini sözlərdəki bəzi saitlərin yazılışı ilə bağlı “Diqqət et” rubrikasına yönəldir. Qayda şərh edildikdən sonra şagirdlər növbəti tapşırığı yerinə yetirirlər.

**Tapşırıq C (dərslik).** Düzgün cavab: mübarək, bünövrə, əqrəba, nümunə, ümid, təbaşir, günah, müdir, həşərat.

**Tapşırıq Ç (dərslik).** Fərqləndirilmiş sözlərin düzgün yazılışı: kostyum, nümayəndə, üfüq, müharibə, qəhrəman.

**Tapşırıq D (dərslik).** Səhv yazılmış sözlər: 1-ci sütunda pamidor (olmalıdır pomidor), 2-ci sütunda mukafat (olmalıdır mükafat), 3-cü sütunda mühüt (olmalıdır mühit).

**Tapşırıq A (iş dəftəri).** Cümlələrdə səhv yazılmış sözlərin düzgün yazılışı: poçtalyon, velosiped, konsert, kollektiv, laboratoriya, motor.

**Tapşırıq B (iş dəftəri).** Sözlərin düzgün yazılışı: paroxod, pomidor, komandir, voleybol, badminton,vertolyot.

3.1.4 **Tapşırıq C (iş dəftəri).** Səhv yazılmış sözlərin düzgün yazılışı: mühasirə, həşərat, mühit, təbaşir.

**Tapşırıq Ç (iş dəftəri).** Səhv yazılmış sözlər: 1-ci sırada "Ç" variantı, 2-ci sırada "C" variantı, 3-cü sırada "B" variantı, 4-cü sırada "A" variantı.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərdə "o" və "a" saitlərinin düzgün yazılışını müəyyənləşdirir. | Tap. B (D)<br>Tap. A, B (İD) |
| Sözlərdə "ü" və "u" , "ü" və "i", "a" və "ə" saitlərinin düzgün yazılışını müəyyənləşdirir. | Tap. C, D (D)<br>Tap. C, Ç (İD) |
| Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir. | Tap. Ç (D) |

## fəsil 4 HÜQUQLARIMIZ

### 1-ci dərs. Qavroş

• Dərslik: səh. 26–28 • İş dəftəri: səh. 15

**Təlim məqsədləri**
- Mətni intonasiya ilə oxuyur (st. 2.2.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
- Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
- Mətndəki obrazları xarakterizə edir (st. 2.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Uşaq hüquqları haqqında bilgilərin xatırlanması. |
| 2 | **Oxu** | "Qavroş" mətninin müvafiq intonasiya ilə oxusu. |
| 3 | **Söz ehtiyatı** | "Söz boğçası" rubrikası üzrə iş. |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş.<br>Baş qəhrəmanın səciyyələndirilməsi. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik). Həyat bilgisi fənni ilə inteqrasiya.** Şagirdlər uşaq hüquqları haqqında bildiklərini danışırlar. Müəllim bununla şagirdlərin diqqətini "Qavroş" mətninin mövzusuna yönəldir və uyğun təlimat verir:

– Mətn huquqları pozulmuş uşaqlar haqdadır. Mətni oxuduqca həmin məqamlara diqqət edin.

### Oxu

Mətnin oxusuna keçməzdən əvvəl müəllimin böyük fransız yazıçısı Viktor Hüqo və onun məşhur "Səfillər" romanı haqqında şagirdlərin yaş səviyyəsinə uyğun qısa məlumat verməsi tövsiyə olunur.

*Əsərdə Jan Valjan adlı xeyirxah bir insan haqqında danışılır. O, keçmişdə cinayətkar olub, həbsə düşüb. Amma indi günahlarını yumaq üçün insanlara əlindən gələn xeyirxahlığı etməyə çalışır. Lakin polis məmuru Javer Jan Valjanın cinayətkar keçmişini ona bağışlamır, onu izləyərək yenidən həbsxanaya salmaq istəyir. Əsərdə ata-anasından məhrum olmuş səfil uşaq obrazları da var: Qavroş, Kozetta. Müəllif onların ağır həyatını çox gözəl təsvir edir.*

Müəllim eyni zamanda "səfil" sözünün izahını da verə bilər: ***səfil*** – daimi yaşayış yeri, məşğuliyyəti olmayan, yoxsul, avara.

2.2.1 Müəllim çalışmalıdır ki, şagirdlər mətni müvafiq intonasiya ilə, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirməklə oxusunlar.

2.2.2 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda qoyulmuş faktoloji sualları cavablandırmaqla mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirirlər.

### Söz ehtiyatı

Şagirdlər “Söz boğçası” rubrikasında verilmiş sözlərin mənasını mətndən çıxış edərək izah edirlər. Müəllim sözü izah etməyin qaydalarını xatırladır: sözün aid olduğu ümumi mənanı müəyyən etmək və anlayışın əlamətlərini sadalamaq. Bunun üçün lövhədə belə bir cədvəl də çəkmək olar:

| Söz | Ümumi məna | Əlamətlər |
|---|---|---|
| bərbər | | |
| ülgüc | | |
| fitil | | |
| həsir | | |
| koramal | | |

Sözlərin izahı dərsliyin sonunda verilmiş izahlarla müqayisə olunur.

2.1.1 **Tapşırıq C (dərslik).** Tapşırıqda verilmiş cümlələrdə nöqtələrin yerinə söz boğçasından uyğun sözü seçib əlavə etməklə şagirdlər yeni öyrəndiyi sözlərin mənalarını düzgün başa düşdüklərini nümayiş etdirirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqdakı sualı əsərdə baş verən hadisələrdən, qəhrəmanlar arasında gedən dialoqlardan çıxış edərək cavablandırmalıdırlar: *Qavroş uşaqlara qayğı göstərdi, son pulunu verib onlara çörək aldı, gecələmək üçün onlara yer tapdı.*

**Tapşırıq D (dərslik).** Şagirdlər Qavroşa aid xüsusiyyətləri mətndəki müvafiq epizodları seçərək əsaslandırmalıdırlar. Qavroşun mərhəmətli, qayğıkeş, əliaçıq olmasını əsaslandırmaq asan olsa da, digər üç xüsusiyyətini göstərən epizod və ya sözləri tapmaq çətinlik yarada bilər. Bu zaman müəllim şagirdlərin diqqətini müvafiq epizodlara yönəldərək düzgün cavabın alınmasına nail ola bilər. Məsələn, Qavroşun həsiri göstərərək “Bu isə zürafənindir. Dedim, filə lazımdır. Etiraz etmədi” deməsi, əlbəttə, zarafatdır. Uşaqları siçovullarla qorxutmasını, “Səsini kəs, yat”, “Ay səfeh” kimi ifadələrini kobudluq kimi qiymətləndirmək olar. Özünə rahat sığınacaq tapa bilməsi isə onun fərasətli uşaq olduğunu sübut edir.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırığı dərslikdəki D tapşırığının davamı və baş qəhrəman haqqında fikirlərin sistemləşdirilməsi kimi qiymətləndirmək olar. Şagirdlər əsərin qəhrəmanı haqqında mülahizələrini əsaslandırmaqla obraz xəritəsini tamamlayırlar. Eyni zamanda, onlar fikirlərini yazılı şəkildə ifadə etmək bacarığını da nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A (D) |
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir. | MV |
| Mətnin məzmunu ilə bağlı faktoloji sualları cavablandırır. | Tap. B (D) |
| Cümləni tamamlamaq üçün kontekstə uyğun gələn sözü müəyyən edir. | Tap. C (D) |
| Əsərin baş qəhrəmanı haqqında fikirlərini əsaslandırır. | Tap. Ç, D (D)<br>Tap. A (İ.D.) |

## 2-ci dərs. Uşaq hüquqlarının pozulması

• Dərslik: səh. 28-29 • İş dəftəri: səh. 16

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərə münasibət bildirir (st. 2.2.5).
• Dinlədiyi fikirlə bağlı mövqeyini şərh edir (st. 1.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | İnsan hüquqlarının pozulması və müdafiəsi ilə bağlı məqamların işıqlandırılması. |
| 2 | **Oxu** | “Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu” mətnində verilən maddələrin oxusu. |
| 3 | **Oxuyub-qavrama** | Uşaq hüquqlarının pozuması hallarının Qanunun maddələrinə istinad edilməklə müəyyənləşdirilməsi. |

| | | |
|---|---|---|
| 4 | **Dinləmə** | "Kozetta" dinləmə mətnində "Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu" maddələrinin pozulduğu məqamların müəyyənləşdirilməsi. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

1.2.1 **Tapşırıq A (dərslik).** Müəllim tövsiyəsi ilə şagirdlər tapşırıqda verilən ifadələrin mənasını həyatdan misallar gətirməklə izah edirlər. Müəllim müəyyən situasiyalar xatırlatmaqla tapşırığın şərtini konkretləşdirə bilər. Məsələn:

– Siz müəyyən məsələ ilə bağlı öz fikrinizi bildirmək istəyirsiniz, amma bunu etmək üçün sizə imkan vermirlər. Bu zaman hansı hüquqlarınız pozulur? (Fikrini açıq şəkildə ifadə etmək hüququ)

### Oxuyub-qavrama

Sonra "Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu"nun cədvəldə verilən maddələri ilə tanış olurlar.

2.2.5 **Tapşırıq B (dərslik).** Şagirdlər "Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu"na əsaslanaraq Qavroşun və balaca uşaqların hansı hüquqlarının pozulduğunu müəyyənləşdirməklə yanaşı, onların hüquqlarını müdafiə etmək üçün təkliflər irəli sürürlər. Bunun üçün onlar "Qavroş" mətnini bir daha xatırlamalıdırlar. Mətndə deyilir ki, balaca qardaşlar valideynlərindən məhrum olublar. Deməli, Qanunun 17-ci maddəsi pozulub:

*Maddə 17. Uşağın ailədə valideynləri ilə birgə yaşamaq, onlardan qayğı görmək hüququ vardır.*

Qardaşların gecələməyə mənzilləri yoxdur. Bununla bağlı 20-ci maddəyə istinad edilməlidir:

*Maddə 20. Hər bir uşağın mənzil hüququ vardır.*

### Dinləmə

**Dinləmə mətni:**

**"Kozetta"**

*Yeni il axşamı idi. Tenardyenin meyxanasında xeyli adam var idi. Tenardye qonaqlarla söhbət edir, arvadı isə şərab süzürdü. Bu balaca mehmanxanada cəmi bir xidmətçi vardı. O da 8 yaşlı Kozetta idi. Kozetta bütün günü qabları yuyar, masaların üstünü təmizləyər, qonaqlara xidmət edərdi. Səhərdən-axşama kimi işləsə də, Tenardye onu yarıac, yarıçılpaq saxlayır, arvadı isə elə hey döyürdü. Heç kim ona rəhm eləmirdi.*

*Kozetta üçün ən əzablı iş su daşımaq idi. Çünki suyu uzaqdan – meşədəki bulaqdan daşımaq lazım gəlirdi. Yazıq qız ağır vedrəni gətirib çıxarana kimi əldən düşürdü. Vay o gündən ki, axşam vaxtı su qurtaraydı. Onda Kozetta gecənin zil qaranlığında kol-kosa ilişə-ilişə, hər bir səsdən, kölgədən qorxa-qorxa su ilə dolu vedrəni daşımalı olurdu. Zavallı qız qaranlıqdan qorxsa belə, sahibəsinə etiraz edə bilmirdi.*

1.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər Kozettanın pozulmuş hüquqlarını "Qanuna" əsaslanaraq müəyyənləşdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu ilə əlaqədar həyatdan misallar gətirməklə danışır. | Tap. A (dərslik) |
| Mətndəki faktlara münasibət bildirərkən əldə etdiyi məlumatlara istinad edir. | Tap. B, C (dərslik)<br>Tap. A (İ.D.) |

## 3-cü dərs. Davranış qaydaları

• Dərslik: səh. 29 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri**

• İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 2.2.2).
• Məqsədə uyğun olaraq sadə praqmatik mətnlər (təlimat, gündəlik, açıqca, şüar, xülasə, izahat) yazır (st. 3.1.2)
• Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Faktların mövzu və məzmun etibarı ilə qruplaşdırılması. |

| | | |
|---|---|---|
| 2 | Yazı | Müəyyən mövzu üzrə təlimat xarakterli mətnin yazılması.<br>Müəyyən mövzu üzrə tövsiyə xarakterli mətnin yazılması. |
| 3 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

2.2.2 **Tapşırıq A (dərslik).** Tapşırıqda həyatın müxtəlif sahələrində uşaq hüquqlarının əks olunduğu cümlələr verilmişdir. Şagirdlər cümlələri sahələr üzrə qruplaşdırmalıdırlar. Düzgün cavab: 1, 4-cü cümlələr uşaqların ailədə, 2, 5-ci cümlələr məktəbdə, 3, 6-cı cümlələr cəmiyyətdə hüququna aiddir.

**Müəllimin nəzərinə!** Növbəti tapşırığa keçməzdən əvvəl müəllim yönəldici suallarla şagirdlərdə uşaqların hüquqları ilə yanaşı, vəzifələrinin də olması fikrini vurğulayır.

### Yazı

3.1.2 **Tapşırıq B (dərslik).** Tapşırıq qruplarla iş kimi yerinə yetirilir. Hər bir qrup uşaqların müxtəlif yerlərdə davranışına aid qaydaları müəyyənləşdirərək təlimat xarakterli yazılı təqdimat hazırlayır.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş parçanı oxuyaraq tövsiyə xarakterli mətn yazırlar.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin verilmiş açar sözlər və şəkillərdən yararlanaraq müəyyən mövzu üzrə mətn yazmaq bacarığını üzə çıxarır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İnformativ mətndəki faktları qruplaşdırır. | Tap. A (dərslik) |
| Təlimat xarakterli təqdimat yazır. | Tap. B (dərslik)<br>Tap. A (İ.D.) |
| Açar sözlər və şəkillər əsasında mətn yazır. | Tap. B (İ.D.) |

## 4-cü dərs. Qoşasaitli sözlərin yazılışı

• Dərslik: səh. 30 • İş dəftəri: səh. 19

**Təlim məqsədləri**

• Sözlərdə saitlərin düzgün yazılış qaydalarına əməl edir (st. 4.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | Sözlərdə saitlərin düzgün yazılışı. |
| 2 | Dil qaydaları | Sözlərdə saitlərin düzgün yazılış qaydalarının mənimsədilməsi. |
| 3 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

4.1.2 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin nəzərini dərslikdəki "A" tapşırığına yönəldir. Tapşırıqdakı sözlər şagirdlərin aktiv lüğət fonduna daxil olduğu üçün onların yazılışındakı səhvin müəyyənləşdirilməsi çətinlik törətməyəcək. Müəllim qoşasaitli söz-lərin yazılışında yol verilən səhvlərlə bağlı qaydanı şərh etdikdən sonra şagirdlər dərslikdəki və iş dəftərindəki tapşırıqları yerinə yetirirlər.

### Dil qaydaları

**Tapşırıq B (dərslik).** Sözlərin düzgün yazılışı: daima, mütaliə, şeir, dairə, xain, teatr.

**Tapşırıq C (dərslik).** Sözlərin düzgün yazılışı: müayinə, məəttəl, inşaat, təbii, müəyyən, fəaliyyət, təəssüf, stadion.

**Tapşırıq Ç (dərslik).** Cümlələrdə sözlərin düzgün yazılışı:

1) məllif – müəllif; 2) camat – camaat; 3) təccüblə – təəccüblə; 4) ayilə – ailə; 5) kayinat – kainat.

**Tapşırıq D (dərslik).** Sözlərin düzgün yazılışı: *Səidə, Şaiq, Nailə, Faiq.*

**Tapşırıq E (dərslik).** Səhv yazılmış sözlərin düzgün yazılışı:

1-ci sırada: a) müalicə;
2-ci sırada: c) əhali;
3-cü sırada: b) maili;
4-cü sırada: a) şücaət.

**Tapşırıq A (iş dəftəri).** Sözlərin düzgün yazılışı: *dialoq, müasir, radio, təbiət.* Tapşırıqda eyni zamanda şagirdlərin cümləni kontekstə uyğun sözlə tamamlamaq bacarığı yoxlanılır.

**Tapşırıq B (iş dəftəri).** Sözlərin düzgün yazı-

lışı: *fəaliyyət, məəttəl, camaat, müdafiə, inşaat, maaş, təəccüb, təəssüf, dairə*.

**Tapşırıq C (iş dəftəri).** Sözlərin düzgün yazılışı:
1-ci cümlədə: *Naibə, müayinə;*
2-ci cümlədə: *Faiq, stadion;*
3-cü cümlədə: *Səidə, təəccüblə;*
4-cü cümlədə *Səadət*.

**Tapşırıq D (iş dəftəri).** İzahlara uyğun varlıq adları: 1) saat, 2) akvarium, 3) şair.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qoşasaitli sözləri düzgün yazır. | Dərslikdə və iş dəftərində verilən bütün tapşırıqlar |

## Ümumiləşdirici təkrar

• Dərslik: səh. 31 • İş dəftəri: səh. 20

**Təlim məqsədləri**

• Frazeoloji ifadəni həqiqi mənalı söz birləşməsindən fərqləndirir (st. 2.1.2).
• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st. 2.1.2).
• Sözlərdə samitlərin düzgün yazılış qaydala-rına əməl edir (st. 4.1.2).
• Sözlərdə saitlərin düzgün yazılış qaydalarına əməl edir (st. 4.1.2).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).
• Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərə münasibət bildirir (2.2.5)

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Söz ehtiyatı** | Frazeoloji ifadənin fərqləndirilməsi və mənasının müəyyənləşdirilməsi. |
| 2 | **Dil qaydaları** | Sözlərdə sait və samitlərin düzgün yazılışı. |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmuna uyğun başlıqla adlandırılması. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq A (dərslik).** Frazeoloji ifadələr: *təşvişə düşmək, söz açmaq, fikrə getmək, sözünü kəsmək.*

**Tapşırıq B (dərslik).** Düzgün cavab:
*1) özünü itirdi – çaşdı;*
*2) taqətdən düşmüşdü – yorulmuşdu;*
*3) heyrətə saldı – təəccübləndirdi;*
*4) könlünü al – sakitləşdir;*
*5) cin atına mindi – hirsləndi.*

**Tapşırıq Ç (iş dəftəri).** Düzgün cavab: .... 1*) anlatmaq, 2) dinləmək, 3) anlamaq*

### Dil qaydaları

4.1.2 **Tapşırıq C (dərslik).** Səhv yazılmış sözlərin düzgün yazılışı:
1-ci sırada ç) sir;
2-ci sırada a) hökm;
3-cü sırada a) kompüter;
4-cü sırada b) çərşənbə;
5-ci sırada c) pambıq;
6-cı sırada c) saniyə.

**Tapşırıq Ç (dərslik).** Düzgün cavab: a) mətin, b) mətn; a) həsr, b) həsir; a) əsr, b) əsir.

**Tapşırıq D (dərslik).** Səhv yazılmış sözlərin düzgün yazılışı: 1-ci cümlədə teatr, 2-ci cümlədə rütubətli, 3-cü cümlədə qəhrəman, 4-cü cümlədə mühit, 5-ci cümlədə kosmonavtika, 6-cı cümlədə üfüq.

**Tapşırıq C (iş dəftəri).** Səhv yazılmış sözlərin düzgün yazılışı: kompüter, Faiq, təəccüblə, müəllim, müdafiə.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər iş dəftərində verilmiş mətni məzmununa uyğun adlandırmalıdırlar. Məsələn: "Hüquqlar və vəzifələr", "Hüquqlarını bil, amma vəzifələrini də unutma" və s.

2.2.5 **Tapşırıq B (iş dəftəri).** Ata oğluna Vətəni sevməyi, onu qorumağa həmişə hazır olmağı, təbiəti qorumağı, özündən kiçiklərə qayğı ilə yanaşmağı və s. məsləhətlər verə bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Frazeoloji ifadənin mənasını müəyyənləşdirir. | Tap. A, B (dərslik)<br>Tap. Ç (İ.D.) |
| Sözlərdə sait və samitləri düzgün yazır. | Tap. C, Ç, D (D)<br>Tap. C (İ.D.) |

bölmə **2** 

# QARABAĞ – ANA YURDUM

| Mövzu | | Qarabağ – ana yurdum |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | Mövzu ilə bağlı əlavə məlumatlar almaq üçün sualların tərtibi, qrafik informasiya şəklində verilmiş məlumatları rabitəli mətn şəklində təqdim etmək, fikirlərini əsaslandırmaq üçün tarixi mənbəyə istinad etmək, mühakimə yürütmək və nitqdə sitatlardan istifadə etmək |
| | Söz ehtiyatı | Sözlər: əyan, nüfuz, sürgün, bani, soy, mazğal, bürc, miras, şikəstə, xələt, ərsəyə gəlmək, vəsf etmək, köks, nisgil, atəşkəs, müjdə, taktika, yenilməzlik, münaqişə, modern, qəzet, heyət, redaktor, rubrika, məqalə, gizir, dizayn |
| | Oxu | Tarixi-informativ mətnin oxunması və hadisələrin xronoloji ardıcıllığının müəyyənləşdirilməsi |
| | Yazı | Məlumat vərəqinin tərtibi |
| Akademik biliklər | Dil qaydaları | İsimin hallanması, sifətin dərəcələri, zərf, işarə əvəzlikləri |
| | Filoloji anlayışlar | Xronologiya, tarixi-informativ mətn, tarixi mənbə, bayatı, sitat, mühakimə, divar qəzeti |
| Kompetensiyalar | | Qarabağın tarixi və mədəniyyəti ilə yaxından tanışlıq, vətənpərvərlik, həmrəylik, birlik və s. mənəvi dəyərlərin aşılanması |

Bu bölmədə şagirdlərə Qarabağın coğrafiyasından, tarixindən, mədəniyyətindən bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Mətnlərdə Qarabağın tarixində mühüm xidmətləri olmuş şəxsiyyətlər, məşhur tarixi abidələr haqqında məlumatlar verilir. Əsas məqsəd şagirdlərin dünyagörüşünü artıran, onlara vətənpərvərlik, həmrəylik, ədalət və başqa mənəvi dəyərlər aşılayan bu mövzular vasitəsilə şagirdlərin dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək və söz ehtiyatlarını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

- Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir;
- Təqdimat zamanı vizual materialları şifahi şərhləri ilə müşayiət edir;
- Bədii və informativ mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir;
- Təlimata əsasən yazılı təqdimat hazırlayır.

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**

- Məlumat vərəqində verilmiş məlumatların rabitəli mətn şəklində təqdim edilməsi;
- Araşdırmaların aparılması;
- Divar qəzetinin tərtibi.

## Bölməyə giriş dərsi

• Dərslik: səh. 32–33 • İş dəftəri: səh. 20

**Təlim məqsədləri**

• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 1.2.2).
• Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
• Əldə etdiyi məlumatlara əsasən fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir (st. 2.2.5).
• Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st. 3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Azərbaycan xəritəsinin nümayişi. |
| 2 | **Danışma** | Qarabağa daxil olan rayonlar haqqında söhbət. Qarabağla bağlı oxunan mətnlərin xatırlanması. |
| 3 | **Oxuyub-qavrama** | Məlumat vərəqlərinin oxunması. Şeir parçası üzrə iş. |
| 4 | **Yazı** | Mövzu ilə bağlı fikirlərin yazılması. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə Azərbaycanın xəritəsini nümayiş etdirir. Aşağıdakı suallarla şagirdləri müzakirəyə cəlb edir:

– *Azərbaycan hansı dövlətlərlə həmsərhəddir? Hansı rayonlar Ermənistanla sərhəddə yerləşir? Xəritədə Göyçə gölünü göstərin. Göyçə gölü ilə bağlı nə oxumusunuz? (III sinif, 7-ci bölmə, səh. 62. Göyçə gölü əfsanəsi).*

Məqsəd Azərbaycanın tarixi torpaqları hesabına ərazisini genişləndirən Ermənistanın işğalçılıq mövqeyini şagirdlərin diqqətinə çatdırmaqdır.

### Danışma

1.2.2 **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini xəritədə Qarabağın işğaldan azad edilmiş rayon və şəhərlərinə yönəldir. Şagirdlər həmin yerlər haqqında bildiklərini danışırlar.

**Tapşırıq B (dərslik).** Şagirdlər Qarabağla bağlı indiyə qədər oxuduqları mətnləri (“Azıx mağarası” – I sinif, “Qarabağ atının şöhrəti”, “Bəyaz və Cubbulu” – II sinif, “Bura vətəndir” – III sinif) xatırlayırlar. Həmin mətnlərin məzmunundan çıxış edərək tapşırıqda verilmiş fikirləri əsaslandırırlar. “Azıx mağarası” mətni I sinifdə keçirildiyindən şagirdlər mətni xatırlamaqda çətinlik çəkə bilərlər. Odur ki müəllim həmin mətni səsləndirməklə tapşırığın yerinə yetirilməsinə kömək edə bilər:

**Azıx mağarası**

*Bu əhvalat lap çoxdan olub. O zaman insanlar ev tikməyi bacarmırdılar. Onlar çöldə, meşədə yaşayırdılar. Şaxtalı bir gün idi. İnsanlar soyuqdan qorunmaq üçün yer axtarırdılar. Onların arasında Domrul adlı balaca bir oğlan da var idi. Birdən Domrul qayaların arasında yarıq gördü. Tez ata-anasını səslədi:*

*– Bura gəlin! Mağara tapmışam. Domrul böyükləri gözləməyib mağaraya girdi. Elə bu vaxt onun qarşısına böyük bir ayı çıxdı. Domrul “azıx, azıx” qışqıra-qışqıra mağaradan çölə atıldı. O zaman ayıya “azıx” deyirdilər. Ayı da onun dalınca mağaradan çıxdı. Nərildəyərək insanlara hücum etdi. Ancaq insanlar geri çəkilmədilər. İtiuclu dəyənək və iri daşlarla ayını qovdular. O gündən mağara insanların məskəni oldu. Həmin mağara bu gün də Azıx mağarası adlanır.*

Şagirdlər mətnin məzmunundan çıxış edərək tapşırıqda verilmiş fikri təxminən belə əsaslandıra bilərlər:

Mətndə göstərilir ki, qədim insanlar soyuqdan qorunmaq üçün Azıx mağarasını özlərinə yaşayış yeri seçiblərmiş. Qədim insanlar ayıya “azıx” deyirmişlər. Bu gün də həmin mağara Azıx mağarası adlanır. Doğrudan da, Azıx mağarası dünyanın ən qədim yaşayış məskənlərindən biridir.

**Müəllimin nəzərinə!** Füzuli şəhərinin yaxınlığında yerləşən Azıx mağarasının uzun müddət işğalda qalması və azad olunması haqqında məlumat verə və uyğun şəkillər nümayiş etdirə bilər.

Şagirdlərin xatırlayacaqları digər mətn “Qarabağ atının şöhrəti” mətnidir. Mətndə İngiltərədə keçirilən at yarışında qalib gələn və kraliçaya hədiyyə edilən “Zaman” adlı atdan danışılır. Bu at sürətli, çevik və yaraşıqlı olması ilə dünyada tanınmışdır.

“Bəyaz və Cubbulu” mətnində Süreyya adlı qızın yurd-yuvasından didərgin düşməsi haqqında danışılır.

“Bura Vətəndir” mətnində vaxtilə yurdundan didərgin düşmüş İlqarın öz doğma yurduna – Füzuliyə qayıdışından bəhs edilir.

**Tapşırıq C (dərslik). Qruplarla iş.** Hər bir qrup məlumat vərəqindəki faktları oxuyur, müzakirə edir, bildikləri əlavə məlumatları bir-biri ilə bölüşürlər. Hər qrup bir üzv seçib onu təqdimata hazırlayır. Təqdimat edəcək qrup üzvü şəkil üzrə rabitəli danışır. Yoldaşları ona uyğun tövsiyələr verir.

Sonda hər qrupdan bir nəfər təqdimat edir. Qruplar bir-birinin təqdimatını dəyərləndirirlər. Daha yaxşı təqdimat edən qrup qalib gəlir.

**Müəllimin nəzərinə!** Xan Şuşinskinin ifasında “Qarabağ şikəstəsi” və “Uzundərə rəqsi”ni, “Xarıbülbül” musiqi festivalından görüntülər nümayiş etdirmək məqsədəuyğundur. Bu, şagirdlərin mövzu ilə bağlı təsəvvürlərini genişləndirməyə kömək edə bilər.

## Oxuyub-qavrama

2.1.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər Səməd Vurğunun “Azərbaycan” şeirindən verilmiş bir bəndi oxuyur və sualları cavablandırırlar. Qarabağ təbiətinin gözəlliyi və musiqi mərkəzi kimi tanınması haqqında şagirdlərin təsəvvürü genişləndirilir. Şagirdlər şeirin son misrasını təxminən belə izah edə bilərlər:

– Şair Qarabağın məşhur xanəndəsi Xan Şuşinskinin adını çəkir və onun ifasında “Qarabağ şikəstəsi” muğamının hər tərəfə yayılmasını, eşidilməsini arzu edir. “Havalanmaq” sözü məcazi mənada musiqinin uca səslə oxunması, hər tərəfdə eşidilməsi deməkdir.

**Müəllimin nəzərinə!** “Azərbaycan” şeirini tam səsləndirmək olar.

2.2.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər dərslikdə məlumat vərəqi və şeir parçasından əldə etdikləri biliklərə əsasən tapşırıqda verilmiş fikirləri tamamlayırlar. Bununla həm onların oxuyub-qavrama, həm də cümlə qurma bacarıqları inkişaf etdirilir.

## Diferensial təlim

Tapşırığın yerinə yetirilməsində çətinlik çəkən şagirdlərə C tapşırığında verilmiş məlumat vərəqlərini yenidən nəzərdən keçirməyi tapşırmaq olar. Bununla həmin şagirdlərin lazım olan faktları seçmək bacarığı inkişaf etdirilə bilər.

2.2.2 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş məlumatı oxuyaraq bu nəticəyə gəlirlər ki, Şuşa Azərbaycanın mədəniyyət mərkəzidir.

## Yazı

3.1.1 **Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərə öz fikir və düşüncələrini sərbəst şəkildə yazıda əks etdirmək imkanı yaradır. Tapşırığın icrasından əvvəl müəllim şagirdləri tapşırıqda verilmiş suallar ətrafında müzakirəyə cəlb edir. Bununla şagirdlərdə mövzu ətrafında müəyyən fikir formalaşdırılır. Şagirdlər valideynlərindən, televiziyadan və başqa informasiya mənbələrindən aldıqları məlumatlardan çıxış edərək getmək istədikləri yeri və həmin yerlə bağlı onları maraqlandıran məqamları söyləyirlər və sonra öz fikirlərini sərbəst şəkildə yazırlar.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır. | Tap. A, B, C (dərslik) |
| Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir. | Tap. Ç (dərslik) |
| Əldə etdiyi məlumatlara əsasən fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir. | Tap. A, B (iş dəftəri) |
| Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə növbəti dərsdə nümayiş etdirmək üçün həmrəylik təcəssüm etdirən şəkillər hazırlamaq tövsiyə edilir.

# fəsil 1 QARABAĞ XANLIĞI

## 1-ci dərs. Pənahəli xan

Dərslik: səh. 34–36 • İş dəftəri: səh. 21

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Oxuyarkən qabaqcadan müəyyən olunmuş sualların cavablarını mətndən seçir (st. 2.2.2).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
• Oxuduğu informativ mətndəki əsas faktları yazıda əks etdirir (st. 3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Cavad xan mətnin xatırlanması. |
| 2 | **Danışma** | Qarabağın tarixi ilə bağlı sualların hazırlanması. |
| 3 | **Oxu** | "Pənahəli xan" mətninin oxusu. |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi. |
| 5 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş. |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə sual verir:

– *"Tarixi şəxsiyyət" ifadəsini izah edin. Hansı tarixi şəxsiyyətləri tanıyırsınız?*

Müəyyən bir zaman kəsiyində dövlətin, xalqın taleyində mühüm rol oynamış insanlar tarixi şəxsiyyət hesab olunur. Bu haqda 3-cü sinifdə şagirdlərə məlumat verilib.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər "Cavad xan" mətnini xatırlayıb bildiklərini danışırlar.

"Cavad xan" mətnində rusların Azərbaycana hücumundan danışılır. 1804-cü ildə rusların Gəncəyə hücümu zamanı Cavad xan vətənini qəhrəmancasına qoruyub şəhid olur. Yalnız bundan sonra ruslar Gəncəni işğal edə bilirlər.

**Tapşırıq B (dərslik). Kollektiv iş.** Müəllim lövhədə BİBÖ cədvəli çəkir. Şagirdlər Qarabağın tarixi haqqında bildiklərini söyləyirlər. Müəllim cədvəldə qısa qeydlər aparır. Sonra şagirdlərə "Pənahəli xan" mətninin giriş hissəsini oxumağı tapşırır. Bununla onlarda Azərbaycan tarixinin xanlıqlar dövrü haqqında ilkin təsəvvür yaradılır.

Sonra şagirdlərin diqqəti mətnə aid şəkillərə, yarımbaşlıqlara, söz boğçasına və haşiyəyə yönəldilir. Şagirdlər mətnin struktur elementlərini nəzərdən keçirirlər. Məqsəd şagirdlərdə oxuyacaqları mətnə maraq oyatmaqdır. Bundan sonra şagirdlər Qarabağ xanlığının tarixi ilə bağlı öyrənmək istədikləri məlumatlar barədə suallar tərtib edirlər. Məsələn, *Pənahəli xan kim idi? Nadir şahın sarayında nə baş verib? Kim vətəndən ayrı düşüb? Qarabağ xanlığı necə yaranıb? Şuşa qalası nə üçün tikilib? Onu kim tikdirib? Sürgün, iqamətgah sözlərinin mənası nadir? və s.*

Müəllim BİBÖ cədvəlində şagirdlərin suallarını ümumiləşdirib müəyyən qeydlər aparırır.

### Oxu

2.2.2 Şagirdlər mətni növbə ilə səsli oxuyurlar. Mətnin hər yarımbaşlıq üzrə hissəsi oxunduqdan sonra müəllim faktoloji suallar verməklə şagirdləri diqqətli oxumağa sövq edir.

**Müəllimin nəzərinə!** Şagirdlərə Nadir şah haqqında əlavə məlumatın verilməsi tövsiyə olunur:

*Nadir şah Əfşar "son fateh" kimi tarixə düşən dünyaca məşhur sərkərdədir. İşğalçıları qovan və yeni Azərbaycan imperiyasını yaradıb gücləndirən bir şah kimi Azərbaycanın qürur mənbəyidir. Şöhrəti və parlaq hərbi yürüşləri o qədər məşhur olub ki, hətta Fransa imperatoru özünü Avropada "Yeni Nadir" hesab edir və ondan təsirlənirdi.*

### Söz ehtiyatı

2.1.1 **"Söz boğçası" rubrikası.** Şagirdlər tanış olmayan sözlərin mənasını kontekstdən çıxış etməklə əvvəlcə özləri təxmin edirlər, daha sonra müəllimin köməyi ilə dəqiqləşdirirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sözlərin izahını oxuyur və şəkildə nömrələnmiş hissə ilə uyğunlaşdırırlar. Bununla da yeni tanış olduqları sözləri şəkil vasitəsilə daha asan mənimsəyirlər. **Düzgün cavab:** mazğal – 3; bürc – 1; darvaza – 2.

**Tapşırıq (A) iş dəftəri.** Şagirdlər krossvordu həll etməklə mətndə rast gəldikləri yeni sözləri

mənimsədiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

1. bani; 2. əyan; 3. miras; 4. sürgün; 5. iqamətgah; 6. nüfuz.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlər mətnlə bağlı faktoloji sualları cavablandırdıqdan sonra müəllim diqqəti lövhədə çəkdiyi BİBÖ cədvəlinin sonuncu xanasına yönəldir və soruşur:

*– Qarabağın tarixi ilə bağlı hansı məlumatları öyrəndiniz?*

Müəllim şagirdlərin söylədiklərini ümumiləşdirib cədvəli tamamlayır.

3.1.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətndən aldıqları informasiya əsasında məlumat vərəqini doldurmaqla həm oxuyub-qavrama, həm də yazı bacarıqlarını inkişaf etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir. | Tap. A, B (dərslik) |
| Oxuyarkən qabaqcadan müəyyən olunmuş sualların cavablarını mətndən seçir. | “Pənahəli xan” mətni |
| Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. C (dərslik) Tap. A (iş dəftəri) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. Ç, Tap. B (iş dəftəri) |

## 2-ci dərs. Tarixi-informativ mətn

Dərslik: səh. 36-37 • İş dəftəri: səh. 22

**Təlim məqsədləri**

- Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).
- İnformativ mətndəki fakt və fikirlərdən çıxış edərək müəllifin məqsədini müəyyən edir (st. 2.2.4).
- Tarixi-informativ mətndəki hadisələrin xronoloji ardıcıllığını müəyyən edir (st. 2.2.2).
- Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 1.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Pənahəli xan” mətninin xatırlanması. |
| 2 | **Oxuyub-qavrama** | Tarixi-informativ mətnin xüsusiyyətləri ilə tanışlıq. |
| 3 | **Dinləmə** | “Hüseynqulu xan” mətni üzrə iş. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

*– “Pənahəli xan” mətnindən aldığınız hansı məlumatlar sizin üçün maraqlı oldu?*

Şagirdlər sual ətrafında mətni xatırlayırlar.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (dərslik).** Şagirdlər mətnin struktur elementlərindən biri olan haşiyə ilə bağlı bilikləri xatırlayaraq tapşırığı yerinə yetirirlər.

**Doğru cavab:** Mətnin 1-ci abzasında işlənmiş “soy” sözü haşiyədə izah olunmuş və Cavanşirlər soyundan olan bir neçə məşhur şəxsiyyətin adı çəkilmişdir.

2.2.4 **Tapşırıq B (dərslik).** Tapşırıqda verilmiş fikirlərin hamısı mətnin məzmunu ilə bağlıdır. Lakin 1-ci və 4-cü fikirlər “Pənahəli xan” mətninin ideyasını əks etdirir. 1-ci və 3-cü fikir mətndə epizodik xarakter daşıyır və yalnız mətnin əvvəlində bu haqda məlumat var. Mətnin ideyası onun bütün məzmununu əks etdirməlidir. Odur ki müəllifin mətni yazmaqda məqsədi Qarabağ xanlığının yaradıcısı olan Pənahəli xanı tanıtmaq, onun Azərbaycan tarixində mühüm xidmətlərindən bəhs etməkdir.

2.2.2 **Tapşırıq C (dərslik).** “Pənahəli xan” mətni tarixi-informativ mətndir. Belə mətnlərdə tarixi hadisələr xronoloji ardıcıllıqla göstərilir. Şagirdləri ibtidai təhsil pilləsində bu cür mətnlərlə tanış etmək növbəti təhsil mərhələsinə hazırlıq məqsədi daşıyır.

Tapşırıq vasitəsilə şagirdlərin diqqəti mətndə verilmiş tarixlərə yönəldilir.

**“Yadda saxla” rubrikası.** Şagirdlər tarixi-informativ mətnlərlə bağlı rubrikada verilmiş məlumatları oxuyub, müəllimin köməyi ilə aydınlaşdırırlar. Müəllim Pənahəli xan mətninin

nümunəsində əlavə izah verə bilər:

– *Belə mətnlərdə tarixi hadisələr xronoloji ardıcıllıqla verilir. Oxucunu hadisələrin fakt olduğuna inandırmaq üçün faktiki şəkillərdən istifadə edilir. Müxtəlif alimlərin fikirlərinə istinad olunur. Haşiyələrdə əlavə şərhlər verilir. Həmin dövrə məxsus köhnəlmiş sözlərə rast gəlinir* və s.

**Müəllimin nəzərinə!** Tarixi-informativ mətnlər üzrə işin təşkili zamanı şagirdlərdən tarixləri yadda saxlamaq tələb olunmur. Məqsəd şagirdləri tarixi-informativ mətnlərin xarakterik xüsusiyyətləri ilə tanış etməkdir.

**Tapşırıq Ç (dərslik). Cütlərlə iş.** Cütlər tapşırığı yerinə yetirmək üçün "Pənahəli xan" mətnini nəzərdən keçirib müvafiq hadisələrin tarixlərini müəyyənləşdirirlər. Daha sonra həmin hadisələri ardıcıllıqla düzürlər.

**Düzgü cavab:** B, A, Ç, D, C.

**Tapşırıq D (dərslik).** Şagirdlər mətndə göstərilmiş tarixləri analiz etməklə tapşırıqdakı hadisələrin tarixlərini müəyyənləşdirirlər.

Tapşırıq bir qədər çətin xarakterli olduğu üçün cütlərlə iş forması məqsədəuyğundur.

1. Mətndə Qarabağ tayfalarının Nadir şaha qarşı çıxmasının 1736-cı ildə baş verdiyi göstərilir. Nadir şahın öldürülməsi tarixi isə 1747-ci ildir. Pənahəli xanın Nadir şahın sarayını tərk edib Qarabağa gəlməsi hadisəsi məhz bu tarixlər aralığındakı 1738-ci il tarixinə uyğun gəlir.

**2.** *Pənahəli xanın ölümündən sonra oğlu İbrahim Qarabağ xanı oldu.* Bu hadisənin tarixini müəyyənləşdirmək üçün Pənahəli xanın şəklinin altında verilmiş məlumatdan istifadə etmək lazımdır. Belə ki, Pənahəli xan 1763-cü ildə vəfat edib. Həmin il Pənahəli xanın oğlu İbrahim xan Qarabağ xanı olub.

**Tapşırıq A (iş dəftəri).** Tapşırığın məqsədi tarixi-informativ mətnlərin dil-üslub xüsusiyyətlərini şagirdlərin diqqətinə çatdırmaqdır. Belə mətnlərdə köhnəlmiş sözlər, həmin dövrdə dilin lüğət tərkibinə xas leksika öz əksini tapır. Şagirdlər tapşırıqda verilmiş fikrin məhz keçmiş dövrə xas olduğunu belə əsaslandıra bilərlər:

– *Qala, bürc, mazğal qədim dövrə aiddir. Keçmiş zamanlarda yurdu qorumaq üçün onun ətrafına qala divarları çəkirlərmiş. Ətraf ərazilərə nəzarət etmək üçün qalada dairəvi bürclər tikərlərmiş. Qala divarlarındakı mazğallardan ox atmaq, ataş açmaq üçün istifadə olunarmış.*

**Tapşırıq B (iş dəftəri).** Pənahəli xan mətnindəki hadisə və tarixləri cədvəldə yerləşdirməklə oxuyub-qavrama bacarıqlarını inkişaf etdirirlər.

**Diferensial təlim**

Çətinlik çəkən şagirdlərin xronoloji cədvəli tamamlaması üçün "Pənahəli xan" mətnini yenidən nəzərdən keçirməsi tövsiyə olunur.

**Dinləmə**

1.1.1 **Tapşırıq E (dərslik).** Şagirdlərin tarixi-informativ mətn üzrə təsəvvürlərini genişləndirmək üçün "Hüseynqulu xan" mətni üzrə iş aparılır. Tapşırıqda yaddaş xəritəsi verilib. Müəllim mətni səsləndirməzdən öncə şagirdlərə həmin yaddaş xəritəsində göstərilmiş başlıqlar üzrə qeydlər götürməyi tapşırır. Şagirdlər mətni dinlədikcə tələb olunan məlumatlara diqqət yetirməklə qeydlər aparırlar.

**Hüseynqulu xan**

*Rusiya Azərbaycan ərazisindəki xanlıqları ələ keçirməyə çalışırdı. Bu məqsədlə rus ordusu 1804-cü ildə Gəncə xanlığına hücum edir. Ağır döyüşlərdə Cavad xan həlak olur. Gəncə işğal edilir.*

*1805-ci ildə isə Qarabağ, Şəki və Şamaxı xanlıqları rus hakimiyyətinə tabe olur.*

*1806-cı ildə general Sisyanovun başçılığı ilə rus ordusu Bakıya hücum edir. Bakı camaatının müqavimətinə baxmayaraq rus ordusu Bakını mühasirəyə alır. Sisyanov Bakı xanı Hüseynqulu xandan qala qapısının açarlarını istəyir. Hüseynqulu xan razılıq verir. Açarları şəxsən Sisyanova təhvil verəcəyini söyləyir. General Sisyanov Bakının Qala qapısının yanına gəlir. Burada o, Hüseynqulu xanın qardaşı oğlu tərəfindən öldürülür. Bununla Gəncə xanı Cavad xanın və minlərlə azərbaycanlının qisası alınır.*

**Yaddaş xəritəsi üzrə qeydlər:**

Məkan: Azərbaycan, Gəncə, Bakı

Tarixlər: 1804, 1805, 1806-cı illər

Tarixi şəxsiyyətlər: Cavad xan, Sisyanov, Hüseynqulu xan.

Tarixi hadisələr: 1. *Rus ordusunun Gəncəyə hücumu və Cavad xanın öldürülməsi;*

*2. Qarabağ, Şəki və Şamaxı xanlıqlarının rus hakimiyyətinə tabe olması;*

*3. Rus ordusunun Bakı xanlığına hücumu və general Sisyanovun Hüseynqulu xanla görüşü, Sisyanovun öldürülməsi ilə azərbaycanlıların qisasının alınması.*

*Köhnəlmiş sözlər: xan, xanlıq*

**Tapşırıq Ə (dərslik).** Şagirdlər dinlədikləri mətnin tarixi-informativ mətn olmasını əsaslandırırlar. Bununla onlar informativ mətnin bir növü olan tarixi-informativ mətnin məzmun xüsusiyyətlərini mənimsəyirlər.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş hadisələrin tarixlərini müəyyənləşdirməklə dinlədikləri mətni qavradıqlarını nümayiş etdirirlər. Həmçinin hadisələrin xronoloji ardıcıllığının tarixi-informativ mətn üçün əsas xüsusiyyət olmasını mənimsəyirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin struktur elementlərini (haşiyəni) mətnin əsas məzmunu ilə əlaqələndirir. | Tap. A (dərslik) |
| İnformativ mətndəki fakt və fikirlərdən çıxış edərək müəllifin məqsədini müəyyən edir. | Tap. B (dərslik) |
| Tarixi-informativ mətndəki hadisələrin xronoloji ardıcıllığını müəyyən edir. | Tap. C, Ç, D (dərslik) |
| Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir. | Tap. E, Ə (dərslik) Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsin mövzusu tarixi mənbə haqqındadır. Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün muzeylər haqqında söhbət apara bilər. Ola bilər ki, bəzi şagirdlərin muzeylərlə tanışlığı yoxdur. Ona görə də bu haqda videomaterialın nümayişi tövsiyə olunur.

## 3-cü dərs. Tarixi mənbə

Dərslik: səh. 37-38 • İş dəftəri: səh. 23

### Təlim məqsədləri

- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
- Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir (st. 2.2.5).
- Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 2.2.3).
- Oxuduğu mətnlərin ideya yaxınlığını müəyyən edir (st. 2.2.3).
- İnformativ mətndə fikir və arqumentlər arasındakı məntiqi əlaqəni müəyyən edir (st. 2.2.2).
- Fakt, hadisə və fikirləri mətnin abzas və hissələri üzrə strukturlaşdırır (st. 3.1.4).
- Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st. 3.1.1).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Muzeylə bağlı şəkillərin və ya videoçarxın nümayişi. |
| 2 | **Danışma** | Keçmişə aid məlumatların toplanması haqda müzakirə . |
| 3 | **Oxuyub-qavrama** | Tarixi mənbə haqda məlumatın mənimsədilməsi. Müxtəlif tarixi mənbələr üzrə iş. |
| 4 | **Yazı** | Tarixi-informativ mətnin yazılması. Gələcəklə bağlı təsəvvürlərin yazıda ifadə olunması. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə sual verir:

*– Hansı muzeyə getmisiniz? Orada hansı eksponatlarla tanış olmusunuz? Sizcə, muzeylər nə üçün yaradılıb? Oradakı eksponatlar nə üçün dəyərlidir? Nə üçün onları qorumalıyıq?*

Şagirdlər suallar ətrafında müşahidə etdikləri haqqında danışırlar.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər keçmiş zamanlarda baş vermiş hadisələrin öyrənilməsi

haqqında fikir yürüdürlər. Bununla şagirdlərdə tarixi-informativ mətnlərin necə yaranması haqda təsəvvür yaradılır.

### Oxuyub-qavrama

**“Yadda saxla” rubrikası.** Şagirdlər rubrikada tarixi mənbə anlayışı haqda verilmiş məlumatı oxuyub aydınlaşdırırlar.

2.2.5 **Tapşırıq B (dərslik).** Şagirdlər müxtəlif tarixçilərin vaxtilə qələmə aldıqları əsərlərdən nümunələri oxuyub “Pənahəli xan” mətni ilə əlaqələndirməlidirlər. Bunun üçün müəllim şagirdlərə mətnin uyğun yarımbaşlığını (Şuşa qalası və Qarabağ xanlığının yaranması) nəzərdən keçirməyi tapşırır. Şagirdlər mətndəki müvafiq hissəni oxuyub uyğun məlumatı müəyyənləşdirirlər.

<u>Mətndəki məlumat:</u> Şəhərin ətrafına 2,5 km uzunluqda olan müdafiə divarları tikilmişdir. Qalanın dairəvi bürcləri, mazğalları və üç darvazası var.

2-ci tarixi mənbə mətnin ilk abzasındakı məlumatı təsdiq edir.

<u>Mətndəki məlumat:</u> 1747-ci ildə Nadir şahın ölümündən sonra vaxtilə sürgün edilmiş qarabağlılar vətənə qayıdırlar. Pənahəli vətənpərvərliyinə və igidliyinə görə Qarabağda böyük nüfuz qazanır.

2.2.3 Sonra şagirdlər oxuduqları tarixi mənbələrdən aldıqları yeni informasiyaları müəyyən edirlər:

1. Qalanın daxilindəki kiçik dördbucaqlı qəsrlərdə Pənahəli xan və onun ailəsi yaşayarmış.
2. Nadir şah qarabağlıları cəzalandırmaq üçün onları Xorasana sürgün etdiribmiş.
3. Qarabağlıların sürgündən qayıtmasına Pənahəli xan kömək edib.

2.2.5 **Tapşırıq C (dərslik).** Şagirdlər şəkillərin altında yazılmış şərhi oxuyub Pənahəli xan mətnindən uyğun məlumatı seçirlər.

**Düzgün cavab:** Tarixi mənbənin təsdiq etdiyi məlumat mətnin “Şuşa qalası” adlı yarımbaşlıqlı hissəsində verilmişdir: *Şəhərdə "pənahabadi" adlı gümüş pul buraxılmağa başlayır.*

2.2.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər bayatını oxuyur və öyrəndikləri məlumatlara əsasən fikirlərini təxminən belə əsaslandırırlar:

*– Pənahəli xanın tikdirdiyi Şuşa qalası bu gün də qorunub saxlanılır və Azərbaycan xalqı üçün yenilməzlik simvoluna çevrilib. Bayatıda deyildiyi kimi, əsl şəxsiyyət dünyadan köçüb gedəndən sonra adının yaşaması üçün çalışmalıdır.*

Şagirdlərin diqqəti bayatıda işlənmiş “qala” sözünün mənalarına yönəldilir. Aydın olur ki, I və II misralarda olan “qala” sözü həm isim (müdafiə məqsədi ilə tikilmiş xüsusi tikili), həm də feil (məxsus olmaq) kimi düşünülə bilər. III və IV misralarda isə yalnız feil kimi (yaşamaq, var olmaq mənalarında) işlənmişdir.

### Oxuyub-qavrama. Yazı

2.2.2 **Tapşırıq D (dərslik).** Şagirdlər tapşırıqda verilmiş tarixi mənbələrdəki faktları analiz edib qalaların tikilmə ardıcıllığını və yerləşdiyi əraziləri müəyyənləşdirirlər. Tapşırıqda verilmiş tarixi mənbələrə görə Pənahəli xan əvvəlcə Bayat qalasını, sonra Şahbulaq qalasını, daha sonra Şuşa qalasını tikdirmişdi. Bu haqda “Pənahəli xan” mətnində də məlumat verilmişdir. Şagirdlər mətndəki müvafiq məlumatı taparaq faktları tutuşdururlar.

3.1.4 Şagirdlər həm mətndən, həm də tarixi mənbələrdən əldə etdikləri məlumatları ümumiləşdirib Qarabağ qalaları haqqında təxminən belə bir mətn hazırlaya bilərlər:

*Bayat qalası Ağcabədi ərazisində yerləşir. Bu qalanı Pənahəli xan 1747-ci ildə Qarabağ xanlığını yaratdıqdan sonra tikdirib. Bura Qarabağ xanlığının ilk iqamətgahı olub.*

*Ağdam ərazisində yerləşən Şahbulaq qalasını da Pənahəli xan tikdirib. Bura Qarabağ xanlığının ikinci iqamətgahı olub. Bu haqda 1884-cü ildə Əhməd bəy Cavanşir öz əsərində yazır: “Pənah xan öz iqamətgahını Bayat qalasından Şahbulağa köçürdü. Lakin buranın iqlimi isti idi. Həm də xanlığın mərkəzi kimi əlverişli deyildi. Bu səbəbdən xan burada həmişəlik qalmağı münasib görmədi”.*

*Pənahəli xanın tikdirdiyi qalalardan ən möhkəmi Şuşa qalası olur. Pənahəli xan Qarabağın ən yüksək hissəsində sıldırım qayaların üzərində indiki Şuşa şəhərini saldırır və şəhərin ətrafına qala divarları çəkdirir.*

Müəllim şagirdlərin mətn yazarkən hər qala haqqındakı məlumatları abzasdan başlamalarına diqqət etməlidir.

**2.2.3 Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin "tarixi mənbə" anlayışını daha dərindən mənimsəməsinə kömək edir. Şəkilaltı şərhləri oxuyan şagirdlər Qarabağ haqqında yeni informasiyalar əldə edirlər.

1. Qarabağ xanlığının özünəməsus bayrağı olub. Bayrağın üzərində qartal təsvir edilmişdir.

2. Şuşa qalasının darvazaları açarla bağlanırmış. Bu açarlar gümüşdən hazırlanıbmış.

**2.2.5 Tapşırıq B (iş dəftəri).** Şagirdlər Qobustan qayaları ilə bağlı aşağı siniflərdə məlumat almışlar. Bu dərsdə isə Qobustan təsvirləri tarixi mənbə kimi nəzərdən keçirilir. Bununla şagirdlərin tarixi mənbə ilə bağlı bilikləri daha da möhkəmləndirilir.

1 – C, 2 – A, 3 – B, 4 – A, C.

**3.1.1 Tapşırıq C (iş dəftəri).** Mövzunun şagirdlərin həyatı ilə əlaqələndirilməsi "tarixi mənbə" anlayışının daha dərindən mənimsədilməsinə kömək edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Tarixi mənbəyə əsasən mətndəki fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir. | Tap. B, C (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Oxuduğu mətnlərin ideya yaxınlığını müəyyən edir. | Tap. Ç (dərslik) |
| Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| İnformativ mətndə fikir və arqumentlər arasındakı məntiqi əlaqəni müəyyən edir. | Tap. D (dərslik) |
| Təsəvvür etdiyi məlumatları yazıda əks etdirir. | Tap. C (iş dəftəri) |

## 4-cü dərs. İsmin hallanması

Dərslik: səh. 39 • İş dəftəri: səh. 24

**Təlim məqsədləri**
• Cümlədə isimləri uyğun halda işlədir (st. 4.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şuşa sözünün müxtəlif şəkilçilər qəbul edə bilməsinə diqqətin yönəldilməsi. |
| 2 | **Dil qaydaları** | İsmin hallanması haqqında məlumatın mənimsədilməsi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərə tapşırıqda verilmiş cümlələri oxumaq üçün vaxt verir. Şagirdlər "Şuşa" sözünün cümlələrdə müxtəlif cür şəkilçi ilə işləndiyinə diqqət edirlər.

Sonra bir neçə şagird növbə ilə lövhədə müxtəlif şəkilçilər qəbul etmiş "Şuşa" sözünü yazaraq tərkibindəki şəkilçini ayırırlar.

Şagirdlərin sözləri lövhədə alt-alta yazması məqsədəuyğundur. Müəllim eyni sözün müxtəlif şəkilçilər qəbul edə bilməsini şagirdlərin diqqətinə çatdırır.

### Dil qaydaları

**4.1.3 "Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdlərə rubrikada verilmiş sxemi nəzərdən keçirmələri üçün müəyyən vaxt verir. Şagirdlər hər bir halın adını oxuyub şəkilçisini müəyyənləşdirirlər.

Lövhədə A tapşırığı üzrə görülmüş iş davam etdirilir. Müəllim müxtəlif hallarda işlənmiş Şuşa sözünün hansı halda olduğunu soruşur və qarşısında yazır. Eyni zamanda şagirdlərdən həmin sözün hansı suala cavab verdiyini də soruşub yazmaq mövzunun mənimsədilməsinə kömək edər. Bu fəaliyyət B tapşırığının yerinə yetirilməsini şagirdlər üçün asanlaşdıra bilər.

**Müəllimin nəzərinə:** İlk dərsdə şagirdlərin halları fərqləndirə bilməsi və yadda saxlaması çətinlik yarada bilər.

Bunun üçün yaxşı olar ki, müəllim hal adlarının mənasını da izah etsin. Məsələn, “Bu, Kərimin dəftəridir” cümləsində “Kərim” sözünə əlavə olunan şəkilçi yiyəlik, sahiblik məzmunu yaradır. Odur ki bu hal yiyəlik hal adlanır. Digər halları da bu qayda ilə izah etmək mümkündür.

**Tapşırıq B (dərslik).** Şagirdlər cümlələrin məzmununa müvafiq olaraq müəllim sözünü hallandırıb yazırlar. Tapşırıq yerinə yetiriləndən sonra müəllim şagirdlərin birindən soruşa bilər:

*– 1-ci cümləni oxu. Bu cümlədə “müəllim” sözü hansı haldadır? 2-ci cümləni oxu. Bu cümlədə isim hansı halın şəkilçisini qəbul edib?* Tapşırıq bu ardıcıllıqla sona qədər müzakirə oluna bilər.

**“Diqqət et” rubrikası.** Rubrikada saitlə bitən sözlərə yiyəlik, yönlük və təsirlik hal şəkilçilərini əlavə etdikdə söz kökü ilə şəkilçi arasına n, y bitişdirici samitlərinin artırılması qaydası sxem şəklində təqdim edilmişdir. Şagirdlərdə ismin hal şəkilçiləri ilə bağlı dəqiq təsəvvür yaratmaq üçün rubrikadakı məlumat şərh olunur.

**Tapşırıq C (dərslik).** Tapşırıq “Diqqət et” rubrikasındakı məlumatın mənimsədilməsinə xidmət edir. Şagirdlər isimlərə uyğun şəkilçilər artırıb cümlələri köçürürlər. Şəkilçi əlavə etdikləri ismin halını müəyyənləşdirirlər və həmin isimdə söz kökü ilə şəkilçinin arasında olan bitişdirici samiti seçib işarə edirlər.

**Düzgün cavab:** 1, 2, 4, 5-ci cümlələrdəki isimlər (balta**n**ı, pəncərə**n**i, Bakı**n**ın, gəmi**n**i) **n**, 3 və 6-cı cümlələrdəki isimlər isə (usta**y**a, sərgi**y**ə) **y** bitişdirici samiti qəbul etmişdir.

**Diferensial təlim**

Müəllim tapşırığı tez yerinə yetirən şagirdlərə həmin isimlərdə olan bitişdirici samitləri işarə etməyi tapşıra bilər.

Müəllim tapşırığı yerinə yetirməkdə çətinlik çəkən şagirdlərin ismin halları və bitişdirici samitlər üzrə biliklərini şifahi sorğu apararaq möhkəmləndirə bilər.

**Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Tapşırıqda hər qrupun üç sözü hallandırması nəzərdə tutulub. Müəllim qrupların fəaliyyətini aşağıdakı nümunədə göstərildiyi kimi qura bilər.

**Nümunə:**

1. Adlıq hal – rəssam (kim?) Rəssam şəkil çəkdi.
2. Yiyəlik hal – rəssam<u>ın</u> (kimin?) Rəssamın evidir.
3. Yönlük hal – rəssam<u>a</u> (kimə?) Rəssama verdim.
4. Təsirlik hal – rəssam<u>ı</u> (kimi?) Rəssamı çağırırlar.
5. Yerlik hal – rəssam<u>da</u> (kimdə?) Rəssamda var.
6. Çıxışlıq hal – rəssam<u>dan</u> (kimdən?) Rəssamdan fırçasını istədim.

**Müəllimin nəzərinə.** Təqdimat zamanı şagirdlərin hallandırdıqları sözlərin bitişdirici samit qəbul etməsi ilə bağlı şərh verməsi tövsiyə olunur.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş sözləri cədvəldə hallar üzrə qruplaşdırırlar.

**Tapşırıq B, C, (iş dəftəri).** Tapşırıqlar şagirdlərin dil qaydaları üzrə yeni biliklərini, həmçinin cümlə qurmaq vərdişlərini möhkəmləndirir.

**C tapşırığı üzrə düzgün cavab:**

1. Günay şeiri dəftərə köçürdü.
2. Bilal həyətdə pişiyə evcik düzəltdi.
3. Sürücü turisti kənddən şəhərə apardı.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İsimləri cümlədə müvafiq halda işlədir. | Tap. B, C, Ç (dərslik)<br>Tap. A, B, C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə Xan Şuşiniskinin ifasında “Qarabağ şikəstəsi” və Səxavət Məmmədovun ifasında “Sarı bülbül” nəğmələrinin səsləndirilməsi tövsiyə edilir.

fəsil 2

# YADDAN ÇIXMAZ QARABAĞ

## 1-ci dərs. Qarabağ şikəstəsi

Dərslik: səh. 42–43 • İş dəftəri: səh. 25

**Təlim məqsədləri**
- Mətni intonasiya ilə oxuyur (st. 2.2.1).
- Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st. 2.1.2).
- Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 2.1.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
- Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir (st. 2.2.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual ətrafında danışma. |
| 2 | **Oxu** | "Qarabağ şikəstəsi" mətninin oxusu. |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi. |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər tanıdıqları Azərbaycan qadınları (jurnalist Salatın Əsgərova, Cavad xanın həyat yoldaşı Bəyim, şairə Xurşidbanu Natəvan və s.) haqqında bildiklərini söyləyirlər.

### Oxu

**"Qarabağ şikəstəsi" mətni.** Müəllim şagirdlərdə Qarabağ şikəstəsinin yaranması ilə bağlı rəvayəti oxumağa maraq yaratmaq üçün "Qarabağ şikəstəsi" muğamını səsləndirir və soruşur:

*– Bu muğam haqqında nə bilirsiniz?*

2.2.1 **Növbəli oxu.** Şagirdlər mətni aydın səslə və intonasiya ilə oxuyurlar. Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirirlər. Yeni tanış olduqları sözləri müəllimin köməyi ilə aydınlaşdırırlar.

**Müəllimin nəzərinə!** Ağabəyim ağanın söylədiyi bayatıları sinifdə gözəl səsi olan şagirdlərə avazla oxumağı tapşırmaq olar. Mətnin sonuncu hissəsində verilmiş nəğmənin (Səxavət Məmmədovun ifasında "Sarı bülbül") səsləndirilməsi dərsin musiqi ilə inteqrasiyasını təmin edər.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq B (dərslik).** Şagirdlərin diqqəti mətndə fərqləndirilmiş frazeoloji birləşməyə yönəldilir. Şagirdlər frazeoloji ifadəyə uyğun gələn izahı müəyyənləşdirirlər:

2. Tez anlamaq, dərhal başa düşmək

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş izahları oxuyur, söz boğçasındakı sözlərlə uyğunlaşdırırlar. Tapşırıq vasitəsilə şagirdlərin söz ehtiyatı zənginləşdirilir.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər mətnin məzmunu ilə bağlı faktoloji sualları cavablandırmaqla mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamaq mümkündür.

**Düzgün cavab:**
1. Ağabəyim ağa İbrahim xanın qızıdır.
2. "Vətən bağı" Tehranda yerləşirdi.
3. Ağabəyim ağanın uşaqlığı Şuşada keçmişdi.
4. Ağabəyim ağanın vətəni Azərbaycan (Şuşa) idi.

**Diferensial təlim**

Çətinlik çəkən şagirdlərin doğru fikirlər yazması üçün mətni nəzərdən keçirməsi tövsiyə olunur. Bu həmin şagirdlərin mətndən lazımi cümlələri seçmək bacarığını inkişaf etdirir.

**Müəllimin nəzərinə!** Şagirdlərə əlavə məlumat verilə bilər: İbrahim xan Pənahəli xanın oğludur. Ağabəyim ağa Pənahəli xanın nəvəsidir.

2.2.4 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər mətnin məzmunundan çıxış edərək hadisələrin səbəbini müəyyənləşdirib yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir. | "Qarabağ şikəstəsi" mətni |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir. | Tap. B (dərslik) |
| Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. | Tap. C (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir. | Tap. C (iş dəftəri) |

## 2-ci dərs. Məlumat vərəqi əsasında informativ mətnin yazılması

•Dərslik: səh. 42 • İş dəftəri: səh. 26

### Təlim məqsədləri

- Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir (st. 2.2.4).
- Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 2.2.3).
- Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir (st. 2.2.5).
- Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 2.2.4).
- Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir (st. 3.1.3).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Qarabağ şikəstəsi" mətninin xatırlanması. |
| 2 | **Oxuyub-qavrama** | "Qarabağ şikəstəsi", "Pənahəli xan" mətnlərinin müqayisəsi. Ağabəyim ağa haqqındakı məlumat vərəqi üzrə iş . |
| 3 | **Yazı** | Ağabəyim ağa haqqında informativ mətnin yazılması. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim suallar verməklə "Qarabağ şikəstəsi" mətnini xatırladır.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq A (dərslik).** Hər bir mətni yazan müəllifin oxuculara çatdırmaq istədiyi əsas fikir olur. Şagirdlərin oxuduqları mətnin yazılma məqsədini, ideyasını müəyyənləşdirə bilməsi oxuyub-qavrama bacarığının əsas göstəricilərindən biridir. Tapşırığın məqsədi bu bacarığı inkişaf etdirməkdir. Tapşırıqda verilmiş fikirlərin əsas fikir olub-olmaması şagirdlər tərəfindən müzakirə olunur. Bu zaman şagirdlərin seçimlərini əsaslandırmasına diqqət olunmalıdır. Mətnin əsas fikrini, yəni ideyasını müəyyənləşdirmək üçün həmin fikrin mətnin əvvəlindən sonuna qədər davam etməsinə diqqət etmək lazımdır. Məsələn, mətndə Qarabağın gözəl təbiətinin olması barədə də danışılır. Ancaq bu mətndəki əsas fikir deyil, çünki bu haqda mətnin yalnız sonunda epizodik məlumat verilir.

**Düzgün fikirlər:**

2. Ağabəyim ağanın Vətən həsrətini çatdırmaq

4. Qarabağ şikəstəsi muğamının yaranmasından bəhs etmək.

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər iki mətni müqayisə etməklə tarixi-informativ mətnin xüsusiyyətləri haqqında biliklərini möhkəmləndirirlər.

*"Pənahəli xan" mətninə xas xüsusiyyət:*

2. Tarixi hadisələr xronoloji ardıcıllıqla əks olunur. Nadir şahın sarayında Pənahəli xanın başına gələn hadisələr, Pənahəlinin Qarabağ xanlığını

yaratması və Şuşa şəhərinin salınmasına qədər baş verən hadisələr tarixi ardıcıllıqla göstərilir.

*"Qarabağ şikəstəsi" mətninə xas xüsusiyyətlər:*

1. Faktlarla yanaşı, təxəyyül də var. Bədii mətn olduğu üçün təxəyyülün olması xarakterik xüsusiyyətdir.

4. Mətndəki məlumatlar rəvayətə əsaslanıb. Fətəli şahın Ağabəyim ağaya görə "Vətən bağı"nı saldırması haqqında rəvayət var. Müəllif mətndə bu rəvayətdən istifadə edib.

*Hər iki mətnə xas xüsusiyyətlər:*

3. Tarixi şəxsiyyətlərin adı çəkilir. I mətndə Pənahəli xan və Nadir şah, II mətndə İbrahim xan və Fətəli şah tarixi şəxsiyyətlərdir.

**Tapşırıq C (dərslik). Cütlərlə iş.** Şagirdlər Ağabəyim ağa haqqında verilən məlumat vərəqini oxuyaraq "Qarabağ şikəstəsi" mətnində əksini tapan faktları müəyyənləşdirirlər.

Faktlar: Şuşada doğulub. Qarabağ xanı İbrahim xanın qızıdır. Həyat yoldaşı İran şahı Fətəli şahdır. Şairə olub.

Məlumat vərəqində verilmiş digər məlumatlar Ağabəyim haqqında şagirdlərin tanış olduğu yeni informasiyadır.

**Müəllimin nəzərinə!** "Xeyriyyəçi" və "diplomat" sözlərinin mənası izah edilməlidir.

Şagirdlərə Ağabəyim ağanın xeyriyyəçi və diplomat fəaliyyəti haqqında əlavə məlumat vermək olar: *Ağabəyim ağa xeyriyyəçi olub. Haqsızlıqla üzləşən insanların ümid yeri Ağabəyim ağa idi. Onun xahişini Fətəli şah yerə salmırdı. Bundan əlavə, o, xəstəxana, məktəb və məscid də tikdirmişdi.*

*Ağabəyim ağa diplomat idi. O, 1811-ci ildə Fransa imperatorunun arvadı ilə görüşmüş, onun vasitəsilə Napoleon Bonaparta məktub göndərmişdi.*

2.2.5 **Tapşırıq A (iş dəftəri). Riyaziyyatla inteqrasiya.** Şagirdlər tapşırıqda verilmiş fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyənləşdirmək üçün məlumat vərəqini yenidən nəzərdən keçirib məlumatları analiz edirlər.

Sonda kollektiv müzakirə aparılması tövsiyə olunur. Şagirdlər verilmiş fikirlərin doğru, yoxsa yanlış olmasını əsaslandırır.

**Doğru fikirlər:**

**1.** *1801-ci ildə İrana köçmüşdü.*

**2.** *21 yaşında vətənindən ayrı düşmüşdü.* Bu fikrin doğru, yoxsa yanlış olmasını müəyyən etmək üçün şəkilaltı şərhə də baxmaq lazımdır. Göstərilir ki, Ağabəyim ağa 1780-ci ildə doğulub. 1801-ci ildə İranda yaşamağa başlayıb. 1801-1780=21 yaş.

**Yanlış fikirlər:**

***2.*** *O, 65 yaşında vəfat etmişdi.* 1832-1780= 52

***3.*** *31 il İranda yaşamışdı.* *1831-1801=30*

**4.** *Ömrünün son illərində vətəninə qayıtmışdı.* Məlumat vərəqində 1832-ci ilə qədər İranda yaşadığı və 1832-ci ildə vəfat etdiyi qeyd olunur.

2.2.4 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər krossvordu həll etməklə Ağabəyim ağa haqqında oxuduqları məlumatları mənimsədiklərini nümayiş etdirirlər. Eyni zamanda yeni informasiya alırlar.

– Ağabəyim ağa Xurşidbanu Natəvanın bibisi olmuşdur.

1. Şuşa; 2. Ağabəyim; 3. vətən; 4. İbrahim
5. xeyriyyəçi; 6. diplomat

## Yazı

3.1.3 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Tapşırığın əvvəlcə şifahi şəkildə yerinə yetirilməsi tövsiyə olunur. Qrup üzvləri Ağabəyim ağa haqqında məlumat vərəqindəki məlumatları rabitəli cümlələrə çevirərək şifahi danışırlar.

Sonra yazı işinə başlayırlar. Əvvəlcə mətn üçün giriş cümlələr yazırlar. Daha sonra məlumat vərəqindəki əsas məlumatları sadalayırlar. Mətn üçün sonluq yazırlar. Qrup lideri qrup üzvlərinin təkliflər verməsinə nəzarət edir.

Mətn aşağıdakı məzmunda ola bilər:

*Azərbaycanın görkəmli, tanınmış qadınlarından biri Ağabəyim ağa olmuşdur.*

*O, 1780-ci ildə Şuşa şəhərində doğulmuşdur. Qarabağ xanı olan İbrahim xanın qızıdır. O, 1801-ci ildə İran şahı Fətəli şahla ailə quraraq İranda yaşamağa başlamışdır. Ömrünün sonuna qədər orada yaşamış, vətən həsrəti çəkmişdir. Bu mövzuda çoxlu şeirlər yazmışdır. Azərbaycan, fars və fransız dillərini bilirmiş.*

*Ağabəyim ağa həm də xeyriyyəçi və diplomat kimi tanınıb. Bütün var-dövlətini Qarabağın rus işğalından qorunmasına xərcləyib. İran dövlətinin idarə edilməsində yaxından iştirak*

*edib. 1811-ci ildə Fransa və İngiltərə diplomatları ilə görüşlər keçirib.*

*Ağabəyim ağa xalqını, vətənini çox sevən, savadlı, bacarıqlı bir azərbaycanlı olmuşdur. Onu hər zaman xatırlamalı, hər kəsə tanıtmalıyıq.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətndəki hadisələrdən və obrazların davranışından çıxış edərək ideyanı müəyyən edir. | Tap. A (dərslik) |
| Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. B, C (dərslik) |
| Mətndəki fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətndəki məlumatlar əsasında yeni informasiya əldə edir. | Tap. B (iş dəftəri) |
| Qrafik informasiya şəklində verilmiş məlumatları rabitəli mətn şəklində təqdim edir. | Tap. Ç (dərslik) |

## 3-cü dərs. Bayatı

Dərslik: səh. 43-44 • İş dəftəri: səh. 27

**Təlim məqsədləri**

- Bayatı janrını səciyyələndirən xüsusiyyətləri müəyyən edir (st. 2.2.3).
- Əldə etdiyi məlumatlardan çıxış edərək şeirin məzmununu şərh edir (st. 1.2.2).
- Mətnin məzmunu ilə bağlı suallar tərtib edir (st. 2.2.3).
- Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 1.1.1).
- Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Qarabağ şikəstəsi” mətnindəki bayatıların xatırlanması. |
| 2 | **Oxuyub-qavrama. Danışma** | Bayatı haqqında məlumatın mənimsədilməsi.<br>“Araz çayı” mətni üzrə iş. |
| 3 | **Dinləmə** | “Zəfər paradı” dinləmə mətni üzrə iş. |
| 4 | **Oxuyub-qavrama. Söz ehtiyatı** | Bayatılar üzrə iş. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər aşağı siniflərdən bayatı janrına aid şeir nümunələri ilə tanışdırlar. Bu dərsdə onlar bayatı janrını səciyyələndirən xüsusiyyətləri öyrənəcəklər. Tapşırıq vasitəsi ilə şagirdlərin diqqəti bayatı nümunəsinə yönəldilir.

### Oxuyub-qavrama. Danışma

2.2.3 **“Yadda saxla” rubrikası.** Rubrikada verilmiş nümunə üzərində bayatı janrına xas xüsusiyyətlər şagirdlərə izah olunur.

**Tapşırıq B (dərslik).** Şagirdlər bayatı haqqında yeni biliklərini tətbiq edərək bayatı misralarının ardıcıllığını müəyyənləşdirib yazırlar.

**1-ci bayatı:**

*Əzizim, sözə qaldı,*
*Bir şirin sözə qaldı.*
*Yad qovuldu dağlardan,*
*El-oba bizə qaldı.*

**2-ci bayatı:**

*Əzizim, ala dağlar,*
*Dörd yanı qala dağlar,*
*Bilirsənmi kimləri,*
*Salıbsan yola, dağlar?*

1.2.2 **Tapşırıq C (dərslik).** Bayatı şifahi xalq ədəbiyyatına məxsus janrlardan biridir. Bayatılar xalqın tarixini, yaşayış tərzini, mədəniyyətini və s. dəyərlərini özündə əks etdirir. Şagirdlər tapşırıqda verilmiş bayatıları oxuyaraq hansı tarixi hadisələrin təsiri ilə yarandığını müəyyənləşdirirlər. Sözügedən bayatılar Qarabağın

tarixində baş verən hadisələr – torpaqlarımızın işğal olunması və azad edilməsi haqqındadır. Şagirdlər bu hadisələr barədə bildiklərini danışırlar.

2.2.3 **Tapşırıq Ç, D (dərslik).** Şagirdlərin III sinifdə həmrəylik günü ilə bağlı öyrəndikləri məlumatlar xatırlanır.

**Cütlərlə iş.** Azərbaycanın tarixi torpaqlarının Rusiya və İran dövlətləri arasında bölüşdürülməsi haqqında kiçik bir mətn verilmişdir. Cütlər mətni oxuyur və mətndəki hadisələrə aid suallar tərtib edirlər:

*Neçənci ildə Azərbaycan iki yerə bölündü? Azərbaycan torpaqları hansı dövlətlər arasında bölüşdürüldü? Cənubi Azərbaycan ilə Şimali Azərbaycan Respublikasını ayıran sərhəd hansı çay idi? Araz çayı üzərindəki Xudafərin körpüsü nə üçün dağıdıldı? Xalq nə vaxt həsrətə son qoymaq üçün sərhəd çəpərlərini sökdü? Bu hadisənin Azərbaycanın müstəqillik qazanmasında hansı rolu oldu? Xudafərin körpüsü hansı rayonun ərazisində yerləşir? Xudafərin körpüsü neçə il erməni işğalı altında qalmışdır? Xudafərin işğaldan nə vaxt azad olundu?*

Cütlər təqdimat edirlər. Suallar digər cütlər tərəfindən cavablandırılır.

**Müəllimin nəzərinə!** “Kim daha çox sual tərtib edə bilər?” adlı müsabiqə təşkil etmək olar.

1.2.1 **Tapşırıq E (dərslik).** Şagirdlər bayatıları “Xudafərin körpüsü” mətnindən aldıqları məlumatlara əsasən şərh edirlər. Məqsəd bədii nümunələrin də tarixi əks etdirdiyini şagirdlərin diqqətinə çatdırmaqdır.

## Dinləmə

1.1.1 **Tapşırıq Ə (dərslik).** Müəllim aşağıdakı mətni səsləndirir:

**Zəfər paradı**

*44 günlük Vətən müharibəsində qazanılan qələbəni Azərbaycan xalqı 2020-ci ilin dekabr ayının 10-da keçirilən Zəfər Paradı ilə qeyd etdi. Həmin paradda Azərbaycana daim dəstək, arxadayaq olan Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan fəxri qonaq qismində tribunada yer aldı. O, Azərbaycanın tarixi zəfərini təbrik etmək üçün Azərbaycan xalqının dillər əzbəri olmuş nəğmələrini, bayatılarını dilə gətirdi. “Qarabağ şikəstəsi”nin adını çəkdi. “Ay Laçın, can Laçın, Mən sənə qurban Laçın” nəğməsini oxudu. “Arazı ayırdılar” bayatısı ilə həm də vətən həsrətli cənublu qardaşlarımızı salamladı, xalqın çəkdiyi tarixi zülmləri xatırlatdı:*

*Arazı ayırdılar,*
*Lil ilə doyurdular.*
*Mən səndən ayrılmazdım,*
*Zülm ilə ayırdılar.*

*Məşhur şairimiz Bəxtiyar Vahabzadənin şeirini səsləndirməklə Qarabağın əzəldən Azərbaycan torpaqları olduğunu bəyan etdi.*

*Hardan sənin oldu bizim* Qarabağ?
*Adı sahibini demirmi aşkar?*
*Xoşluqla verməzlər torpağı ancaq*
*Qanla möhürləyib, zorla alarlar.*
*İsa bulağının zümzüməsini,*
*Cabbarın, Seyidin, Xanın səsini,*
*Dalğalı Qarabağ şikəstəsini,*
*Babək türbəsini necə pay verim?*

*Türkiyə Prezidentinin tribunada Azərbaycan torpaqlarının tarixini məhz bayatılarla şeirlərlə, nəğmələrlə dilə gətirməsi milyonlarla insanın qəlbini oxşadı, Cənubi Azərbaycanda yaşayan həmvətənlərimizin dərdini ovundurdu.*

Şagirdlər dinlədikləri mətnin məzmunundan çıxış edərək tapşırıqdakı fikirləri əsaslandırırlar.

## Oxuyub-qavrama. Söz ehtiyatı

2.1.2. **Tapşırıq A (iş dəftəri).** Şagirdlər dərs boyu öyrəndiklərini tətbiq edirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər bayatılarda buraxılmış sözləri yerinə yazaraq oxuyub-qavrama bacarıqlarını nümayiş etdirirlər.

*Qəribəm, vətənim yox,*
*Bu yoldan ötənim yox,*
*Düşdüm dərin dəryaya*
*Əlimdən tutanım yox.*

*Gül üstündə şeh olum,*
*Ellərə sirdaş olum.*
*Qürbətdə şah olunca,*
*Vətənimdə daş olum.*

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər konketsdən çıxış edərək bayatılarda işlənmiş sözlərin mənalarını müəyyənləşdirirlər. Tapşırıq vasitəsilə şagirdlər həm söz ehtiyatını zənginləşdirir, həm də bayatıların dil-üslub xüsusiyyətləri ilə tanış

olurlar.

**Doğru cavab:**
1. Su axsın arxa gəlsin.
2. Köməyə arxa gəlsin.
3. Bostançı qovun dərdi.
4. Üstümdən qovun dərdi.

**Müəllimin nəzərinə!** Şeirin cinas qafiyə quruluşu ilə bağlı dərin bilikləri şagirdlər yuxarı siniflərdə əldə edəcəklər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bayatı janrını səciyyələndirən xüsusiyyətləri müəyyən edir. | Tap. B (dərslik) Tap. A, B (iş dəftəri) |
| Əldə etdiyi məlumatlardan çıxış edərək bayatının məzmununu şərh edir | Tap. C, E (dərslik) |
| Mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tap. D (dərslik) |
| Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir. | Tap. Ə (dərslik) |
| Sözün kontekstə uyğun mənasını müəyyən edir. | Tap. C (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimin üzərində adi dərəcə, çoxaltma dərəcəsi və azaltma dərəcəsi yazılmış qutular hazırlaması və səh. 45-də B tapşırığında verilmiş sifətləri kiçik kağızlara yazması tövsiyə olunur. Yaxşı olardı ki, şagirdlərin sayına uyğun olaraq sözlərin sayı artırılsın.

## **4-cü dərs.** Sifətin dərəcələri

Dərslik: səh. 45 • İş dəftəri: səh. 28

**Təlim məqsədləri**
• Sifətin dərəcələrini fərqləndirir (st. 4.1.3).
• Azaltma və çoxaltma dərəcəsində işlənən sifətləri düzgün yazır (st. 4.1.2).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | A tapşırığı üzrə iş. |
| 2 | **Dil qaydaları** | Sifətin dərəcələrinin fərqləndirilməsi və yazılış qaydasının mənimsədilməsi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqdakı boya şəkillərini fərqləndirmək üçün sözlər söyləyirlər. Sözlər təxminən belə ola bilər:

*1.tünd-yaşıl, yam-yaşıl; 2. yaşıl; 3. açıq-yaşıl, yaşılımtıl.*

Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün rəng çalarlarına görə fəqlənən karandaşlardan və s. əyani vasitələrdən istifadə edə bilər.

### Dil qaydaları

4.1.3 **“Bunları bilməliyik” rubrikası.** Müəllim sifətin dərəcələri haqqında verilmiş məlumatları nümunələr əsasında şərh edir.

**Tapşırıq B (dərslik).** Müəllim “Bunları bilməliyik” rubrikasında verilmiş nəzəri biliklərin tətbiqi məqsədi ilə tapşırığı oyun xarakterli keçirə bilər. Müəllim hazırladığı qutuları masanın üzərinə düzür. Şagirdlər növbə ilə masaya yaxınlaşır, kartlardan birini seçib oxuyur və sifətin hansı dərəcədə olduğunu müəyyənləşdirir, uyğun qutuya atır.

4.1.2 **“Diqqət et” rubrikası.** Rubrikada verilmiş sxem əsasında şagirdlərin diqqəti sifətlərin defislə, bitişik, yoxsa ayrı yazılmalı olduğuna yönəldilir. Sxemin şagirdlərin iştirakı ilə şərh olunması onların qrafik şəkildə verilmiş dil qaydasını mənimsəmələrini asanlaşdırar. Müəllim əvvəlcə şagirdlərdən 1-ci sütunda olan sözlərin sifətin hansı dərəcəsində olduğunu soruşur. Şagirdlər müəyyənləşdirirlər ki, açıq-boz və ala-çiy sifətləri azaltma dərəcəsində, tünd-qırmızı isə çoxaltma dərəcəsindədir.

Müəllim söyləyir:

*– Bu dərəcələri düzəltmək üçün hansı sözlərdən istifadə edilib?*

*Deməli, yadda saxlayın ki, açıq, tünd və ala sözləri ilə düzələn sifətlər defislə yazılmalıdır.*

Sxemin II sütununda m, p, r samitlərinin köməyi ilə düzələn sifətlərin bitişik yazılması göstərilir. Bu barədə şagirdlərə əlavə məlumat vermək tövsiyə olunur.

Sxemin III sütununda isə ən, lap, daha sözlərinin köməyi ilə düzələn çoxaltma dərəcəli sifətlərin ayrı yazılması şagirdlərin diqqətinə çatdırılır.

**Tapşırıq C (dərslik). Cütlərlə iş.** Tapşırıqdakı ilk cümləni müəllim şərh edir və cütlərə şifahi təlimat verir:

1. Cümlədəki sifətləri tapın.
2. Sifətlərin azaltma və ya çoxaltma dərəcəsində işləndiyini müəyyən edin.
3. Sifətlərin bitişik, defislə, yoxsa ayrı yazılmasına diqqət yetirin.
4. Dəqiqləşdirmə aparmaq üçün "Diqqət et" rubrikasındakı sxemdən istifadə edin.
5. Səhv yazılmış sifətləri düzgün yazaraq cümlələri köçürün.

**Düzgün cavab:** 1, 5, 7, 9, 10-cu cümlədəki sifətlər bitişik yazılmalıdır: yupyumuşaq, qıpqırmızı, turştəhər, səpsərin, dümağ.

3-cü cümlədəki sifət defislə yazılmalıdır: açıq-yaşıl.

2, 4, 6, 8-ci cümlədəki sifətlər ayrı yazılmalıdır: ən yüksək, lap şirin, daha böyük, lap qısa.

Sonda cütlərin təqdimatı dinlənilir.

**Müəllimin nəzərinə!** Şagirdlər tapşırığı yerinə yetirən zaman "dümağ" sifətinin düzgün yazılışını müəyyən etməkdə çətinlik çəkə bilərlər. Müəllim onların diqqətini B tapşırığında verilmiş sözlərə yönəldir və bu sözün bitişik yazılmasını yadda saxlamağı tövsiyə edir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sifətləri tələb olunan dərəcədə işlətməklə sifətin dərəcələrini fərqləndirdiklərini və yazılış qaydasını mənimsədiklərini nümayiş etdirirlər.

*1. boz – bozumtul, açıq-boz;*

*2. yumru – yupyumru, lap yumru;*

*3. turş – turştəhər;*

*4. sağlam, lap sağlam, sapsağlam, ən sağlam;*

*5. bənövşəyi – açıq-bənövşəyi, bənövşəyitəhər;*

6. təmiz – tərtəmiz, ən təmiz, lap təmiz, daha təmiz.

**Müəllimin nəzərinə!** İş dəftərindəki tapşırıqların yerinə yetirilməsindən öncə müəllim şagirdlərə debat xarakterli sual verə bilər:

*– "Ən zəif"," lap kiçik", "bapbalaca" sifətləri hansı dərəcədədir?*

Şagirdləri bu sual ətrafında düşündürmək çoxaltma dərəcəsinin mahiyyətini dərk etməyə kömək edər.

**Tapşırıq A, B, C (iş dəftəri).** Tapşırıqlar şagirdlərin sifətin dərəcələri ilə bağlı məlumatları necə mənimsədiklərini yoxlamağa imkan verir.

**C tapşırığının düzgün cavabı**: 1 – a; 2 – a; 3 – ç; 4 – c.

**Tapşırıq Ç (iş dəftəri).** Sifətlərin düzgün yazılışı üzrə biliklərin yoxlanılmasına və möhkəmləndirilməsinə xidmət edir.

**Düzgün cavab:**

Bitişik yazılır: qupquru, gömgöy

Defislə yazılır: tünd-sarı, açıq-çəhrayı

Ayrı yazılır: daha ətirli, ən işıqlı.

**Tapşırıq D (iş dəftəri).** Şagirdlər bu tapşırığı yerinə yetirərkən sifətin hansı dərəcədə olmasını kontekstə uyğun müəyyənləşdirə bilərlər.

1. dümağ və ya ağappaq
2. dumduru
3. tumturş
4. şipşirin

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sifətin dərəcələrini fərqləndirir. | Tap. B, C (dərslik)<br>Tap. A, B, C (iş dəftəri) |
| Sifətləri düzgün yazır. | Tap. Ç, D (dərslik)<br>Tap. Ç (iş dəftəri) |
| Cümlədə sifəti uyğun dərəcədə işlədir. | Tap. D (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə şagirdlər Qarabağın azadlığı uğrunda xidmətləri olmuş şəxslər haqqında (iş dəftəri, 29-cu səh. C tapşırığı) tapşırıq yerinə yetirəcəklər. Müəllim şagirdlərə tanıdıqları qəhrəmanlar, həkim, hərbçi, könüllülər və s. haqqında məlumat toplamağı tapşırmalıdır.

## fəsil 3 QARABAĞ AZƏRBAYCANDIR

### 1-ci dərs. Zəfərə aparan yol

Dərslik: səh. 46–48 • İş dəftəri: səh. 29

**Təlim məqsədləri**

- Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 2.1.1).
- İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 2.2.2).
- Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 2.2.4).
- Tarixi-informativ mətndəki hadisələrin xronoloji ardıcıllığını müəyyən edir (st. 2.2.2).
- Tarixi hadisələrə aid xronoloji cədvəl tərtib edir (st. 3.1.3).
- Tanış olduğu məlumatları yazıda əks etdirir (st. 3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzu ətrafında sual-cavab. |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Zəfərə aparan yol" mətninin oxusu. Söz boğçası üzrə iş. |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu ilə bağlı sualların cavablandırılması. Tarixi hadisələrin xronoloji ardıcıllığının müəyyənləşdirilməsi. |
| 4 | **Yazı** | Xronoloji cədvəlin tərtibi. |
| 5 | **Formativ qiymətləndirmə** | |

#### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər Ulu öndər Heydər Əliyevlə bağlı bildiklərini danışırlar və onları maraqlandıran məqamlarla bağlı suallar hazırlayırlar. Bu, təqdim olunmuş mətnin həvəslə oxunmasına kömək edə bilər. Mətn oxunduqdan sonra şagirdlərdən öz suallarına cavab tapıb-tapa bilmədiklərini soruşmaq məqsədəuyğundur. Müəllim bununla bağlı araşdırma tapşırığı verə bilər.

#### Oxu. Söz ehtiyatı

2.1.1 **"Zəfərə aparan yol" mətni üzrə iş. Səssiz oxu.** Müəllim şagirdlərə mətni oxumaq üçün müəyyən vaxt verir. Mətn səssiz oxunur. Şagirdlər mətndən tanış olmayan sözləri dəftərlərinə qeyd edirlər.

**Tapşırıq B (dərslik).** Mətn oxunduqdan sonra şagirdlər tapşırıqda verilmiş izahları oxuyurlar və söz boğçasında olan sözlərlə uyğunlaşdırırlar. Daha sonra mətndən həmin sözün işləndiyi cümləni tapıb oxuyurlar. Bununla onlar kontekstə əsasən sözlərin mənasını dəqiqləşdirirlər.

**Düzgün cavab:** 1– ataşkəs; 2 – müjdə; 3 – modern; 4 –taktika.

2.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər mətn əsasında sualları cavablandırırlar, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

2.2.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlərin diqqəti mətnə aid faktiki şəkillərə yönəldilir. Şəkilaltı şərhləri oxuyan şagirdlər mətnlə bağlı əlavə məlumatlar əldə etmiş olurlar. Müəllim onlara tarixi-informativ mətnləri oxuyarkən rast gəldikləri tarixi mənbələrə diqqət yetirməyi tövsiyə edir. Bununla şagirdlərdə tarixi-informativ mətnləri oxuyub-qavrama bacarıqları inkişaf etdirilir. Əlavə məlumatlar təxminən bunlardır:

*1. Heydər Əliyev məcburi köçkünlərə daim diqqət və qayğı ilə yanaşmışdır. Heydər Əliyev 1998-ci il, 9 oktyabrda Biləsuvar şəhərində məskunlaşan məcburi köçkünlərlə görüşüb.*

*2. 2020-ci il, 8 noyabrda İlham Əliyev Şuşa zəfərinin elan etməzdən öncə Şəhidlər xiyabanını ziyarət etmiş və bu mujdəni xalqa məhz Şəhidlər xiyabanında çatdırmışdır.*

*2020-ci il, 10 dekabrda Bakıda Zəfər paradı keçirilmişdir.*

**Tapşırıq D (dərslik).** Şagirdlər tapşırıqda verilmiş tarixi hadisələri oxuyur. Mətni yenidən nəzərdən keçirərək həmin hadisələrin tarixlərini qeyd edib xronoloji ardıcıllğı müəyyənləşdirirlər.

**Doğru cavab:** 4, 1, 2, 5, 3

2.2.2 **Tapşırıq A, B (iş dəftəri).** Şagirdlər mətndəki müvafiq yarımbaşlıqlar üzrə hadisələri təhlil etməklə tapşırıqları yerinə yetirirlər. Tapşırıqlar vasitəsilə şagirdlər informativ mətndən əsas faktları seçmək bacarıqlarını nümayiş etdirirlər.

### Yazı

**3.1.3** **Tapşırıq E (dərslik). Cütlərlə iş.** Tapşırıq vasitəsilə şagirdlərin məlumatlarla işləmək bacarığı inkişaf etdirilir. Şagirdlər mətndə və tapşırıqda verilmiş tarixi hadisələrdən ibarət xronoloji cədvəl hazırlayırlar. Cütlər onlara ayrılmış vaxt ərzində tərtib etdikləri xronoloji cədvəli təqdim edirlər.

**3.1.1** **Tapşırıq C (iş dəftəri).** Qarabağın azadlığı uğrunda xidmətləri olmuş şəxslər haqqında bildikləri məlumatları yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. B (dərslik) |
| İnformativ mətndəki əsas faktları müəyyən edir. | Tap. C (dərslik) Tap. A, B (iş dəftəri) |
| İllüstrasiyadan istifadə etməklə mətnin məzmunu ilə bağlı əlavə məlumat əldə edir. | Tap. Ç (dərslik) |
| Hadisələrin xronoloji ardıcıllığını müəyyən edir. | Tap. D (dərslik) |
| Tarixi hadisələrə aid xronoloji cədvəl tərtib edir. | Tap. E (dərslik) |
| İnformativ mətnin mövzusu ilə bağlı faktları yazıda əks etdirir. | Tap. C (iş dəftəri) |

## 2-ci dərs. Sitat

Dərslik: səh. 48–49 • İş dəftəri: səh. 30

**Təlim məqsədləri**

• Qeyd götürməklə dinləyir (st. 1.1.1).
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Sitat gətirməklə fikrini əsaslandırır (st. 1.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar vasitəsilə mövzu üzrə biliklərin xatırlanması. |
| 2 | **Oxuyub-qavrama** | Sitat haqqında məlumatın verilməsi. |
| 3 | **Dinləmə. Yazı** | Plan əsasında ifadənin yazılması. |
| 4 | **Danışma** | Sitat üzrə biliklərin mənimsədilməsi. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər II sinifdə obraz nitqinin dırnaq içərisində yazılması haqqında məlumat almışlar. Müəllim bu tapşırıq vasitəsilə şagirdlərə biliklərini xatırladır və onların diqqətini sitat mövzusuna yönəldir.

### Oxuyub-qavrama

**“Yadda saxla” rubrikası.** Rubrikada verilmiş məlumat və nümunə şərh olunur. Müəllim əlavə olaraq tarixi mənbə, istinad anlayışlarını da xatırladıb mövzunu daha dərindən mənimsədə bilər:

– İnformativ mətnlərdə verilən məlumatın həqiqi olduğuna oxucunu inandırmaq və ya mövzu haqqında oxucunun təsəvvürlərini genişləndirmək üçün tarixi mənbələrə istinad etmək lazım gəlir. Bu zaman başqa bir müəllifin fikirlərini olduğu kimi çatdırmaq lazımdır. Bu, sitat adlanır.

### Dinləmə. Yazı

**1.1.1** **Tapşırıq B (dərslik).** Məqsəd şagirdlərin dinləyib anlama və yazı bacarıqlarını inkişaf etdirməkdir. Həmçinin şagirdlər tapşırıq vasitəsilə sitat anlayışını daha dərindən mənimsəmiş olurlar.

Müəllim aşağıdakı mətni səsləndirir, şagirdlər yeni sözlər və əsas məlumatlarla bağlı qeydlər götürürlər.

**Güllələnmiş heykəllər**

*Qarabağ, xüsusilə Şuşa Azərbaycanın mədəniyyət mərkəzi hesab olunur. Bura dünyaca məşhur incəsənət xadimlərinin vətənidir. Qarabağın işğalı zamanı ermənilər görkəmli şəxsiyyətlərimizin ev-muzeylərini də dağıdıblar. Dahi bəstəkar Üzeyir Hacıbəyovun, görkəmli müğənni Bül-*

*bülün, şairə Xan qızı Natəvanın heykəllərini güllələbaran ediblər. Mənfur düşmən bu heykəlləri oğurlayıb Ermənistana aparır. Sonra Gürcüstanda qiymətli metal kimi satışa çıxarır. Gürcüstanda yaşayan azərbaycanlılar bundan xəbər tutur, heykəllər xilas edilib Bakıya gətirilir. Azərbaycan Milli İncəsənət Muzeyinin həyətində yerləşdirilir. "Güllələnmiş heykəllər" adı ilə dünyada tanıdılır.*

*Nəhayət, Şuşa azad olunduqdan sonra prezident İlham Əliyev Şuşaya ilk səfəri zamanı "Güllələnmiş heykəllər"i də Şuşaya aparır. Heykəllərin öz doğma ünvanlarına qaytarılması xalqımızı sevindirir*.

Müəllim faktoloji suallar vasitəsilə şagirdlərin mətni diqqətlə dinlədiklərini yoxlayır. Şagirdlər tapşırıqda verilmiş sitatları oxuyur, planla tanış olurlar. Daha sonra plan əsasında mətnin qısa məzmununu yazırlar. Bununla onların ifadə yazmaq bacarıqları inkişaf etdirilir. Müəllim şagirdlərin yazdıqları mətni yoxlayarkən tapşırıqda verilmiş sitatlardan necə istifadə etdiklərinə (mətnin uyğun hissəsində fikirlərini əsaslandırmaq məqsədi ilə sitatlardan istifadə edib-etməmələrinə) diqqət yetirir.

**Tapşırıq A (iş dəftəri).** Tapşığı yerinə yetirən şagirdlər görkəmli müğənni Bülbül haqqında yeni informasiya əldə edirlər: Bülbülün əsl adı Murtuza Məmmədovdur. Onun gözəl səsi olduğu üçün onu Bülbül adlandırıblar.

**Müəllimin nəzərinə!** Bülbülün ifa etdiyi mahnılardan bir parça səsləndirmək musiqi ilə inteqrasiyanı təmin edər.

Həmçinin Bülbül haqqında əlavə məlumat verilə bilər:

*Bülbül Azərbaycanın ənənəvi musiqi alətləri olan tar, kamança və balaban çalmağı şagirdlərə öyrətmək üçün dərslik hazırlayan ilk musiqiçi olub.*

## Danışma

1.2.1 **Tapşırıq C (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərə yazılı və şifahi nitqdə sitatdan istifadənin üstünlükləri vurğulanır. Şagirdlər oxuduqları mətndən nümunələr gətirərək öz fikirlərini əsaslandırırlar. Sonra müəllim bütün fikirləri ümumiləşdirib hər üç fikrin doğru olduğunu söyləyir.

1.2.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər III sinifdə aforizm haqqında məlumat almışlar. Müəllim onlara həmin biliklərini xatırladır və söyləyir ki, çox vaxt nitqimizi maraqlı etmək, öz fikrimizi qüvvətləndirmək üçün bildiyimiz aforizmlərdən sitat gətirə bilərik.

**Doğru cavab:** 1–c; 2–ç; 3–b; 4–a;

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər verilmiş mətni oxuyub uyğun durğu işarələrini qoymaqla sitatı mətn daxilində fərqləndirdiklərini nümayiş etdirirlər. Həmçinin bildiklərindən çıxış edib sitatda söylənən fikri aydınlaşdırırlar. Təxminən belə yaza bilərlər:

*Doğrudan da, Üzeyir bəy Azərbaycan musiqi mədəniyyətinin yaranmasında böyük rol oynayıb.*

*Onun yaratdığı əsərlər bu gün də sevilir və dünyada Azərbaycanı tanıdır.*

**Müəllimin nəzərinə!** Musiqi fənni ilə inteqrasiya yaratmaq üçün Üzeyir Hacıbəyovla bağlı şagirdlərə suallar vermək, həmçinin Üzeyir Hacıbəyovun əsərlərindən kiçik bir parça səsləndirmək olar.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin sitat haqqında bilikləri möhkəmləndirilir. Şagirdlər "Dahi bəstəkar" mətninin əsas fikrini müəyyənləşdirib uyğun sitatı seçirlər.

**Doğru cavab:** B) Ölməz o adamdır ki, özündən sonra vətən üçün böyük və faydalı yadigarları qalır (fransız yazıçısı Lyuk Vovenarq).

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Qeyd götürməklə dinləyir. | Tap. A (dərslik) |
| Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir. | Tap. B, C (dərslik) |
| Sitat gətirməklə fikrini əsaslandırır. | Tap. Ç (dərslik)<br>Tap. B, C<br>(iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə İlham Əliyevin 44 günlük müharibə vaxtı xalqa müraciətlərini, xarici jurnalistlərə verdiyi müsahibələrini əks etdirən videoçarxlar, şəkillər nümayiş etdirilə bilər. Bu, şagirdlərin mövzu üzrə (Tapşırıq A (dərslik), səh.49) danışarkən fikirlərini əsaslandırmalarına kömək edəcək.

## 3-cü dərs. Mühakimə və sitat

Dərslik: səh. 49–50 • İş dəftəri: səh. 31

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Müəllifin məqsədini (inandırmaq) müəyyən edir (st. 2.2.4).
• Fikir və mühakimələrini əks etdirməklə kiçikhəcmli mətn yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzu üzrə videoçarx və ya şəkillərin nümayişi. |
| 2 | **Danışma** | Sual ətrafında müzakirə. |
| 3 | **Oxuyub-qavrama** | Mühakimə əsasında qurulan mətnin məzmun və struktur xüsusiyyətləri üzrə iş. |
| 4 | **Yazı** | Mühakimə xarakterli mətnin yazılması. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim hazırladığı videoçarx və şəkilləri nümayiş etdirir.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər ölkənin ağır günlərində İlham Əliyevin xidmətlərindən nümunələr gətirməklə onun liderlik xüsusiyyətləri haqda fikir yürüdürlər. Məsələn, şagirdlər aşağıdakı fikirləri söyləyib əsaslandıra bilərlər.

1. Yaxşı ölkə başçısı bir neçə dildə sərbəst danışmağı bacarmalıdır.

2. Yaxşı ölkə başçısı ölkənin və xalqın tarixini, keçmişini gözəl bilməlidir.

3. Yaxşı ölkə başçısı xalqın yanında olmalı, xalqa dəstək olduğunu hiss etdirməlidir.

**"Yadda saxla" rubrikası.** Şagirdlərə III sinifdən mülahizə sözü tanışdır. Mülahizə ilə yaxınmənalı olan mühakimə bir şey barədə yürüdülən, yaxşı düşünülmüş fikir deməkdir. Elə mətnlər var ki, müəllif yürütdüyü fikrə oxucularını inandırmağa çalışır. Bunun üçün bəzən sitatlardan da istifadə edir. Dərsin əsas məqsədi şagirdləri məhz bu cür mətnlərlə tanış etmək, mühakimə yürütmək, fikrini əsaslandırmaq üçün sitatlardan istifadə etmək bacarıqlarını şagirdlərə aşılamaqdır.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** "Yadda saxla" rubrikasında mühakimə və sitat anlayışları haqda verilmiş nəzəri biliklərin tətbiqi məqsədi ilə mətn verilmişdir. Şagirdlər mühakimə xarakterli mətni oxuyaraq sualları cavablandırırlar. Bununla da mətnin məzmun və struktur xüsusiyyətlərini təhlil etdiklərini nümayiş etdirirlər.

**1.** Bu mətndə giriş bir cümlə ilə ifadə olunub. Əsas hissə iki abzasdan ibarədir. Sonluq hissə bir cümlədən ibarətdir.

**2.** Mətndə müəllifin yürütdüyü əsas fikir, mühakimə belədir: "Hər kəs öz Vətəninin keçmişini bilməli, gələcəyini düşünməlidir".

**3.** Müəllif öz fikrini nümunələr (III abzasda "Uzun illərdir ki" cümləsi ilə başlayan hissə) və sitatlar gətirməklə əsaslandırır.

**4.** II abzasda Xudu Məmmədov və III abzasda Heydər Əliyevin mövzu ilə bağlı fikirlərindən sitat gətirilmişdir.

Şagirdlər mətnin məzmun və strukturu ilə bağlı sualları cavablandırdıqdan sonra müəllim fikirləri ümumiləşdirir və nəticə çıxarır:

– Mühakimə xarakterli mətnlərdə müəllif öz mühakiməsini mətnin girişində təqdim edir və fikrini nümunələrdən, sitatlardan istifadə etməklə əsaslandırır.

### Yazı

3.1.2 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Şagirdlər qruplara ayrıldıqdan sonra tapşırıqda verilmiş mühakimə ilə tanış olur, təqdim olunmuş fikri əsaslandırmaq üçün tapşırıqda verilmiş yönəldici sual və sitat üzrə müzakirə aparırlar. Müzakirədən sonra mühakimə xarakterli mətn yazmağa başlayırlar.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərə aldıqları biliklərin tətbiqi üçün imkan yaradır. Şagirdlər tapşırıqda verilmiş sitatları oxuyaraq uyğun məzmunda mühakimə yazırlar.

***Sitat:*** *Bir elmi öyrənmək istədikdə sən*
*Çalış ki, hər şeyi kamil biləsən (N. Gəncəvi)*

***Mühakimə:*** Nə öyrənmək istəyirsənsə, onu hər tərəfli araşdır, mükəmməl öyrən.

*Maraqlanıb soruşmaq bilik əldə etməyin yarısıdır (Məhəmməd peyğəmbər).* Nəyi isə öyrənmək istəyirsənsə, maraqlanıb soruş.

*Təhsil xəzinədir, əmək onun açarı (Seyid Əzim Şirvani). Savadlı olmaq üçün Zəhmət çəkmək lazımdır.*

*Dostunu göstər, sənin kim olduğunu deyim (Bəhlul Danəndə).* Sağlam təfəkkürlü bir şəxsin dostu da özü kimi olar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir. | Tap. A (dərslik) |
| Müəllifin məqsədini (inandırmaq) müəyyən edir. | Tap. B (dərslik) |
| Fikir və mühakimələrini əks etdirməklə kiçikhəcmli mətn yazır. | Tap. C (dərslik)<br>Tap. A (iş dəftəri) |

## 4-cü dərs. Zərf

Dərslik: səh. 50–51 • İş dəftəri: səh. 32

**Təlim məqsədləri**

• Zərfin ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual ətrafında müzakirə. |
| 2 | **Dil qaydaları** | Zərfin mənimsədilməsi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə “oynamaq” yazır və şagirdlərə suallar (nə qədər? necə? nə vaxt? harada?) verir. Şagirdlər suallara cavab verdikcə müəllim onların təkliflərini “oynamaq” sözünün ətrafına yazır və söyləyir:

– Bu dərsdə biz hərəkəti müxtəlif cəhətdən izah edən sözlərlə tanış olacağıq.

### Dil qaydaları

4.1.3 **Tapşırıq A (dərslik). Kollektiv iş.** Şagirdlər tapşırıqda verilmiş sözləri “sürmək” sözünə əlavə edərək söz birləşmələri düzəldir və lövhədə yazırlar. Əlavə etdikləri sözün üzərində sualını qeyd edirlər. Başqa bir feillə fəaliyyəti davam etdirmək olar.

**“Bunları bilməliyik” rubrikası.** Şagirdlər rubrikadakı məlumat və nümunələrlə tanış olur.

**Tapşırıq B (dərslik).** Şagirdlər cümlələri oxuyur, verilmiş zərflər içərisindən cümlələrdəki suallara uyğun gələni müəyyən edir və cümlələrə əlavə etməklə köçürür.

**Tapşırıq C (dərslik).** Şagirdlər zərfləri cümlələrdə işlətməklə yeni dil qaydasını mənimsədiklərini nümayiş etdirirlər. Tapşırıq şagirdlərin cümlə qurmaq bacarıqlarını da inkişaf etdirir və söz ehtiyatını zənginləşdirir.

**Tapşırıq Ç (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərin diqqəti eyni sözün müxtəlif nitq hissəsi kimi işlədilməsinə yönəldilir.

**“Bunları bilməliyik” rubrikası. Rubrikada** zərfin əsas xüsusiyyəti kimi hərəkəti (feili) izah etməsi vurğulanır.

**Tapşırıq D (dərslik).** Şagirdlər cümlələrdə fərqləndirilmiş sözlərə sual (hansı? necə? nə? nə vaxt?) verirlər və onların ismi, yoxsa feili izah etdiyini müəyyənləşdirirlər.

**Doğru cavab:** 2 və 4-cü cümlələrdə fərqləndirilmiş sözlər zərf hesab edilir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər cümlələrin məzmununa uyğun gələn zərfləri müəyyənləşdirməklə zərfin mahiyyətini anlayırlar.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər zərfi digər nitq hissələrindən fərqləndirmək bacarıqlarını nümayiş etdirirlər.

**Doğru cavab:** 1. asta; 2. bəri; 3. aşağı; 4. səhər; 5. aramla; 6. indi; 7. irəli

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər cümlələrdə altından xətt çəkilmiş sözlərin aid olduğu nitq hissəsini və sualını yazmaqla dil qaydaları üzrə biliklərini möhkəmləndirirlər. İsim, sifət, say və zərfi müqayisəli təhlil etməklə zərfə məxsus xüsusiyyətləri mənimsədiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

1. Xeyli – say, nə qədər?
2. Xeyli – zərf, nə qədər?
3. Gözəl – zərf, necə?
4. Gözəl – sifət, necə?
5. Yayda – zərf, nə vaxt?
6. Yay – isim, nə?

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Zərfin ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir. | Tap. A, B, C, Ç (dərslik)<br>Tap. A, B (iş dəftəri) |
| Həm zərf, həm də digər nitq hissəsi kimi işlənən sözləri fərqləndirir. | Tap. D (dərslik),<br>Tap. C (iş dəftəri) |

fəsil 4

# QƏHRƏMANLARIMIZI TANIYAQ

## 1-ci dərs. Divar qəzeti ilə tanışlıq

Dərslik: səh. 52–53 • İş dəftəri: səh. 33

**Təlim məqsədləri**

- Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir (st. 2.1.1).
- Şifahi nitqində öyrəndiyi yeni sözlərdən istifadə edir (st. 1.2.3).
- Mətnin struktur elementlərini (illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
- Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st. 3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tapşırıqda verilmiş suallar ətrafında müzakirə. |
| 2 | **Söz ehtiyatı. Oxu** | Söz ehtiyatı üzrə iş. Divar qəzetinin oxunması. |
| 3 | **Oxuyub-qavrama** | Divar qəzetində verilmiş “Dastana döndü” məqaləsi üzrə üzrə iş. |
| 4 | **Yazı** | Xəbərin hazırlanması. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti divar qəzetinə yönəldilir və “divar qəzeti” haqqında onların ilkin bilikləri yoxlanılır.

### Söz ehtiyatı. Oxu

2.1.1. 1.2.3. **Tapşırıq B (dərslik).** Şagirdlərin oxu prosesini qruplarla iş formasında təşkil etmək olar. Qruplar onlara verilmiş vaxt ərzində divar qəzetini səssiz oxuyurlar. Söz boğçasındakı sözlərin izahını dərsliyin sonunda verilmiş lüğət vasitəsilə araşdırırlar. B tapşırığında verilmiş suallar ətrafında divar qəzetinin məzmun və strukturunu müzakirə edirlər.

### Danışma

1.2.3. Sonda divar qəzetinin məzmun və strukturu ilə bağlı təqdimat edirlər. Bu zaman müəllim şagirdlərə tapşırır ki, təqdimat zamanı yeni öyrəndikləri sözlərdən də istifadə etsinlər. Təqdimat təxminən belə ola bilər:

*Divar qəzetinin adı Günəşdir. Bu qəzet 2021-ci ilin 20 oktyabrında hazırlanıb. Qəzetin mövzusu vətəndir. Qəzetdə Xudayar Yusifzadə haqqında müsahibə mətni verilib. Mətndə Xudayarın şən, zarafatcıl, vətənpərvər, qayğıkeş, igid biri olmasından bəhs olunur.*

*Şeir güşəsində vətənlə bağlı bayatılar var. “Hikmət xəzinəsi” adlı rubrikada vətənə aid kəlamlar əks olunub. Qəzetdə həmçinin siniflə bağlı xəbər verilib.*

*Qəzetin sonunda yaradıcı heyətin adları yazılıb. Redaktoru Lalə Kazımlıdır, dizayneri isə Fuad Nəzərlidir.*

### Oxuyub-qavrama

2.2.3. **Tapşırıq C (dərslik).** Müəllim Xudayarın ifasındakı “Vətən yaxşıdır” nəğməsini səsləndirir. Şagirdlər divar qəzetində Xudayar haqqındakı məqalənin nə üçün “Dastana döndü...” adlandırıldığını düşündükləri kimi izah edirlər.

Dastana dönmək – çox məşhur olmaq, dillər əzbəri olmaq.

2.2.2. **Tapşırıq A (iş dəftəri).** Şagirdlər Xudayarla bağlı müsahibə mətnində əksini tapmayan bir epizodu oxuyurlar və bu epizodun jurnalistin hansı sualına cavab olduğunu təxmin edirlər.

Sual təxminən belə ola bilər: *Necə oldu ki, Xudayar musiqi təhsili aldı? Xudayarın uşaqlığı ilə bağlı hansı xatirələr var?* və s.

### Yazı

3.1.1. **Tapşırıq B (iş dəftəri).** Şagirdlər Xudayar haqqında eşitdikləri məlumatlarla bağlı suallar fikirləşib yaza bilərlər. Məsələn, *Xudayara qəhrəmanlığına görə hansı medallar verilib? Xudayarın sonuncu döyüşü harada olub? Onun döyüş yoldaşları kimlərdir? Xudayarın şəhid olmasını necə bildiniz? və s.*

3.1.1. **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Şagirdlər 3-cü sinifdə xəbər hazırlamaq bacarıqlarına yiyələnmişlər. Divar qəzetində verilmiş “Ayın xəbəri” rubrikasını yenidən nəzərdən keçirib, öz

məktəb və ya siniflərinə aid qısa şəkildə xəbər hazırlayırlar.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər müstəqil şəkildə divar qəzetindəki rubrikaları mənimsədiklərini və qəzet materiallarını qruplaşdırmaq bacarıqlarını nümayiş etdirirlər.

### Araşdırma

**Tapşırıq D (dərslik).** Şagirdlər növbəti dərsdə "Zəfər Günü" mövzusunda divar qəzeti hazırlayacaqlar. Bunun üçün əvvəlcədən vəzifə bölgüsü aparılmalıdır.

**Diferensial təlim**

Müəllim vəzifə bölgüsü zamanı şagirdlərin bilik və bacarıq səviyyəsini nəzərə almalıdır. Məsələn, redaktor ən fəal, savadlı şagird olmalıdır. Rəsm qabiliyyəti, hüsnxət bacarıqları daha yüksək olan şagirdlər rəssam və ya dizayner vəzifəsi üçün seçilməlidir. Müxbir vəzifəsi isə məlumat toplamaq və yazı qabiliyyəti güclü olan şagirdlərə tapşırılmalıdır. Nisbətən zəif şagirdlərə mövzu üzrə şəkil, şeir, atalar sözləri, aforizmlər toplamaq tapşırıla bilər.

Müəllim müxbirləri qruplara ayırır. Hər qrupa tapşırıqda verilmiş işlərdən birini tapşırır.

Redaktor, rəssam və dizaynerlərə isə divar qəzeti nümunələri ilə tanış olmaq tapşırıla bilər. Onlar müxtəlif divar qəzetləri ilə tanış olmaqla tərtibat üzrə daha yaradıcı düşünmək imkanı qazanırlar.

**Müəllimin nəzərinə!** Sinfin səviyyəsindən asılı olaraq müəllim araşdırma tapşırığını bir neçə gün əvvəldən tapşıra bilər və yaxud da divar qəzetinin hazırlanmasını bir neçə dərs sonraya saxlaya bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək sözün mənasını təxmin edir. | Söz boğçası üzrə iş |
| Şifahi nitqində öyrəndiyi yeni sözlərdən istifadə edir. | Tap. B (dərslik) MV şərh |
| Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. | Tap. A (iş dəftəri) |
| Təsəvvür etdiyi məlumatları yazıda əks etdirir. | Tap. B (iş dəftəri) |
| Şahid olduğu və ya iştirak etdiyi hadisə haqqında məlumat (xəbər) yazır. | Tap. Ç (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə divar qəzeti hazırlanacaq. Vatman kağızı, rəngli qələm, sulu boya, rəngli kağız, qayçı və s. lazım olacaq.

## 2-ci dərs. Divar qəzetinin hazırlanması

Dərslik: səh. 54 • İş dəftəri: səh. 34

**Təlim məqsədləri**

- Mətnin struktur elementlərini (illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).
- Mövzu üzrə apardığı araşdırmaların nəticələrini təqdim edir (st. 1.2.2).
- Mövzu üzrə divar qəzeti üçün materiallar hazırlayır (st. 3.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Divar qəzeti nümunəsinin nümayiş etdirilməsi. |
| 2 | **Oxuyub-qavrama** | Divar qəzetinin tərtibi üzrə təlimatın oxunması. |
| 3 | **Yazı** | Divar qəzetinin tərtibi. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin araşdırma işi ilə bağlı təəssüratlarını soruşur:

– Araşdırma aparan zaman hansı çətinlikləriniz oldu? Bu işdə sizə kimlər kömək etdi?

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (dərslik).** Şagirdlər təlimatı oxuyurlar. Divar qəzetinin strukturu və hazırlanması işində vəzifə bölgüsü ilə tanış olurlar.

**Tapşırıq A, B, C (iş dəftəri).** Şagirdlər tapşırıqlar vasitəsilə divar qəzetinin strukturu və hazır-

lanması işi ilə bağlı təlimatı oxuyub qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq Ç (iş dəftəri).** Şagirdlərin yaradıcı təfəkkürünün inkişafına yönəlmişdir. Şagirdlər verilmiş məlumata uyğun başlıq – rubrika adı düşünüb yazırlar. Təxminən bu adlar ola bilər:

– “Uğurlarımız”, “İstedadlılar” “Bizim sinif”, “Birincilər” və s.

**Danışma. Yazı**

1.2.2 3.1.3 **Tapşırıq B (dərslik).** Tapşırıq üzrə iş bir neçə mərhələdə yerinə yetirilir.

**1. Kollektiv müzakirə.** Sinfin divar qəzetini adlandırmaq üçün müəllim auksion keçirə bilər. Şagirdlər divar qəzeti üçün adlar təklif edirlər. Müəllim təklif olunan adları lövhədə yazır. Sonra adlar müzakirə olunur. Bir neçə uğurlu ad kiçik kağızlara yazılır və püşkatma üsulu ilə seçilir.

**2. Qruplarla iş.** Müxbirlərdən ibarət qruplar Zəfər Gününün tarixi və qəhrəmanlar haqqında topladıqları məlumatları müzakirə edirlər, konkret mövzu seçib mətn hazırlayırlar.

Rəssam və dizaynerlər vatman kağızı üzərində divar qəzetinin görünüşü haqqında müzakirə aparırlar. Qəzetin adını iri şriftlərlə cəlbedici şəkildə yazırlar. Ada uyğun rəsm çəkirlər, divar qəzetinin kənarlarını incə naxışlarla bəzəyirlər.

**Müəllimin nəzərinə!** Yaxşı olardı ki, işlər birbaşa vatman kağızı üzərində deyil, uyğun ölçüdə kəsilmiş vərəqlər üzərində görülsün. Hazır vərəqlər vatman kağızı üzərinə yapışdırılsın. Sinfin təchizat imkanlarından asılı olaraq şagirdlərin kompüter bacarıqlarından da istifadə etmək olar.

Digər qrupun üzvləri Zəfər Günü ilə bağlı topladıqları fotoşəkilləri müzakirə edərək qəzet üçün bir neçəsini seçirlər və həmin şəkillərə kiçik vərəqlərdə şərhlər yazırlar.

Başqa qrup üzvləri isə topladıqları şeirləri (və ya atalar sözləri və aforizmləri) müzakirə edib qəzet üçün daha uyğun gələnini seçirlər.

**3.** Qruplar təqdimat edirlər. Səsvermə əsasında daha yaxşı qəzet materialları seçilir.

**4.** Seçilmiş qəzet materialları redaktora təqdim edilir. Redaktor qəzet materiallarını yoxlayır, mətn üzərində düzəlişlər edir. Qəzet materiallarını uyğun rubrikalar üzrə qruplaşdırır. Dizaynerlər hər rubrikaya aid materialı uyğun ölçülü kiçik vərəqlərdə gözəl xətlə səliqəli şəkildə köçürürlər.

**6.** Qəzet materialları hazır olduqda dizaynerlər vatman kağızı üzərində rubrikaların yerini müəyyən edib materialları yerləşdirirlər.

**Müəllimin nəzərinə!** Divar qəzetinin ilk dəfə hazırlanmasını nəzərə alaraq müəllimin redaktor və dizaynerin işinə istiqamət verməsi, yaxından kömək etməsi vacibdir.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu üzrə apardığı araşdırmaların nəticələrini təqdim edir. | MV -də fəaliyyət |
| Divar qəzetinin məzmun və strukturunu mənimsədiyini nümayiş etdirir. | Tap. A, B, C, Ç (iş dəftəri) |
| Mövzu üzrə divar qəzeti hazırlayır. | Tap. B (dərslik) |

## 3-cü dərs. Qəhrəman Diləfruz ana

Dərslik: səh. 55 • İş dəftəri: səh. 35

**Təlim məqsədləri**

• Araşdırdığı məlumatlar və tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur (st.1.2.1).

• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Qadın qəhrəmanlar haqqında söhbət. |
| 2 | **Oxuyub-qavrama** | Müsahibə mətninin oxunması. |
| 3 | **Yazı** | İnformativ mətnin yazılması. Müsahibə üzrə sualların hazırlanması. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim suallar verir:

*– Döyüşlərdə iştirak etmiş hansı qəhrəman qadınlarımızı tanıyırsınız?*

Şagirdlərin aşağı siniflərdən Salatın Əsgərova haqqında məlumatları vardır. Müəllim əlavə olaraq Gültəkin Əsgərova, Arəstə Baxışova və başqa qəhrəman qadınlarımızın adlarını çəkib, şagirdlərə həmin qəhrəmanlar haqqında araşdırma aparmağı tapşıra bilər.

Şagirdlər vətən müharibəsi qəhrəmanlarından və ya onların yaxınlarından müsahibə almışlar. Müəllim müsahibə ilə bağlı şagirdlərin biliklərini xatırladır.

### Danışma

1.2.1. **Tapşırıq A (dərslik). Oxu ilə inteqrasiya. Cütlərlə iş.** Müəllim müsahibə mətnini səssiz oxumağı tapşırır. Mətn oxunduqdan sonra cütlər müsahibə mətnində natamam hissələrə uyğun suallar fikirləşib müzakirə edirlər, yazırlar.

Suallar təxminən aşağıdakı kimi ola bilər:

*1. Necə oldu ki, döyüşə getdiniz?*

*2. Ailəniz döyüşdə iştirak etməyinizə necə razılıq verdi?*

*3. Neçə il döyüşdə olmusunuz? Hansı döyüşlərdə iştirak etmisiniz?*

*4. Döyüş vaxtı hansı çətinliklərlə üzləşirdiniz?*

*5. Ən çətin gününüz hansı döyüşdə olub?*

*6. Sizi hansı adla çağırırdılar?*

**Müəllimin nəzərinə!** Müsahibədə adı çəkilən Həcər haqqında əlavə məlumat verilməsi tövsiyə olunur.

*Həcər (1860-1914) Azərbaycanın xalq qəhrəmanı Qaçaq Nəbinin həyat yoldaşı və silahdaşı olub. O, Qaçaq Nəbi ilə birlikdə əlinə silah götürüb iyirmi beş ildən artıq at belində qaçaq həyatı keçirmiş, Azərbaycan kəndlilərinə zülm edənlərə qarşı mübarizə aparmışdı. Xalq öz qəhrəman qızının igidliyini vəsf edən mahnılar qoşmuş, "Qaçaq Nəbi" dastanında ona xüsusi yer ayırmışdır. Qubadlı rayonunda Həcərin abidəsi qoyulmuşdu.*

3.1.1. **Tapşırıq B (dərslik).** Tapşırığın yerinə yetirilməsindən öncə müəllim şagirdlərə müvafiq tövsiyələr verir:

*– İnformativ mətn yazarkən müsahibə mətnində olan bütün informasiyanı deyil, daha vacib faktları seçib yazmaq lazımdır.*

İnformativ mətn təxminən aşağıdakı kimi ola bilər:

*Hüseynova Diləfruz Nuru qızı Ağdamda doğulub. Azərbaycan ordusunda 6 il döyüşüb, eyni zamanda əsgərlərə tibbi yardım etmişdir. 1989-cu ildən başlayaraq Azərbaycanın ilk könüllü özünümüdafiə dəstəsinin üzvü olub. Ağdam, Tərtər, Kəlbəcər, Şuşa döyüşlərində iştirak edib. Ona igidliyinə görə Qarabağın Həcəri deyirmişlər.*

### Danışma

1.2.1. **Tapşırıq A (iş dəftəri). Yazı ilə inteqrasiya. Fərdi iş.** Şagirdlər Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimov haqqında verilmiş məlumat vərəqini oxuyur, məlumatlar əsasında suallar hazırlayırlar. Məqsəd şagirdlərin məlumat toplamaq üçün müsahibə üsulundan istifadə etmək bacarıqlarının inkişaf etdirilməsidir.

Suallar təxminən aşağıdakı kimi ola bilər:

*Polad Həşimov hansı döyüşlərdə iştirak edib? Nə vaxt şəhid olub? Harada dəfn olunub? Harada onun adına küçə var? və s.*

**Müəllimin nəzərinə!** Şagirdlər Polad Həşimov və Diləfruz Hüseynov haqqında aldıqları məlumat əsasında müsahibə (rollu oyun) qura bilərlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müsahibə almaq üçün suallar tərtib edir. | Tap. A (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. B (dərslik) |

## 4-cü dərs. İşarə əvəzliyi

Dərslik: səh. 56 • İş dəftəri: səh. 36

**Təlim məqsədləri**

• İşarə əvəzliklərini fərqləndirir (st. 4.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəxs əvəzliklərinin xatırlanması. |
| 2 | **Dil qaydaları** | İşarə əvəzliyinin mənimsədilməsi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlərə III sinifdə şəxs əvəzliyi haqqında məlumat verilmişdir. Şagirdlər tapşırıqda verilmiş şəxs əvəzliklərini seçməklə biliklərini xatırlayırlar.

## Dil qaydaları

4.1.1 **Tapşırıq B (dərslik).** Məqsəd şagirdlərin diqqətini işarə əvəzliyi haqqında dil qaydasına yönəltməkdir. Şagirdlər birinci cümləni oxuyur və fərqləndirilmiş sözə sual (məsuliyyətli – necə?) verirlər. İkinci cümləni oxuyub müəyyən edirlər ki, "belə" sözü "məsuliyyətli" sözünün əvəzində işlənib.

Müəllim sual verir:

*– Sizcə, ikinci cümlədə "məsuliyyətli" sözündən istifadə olunmamasının səbəbi nədir? Əvəzliklərdən nə üçün istifadə edirik?*

Şagirdlər düşüncələrini söylədikdən sonra müəllim əlavə şərh veirir:

*– Nitqimizdə təkrara yol verməmək üçün çox vaxt əvəzliklər köməyimizə çatır. Bu dərsdə işarə əvəzlikləri haqda öyrənəcəyik.*

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada verilmiş məlumat və nümunələri şagirdlərə şərh edir.

**Müəllimin nəzərinə!** Rubrikada "O" əvəzliyinə aid nümunə verilməmişdir. "O" əvəzliyinin həm şəxs, həm də işarə əvəzliyi kimi işlənməsinin şagirdlərin təsəvvüründə çaşqınlığa səbəb olacağını nəzərə alıb bu haqda növbəti rubrikada məlumat verilmişdir.

**Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş işarə əvəzliklərini seçməklə işarə əvəzliyini fərqləndirdiklərini nümayiş etdirirlər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər "O" əvəzliyini şəxs əvəzliyi kimi tanıyırlar. Tapşırıq vasitəsilə bu əvəzliyin həm də işarə məqsədi ilə işlənməsi şagirdlərin diqqətinə çatdırılır. Tapşırığı yerinə yetirən şagirdlər müəyyənləşdirirlər ki, "o" əvəzliyi birinci cümlədə şəxs bildirən sözü (Rauf) əvəz edib və kim? sualına, 2-ci cümlədə isə əlamət bildirən sözü (yaşıl) əvəz edib və hansı? sualına cavab verir.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər Ç tapşırığı vasitəsilə gəldikləri nəticəni rubrikadakı nümunə əsasında daha da möhkəmləndirirlər.

**Tapşırıq D (dərslik). Cütlərlə iş.** Cütlər cümlələrdəki "o" əvəzliyinə sual verərək onların şəxs, yoxsa işarə əvəzliyi kimi işlənməsini müzakirə edib müəyyənləşdirirlər.

**Doğru cavab:** 1, 3, 4, 6, 7-ci cümlərdə "o" işarə əvəzliyidir.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq işarə əvəzliyi ilə bağlı biliklərin möhkəmləndirilməsi məqsədi daşıyır. Tapşırıqdakı nümunələrdə "bu" işarə əvəzliyinin həm hansı?, həm də kim? sualına cavab verməsi də şagirdlərin diqqətinə çatdırılır.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin diqqətini işarə əvəzliklərinin üslubi xüsusiyyətlərinə yönəltməkdir. Şagirdlər kontekstə uyğun gələn işarə əvəzliyini seçib cümlədə işlədirlər.

**Doğru cavab:**

**1.** Hər adam ***belə*** rəqs edə bilmir.

**2.** Mağazada yenə **həmin** satıcını gördüm.

**3.** ***Bu*** qız mənə tanış gəlir.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər işarə əvəzliklərini uyğun sözlərlə əvəz etməklə bilik və bacarıqlarını nümayiş etdirirlər.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İşarə əvəzliklərinin qrammatik xüsusiyyətlərini müəyyən edir. | Tap. B (dərslik)<br>Tap. A, B, C<br>(iş dəftəri) |
| "O" əvəzliyinin şəxs və işarə bildirdiyini müəyyənləşdirir. | Tap. Ç, D (dərslik) |

## 5-ci dərs. Ümumiləşdirici təkrar

Dərslik: səh. 57 • İş dəftəri: səh. 37

**Təlim məqsədləri**

• Əsas nitq hissələrinin (isim, sifət, əvəzlik, zərf) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Bölmənin mövzusu üzrə xatırlatma. |
| 2 | **Dil qaydaları** | Sifətin dərəcələri, ismin hallanması, işarə əvəzliyi, zərf üzrə bilik və bacarıqların möhkəmləndirilməsi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bölmədəki mövzuları xatırlatmaq məqsədi ilə suallar verir:

– *Bu bölmədə hansı mətnləri oxudunuz? Hansı mövzularda mətnlər dinlədiniz? Hansı mövzularda araşdırma apardınız? Hansı mövzularda təqdimatlar hazırladınız?*

### Dil qaydaları

4.1.4. **Tapşırıq A, B (dərslik).** Tapşırıqlar sifətin dərəcələri və onların yazılış qaydası üzrə əldə edilmiş biliklərin yoxlanılmasına xidmət edir.

A tapşırığında verilmiş şeir vasitəsilə təsvir zamanı sifətlərin roluna, çoxaltma dərəcəsində işlənmiş sifətlərin şeirin təsir gücünü artırmasına diqqəti yönəltmək olar.

**Tapşırıq C (dərslik), tapşırıq A (iş dəftəri).** Bölmədə ismin hallanması ilə bağlı bilik və bacarıqlar mənimsədilmişdir. Şagirdlər tapşırıqlar vasitəsilə ismin hallanması üzrə bilik və bacarıqlarını nümayiş etdirirlər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər bu tapşırıq vasitəsilə nitq hissələrinin leksik və qrammatik xüsusiyyətlərini müəyyənləşdirir və zərfi digər nitq hissələrindən fərqləndirdiklərini nümayiş etdirirlər.

| Söz | Sualı | Aid olduğu anlayış |
|---|---|---|
| doğru | necə? | İsmi izah edir, sifətdir. |
| qəhrəman-casına | necə? | Feili izah edir, zərfdir. |
| yaxşı | necə? | Feili izah edir, zərfdir. |
| az | nə qədər? | İsmi izah edir, saydır. |
| çox | nə qədər? | Feili izah edir, zərfdir. |

**Tapşırıq D (dərslik).** Şagirdlərin işarə əvəzliyi üzrə əldə etdikləri bilik və bacarıqlar bu tapşırıq vasitəsilə yoxlanılır.

**Doğru cavab:** *kəklikotu*

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər hər sırada verilmiş sifətlərin ümumi əlamətini, yəni dərəcəsini müəyyənləşdirib sıranı davam etdirirlər.

**Doğru cavab:**

1. dəcəl, bənövşəyi, **gözəl**
2. yupyumşaq, ən bahalı, **daha sakit**
3. bozumtul, açıq-mavi, **qaraşın**

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər cümlələrdəki zərfləri seçməklə zərfi fərqləndirən xüsusiyyətləri mənimsədiklərini nümayiş etdirirlər.

**Doğru cavab:** cəld, həmişə, cəsarətlə, içəri, indicə.

**Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər bu tapşırığı yerinə yetirməklə konkret və mücərrəd isimləri fərqləndirdiklərini nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sifətin dərəcəsini müəyyənləşdirir. | Tap. B (dərslik)<br>Tap. B (iş dəftəri) |
| İsmi cümlədə uyğun halda işlədir. | Tap. C (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Cümlədə işlənmiş zərfi müəyyənləşdirir. | Tap. Ç (dərslik)<br>Tap. C (iş dəftəri) |
| İşarə əvəzliyinin əvəz etdiyi sözü müəyyən edir. | Tap. D (dərslik)<br>Tap. Ç (iş dəftəri) |

bölmə **3**

# SEVİMLİ QƏHRƏMANLARIM

<table>
<tr><th colspan="2">Mövzu</th><th>Sevimli qəhrəmanlarım</th></tr>
<tr><td rowspan="4">Nitq bacarıqları</td><td>Şifahi nitq</td><td>• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə etməsi<br>• Mətnin məzmununu təxəyyülünə görə dəyişdirərək nəql etməsi<br>• Qrafik informasiya şəklində verilmiş informasiyaları rabitəli mətn şəklində təqdim etməsi<br>• Hər hansı bir mövzu ilə bağlı araşdırma apararaq təqdimatı</td></tr>
<tr><td>Söz ehtiyatı</td><td>• Yeni sözlərin mənası haqqında təxminini izahlı lüğət vasitəsilə dəqiqləşdirməsi<br>• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirməsi<br>• Mətndəki obrazlı ifadələrin fərqləndirilməsi</td></tr>
<tr><td>Oxu</td><td>• Mətndəki obrazların nitqinin onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirilməsi</td></tr>
<tr><td>Yazı</td><td>• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətnlərin yazılması<br>• Praqmatik mətnlərin, annotasiyanın yazılması</td></tr>
<tr><td rowspan="2">Akademik biliklər</td><td>Dil qaydaları</td><td>• İsmi və feili birləşmələr<br>• Cümlə üzvləri, mübtəda, xəbər, feili xəbər, ismi xəbər<br>• Cümlənin ikinci dərəcəli üzvləri</td></tr>
<tr><td>Filoloji anlayışlar</td><td>• Annotasiya, bədii mətndə təsvir, mifik obrazlar<br>• İnformativ mətn yazmaq<br>• Keçid cümlələrini müəyyən etmək<br>• İnformativ mətnə şərh yazmaq</td></tr>
<tr><td>Kompetensiyalar</td><td colspan="2">• Şagirdlərdə müstəqil və davamlı mütaliə vərdişləri formalaşdırmaq<br>• Şüurlu və yaradıcı oxu bacarığını inkişaf etdirmək<br>• Dünyagörüşünü genişləndirmək</td></tr>
</table>

Bu bölmədə şagirdlərə Azərbaycan və dünya ədəbiyyatının müvafiq yaş qrupu üçün məqsədəuyğun sayılan klassik nümunələrinə üstünlük verilmişdir. Şagirdlər məşhur əsərlərin qəhrəmanları ilə tanış olacaqlar. Bu da onlarda həmin əsərlərin tam variantını oxumağa həvəs yaradacaq.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

– Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır.

– Fikir və mühakimələrini əks etdirməklə kiçikhəcmli esse yazır.

## Giriş dərsi. Bölmənin mövzusu ilə tanışlıq

• Dərslik: səh. 58-59 • İş dəftəri: səh. 38

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st.2.2.3).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st.2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st.2.2.2).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st.3.1.3).

**Köməkçi vasitələr:** Şagirdlərin aşağı siniflərdən tanış olduqları əsər qəhrəmanlarının şəkli, cizgi film qəhrəmanlarının şəkli və ya həmin filmdən qısa fraqmentlər.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müəllimin sualı üzrə müzakirə. |
| 2 | **Danışma** | Sevimli qəhrəmanları haqqında müzakirə. |
| 3 | **Oxuyub-qavrama** | İllüstrasiya ilə mətnin müvafiq hissələrinin uyğunlaşdırılması. |
| 4 | **Söz ehtiyatı** | Sözə uyğun gələn izahın müəyyənləşdirilməsi.<br>Şifrələnmiş sözün oxunması. |
| 5 | **Oxuyub-qavrama** | Qəhrəmanlar haqqında məlumatlara əsasən cədvəlin tamamlanması. |
| 6 | **Yazı** | Sevimli qəhrəman haqqında təqdimatın hazırlanması. |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə müxtəlif nağıl və cizgi film qəhrəmanlarının şəkillərini və yaxud onlara uyğun fraqmentlər nümayiş etdirir.

### Danışma

1.2.1. **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqdakı suallara cavab verməklə oxuduqları əsərlərdən və ya baxdıqları filmlərdən, cizgi filmlərindən çıxış edərək sevimli qəhrəmanları haqqında danışırlar. Müəllim şagirdləri danışma fəaliyyətinə həvəsləndirmək üçün yönəldici suallar verir:

• Nə üçün məhz bu qəhrəman sizin daha çox xoşunuza gəlir?
• Bu qəhrəmanın hansı xüsusiyyətləri sizin xoşunuza gəlir?
• Bu qəhrəmanın hansı hərəkəti və ya sözləri sizin yadınızda qalıb?
• Sevdiyiniz qəhrəmanın hansı xüsusiyyətini dəyişmək istərdiniz? Nə üçün?
• Siz hansı qəhrəmana bənzəmək istərdiniz? Nə üçün?

### Oxuyub-qavrama

2.2.3. **Tapşırıq B (dərslik).** Tapşırıqda müxtəlif əsər qəhrəmanlarının şəkilləri və onlara aid məlumatlar təqdim edilmişdir. Şagirdlər məlumatları oxuyur və müvafiq şəkillərlə uyğunlaşdırırlar. Bununla da mətnin tərkib hissələrini, struktur elementlərini, yəni haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıqlarını əsas məzmun ilə əlaqələndirə bildiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:** 1-Ç, 2-A, 3-B, 4-C.

### Söz ehtiyatı

Oxu zamanı şagirdlərə tanış olmayan söz və ifadələr (səxavətli, səltənət, sərgüzəşt, ədəbiyyat) izah edilir.

**Söz və ifadələrin izahı:**
**səxavətli** - əliaçıq, genişürəkli, könlüaçıq.
**səltənət** - padşahlıq, hökmranlıq.
**sərgüzəşt** - hadisə, əhvalat, macəra.
**ədəbiyyat** - ədəbi əsərlər toplusu.

2.1.1. **Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsinə yönəldilib. Şagirdlər verilmiş izahları müvafiq sözlərlə uyğunlaşdırır, bununla da bu dərsdə öyrəndikləri yeni sözlərin mənasını anladıqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:** 1-Ç, 2-C, 3-A, 4-B.

## Oxuyub-qavrama

2.2.2. **Tapşırıq C (dərslik).** Bu tapşırıq əvvəlki tapşırıqlarda verilmiş qəhrəmanlar (Qaraca qız, Herakl, Tom Soyer, Supərisi) haqqında məlumatlara istinad edilərək yerinə yetirilir. Şagirdlər məlumatları bir daha oxuyur, qəhrəmanın və onun iştirak etdiyi əsərin adını, qəhrəmanın xüsusiyyətlərini qeyd edərək B tapşırığındakı cədvəli tamamlayırlar.

**Düzgün cavab:**

1. Qəhrəmanın adı: Herakl. İştirak etdiyi əsər: Yunan əfsanələri. Xüsusiyyətləri: cəsur, ağıllı, güclü.

2. Qəhrəmanın adı: Tutu. İştirak etdiyi əsər: "Qaraca qız" əsəri. Xüsusiyyətləri: rəhmdil, səxavətli, nadinc.

3. Qəhrəmanın adı: Tom Soyer. İştirak etdiyi əsər: "Tom Soyerin macəraları" əsəri. Xüsusiyyətləri: hazırcavab, diribaş, fərasətli.

4. Qəhrəmanın adı: Supərisi. İştirak etdiyi əsər: "Kiçik Supərisi" nağılı. Xüsusiyyətləri: mehriban, xeyirxah.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq əyləncəli olduğu qədər də məntiqi təfəkkürün və söz ehtiyatının inkişafına xidmət edir. Şagirdlər tapşırıqda təqdim edilmiş qəhrəmanların şəkillərinə baxır və onların adlarını krossvordun uyğun xanalarına yazırlar. Krossvordun müxtəlif rənglərlə fərqləndirilmiş xanalarındakı hərfləri söz sxeminin müvafiq xanalarına yazmaqla şifrələnmiş sözü oxuyurlar. Beləliklə, fədakarlıq rəmzi sayılan daha bir yunan qəhrəmanının adını öyrənirlər.

**Müəllimin nəzərinə!** Şagirdlər şəkilləri verilmiş qəhrəmanların bəziləri (Ağca, Fatma, Məlikməmməd, Alisa) haqqında aşağı siniflərdə, digərləri haqqında (Təpəgöz, Qavroş) isə bu tədris ilində məlumat alıblar. Qalan şəkillərdə uşaqların sevimli cizgi film qəhrəmanları (Mauqli, Şrek, Düyməcik, Rapunzel) təsvir edilmişdir.

**Düzgün cavab:**
**1** - Mauqli; **2** - Alisa; **3** - Qavroş; **4** - Ağca; **5** - Məlikməmməd; **6** - Fatma; **7** - Təpəgöz; **8** - Şrek; **9** - Düyməcik; **10** - Rapunzel
**Şifrələnmiş söz:** Prometey

## Yazı

3.1.3. **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin təqdimetmə bacarığının inkişafına imkan yaradır. Şagirdlər verbal və vizual məlumatlardan istifadə edərək sevimli qəhrəmanlarını sinfə təqdim edirlər.

**Müəllimin nəzərinə!** Təqdimatın forması ilə bağlı dərslikdə nümunə verilmişdir. Buna baxmayaraq, şagirdlər sevimli qəhrəmanları haqqında məlumatları müxtəlif formatlarda təqdim etməkdə sərbəstdirlər. Lakin müəllim mütləq şəkildə nəzərə alınmalı məqamları şagirdlərin diqqətinə çatdırmalıdır:
- Qəhrəmanın və iştirak etdiyi əsərin adı;
- Həmin qəhrəmanı onun üçün sevimli edən səbəblər;

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| İllüstrasiya ilə mətnin müvafiq hissəsini uyğunlaşdırır. | Tap. B (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. A (iş dəftəri)<br>Tap. B (iş dəftəri) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. C (dərslik) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tap. Ç (dərslik) |

**Növbəti dərsə hazırlıq:** Müəllimə növbəti dərsdə nümayiş etdirmək üçün Süleyman Sani Axundovun "Qorxulu nağıllar" kitabını, "Qaraca qız" filmindən müvafiq fraqmentləri əldə etmək tövsiyə edilir.

fəsil 1 **VƏFALI DOST**

## 1-ci dərs. Qaraca qız

• Dərslik: səh. 60-62 • İş dəftəri: səh. 39

**Təlim məqsədləri**

• Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır (st. 1.2.1).
• Mətni intonasiya ilə oxuyur (st.2.2.1).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st.2.1.1).
• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st.2.1.1).
• Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır (2.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Süleyman Sani Axundovun "Qorxulu nağıllar" kitabının şagirdlərə nümayişi. |
| 2 | **Danışma** | Mövzu ilə bağlı fikirlərin müzakirəsi. |
| 3 | **Oxu** | "Qaraca qız" mətninin oxusu. |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi. |
| 5 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş. Səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi. |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim Süleyman Sani Axundovun "Qorxulu nağıllar" kitabını şagirdlərə nümayiş etdirir.

### Danışma

1.2.1. **Tapşırıq A (dərslik).** Şagirdlər Süleyman Sani Axundovun "Qorxulu nağıllar" kitabının üz qabığına baxır, vərəqləyir, illüstrasiyalarına nəzər salır və kitab haqqında məlumatı oxuyurlar. Diqqətlərini cəlb edən məqamları və bu kitabı oxumaq istəmələrinin səbəbini izah edirlər.

### Oxu

2.2.1. **"Qaraca qız" mətni üzrə iş. Rollu oxu.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində "Qaraca qız" mətnini səssiz oxuyurlar. Bu zaman obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Müəllim obrazların nitqini şagirdlər arasında bölüşdürür. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan yerində, düzgün istifadə etməsinə diqqət edir, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə necə səsləndirmələrini müşahidə edir.

### Söz ehtiyatı

**"Söz boğçası" rubrikası.** Müəllim şagirdlərdən tanış olmayan sözlərin ( rəiyyət, rica etmək, nökər, koma, cürət etmək, çarə, mürəbbiyə, istehza) təxmini mənasını soruşur.

**Söz və ifadələrin izahı:**

**rəiyyət** - yoxsul adam

**rica etmək** - xahiş etmək

**nökər** - ağasına xidmət edən və onun şəxsi tapşırıqlarını yerinə yetirən ev xidmətçisi

**koma** - daxma

**cürət etmək** - cəsarət etmək, qorxmamaq, çəkinməmək

**çarə** - bir şeyin əldə edilməsinə, bir nəticəyə gəlməyə, çətin bir məsələnin həllinə mane olan əngəlləri aradan qaldırmaq üçün lazım olan çıxış yolu; tədbir, vasitə, əlac

**mürəbbiyə** - keçmişdə: dövlətli ailələrində uşaqların təlim və tərbiyəsi ilə məşğul olan şəxs; tərbiyəçi, xüsusi müəllim

**istehza** - rişxənd etmə

2.1.1. **Tapşırıq A (iş dəftəri).** Tapşırıq yeni sözlərin möhkəmləndirilməsinə yönəldilib. Şagirdlər izahlara uyğun sözləri krossvordun müvafiq xanalarına yazmaqla yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**
**Yuxarıdan aşağı:**

**1** - koma

**2** - mürəbbiyə

**Soldan sağa:**

**3 -** rəiyyət

**4 -** çarə

**5 -** istehza

**6 -** nökər

**Tapşırıq B (dərslik).** Şagirdlər üçüncü sinifdə köhnəlmiş sözlər haqqında məlumat almışlar. Bəzi nağıl və hekayələrdə istifadə olunan köhnəlmiş sözlər həmin dövrü təsəvvür etməyə yardımçı olur. Şagirdlər söz boğçasında verilmiş nökər, rəiyyət, koma, mürəbbiyə kimi sözlərin müasir dövrdə istifadə olunmadığını müəyyənləşdirirlər. Tapşırığın məqsədi şagirdlərin oxuyub-qavrama bacarığının inkişafı ilə yanaşı, söz ehtiyatının artırılmasıdır.

**Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin frazeoloji birləşmələr haqqında aldıqları bilikləri möhkəmləndirir və onların söz ehtiyatını inkişaf etdirir. Şagirdlər tapşırıqda verilmiş frazeoloji birləşmələrin iştirak etdiyi cümləni bir daha oxuyur, cümlənin kontekstinə əsasən frazeoloji birləşmələrin mənasını izah edirlər.

**Düzgün cavab:**

**ürəyi sıxılmaq -** darıxmaq

**acığı tutmaq -** hirslənmək

**xoşuna gəlmək -** xoşlamaq

**Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlənin feilini uyğun frazeoloji birləşmə ilə əvəz edirlər. Bununla da frazeoloji birləşmələr haqqında aldıqları bilikləri tətbiq edir, sahib olduqları söz ehtiyatını nümayiş etdirirlər.

**Düzgün cavab:**

**acımaq -** yazığı gəlmək

### Oxuyub-qavrama

2.2.2. **Tapşırıq D (dərslik). Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqdakı faktoloji suallara cavab verir, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Tapşırıq C (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər mətndəki hadisələr arasında səbəb-nəticə əlaqəsini müəyyən etməklə mətni qavradıqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:**

1. Hüseynqulu ağanın kimsəsiz qıza yazığı gəldi, **ona görə də özü ilə ağalığa gətirdi.**

2. Pəricahan xanım qızının Qaraca ilə dostluq etməsinə icazə vermirdi, **çünki bir bəy qızına rəiyyət qızı ilə dostluq etməyi yaraşdırmırdı.**

3. Ağca xanım otların arasında qıvrılıb yatan ilanı tapdaladı, **ona görə də ilan onun qolundan sancdı.**

4. Pəricahan xanım ağlayaraq hamıya yalvarırdı, **çünki qızının xilas olmasını istəyirdi.**

5. Qaraca qız özünü təhlükəyə ataraq Ağcaya kömək etdi, **çünki rəfiqəsinin həyatını xilas etmək istəyirdi.**

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir. | "Qaraca qız" mətni |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir. | Tap. C (dərslik) |
| Kontekstə uyğun gələn frazeoloji ifadəni müəyyənləşdirir. | Tap Ç (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. D (dərslik)<br>Tap. B, C<br>(iş dəftəri) |

## 2-ci dərs. Qaraca qız

• Dərslik: səh. 63 • İş dəftəri: səh. 40

**Təlim məqsədləri**

• Oxuduğu və ya dinlədiyi mətni nəql edir (st.1.2.2).
• Mətndəki obrazları xarakterizə edir (st. 2.2.3).
• Fikirlərini arqumentlərlə izah edir (st.1.2.1).
• Obrazlar xəritəsi tərtib edir (st.2.2.3).
• Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir (st.2.2.6).
• Oxuduğu mətn haqqında rəy yazır (st.3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Qaraca qız” mətni ilə bağlı frontal sorğu. |
| 2 | **Danışma** | ”Qaraca qız” mətninin tərtib etdiyi plan əsasında nəql edilməsi. |
| 3 | **Oxuyub-qavrama** | Obrazların davranışlarına münasibət bildirilməsi. |
| 4 | **Danışma** | Fikirlərin arqumentlərlə izah edilməsi. |
| 5 | **Oxuyub-qavrama** | Obrazlar xəritəsinin tərtib edilməsi.<br>Hadisələrin davamının təxmin edilməsi. |
| 6 | **Yazı** | “Qaraca qız” mətni ilə bağlı rəy yazılması. |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim keçən dərsdə oxunmuş “Qaraca qız” mətnini xatırlatmaq üçün frontal sorğu keçirir.

### Danışma

1.2.2. **Tapşırıq A (dərslik). Qruplarla iş.** Şagirdlər qruplara ayrılırlar. “Qaraca qız” mətninin planını tərtib edirlər. Daha sonra qrup üzvləri bir-birini izləməklə tərtib etdikləri plan əsasında mətnin məzmununu nəql edirlər. Bu tapşırıq şagirdlərin mətndəki əsas epizodların ardıcıllığını müəyyənləşdirmək bacarığının və şifahi nitqinin inkişafına yönəlib.

### Oxuyub-qavrama

2.2.3. **Tapşırıq B (dərslik).** Şagirdlər mətnin dəmiryolda baş verən epizodunu bir daha oxuyurlar. Ağca xanım ilə anası Pəricahan xanım arasındakı dialoqu təhlil edirlər, obrazların davranışının və keçirdiyi hisslərin səbəbini izah edirlər.

### Danışma

1.2.1. **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığı ilə yanaşı, arqumentlər gətirməklə fikirlərini izah etmək, əsaslandırmaq kimi bacarıqlarını da inkişaf etdirir. Dərsliyin 1-ci bölməsində şagirdlər uşaq hüquqları haqqında məlumatlar alıblar. Şagirdlər tapşırıqda verilmiş uşaq konvensiyasına aid maddəni oxuyur və bu maddədən müvafiq arqumentlər gətirməklə Qaraca qızın pozulmuş hüquqlarını müdafiə edirlər.

**Düzgün cavablar:**

• Pəricahan xanım qızı Ağca xanımın Qaraca qızla dostluq etməsinə imkan vermir. “Sən bəy qızısan, rəiyyət qızı ilə oturub-durmaq sənə yaraşmaz. Mən razı ola bilmərəm ki, qızım bir xidmətçi ilə dostluq etsin”, -deyə qızını bu dostluqdan çəkindirməyə çalışır. Və yaxud “Ancaq şərtim budur ki, o xidmətçi qız ilə əlaqəni tamamilə kəsəsən”, deyə qızının qarşısına şərt qoyur. Ağca qızın qolundan ilan zəhərini sorub özünü təhlükəyə atan Qaraca qız üçün “ona heç nə olmaz!”, -deyə yenə də ayrıseçkilik salır. Lakin **Uşaq konvensiyasının 6-cı maddəsində qeyd edilir ki, bütün uşaqlar bərabər hüquqa malikdirlər. Onlar maddi vəziyyətindən, milliyyətindən, dilindən, təhsilindən asılı olmayaraq ayrıseçkiliyə məruz qala bilməzlər.**

• Ağca xanımı ilan çalır. Pəricahan xanım hamıya yalvarsa da, heç kim zəhəri Ağca xanımın qolundan sorub yerə tökməyə cürət etmir. Qaraca qız yaşının az olmasına baxmayaraq bu təhlükəli işi yerinə yetirir. Pəricahan xanım öz qızının sağlamlığına görə Qaraca qızın həyatını təhlükəyə atır. Piri kişi “...öz balanı xilas etmək üçün atasız-anasız uşağı bəlaya salmısan”-, deyə Pəricahan xanıma öz etirazını bildirir. **Uşaq konvensiyasının 9-cu maddəsin-**

**də qeyd edilir ki, hər bir uşağın həyatı və sağlamlığının mühafizə edilməsi hüququ vardır.**

• Mətnin məzmununa əsasən aydın olur ki, Qaraca qız məktəbə getmir. Hüseynqulu ağa bu kimsəsiz qızcığazı ağalığa gətirdikdən sonra o, Piri baba ilə yaşayır, xidmətçilik edir. Lakin **Uşaq konvensiyasının 22-ci maddəsində qeyd edilir ki, hər bir uşağın təhsil almaq hüququ vardır.**

**Müəllimin nəzərinə!** Layihə dərsliyi fərqləndirən xüsusiyyətlərdən biri də, bilik və bacarıqlarını tətbiq etmək üçün şagirdlərə müvafiq platformanı yaratmaqdır. Bu tapşırıq şagirdlərə özlərini vəkil kimi sınamağa imkan yaradır. Bu da gələcəkdə vəkilllik peşəsinə yiyələnmək istəyən şagirdlər üçün uyğun platformadır.

### Oxuyub-qavrama

2.2.3. **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Şagirdlər ilk növbədə qruplara ayrılır. Tapşırıq şagirdlərdə obrazlar xəritəsinin hazırlanması bacarığının möhkəmləndirilməsinə xidmət edir.

**Cavablar təxminən belə ola bilər:**

**I Qrup. Qaraca qız haqqında obraz xəritəsi.**

**Obrazın təqdimatı:** Əsl adı Tutudur. Qarayanız olduğu üçün onu Qaraca çağırırlar.

**Xüsusiyyəti:** Qaraca qız mehriban, ürəyiaçıq, yardımsevər və fədakardır.

**Əsaslandırılması:** Dostunu ölümdən xilas etmək üçün özünü təhlükəyə atdı.

**Keçirdiyi hisslər:** Narahatlıq, qorxu.

**Əsaslandırılması:** Vağzalda Ağca ilə görüşəndə Pəricahan xanımın onları birlikdə görüb hirslənməsindən narahat oldu.

**II Qrup. Piri baba haqqında obraz xəritəsi.**

**Obrazın təqdimatı:** Piri baba Hüseynqulu ağanın bağbanıdır.

**Xüsusiyyəti:** Piri baba xeyirxahdır, cəsurdur.

**Əsaslandırılması:** Düşüncələrini cəsarətlə Pəricahan xanıma söyləyir.

**Keçirdiyi hisslər:** Qəzəb.

**Əsaslandırılması:** Doğma qızının xilası üçün kimsəsiz qızcığazı təhlükəyə atan Pəricahan xanımın hərəkətinə çox qəzəblənir.

**Yadda qalan sözləri:** "– Çəkil, sən indiyə kimi bu qızı yaxına qoymamısan, onu bəyzadə qızına yaraşdırmamısan. İndi də mən onun bu zülm yuvasında qalmasına razı deyiləm.".

**III Qrup. Ağca xanım haqqında obraz xəritəsi.**

**Obrazın təqdimatı:** Hüseynqulu ağanın qızıdır.

**Xüsusiyyəti:** Mehribandır, sadədir.

**Əsaslandırılması:** Anası nə qədər Qaraca qızın kasıb rəiyyət qızı olmasını bəhanə gətirsə də, Ağca xanım Qaraca qızla dostluq etmək istəyir.

**Keçirdiyi hisslər:** Kədər.

**Əsaslandırılması:** Pəricahan xanımın kəndə gedərkən qızına dediyi "...xidmətçi qız ilə əlaqəni tamamilə kəsməlisən. Yoxsa Piri kişini də, Qaraca qızı da qovaram" sözləri Ağcanı çox kədərləndirmişdi.

**IV Qrup. Pəricahan xanım haqqında obraz xəritəsi.**

**Obrazın təqdimatı:** Pəricahan xanım Ağcanın anasıdır.

**Xüsusiyyəti:** Zalım, qəzəbli və riyakardır.

**Əsaslandırılması:** Özünün var-dövlət sahibi olmasından istifadə edərək kasıb insanlara zülm edir, onları hədələyir. Qaraca qızı evinə yaxın qoymadığı halda, rəiyyət qızı, qaraçı qızı adlandırdığı halda qızını ölümdən xilas edərkən ona "Qaraca qız, mənə rəhmin gəlsin, rəfiqəni ölməyə qoyma", - deyə riyakarlıq edirdi.

**Keçirdiyi hisslər:** Qorxu.

**Əsaslandırılması:** Ağca xanımı ilan çalanda Pəricahan xanım qızının həyatı üçün qorxu hissi keçirdi.

2.2.6. **Tapşırıq D (dərslik).** Tapşırıq oxuyub-qavrama və yazı məzmun xətləri arasında inteqrasiyaya zəmin yaradır. Şagirdlər əvvəlcə mətndəki problem və problemin həlli yollarını analiz etməklə mətnin bitməməsi haqqında fikir yürüdə bilərlər. Sonra isə Qaraca qız ilə Ağca xanımın son aqibəti barədə mətndə məlumatın olmamasını müəyyənləşdirirlər. Sonda şagirdlər mətni təxəyyüllərinə uyğun davam etdirməlidirlər. Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünün inkişafına yönəlmişdir.

### Yazı

3.1.2. **Tapşırıq A (iş dəftəri).** Şagirdlərə 2-ci sinifdə mətn haqqında "rəy" yazmaq öyrədilmişdi. Bu tapşırıq vasitəsilə şagirdlərin bilikləri xatırladılır, sərbəst yazı bacarıqları inkişaf etdirilir. Şagirdlər onlara daha çox təsir edən və yaxud mətnə əlavə etmək istədikləri epizodları təsvir etməklə "Qaraca qız" mətni haqqında fikirlərini rəydə əks etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni tərtib etdiyi plan əsasında nəql edir. | Tap. A (dərslik) |
| Obrazın davranışının və keçirdiyi hisslərin səbəbini izah edir. | Tap. B (dərslik) |
| Fikirlərini arqumentlərlə izah edir. | Tap. C (dərslik) |
| Obrazlar xəritəsi tərtib edir. | Tap. Ç (dərslik) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. D (dərslik) |
| Oxuduğu mətn haqqında rəy yazır. | Tap. A (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Növbəti dərsin kitabxanada keçilməsi məqsədəuyğundur. Bu səbəbdən əvvəlcədən məktəbin kitabxanaçısının xəbərdar edilməsi tövsiyə edilir. Və yaxud şagidlərə hər hansı bir bədii kitab gətirmək tapşırılır.

## 3-cü dərs. Annotasiya

• Dərslik: səh. 64 • İş dəftəri: səh. 41

**Təlim məqsədləri**

• Fikirlərini arqumentlərlə izah edir (st.1.2.1).
• Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır (st.2.2.2).
• Verbal və vizual məlumatları ümumiləşdirərək təqdimat üçün mətn yazır (st. 3.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | Şagirdlərin məktəbin kitabxanasından kitab seçməsi. |
| 2 | Danışma | Kitab seçiminin səbələrinin izahı. |
| 3 | Oxuyub-qavrama | Məlumatlarla bağlı sualların cavablandırılması. |
| 4 | Yazı | Annotasiyanın yazılması. |
| 5 | Oxuyub-qavrama | Məlumatlarla bağlı sualların cavablandırılması. |
| 6 | Yazı | Annotasiyanın yazılması. |
| 7 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

Bu dərsin məktəb kitabxanasında keçirilməsi tövsiyə olunur. Şagirdlər kitabxanadan hər hansı bir kitabı seçirlər. Daha sonra həmin kitabın cildinə və kitaba çəkilmiş illüstrasiyalara baxaraq kitabın məzmununu təxmin edirlər. Dərsin kitabxanada keçirilməsi reallaşmadığı təqdirdə şagirdlər kitabxanadan kitab seçir və sinifdə istifadə edir.

### Danışma

1.2.1. **Tapşırıq A (dərslik).** Şagirdlər kitab seçərkən nəyə diqqət etdiklərini, nə üçün məhz bu kitabı seçmələrinin səbəbini arqumentlər gətirməklə izah edirlər.

**Bunları bilməliyik rubrikası.** Müəllim bu rubrikada verilmiş məlumatları şərh edərək annotasiya haqqında şagirdlərə məlumat verir. Şagirdlər seçdikləri kitabın ilk səhifələrinə diqqət edir və kitaba yazılmış annotasiyanı oxuyurlar. Müəllim yönəldici suallarla şagirdləri danışma fəaliyyətinə cəlb edir:

- Annotasiyanı oxuduqdan sonra ilkin fikirlərinizdə hansı dəyişikliklər oldu?

- Seçdiyiniz kitab haqqında daha hansı məlumatları aldınız?

- Annotasiya sizdə kitabı oxumağa maraq yaratdımı?

- Annotasiyada yazılan hansı məlumat sizi mütaliəyə cəlb etdi?

### Oxuyub-qavrama

2.2.2. **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin annotasiya haqqında aldıqları biliklərin tətbiqinə yönəlib. Şagirdlər tapşırıqda təqdim edilmiş kitabın üz qabığına baxır, bu kitaba yazılmış annotasiyanı oxuyurlar. Tapşırıqdakı suallar şagirdlərin diqqətini annotasiyanın spesifik nüanslarına yönəldir. Annotasiyada aid olduğu kitab haqqında maraqlı məlumatlar təqdim edilməlidir ki, oxucunun diqqətini cəlb etsin, mütaliə həvəsi yaratsın. Hadisələrin sonluğunun, nəticəsinin verilməməsi annotasiya üçün vacib xüsusiyyətdir. Bu, oxucunu intizarda saxlayır, hadisələrin sonluğunu öyrənmək üçün oxumaq həvəsi daha da artır. Annotasiyada müəllifin digər əsərlərinin adının çəkilməsi də məqsədəuyğundur. Belə olduqda oxucu yeni kitablarla tanış olur. Oxuduğu kitab xoşuna gəldiyi təqdirdə müəllifin digər kitablarını da mütaliə etmək istəyir.

### Yazı

3.1.3. **Tapşırıq C (dərslik).** Şagirdlər "Bunları bilməliyik" rubrikasında və A tapşırığında annotasiya haqqında aldıqları məlumatları tətbiq edirlər. Tapşırıqda təqdim edilmiş "80 gün dünya ətrafında" kitabı üçün annotasiya yazırlar. Bu zaman tapşırıqda kitab haqqında verilmiş məlumatlardan istifadə edirlər.

**Müəllimin nəzərinə!**

1) Şagirdlər 3-cü sinifdə Jül Vernin "80 gün dünya ətrafında" əsərinin müəyyən hissələri ilə tanış olublar. Bu səbəbdən şagirdlər annotasiya yazarkən tapşırıqda təqdim edilmiş məlumatlara əlavələr edə bilərlər.

2) Şagirdlərin yazdığı annotasiya müzakirə edilərkən nəzərə alınmalıdır:

- Annotasiyada hadisələrin sonluğu, nəticəsi göstərilməyib.
- Annotasiyada əsərin məzmunu ətraflı, detallarla əks etdirilməyib.
- Oxucunun diqqətini cəlb edən, mütaliəyə həvəs yaradan məqamlardan istifadə edilib.

**Annotasiyanın məzmunu təxminən aşağıdakı kimi ola bilər:**

Fransız yazıçısı Jül Vernin "80 dünya ətrafında" kitabı əsasən 8-10 yaşlı uşaqlar üçün nəzərdə tutulub. Londondakı məşhur bir klubun üzvü Fileas Foq dostları ilə dünyanı 80 gün ərzində dövr edəcəyinə dair mərc gəlir. Bununla da heyrətamiz bir səyahət başlayır. Mister Foqun səyahət etdiyi ölkələr haqqında məlumat almaq və rastlaşdığı macəralarla tanış olmaq üçün kitabı oxumağa başla.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırıqda verilmiş təlimata əməl edərək annotasiya yazmaq bacarıqlarını təkmilləşdirirlər. Təlimatda verilmiş məlumat tapşırığın asanlıqla yerinə yetirilməsinə kömək edir.

**Diferensial təlim.**

Tapşırığı yerinə yetirməkdə, müstəqil şəkildə annotasiya yazmaqda çətinlik çəkən şagirdlər kitabxanadan götürdükləri kitabın annotasiyasından istifadə edə bilərlər.

### Oxuyub-qavrama

2.2.3. **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda annotasiya haqqında verilmiş fikirlərin doğru və ya yanlış olduğunu qeyd edirlər. Bu tapşırıq annotasiya haqqında məlumatların bir daha diqqətə çatdırılması baxımından əhəmiyyətlidir.

**Düzgün cavab:** doğru, doğru, yanlış, yanlış, doğru.

### Yazı

3.1.4. **Tapşırıq B (iş dəftəri).** Şagirdlər "Qaraca qız" kitabı haqqında annotasiya yazmaqla yazı bacarıqlarını möhkəmləndirirlər. Fəaliyyət zamanı əvvəlki dərslərdən aldıqları məlumatlar şagirdləri istiqamətləndirəcək. Şagirdlər ilk dərslərdə "Qaraca qız" əsərinin müəllifinin Süleyman Sani Axundov olduğu haqqında məlumat alıblar. "Qaraca qız" hekayəsinin məzmunu ilə tanış olublar. İş dəftərindəki A tapşırığında verilmiş məlumatlar, dərslikdəki Ç tapşırığında verilmiş təlimat müstəqil şəkildə annotasiya yazmağa kömək edəcək.

**Annotasiyanın məzmunu təxminən aşağıdakı kimi ola bilər:**

"Qaraca qız" Süleyman Sani Axundovun oxucu marağı qazanmış hekayələrindən biridir. Hekayədə Tutu adlı qızın taleyindən bəhs edilir. Kimsəsiz, atasız-anasız böyüyən Tutu ilə bəy qızı olan Ağca arasındakı dostluqdan danışılır. Ağca xanımın anası Pəricahan xanım bu dostluğa razı deyil. Axı nə üçün? Görəsən, Pəricahan xanım qızlar arasındakı dostluq münasibətlərini qırmaq üçün nə edəcək? Bu dostluq münasibətləri davam edəcəkmi? Əgər bu suallara cavab tapmaq istəyirsinizsə, hekayəni oxuyun.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fikirlərini arqumentlərlə izah edir. | Tap. A (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Kitab haqqında annotasiya yazır. | Tap. C, Ç (dərslik)<br>Tap. B (iş dəftəri) |

## 4-cü dərs. İsmi və feili birləşmələr

• Dərslik: səh. 65 • İş dəftəri: səh. 42

**Təlim məqsədləri**

• Sözlər arasında məna əlaqəsini müəyyən etməklə söz birləşməsi və cümlələr qurur (st. 4.1.4).
• Söz birləşmələrini növünə görə bir-birindən fərqləndirir (st.4.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Söz birləşmələrinin yaradılması. |
| 2 | **Dil qaydaları** | İsmi və feili birləşmələrin fərqləndirilməsi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik). Tapşırıq B (dərslik).** Bu tapşırıqlar motivasiya xarakteri daşıyır. **A tapşırığında** şagirdlərə şəkildə gördükləri gülləri təsvir etmək tapşırılır. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə kömək edə bilər:

– Tapşırıqdakı şəkillərin üçü də gül təsvirləridir. Bəs bu gülləri fərqləndirmək üçün hansı sözlərdən istifadə edərdiniz?

**Şagirdlər təxminən belə cavab verə bilərlər:**

1. Qırmızı gül
2. Sarı gül
3. Ağ gül

Tapşırıqdakı sualı cavablandıqrmaqla şagirdlərin diqqəti söz birləşmələrinin tərkibindəki dəyişməz qalan sözə, yəni söz birləşməsinin əsas tərəfinə yönəldilir.

**B tapşırığında** isə şagirdlər *yazmaq, getmək, oxumaq* sözlərinin əvvəlinə müxtəlif sözlər artırmaqla söz birləşmələri yaradırlar. Bu tapşırıqda da əsas tərəfin dəyişməz qaldığını, birinci tərəfin isə müxtəlif sözlərlə ifadə edildiyini müəyyənləşdirirlər. Bu tapşırıqlar "Bunları bilməliyik" rubrikasındakı materialları asanlıqla dərk etməyə kömək edir.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim bu rubrikadakı məlumatları şərh edir.

4.1.4. **Tapşırıq C, Tapşırıq Ç (dərslik). Tapşırıq A (iş dəftəri), Tapşırıq B (iş dəftəri).** Tapşırıqlar şagirdlərin ismi və feili birləşmələr haqqında aldıqları bilikləri tətbiq etmək üçün imkan yaradır.

**Düzgün cavablar:**

**Tapşırıq C(dərslik).**

**İsmi birləşmələr:** əsgər məktubu, tibb bacısı, şirin alma, şəlalənin səsi, meyvə şirəsi, sevimli obraz, dördüncü siniflər, güllü parça.

**Feili birləşmələr:** pəncərədən baxanda, musiqi dinləmək, nağıl danışmaq, çox çalışan, meyvə dərəndə, futbol oynamaq, diqqətlə oxuyan.

**Tapşırıq Ç (dərslik).** Çiçək dərəndə, xeyli işləmək, rəsm çəkərkən, aşağı enmək, dağlar-

dan aşmaq, cəld qaçan, xoşbəxt yaşamaq, bayram keçirəndə.

**Tapşırıq C (iş dəftəri).** Tapşırığın a bəndində ismi birləşmələr, b bəndində isə feili birləşmələr təqdim edilmişdir. Şagirdlər məntiqi ardıcıllığı müəyyənləşdirib davam etdirirlər. Bu tapşırıq şagirdlərin dil qaydaları haqqında aldıqları biliklərin möhkəmləndirilməsi ilə yanaşı, məntiqi düşüncələrinin də inkişafına yönəldilib.

**Tapşırıq A (iş dəftəri).** Uca dağ, dərs oxumaq, idman yarışı, filmə baxmaq, isti hava.

**Tapşırıq Ç (iş dəftəri).** Dil qaydaları ilə yazı məzmun xəttinin inteqrasiyasına imkan yaradır. Şagirdlər tapşırıqda "Qaraca qız" mətninin məzmununa aid illüstrasiyaya uyğun söz birləşmələri yazırlar. Bu mətnin məzmunu ilə əvvəlcədən tanış olmaları tapşırığın asanlıqla yerinə yetirilməsinə zəmin yaradır.

**Şagirdlər təxminən aşağıdakı söz birləşmələrini yaza bilərlər:**

**İsmi birləşmələr:** dəmiryol vağzalı, iki dost, yüklü araba, ağır çamadan.

**Feili birləşmələr:** arabanı yükləmək, dostunu qarşılamaq, arabanı sürmək, qatarı saxlamaq.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz birləşmələrini növünə görə bir-birindən fərqləndirir | Tap. A (iş dəftəri) |
| İsmi və feili birləşmələri fərqləndirir. | Tap. C, Ç (dərslik)<br>Tap. B, C, Ç<br>(iş dəftəri) |

**Növbəti dərsə hazırlıq:** Müəllimə növbəti dərs şagirdlərə nümayiş etdirmək üçün real və qeyri-real, yəni əfsanəvi varlıqların şəkillərini əldə etmək tövsiyə edilir. Məsələn: Məlikməmməd, Qaraca qız, Qavroş, Div, Yeddibaşlı əjdaha, Zümrüd quşu, Təpəgöz, Peqas(qanadlı at), Karlson.

# fəsil 2 DƏNİZ GÖZƏLİ

## 1-ci dərs. Kiçik Suparisi

• Dərslik: səh. 66-68 • İş dəftəri: səh. 43

### Təlim məqsədləri

- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st.1.2.1).
- Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir (st.2.1.1)
- Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır (st. 2.2.2).
- Mətnin məzmunu ilə bağlı suallar tərtib edir (st.2.2.2)
- Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir (st.2.2.3).
- Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st.2.2.6).
- Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st.3.1.1).
- Mətndəki obrazları xarakterizə edir (st.3.1.2).

**Köməkçi vasitələr:** real və qeyri-real varlıqların şəkilləri

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Real və qeyri-real obrazlar haqqında müzakirə. |
| 2 | **Danışma** | Hadisə, varlıq haqqında təəssüratların bölüşməsi. |
| 3 | **Oxu** | "Kiçik su pərisi" mətninin oxusu. |
| 4 | **Söz ehtiyatı** | Kontekstə uyğun sözlərin mənasının izahı. |
| 5 | **Oxuyub-qavrama** | Faktoloji sualların cavablandırılması.<br>Hadisələrin davamının təxmin edilməsi. |
| 6 | **Yazı** | Obrazın təsviri. |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim Div, Yeddibaşlı əjdaha, Zümrüd quşu, Təpəgöz, Peqas (qanadlı at), Karlson kimi əfsanəvi, qeyri-real və Qaraca qız, Məlikməmməd, Qavroş kimi real varlıqların şəkillərini şagirdlərə nümayiş etdirir.

### Danışma

1.2.1. **Tapşırıq A (dərslik).** Şagirdlər real və qeyri-real varlıqları müqayisə edir, tanıdıqları qeyri-real varlıqlara nümunələr söyləməklə fikirlərini əsaslandırırlar.

### Oxu. Söz ehtiyatı

2.1.1. **"Kiçik supərisi" mətni. Növbə ilə oxu.** Mətn daxilində şagirdlərə tanış olmayan xeyli sayda söz və ifadələr var. Odur ki mətn əvvəlcə səssiz oxunur. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Sonra şagirdlər onlar üçün yeni olan sözləri səsləndirirlər, müəllim lövhədə qeyd edir. (Sözlər təkrar olunmamalıdır!) Söz və ifadələrin mənaları üzrə iş aparıldıqdan sonra müəllim bir neçə şagirdə mətni ucadan oxumağı tapşırır.

**Tapşırıq B (dərslik).** Şagirdlər cəfəngiyyat, cadugər, göyərtə, qərq olmaq sözlərinin iştirak etdiyi cümlələri bir daha oxuyur, cümlənin kontekstinə görə mənalarını izah edir, daha sonra isə lüğət vasitəsilə dəqiqləşdirirlər.

### Oxuyub-qavrama

2.2.2. **Tapşırıq C (dərslik).** Mətnin məzmunu ilə bağlı suallar şagirdlərin mətni diqqətlə oxuyub-qavradıqlarını yoxlamağa xidmət edir. Müəllim sualların sayını artıra bilər.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər əvvəlcə mətndəki problem və problemin həlli yollarını analiz etməklə mətnin bitməməsi haqqında fikir yürüdə bilərlər. Sonra isə Supərisi və gənc oğlanın aqibəti barədə mətndə məlumatın olmamasını müəyyənləşdirirlər. Onları maraqlandıran məqamlar haqqında suallar tərtib edirlər.

**Suallar təxminən aşağıdakı məzmunda ola bilər:**

- Supərisi gənc oğlana həqiqəti söylədimi?
- Gənc oğlan Supərisinin kim olduğunu öyrəndimi?
- Supərisi geri dönə biləcəkmi?
- Əgər Supərisinin ayaqları delfin quyruğuna çevrilərsə, insanların ona münasibəti necə olar?
- Ayaqları delfin quyruğuna çevrilən supərisini gənc oğlan xilas edəcəkmi?

### Yazı

2.2.6. **Tapşırıq D (dərslik).** Tapşırıq oxuyub-qavrama və yazı məzmun xətləri arasında inteqarsiya yaradır. Şagirdlər Ç tapşırığında tərtib etdikləri suallara cavab tapmaq üçün mətni illüstrasiyaya və təxəyyüllərinə uyğun davam etdirməlidirlər. Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünün inkişafına yönəlmişdir.

Şagirdlər mətni təxminən aşağıdakı məzmunda davam etdirə bilərlər:

Supərisi şəhəri gəzmək, insanları yaxından tanımaq, onlarla ünsiyyət qurmaq üçün səbirsizlənirdi. O, şəhəri gəzmək istəyini gənc oğlana bildirdi. Onlar bütün günü şəhərin müxtəlif yerlərini gəzdilər. Hər şey o qədər gözəl və maraqlı idi ki, Supərisi vaxtın necə keçdiyindən xəbər tutmadı. Birdən dənizin arxasında gözdən itən günəşin son şüaları Supərisinin diqqətini cəlb etdi. Supərisi həyəcanlandı. İti addımlarla dənizə doğru qaçdı. Amma nə fayda? Artıq çox gec idi.

Supərisinin ayaqları yavaş-yavaş delfin quyruğuna çevrilirdi. Gənc oğlan təəccüblə və təlaşla ona baxırdı. Çox keçmədi ki, onların ətrafına xeyli insan toplaşdı. İndi cəfəngiyyat bildikləri Supərisi gözlərinin qarşısında idi.

Gənc oğlan onu dalğaların arasından xilas edənin məhz Supərisi olduğunu anlamışdı.

Artıq Supərisi quruda qala bilməzdi. İnsanlar onu dənizə yaxın gətirdilər. Dəniz doğma qızını qoynuna aldı. Supərisi insanlarla vidalaşıb dalğaların arasında gözdən itdi.

Bu hadisədən sonra insanlar Supərisini görmək arzusu ilə tez-tez dəniz sahilindəki qayalıqlara gəlirlər.

3.1.1. **Tapşırıq A (iş dəftəri**). Tapşırıq şagirdlərin fikirlərini məntiqi ardıcıllıqla yazıda əks etdirmək bacarığını inkişaf etdirir. Şagirdlər mətnə istinad edərək Supərisinin nənəsinin insanlar haqqında verdiyi məlumatları yazırlar. Daha sonra isə insanların həyat tərzi haqqında əlavə məlumatlar verirlər.

3.1.2. **Tapşırıq B (iş dəftəri).** Şagirdlər 2-ci sinifdə obrazın təsviri haqqında məlumat almışlar. Bu tapşırıq vasitəsilə şagirdlərin bilikləri xatırladılır, sərbəst yazı bacarıqları inkişaf etdirilir.

**Cavab təxminən aşağıdakı məzmunda ola bilər:**

**Kiçik supərisinin görünüşü**

Supərisinin bədəni qadına bənzəyir. Hamar, ağ dərisi və uzun qəhvəyi saçları var. Delfin

quyruğuna oxşar quyruğu ona xüsusi yaraşıq verir.

**Yaşadığı yer**

Supərisinin yaşadığı mərcan sarayı dənizin dibində yerləşir. Sarayın pəncərələri təmiz kəhrəbadan hazırlanmışdı. Pəncərələr dalğaların təsirindən gah açılır, gah da bağlanırdı.

**Həyat tərzi**

Supərisi ailəsi, yəni bacıları, nənəsi və atası ilə birlikdə yaşayırdı. O, gününün çox hissəsini nənəsi ilə birlikdə keçirirdi. Nənəsinin danışdığı hekayətləri dinləyirdi.

**Düşüncələri**

Kiçik supərisinə insanların həyat tərzi çox maraqlı idi. Elə buna görə də insanlar haqqında hekayətlər onu daha çox maraqlandırırdı. O, insanları görmək, onlarla ünsiyyət yaratmaq arzusunda idi.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Kontekstdən təxmin etdiyi məna ilə sözün lüğəvi mənasını müqayisə edir. | Tap. B (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. C (dərslik) |
| Mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tap. Ç (dərslik) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir· | Tap. D (dərslik) |
| Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir. | Tap. A, B (iş dəftəri) |
| Mətndəki obrazları xarakterizə edir. | Tap B (iş dəftəri) |

## 2-ci dərs. Supərisi mövcuddurmu?

• Dərslik: səh. 68 • İş dəftəri: səh. 44

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st.1.2.1).
• Qeyd götürməklə dinləyir (st.1.1.1).
• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st.1.1.1).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st.2.1.1).
• Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir (st.2.2.4).
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Kiçik supərisi” mətni ilə bağlı frontal sorğu. |
| 2 | **Danışma** | Real və qeyri-real obrazlar haqqında müzakirə. |
| 3 | **Dinləmə** | “Supərisi mövcuddurmu?” dinləmə mətni ilə bağlı qeydgötürmə, cümlələrin tamamlanması, dinləmə və oxu materialının müqayisəsi. |
| 4 | **Söz ehtiyatı** | Kriptoqramın həlli. |
| 5 | **Oxuyub-qavrama** | Müəllifin məqsədinin müəyyənləşdirilməsi. |
| 6 | **Yazı** | Kiçikhəcmli essenin yazılması. |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim keçən dərsdə oxunmuş “Kiçik supərisi” mətnini xatırlatmaq üçün frontal sorğu keçirir.

### Danışma

1.2.1. **Tapşırıq A (dərslik).** Şagirdlər “Kiçik supərisi” mətnində rast gəldikləri real və qeyri-real varlıqları müqayisə edir, nümunələr söyləməklə fikirlərini əsaslandırırlar. Aşağı siniflərdə real və qeyri-real varlıqlar haqqında aldıqları məlumatlar bu tapşırığı yerinə yetirməkdə şagirdlərə istiqamət verəcək.

### Dinləmə

1.1.1. **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin qeydgötürmə haqqında biliklərinin mənimsənilməsinə xidmət edir. Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş "Yaddaş xəritəsi" nə yönəldir. Şagirdlər "yaddaş xəritəsi"ndəki yarımbaşlıqlarla tanış olurlar. Mətni dinləyərkən həmin yarımbaşlıqlar üzrə qeydlər götürürlər. Müəllim dinləmə mətnini səsləndirir:

**Supərisi mövcuddurmu?**

Supərisi beldən yuxarı qadın görünüşlü, balıq quyruqlu mifik varlıqdır. Bu mifik varlıqlara, demək olar ki, bütün xalqların nağıllarında, əfsanələrində rast gəlmək olar. İngilislər supərilərinə mermaid, ruslar isə rusalka deyirlər.

**Bəs supərisi deyilən varlıq təbiətdə mövcuddurmu?**

Bu qeyri-adi varlıqları gördüklərini iddia edən mənbələr var. Məsələn, Xristofor Kolumb səyahətləri zamanı supərilərini gördüyünü yazır. Kolumb onların çox çirkin olduqlarını da qeyd edir.

İngilis dənizçisi Henri Hudson öz gündəliyində qeyd etmişdir: "Dənizçilərdən biri onu gördü və sakitcə məni çağırdı. Beldən yuxarı qadın bədəni idi. Hamar, ağ dərisi və qara saçları vardı. Üzəndə delfin quyruğuna oxşar quyruğu görünürdü".

Əslində isə, dənizçilərin supəriləri adlandırdıqları varlıq dənizinəkləri idi. Vaxtilə okeanlarda sürü şəklində yaşayan dənizinəkləri balinadan sonra ən böyük heyvan sayılıb. Uzunluğu 7-8 metrə, çəkisi 5-6 tona çatırdı. Onların insanabənzər qolları o qədər inkişaf etmişdi ki, balalarını rahatlıqla daşıya bilirdilər. Başlarına dolaşan yosunlar isə təbii saça bənzəyirdi. Bu görüntü supərilərinin uzunsaçlı olduğu düşüncəsini yaratmışdır.

Supəriləri nağıllar, cizgi filmləri, oyuncaqlar və kinofilmlərlə hələ də insanların düşüncələrində yaşamaqdadır. Hans Xristian Andersenin "Kiçik supərisi" bu mifik varlıq haqqında yazılmış ən məşhur nağıllardan biridir.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə dinlədiklərini, eyni zamanda qeydgötürmə bacarıqlarını yoxlamağa imkan yaradır. Şagirdlər götürdükləri qeydlər əsasında tapşırıqdakı cümlələri tamamlayırlar.

**Düzgün cavab:**

1. Mermaid, rusalka.
2. Kolumb.
3. Henri Hudson.
4. Dənizinəkləri.
5. Yosunlar.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərə oxuduqları "Kiçik supərisi" və dinlədikləri "Supərisi mövcuddurmu?" mətnini müqayisə etmək imkanı yaradır. Bu tapşırıqla həm müxtəlif məzmun xətlərinə aid (oxu və dinləmə) materialların, həm də janr baxımından fərqli (bədii və informativ) mətnlərin müqayisəsi aparılır.

### Söz ehtiyatı

2.2.1. **Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərin məntiqi təfəkkürünün, həm də söz ehtiyatının inkişafına xidmət edir. Şagirdlər kriptoqramı həll etməklə "Kiçik supərisi" nağılına aid daha iki məlumat öyrənir. Şagirdlər bu məlumatlardan növbəti tapşırıqda istifadə edə bilərlər.

**Düzgün cavab:**

**Kriptoqramın həlli:** 1-igid, 2-meh, 3-komandir, park.

**Şifrələnmiş sözlər:**

"Kiçik supərisi" nağılının baş qəhrəmanının heykəli qoyulduğu ölkənin adı - Danimarka.

Heykəlin yerləşdiyi limanın adı - Kopenhagen.

### Oxuyub-qavrama

2.2.4. **Tapşırıq C (dərslik).** Bu tapşırıq şagirdlərin dinlədiyi mətnin ideyasını əks etdirən fikirləri müəyyənləşdirmək bacarığını inkişaf etdirir. Tapşırıqda qoyulmuş sualı cavablandırmaqla şagirdlərin diqqəti mətnin əsas fikrinə yönəldilir. Müəllif çox vaxt sual cümləsi vasitəsilə mətni yazmağının məqsədini açıqlayır. Bu mətndə də "Bəs supərisi deyilən varlıq təbiətdə mövcuddurmu?" sualı ilə mətni yazmaqda müəllifin məqsədini bildirir.

### Yazı

3.1.2. **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin qeydgötürmə üzrə bacarıqlarının möhkəmlənməsinə və tətbiqinə xidmət edir. Eyni zamanda informativ mətn yazmaq bacarıqlarının möhkəmlənməsinə imkan verir. Şagirdlər "Su-

pərisi mövcuddurmu?" mətnindən götürdükləri qeydlər və öz mülahizələri əsasında informativ mətn yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (dərslik) |
| Mətni dinləyərkən açar sözləri seçir. | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir. | Tap. C (dərslik) |
| Dinlədiyi və oxuduğu mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. B (iş dəftəri) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. C (iş dəftəri) |
| Fikir və mühakimələrini əks etdirməklə kiçikhəcmli esse yazır. | Tap. Ç (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsin kitabxanada keçilməsi məqsədəuyğundur. Bu səbəbdən əvvəlcədən məktəbin kitabxanaçısının xəbərdar edilməsi tövsiyə edilir. Və yaxud şagidlərə hər hansı bir bədii kitab gətirmək tapşırılır.

## 3-cü dərs. Kitabi necə oxumalı?

• Dərslik: səh. 69 • İş dəftəri: səh. 45

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (1.2.1).
• Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır (st.2.2.2).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st.3.1.3).

**Köməkçi vasitələr:** Bədii və informativ kitablar

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Kitabxanadan kitabların seçilməsi. |
| 2 | **Danışma** | Mütaliə haqqında fikirlərin müzakirəsi.<br>Kitab seçimi ilə bağlı mövqeylərinin bildirilməsi. |
| 3 | **Oxuyub-qavrama** | Bildikləri məlumatların cədvəl üzrə qruplaşdırılması. |
| 4 | **Yazı** | Məlumatların cədvəl şəklində təqdimatı. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdləri məktəbin kitabxanasına gətirir. Və yaxud şagirdlərin diqqətini sinfə gətirdikləri kitablara cəlb edir.

### Danışma

1.2.1. **Tapşırıq A (dərslik).** Şagirdlər kitabxanadan seçdikləri və yaxud sinfə gətirdikləri kitabların uyğun səhifələrindən istifadə etməklə tapşırıqda verilmiş sualları cavablandırır, mütaliə haqqında fikirlərini müzakirə edirlər.

**"Faydalı məsləhət" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Faydalı məsləhət" rubrikasına yönəldir və buradakı məlumatları mərhələlərlə şərh edir.

**I mərhələ.** Mütaliə üçün kitab seçərkən ilk növbədə kitabla ümumi tanış oluruq. Bu zaman kitabın və müəllifin adına, üzqabığına, illüstrasiyalara və yarımbaşlıqlara diqqət edirik.

Bu izahatdan sonra şagirdlər kitabxanadakı kitablardan birini əllərinə götürür, kitabla tanış olurlar. Müəllim yönəldici suallar vasitəsilə şagirdləri danışmağa istiqamətləndirir:

- Kitabın üzqabığı, müəllifin adı, illüstrasiyalar sizə hansı məlumatı ötürdü?

Siz məhz bu kitabı oxumaq istədiyinizə əminsinizmi?

**II mərhələ.** İndi isə bu suallara cavab axtarın:

- Mən bu haqda nə bilirəm?
- Daha nələr öyrənmək istəyirəm?

Şagirdlər götürdükləri kitaba nəzər salır, müəllimin suallarını cavablandırırlar.

**III mərhələ.** Müəllim soruşur:

- Kitabın məzmunu haqqında necə məlumat ala bilərik?

Şagirdlərin artıq annotasiya haqqında məlumatları var. Buna görə də kitabın ilk səhifələrində yazılmış annotasiya vasitəsilə kitabın məzmunu haqqında məlumat alırlar. Bu mərhələdən sonra məhz həmin kitabı oxumaq istədiklərinə qəti qərar verirlər. Bu prosses səmərəli mütaliə üçün zəmin yaradır. Şagirdlər çox vaxt düzgün kitab seçimi etmirlər, bu isə öz növbəsində mütaliə həvəsini azaldır.

1.2.1. **Tapşırıq B (dərslik).** B tapşırığında şagirdlərə "Kitabi-Dədə Qorqud"un üzqabığı, annotasiyası və bir neçə səhifəsi təqdim olunmuşdur. Şagirdlər tapşırıqdakı suallara cavab verməklə bu kitabı mütaliə etmə səbəblərini izah edirlər.

**Müəllimin nəzərinə!** Şagirdlər 3-cü sinifdə dastan anlayışı ilə tanış olmuş, "Kitabi-Dədə Qorqud" əsasında yazılmış "Səkrəyin dastanı", "Dirsə xan oğlu Buğac" və "Qaraca çoban" mətnlərini oxuyublar. Bu tapşırıqlar vasitəsilə dastanın digər boylarını mütaliə etmək həvəsi yaradan məqamlar müzakirə olunur.

### Oxuyub-qavrama

2.2.2. **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş cümlələri cədvəl üzrə qruplaşdırırlar. Bununla da oxudan əvvəl, oxu zamanı, oxudan sonrakı fəaliyyətlərin mahiyyətini anladıqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:**

Oxudan əvvəl: C, Ç, D

Oxu zamanı: E, B

Oxudan sonra: A

### Yazı

3.1.3. **Tapşırıq B (iş dəftəri).** Şagirdlər son dövrlərdə mütaliə etdikləri və yaxud sinfə gətirdikləri bir kitab haqqında məlumatları cədvəlin uyğun bölmələrinə qeyd edirlər. Bu tapşırıq şagirdlərin hər hansı bir mövzuda məlumatları qrafik informasiya şəklində çatdırmaq bacarığını möhkəmləndirir.

**Müəllimin nəzərinə!** Tapşırıqda təqdim edilmiş cədvəldən şablon kimi istifadə edilə bilər. Şagirdlər bu cədvəli xüsusi qeyd kitabçasına yapışdıraraq ilboyu mütaliə etdikləri kitablar haqqında qeydiyyat apara bilərlər. İlin sonunda qeyd kitabçasını vərəqləməklə oxuduqları kitablar haqqında (sayı, məzmunu, maraqlı fikirlər, rəylər) məlumatları yenidən xatırlaya bilərlər. Bu fəaliyyətlər şagirdlərdə mütaliə həvəsinin yaranmasına yönəlib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəxsi həyatından nümunələr gətirməklə fikrini əsaslandırır. | Tap. A (dərslik) |
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. B, |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. A (iş dəftəri) |
| Məlumatları qrafik informasiya (məlumat vərəqi, cədvəl, diaqram, sxem) şəklində təqdim edir. | Tap. B (iş dəftəri) |

## 4-cü dərs. Cümlə üzvləri. Mübtəda xəbər

- Dərslik: səh. 70
- İş dəftəri: səh. 46

### Təlim məqsədləri

- Sözlər arasında məna əlaqəsini müəyyən etməklə söz birləşməsi və cümlələr qurur (st.4.1.4).
- Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir (st.4.1.4).

### Dərsin qısa plan

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Söz, söz birləşməsi və cümlənin fərqləndirilməsi. |
| 2 | **Dil qaydaları** | Cümlə üzvlərinin suallarını müəyyən edilməsi.<br>Cümlənin əsasının müəyyən edilməsi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhədə söz, söz birləşməsi və cümlələr yazır. Şagirdlər bu nitq vahidlərini fərqləndirirlər.

### Dil qaydaları

4.1.4. **Tapşırıq A (dərslik).** Motivasiya xarakterli bu tapşırıq şagirdlərin söz, söz birləşməsi və cümlə haqqında aldıqları biliklərin tətbiqinə yönəldilib.

**Bunları bilməliyik rubrikası.** Müəllim "Bunları bilməliyik" rubrikasındakı məlumatları şərh edərək şagirdlərə cümlə üzvləri haqqında nümunələrlə məlumat verir.

4.1.4. **Tapşırıq B (dərslik). Tapşırıq A (iş dəftəri).** Tapşırıqlar şagirdlərin cümlə üzvləri haqqında aldıqları məlumatların möhkəmləndirilməsinə yönəlib. Şagirdlər suallara cavab tapmaqla cümlə üzvlərinin həm söz, həm də söz birləşməsi ilə ifadə olunduğunu anlayırlar.

**Düzgün cavablar:**

**Tapşırıq B (dərslik).** 1-Ç, 2-C, 3-A, 4-B.

**Tapşırıq A (iş dəftəri).**

**1. Uşaqlar divar qəzetini təqdim etdilər.**

Nə etdilər? – Təqdim etdilər.
Kim təqdim etdi? – Uşaqlar.
Nəyi təqdim etdilər? – Divar qəzetini.

**2. Sabah Bakı şəhərində güclü külək əsəcək.**

Nə edəcək? – Əsəcək.
Nə əsəcək? – Külək.
Nə vaxt əsəcək? – Sabah.
Harada əsəcək? – Bakı şəhərində.

**3. Ceyhun sabahkı imtahana ciddi hazırlaşıb.**

Nə edib? – Hazırlaşıb.
Kim hazırlaşıb? – Ceyhun.
Necə hazırlaşıb? – Ciddi.
Hansı imtahana? – Sabahkı.

**Tapşırıq C (dərslik).** Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini cümlənin baş üzvlərinə, yəni mübtəda və xəbər rolunda çıxış edən sözlərə yönəldir.

**Bunları bilməliyik rubrikası.** Müəllim cümlənin əsasını təşkil edən mübtəda və xəbər haqqında məlumat verir.

**Tapşırıq Ç (dərslik). Tapşırıq B, C (iş dəftəri).** Tapşırıq şagirdlərdə cümlənin əsasını müəyyənləşdirmək bacarığının inkişafına yönəldilib.

**Düzgün cavab:**
**Tapşırıq Ç (dərslik).**

1. Maşinist saxladı.
2. Elçin və Sərdar getdilər.
3. Aydın başa düşdü.
4. Səməd Vurğun şairdir.
5. Elxanın rəqibi güclüdür.
6. Müəllim izah etdi.

**Tapşırıq B (iş dəftəri).**

1. Səməd oyandı.
2. Nübar və Nəzrin bişirdilər.
3. Yusif tanıdı.
4. Külək tökdü.

**Tapşırıq C (iş dəftəri).**

1. Oğlan daxil oldu.
2. İdmançılar hazırlaşırlar.
3. Növbətçilər sulayacaqlar.
4. Günel həll edib.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz birləşməsi və cümlə qurarkən uyğun qrammatik şəkilçilərdən istifadə edir. | Tap. A (dərslik) |
| Cümlə üzvünün sualını müəyyən edir | Tap. B (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Cümlələrdə mübtəda və xəbərin yerini müəyyən edir. | Tap. C, Ç (dərslik)<br>Tap. B, C<br>(iş dəftəri) |

fəsil 3 **MACƏRALAR ALƏMİNDƏ**

## 1-ci dərs. Tom və Bekkinin mağara sərgüzəşti

• Dərslik: səh. 71-73 • İş dəftəri: səh. 47

**Təlim məqsədləri**

• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st.2.1.1).
• Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır (st.2.2.2).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st.2.2.4).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. (st. 2.2.2)

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tapşırıqda verilmiş suallar ətrafında müzakirə. |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Tom və Bekkinin mağara sərgüzəşti" mətninin oxusu. Söz boğçası üzrə iş. |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu ilə bağlı sualların cavablandırılması. Mətndə birbaşa əks olunmayan məlumatın müəyyənləşdirilməsi Hekayə xəritəsinin tərtibi. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini dərsliyin müvafiq səhifəsindəki A tapşırığına yönəldir. Tapşırıqda verilmiş motivasiya sualı ətrafında şagirdlərin fikirləri dinlənilir. Müəllim ehtiyac olduqca şagirdlərə fikirlərini tam ifadə etmələri üçün yardımçı suallar da verə bilər.

### Oxu. Söz ehtiyatı

2.1.1. **”Tom və Bekkinin mağara sərgüzəşti” mətni üzrə iş. Səssiz oxu.** Müəllim şagirdlərə mətni oxumaq üçün müəyyən vaxt verir. Şagirdlər mətni səssiz oxuyur, tanış olmayan sözləri dəftərlərinə yazırlar. Şagirdlər əvvəlcə dəftərlərinə qeyd etdikləri və söz boğçasındakı sözlərin mənasını kontekstə əsasən təxmin edir, daha sonra isə lüğət vasitəsilə dəqiqləşdirilər.

**Söz boğçasındakı yeni sözlərin izahı:**

**Təmtəraqlı** - möhtəşəm

**Gözdən keçirmək** - nəzər salmaq

**Tavan** - binanın daxilinin üst örtüsü

**Xəlvət** - gizli

**Kaha** - qayalıqda, dağda təbii və ya süni oyuq; mağara

**Tədqiq etmək** - müəyyənləşdirmək məqsədilə aparılan araşdırma

**Qət etmək** - yol getmək

Sözlərin mənası dəqiq izah edildikdən sonra şagirdlər onları müxtəlif cümlələrdə istifadə edirlər.

### Söz ehtiyatı

**Tapşırıq B (dərslik).** Tapşırıq yeni sözlərin möhkəmləndirilməsinə yönəlib.

**Düzgün cavab:**

**Mağara** – kaha

**Möhtəşəm** – təmtəraqlı

**Gizli** – xəlvət

**Ötəri baxmaq** – gözdən keçirmək

**Getmək** – qət etmək

**Araşdırmaq** – tədqiq etmək

### Oxuyub-qavrama

2.2.2. **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyənləşdirmək məqsədi daşıyır. Şagirdlər mətn əsasında sualları cavablandırırlar, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

2.2.4. **Tapşırıq Ç (dərslik).** Tapşırıq riyaziyyat fənni ilə inteqrasiya yaradır. Şagirdlər riyazi biliklərindən istifadə edərək Tom və Bekkinin neçə metr yol qət etdiklərini müəyyənləşdirirlər. Şagirdlər mətndə balıqçıların dilindən söylənilmiş “... mağara buradan 5 mil aralıda, çayın yuxarısındadır”,- sözlərə diqqət edir və haşiyədə verilmiş əlavə məlumatdan istifadə

edərək Tom və Bekkinin neçə metr yol qət etdiklərini müəyyənləşdirirlər.

**Tapşırığın həlli:** Əgər 1 mil 1420 metrə bərabərdirsə, deməli, 5mil =7100 metr edir.

2.2.2. **Tapşırıq A (iş dəftəri)**. Şagirdlər "Tom və Bekkinin mağara sərgüzəşti" mətninə aid hekayə xəritəsi tərtib edirlər. Hekayə xəritəsi üzrə müstəqil iş şagirdlərin mətni nə dərəcədə qavradıqlarını öyrənməyə imkan verir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Söz ehtiyatı üzrə iş. Tap. B (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. C (dərslik) |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumat əldə edir. | Tap. Ç (dərslik) |
| Mətn və onun hissələri üzrə hekayə xəritəsi tərtib edir. | Tap. A (iş dəftəri) |

## 2-ci dərs. Tom və Bekkinin mağara sərgüzəşti

• Dərslik: səh. 73-74 • İş dəftəri: səh. 48

**Təlim məqsədləri**

• Epizodların mətndəki ardıcıllığını müəyyən edir (st. 2.2.2).
• Mətndəki obrazları xarakterizə edir (st. 2.2.3).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st.3.1.3).
• Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir (st. 2.2.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Tom və Bekkinin mağara sərgüzəşti" mətni ilə bağlı frontal sorğu. |
| 2 | **Oxuyub-qavrama** | Hadisələrin ardıcıllığının müəyyənləşdirilməsi.<br>Obrazların xarakterizə edilməsi.<br>Fakt və ya mülahizələrin həqiqətə uyğunluğunun əsaslandırılması. |
| 3 | **Yazı** | Ekskursiyada davranış qaydalarının tərtibi. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim keçən dərsdə oxunmuş "Tom və Bekkinin mağara sərgüzəşti" mətnini xatırlatmaq üçün frontal sorğu keçirir.

### Oxuyub-qavrama

2.2.2. **Tapşırıq A (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını yoxlamaq məqsədi daşıyır. Eyni zamanda keçən dərsdə oxuduqları mətnin məzmununu xatırlamaq növbəti tapşırıqların da asanlıqla yerinə yetirilməsinə təkan verəcək.

**Doğru cavab:** Ç, B, D, C, A.

2.2.3. **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin məntiqi təfəkkürünün, analizetmə bacarığının inkişafına yönəlib. Şagirdlər Tomun hərəkətlərinə, tapşırıqda əks olunan epizoda istinad edərək Tomun davranışının səbəbini araşdırırlar. Bu tapşırıq Tom obrazının xarakterizə edilməsinə yönələn tapşırıqların asanlıqla yerinə yetirilməsi üçün zəmin yaradır.

**Düzgün cavab:**

Tom yolu itirməmək, asanlıqla geri qayıtmaq üçün cibində gəzdirdiyi ipin bir ucunu qayanın çıxıntısına, digər ucunu isə öz belinə bağladı.

2.2.3. **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin xarakterizə etmək, nəticə çıxarmaq bacarıqlarının inkişafına yönəlib. Şagirdlər Tom və Bekkinin davranışlarından nəticə çıxararaq bu obrazları xarakterizə edirlər.

**Düzgün cavab:**

1. Məsuliyyətsiz
2. Macəraçı
3. Qorxaq
4. Məntiqli
5. Fərasətli

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərdə obrazlar xəritəsinin hazırlanması bacarığının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər “Tom və Bekkinin mağara sərgüzəşti” mətninin baş qəhrəmanı Toma aid obrazlar xəritəsini tamamlamaqla bu obrazı xarakterizə edirlər.

**Müəllimin nəzərinə!** Dərslikdə verilmiş B və C tapşırıqlarının icrası bu tapşırığın asanlıqla yerinə yetirilməsinə zəmin yaradır. Şagirdlər təxminən Tomun bu hisslərini qeyd edə bilərlər:

1. Tom peşmançılıq hissi keçirirdi. Geri qayıtmaq istəyəndə yolu tapmırlar. Bekkinin qorxudan ağladığını görən Tom özünü danlayırdı.

2. Sevinc hissi keçirdi. Tom mağaranın Missisipi çayına tərəf ikinci çıxışını tapanda çox sevindi. Bu şad xəbəri Bekkiyə çatdırmaq üçün tələsdi.

Şagirdlər “Tomun yadda qalan sözləri və ya hərəkətləri” yarımbaşlığı üçün təxminən aşağıdakı cümləri yaza bilərlər:

1. Tom özünü itirmədi, Bekkini sakitləşdirdi, mağaradan çıxış yolu tapdı.

### Yazı

3.1.3. **Tapşırıq Ç (dərslik).** Tapşırıq oxu və yazı məzmun xətlərinin inteqrasiyasına imkan yaradır. Şagirdlər Tom və Bekkinin başına gələn hadisələrdən nəticə çıxararaq ekskursiya zamanı davranış qaydaları tərtib edirlər. Şagirdlər təxminən aşağıdakı qaydaları tərtib edə bilərlər:

• Qrupla birlikdə hərəkət edin.

• Qrup rəhbərinə xəbərdarlıq etmədən qrupdan ayrılmayın.

• Özünüzün və qrup yoldaşlarınızın təhlükəsizliyini nəzərə alın.

• Sizi maraqlandıran əşyalar, yerlər və sairə haqqında bələdçidən soruşun.

• İcazəsiz heç bir eksponata toxunmayın.

### Oxuyub-qavrama

2.2.5. **Tapşırıq D (dərslik).** Şagirdlər “Yarasa” başlıqlı məlumat vərəqindəki yarasa haqqında məlumatlarla tanış olurlar. Məlumat vərəqindəki şərti işarələr (simvollar) əvvəlki siniflərdən şagirdlərə tanışdır. Müəllim bir daha bu işarələri izah etsə, şagirdlərə məlumat vərəqini oxumaq və cümlələr şəklində yazmaq asan olar. Məlumat vərəqinə istinad etməklə “Tom və Bekkinin mağara sərgüzəşti” mətnində yarasalar haqqında verilmiş faktların həqiqiliyi barədə fikir yürütmək olar:

1. “Tom və Bekkinin mağara sərgüzəşti” mətnində deyilir: “Uşaqlar həmin pilləkənlərlə xəlvət kahalara qədər endilər. Burada tavandan aşağıya doğru uzanan yoğun stalaktitlər* gördülər. Onların arasından yüzlərlə yarasa birbirinə sarmaşıb yumaq kimi sallanmışdı”. Məlumat vərəqində verilmiş “Meşələrdə, mağaralarda sürü ilə yaşayırlar” cümləsi bunu sübut edir.

2. Mətndə qeyd edilir ki, yarasalar mağaranın tavanından sallanmışdı. Məlumat vərəqindəki “Ayaq üstə dayana bilmədiyindən başıaşağı sallanır” məlumatın həqiqətə uyğun olmasını sübut edir.

3. Mətndə qeyd olunub ki, Tom yarasaların təhlükəli olduğunu bilirdi. Məlumat vərəqində verilmiş ”Vampir yarasalar dişləri vasitəsilə quduzluq xəstəliyini ötürə bilərlər” faktı bu məlumatın həqiqiliyini təsdiq edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Epizodların mətndəki ardıcıllığını müəyyən edir. | Tap. A (dərslik) |
| Obrazın davranışının və keçirdiyi hisslərin səbəbini izah edir. | Tap. B, C (dərslik) |

| | |
|---|---|
| Mətndəki obrazları xarakterizə edir. | Tap. A (iş dəftəri) |
| Davranış qaydalarını tərtib edir. | Tap. Ç (dərslik) |
| Oxuduğu mətnə istinad etməklə fakt və ya mülahizələrin həqiqətə uyğunluğunu əsaslandırır. | Tap. D (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə bədii mətnlərdə təsvirlər haqqında məlumat veriləcək. Müəllimə şagirdlərə nümayiş etdirmək üçün bir neçə təsvir nümunələri hazırlamaq tövsiyə edilir. Məsələn: meşənin təsviri, parkın təsviri, otağın təsviri və sairə.

## 3-cü dərs. Bədii mətndə təsvir

• Dərslik: səh. 74-75 • İş dəftəri: səh. 49

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1.).
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır (st.3.1.2).
• Mətndəki obrazlı ifadələri fərqləndirir və izah edir (st. 2.1.3).
• Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st.2.2.6).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Kiçikhəcmli təsviri mətnlərin oxusu. |
| 2 | **Danışma** | “Tom və Bekkinin mağara sərgüzəşti” mətnində mağaranın təsvirinin xatırlanması. |
| 3 | **Yazı** | Açar söz və söz birləşmələrindən istifadə edərək təsviri mətnin yazılması. |
| 4 | **Söz ehtiyatı** | Obrazlı ifadələrin fərqləndirilməsi. |
| 5 | **Oxuyub-qavrama** | Mətnin təxəyyülünə uyğun davam etdirilməsi. |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim əvvəlcədən hazırladığı təsvir nümunələrini (meşənin təsviri, parkın təsviri, otağın təsviri) şagirdlər üçün oxuyur.

### Danışma

1.2.1. **Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini “Tom və Bekkinin mağara sərgüzəşti” mətnində mağaranın təsvirinə yönəldir. Şagirdlər mağaranın təsviri ilə bağlı beş açar söz söyləyirlər. Təxminən bu sözlər ola bilər: qaranlıq, böyük, geniş, qeyri-adi. Qorxulu, vahiməli, darısqal keçidləri olan, yarasalarla dolu, stalaktitlər sallanmış, çoxlu kahaları olan və sairə.

**Müəllimin nəzərinə!** Mağaranın təsviri ilə burada baş verən hadisələrin, obrazların həyəcanı arasındakı əlaqəni müəyyənləşdirmək tövsiyə edilir. Şagirdlər təxminən aşağıdakı cavabları verə bilərlər:
*Qaranlıq mağara, stalaktitlər arasında topa ilə sallanan yarasaların təsviri burada həyəcanlı, tələşlı hadisələrin baş verəcəyindən xəbər verir.*
Bu fəaliyyət şagirdlərə bədii mətnlərdə təsvirlərin verilməsinin səbəbini anlamağa kömək edir.

**Yadda saxla rubrikası.** Müəllim “Yadda saxla rubrikası”nda verilmiş məlumatları şərh edir.

**Müəllimin nəzərinə!** Üçüncü sinifdə şagirdlər bənzətmələr haqqında məlumat alıblar. Məsələn: quş kimi uçur, ulduz kimi parıldayır. Müəllimə bənzətmələr haqqında məlumatları şagirdlərə xatırlatmaq tövsiyə edilir. Təsviri mətnlərdə bənzətmələr əşya və hadisələrin əsas xüsusiyyətlərini oxucuya daha dəqiq və təsirli çatdırmağa kömək edir. Müəllim şagirdlərə təsviri mətn yazarkən bənzətmələrdən istifadə etməyi tövsiyə edir.

### Yazı

3.1.2. **Tapşırıq B (dərslik).** Tapşırıq şagird-

lərin yazı bacarığının inkişafına yönəlib. Şagirdlər qruplara ayrılır və onlara təqdim edilmiş açar sözlərdən istifadə edərək şəkilləri təsvir edirlər.

**Mətnlərin məzmunu təxminən belə ola bilər:**

**I mətn. Talada.**

İsti yay günlərindən biri idi. Mən nənəmlə yaxınlıqdakı meşəyə getmişdim. Sıx ağacların arası ilə bir qədər yol getdikdən sonra bir talaya çıxdıq. Yamyaşıl otların arasında bitən sarı, qırmızı, bənövşəyi çiçəklər rəngbərəng xalını xatırladırdı. Çiçəklərin üzərində alabəzək kəpənəklər uçuşurdu. Kolların arasından çıxan dovşanlar onların ardınca hoppanırdı.

**II mətn. Kənddə.**

Yay tətili başlayan kimi nənəmgilə, kəndimizə gedirəm. Kəndimiz başı göylərə dəyən uca dağların arasında yerləşir. Dağların başı yay-qış qarla örtülür. Elə buna görə də hətta avqust ayında belə bura sərin olur. Dağların zirvələri pambıq kimi ağappaq buludlara toxunur. Bəzən külək əsir, sanki buludları qovmağa çalışır. Bu zaman göy otların üzərində uzanıb kəpənək kimi uçuşan buludları seyr etmək xoşuma gəlir.

**III mətn. Parkda.**

Bu gün həftəsonudur. Anam hər şənbə bacımla məni parka aparır. Park evimizə yaxın ərazidə yerləşir. Burada uşaqların əylənməsi və istirahəti üçün gözəl şərait var. Park cürbəcür karusellərlə doludur. Kimi yelləncəkdə yellənir, kimi sürüşür, kimi isə karuseldə əylənir. Uşaqların şən səsi ətrafı bürüyür. Klounlar uşaqlara rəngbərəng şarlar hədiyyə edir, onları əyləndirir.

**IV mətn. Dənizdə.**

Biz dənizkənarı bulvarın yaxınlığında yaşayırıq. Mən tez-tez babamla bulvarda gəzintiyə çıxıram. Bəzən səhər tezdən, bəzən isə axşamlar gün batana yaxın gəzməyə gedirik. Axşamlar günəşin batışını seyr etmək mənim çox xoşuma gəlir. Günəş batdıqca qızarır, sanki suyun səthinə işıqdan yol salır. Yelkənli qayıqlar bu işığın altında qu quşu kimi ora-bura süzür. Bir az keçir, hava tamamilə qaralır. Ay günəşi əvəz edir. Ayın işığı dəniz sularını gümüşü rəngə boyayır.

### Söz ehtiyatı

2.1.3. **Tapşırıq C (dərslik). Tapşırıq A (iş dəftəri).** Möhkəmləndirmə xarakterli bu tapşırıqlar “Diqqət et” rubrikasında aldıqları biliklərin tətbiqi üçün şagirdlərə imkan yaradır. Şagirdlər dərslikdə verilmiş mətndə meşənin görünüşü haqqında aydın təsəvvür yaradan sözləri və bənzətmələri seçib yazırlar.

**Dərslikdə verilmiş C tapşırığının düzgün cavabları:** yalın budaqlı ağaclar, solğun, qurumuş yarpaqlar, xışıltı səsi, əlvan xalça kimi, açıq-sarı rəngli yarpaqlar, qoca pəhləvan kimi, nar kimi, qızıl sırğa kimi.

**İş dəftərində verilmiş A tapşırığının düzgün cavabları:** pambıq kimi, çilçıraq kimi, büllur kimi, qılınc kimi.

### Oxuyub-qavrama

2.2.6. 3.1.2. **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünün inkişafına yönəlib. Şagirdlər Tom və Bekkinin mağarada deyil, meşədə azdıqlarını təsəvvür edirlər. Şagirdlər burada baş verən hadisələri oxucunun yaxşı təsəvvür etməsi üçün meşəni təsvir edirlər. Artıq dərslikdəki B və C tapşırıqlarının icra edilməsi bu tapşırığın asanlıqla yerinə yetirilməsi üçün zəmin yaradır.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıqda dənizin təsviri verilmişdir. Şagirdlər təsvirlərə əsasən bu məkanda baş verə biləcək hadisələri düşünür, mətni təxəyyüllərinə uyğun davam etdirirlər. Şagirdlər təxminən aşağıdakı variantları təqdim edə bilərlər:

1) Birdən dənizdə fırtına başladı. Güclü külək balıqçının köhnə qayığını beşik kimi ora-bura yelləyirdi. Balıqçı kürəklərdən möhkəm yapışıb qayığı aşmağa qoymurdu. Qoca qayığın burnunu sahilə doğru yönəldib kürəkləri var gücü ilə işə saldı. Budur, qayıq üstünə gələn dalğaları qılınc kimi yarıb irəliləyirdi. Nəhayət,

qoca balıqçı sahil xəttini görüb dərindən nəfəs aldı.

2) Birdən qoca balıqçı böyük bir durnabalığının qayığın yanından ora-bura üzdüyünü gördü. Tez tilovunu suya atdı. Bir azdan tilov yellənməyə başladı. Qoca tilovu yuxarı çəkmək istəyəndə ona gücü çatmadı. Tilova düşən durnabalığı sürətlə üzür, canını qutarmağa çalışırdı. Durnabalığı balıqçının köhnə qayığını sürətlə ardınca çəkirdi. Bir müddət çəkişmə davam etdi. Heç biri təslim olmaq istəmirdi: nə balıqçı, nə də durnabalığı. Qoca balıqçı durnabalığının bu mübarizəsinə məəttəl qalmışdı. "Əcəbdir, canını nə çox istəyir. Bəlkə də, ailəsinin yanına tələsir", -deyə düşünüb qoca tilovun ipini buraxdı.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A (dərslik) |
| Verilmiş açar söz və şəkillərdən istifadə edərək kiçikhəcmli mətn yazır. | Tap. B (dərslik) |
| Mətndəki obrazlı ifadələri fərqləndirir və izah edir. | Tap. C (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır. | Tap. Ç (dərslik)<br>Tap. B (iş dəftəri) |

## 4-cü dərs. Feili xəbər və ismi xəbər

• Dərslik: səh. 76 • İş dəftəri: səh. 50

**Təlim məqsədləri**

• Söz birləşməsi və cümlə qurarkən uyğun qrammatik şəkilçilərdən istifadə edir(st.4.1.4).
• Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir (st.4.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Söz, söz birləşməsi və cümlənin fərqləndirilməsi. |
| 2 | **Dil qaydaları** | Cümlə üzvlərinin suallarının müəyyən edilməsi.<br>Cümlənin əsasının müəyyən edilməsi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Keçən dərslərdə şagirdlər cümlə üzvləri, cümlənin qrammatik əsası olan mübtəda və xəbər haqqında məlumat alıb, müxtəlif tapşırıqlar yerinə yetirməklə qazandıqları bilikləri tətbiq ediblər. Tapşırıq şagirdlərin söz, söz birləşməsi və cümlə haqqında aldıqları biliklərin tətbiqinə yönəldilib. Motivasiya xarakterli bu tapşırıq da şagirdlərin diqqətini cümlənin xəbərinə yönəldir. Şagirdlər xəbəri tapşırıqda təqdim edilmiş suallara cavab olan cümlələri müəyyənləşdirirlər. Beləliklə, cümlənin xəbərinin təkcə feil ilə(hərəkətlə) deyil, müxtəlif nitq hissələri ilə (isim, sifət, əvəzlik) ifadə olunduğunu müşahidə edirlər.

**Düzgün cavab:** 1-B, 2-Ç, 3-A, 4-C.

**Bunları bilməliyik rubrikası.** Müəllim "Bunları bilməliyik" rubrikasındakı məlumatları şərh edərək şagirdlərə ismi və feili xəbərlər haqqında məlumat verir, nümunələr söyləməklə məlumatı qavramağa yardımçı olur.

Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərə aldıqları bilikləri tətbiq etməyə, möhkəmləndirməyə xidmət edir.

4.1.4. **Tapşırıq B (dərslik).** Şagirdlər suallara cavab tapmaqla cümlənin xəbərlərini bərpa edir, cümləni tamamlayırlar. Bu tapşırıq şagirdlərin cümlə üzvlərinin suallarını müəyyən etmək bacarığını inkişaf etdirir. Eyni zamanda cümlənin xəbərinin müxtəlif nitq hissəsi ilə ifadə olunması haqqında bilikləri xatırladır.

**Düzgün cavablar:** Bu tapşırığın cavabları müxtəlif ola bilər.

1. Bayrağımız (necədir?) üçrənglidir.
2. Mən rəfdən kitabı (nə etdim?) götürdüm.
3. Bura (haradır?) məktəbdir.
4. Mənim bacım (kimdir?) həkimdir.

5. Sərçələr (necədir?) balacadır.
6. Ustalar (nə etmişdilər?) işləmişdilər.

**Tapşırıq C (dərslik).** Şagirdlər B tapşırığında suallara cavab tapmaqla cümlənin xəbərini müəyyənləşdirdilər və cümlə üzvlərinin suallarını müəyyən etmək bacarığına yiyələndilər. Bu bacarıq şagirdlərin C tapşırığını asanlıqla yerinə yetirmələrinə imkan yaradır. Şagirdlər cümlələrdə xəbərin yerini müəyyən edir və müstəqil şəkildə sual verərək ismi və ya feili xəbər olduğunu qeyd edirlər.

**Düzgün cavablar:**

1. Ərazi qalın meşəlikdir. (haradır? - ismi xəbər)
2. Cizgi filmləri maraqlıdır. (necədir? - ismi xəbər)
3. Şagirdlər müəllimi diqqətlə dinlədilər. (nə etdilər? - feili xəbər)
4. Biz bu günlərdə kəndə gedəcəyik. (nə edəcəyik? - feili xəbər).

**Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərdə cümlə üzvünün sualını müəyyən etmək bacarığını inkişaf etdirir.

**Düzgün cavablar:** 1-C, 2-A, 3-Ç, 4-B.

**Tapşırıq D (dərslik).** Şagirdlər dərsliyin I bölməsində frazeoloji birləşmələr haqqında ətraflı məlumatlar almışlar. Frazeoloji birləşmələrin bir anlayış ifadə etdiyi, bir suala cavab verdiyi haqqında öyrənmişlər. Bu biliklər D tapşırığını asanlıqla yerinə yetirmək imkanı yaradır.

**Düzgün cavablar:**

1. Biz qonaqları yola saldıq.
2. Müəllim jurnala nəzər saldı.
3. Babam keçmiş günləri yada saldı.
4. Ətrafda heç kim gözə dəymirdi.

**Tapşırıq A, B, C (iş dəftəri).** Tapşırıqlar şagirdlərin ismi və feili xəbərləri fərq-ləndirmək bacarığının inkişafına yönəldilib.

**A tapşırığının düzgün cavabları:**

**İsmi xəbərli cümlələr:**

İlin ən gözəl fəsillərindən biri bahardır.
Bu çiçəklərdən biri də bənövşədir.

**Feili xəbərli cümlələr:**

Bahar gələndə təbiət canlanır.
Torpaq isinir.
Ağaclar oyanır.
İlk yarpaqlar, çiçəklər təbiəti bəzəyir.

**İş dəftərində verilmiş B tapşırığının düzgün cavabları:** Tapşırığın cavabları müxtəlif ola bilər. Aşağıdakı cümlələr nümunə kimi təqdim edilir.

**İsmi xəbərli cümlələr:**

1. Qarışqa balacadır.
2. Hava istidir.
3. Kitab maraqlıdır.

**Feili xəbərli cümlələr:**

1. Qarışqa dırmaşır.
2. Hava soyuyur.
3. Kitab oxunur.

**İş dəftərində verilmiş C tapşırığının düzgün cavabları:**

Tapşırığın cavabları müxtəlif ola bilər. Aşağıdakı cümlələr nümunə kimi təqdim edilir.

1. Biz çalışqan şagirdlərik.
2. Sən çox ağıllısan.
3. Sənin qiymətin beşdir.
4. Şagirdlər kitabxanadadır.
5. Siz tapşırığı düzgün yazdınız.
6. Sabah hava yağışlı olacaq.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlə üzvünün sualını müəyyən edir. | Tap A, Ç (dərslik)<br>Tap C (iş dəftəri) |
| Söz və söz birləşmələrinin cümlədəki funksiyasını izah edir. | Tap.B, D(dərslik)<br>Tap. Ç (iş dəftəri) |
| İsmi və feili xəbəri fərqləndirir. | Tap. C (dərslik)<br>Tap. A, B (iş dəftəri) |
| Cümlələrdə mübtəda və xəbərin yerini müəyyən edir. | Tap. D (dərslik) |

fəsil 4 **YENİLMƏZ QƏHRƏMANLAR**

## 1-ci dərs. Heraklın Stimfal quşlarını qovması

• Dərslik: səh. 77-78 • İş dəftəri: səh. 51

**Təlim məqsədləri**

• Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir (st.2.1.2).
• Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır (2.2.2).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 2.2.4).
• Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir (st.3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tapşırıqda verilmiş suallar ətrafında müzakirə. |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Heraklın Stimfal quşlarını qovması" mətninin I hissəsinin oxusu. Söz boğçası üzrə iş. |
| 3 | **Oxuyub-qavrama** | Faktoloji sualların cavablandırılması. Mətndəki fakt və ya mülahizələrin həqiqətə uyğunluğunun əsaslandırılması. |
| 4 | **Yazı** | "Heraklın Stimfal quşlarını qovması" mətni haqqında rəy yazılması. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərin diqqətini dərsliyin müvafiq səhifəsindəki A tapşırığına yönəldir. Tapşırıqda verilmiş motivasiya sualı ətrafında müzakirə aparılır, şagirdlərin fikirləri dinlənilir. Müəllim ehtiyac olduqca fikirlərini tam ifadə etmələri üçün şagirdlərə yardımçı suallar da verə bilər.

### Oxu. Söz ehtiyatı

**"Heraklın Stimfal quşlarını qovması" mətninin I hissəsi üzrə iş. Səssiz oxu.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində "Heraklın Stimfal quşlarını qovması" mətninin I hissəsini səssiz oxuyurlar. Müəllim şagirdləri yoxlamaq məqsədilə hər abzasın məzmununa uyğun suallar verir. Oxu zamanı tanış olmayan sözlərin mənası izah edilir. Şagirdlər əvvəlcə sözləri kontekstə əsaslanaraq izah etməyə çalışır, daha sonra isə lüğət vasitəsilə dəqiqləşdirirlər.

**"Söz boğçası" rubrikası**. "Söz boğçası"ndakı sözlərin düzgün izahı:

**Bədheybət** - qorxunc görünüşlü, pis təsir bağışlayan; dəhşətli

**Mis** - qırmızımtıl rəngə çalan metal

**Xalis** - təmiz

**İlah** - Allah

**Pər** - müxtəlif maşın və qurğuların fırlanan hissəsi, qanadı

**Sərrast** - düz, düzgün, dəqiq, hədəfi düz vuran

**Şaxşax** - silkələdikdə içərisindəki xırda daşlardan səs çıxan uşaq oyuncağı

2.1.2. **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur, cümlənin kontekstinə görə "yay" və "süzmək" sözlərinin mənasını müəyyənləşdirirlər. Həmin sözlərin mətndəki mənada işləndiyi cümləni seçirlər. Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsi məqsədi daşıyır.

**Düzgün cavablar:**

1. Qazan xan yayı çəkib oxu atdı.

2. Göyərçinlər mavi səmada sıra ilə süzürdülər.

### Oxuyub-qavrama

2.2.2. **Tapşırıq C (dərslik). Tapşırıq A (iş dəftəri).** Tapşırıqlar mətn üzrə faktoloji məlumatların yoxlanılmasına yönəlib. Şagirdlər bu tapşırıqları yerinə yetirməklə mətni nə qədər diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Dərslikdə verilmiş C tapşırığının düzgün cavabları:**

**Evrisfey** - hökmdar

**Herakl** - qəhrəman

**Arqos** - şəhər

**Afina** - müdriklik ilahəsi

**Apollon** - hərb ilahı

**Stimfal** - meşə

**İş dəftərində verilmiş A tapşırığının cavabları:**

• Herakl hansı qoçaqlıqları göstərmişdi?

• Stimfal quşlarının lələkləri hansı metaldan idi?

• Heraklın neçə oxu var idi?

2.2.4. **Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqdakı cümləyə yönəldir. Şagirdlər mətnə istinad edərək həmin fikirlərin doğruluğunu əsaslandırırlar. Bu tapşırıq şagirdlərin oxuyub-qavrama bacarıqları ilə yanaşı, əsaslandırma, arqumentlərdən istifadə etmə kimi bacarıqlarını da inkişaf etdirir.

**Düzgün cavab:**

**1. Fikir** - Heraklın Stimfal quşlarını qovması onun beşinci qoçaqlığıdır.

**Əsaslandırma** - Mətnin ilk abzasında qeyd olunur ki, Herakl əvvəlcə bədheybət Nemey şirini, sonra isə Lerney əjdahasını məhv etdi. Daha sonra Yeriman qabanına qalib gəldi. Kireney maralını tutub gətirdi. Növbəti tapşırığı isə Stimfal quşlarını qovması oldu. Beləliklə, Stimfal quşlarını qovması Heraklın beşinci qoçaqlığı idi.

**2. Fikir** - İlahlar Herakla hörmət edir, ona yardım etməyə çalışırdılar.

**Əsaslandırma** - Mətndə hərb ilahı Apollon və müdriklik ilahı Afinanın adı çəkilir, onların Herakla yardımından bəhs edilir: Apollon Herakla qızıl oxlar bağışlamış, Afina isə ağıllı məsləhəti ilə Heraklın qalib gəlməsinə kömək etmişdi.

**3. Fikir** - Şaxşaxın səs çıxarması üçün onu hərləmək və ya silkələmək lazımdır.

**Əsaslandırma** - Mətndə qeyd olunur ki, külək əsdikcə şaxşaxlar səs çıxarır və quşlar bu səsdən hürkürdülər.

### Yazı

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin müəyyən mövzu haqqında rəy yazmaq bacarığının tətbiqinə yönəlmişdir. Şagirdlər "Heraklın Stimfal quşlarını qovması" mətni haqqında rəy yazır, inandırıcı görünməyən epizodlarla bağlı öz fikirlərini qeyd edir, mətndən aydın olmayan məqamlar barədə yazırlar. Baş qəhrəmanın diqqəti cəlb edən xüsusiyyətləri haqqında fikir bildirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir. | Tap. B (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. C (dərslik)<br>Tap. A ( iş dəftəri) |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumat əldə edir. | Tap. C (dərslik) |
| Oxuduğu mətn haqqında rəy yazır. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllimə növbəti dərs şagirdlərə nümayiş etdirmək üçün onların üçüncü sinifdə tanış olduqları əfsanəvi Aldədə obrazının şəkilləri, yəni Aldədə əfsanəsi mətninə çəkilmiş illüstrasiyaları hazırlamaq tövsiyə edilir.

## 2-ci dərs. Mifik obrazlar

• Dərslik: səh. 79 • İş dəftəri: səh. 52

### Təlim məqsədləri

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Mətndəki obrazları xarakterizə edir (st. 2.2.3).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st.2.2.3).
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətnlər yazır (st.3.1.2).
• Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st.3.1.1).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st.3.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Aldədə əfsanəsinin və obrazının nümunəsində irreal obrazların xatırlanması. |
| 2 | **Danışma** | Müəyyən fikirlə bağlı mövqeyin əsaslandırılması. |
| 3 | **Oxuyub-qavrama** | Obrazların xarakterizə edilməsi. İllüstrasiya ilə mətnin müvafiq hissəsinin uyğunlaşdırılması. |
| 4 | **Yazı** | Planı genişləndirməklə bədii mətnin yazılması. |
| 5 | **Dinləmə** | “Heraklın nemey şirini məhv etməsi” mətninə əsasən sualların cavablandırılması. |
| 6 | **Yazı** | Annotasiyanın yazılması. |
| 7 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

Şagirdlər üçüncü sinifdə müxtəlif əfsanələr oxumuş, əfsanəvi obrazlarla tanış olmuşlar. Müəllim şagirdlərə Aldədə obrazının şəkilləri, yəni Aldədə əfsanəsi mətninə çəkilmiş illüstrasiyaları nümayiş etdirir və əfsanəni xatırla-dır. Aşağıdakı suallarla müraciət edir:

– *Sizcə, insan oda çevrilə bilərmi?*

– *Sizcə, onlar real obrazlardırmı?*

Suallarla bağlı təşkil olunan müzakirənin məqsədi mətnlərdə real və irreal hadisələr, obrazlar haqqında təsəvvür yaratmaqdır.

## Danışma

1.2.1. **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sual ətrafında müzakirə aparırlar. Mövzu haqqında öz mövqelərini bildirir, arqumentlər gətirməklə fikirlərini əsaslandırırlar. Müəllim ehtiyac olduqca fikirlərini tam ifadə etmələri üçün şagirdlərə yardımçı suallar da verə bilər.

**“Yadda saxla” rubrikası üzrə iş.** Müəllim şagirdlərin diqqətini “Yadda saxla” rubrikasına yönəldərək mifik obrazlar haqqında məlumat verir, bu obrazların yaranma səbəblərini izah edir.

**Müəllimin nəzərinə!** Şagirdlər aşağı siniflərdə müxtəlif xalqlar, həmin xalqlara aid tarixi abidələr, əsərlər, dastanlar, nağıllar, yazıçılar və sairə haqqında məlumat alıblar. Nümunələr söyləməklə, şəkillərini nümayiş etdirməklə hər bir xalqa mənsub mifik qəhrəmanlar haqqında əlavə məlumatlar vermək olar. Bu, şagirdlərin dünyagörüşünün inkişafına təkan verir.

## Oxuyub-qavrama

2.2.3. **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda təqdim edilmiş sualı cavablandırmaqla mifik obrazlar haqqında aldıqları məlumatları anladıqlarını nümayiş etdirirlər.

2.2.3. **Tapşırıq C (dərslik).** Şagirdlər “Heraklın Stimfal quşlarını qovması” mətninin məzmununu xatırlayır və tapşırıqdakı illüstrasiyalara uyğun gələn qoçaqlıqlarını nəql edirlər.

**Düzgün cavab:**

1. Herakl bədheybət Nemey şirini məhv edir.
2. Herakl Lerney əjdahasını məhv edir.
3. Herakl Kireney maralını tutub gətirir.

## Yazı

3.1.2. **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin kiçikhəcmli sadə bədii mətn yazmaq bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda təqdim edilmiş plan və illüstrasiyalar əsasında “Heraklın Nemey şirini məhv etməsi” haqqında kiçik mətn yazırlar. Şagirdlər “Heraklın Stimfal quşlarını qovması” mətnində Heraklın bir neçə qoçaqlığı haqqında məlumatla tanış olublar. Şagirdlər Heraklın qarşısına çıxan təhlükələri öz ağlı, fərasəti hesabına dəf etdiyini bilirlər. Tapşırıqda təqdim edilmiş illüstrasiyalar Heraklın Nemey şirini məhv etmək üçün tökdüyü tədbiri əks etdirir. Şagirdlər tapşırıqda verilmiş planı genişləndirirlər:

**1) Dialoqlardan istifadə etməklə:**

Yevrisfey üzünü Herakla tutub dedi:

- Eşitmişəm, Nemey dərəsində bir şir yaşayır. Tez-tez ətrafdakı kəndlərə hücum edir, insanlara zərər verir.

- Hökmdar, əmriniz nədir?

- Gərək gedib bu şiri məhv edəsən! İnsanları təhlükədən xilas edəsən.

**2) Bədii təsvirlərdən istifadə etməklə:**

Şagirdlər illüstrasiyaya və təxəyyüllərinə əsasən Nemey şirinin yaşadığı mağaranı təxminən aşağıdakı kimi təsvir edə bilərlər.

Nemey şiri Nemey dərəsində bir mağarada yaşayırdı. Mağara qayaların arasında yerləşirdi. Mağaranın hər iki tərəfindən girişi var idi. Bu da şiri tutmaq üçün böyük bir maneə idi.

**Müəllimin nəzərinə!** Şagirdlər "Heraklın Nemey şirini məhv etməsi" haqqında mətnlə tanış deyillər. Əvvəlcədən bu mətni şagirdlərə oxumaq lazım deyil. Şagirdlər öz yazılarını təqdim etdikdən sonra müəllim, həqiqətən də, Heraklın Nemey şirini necə tutması haqqında şagirdlərə məlumat verə bilər.

## Dinləmə. Yazı

3.1.1. **Tapşırıq A (iş dəftəri).** Müəllim "Heraklın Nemey şirini məhv etməsi" mətnini səsləndirir. Şagirdlər tapşırıqda verilmiş sualları cavablandırmaqla mətni diqqətlə dinlədiklərini nümayiş etdirirlər. Eyni zamanda öz yazıları ilə müqayisə edirlər.

### Heraklın Nemey şirini məhv etməsi

Nemey adi şir deyildi, bədheybət, nəhəng, sehrli bir yırtıcı idi. Bu şir Nemey dərəsində yaşayırdı. O, tez-tez ətrafdakı kəndlərə hücum edir, hamını vahimə içində saxlayırdı.

Herakl cəsur olduğu qədər də ehtiyatlı və tədbirli idi. O, birbaşa şirin üstünə getmədi, əvvəlcə yerli əhalidən bu vəhşi heyvan barədə məlumat toplamaq qərarına gəldi. Bu məqsədlə Herakl kəndin kənarındakı bir daxmanın qapısını döydü. Evin yiyəsi Heraklın gəlişinin səbəbini eşidcək dedi:

– Ey igid, gəl, sən bu fikirdən əl çək. Bu şir çox güclü və qorxunc bir heyvandır. Onun dərisi daşdan da bərkdir. O, yekə çay daşlarını ağzına salıb asanlıqla gəmirir. Bu qorxunc şir çox dərin, zil qaranlıq bir mağarada yaşayır, üstəlik, bu mağara tilsimlidir; nə qədər ki şir mağaradadır, ona nə nizə, nə qılınc, nə də ox batmır...

Heraklı heç nə qorxuda bilməzdi. O, polad dəbilqəsini başına qoydu, qılıncını bağladı və xudahafizləşib daxmadan çıxdı. Dan yeri ağaran zaman Herakl gəlib Nemey meşəsinə çatdı. Herakl Nemey şirinin dərisinin daşdan da bərk olduğunu xatırladı. Ona demişdilər ki, heyvana nə ox, nə də qılınc batmır. Odur ki Herakl daha etibarlı silah düzəltmək qərarına gəldi. Bu məqsədlə o, cavan bir palıd ağacını kökündən çıxarıb budaqlarını kəsdi, özü üçün dəmir kimi möhkəm bir toppuz hazırladı və şiri axtarmağa yollandı. Meşədən təzəcə çıxmışdı ki, yolun kənarındakı təpənin üstündə daşdan yonulmuş nəhəng bir şir gördü. Herakl fikirləşdi ki, yəqin, bu qəribə heykəli ətraf kəndin sakinləri daşdan yonublar. Lakin qəfildən bu dəhşətli "heykəl" daş başını qaldırdı və qorxunc bir nərə çəkərək sıçrayıb ayağa qalxdı. Herakl dərhal qızıl oxu çıxarıb kamana qoydu. Bu müdhiş heyvanın gözünü nişan alıb oxu atdı. Nemey şiri tez gözünü yumdu, qızıl ox heyvanın zireh kimi möhkəm göz qapağına dəyərək şimşək kimi parıldadı və cingilti ilə yerə düşdü. Şir sürətlə qaçıb təpələrin arasında gözdən itdi.

O, nəhəng toppuzu möhkəm tutaraq şiri təqib etməyə başladı. Yırtıcı heyvanın gözlənilməz qorxaqlığı onu təəccübləndirmişdi. Amma Herakl Nemey şirinin təkcə yırtıcı deyil, həm də hiyləgər olduğunu yaxşı bilirdi. Odur ki ehtiyatı əldən vermirdi, şirin pusquda durub qəfildən onun üzərinə atılacağından çəkinirdi. Ancaq şirdən heç bir səs-səmir yox idi, onun nəhəng ləpirləri isə Nemey dərəsinə doğru gedərək birdən-birə yoxa çıxırdı.

Herakl sürətlə şirin dalınca qaçdığı zaman dağın ətəyindəki kolların arasında bir mağara gördü. Şirin burada gizləndiyini güman edərək kolları araladı, irəli şığımaq istədi, amma qəfildən dayandı. Mağara rütubətli, qaranlıq və çox darısqal idi. Burada nəhəng toppuzla vuruşmaq çətin olardı. Şir Heraklın qorxduğunu duycaq mağaradan çıxaraq onun üzərinə sıçramaq istədi. Amma Herakl ona imkan vermədi, tonqaldan yanan ağaclardan bir böyüyünü götürüb onunla şiri qorxutmağa başladı. Şir geri çəkildikcə, Herakl da onu təqib edirdi. Mağaranın içərisinə doğru getdikcə, mağara tağlarının tədricən hündürləşdiyini, içərinin bir qədər genişləndiyini gördü. Herakl elə toppuzunu qapıb şiri vurmaq istəyirdi ki, qəflətən şir qayanın arxasına keçərək yox oldu. Onun dalınca

cuman Heraklın gur işıqdan gözləri qamaşdı. Bu, günəşin işığı idi. Herakl başa düşdü ki, hiyləgər heyvan öz mağarasına iki tərəfdən də yol açıb. Herakl sürətlə dağı hərlənib birinci yoldan yenə mağaraya girdi, sonra yenə də ikinci yoldan çölə çıxaraq birinci yola tərəf qaçdı. Bu minvalla, Herakl gecə yarısınadək dövrə vuraraq şiri qovmaqla məşğul oldu və nəhayət, anladı ki, bir hiylə qurmasa, şiri çətin ki, tuta bilə. Xeyli düşünüb-daşındıqdan sonra mağaranın birinci girəcəyinin ağzında böyük bir tonqal qaladı ki, şir oradan çıxa bilməsin. Özü isə dərhal ikinci girişə sarı cumub səhərədək ora iri qaya parçaları daşıdı, ta ki, mağaranın ağzı tamam tutuldu. Beləliklə, Herakl şirin ikinci yolunu da kəsdi. Dan yeri ağarar-ağarmaz Herakl mağaranın birinci yoluna qayıtdı və tonqaldakı iri kösövlərdən birini götürüb yelləyə-yelləyə içəridə gizlənmiş şirə doğru irəlilədi. Hər tərəfdən yolnun kəsildiyini görən şir geri dönüb qorxunc bir nərilti ilə Heraklın üstünə atıldı. Herakl toppuzunu qaldırıb var qüvvəsilə şirin başına vurdu. Nemey şiri Heraklın qarşısında yerə sərildi. Lakin o, son qüvvəsini toplayıb ayağa qalxmağa çalışırdı. Şirin qalxdığını görən Herakl iki əlilə onun boğazından yapışıb var gücü ilə sıxdı.

### Yazı

**3.1.3.** **Tapşırıq B (iş dəftəri).** Şagirdlər "Heraklın on iki qoçaqlığı" kitabı haqqında annotasiya yazmaqla yazı bacarıqlarını möhkəmləndirirlər. Fəaliyyət zamanı əvvəlki dərslərdən aldıqları məlumatlar şagirdləri istiqamətləndirəcək. Şagirdlər artıq Heraklın bir neçə qoçaqlığı haqqında məlumat alıblar. Əldə etdikləri məlumatlara əsasən annotasiya yazırlar.

**Annotasiyanın məzmunu təxminən belə ola bilər:**

Herakl bir çox yunan əfsanələrinin qəhrəmanıdır. O, Zevsin oğludur. Yenilməz gücü ilə hamını heyran edir. Lakin Arqos şəhərinin hökmdarı Evrisfey ona paxıllıq edir. Heraklı məhv etmək üçün ona təhlükəli tapşırıqlar verir. Bədheybət Nemey şirini, Lerney əjdahasını məhv etməyi tapşırır.

Görəsən, Herakl bu tapşırıqların öhdəsindən necə gələcək? Yeddibaşlı əjdaha ilə, dərisinə ox batmayan şir ilə necə mübarizə aparacaq?

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir. | Tap. A (dərslik) |
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tap. B (dərslik) |
| İllüstrasiya ilə mətnin müvafiq hissəsini uyğunlaşdırır. | Tap. C (dərslik) |
| Verilmiş açar söz və şəkillərdən istifadə edərək kiçikhəcmli mətn yazır. | Tap. Ç (dərslik) |
| Dinlədiyi və ya oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. A (iş dəftəri) |
| Kitaba aid annotasiya yazır. | Tap. B (iş dəftəri) |

## 3-cü dərs. Cümlənin ikinci dərəcəli üzvləri

• Dərslik: səh. 80 • İş dəftəri: səh. 53

**Təlim məqsədləri**

• Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir (st. 4.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Motivasiya tapşırığı üzrə iş. |
| 2 | **Dil qaydaları** | İkinci dərəcəli üzvlər əlavə etməklə cümlələrin genişləndirilməsi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Motivasiya xarakterli bu tapşırıqda cümlələr təqdim edilmişdir. Müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş

cümlələrə yönəldir və bu cümlələr arasındakı fərqi izah edir.

1) Oqtay getdi. Bu cümlə iki üzvdən ibarətdir: mübtəda və xəbər. Bu cümlədə yalnız iki məlumat, yəni işi icra edən (Oqtay) və həmin şəxsə aid hərəkət bildirən söz (getdi) verilmişdir.

2) "Dünən qardaşım Oqtay Türkiyəyə getdi" cümləsində isə daha geniş məlumat verilib:

- Hara getdi?
- Nə vaxt getdi?
- Hansı Oqtay?

Müəllim bu izahatla şagirdlərin diqqətini ikinci dərəcəli üzvlərə yönəldir.

## Dil qaydaları

**Bunları bilməliyik rubrikası.** Müəllim "Bunları bilməliyik rubrikası"nda ikinci dərəcəli üzvlər haqqında verilmiş məlumatları şərh edir. Mübtəda və xəbərə aid olan ikinci dərəcəli üzvləri nümunələr əsasında izah edir.

**Müəllimin nəzərinə!** Cümlə üzvlərini düzgün müəyyənləşdirmək, ikinci dərəcəli üzvün hansı baş üzvə aid olduğunu müəyyənləşdirmək düzgün sual vermək bacarığı ilə başlayır. Müəllim lövhədə yazdığı cümlə nümunələri əsasında bu bacarığı təkmilləşdirməyə çalışmalıdır. Məsələn:

**Lövhədə yazılan cümlə:**

Səhər narın yağış yağırdı.

**Müəllim:**
- Bu cümlənin qrammatik əsası, mübtəda və xəbəri hansı sözlərdir?

**Şagirdlər:**
- Yağış yağırdı.

**Müəllim:**
- Nə vaxt yağırdı?

**Şagirdlər:**
- Səhər yağırdı.

**Müəllim:**
- Necə yağış?

**Şagirdlər:**
- Narın yağış.

Müəllim ikinci dərəcəli üzvlərin hansı baş üzvə aid olduğunu yönəldici sualların köməyi ilə şagirdlərin diqqətinə çatdırır.
Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar şagirdlərin baş və ikinci dərəcəli üzvləri fərqləndirmək və ikinci dərəcəli üzvlərin cümlədəki rolunu müəyyənləşdirmək kimi bacarıqlarının inkişafına yönəlib.

**Dərslikdə və iş dəftərində verilmiş bəzi tapşırıqların düzgün cavabları:**

4.1.4. **Tapşırıq C (dərslik).** 2-ci və 3-cü cümlələr.

**Tapşırıq D (dərslik).**

a) Gəmi dayandı.

b) Ata aldı.

c) Siniflər düzülmüşdü.

ç) Dalğalar çırpılırdı

d) Dəniz küləyi üşüdürdü.

**Düzgün cavab:**

**Tapşırıq B (iş dəftəri).**

a) Dostlar dincəlirdilər.

b) Çoban otarırdı.

c) İsmayıl şagirddir.

**Tapşırıq Ç (iş dəftəri).** Qış idi. Gölməçə donmuşdu. Buz sındı. O, utandı.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlə üzvünün sualını müəyyən edir. | Tap. B(dərslik)<br>Tap. A (iş dəftəri) |
| Baş və ikinci dərəcəli üzvü fərqləndirir. | Tap. C,D (dərslik)<br>Tap. B, Ç<br>(iş dəftəri) |
| İkinci dərəcəli üzvlərin rolunu müəyyən edir. | Tap. Ç (dərslik)<br>Tap. C (iş dəftəri) |

## **4-cü dərs.** Ümumiləşdirici dərs

• Dərslik: səh. 81 • İş dəftəri: səh. 54

**Təlim məqsədləri**

• Söz birləşmələrini növünə görə bir-birindən fərqləndirir (st.4.1.4).
• Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir (st. 4.1.4).
• Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st.3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Motivasiya tapşırığı üzrə iş. |
| 2 | **Dil qaydaları** | Feili söz birləşmələrinini yaradılması.<br>Cümlə üzvlərinin suallarının müəyyənləşdirilməsi.<br>İkinci dərəcəli üzvlərin iştirak etdiyi cümlələrin fərqləndirilməsi.<br>Cümlələrin genişləndirilməsi.<br>Geniş cümlələrin müxtəsər cümlələrə çevrilməsi. |
| 3 | **Yazı** | Fikirlərin yazıda əks etdirilməsi. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bu bölmədə keçirilən dil qaydalarına aid terminləri lövhəyə yazır. Mövzuları xatırlatmaq məqsədilə suallar verir:

- *Bu sözlər sizə hansı məlumatları xatırladır?*

Şagirdlər xatırladıqları məlumatları bölüşürlər.

### Dil qaydaları

4.1.4. **Tapşırıq A (dərslik). Tapşırıq B (iş dəftəri).** Tapşırıqlar şagirdlərin ismi və feili birləşmələr haqqında aldıqları bilikləri tətbiq etmək üçün imkan yaradır.

**Düzgün cavablar:**

**Tapşırıq A (dərslik).**

- Çay içmək
- Çox çalışanda
- Musiqi bəstələmək
- Yuxarı qalxan
- Nağıl danışmaq
- Asta oxumaq
- Qoyun otarmaq
- Yaxşı fikirləşmək

**Tapşırıq A (iş dəftəri).**

Cavablar müxtəlif ola bilər. Aşağıdakılar nümunə kimi istifadə edilə bilər.

**İsmi birləşmələr:**

- Az iş
- Rəsm dəftəri
- Meyvə şirəsi
- Xalçanın naxışı

**Feili birləşmələr:**

- Az danışmaq
- Rəsm çəkmək
- Meyvə dərmək
- Xalça toxuyanda

4.1.4. **Tapşırıq B (dərslik). Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərin cümlə üzvləri haqqında aldıqları məlumatların möhkəmləndirilməsinə yönəlib. Şagirdlər cümlə üzvlərinin suallarını müəyyənləşdirməklə cümlə üzvlərinin həm söz, həm də söz birləşməsi ilə ifadə olunduğu haqqında məlumatı təkrarlayırlar.

**Düzgün cavab:**

**Tapşırıq B (dərslik).**

1. Məryəm rəqs etməyi çox sevir.
Nə edir? – sevir
Kim? – Məryam
Nə qədər sevir? – çox
Nəyi sevir? – rəqs etməyi

2. Evimizin yanında yeni kitabxana açılıb.
Nə edilib? – açılıb
Nə açılıb? – kitabxana
Harada açılıb? – evimizin yanında
Necə kitabxana açılıb? – yeni

3. Tumurcaqlayan ağaclar göz oxşayırdı.
Nə edirdi? – göz oxşayırdı
Nə göz oxşayırdı? – ağaclar
Hansı ağaclar? – tumurcaqlayan

4. Qoca poçtalyon Əhmədin yazdığı məktubu anaya verdi.

Nə etdi? – verdi

Kim verdi? – poçtalyon

Hansı poçtalyon? – qoca

Nəyi verdi? – məktubu

Hansı məktubu? - Əhmədin yazdığı

Kimə verdi - anaya

**Tapşırıq C (iş dəftəri).**

Bu gün biz divar qəzeti hazırladıq.

Bu gün – nə vaxt?

Biz – kim?

Divar qəzeti – nə?

Hazırladıq – nə etdik

4.1.4. **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin cümlənin əsasını müəyyənləşdirmək bacarığının möhkəmləndirilməsinə yönəlib.

**Düzgün cavab:**

1. Anam qatmışdı.
2. Cücülər toplaşmışdı.
3. Mahmud gedəcək.
4. Abdulla oğlandır.
5. Biz çatdıq.
6. Çobanlar qaldırdılar.

4.1.6. **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin ismi və feili xəbərli cümlələri fərqləndirmək bacarığının möhkəmləndirilməsinə yönəlib.

**Düzgün cavab:** Cavablar müxtəlif ola bilər. Aşağıdakılar nümunə kimi istifadə edilə bilər.

1. Üçrəngli bayrağımız dalğalanır.(feili xəbər)

Üçrəngli bayrağımız möhtəşəmdir. (ismi birləşmə)

2. Mənim atam çalışır. (feili xəbər)

Mənim atam güclüdür. (ismi birləşmə)

3. Ağacın yarpağı saralıb. (feili xəbər)

Ağacın yarpağı sarıdır. (ismi birləşmə)

4. Qonaqlar gəldilər. (feili xəbər)

Qonaqlar buradadır. (ismi birləşmə)

5. Qardaşımın çantası cırıldı. (feili xəbər)

Qardaşımın çantası təzədir. (ismi birləşmə)

6. Neft quyuları qazıldı. (feili xəbər)

Neft quyuları dərindir. (ismi birləşmə)

7. İdman yarışları başladı. (feili xəbər)

İdman yarışları maraqlıdır. (ismi birləşmə)

8. Otaqlar yığışdırıldı. (feili xəbər)

Otaqlar işıqlıdır. (ismi birləşmə)

4.1.4. **Tapşırıq D (dərslik). Tapşırıq Ç (iş dəftəri).** Tapşırıqlar şagirdlərin baş və ikinci dərəcəli üzvləri fərqləndirmək və ikinci dərəcəli üzvlərin cümlədəki rolunu müəyyənləşdirmək kimi bacarıqlarının inkişafına yönəlib.

**Düzgün cavab:**

**Tapşırıq D (dərslik).**

- Sıx duman yavaş-yavaş çəkilirdi.
- Mən doğma kəndimizi tez-tez yada salıram.
- Onlar gildən müxtəlif əşyalar hazırladılar.

**Tapşırıq Ç (iş dəftəri).**

1. Şamil məktəbdən qayıdırdı.
2. Uşaqlar Zahid Xəlilin əsərlərini çox sevirlər.
3. Moskvadan gələn qatar beş dəqiqə gecikir.
4. Bu il məhsul boldur.
5. Dostumun atası ustadır.

## Oxuyub-qavrama. Yazı

3.1.1. **Tapşırıq A (iş dəftəri).** Şagirdlər bu bölmədə annotasiya haqqında məlumat alıblar. Bu tapşırıqda Jül Vernin "Kapitan Qrantın uşaqları" kitabı haqqında annotasiya təqdim edilib. Şagirdlər annotasiyanı oxuyur və sualları cavablandırırlar.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İsmi və feili birləşmələri fərqləndirir. | Tap. A (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Cümlə üzvünün sualını müəyyən edir. | Tap. B, Ç (dərslik)<br>Tap. C (iş dəftəri) |
| Cümlələrdə mübtəda və xəbərin yerini müəyyən edir. | Tap. C (dərslik)<br>Tap. Ç (iş dəftəri) |
| Cümlənin formalaşmasında ikinci dərəcəli üzvlərin rolunu müəyyən edir. | Tap. D (dərslik) |
| Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir. | Tap. A (iş dəftəri) |

**bölmə** **4**

# İŞARƏLƏR VƏ SİMVOLLAR

| Mövzu | | İşarələr və simvollar |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Araşdırma əsasında təqdimat<br>• Dinləmə bacarığı |
| | Söz ehtiyatı | • Verilmiş izaha, əlamətə uyğun sözün müəyyən olunması;<br>• Yeni sözlər: yuxusuna haram qatmaq, hali olmaq, röya, gərnəşmək, funksiya, pauza, naşir, kilsə, xor, məruz qalmaq, savaş, muğayat olmaq, şütümək, hürriyyət, mədəniyyət, bozqurd, mənsubluq, hakimiyyət, dalğıc. |
| | Oxu | • Bədii və elmi mətnlərdən qeydlər götürmək. |
| | Yazı | • Mövzu üzrə informativ mətn yazmaq. |
| Akademik biliklər | Dil qaydaları | • Durğu işarələrinin funksiyası<br>• O, bu əvəzliklərindən sonra vergülün işlənməsi<br>• Defis və tire işarəsinin işlənməsi |
| | Filoloji anlayışlar | • İnformativ mətn yazmaq<br>• Keçid cümlələrini müəyyən etmək<br>• İnformativ mətnə şərh yazmaq |
| Kompetensiyalar | Müxtəlif işarə və simvolların mənası ilə tanışlıq, dünyagörüşün inkişafı, yeni ideyaların yaranması, yaradıcılığın inkişafı. | |

**Öncədən vacib olan bilik və bacarıqlar:**

– İnformativ mətn yazmaq.

– Mətnlərdən açar sözləri və faktları seçmək.

– Durğu işarələrinin ( nöqtə, sual, tire, vergül) funksiyalarını müəyyən etmək.

**Mənimsəməkdə çətinlik doğuran məqamlar:**

– İnformativ mətndə keçid cümləni müəyyən etmək və mətnə şərh yazarkən öz sözləri ilə fikirləri ifadə etmək.

**Diferensial təlim:** İnformativ mətnlərlə iş zamanı keçid cümləni təyin və əvəz etmədə çətinlik yarana bilər. Müəllim bu mövzuların tədrisi zamanı diferensial yanaşmaya diqqət etməlidir.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:**

– Araşdırma materialları

## Bölməyə giriş dərsi

• Dərslik: səh. 82-83 • İş dəftəri: səh. 55

**Təlim məqsədləri**
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Mətndəki faktları,məlumat və illustrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st.2.2.4).
•Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir (st.3.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sözlərin izahı. |
| 2 | **Danışma** | Şəkil üzrə danışma. |
| 3 | **Oxuyub-qavrama** | Mətn oxuma və sualları cavablandırma. |
| 4 | **Yazı** | Qaydalar tərtib etmə. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim yönəldici suallarla diqqəti bölmənin adına yönəldir: *"Simvol" sözünü necə izah edərdiniz?* (Simvol – hər hansı fikri ifadə edən təsvir, işarə, rəmz)

**Müəllimin nəzərinə!** Şagirdlər I sinifdən etibarən ətrafda gördükləri müxtəlif işarə və simvollar haqqında məlumatlara yiyələniblər (yol işarələri və s.). Müəllim kömək üçün əvvəlki siniflərdə öyrəndikləri işarə və simvolları şagirdlərin yadına salır.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Tapşırığı yerinə yetirməklə şagirdlər əvvəlki siniflərdən öyrəndikləri işarə və simvollar haqqında biliklərini yada salırlar. Müəllim yönəldici suallarla şagirdləri danışma fəaliyyətinə cəlb edir:

• İşarələr bizə nə üçün lazımdır?
• Başqa hansı işarələri tanıyırsınız?

### Oxuyub qavrama

2.2.4 **Tapşırıq B (dərslik).** Tapşırıq vasitəsilə şagirdlər verilmiş situasiyalar əsasında suallara cavab verirlər. Tapşırıq şagirdlərdə informativ mətndəki məlumatları mənimsəmə, verilən məlumatlarla işarələr arasındakı məna əlaqəsini müəyyənləşdirmə bacarığını inkişaf etdirir.

**Qeyd:** Müəllim şagidlərdən mətndə verilən işarələri başqa harada gördüklərini soruşa bilər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər situasiyaya uyğun işarələri müəyyən edirlər. Tapşırıq oxuyub-qavrama bacarığının inkişafına xidmət edir.

**Düzgün cavab:** 2-ci işarə.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıqda cümlələrə uyğun işarənin seçilməsi tələb edilir. Şagirdlərin oxuyub-qavrama bacarıqlarının möhkəmlənməsinə kömək edir.

**Düzgün cavab:** 1. Əl ilə yuyulmalıdır. 2. Yaxınlıqda xəstəxana var. 3. Qar yağacağı gözlənilir. 4. Ərazidə internet var. 5. Bu yoldan uşaqlar çox istifadə edir. 6. Telefondan istifadə qadağandır.

### Yazı

3.1.3 **Tapşırıq C (dərslik). Qruplarla iş.** Şagirdlər plakatlarda təqdim olunmuş işarələr əsasında muzeydə, parkda, metroda davranış qaydalarını tərtib edirlər. Müəllim şagirdləri 3 qrupa bölür və hər qrup bir mövzu üzrə işləyir. Tapşırıq qrafik informasiyanı rabitəli mətnə çevirmə bacarığının inkişafına xidmət edir. Eyni zamanda şagirdlərdə qaydalar tərtib etmə bacarığının möhkəmlənməsinə imkan yaradır.

**Düzgün cavab:**
**Muzeydə:**
• Çəkiliş aparmaq olmaz.
• Yemək yemək olmaz.
• Bərkdən danışmaq olmaz.
• Qaçmaq olmaz.
• Eksponatlara əllə toxunmaq olmaz.
• Heyvanlarla daxil olmaq qadağandır.
• Müşahidə kamerası çəkiliş edir.
• Telefondan istifadə qadağandır.

**Parkda:**
- Yerə zibil atmaq olmaz.
- Zibili zibil qutusuna atmaq lazımdır.
- Kibrit yandırmaq olmaz.
- Ağacları kəsmək olmaz.
- Heyvanları gətirmək olmaz.
- Gülləri qırmaq olmaz.
- Maşınla parka daxil olmaq olmaz.
- Velosiped sürmək olar.

**Metroda:**
- Qapıya söykənmək olmaz.
- Roliklə daxil olmaq olmaz.
- Qapının arasında dayanıb tutmaq olmaz.
- Qatar yoluna düşmək olmaz.
- Eskalatorda qaçmaq olmaz.

**Eskalatorda:**
- Oturmaq olmaz.
- Azyaşlı uşağı qucaqda aparmaq lazımdır.
- Uşaqların əlindən tutmaq lazımdır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkil üzrə fikirlərini bildirir. | Tap. A (dərslik) |
| Verilmiş situasiyaya uyğun sualları cavablandırır. | Tap. B (dərslik) Tap. A, B (iş dəftəri) |
| Verilmiş işarələrə uyğun qaydalar tərtib edir. | Tap. C (dərslik) |

fəsil 1 **YAZIDA İŞARƏLƏR**

## 1-ci dərs. Nidanın lovğalığı

• Dərslik: səh. 84-85 • İş dəftəri: səh. 56

**Təlim məqsədləri**
- Mətni intonasiya ilə oxuyur (st.2.2.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
- Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st.2.1.1).
- Mətnlərin bədii, poetik xüsusiyyətlərini müəyyənləşdirir və ekspressiv təsirini izah edir (st.2.2.3).
- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st.1.2.1).
- Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətnlər yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual üzrə danışma. |
| 2 | **Söz ehtiyatı** | “Söz boğçası” üzrə iş. |
| 3 | **Oxu** | “Nidanın lovğalığı” şeirinin oxusu. |
| 4 | **Oxuyub-qavrama** | Şeirin məzmunu üzrə iş. |
| 5 | **Danışma** | Mövzu üzrə danışma. |
| 6 | **Yazı** | Məktub yazma.<br>Nəzmi nəsrə çevirmə. |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim yönəldici suallarla şagirdlərin diqqətini fəslin adına yönəldir və suallar verir:
- Yazı yazarkən hansı işarələrdən istifadə edirik?
- Onlar birlikdə necə adlanır?
- Durğu işarələri haqqında nə bilirsiniz?

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq B (dərslik). Nidanın lovğalığı. Səsli oxu.**

Şeirin oxusuna keçməzdən əvvəl şagirdlərin diqqətini şeirin adına yönəldilir: Sizcə, niyə belə

adlanır? Sonra isə şagirdlər şeiri səsli oxuyurlar. Şeiri oxuyarkən obrazların xarakterinə uyğun intonasiyaya diqqət edilir. Şeir oxunduqca yeni sözlərin izahı üzrə iş aparılır.

### Oxuyub-qavrama

2.2.2. **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin şeiri necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır. Şagirdlər şeir əsasında sualları cavablandırırlar, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

2.1.1. **Tapşırıq A (iş dəftəri).** Şagirdlər "yuxusuna haram qatmaq" ifadəsinin kontekstdən çıxış edərək mənasını müəyyən edirlər. Tapşırıq söz ehtiyatı üzrə biliklərin möhkəmlənməsinə xidmət edir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər konteksdən çıxış edərək "ötüşmək" sözünün mənasını müəyyən edirlər.

2.2.2. **Tapşırıq D (dərslik).** Şagirdlər şeiri oxuduqdan sonra hər bir durğu işarəsinin funksiyasını müəyyən edir və tapşırıqdakı uyğun məlumatları seçirlər. Tapşırıq oxuyub-qavrama və nəticə çıxarma bacarıqlarının inkişafına xidmət edir.

**Düzgün cavab:**

1. Mən isə çox sərbəstəm
Nəfəs dərməkdir peşəm.
2. Arzu, xahiş, məsləhət
Əmr, ya da nəsihət
Hər cümlənin sonunda
Mən gəlirəm, ay Nida
3. Durdu ayağa Nida,
Bərkdən qışqırdı: "Ura!"

2.2.3. **Tapşırıq B (iş dəftəri).** Şagirdlər şeirdən durğu işarələrinin şəxsləndiyi göstərən ifadələri seçib yazırlar. Tapşırıq obrazların şəxslənməsi ilə bağlı biliklərin möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:** Nida ayağa durdu, Sual səsə ayıldı, Nida güldü, Vergül gözünü ovuşdurdu, sözə qoşuldu, Nöqtə gərnəşdi.

### Danışma

1.2.1. **Tapşırıq E (dərslik).** Şagirdlər şeirdə durğu işarələrinin səsləndirdikləri fikirlərə münasibət bildirirlər.

### Yazı

3.1.2. **Tapşırıq C (iş dəftəri).** Şagirdlər nəzmi nəsrə çevirib yazırlar. Tapşırıq şagirdlərin yazı bacarıqlarının inkişafına xidmət edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şeiri intonasiya ilə oxuyur. | Tap. B (dərslik) |
| Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Şeirin məzmunu ilə bağlı suallara cavab verir. | Tap. C (dərslik)<br>Tap. D (dərslik) |
| Alleqorik obrazları müəyyən edir. | Tap. B (iş dəftəri) |
| Nəzmi nəsrə çevirib yazır. | Tap. C (iş dəftəri) |

## 2-ci dərs. Sözlərdən işarələrə

• Dərslik: səh. 85-86 • İş dəftəri: səh. 57

**Təlim məqsədləri**

• Mətni sürətli, səlis, aydın səslə oxuyur. (st. 2.2.1).
• Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st.2.1.1).
• İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 2.2.2).
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st.1.2.1).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st.2.2.3).
• Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir (st.4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzu üzrə situativ tapşırıq. |
| 2 | **Oxu** | Sözlərdən işarələrə mətninin oxusu. |
| 3 | **Söz ehtiyatı** | Söz boğçası üzrə iş. |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş. Yaddaş xəritəsini tamamlama. |
| 5 | **Danışma** | Mövzu üzrə danışma. |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlərə kiçik mətn təqdim edilir. Mətndə sözlər arasında məsafə və durğu işarələri verilməmişdir. Şagirdlər bu cür mətnlərin oxusu zamanı hansı çətinliklə qarşılaşdıqlarını müzakirə edirlər.

**Tapşırıq B (dərslik).** Şagirdlərə durğu işarəsi istifadə olunmayan cümlə təqdim edilir və cümlənin sual, yoxsa nəqli cümlə olduğu soruşulur.

Hər iki tapşırıqda məqsəd nitqdə sözlər arasındakı məsafə və durğu işarələrinin roluna diqqəti yönəltməkdir.

### Oxu. Söz ehtiyatı

2.2.1. **Sözlərdən işarələrə. Səsli oxu.**

**“Söz boğçası” rubrikası.** Müəllim şagirdlərin diqqətini söz boğçasına yönəldir və şagirdlər sözlərin mənasını təxmin edirlər.

Sonra isə şagirdlər mətni səsli oxuyurlar. Mətn oxunduqca müzakirə edilir.

2.1.1. **Tapşırıq A (iş dəftəri).** Şagirdlər kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edirlər. Tapşırıq şagirdlərin söz boğçasında öyrəndikləri sözlərin daha dərindən mənimsənilməsinə xidmət edir.

### Oxuyub-qavrama

2.2.2. **Tapşırıq C (dərslik)**. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır. Şagirdlər mətn əsasında sualları cavablandırırlar, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:** 1.Y, 2. D, 3.Y. 4.D.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər mətndəki məlumatlardan çıxardıqları nəticələrə əsasən cümləri tamamlayırlar. Tapşırıq oxuyub-qavrama üzrə bilik və bacarıqlarının möhkəmlənməsinə xidmət edir.

**Doğru cavab:** 1. Cümlələrin hansı məqsədlə yazıldığı bilinmirdi. 2. Sözlər arasında məsafənin olmaması oxuya mane olurdu. 3. “İo” nida işarəsini ifadə edirdi.

**Tapşırıq B (iş dəftəri)**. Şagirdlər mətndən açar sözləri seçərək yaddaş xəritəsini tamamlayırlar. Tapşırıq oxuyub-qavrama üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir. Eyni zamanda şagirdlərdə təhliletmə və qruplaşdırma bacarıqlarını inkişaf etdirir.

**Düzgün cavab:**
**Nöqtə:** Cümlələrin arasında.
**Vergül:** Ərəb dili, “vav” hərfi.
**Sual:** Manutsu, 600 il əvvəl, quasteio.
**Nida:** İo nidası, latın dili, sevinc, heyrət.

### Danışma

1.2.1. **Tapşırıq D (dərslik).** Müəllim şagirdlərin diqqətini yenidən mətndə sual işarəsinin yaranması ilə bağlı məlumata yönəldir. Şagirdlər sual işarəsi haqqında verilmiş sxemə uyğun olaraq nida işarəsinin yaranmasını şərh edirlər. Tapşırıq şagirdlərin təhliletmə və şifahi nitq bacarıqlarının inkişafına xidmət edir.

### Oxuyub-qavrama

**Tapşırıq E (dərslik).** Şagirdlər mətndəki məlumatlardan çıxış edərək hərflər və durğu işarələrinin yaranma tarixi ilə bağlı müzakirə edirlər. Tapşırıq şagirdlərin oxuyub-qavrama, təhlil və analizetmə bacarıqlarının inkişafına xidmət edir.

2.2.3. **Tapşırıq Ə (dərslik).** Şagirdlər əvvəlki dərsdə keçdikləri “Nidanın lovğalığı” şeirindən və “Sözlərdən işarələrə” mətnindən durğu işarələri haqqında məlumatları müqayisə edir və hansı mətnə aid olduğunu müəyyənləşdirirlər. Tapşırıq şagirdlərin oxuyub-qavrama, təhlil və analizetmə bacarıqlarının inkişafına xidmət edir.

**Düzgün cavab:** 1. Sözlərdən işarələrə. 2. Nidanın lovğalığı. 3. Nidanın lovğalığı. 4. Sözlərdən işarələrə.

### Dil qaydaları

4.1.5. **Tapşırıq F (dərslik).** Şagirdlər şeirdə buraxılmış durğu işarələrini müəyyən edir, işarələri bərpa edərək şeiri köçürür və intonasiya ilə oxuyurlar.

**Diferensial yanaşma:** Müəllim şagirdlərə həm durğu işarələri buraxılmış, həm də sözləri bitişik verməklə tapşırığı çətinləşdirə bilər.

**Düzgün cavab:**

Füzulinin, Sabirin,
Vurğunun şirin dili
Sizinkidir, balalar,
Sevin bu azad eli!

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni səlis, aydın, sürətlə oxuyur. | Sözlərdən işarələrə mətni |
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətndən əldə etdiyi məlumatlar əsasında suallara cavab verir. | Tap. C, Ç (dərslik) |
| Mətndəki açar sözləri seçir və yaddaş xəritəsini tamamlayır. | Tap. B (iş dəftəri) |
| Mətndən əldə etdiyi məlumatlar əsasında fikirlərini şərh edir və əsaslandırır. | Tap. D (dərslik)<br>Tap. E (dərslik) |
| Bədii və informativ mətndəki məlumatları müqayisə edir. | Tap. F (dərslik) |
| Şeirdə buraxılmış durğu işarələrini bərpa edir. | Tap. Ə (dərslik) |

## 3-cü dərs. Mətnin tərkib hissələri

• Dərslik: səh. 87-88 • İş dəftəri: səh. 58

**Təlim məqsədləri**

•Mətnin tərkib hissələrini, struktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir. (st. 2.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin tərkib hissələrini, keçid cümləni müəyyən etmə. |
| 2 | **“Diqqət et” rubrikası** | Keçid cümlənin rolu, sonluq hissədə işlənən ifadələr haqqında məlumat vermə. |
| 3 | **Oxuyub-qavrama** | Mətnin tərkib hissələri üzrə bilik və bacarıqların mənimsədilməsi. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərə xatırlatma məqsədi ilə sual verir: *Mətnin hansı hissələri var?* Şagirdlər “Sözlərdən işarələrə” mətninin giriş, əsas və sonluq hissələrini müəyyən edirlər. Mətnin tərkib hissələrinin doğru təyini üzrə ümumi müzakirə aparılır.

**Tapşırıq B (dərslik).** Müəllim sual verir: *Mətnin əsas hissəsinə keçid təşkil edən cümlə hansıdır? Sizcə, bu cümləni müəllif nə üçün istifadə etmişdir?*

Şagirdlərin cavabları dinlənilir və müzakirə edilir.

### Oxuyub-qavrama

**“Diqqət et” rubrikası.** Şagirdlər artıq keçid cümlə anlayışı ilə tanışdırlar. İndi isə keçid cümlənin rolu izah edilir. Dərsin məqsədi mətnin tərkib hissələri arasındakı düzgün əlaqənin qurulması yollarını şagirdə aşılamaqdır.

2.2.3. **Tapşırıq C (dərslik).** Şagirdlər giriş və əsas hissələr arasındakı keçid cümləni əvəz edəcək cümlə seçirlər. Tapşırıq “Diqqət et” rubrikası üzrə biliklərin mənimsənilməsinə xidmət edir.

**Düzgün cavab:** Durğu işarələrinin yaranması ilə bağlı maraqlı fikirlər var. Burada əsas məqsəd durğu işarələrinin yaranması ilə bağlı məlumat verməkdir.

**“Diqqət et” rubrikası.** Müəllim sonluq hissədə işlənən ifadələr haqqında məlumat verir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər “Sözlərdən işarələrə” mətninin sonluq hissəsini yenidən nəzərdən keçirirlər. Burada sonluq hissənin əvvəlində işlənən ifadəni müəyyən edirlər. Sonra

isə həmin ifadəni əvəz edə biləcək ifadəni seçirlər. Tapşırıq "Diqqət et" rubrikası üzrə biliklərin mənimsənilməsinə xidmət edir.

**Düzgün cavab:** Bir sözlə.

**Tapşırıq D (dərslik).** Şagirdlər "Heroqliflər" mətnini oxuyurlar, tərkib hissələrini müəyyən edirlər. Tapşırıq şagirdlərdə mətnin tərkib hissələri, onların əlaqələndirilməsi üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir.

**Tapşırıq E (dərslik).** Şagirdlər "Heroqliflər" mətninin giriş hissəsindən əsas hissəyə keçid ola biləcək cümləni yazırlar. Tapşırığın məqsədi keçid cümlə üzrə biliklərin tətbiqi və yaradıcı bacarıqların inkişafına xidmət etməkdir.

**Düzgün cavab:** Bəs heroqliflər nədir? Heroqliflər digər işarələrdən nə ilə fərqlənir?

**Tapşırıq Ə (dərslik).** Şagirdlər "Heroqliflər" mətninin əsas hissəsini davam etdirəcək cümləni seçirlər. Tapşırıq mətnin məzmunu və tərkib hissələri arasındakı əlaqə üzrə biliklərin möhkəmlənməsinə kömək edir.

**Düzgün cavab:** Misirdə oxuyub-yaza bilən insanlar böyük hörmət sahibi idilər.

**Tapşırıq F (dərslik).** Tapşırıq sonluq hissə üzrə biliklərin möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:** Bütün bunlara baxmayaraq.

**Müəllimin nəzərinə!** İş dəftərindəki tapşırıqlar mətnin tərkib hissələri, keçid cümlə və sonluq hissədə işlənən ifadələr üzrə bilik və bacarıqların sərbəst tətbiqinə xidmət edir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnin tərkib hissələrini müəyyən edirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətnin girişindən əsas hissəyə keçid olan cümləni seçib yazırlar. Mətnin girişindən əsas hissəyə keçid olan cümləni əvəz edə biləcək cümləni düşünüb yazırlar.

**Düzgün cavab:** Bu üsullar haqqında nə bilirik? Bu üsullar hansılardır?

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər mətnin sonluq hissəsinin əvvəlində işlənən ifadəni müəyyən edirlər. Sonra isə həmin ifadəni əvəz edə biləcək ifadəni seçirlər.

**Düzgün cavab:** Beləliklə.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin tərkib hissələrini müəyyən edir | Tap. A, D (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Girişdən əsas hissəyə keçid olan cümləni müəyyən edir və onu əvəz edəcək cümləni yazır. | Tap. B, C, E (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Mətnin sonluq hissəsinin başladığı ifadəni müəyyən edir. | Tap. Ç, F (dərslik)<br>Tap. C (iş dəftəri) |

## 4-cü dərs. Üç nöqtə

• Dərslik: səh. 89 • İş dəftəri: səh. 59

**Təlim məqsədləri**

• Məqsəddən asılı olaraq nəqli, sual, əmr cümlələri qurur (st.4.1.4).
• Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir (st.4.1.5).
• Durğu işarələrinin funksiyasını müəyyən edir (4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Durğu işarələrini müəyyən etmə. |
| 2 | **Dil qaydaları** | Məqsədə uyğun cümlə qurma.<br>Cümlələrə uyğun durğu işarəsini müəyyən etmə.<br>Üç nöqtənin funksiyasını müəyyən etmə. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim cümlənin məqsədə görə növlərini yada salır.

**Tapşırıq A (dərslik).** Şagirdlər cümlələri oxuyurlar, məqsədə görə cümlənin növünü və uyğun durğu işarələrini müəyyən edirlər.

## Dil qaydaları

4.1.4. **Tapşırıq B (dərslik).** Tapşırıq nida cümləsi üzrə biliklərin xatırlanmasına xidmət edir. Şagirdlər nəqli cümlələri nida cümlələrinə çevirib yazırlar.

**Düzgün cavab:** Eh, lap əldən düşdüm. Bəh-bəh, bu çiçəyin nə gözəl qoxusu var. Ura, bizim komanda qalib gəldi. Vay, biz meşədə tək qaldıq.

4.1.5. **Tapşırıq C (dərslik).** Şagirdlər verilən cümlələrdən hansının həm sual, həm də nəqli cümlə olduğunu müəyyən edirlər. Tapşırıq dil qaydasının möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:** Sabah hava küləkli olacaq.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər verilən cümlələrin sonunda nə üçün həm sual, həm də nida işarəsi olduğu haqqında fikirlərini bildirirlər. Şagirdlər artıq belə cümlələrlə mətn daxilində rastlaşmışlar.

**Düzgün cavab:** Bu cümlələrdə sual verilsə də, ifadə edənin həyacanı göstərilir.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər sual cümləsi qurmaq vərdişlərini möhkəmləndirirlər.

**Düzgün cavab:**
Dördüncü siniflər hara gedirlər?
Məktəbdə dərs nə vaxt başlayır?
O nə üçün gəlmişdi?
Kim yarışın qalibi oldu?
Anar məsələni necə həll etdi?

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər hansı cümlənin yalnız sual cümləsi olduğunu müəyyən edirlər. Burada diqqət sual əvəzliyinə yönəlir. Digər cümlələr nəqli və sual cümləsi kimi işlənə bilər. Həmin cümlələri müəyyən edirlər.

**Düzgün cavab:** Ekskursiyaya nə vaxt gedəcəyik?

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər sual ifadə edən söz və hissəcikləri müəyyən edirlər.

**Düzgün cavab**: Məgər, -mi, neçədə, bəs və sual intonasiyası.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər üç nöqtə haqqında biliklərə yiyələnirlər. Müəllim üç nöqtənin funksiyası haqqında məlumat verir.

4.1.5. **Tapşırıq D (dərslik).** Şagirdlər verilmiş nümunələrlə üç nöqtənin funksiyasını uyğunlaşdırırlar. Tapşırıq dil qaydası üzrə biliklərin mənimsənilməsinə xidmət edir.

**Düzgün cavab:** 1-C, 2-A, 3-B

**Tapşırıq Ç (iş dəftəri)**. Şagirdlər nümunələrə uyğun üç nöqtənin funksiyasını yazırlar. Tapşırıq dil qaydası üzrə biliklərin möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:**
1-Sitatın ixtisar olunduğunu göstərir.
2- Danışanın həyəcanlı olduğunu göstərir.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Məqsəddən asılı olaraq cümlənin növlərini müəyyən edir. | Tap. B (dərslik)<br>Tap. A, B, C<br>(iş dəftəri) |
| Cümlənin sonunda müvafiq durğu işarələrini müəyyən edir. | Tap. C, Ç (dərslik) |
| Üç nöqtənin funksiyasını izah edir. | Tap. D (dərslik)<br>Tap. Ç (iş dəftəri) |

fəsil **2** **MUSİQİDƏ İŞARƏLƏR**

## 1-ci dərs. Notların tarixi

• Dərslik: səh. 90–91 • İş dəftəri: səh. 60

**Təlim məqsədləri**

• İnformativ mətndəki əsas faktları müəyyən edir. (st.2.2.2).
• Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st.2.1.1).
• Mətnin tərkib hissələrini, struktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (2.2.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəkil üzrə danışma. |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Notların tarixi" mətninin oxusu. |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir: Simvol nədir?

**Tapşırıq A (dərslik).** Şagirdlərlə verilmiş simvollar üzrə müzakirə təşkil olunur. Hansı simvolun musiqiyə aid olduğu müəyyən edilir.

### Oxuyub-qavrama. Söz ehtiyatı

2.2.2. **Tapşırıq B (dərslik). Notların tarixi mətninin oxusu. Səssiz oxu.** İlk olaraq BİBÖ cədvəlində şagirdlərin notlar haqqında bildikləri qeyd edilir, öyrənmək istədikləri yazılır. Sonra şagirdlər verilmiş vaxt ərzində mətni səssiz oxuyurlar və əsas faktları qeyd edirlər. Tanış olmayan sözləri müəyyənləşdirirlər və oxudan sonra sözlərin izahı üzrə iş aparırlar.

2.1.1. **Tapşırıq C (dərslik).** Şagirdlər kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edirlər. Tapşırıq şagirdlərin söz boğçasında öyrəndikləri sözlərin daha dərindən mənimsənilməsinə xidmət edir.

2.2.2. **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır. Şagirdlər mətn əsasında suallara cavab verirlər.

**Tapşırıq D (dərslik).** Şagirdlər mətndəki məlumatlara və riyazi bacarıqlarına əsaslanaraq hesablama aparır, Qvidonun yaşadığı əsri müəyyən edirlər.

**Düzgün cavab:** XI əsr.

2.2.4. **Tapşırıq E (dərslik).** Şagirdlər mətndəki məlumatlar əsasında Qvidonun not sistemi ilə müasir not sistemi arasındakı fərqləri müəyyən edirlər. İlkin olaraq hər iki abzasdakı məlumatları, illustrasiyaları yenidən nəzərdən keçirir və müqayisəli təhlil aparırlar. Tapşırıq analizetmə, nəticəçıxarma bacarıqlarının inkişafına xidmət edir.

**Düzgün cavab:**

1. Qvido not sistemində 4, müasir not sistemində 5 not sətri var.
2. Qvido not sistemində 6, müasir not sistemində 7 not var.
3. Qvido not sistemində "ut", müasir not sistemində "do" notu var.
4. Qvido not sistemində notlar kvadratlarla, müasir not sistemində dairələrlə işarələnir.

2.2.2. **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndə verilmiş məlumatlar əsasında tapşırığı yerinə yetirirlər. Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığının yoxlanmasına kömək edir.

2.2.3. **Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətnə uyğun yarımbaşlıqlar yazır və hər bir yarımbaşlığa aid açar sözləri seçirlər. Mətnin oxusu zamanı yazdıqları qeydlərdən də faydalana bilərlər. Tapşırıq mətnin məzmunu, strukturu üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:** Not nədir? – musiqi dili, not sistemi, musiqi əlifbası.

Qvido not sistemi – 1000 il, Qvido, xor müəllimi, kvadratlarla işarələmə.

Qvido not sistemində dəyişikliklər – ut, do, si, 7 not, səsin yüksəkliyi və uzunluğu, 5 not sətri.

Notların əhəmiyyəti – musiqinin inkişafı, gələcək nəsillərə ötürmə.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki əsas faktları seçir. | Tap. B (dərslik) |
| Kontekstdən çıxış edərək izaha uyğun sözləri müəyyən edir. | Tap. C (dərslik) |
| Mətnin məzmunu ilə bağlı suallara cavab verir. | Tap. Ç, D, E, (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətndəki abzaslara uyğun yarımbaşlıqlar yazır. | Tap. B (iş dəftəri) |

## 2-ci dərs. İnformativ mətndə keçid cümlə

• Dərslik: səh. 92-93 • İş dəftəri: səh. 61

**Təlim məqsədləri**

• Mətnin tərkib hissələrini, struktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).

• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st.3.1.2).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin tərkib hissələrini müəyyən etmə. |
| 2 | **Oxuyub-qavrama** | Mətnin tərkib hissələri üzrə bilik və bacarıqların mənimsədilməsi. Keçid cümlənin yazılması. |
| 3 | **Yazı** | İnformativ mətn yazma. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə xatırlatma məqsədi ilə sual verir: Mətnin hansı hissələri var?

### Oxuyub-qavrama

2.2.3. **Tapşırıq A (dərslik).** İlk olaraq mətnin məzmunu xatırlanır. Şagirdlər "Notların tarixi" mətninin giriş, əsas və sonluq hissələrinə uyğun məlumatları müəyyən edirlər. Əvvəlcə mətnin hissələrinə uyğun abzaslar seçilir və hər bir hissədəki məlumatlar ümumiləşdirilir, nədən danışıldığı müəyyən edilir. Sonra isə tapşırıqda verilmiş cümlələr hissələrə uyğun seçilir.

**Qeyd:** Tapşırıq cütlər və ya qruplar şəklində təşkil oluna bilər. Giriş hissənin təyin olunması əvvəlki mətnlərdən fərqli olaraq çətinlik yarada bilər. Adətən, şagirdlər girişin I abzasdan ibarət olduğuna vərdiş ediblər. Burada giriş hissə - I və II, əsas hissə- III, IV, V, sonluq hissə - VI abazası əhatə edir. Müəllim şagirdlərin diqqətinə çatdırmalıdır ki, giriş hissə bir neçə abzasdan da ibarət ola bilər, əsas diqqət abzasların məzmununa yönlənməlidir.

**Düzgün cavab:** 1-ci cümlə-sonluq, 2-ci -əsas, 3-cü giriş hissəyə aiddir.

**Tapşırıq B (dərslik).** Şagirdlər artıq əvvəlki tapşırıqda mətnin abzasları üzrə məlumatları ümumiləşdirmişlər. Burada isə verilmiş cümlələrin hansı abzaslara aid olduğu müəyyən edilir. Tapşırıq mətnin məzmunu və tərkib hissələri arasındakı əlaqə üzrə biliklərin möhkəmlənməsinə kömək edir.

**Düzgün cavab:** 1-ci cümlə - III abzasa, 2-ci cümlə - II abzasa, 3-cü cümlə -V abzasa aiddir.

**Tapşırıq C (dərslik).** Şagirdlər "Notların tarixi" mətninin giriş hissəsindən əsas hissəyə keçid ola biləcək cümlələri seçirlər. Artıq əvvəlki tapşırıqda mətnin hissələri müəyyən edilmişdir. Burada yalnız keçid təşkil edə biləcək cümlələr seçilir. Müəllim şagirdlərin diqqətinə çatdırır ki, əsas hissədəki məlumatların məzmununa diqqət yetirilməlidir. Tapşırıq keçid cümlə üzrə biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**Düzgün cavab:** Musiqidə not sisteminin yaranmasının maraqlı tarixçəsi var.
Bəs nəyə görə bu notlar məhz belə adlanır: do, re, mi?...

**Tapşırıq Ç (dərslik).** Şagirdlər "Səfiəddin Urməvi" mətnini oxuyurlar, tərkib hissələrini müəyyən edirlər. Tapşırıq mətnin tərkib hissələri, onların əlaqələndirilməsi üzrə bilik və bacarıq-

ların möhkəmlənməsinə xidmət edir. Burada artıq şagirdlərin fərdi fəaliyyəti təşkil edilir.

**Düzgün cavab:** Giriş hissə – I abzas, əsas hissə - II abzas, sonluq hissə - III abzas.

**Tapşırıq D (dərslik).** Şagirdlər mətnin məzmununu yenidən nəzərdən keçirirlər. Mətndə olmayan məlumatı müəyyən edirlər.

**Düzgün cavab:** Urməvi hansı musiqi alətlərində ifa edirdi?

**Tapşırıq E (dərslik).** Şagirdlər giriş və əsas hissələr arasındakı keçid cümləni seçirlər. Bu zaman əsas hissənin məzmununu yenidən nəzərdən keçirirlər və məlumatlara uyğun olaraq keçid cümlə seçirlər.

**Düzgün cavab:** Bəs Şərqdə not sistemini kim yaratmışdır?

### Yazı

3.1.2. **Tapşırıq A (iş dəftəri).** Şagirdlər yaddaş xəritəsində verilmiş qeydlər əsasında "@" işarəsi haqqında informativ mətn yazırlar. Mətnin giriş hissəsi verilmişdir. Şagirdlər keçid cümləni yazmaqla əsas hissə və sonluq hissələri tamamlayırlar. Burada mətni yazarkən məlumatı seçmək və ardıcıllıqla təqdim etmək bacarığı inkişaf etdirilir. Şagirdlərin məlumatları ümumiləşdirmə və qruplaşdırma bacarıqları möhkəmləndirilir.

**Qeyd:** Müəllim yazıdan əvvəl mətnin məzmun və strukturunu qiymətləndirmək üçün meyarlar təqdim edir. Şagirdlər yazılarını meyarlar əsasında qiymətləndirirlər.

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Mətndə keçid cümlədən istifadə olunub. | | | |
| Əsas hissəyə uyğun məlumatlar doğru yazılmışdır. | | | |
| Sonluq hissədə uyğun ifadədən istifadə olunub. | | | |
| Mətnin sonluq hissəsi doğru tamamlanmışdır. | | | |

**Şagirdlərin qurduqları mətn belə ola bilər:**

*Giriş hissə:* İnformatika sahəsində müxtəlif işarələrdən istifadə edilir. Bunlardan biri də elektron poçt ünvanını göstərmək üçün istifadə edilən @ işarəsidir.

Bəs bu işarə necə yaranmışdır?

*Əsas hissə:* İlk dəfə kompüterdə bu işarəni Raymond Tomlinson istifadə etmişdir. Amerika Birləşmiş Ştatlarında yaşayan Raymond 1971-ci ildə bu işarə ilə mail ünvanını göstərmişdir. Zaman keçdikcə hər kəs bu işarədən istifadə etməyə başladı.

*Sonluq hissə:* Beləliklə, "@" işarəsi bütün dünyada tanındı. Bir çox dillərdə müxtəlif formada adlandırıldı. Məsələn, çinlilər – siçan balası, türklər – qızılgül, ruslar – balaca it, finlər – yatmış pişik, bizdə isə quyruqla "a" adlanır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin tərkib hissələrini və uyğun məlumatları müəyyən edir. | Tap. A, B, Ç, D (dərslik) |
| Girişdən əsas hissəyə keçid olan cümləni müəyyən edir. | Tap. C, E (dərslik) |
| Qeydlər əsasında informativ mətn yazır. | Tap. A (iş dəftəri) |

## 3-cü dərs. İnformativ mətnin annotasiyası

• Dərslik: səh. 93 • İş dəftəri: səh. 62

**Təlim məqsədləri**

• İnformativ mətndəki fakt və fikirlərdən çıxış edərək müəllifin məqsədini müəyyən edir (st. 2.2.4).
• İnformativ mətnlər əsasında tezislər yazır (3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnin məzmunu üzrə iş. |
| 2 | **Oxuyub-qavrama** | İnformativ mətnə annotasiya yazma. Mətn üzrə iş. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir: Sizcə, müəlliflər nə üçün müxtəlif mətnlər yazırlar? Mətnin mövzusu dedikdə nə başa düşürsünüz?

### Oxuyub-qavrama

2.2.4. **Tapşırıq A (dərslik).** Şagirdlər "Notların tarixi" mətninin mövzusunu müəyyən edirlər. Mətni yazmaqda müəllifin məqsədini söyləyirlər.

**Düzgün cavab:** Notların yaranma tarixini araşdırmaq.

**"Faydalı məsləhət" rubrikası.** Müəllim rubrikada informativ mətnə annotasiya yazma haqqında verilmiş tövsiyələri şərh edir. Məqsəd şagirdlərin oxuduqları informativ mətnlərdə vacib faktları seçib ümumiləşdirmək və mətnin məzmununu qısa şəkildə ifadə etmək bacarığını inkişaf etdirməkdir.

**Tapşırıq B (dərslik).** Şagirdlər "Notların tarixi" mətnində nədən danışıldığı haqqında fikir bildirirlər. Şagirdlərin söylədiyi fikirlər ümumiləşdirilir və lövhədə qeyd edilir. Sonra mətnə uyğun annotasiya nümunəsini oxuyurlar. Öz fikirləri ilə müqayisə edirlər. Tapşırıq rubrikada verilmiş biliklərin mənimsənilməsinə xidmət edir.

### Yazı

3.1.1. **Tapşırıq C (dərslik).** Şagirdlər suallar əsasında "Səfiəddin Urməvi" mətninə şərh yazırlar. Tapşırıq informativ mətnə annotasiya yazma bacarığının inkişafına xidmət edir.

**Düzgün cavab:** Mətndə Səfiəddin Urməvinin yaratdığı notlar, onların işarələnməsi haqqında məlumat verilir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırığı iki mərhələdə yerinə yetirirlər.

1. "Şirlərin həyat təhlükəsi" adlı mətni oxuyur və sualları cavablandırırlar.

2. Həmin suallar əsasında mətnin məzmununu iki cümlə ilə ifadə edirlər.

**Düzgün cavab:**

1. Mətnin mövzusu – şirlərin sayının azalması.Şirlərin sayı nə qədər azalmışdır? sualının cavabı mətndə yoxdur. Mətni yazmaqda müəllifin məqsədi – şirlərin nəslinin kəsilmə səbəbini araşdırmaqdır.

2. Bu mətndə şirlərin nəslinin kəsilmə səbəbləri haqqında məlumat verilir. İnsanların şirləri ovlaması və onların yaşayış məskənlərini məhv etməsindən bəhs edilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir. | Tap. A (dərslik) |
| Mətnə uyğun yazılmış annotasiya ilə fikirlərini müqayisə edirlər. | Tap. B (dərslik) |
| İnformativ mətnin məzmununu yazır. | Tap. C (dərslik)<br>Tap. A (iş dəftəri) |

## 4-cü dərs. O, bu əvəzliklərindən sonra vergül

• Dərslik: səh. 94 • İş dəftəri: səh. 63

**Təlim məqsədləri**

• O, bu əvəzliklərindən sonra vergülün düzgün işlənmə qaydasını müəyyən edir (st. 4.1.5).

**Dərsin qısa plan**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mübtəda rolunda olan o, bu əvəzliklərini müəyyən etmə. |
| 2 | **Bunları bilməliyik** | O, bu əvəzliklərindən sonra vergülün işlənmə qaydasının şərhi. |
| 3 | **Dil qaydaları** | O, bu əvəzliklərindən sonra vergülün işlənmə qaydasını mənimsəmə və möhkəmlətmə. |
| 4 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər cümlələrdə mübtəda vəzifəsində işlənən o, bu əvəzliklərini müəyyən edirlər.

## Dil qaydaları

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada o, bu əvəzliklərindən sonra nə zaman vergülün işlənib-işlənməməsi haqqında məlumatları şərh edir.

4.1.5. **Tapşırıq B (dərslik).** Şagirdlər hansı cümlələrdə vergülün işlənə biləcəyini müəyyən edirlər. Tapşırıq rubrikada verilmiş dil qaydasının mənimsənilməsinə xidmət edir.

**Düzgün cavab:** O, Cavidə məktub yazdı.
Bu kitab türklər haqqındadır.
Bu balaca qız mənim bacımdır.
O, beş bacının bir qardaşıdır.
O gələndə hava artıq qaralmışdı.

**Tapşırıq C (dərslik).** Şagirdlər cümlələrdə səhv işlənən vergülü müəyyən edir və yenidən yazırlar. Tapşırıq dil qaydasının möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:** 1-ci, 5-ci cümlələrdə səhv yazılmışdır.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş nümunələri oxuyur və vergülün işlənmə qaydasını yazırlar. Tapşırıq vasitəsilə şagirdlər dil qaydasını mənimsədiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

1. Vergül işlənməyib, çünki o əvəzliyi mübtəda vəzifəsində deyil.
2. Vergül işlənməyib, çünki o əvəzliyindən sonra əvəzlik işlənmişdir.
3. Vergül işlənməyib, çünki o əvəzliyindən sonra feil işlənmişdir.
4. Vergül işlənib, çünki o əvəzliyindən sonra sifət işlənmişdir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər o, bu əvəzliklərindən sonra uyğun yerlərə vergülü əlavə edərək mətni köçürürlər. Tapşırığın məqsədi "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatların tətbiqinə xidmət etməkdir.

**Doğru cavab:** Natiqin dərin məntiqi təfəkkürü var. O, aydın və səlis danışır. Bu bacarığa çoxlu kitab oxumaqla yiyələnib. O həm də şeir və hekayələr yazır. Bu yazıları ilə müxtəlif müsabiqələrdə iştirak edib. Bu yarışlarda dəfələrlə qalib gəlib və mükafatlar qazanıb.

**Tapşırıq D (dərslik).** Şagirdlər o əvəzliyindən sonra işlənən vergülün funksiyasını müəyyən edir və bunun əsasında cümlədəki fikirlə eyni fikri ifadə edən cümləni seçir. Tapşırıq şagidlərin həm dil qaydasını mənimsədiklərini nümayiş etdirir, həm də məntiqi təhlil bacarıqlarının inkişafına imkan yaradır.

**Düzgün cavab:** Qoca balıqçı ilə dostluq edən odur.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətndə lazım olan yerlərdə o, bu əvəzliyindən sonra vergül əlavə edirlər. Tapşırıq şagirdlərin dil qaydası üzrə biliklərini nümayiş etdirməsinə xidmət edir.

**Düzgün cavab:** O, qorxudan əsməyə və ağlamağa başladı. O, vəziyyəti belə gördükdə dedi. Buna görə də o, gəmidəki rahatlığın qədrini bilmirdi.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| O, bu əvəzliklərindən sonra vergülün düzgün işlənmə qaydasını müəyyən edir. | Tap. B, C (dərslik)<br>Tap. A (iş dəftəri) |
| O, bu əvəzliklərindən sonra uyğun yerlərdə vergülü bərpa edir. | Tap. Ç (dərslik)<br>Tap. B (iş dəftəri) |

fəsil 3 **SİMVOLLAR**

## 1-ci dərs. Nahar yeməyi

• Dərslik: səh. 95-97 • İş dəftəri: səh. 64

**Təlim məqsədləri**
• Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st.2.2.6).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st.2.2.2).
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st.1.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Situasiya üzrə müzakirə. |
| 2 | **Oxu** | Nahar yeməyi mətninin oxusu. |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş. |
| 4 | **Danışma** | Mövzu üzrə danışma. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə (Danışma)

**Tapşırıq A (dərslik).** Şagirdlər verilmiş situasiya üzrə fikirlərini bildirir və müzakirə edirlər.

### Oxuyub-qavrama

2.2.6. **"Nahar yeməyi" mətni. Proqnozlaşdırılmış oxu.**

Şagirdlər mətni səsli oxuyurlar. Müəyyən hissələrdə oxu dayandırılır və suallar əsasında müzakirə aparılır. Şagirdlər "İndi gəlib keçərlər" cümləsinə kimi mətni oxuyurlar və sualın cavabını təxmin edirlər: Sizcə, Teymur Mədinəyə nə təklif etdi?

Növbəti oxu prosesi "Teymur, tez ol, nə isə fikirləş" cümləsinə qədər oxunur və müəllim sual verir: Siz olsaydınız, maşınları saxlatmaq üçün nə edərdiniz? Sonra isə mətnin davamı oxunur. Mətn oxunduqca yeni sözlər müzakirə edilir.

2.2.2. **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır. Şagirdlər mətn əsasında məlumatların doğru, yoxsa yanlış olduğunu müəyyən edirlər, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:** 1-D, 2-D, 3-Y, 4-D, 5-D, 6-Y.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndə hadisənin baş verdiyi məkanı, baş qəhrəmanı və digər obrazları, məzmun və ideyanı müəyyən edərək hekayə xəritəsini tamamlayırlar.

### Danışma

1.2.1. **Tapşırıq C (dərslik).** Şagirdlər mətnin məzmunundan çıxış edərək hekayənin bağlı olduğu tarixi hadisəni söyləyirlər. Tarixi hadisənin yekunu, ordumuzun qələbəsi haqqında danışırlar. Müəllim suallar vasitəsilə II Vətən müharibəsi haqqında müzakirə təşkil edir.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər sual ətrafında müzakirə edirlər. Burada diqqət komandirin uşaqların davranışından təsirlənməsinə, qürur hissi keçirməsinə, özünə inamın artmasına yönəldilir. Məqsəd təhliletmə bacarığının inkişafına imkan yaratmaqdır.

**Tapşırıq D (dərslik).** Tapşırıqda məqsəd diqqəti qırmızı rəngə yönəltməkdir. Şagirdlər burada fikirlərini əsaslandırırlar, niyə məhz qırmızı rəngi seçdiyi haqqında fikir bildirirlər.

**Tapşırıq E (dərslik).** Burada isə qırmızı rəngdən başqa haralarda istifadə olunması barədə müzakirə aparılır. Bu rəngin ifadə etdiyi məna, istifadə olunduğu yerlər haqqında həyatda gördükləri, eşitdikləri və oxuduqlarına istinad edərək fikirlərini əsaslandırırlar. Müəllim əlavə suallar verə bilər: Başqa hansı rənglər diqqəti daha tez cəlb edir? Həmin rənglərdən harada istifadə edilir?

**Müəllimin nəzərinə!** Son iki danışma üzrə təşkil olunan tapşırıqlarda məqsəd şagirdlərin diqqətini işarə vermək üçün istifadə olunan rəng və onun mənasına yönəltməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki hadisələrin davamını təxmin edir. | "Nahar yeməyi" mətninin oxusu |
| Mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. B (dərslik) Tap. A (iş dəftəri) |
| Mövzu üzrə fikir bildirir və əsaslandırır. | Tap. C, Ç, D, E (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərsdə dərslikdəki Ə tapşırığının (səh. 99) yerinə yetirilməsi üçün Avstraliya, İspaniya, Azərbaycan, Şimali Kipr Türk Respublikasının gerbindəki təsvirlərin mənası haqqında məlumatları hazır etməlidir. Məlumatlar müəllim üçün vəsaitdə təqdim edilmişdir.

## 2-ci dərs. Bayraqlar

• Dərslik: səh. 97-99 • İş dəftəri: səh. 65

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st.1.2.1).
• İnformativ mətndəki əsas faktları müəyyən edir (st.2.2.2).
• Mətnin tərkib hissələrini, struktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).
• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (1.2.2).

**Köməkçi vasitələr:** Avstraliya, İspaniya, Azərbaycan, Şimali Kipr Türk Respublikasının gerbindəki təsvirlərin mənası haqqında məlumatlar.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar əsasında müzakirə. |
| 2 | **Danışma** | Şəkil üzrə danışma. |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş. Yaddaş xəritəsini tamamlama. Bayraqlar mətninin oxusu. |
| 4 | **Yazı** | Şəkillər əsasında simvolların mənasını yazma. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir: Bayraq nə üçün istifadə edilir? Sizcə, əvvəllər bayraqdan nə üçün istifadə edirdilər?

### Danışma

1.2.1. **Tapşırıq A (dərslik).** Şagirdlər şəkillər əsasında idmanda, gəmilərdə, döyüşlərdə bayrağın istifadəsi haqqında fikirlərini bildirirlər.

**Tapşırıq B (dərslik).** Şagirdlər şəkil və bildikləri əsasında Azərbaycan və Türkiyə bayraqlarının mənası, oxşar təsvirləri haqqında danışırlar.

Hər iki tapşırıq şagirdlərin şifahi nitq bacarıqlarının inkişafına kömək edir.

### Oxuyub-qavrama

2.2.2. **"Bayraqlar" mətni. Qruplarla oxu.**

Şagirdlər üç qrupa ayrılır, müəllim mətnin ayrılmış hər hissəsini bir qrupa verir. Şagirdlər mətni oxuyur, yeni məlumatları qeyd edir və təqdimat hazırlayırlar. Mətn oxunduqdan sonra verilmiş məlumatlarla şəkillərin uyğunluğu müzakirə edilir. Yeni sözlər izah edilir.

**Tapşırıq C (dərslik).** Şagirdlər mətn əsasında məlumatları tamamlayırlar, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:**

Türkmənistan və Pakistan bayrağındakı yaşıl rəng islam dövləti olduğunu bildirir.

Türkmənistan bayrağındakı naxışlar mədəniyyəti ifadə edir.

Argentina bayrağındakı yaşıl rəng işıqlı gələcəyə işarədir.

Polşa bayrağındakı qırmızı rəng azadlıq rəmzidir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş məlumatları oxuyurlar və bayraq təsvirləri ilə uyğunlaşdırırlar. Tapşırıq oxuyub-qavrama bacarığının inkişafına xidmət edir.

**Düzgün cavab:** 1-C, 2-B, 3-A.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətndən əldə etdikləri məlumatlar əsasında tapşırığı yerinə yetirirlər. Tapşırıq vasitəsilə mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:** B. Hər iki bayraqda yaşıl rəng islamı ifadə edir.

2.2.3. **Tapşırıq Ç (dərslik).** Şagirdlər mətnin tərkib hissələrini ayırır, girişdən əsas hissəyə keçid təşkil edən cümləni müəyyən edirlər. Tapşırıq şagirdlərin mətnin tərkib hissələri, onların əlaqələndirilməsi üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:** Bayraqların üzərindəki təsvirlər hər bir xalqın mənəvi dəyərləri, dini, təbii sərvətləri ilə bağlıdır.

**Tapşırıq D (dərslik).** Şagirdlər mətnin əsas hissəsindəki məlumatlara diqqət edirlər. Burada məlumatlar 3 yerə ayrılmışdır. Bu məlumatların necə qruplaşdırıldığını müəyyən edirlər.

**Düzgün cavab:** Bayraqların rənginə və üzərindəki təsvirlərə əsasən.

**Tapşırıq E (dərslik).** Şagirdlər mətnin əsas hissəsindəki məlumatlara uyğun yarımbaşlıq düşünürlər. Əvvəlki tapşırıqda məlumatların qruplaşması haqqında müzakirə aparılmışdır. İndi isə ayrılmış 3 abzası adlandırırlar. Tapşırıq mətnin məzmunu və strukturu üzrə biliklərin möhkəmlənməsinə, yaradıcı bacarıqların inkişafına xidmət edir.

**Düzgün cavab:** Bayraqlardakı əsas rənglər. Günəş, aypara və ulduz təsviri. Bitki, heyvan və quş təsvirləri.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər D və E tapşırıqlarından əldə etdikləri biliklər əsasında yaddaş xəritəsini tamamlayır. Öncəki tapşırıqda yazdıqları yarımbaşlıqlara uyğun olaraq qeydlər götürür və yazırlar.

Tapşırıq qeydgötürmə bacarığının möhkəmlənməsinə xidmət edir.

**Danışma**

1.2.2. **Tapşırıq Ə (dərslik). Qruplarla iş.** Müəllim şagirdləri 4 qrupa ayırır. Hər qrupa bir ölkənin gerbi təqdim edilir. Qruplar mətndən əldə etdikləri və bildikləri məlumatlar əsasında gerblər üzərindəki təsvirlərin mənasını təxmin edib yazırlar. Hər bir qrup öz təxminlərini təqdim edir. Təqdimatdan sonra müəllimin nümayiş etdirdiyi dəqiq məlumatlarla təxminlər müqayisə edilir.

Tapşırıq şagirdlərdə təxminetmə, məntiqi düşünmə bacarığının inkişafına imkan yaradır. Eyni zamanda şagirdlərdə birgə işləmək, əməkdaşlıq, ünsiyyət bacarıqlarını inkişaf etdirir.

**Gerblərdəki təsvirlərin mənası haqqında məlumat.**

**Avstraliya** - Rəsmi olaraq "Birlik Gerbi" adlandırılan bu gerb Avstraliya Birliyinin rəsmi simvoludur. Avstraliyanın altı əyalətinin simvollarını əks etdirən bir qalxan, yerli Avstraliya heyvanları kenquru və emu tərəfindən tutulur. Qalxanı üstələyən yeddiguşəli Birlik Ulduzu da əyalətləri və əraziləri təmsil edir.

**İspaniya** - İspaniyanın gerbi ölkəni və ispan millətini təmsil edir. Dizaynında İspaniyanı, kral tacını, ölkənin azadlığını təmsil etməsi üçün bir neçə detallardan istifadə edilir. İspaniyanın milli şüarı gerbdə öz əksini tapır: "Plus Ultra" – "Daha da o tərəfə" deməkdir. Gerbin ortasında yerləşən qalxandakı rəmzlər keçmiş İspan krallığını, tac İspaniyada hakimiyyətin nəsildən nəsilə keçdiyini, sol və sağ künclərdəki dayaqlar İspaniyanın yerləşdiyi ərazini simvollaşdırır.

**Azərbaycan Respublikası** – Azərbaycan Respublikasının Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikası Dövlət bayrağının rəgləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır.

Azərbaycan Respublikasının Dövlət gerbinin rəngli təsvirində ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı rəngdədir. Qalxanın və ulduzun sağanaqları, habelə qalxanın düymələri və palıd qozaları qızılıdır.

**RƏMZİ MƏNASI**

**Qalxan** - müdafiə;

**Üçrəngli dairəvi xətlər** - bayraq;

**Dairəvi xətlərin üstündəki səkkizguşəli ulduz** - günəş;

**Səkkizguşəli ulduzun ortasındakı alov dilləri** - Odlar Yurdu;

**Sünbüllər** - bolluq;

**Palıd budaqları** - uzunömürlülük rəmzidir.

**Şimali Kipr Türk Respublikası** - Zeytun budağına ölkənin bölgələrini təmsil edən 5 zeytun qoyuldu. Gerbdə qanadları açıq, uçuş vəziyyətində və başı yuxarı olan bir göyərçin var. Bu göyərçin onların inkişafa açıq olduğunu, məqsədlərinin irəliləyiş və inkişaf olduğunu göstərir. Mis rəngli qalxan, Kiprin tarixboyu mislə zəngin bir ölkə olmasının simvoludur. Zeytun budağı "Kipr Türklərinin sülh üçün göstərdikləri cəhdlərinin rəmzi" olaraq xarakterizə olunur.

Dəfnə yarpağı ilə tac və ya çələng şəklində olan dəfnə dəstəsi əfsanələrində yer alan dəfnə yarpaqlarının məskunlaşma mədəniyyətinin simvolu olaraq təmsil olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəkil üzrə fikirlərini ifadə edir və əsaslandırır. | Tap. A, B (dərslik) |
| Mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. C (dərslik) Tap. A, B (iş dəftəri) |
| Keçid cümləni müəyyən edir. | Tap. Ç (dərslik) |
| Əsas hissədəki məlumatları qruplaşdırır və yaddaş xəritəsini tamamlayır. | Tap. D, E (dərslik) Tap. C (iş dəftəri) |
| Şəkillərdən əldə etdiyi məlumatlar əsasında yazılı təqdimat hazırlayır. | Tap. Ə (dərslik) |

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərsdə dərslikdəki Ç tapşırığının (səh. 100) yerinə yetirilməsi üçün şagirdlərə “Bayraqlar” mövzusunda divar qəzeti hazırlamaq üçün araşdırma verir. Divar qəzetində müxtəlif rubrikalar üçün məlumatlar toplamağı tapşırır. Bunlar şeir, müxtəlif ölkələrin bayraqları haqqında məlumat, maraqlı faktlar və s. ola bilər.

## 3-cü dərs. Qrafik informasiyanın yazıya çevrilməsi

• Dərslik: səh. 100 • İş dəftəri: səh. 66

**Təlim məqsədləri**

• Verbal-qrafik informasiyanı (məlumat vərəqi, cədvəl, sxem) mənimsədiyini nümayiş etdirir (st. 2.2.2).
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st.3.1.2).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st.3.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar əsasında müzakirə. |
| 2 | **Oxuyub-qavrama** | Şəkil üzrə danışma, sualları cavablandırma. |
| 3 | **Yazı** | İnformativ mətn yazma. Divar qəzeti hazırlama. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə I sinifdə keçdikləri məlumatı xatırladır: Bakının gerbi təqdim edilir. Bakının gerbini xatırlayırsınızmı? Gerbdə hansı təsvirlər öz əksini tapmışdır? Təsvirlərin mənasını xatırlayırsınızmı?



### Oxuyub-qavrama

2.2.2. **Tapşırıq A (dərslik).** Şagirdlərə Bakının ilk gerbi təqdim edilmişdir. Onlar gerbdəki təsvirlərin mənasını təxmin edir, sonra isə verilmiş məlumatlarla uyğunlaşdırırlar. Tapşırıq şagirdlərin məntiqi düşünmə, oxuyub-qavrama bacarıqlarının inkişafına xidmət edir.

**Düzgün cavab:** pələng – 3-cü, alov dilimləri – 4-cü, dəvə – 1-ci, lövbər – 2-ci məlumatları əks etdirir.

**Tapşırıq B (dərslik).** Şagirdlərə Şəki və Quba şəhərlərinə məxsus gerblər verilmişdir. İlkin olaraq müəllim bu şəhərlərin nə ilə məşhur olduğu, burada insanların məşğuliyyəti haqqında

müzakirə aparır. Sonra isə şagirdlər gerbdəki təsvirlər əsasında sualları cavablandırırlar. Tapşırıq həm oxuyub-qavrama bacarığının inkişafına, həm də bildikləri məlumatlarla yeni məlumatların əlaqəsinə imkan yaradır.

**Qeyd:** Müəllim şagirdlərin təxminlərini dəqiqləşdirmək üçün məlumat verir: Beşbarmaq dağının Xəzər dənizi ilə verilməsi dağın dənizçilər üçün mayak rolunu ifadə etdiyini göstərir.

**Düzgün cavab:** 1. Pələng və alov dilimləri hər iki şəhərin gerbində təsvir edilmişdir. 2. Şəkidə ipəkçilik inkişaf etdiyi üçün verilmişdir. 3. Quba şəhərinin gerbində sünbül bolluğu ifadə edir.

### Yazı

3.1.2. **Tapşırıq C (dərslik).** Şagirdlər məlumat vərəqlərindən əldə etdikləri məlumatlar əsasında "Şəhərlərimizin gerbləri" mövzusunda informativ mətn yazırlar. Burada mətni yazarkən məlumatı seçmək və ardıcıllıqla təqdim etmək bacarığı inkişaf etdirilir. Şagirdlərdə məlumatları ümumiləşdirmə və qruplaşdırma bacarıqları möhkəmləndirilir.

**Qeyd:** Müəllim yazıdan əvvəl mətnin məzmun və strukturunu qiymətləndirmək üçün meyarlar təqdim edir. Şagirdlər yazılarını meyarlar əsasında qiymətləndirirlər.

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Mətndə giriş hissə öz əksini tapmışdır. | | | |
| Mətndə keçid cümlədən istifadə olunub. | | | |
| Əsas hissəyə uyğun məlumatlar doğru yazılmışdır. | | | |
| Sonluq hissədə uyğun ifadədən istifadə olunub. | | | |
| Mətnin sonluq hissəsi doğru tamamlanmışdır. | | | |

**Şagirdlərin qurduqları mətn belə ola bilər:**

*Giriş hissə:* Hər bir şəhərimizin özünəməxsus gerbi vardır. Bəzi şəhərlərimizdə oxşar təsirlər də öz əksini tapmışdır.

Bəs bu təsvirlər nəyi ifadə edir?

*Əsas hissə:* Bakı şəhərinin gerbindəki alov dilimləri Bakının neft və qaz buruqları ilə zəngin olduğunu göstərir. Lövbər isə Bakının liman şəhəri olduğunu ifadə edir. Gerbin üzərindəki dəvə şəhərin karvan yollarının üstündə yerləşdiyini bildirir. Pələng isə güc, qüdrəti ehtiva edir.

Şəki və Quba şəhərlərində də pələng və alov dilimləri əks olunmuşdur. Bu təsvirlər paytaxt şəhərinin gerbindəki təsvirləri əks etdirir. Şəkidə ipəkçiliyin inkişafı, şəhərin öz ipəyi ilə tanınması isə tut ağacı və barama təsvirləri ilə ifadə olunmuşdur.

Quba şəhərinin gerbində dənizçilər üçün mayak rolunu ifadə edən Beşbarmaq dağı və Xəzər dənizini simvolizə edən mavi dalğalı xətlər təsvir olunmuşdur. Sünbül isə bu ərazidə çörəyin bolluğundan xəbər verir.

Bir sözlə, gerblərin üzərindəki təsvirlər şəhərlərin yerləşdiyi ərazi, orada yaşayan insanların məşğuliyyəti haqqında bizə məlumat verir.

**Müəllimin nəzərinə!** İş dəftərindəki tapşırıqlar divar qəzetinə hazırlıq məqsədi daşıyır və dərslikdəki Ç tapşırığından əvvəl işlədilməsi tövsiyə edilir.

3.1.3. **Tapşırıq A (iş dəftəri).** Şagirdlər divar qəzeti hazırlamaq üçün öz təkliflərini yazırlar.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər verilmiş nümunələrlə rubrikaları uyğunlaşdırırlar.

**Düzgün cavab:** Sitat- məşhur deyimlər, şeir – şairlərin gözü ilə, məlumat – bu, maraqlıdır.

Tapşırıqlar şagirdlərin divar qəzeti haqqında biliklərinin xatırlanmasına imkan yaradır.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq yaradıcı bacarıqların və təxəyyülün inkişafına xidmət edir.

**Tapşırıq Ç (dərslik).** Müəllim şagirdləri qruplara ayırır. Şagirdlər öncədən araşdırdıqları məlumatlar əsasında divar qəzeti hazırlayırlar. Onlar ilkin olaraq ayrı-ayrı əldə etdikləri məlumatları oxuyur, təhlil edir və qruplaşdırırlar. Əldə etdikləri məlumatlara uyğun rubrikalar düşünürlər. Son olaraq isə hazırladıqları divar qəzetini təqdim edirlər.

Tapşırıq şagirdlərin təhlil və ümumiləşdirmə, araşdırma, yaradıcı, əməkdaşlıq bacarıqlarının inkişafına xidmət edir.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Məlumat vərəqindən əldə etdiyi məlumatları təqdim edir. | Tap. A, B (dərslik) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. C (dərslik) |
| Araşdırma materialları əsasında divar qəzeti hazırlayır. | Tap. Ç (dərslik) |

## 4-cü dərs. Dil qaydaları. Defis

• Dərslik: səh. 101 • İş dəftəri: səh. 61

**Təlim məqsədləri**

• Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir (st.4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Defis və tire işarəsinin fərqi. |
| 2 | **Dil qaydaları** | Defis və tire işarəsinin işlənməsi. Durğu işarələrinin funksiyalarının şərhi. |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Tire işarəsini nə zaman istifadə edirik?

**Tapşırıq A (dərslik).** Şagirdlər verilmiş dialoqdakı defis və tire işarələrinin fərqini izah edirlər.

### Dil qaydaları

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər artıq tire və defis işarəsi ilə tanışdırlar. İndi isə defis və tire işarəsinin fərqi, defis işarəsinin fərqli funksiyaları öyrədilir. Müəllim qaydaları şərh edir. Nümunələr təhlil olunur.

4.1.5. **Tapşırıq B (dərslik).** Şagirdlər dialoqda səhv verilmiş defis və tire işarələrini müəyyən edir, fikirlərini defis işarəsinin funksiyalarına görə əsaslandırırlar. Tapşırıq dil qaydasının mənimsənilməsinə xidmət edir.

**Tapşırıq C (dərslik).** Şagirdlər defislə yazılan mürəkkəb sözləri seçib yazırlar. Tapşırıq dil qaydasının möhkəmlənməsinə xidmət edir.

**Tapşırıq Ç (dərslik)**. Şagirdlər hərflə verilmiş sayları rəqəmlə ifadə edib cümlələri köçürürlər. Bu zaman defis işarəsinin işlənməsinə diqqət yetirirlər. Tapşırıq dil qaydasının möhkəmlənməsinə xidmət edir.

**Tapşırıq D (dərslik).** Şagirdlər şəkil əsasında yarımçıq verilmiş dialoqu tamamlayırlar. Burada tire işarəsinin işlənməsinə diqqət yetirirlər. Tapşırıq həm dil qaydasının möhkəmlənməsinə, həm də şagirdlərin yaradıcı bacarıqlarının inkişafına xidmət edir.

**Düzgün cavab:**

Dialoq belə ola bilər:

- Hörmətli vətəndaş!

- Buyurun, cənab polis.

- Siz yol hərəkəti qaydasını pozmusunuz. Burada velosipeddən istifadə etmək qadağandır.

- Bağışlayın, yoldaş polis.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndə buraxılmış defis və tire işarələrini bərpa edirlər. Tapşırıq vasitəsilə dil qaydasını nə dərəcədə mənimsədiklərini nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətndə işlənən defis və tire işarələrinin funksiyalarını şərh edirlər.

**Düzgün cavab:** Sayların ərəb rəqəmləri ilə yazılışında, mürəkkəb sözlərin arasında.

**Tapşırıq C (iş dəftəri).** Mətndə işlənən üç nöqtənin funksiyasını izah edirlər.

**Düzgün cavab:** Fikrin bitmədiyini bildirir.

**Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər qarışıq verilmiş sözlərdən cümlələr qurur və uyğun durğu işarələri ilə tamamlayırlar. Tapşırıq cümlə qurmaq vərdişinin və durğu işarələri üzrə biliklərin möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:** Bəh-bəh, necə xoş ətri var!

Körpələr daha çox hansı nəğməni sevirlər?

Mən Azərbaycanı qarış-qarış gəzmək istəyirəm.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Durğu işarələrinin funksiyasını izah edir. | Tap. B (dərslik) Tap. A, B,C (iş dəftəri) |
| Durğu işarələrindən yerində istifadə edir. | Tap. C, Ç (dərslik) Tap. Ç (iş dəftəri) |

fəsil 4

# HƏYATIMIZDAKI İŞARƏLƏR

## 1-ci dərs. İşarələr dili

• Dərslik: səh. 102-103 • İş dəftəri: səh. 68

**Təlim məqsədləri**

• İnformativ mətndəki əsas faktları müəyyən edir (st.2.2.2).
• İnformativ mətndəki fakt və fikirlərdən çıxış edərək müəllifin məqsədini müəyyən edir (2.2.4).
• Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir (st.3.1.3).
• Qeyd götürməklə dinləyir (st.1.1.1).
• Dinlədiyi mətnin məzmununa uyğun olan (olmayan) fikir və faktları müəyyənləşdirir (st.1.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəkil üzrə danışma. |
| 2 | **Oxu** | "İşarələr dili" mətninin oxusu. |
| 3 | **Oxuyub-qavrama** | Mətn məzmunu üzrə iş. |
| 4 | **Dinləmə** | Dinləmə mətni əsasında qeydgötürmə və tapşırıqları yerinə yetirmə. |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim sual verir: Jest nədir? Jestlərdən nə üçün istifadə edilir? Şagirdlər şəkillərdə verilmiş jestlərin mənası haqqında danışırlar. Başqa hansı jestləri tanıyırsınız?

**Düzgün cavab:** Şəkillərdə birlik, alqışlamaq, təslim olmaq ifadəsi verilib.

### Oxuyub-qavrama

2.2.2 **"İşarələr dili" mətni. Növbəli oxu.**

Oxu fəaliyyətinə keçməzdən əvvəl müəllim şagirdlərin diqqətini şəkillərə yönləndirir. Şəkillərdəki jestlərin mənasını təxmin edirlər. Sonra isə mətn oxunur. Mətn oxunduqca əsas faktlar müzakirə edilir.

**Tapşırıq B (dərslik).** Şagirdlər mətndəki məlumatlar əsasında fikirləri tamamlayırlar. Bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:** Kəşfiyyatçılar jestlərdən istifadə edirlər, çünki səssiz informasiya ötürə bilirlər. Dalğıclar jestlərdən istifadə edirlər, çünki su altında danışa bilmirlər. İdmanda xüsusi işarələrdən istifadə edirlər, çünki fərqli dillərdə danışan insanlar bir-birilərini anlamırlar.

2.2.4. **Tapşırıq C (dərslik).** Mətni yazmaqda müəllifin məqsədi müəyyən edilir. Tapşırıq mətndən ümumi nəticə çıxartma bacarığını inkişaf etdirir.

**Düzgün cavab:** Jestlərin mənası və əhəmiyyəti haqqında danışmaq.

**Qeyd:** Müəllim əlavə olaraq sual verə bilər: Başqa hansı sahələrdə jestlərdən istifadə edilir?

**Tapşırıq A (iş dəftəri).** Tapşırıqda şagirdlər verilmiş şəkillərlə cümlələri uyğunlaşdırırlar. Tapşırıq şagirdlərin mətndən öyrəndikləri məlumatları genişləndirir.

### Yazı

3.1.3. **Tapşırıq Ç (dərslik).** Şagirdlər müxtəlif peşə sahələrinə aid jestləri cümlələrlə ifadə edib yazırlar. Tapşırıq mətndəki məlumatların möhkəmlənməsinə, oxuyub-qavrama bacarığının inkişafına xidmət edir.

**Düzgün cavab:**

1. Kəşfiyyatçı demək istəyir ki, dayan, gəlmə.
2. Polis demək istəyir ki, maşını saxla!
3. Dalğıc demək istəyir ki, suyun dibinə enirəm.
4. Hakim demək istəyir ki, oyundan xaric olunursunuz.

### Dinləmə

1.1.1. **Tapşırıq E (dərslik).** Tapşırığın yerinə yetirilməsi üçün müəllim dinləmə mətnini səsləndirir. Dinləmə mətni əsasında şagirdlər qeydlər götürürlər. Götürdükləri qeydlər əsasında ilk smaylikin yaranması haqqında təqdimat hazırlayırlar.

**İlk smaylik**

Mimika və jestlərin ifadəsi zamanı müxtəlif smayliklərdən istifadə edirik. İlk dəfə sarı gülümsəyən smayliki Amerika rəssamı Harvey Boll çəkib. Bu smaylikin qəribə yaranma tarixi var.

Belə ki, 1960-cı illərin əvvəllərində Amerika şirkətlərinin birində işçilərin iş rejimi çox yorucu və gərgin idi. İşləri ağır olduğundan onlar çox əsəbi və kədərli olurdular. Hər dəfə müştərilərlə görüşdükdə gülümsəməyi unudurdular. Bunu görən şirkət rəhbəri problemi həll etmək üçün yol axtarır. Düşünür ki, elə bir yol tapsın ki, işçilər gülümsəməyə məcbur olsunlar.

Bu məqsədə nail olmaq üçün qeyri-adi reklam kampaniyası keçirmək qərarına gəlir. Burada yadda qalan bir simvoldan istifadə olunmasını istəyir. Bunun üçün rəssam Harvey Bolla müraciət edir. Problemin gülümsəməklə bağlı olduğunu görən Boll "gülümsəyən üz" smaylikini yaradır. O bunu cəmi on dəqiqə ərzində düşünüb hazırlayır. Rəssamın ideyasını bəyənən şirkət rəhbəri smaylikdən döş nişanı hazırlatdırır. Bu nişanı bütün şirkət işçilərinə paylayır. Hər dəfə işçilərin üzərində gülümsəyən üz nişanını görən müştərilər bunu çox bəyənirlər. Hətta onlar özləri üçün də smayliki sifariş edirlər. Beləcə, ilk smaylik insanlar arasında tanınmağa başlayır.

Sonralar smaylik "Xoş gününüz olsun" şüarı ilə bütün dünyada məşhurlaşır. Bu gün hər kəs bu smaylikdən istifadə edir.

1.1.1. **Tapşırıq B (iş dəftəri).** Dinləmə mətni əsasında doğru və yanlış məlumatlar müəyyən edilir. Tapşırığı yerinə yetirməklə şagirdlər mətni diqqətlə dinlədiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:** 1-Y, 2- D, 3- Y, 4-D, 5- Y.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq şagirdlərin yaradıcı bacarıqlarının və təxəyyülünün inkişafına xidmət edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni oxuyarkən əsas faktları müəyyən edir. | "İşarələr dili" mətni |
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırır. | Tap. B, C (dərslik) |
| Şəkillər əsasında verilmiş informasiyanı cümlələr şəklində ifadə edirlər. | Tap. Ç (dərslik)<br>Tap. A (iş dəftəri) |
| Mətni dinləyir və qeydlər götürür. | Tap. D (dərslik) |
| Dinləmə mətninə uyğun olan və olmayan məlumatları müəyyən edir. | Tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərsdə dərslikdəki D tapşırığının (səh. 104) yerinə yetirilməsi üçün şagirdləri qruplara ayırır. Hər qrupa bir mövzuda işarə və simvolların şəkillərini toplamağı və ya çəkməyi tapşırır: 1. Qrup – evdə təhlükəsizlik qaydaları, 2. Qrup – düzgün qidalanma, 3. Qrup – yenidən istifadə və təbiətin müdafiəsi, 4. Qrup – virus və xəstəliklərdən qorunma.

## 2-ci dərs. Plakatda işarələrdən istifadə

• Dərslik: səh. 104 • İş dəftəri: səh. 69

**Təlim məqsədləri**

• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st.1.2.2).
• Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir (st.3.1.3).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st.3.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar əsasında müzakirə. |
| 2 | **Danışma** | Plakat əsasında müzakirə. |
| 3 | **Yazı** | Qrafik informasiyanı yazıya çevirmə.<br>Mövzular üzrə plakat hazırlama. |
| 4 | **Formativ qiymətləndirmə** | |

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərlə sual verir: Plakat nə üçün

tərtib edilir? Plakat tərtib edərkən nələrə diqqət edirik?

**Danışma**

1.2.2. **Tapşırıq A (dərslik).** Şagirdlər verilmiş plakat üzrə suallar əsasında müzakirə aparırlar. Əsas diqqət plakatda istifadə olunan işarələrin mənasına yönəlir. Tapşırıq plakat üzrə biliklərin yada salınması, oxuyub-qavrama bacarığının inkişafına xidmət edir.

**Tapşırıq B (dərslik).** Plakatda məlumatların işarələrlə verilməsinin əhəmiyyəti müzakirə edilir.

**"Diqqət et" rubrikası**. Şagirdlər artıq plakat və onun tərtibi haqqında müəyyən bilik və bacarıqlara yiyələniblər. İndi isə müəllim plakatda istifadə olunan işarələrin əhəmiyyətini şərh edir.

**Yazı**

3.1.3. **Tapşırıq C (dərslik).** Şagirdlər plakatda verilmiş məlumatları rabitəli mətnə çevirib yazırlar. Tapşırıq şagirdlərin yazı bacarığının inkişafına xidmət edir.

**Rabitəli mətn belə ola bilər:**

İnsan bədəninin 75 faizini su təşkil edir. Buna baxmayaraq gün ərzində bir adam 8 stəkan su qəbul etməlidir. Bəs niyə bu qədər suya ehtiyacımız var?

İnsanın gün ərzində qəbul etdiyi su onun sağlamlığına müsbət təsir göstərir. Belə ki, lazımi miqdarda su qəbul edən insan özünü daha gümrah və xoş əhval-ruhiyyədə hiss edir. Eyni zamanda su beynin inkişafı və ürək sağlamlığı üçün xeyirlidir. Həmçinin su insan çəkisinin normada qalmasına kömək edir. İnsanın oynaqlarının sağlam olmasına, hərəkət etməsinə imkan yaradır. Su həm də həzm prosesinə müsbət təsir edir.

Bütün bunları nəzərə alaraq deyə bilərik ki, hər bir insan sağlam olmaq üçün gün ərzində yetəri qədər miqdarda su qəbul etməlidir.

3.1.3. **Tapşırıq D (dərslik).** Tapşırıq həm plakat hazırlamaq bacarığının, həm də işarə və simvollardan istifadə üzrə biliklərin möhkəmlənməsinə xidmət edir. Şagirdlər 4 qrupa bölünür. Hər qrupa vatman kağızı və ya A3 vərəqi təqdim olunur, mövzulara uyğun plakat hazırlamaq tapşırılır.

1. Qrup üzvləri əvvəlcə mövzu ətrafında şüarlar düşünür, qeyd vərəqlərində yazırlar. Sonra müzakirə edərək plakat üçün uğurlu bir şüarı seçirlər.

2. Plakatda mövzuya uyğun hansı işarə və simvollardan istifadə edəcəklərini müzakirə edirlər. Plakat üçün uyğun şəkillər seçirlər. Şəkli və mətni plakatda necə yerləşdirəcəklərini qərarlaşdırırlar.

3. Plakatı yerləşdirmək üçün məkan haqqında müzakirə aparırlar. Müəllim kömək məqsədi ilə şagirdlərə müzakirə üçün sual verir: – Plakatı harada yerləşdirsək, daha çox insan görüb məlumatlana bilər? Şagirdlər müzakirə edərək plakat üçün uğurlu məkan seçirlər. Müzakirə bitdikdən sonra qruplar işə başlayır. Sonda qrupların təqdimatı dinlənilir.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş şüarlara uyğun işarələr çəkirlər. Tapşırıq təxəyyülün inkişafına xidmət edir.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər plakatda təqdim olunmuş işarələr əsasında çimərlikdə davranış qaydalarını tərtib etməlidirlər. Tapşırıq qrafik informasiyanı yazıya çevirmə bacarığının inkişafına xidmət edir. Eyni zamanda şagirdlərdə qaydalar tərtibetmə bacarığının möhkəmlənməsinə imkan yaradır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Plakat əsasında mövzu üzrə danışır. | Tap. A, B (dərslik) |
| Plakatda verilmiş məlumatları rabitəli mətnə çevirib yazır. | Tap. C (dərslik)<br>Tap. B (iş dəftəri) |
| Verilmiş mövzular üzrə plakatlar hazırlayır. | Tap. D (dərslik) |

## 3-cü dərs. Buta

• Dərslik: səh. 105 • İş dəftəri: səh. 70

**Təlim məqsədləri**

- İnformativ mətndəki əsas faktları müəyyən edir (st.2.2.2).
- Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir (st. 2.2.5).
- İnformativ mətndəki fakt və fikirlərdən çıxış edərək müəllifin məqsədini müəyyən edir (st.2.2.4).
- Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st.1.2.2).
- Qeyd götürməklə dinləyir (st.1.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar əsasında müzakirə. |
| 2 | **Oxuyub-Qavrama** | Buta mətninin oxusu.<br>Mətnin məzmunu üzrə iş. |
| 3 | **Danışma** | Şəkil üzrə danışma. |
| 4 | **Dinləmə** | Dinləmə mətni əsasında qeyd götürmə. |
| 5 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik)** Müəllim buta formalı müxtəlif əşya şəkilləri nümayiş etdirir. Şagirdlər buta haqqında bildiklərini danışırlar.

## Oxuyub-qavrama

2.2.2. **"Buta" mətni. Növbəli oxu.**

Mətn oxunur. Mətn oxunduqca əsas faktlar müzakirə edilir.

2.2.5. **Tapşırıq B (dərslik).** Şagirdlər mətndə verilmiş mülahizələrə yenidən diqqət yetirirlər. Hansı fikrin həqiqətə uyğun olduğunu müzakirə edirlər. Tapşırıq şifahi nitqin inkişafına xidmət edir.

2.2.2. **Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş fikirləri əsaslandırmaq üçün mətndən uyğun məlumatları seçib yazırlar.

**Düzgün cavab:** Buta alov diliminə bənzəyir.

Xalçalardakı tovuzquşu təsviri sonralar buta təsviri ilə əlaqələndirilmişdir. Buta müqəddəs hesab edilən 9 rəqəminə bənzədilir.

2.2.4. **Tapşırıq C (dərslik).** Şagirdlər "Buta" mətninin mövzusunu müəyyən edirlər. Mətni yazmaqda müəllifin məqsədini söyləyirlər. Bununla mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:** Mətni yazmaqda müəllifin məqsədi buta naxışının yaranması haqqında müxtəlif mülahizələri araşdırmaqdır.

## Danışma

1.2.2. **Tapşırıq Ç (dərslik).** Şagirdlər bildikləri məlumatlar əsasında xalçalar üzərindəki naxışların mənası haqqında danışırlar.

1.1.1. **Tapşırıq D (dərslik)**. Tapşırığın yerinə yetirilməsi üçün müəllim dinləmə mətnini səsləndirir. Şagirdlər mətndən qeydlər götürürlər.

**Naxışların dili**

Xalçalar üzərində müxtəlif naxışlardan istifadə edilir. Belə hesab olunur ki, hər bir naxış müəyyən bir sözü ifadə edir və hər birinin öz mənası var. Bəs bu naxışları necə fərqləndirirlər?

Xalçalarda ən çox istifadə edilən naxışlar həndəsi elementli naxışlardır. Bu tip naxışlar çox sadə formaya malikdir. Məsələn, dairə günəşi ifadə edir.

İkinci ən geniş istifadə olunan naxışlar nəbati naxışlardır. Nəbati naxışlar güllərdən (lalə, qızılgül, süsən, qərənfil və s.) və ağaclardan (nar, palıd, sərv və s.) ibarət olan naxışlardır.

Bundan başqa, heyvan motivli naxışlar da geniş yayılmışdır. Belə naxışlarda heyvan və quşların sadə təsvirləri verilir. Quş ornamentləri içərisində – tovuzquşu, göyərçin, bülbül, heyvan ornamentləri içərisində – ceyran, əjdaha ən qədim naxışlardandır.

Son olaraq deyə bilərik ki, bütün bu naxışlar insanların gündəlik həyat tərzini, məşğuliyyətini, dinini özündə əks etdirir, xalqın yaşayışı haqqında məlumat verir.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq vasitəsilə mətni diqqətlə dinlədiyini nümayiş etdirir.

**Düzgün cavab:** 2, 1, 3.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndən əsas məlumatları seçir. | Tap. A (dərslik) |
| Həqiqətə uyğun olan mülahizələri əsaslandırır. | Tap. B (dərslik) |
| Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir. | Tap. C (dərslik) |
| Mətndəki faktlara əsasən verilmiş fikirləri əsaslandırır. | Tap. A (iş dəftəri) |
| Mətni dinləyir və qeyd götürür. | Tap. D (dərslik) |

| | |
|---|---|
| Məlumatlara uyğun təsvirləri seçir. | Tap. B (iş dəftəri) |

## 4-cü dərs. Ümumiləşdirici təkrar

• Dərslik: səh. 106 • İş dəftəri: səh. 71

**Təlim məqsədləri**

• Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir (st.4.1.5).
• Məqsəddən asılı olaraq nəqli, sual, əmr cümlələri qurur (st.4.1.4).
• O, bu əvəzliklərindən sonra vergülün düzgün işlənmə qaydasını müəyyən edir (st. 4.1.5).
• Durğu işarələrinin funksiyasını müəyyən edir (4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual üzrə müzakirə. |
| 2 | **Dil qaydaları** | Cümlələrə uyğun durğu işarələrini müəyyən etmə.<br>Sual cümləsi qurma.<br>Durğu işarələrinin funksiyasını izah etmə və yerini müəyyənləşdirmə. |
| 3 | **Oxuyub-qavrama** | Mətn üzrə sualları cavablandırma.<br>Mətnə şərh yazma.<br>Dialoq qurma. |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər verilmiş cümlələrə uyğun durğu işarələrini müəyyən edirlər və fikirlərini əsaslandırırlar.

**Düzgün cavab:** 1. sual, 2. nida, 3. sual, 4. nöqtə, 5. nida.

4.1.5. **Tapşırıq B (dərslik).** Cümlələrdə fərqləndirilmiş sözləri sual sözləri ilə əvəz edib sual cümlələri qururlar. Tapşırıq cümlə qurma vərdişinin inkişafına xidmət edir

4.1.5. **Tapşırıq C (dərslik).** Şagirdlər o, bu əvəzliklərindən sonra vergülün yerini müəyyənləşdirir və funksiyasını izah edirlər.

4.1.4. **Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş nümunələrə uyğun üç nöqtənin funksiyasını izah edirlər.

**Düzgün cavab:** 1- Sitatın ixtisar olduğunu göstərir, 2 və 3 danışanın həyəcanlı olduğunu ifadə edir.

4.1.5. **Tapşırıq D (dərslik).** Şagirdlər buraxılmış yerlərdə durğu işarələrini bərpa edərək mətni köçürürlər. Tapşırıq durğu işarələrinin işlənmə qaydası ilə bağlı biliklərin yoxlanılmasına xidmət edir.

4.1.5. **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətni oxuyurlar və mətn üzrə tapşırıqları yerinə yetirirlər. İş dəftərindəki tapşırıqlar oxuyub-qavrama bacarığının, filoloji anlayışların və dil qaydası üzrə biliklərin yoxlanılmasına imkan yaradır.

**Sual 1.** Mətni diqqətlə oxuduqlarını nümayiş etdirir.

**Sual 2.** Sonluq hissənin başlandığı ifadənin müəyyən edilməsinə xidmət edir.

**Sual 3.** Şagirdlər mətnin məzmununu iki cümlə ilə yazırlar.

**Düzgün cavab:** Mətndə kenqurunun niyə belə adlanması ilə bağlı rəvayət verilmişdir. Mətn kenquru sözünün necə yarandığını araşdırır.

**Sual 4.** Bu əvəzliyindən sonra vergülün işlənmə qaydasını yoxlayır.

**Sual 5.** Burada ingilislərin və yerli sakinlərin nitqlərini dialoqa çevirib yazırlar.

**Dialoq təxmini belə ola bilər:**
İngilislər soruşur:
– Bu heyvanın adı nədir?
Yerli sakinlər:
– Kenquru
– Aaa, kenquru, aydındır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlələrə uyğun durğu işarəsini müəyyən edirlər. | Tap. A (dərslik) |
| Sual cümlələri qurur. | Tap. B (dərslik) |
| O, bu əvəzliklərindən sonra vergülün yerini müəyyən edir. | Tap. C (dərslik) |
| Üç nöqtənin funksiyasını izah edir. | Tap. Ç (dərslik) |
| Uyğun yerlərdə durğu işarələrini bərpa edərək mətni köçürür. | Tap. D (dərslik) |

## I yarımil üzrə ümumiləşdirici təkrar

• Dərslik: səh. 107 • İş dəftəri: səh. 72-78

I yarımilin sonunda dərslik və iş dəftərində 4-cü sinifdə keçilən dil qaydaları və filoloji anlayışlarla bağlı təqdim olunan tapşırıqlar müvafiq standartların nə dərəcədə reallaşdığını yoxlamağa imkan verir. Tapşırıqlar, əsasən, oxu və dil qaydalarını əhatə edir. Həmçinin oxu (söz ehtiyatı), dinləmə və yazı məzmun xətti üzrə mənimsədilən bir sıra filoloji anlayışlarla bağlı tapşırıqlar da verilmişdir. Tapşırıqlar tətbiqi xarakterlidir və şagirdlərin nitq bacarıqlarını üzə çıxarır. Dərslikdə verilən bir sıra tapşırıqlar kollektiv şəkildə müzakirə yolu ilə yerinə yetirilə bilər. Fərdi yerinə yetirilən tapşırıqların sonda ümumi siniflə müzakirə edilməsi məqsədəuyğundur. Tapşırıqlar aşağıdakı təlim məqsədlərinin reallaşdırılmasına xidmət edir

**Tapşırıq A (dərslik).** Şagirdlər dil qaydaları üzrə keçdikləri mövzuları xatırlayırlar.
**Düzgün cavab:** 1. D, 2. Y, 3. D, 4. D, 5. D.

2.1.2. **Tapşırıq B (dərslik).** Şagirdlər frazeoloji ifadələri bir sözlə əvəz edib yazırlar.
**Düzgün cavab:** 1. Bu mənzərəni görəndə sevindim. 2. Babam bağda işləyəndən sonra yorulmuşdu. 3. Aynur yalan söylədiyi üçün utandı. 4. Anam bu xəbəri eşidəndə kədərləndi. 5. Rauf uzun müddət danışmadı.

4.1.5. **Tapşırıq C (dərslik).** Şagirdlər verilmiş cümlələri azaltma və ya çoxaltma dərəcəsində işlədib yazırlar.

**Düzgün cavab:**

2. Ağappaq. 3. Açıq mavi. 4. Kəmşirin. 5. Tərtəmiz

4.1.4. **Tapşırıq Ç (dərslik).** Şagirdlər baş üzvləri müəyyən edirlər.

**Düzgün cavab:** 1. Taxıl zəmisi, dalğalanırdı.
2. Anarın anası, işləyir.
3. Günəş, boylandı.
4. Dəyirmançı, üyütdü.
5. Vətən, əzizdir.
6. Naxçıvan, şəhərdir.

4.1.5. **Tapşırıq D (dərslik).**

**Düzgün cavab:**

Tərkibində sifət var: gözəl qız, maraqlı kitab, böyük ölkə, şirin meyvə, yaxşı insan, rəngbərəng güllər.

Tərkibində zərf var: astadan danışmaq, sürətlə qaçmaq, maraqla dinləmək, gözəl görünmək, ucadan gülmək, yaxşı oxumaq.

**İş dəftəri: Dinləmə mətni. Üç mirvari.** Müəllim dinləmə mətnini səsləndirir. Şagirdlər mətni dinləyirlər və mətn üzrə tapşırıqları yerinə yetirirlər.

**Dinləmə mətni. Üç mirvari**

Qədim zamanlarda Nardaran qalasının qırağında, Xəzər dənizinin sahilində tikilmiş bir evdə Piri baba adlı qoca ilə onun nəvəsi Gülbala olurdu. Baba və nəvə gün çıxandan gün batana qədər qonşuların bağ-bağatında işləyir, pis-yaxşı dolanırdılar.

Bir dəfə səhər tezdən yerindən qalxıb həyətə düşən baba və nəvə qum üstündə qəribə ləpirlər gördülər. Bu ləpirlər böyük balıqqulağının izinə oxşayırdı. Piri baba ilə Gülbala bir-birinin üzünə heyrətlə baxıb dinməz-söyləməz ləpirlərin izinə düşdülər. Gedib Xəzərin sahilində sal qayaya çatdılar... Gördülər ki, üç mirvari balıqqulağıdan çıxıb və qayanın üstündə qərar tutub. Piri baba nəfəsini dərib incinin birindən soruşdu:

– Adın nədir?

– Var-dövlət!

Gülbala babasının ətəyindən tutub dedi:

– Gəl bunu götürüb evimizə aparaq, bir dəfəlik yoxsulluğun daşını ataq!

Piri baba əlini qaldırdı, Gülbalanı səbirli olmağa çağırdı.

– Qoy o birindən soruşaq! – deyə qoca ikinciyə tərəf döndü.

– Sənin adın nədir?

– Xoşbəxtlik!

– Ay baba, daha bundan gözəl nə olar?

– Gülbala sevincindən atılıb-düşdü.

– Gəl xoşbəxtliyi evimizə aparaq. Bizim də üzümüz gülsün, həmişə xoşbəxt olaq!

Piri baba üçüncü mirvariyə müraciət etdi:

– Bəs sənin adın nədir?

– Dostluq, doğruluq!

– Bax, bala, yapış bundan, onu özümüzlə aparaq!

– Niyə, ay baba? Quru dostluqdan, doğruluqdan nə çıxar?

– Dostluq, doğruluq quru, boş şey deyil. Bir gün var-dövlət əldən gedə bilər! Piri baba bir neçə tanışın adını çəkdi. Onların necə yoxsullaşdığını, əl açıb dilənməyə məcbur olduqlarını dedi. Piri babanın dedikləri Gülbalanın ağlına batdı. O

soruşdu:

– Bəs xoşbəxtlik necə, baba?

– Oğlum, insan ne qədər xoşbəxt olsa da, bir gün qəfil bədbəxtlik baş verib onu çox ağır vəziyyətə sala bilər. Piri baba yenə də tanışlardan bir neçəsinin əvvəlcə xoşbəxt yaşadıqlarından, sonra fəlakətə düşüb bədbəxt olduqlarından danışdı. Babanın gətirdiyi bu misallar nəvəni inandırdı. Gülbala yenə soruşdu:

– Bəs dostluq, doğruluq necə, baba?

– Dostluq hər zaman sənin karına gələ bilər. Var-dövlətini itirib yoxsullaşanda həqiqi dost qolundan yapışar, dayaq olar. Qoymaz ki, sən boynuna torba salaraq ona-buna əl açıb dilənəsən. Doğru dost son tikəsini də səninlə bölüşər. Sənsiz boğazından bir qurtum su da keçməz!..

Piri babanın müdrik misallarını diqqətlə dinləyən Gülbala sal qayaya qalxdı. Dostluq, doğruluq incisini götürüb bağrına basdı və aşağı düşdü, qaça-qaça evlərinə apardı...

Süleyman Rəhimov

**Müəllimin nəzərinə!** 1, 2 və 3-cü suallar faktoloji biliyin yoxlanılmasına xidmət edir.

**Düzgün cavablar:**

**Sual 1.** Sahildə

**Sual 2**. Bağban

**Sual 3.** 1. Var-dövlət – Birdəfəlik yoxsulluğun daşını ataq.

2. Xoşbəxtlik! – Bizim də üzümüz gülsün, həmişə xoşbəxt olaq!

3. Dostluq – Dostluq hər zaman köməyinə gələ bilər. Var-dövlətini itirib yoxsullaşanda həqiqi dost qolundan yapışar, dayaq olar. Qoymaz ki, sən boynuna torba salaraq ona-buna əl açıb dilənəsən. Doğru dost son tikəsini də səninlə bölüşər. Sənsiz boğazından bir qurtum su da keçməz!..

**Sual 4.** Mətnin ideyasını müəyyən edirlər.

**Düzgün cavab:** B

**Sual 5**. Şagirdlər Piri babanın seçimlərinə uyğun cavabları müəyyən edirlər.

**Düzgün cavab:** Gələn var-dövlət bir gün gedər. İnsanın həyatı daim xoşbəxt keçə bilməz.

**Sual 6:** Şagirdlər mətndəki məlumatlar əsasında mirvari, inci, balıqqulağı anlayışlarını fərqləndirir, söz ehtiyatı üzrə bilikləri möhkəmlənir. Eyni zamanda məntiqi düşünmə bacarıqları inkişaf edir.

**Düzgün cavab:** Mirvari və balıqqulağı yaxınmənalı sözlərdir.

**Sual 7.** Şagirdlər öz fikirlərini yazır və əsaslandırırlar.

İş dəftərində verilmiş informativ və bədii mətn üzrə tapşırıqlar oxuyub-qavrama bacarığının, filoloji anlayışlar, mətnin məzmun və struktur xüsusiyyətləri üzrə bilik və bacarıqların yoxlanmasına xidmət edir.

**İnformativ mətn: Şəki xan sarayı.**

Şagirdlər "Şəki xan sarayı" informativ mətnini oxuyurlar və tapşırıqları yerinə yetirirlər.

**Müəllimin nəzərinə!** Tapşırıqlara başlamazdan əvvəl müəllim şagirdlərin diqqətinə çatdırır ki, ili əsrə çevirdiyimiz zaman ilin ilk iki rəqəminə baxırıq və 1 əlavə edərək əsrə çeviririk.

**Sual 1.** C

**Sual 2**. C

**Sual 3.** B

**Sual 4**. A

**Sual 5**. B

**Sual 6.** İkimərtəbəli sarayın divarları rəsmlərlə bəzədilib. Tavanı rəngbərəng naxışlarla örtülüdür.

**Sual 7.** B

**Sual 8.** C

**Sual 9.** B

**Sual 10.** Mətn Şəki xan sarayının memarlıq xüsusiyyətləri haqqında məlumat verir. Burada sarayın tikilmə məqsədi, tarixi və istifadəsindən də bəhs edilir.

**Bədii mətn: Səxavətli ağac.**

**Sual 1.** Meyvələrini təklif etdi. Budaqlarını təklif etdi. Gövdəsini təklif etdi.

**Sual 2.** Ağac fədakar idi, hər zaman dostunun xoşbəxt olması üçün çalışırdı. Oğlan eqoist idi, ancaq öz xoşbəxtliyini düşünürdü.

**Sual 3.** Ağac

**Sual 4.** B

**Dil qaydaları üzrə tapşırıqlar.**
**Düzgün cavablar:**

| | | | |
|---|---|---|---|
| **1.** B | **7.** C | **13.** D | **19.** rahat ev, |
| **2.** C | **8.** B | **14.** B | rahat yaşamaq |
| **3.** C | **9.** C | **15.** C | **20.** C |
| **4.** A | **10.** D | **16.** B | |
| **5.** B | **11.** D | **17.** C | |
| **6.** B | **12.** B | **18.** B | |

**Tapşırıqlar aşağıdakı təlim məqsədlərinin reallaşdırılmasına xidmət edir.**

| Məzmun standartları | Təlim məqsədləri | Tapşırıqlar |
| --- | --- | --- |
| 2.1.2. Söz və ifadələrin həqiqi və ya məcazi mənasını fərqləndirir. | Konteksdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyən edir. | Tap. B (dərslik) |
| 4.1.3. Cümlədə sözləri leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | Sifətlərə uyğun dərəcələri müəyyən edir. | Tap. C (dərslik) İş dəftəri səh.77-78. Sual 3 |
| 4.1.4. Mənimsədiyi qrammatik qaydalara uyğun söz birləşməsi və cümlə qurur. | Cümlələrdə mübtəda və xəbəri müəyyən edir. | Tap. Ç (dərslik) İş dəftəri səh.77-78. Sual 14,16 |
| 4.1.4. Mənimsədiyi qrammatik qaydalara uyğun söz birləşməsi və cümlə qurur. | İsmi və feili birləşmələri fərqləndirir. | Tap. D (dərslik) İş dəftəri səh.77-78. Sual 13,19,20 |
| 1.1.1. Dinlədiyi mətni anladığını nümayiş etdirir. | Dinlədiyi mətnin məzmununa uyğun olan (olmayan) fikir və faktları müəyyənləşdirir. | İş dəftəri səh.72. |
| 2.2.2. Açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir. | İnformativ mətndəki əsas faktları müəyyən edir. | İş dəftəri səh.73. Sual 1,2,3,4,5,6 İş dəftəri səh.75. Sual 1,2 |
| 2.2.3. Mətni məzmun, struktur, dil-üslub və obrazlar sistemi baxımından təhlil edir. | Mətnin tərkib hissələrini, struktur elementlərini onun məzmunu ilə əlaqələndirir. | İş dəftəri səh.74. Sual 7,8,9,10 İş dəftəri səh.75. Sual 2,3 |
| 4.1.2. Mənimsədiyi orfoqrafiya qaydalarını sözlərin yazılışında tətbiq edir. | | İş dəftəri səh.77-78. Sual 1, 6, 9, 11, 12,15 |
| 4.1.3. Cümlədə sözləri leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | Əsas nitq hissələrinin (isim, sifət, say, feil, əvəzlik) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir. | İş dəftəri səh.77-78. Sual 4,5,7, |
| 4.1.5.Cümlədə müvafiq durğu işarələrindən istifadə edir. | Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir. Durğu işarələrinin funksiyasını müəyyən edir. O, bu əvəzliyindən sonra vergülün yerini müəyyən edir. | İş dəftəri səh.77-78. Sual 17,18 |

bölmə **5** 

# BİRİNCİLƏR: "İLK" VƏ "ƏN"

| Mövzu | | Birincilər: "ilk" və "ən" |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Hər hansı hadisə, varlıqla bağlı fikir və təəssüratları haqqında danışma;<br>• Hər hansı bir mövzu ilə bağlı araşdırma apararaq təqdimetmə;<br>• Dinlədiyi mətni nəqletmə. |
| | Söz ehtiyatı | • Vunderkind, süni, rekord, məzun, orqan, fantastik, imza atmaq, cümhuriyyət, təmkinlə, örnək, opera, köşk, qrim, zümzümə, həvalə etmək, dirijorluq, mötəbər, sorğu kitabı, iddia etmək, işıq üzü görmək, sertifikat, namizəd, qeydiyyat, təsisçi, namizəd, təkidlə, soy-kök, vikinq, pioner, fərziyyə, sükan, şahin, atlet, qət etmək. |
| | Oxu | • Bədii və informativ mətnlərin müqayisəsi |
| | Yazı | • Essenin yazılması;<br>• Qrafik təsvirin (cədvəlin) rabitəli mətnə çevrilməsi;<br>• Məlumat və faktların qrafik təsvir (cədvəl) şəklində verilməsi. |
| Akademik biliklər | Dil qaydaları | • Sözün leksik və qrammatik mənası;<br>• Qoşma;<br>• Ədat;<br>• Modal söz. |
| | Filoloji anlayışlar | • Mübaliğə, məcaz, esse |
| Kompetensiyalar | "İlk" və "ən" anlayışlarının fərqləndirilməsi. Həyatda birinci olmaq, rekord göstəricilərə nail olmaq kimi keyfiyyətlərin qiymətləndirilməsi. | |

Bu bölmədə "ilk" "ən" rekordlardan bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Əsas məqsəd şagirdlərin maraq dairəsində olan mövzulardan istifadə etməklə onların dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, mövzu ilə bağlı söz ehtiyatını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Bədii və informativ mətnləri fərqləndirir, sadə formada təhlil edir;
• Verilmiş mövzu ilə bağlı şifahi təqdimat hazırlayır.

**Mənimsəməkdə çətinlik doğuran məqamlar:**

• Köməkçi nitq hissələrinin məna növlərinin fərqləndirilməsi;
• Məcaz növlərinin fərqləndirilməsi.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:**

• İş vərəqləri, təbii fəlakətlərə aid illüstrasiyalar, mövzuya aid məlumat vərəqləri və s.

## Bölməyə giriş dərsi

• Dərslik: səh. 6 • İş dəftəri: səh. 2

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 2.1.1).
• Araşdırdığı məlumatlar və tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur (st. 1.2.1).
• İnformativ mətndəki əsas faktları seçir (st. 2.2.2).

**Köməkçi vasitələr:** mövzuya aid illüstrasiyalar.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Birincilik nədir?" mövzusunda söhbət |
| 2 | **Danışma** | Verilmiş məlumatlar və suallar üzrə danışma,müsahibənin səhnələşdirilməsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | Kiçikhəcmli mətnlərin oxusu; "söz boğçası" üzrə iş |
| 4 | **Oxuyub-qavrama** | Mətndəki əsas faktların müəyyən edilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə "birincilik" sözünü xatırladır. Aşağıdakı suallarla müraciət edir:

1. Birincilik nədir?
2. Hər hansı sahədə birincilik əldə etmiş insan tanıyırsınızmı?

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda verilmiş məlumatların hansı şəkildəki insana aid olduğunu müəyyən etməlidirlər.

**Düzgün cavab:** Yuri Qaqarin – C; Arezzo Qvido – A; Əl-Xarəzmi – Ç; Nil Amstonq – B.

Sonra isə əvvəlki dərslərdən həmin şəxslər haqqında öyrəndikləri və bildikləri əlavə məlumatları xatırlayıb danışırlar.

Tapşırığın əsas məqsədi şagirdlərə əvvəlki dərslərdən tanış olan məşhur insanların vaxtilə ilkə imza atmış şəxslər olduğunu xatırlatmaqla birincilik haqqında fikir formalaşdırmaqdır.

1.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər sinif yoldaşlarının hər birinin hansı sahədə birinci olmasını müəyyən etməli və bu haqda danışmalıdırlar.

### Müzakirə

1.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər suallar ətrafında düşünür, fikir mübadiləsi aparırlar.

***1-ci sual*** fərdi xarakter daşıyır. Hər bir şagirdin özəl istəyi ilə bağlıdır. Kimi özünün idmanda, kimi ictimai işlərdə, kimi də digər sahələrdə birinci olmaq istəyini səsləndirə bilər. Şagirdlər seçimlərini əsaslandırmalıdırlar.

Digər suallar ümumi xarakterlidir.

Növbəti sualda soruşulur ki, birinci olmaq insanda hansı hisslər yaradır. Şagirdlər o qənaətə gəlməlidirlər ki, birincilik qazanan insanda liderlik hissi, idarəçilik qabiliyyəti yaranır.

"Birincilik insan xarakterinə necə təsir göstərir?" sualını cavablandırarkən birinciliyin özgüvən və özünəinam hissi yaratdığını, birinciliyi qoruyub saxlamaq məqsədilə daim öz üzərində işləməyin vacib olduğunu vurğulamaq lazımdır.

"Birincilik qazanmaq üçün insana hansı keyfiyyətlər lazımdır?" sualının təxmini cavabı belədir: insan məsuliyyətli, çalışqan, əzmkar, məqsədyönlü olmalıdır, məqsədə doğru gedərkən heç nədən bezməməli, yorulmamalı, çətinlik qarşısında ruhdan düşməməlidir. Əzmkar insan istənilən uğuru qazana bilər.

### Oxu

1.2.1 **Tapşırıq Ç (dərslik). Qruplarla iş.** Tapşırıqda təqdim edilmiş kiçikhəcmli mətnlər dörd qrup tərəfindən səssiz oxunur.

Oxu prosesi başa çatdıqdan sonra hər qrup haqqında danışılan vunderkinddən müsahibə almaq üçün suallar tərtib edir və dialoqu səhnələşdirir.

***Nümunə:***

***I Qrup***

*– Salam, Svetlana. "Sürətli oxu" nədir? Hansı oxu sürətli hesab olunur?*

*– Salam. Üzündən çox tez oxumaq sürətli oxu deyil. Sürətli oxu cəld oxumaqla bərabər həm də oxuduğunu anlamaqdır.*

*– Necə oldu ki, səndə sürətli oxuya maraq yarandı?*

*– Bu maraq tam təsadüf nəticəsində yarandı. Bir gün atam mənə çox gözəl tərtibatı olan bir kitab aldı və dedi ki, tez oxusan, sənə hər gün kitab alaram. Mən də belə kitablarım çox olsun deyə otağıma çəkilib oxumağa başladım. Bir neçə saat ərzində qalın bir kitabı oxuyub qurtardım. Atama yaxınlaşıb kitabı bitirdiyimi dedim. Atam çox təəccübləndi. Kitabı əlinə aldı, vərəqlədi, mənə müxtəlif suallar verdi. Mən onun bütün suallarını cavablandırdım. O, çox sevindi və dedi: “Sən əsl vunderkindsən ki!” O gündən daha sürətlə oxuyum deyə öz üzərimdə işləməyə başladım...*

*– Nəticədə ona nail oldun ki, başqaları iki dəqiqəyə bir səhifə oxuduğu halda, sən iki dəqiqəyə qırx səkkiz səhifə oxudun.*

*– Bəli. Eyni zamanda iki dəqiqə ərzində oxuduqlarımdan verilən 10 sualdan doqquzunu cavablandırdım. Bu göstəriciyə görə adım Ginnesin rekordlar kitabına düşdü.*

*– Afərin, Svetlana. Sənə uğurlar!*

*– Təşəkkür edirəm.*

***II Qrup***

*– Loran, salam. Dünyanın ən gənc universitet məzunu olmaq necə bir hissdir?*

*– Salam. Orta məktəbdə də, universitetdə də yoldaşlarım yaşca məndən böyük idilər. Ona gərə də mənə münasibətləri çox yaxşı idi. Hamı mənimlə çox mehriban davranırdı. Yaşıdlarım ibtidai sinifdə oxuyanda mən universitetə daxil olmuşdum. Onlar 6-cı sinifdə olanda isə mən universiteti bitirdim. Buna çox sevinirəm.*

*– Bəs süni insan orqanı yaratmaq ideyası necə meydana gəldi?*

*– Mən leqo yığmağı xoşlayıram. Bir dəfə ürək, əl və digər insan orqanları yığdım. Bu mənim çox xoşuma gəldi. Düşündüm ki, görəsən, canlı insanı süni orqanla yaşatmaq olarmı? İdeya belə yarandı.*

*– Sən bunu yaradacağına əminsən?*

*– Əlbəttə! Mütləq!*

*– Loran, sənə uğurlar!*

*– Təşəkkürlər.*

***III Qrup***

*– Salam, Ruslan. Necəsən?*

*– Salam. Çox sağ olun.*

*– Əvvəlcə sənə təşəkkürümüzü bildiririk ki, Azərbaycanın adını ucaldırsan. Biz fəxr edirik ki, “kalkulyator oğlan” bizim həmyerlimizdir, azərbaycanlıdır. Neçə yaşından riyaziyyatla maraqlanırsan?*

*– Minnətdaram. Lap körpə yaşlarımdan riyaziyyata marağım böyükdür. İki yaşım olanda sadə tənlikləri həll edirmişəm.*

*– Bu işdə sənə kim dəstək olub?*

*– Atam və babam. Atam özü də riyaziyyatçıdır. Onlar mənimlə çox dərindən məşğul olublar, riyaziyyatı mənə sevdiriblər.*

*– Altı rəqəmli ədədlər üzərində vurma, bölmə əməllərini şifahi şəkildə necə yerinə yetirirsən?*

*– Özüm də bilmirəm. Bu artıq vərdiş halını alıb.*

*– Səni dünyanın bir çox televiziya verilişlərinə dəvət edirlər. O zaman hansı hissləri keçirirsən?*

*– Bir daha atamla və babamla qürur duyuram. Onların sayəsində mən bu uğuru qazandım.*

*– Öz əzmkarlığın, çalışqanlığın da əsas şərtdir. Çox sağ ol. Səsin hər zaman zirvələrdən gəlsin, Ruslan!*

*– Minnətdaram. Çox sağ olun.*

***IV Qrup***

*– Ritay, salam.*

*– Salam.*

*– Necə oldu ki, əsər yazdın?*

*– Həmişə fikrimdə müxtəlif hadisələr canlanır. Hər hansı bir təbiət hadisəsi olsun, insanların münasibəti olsun, fərqi yoxdur, mənə maraqlı görünəndə onlar haqqında düşünürəm. Onları öz təxəyyülümə uyğun inkişaf etdirirəm. Sonra unutmamaq üçün kağıza köçürürəm. Beləcə, gözləmədiyim bir əsər yaranır.*

*– Ən çox hansı janrda yazmağa həvəs göstərirsən?*

*– Fantastikanı çox sevirəm. Bu janrda yazmaq mənə zövq verir.*

*– Növbəti əsərin nə haqda olacaq?*

*– Bu haqda danışmaq hələ tezdir. Açıqlamaq istəmirəm.*

*– Olsun. Onda oxucu növbəti əsəri daha maraqla gözləyəcək. Ritay, oxucu kütlən varmı?*

*– Bəli var. Xüsusilə öz yaşıdlarım çoxdur. Onlardan müxtəlif məktublar alıram. Bu münasibət məni daha da ruhlandırır.*

*– Çox gözəl, Ritay. Sənə müvəffəqiyyətlər.*

*– Təşəkkür edirəm.*

### Söz ehtiyatı

2.1.1 **A (iş dəftəri).** Təqdim olunan krosvordu həll etməklə yeni sözlər üzərində iş aparılır. Krosvordun şərtində yeni sözlərin izahı verilib. Həmin izahlara uyğun gələn sözləri "söz boğçası"ndan seçmək və krosvordun uyğun xanasına yazmaq lazımdır.

**Düzgün cavab:**

| Yuxarıdan aşağıya: | Soldan-sağa: |
|---|---|
| 1. ***orqan***; | 4. ***vunderkind***; |
| 2. ***məzun***; | 5. ***süni;*** |
| 3. ***fantastik***. | 6. ***rekord***. |

2.2.2 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər dərslikdə tanış olduğu uşaqların vunderkind kimi tanınmasının səbəbini yazmalıdırlar. **Düzgün cavab:**

1. Svetlana Arxipova – sürətli oxu;
2. Loran Simmons – ən gənc universitet məzunu;
3. Ruslan Səfərov – altırəqəmli ədədlər üzrə şifahi hesablama
4. Ritay əl-Nəzmi – ən gənc yazıçı.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar üzrə danışır. | Tap. A, B, C (D.) |
| Musahibə hazırlayıb təqdim edir. | Tap. Ç (D.) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. A (İ.D.) |
| Mətndəki əsas faktları seçir. | Tap. B (İ.D.) |

## fəsil 1 ŞƏRQDƏ İLK DƏFƏ

### 1-ci dərs. Şərqdə ilk cümhuriyyət

• Dərslik: səh. 8 • İş dəftəri: səh. 3

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyən edir (st. 2.1.1).
• Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır (st. 1.2.1)
• Qeyd götürməklə dinləyir (st. 1.1.1).
• Müxtəlif mətnləri məzmun, mövzu, ideya baxımından müqayisə edir (st. 2.2.3).
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 3.1.1).
• Mənzum mətni nəsrə çevirib yazır (st. 3.1.1).
• Mətnin məzmunu ilə bağlı suallar tərtib edir (st. 2.2.2).
• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir. (st. 1.1.1).

**Köməkçi vasitələr:** izahlı lüğət, illüstrasiyalar.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şərq deyəndə nə başa düşürük |
| 2 | **Danışma** | Müstəqillik haqqında söhbət |
| 3 | **Oxu** | "Şərqdə ilk cümhuriyyət" şeirinin ifadəli oxusu |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 5 | **Oxuyub-qavrama** | "Şərqdə ilk cümhuriyyət" şeirinin məzmunu üzrə iş |
| 6 | **Yazı** | İnformativ mətnin yazılması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Şərq" sözünü izah edir. Şagirdlər Şərqin dünyanın dörd cəhətindən biri, günçıxan tərəfi olduğunu bilirlər. Lakin bu fəsildə "Şərq" sözü ümumi xüsusiyyətlərə malik həmsərhəd regionlardan ibarət makroregion mənasında iş-

lənmişdir. Yaxşı olar ki, müəllim Şərq ölkələri, Şərq mədəniyyəti, Şərq musiqisi və s. haqqında şagirdlərə qısa məlumat versin.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər müstəqilliyin nə olduğunu izah edirlər. Müstəqil dövlətin rəmzləri olan himn, gerb, bayraq, ordu haqqında danışırlar.

### Oxu

Oxu prosesi səlis və ifadəli oxuya bilən bir neçə şagird tərəfindən həyata keçirilə bilər. Müəllim onların düzgün intonasiya ilə oxumasına nəzarət edir. Oxu zamanı şeirə çəkilmiş illüstrasiyadan istifadə edilsə, şagird mövzunu əyani şəkildə daha yaxşı anlayar.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq B (dərslik).** Şagirdlər cümlələrdə fərqləndirilmiş ifadələrin kontekstə görə mənasını müəyyən etməli və yerinə "söz boğ çası"ndan uyğun gələn sözləri tapmalıdırlar

**Düzgün cavab:**

nümunə – örnək, respublika – cümhuriyyət, səbirlə – təmkinlə.

2.1.1 **Tapşırıq C (dərslik).** Kontekstdən aydındır ki, ifadənin mənası "*birinci olmaq*"dır.

Tapşırıqların məqsədi şagirdlərdə öyrəndikləri yeni sözləri kontekstə uyğun işlətmək bacarığını inkişaf etdirməkdir.

### Oxuyub-qavrama

1.2.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər Cümhuriyyətin yaranmasının 28 may tarixində Respublika Günü kimi qeyd olunduğunu söyləyir və bu haqda bildiklərini danışırlar.

1.2.1 **Tapşırıq D (dərslik).** *"Zəfər çaldı həqiqət, gerçək oldu xəyallar"* ifadəsini II Qarabağ savaşı ilə əlaqələndirmək tələb olunur.

**Qeyd:** Cümhuriyyətin yarandığı dövrlə bağlı ifadə belə izah oluna bilər: Azərbaycan xalqı Çar Rusiyasının əsarətindən xilas olmaq, azad yaşamaq istəyirdi. Nəhayət, xalqımız öz müstəqil dövlətini quraraq arzusuna çatdı.

> **Müəllimin nəzərinə!** "Zəfər çaldı həqiqət" ifadəsinin Azərbaycan Cümhuriyyətinin qurucusu Məmmədəmin Rəsulzadəyə aid olduğunu şagirdlərin diqqətinə çatdırmaq olar.

İfadəni müasir Azərbaycana aid etsək, deyə bilərik ki, uzun illər ərzində işğal altında qalan Qarabağ, nəhayət ki, azad olundu. Həqiqət qalib gəldi. İnsanların arzuları gerçək oldu.

### Dinləmə

1.1.1 **Tapşırıq E (dərslik).** Bu tapşırıqda dinləmə mətni təqdim olunur. Şagirdlər qeyd götürməklə mətni dinləyirlər.

### Dinləmə mətni

**Azərbaycan Cümhuriyyəti**

*Hər bir xalq üçün müstəqillik əvəzedilməz nemətdir. Müstəqillik xalqın nəyə qadir olduğunu nümayiş etdirir.*

*1917-ci ildə Çar Rusiyası dağıldıqdan sonra əsarətdə olan bütün türk xalqları müstəqilliyə can atdılar. Türk xalqları içərisində ilk olaraq Cümhuriyyətin banisi Məmmədəmin Rəsulzadə ilə onun silahdaşları Əlibəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli və başqaları Azərbaycan Cümhuriyyətini yaratdılar. Onlar qısa müddət ərzində bütün dövlət atributları: himni, gerbi, bayrağı, ordusu, pul vahidi olan dövlət qurdular. Azərbaycan Cümhuriyyəti bütün göstəricilərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycan Demokratik Respublikası cəmi 23 ay yaşadı.*

*Cümhuriyyətin qurucuları olan istedadlı, savadlı, vətənpərvər oğullar Azərbaycanın tarixinə parlaq səhifə yazdılar. Bu hadisə ilə bütün türk xalqları içərisində ilk azadlıq bayrağını dalğalandıran, müstəqil yaşamaq haqqını dünyaya tanıdan Azərbaycan oldu.*

*Bu gün qürurla dalğalanan üçrəngli bayrağımız və dahi Üzeyir Hacıbəylinin Əhməd Cavadın sözlərinə bəstələdiyi əzəmətli Azərbaycan himni bizə Cümhuriyyətimizdən yadigardır.*

2.2.3 **Tapşırıq Ə (dərslik).** Şagirdlər dinləmə mətnində olan məlumatlara uyğun misraları şeirdən seçib yazırlar.

**Düzgün cavab:**

1. Türk xalqları içərisində ilk olaraq Cümhuriyyətin banisi Məmmədəmin Rəsulzadə ilə onun silahdaşları Əlibəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Yusifbəyli və başqaları Azərbaycan Xalq Cümhuriyyətini yaratdılar.

***Milli dövlət qurdular***
***Vətənpərvər oğullar.***

2. Onlar qısa müddət ərzində bütün dövlət atributları: himni, gerbi, bayrağı, ordusu, pul vahidi olan dövlət qurdular.

***Bax budur cümhuriyyət:***
***Gerb, himn, bayraq və ordu.***

3. Bütün türk xalqları içərisində ilk azadlıq bayrağını dalğalandıran, müstəqil yaşamaq haqqını dünyaya tanıdan Azərbaycan oldu.

***Azadlıq istəyənə***
***Örnək oldu bu dövlət.***

Bu tapşırıq bədii və informativ mətnləri, eləcə də nəzm və nəsri məzmun cəhətdən müqayisə etmək bacarığını inkişaf etdirir.

### Yazı

3.1.1 **Tapşırıq F (dərslik).** Bu tapşırıqda şagird oxuduğu və dinlədiyi mətnlər əsasında informativ mətn yazmalıdır.

### Nümunə

**Cümhuriyyətin yaranması**

*XX əsrin əvvəllərində bir çox xalqlar kimi Azərbaycan da Çar Rusiyasının əsarətində idi. Lakin heç bir xalq bunu qəbul etmək istəmirdi. Azərbaycanda bu istək daha güclü idi. Ziyalılarımız Azərbaycan xalqının öz milli dövlətini qurması üçün durmadan çalışırdılar.*

*1917-ci ildə Çar Rusiyası dağıldı. İlk olaraq Azərbaycan öz müstəqil dövlətini qurdu. Bütün müstəqil dövlətlər kimi milli hökumətini, ordusunu yaratdı. Öz gerbi, üçrəngli bayrağı olan azad, müstəqil dövlət digər türk xalqlarına nümunə oldu. Üzeyir Hacıbəyli və Əhməd Cavadın yaratdıqları möhtəşəm Azərbaycan himni digər dövlət atributları ilə yanaşı, dövlətçiliyimizin rəmzi kimi tanındı.*

*Təəssüf ki, xalqın vətənpərvər oğlu Məmmədəmin Rəsulzadə və silahdaşlarının qurduqları Şərqin ilk cümhuriyyətinin mövcudluğu iyirmi üç ay oldu. Yenidən Azərbaycan işğal olundu və bu əsarət daha uzun çəkdi.*

*Hazırda Azərbaycan yenə müstəqildir. Bu müstəqilliyimizi qoruyub saxlamaq hər birimizin borcudur.*

3.1.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırığın tələbinə əsasən şeirdə babanın cavabını nəsrə çevirib yazmaq lazımdır. Bu tapşırıq şagirdlərin nəzmi nəsrə çevirmək bacarığını daha da inkişaf etdirməyə xidmət edir.

2.2.2 **Tapşırıq B (iş dəftəri).** Bu yaradıcı tapşırıqdır. Şagirdlər babaya Azərbaycanla bağlı təxəyyüllərinə uyğun suallar ünvanlaya bilərlər. *Məsələn:*

1. İlk cümhuriyyət qurulan zaman Azərbaycan ərazisi nə qədər idi?
2. Niyə Cümhuriyyətin ömrü qısa oldu?
3. İlk cümhuriyyətin qurulmasında başqa hansı görkəmli şəxsiyyətlərin adını çəkmək olar?

Tapşırığın əsas məqsədi şagirdlərin təxəyyülünü daha da inkişaf etdirməkdir.

1.1.1 **Tapşırıq C (iş dəftəri).** Tapşırığın şərtinə görə şagirdlər cədvəldə verilən məlumatları dinləmə mətnindəki faktlarla təsdiq etməlidirlər. Bunun üçün iş dəftərində təqdim olunmuş cədvəli tamamlamaq lazımdır.

Bu tapşırıq şagirdlərdən diqqətli olmağı, dinləmə mətnindən düzgün qeydlər götürməyi tələb edir.

**Düzgün cavab:**

| Məlumatlar | Faktlar |
|---|---|
| Azərbaycan xalqı müstəqilliyə qovuşdu. | 1918-ci ildə Azərbaycanda müstəqil dövlət quruldu. |
| Azərbaycan Cümhuriyyətinin ömrü qısa oldu. | Azərbaycan Cümhuriyyəti cəmi 23 ay mövcud oldu. |
| Bəstəkar və şairlərimiz müstəqil dövlətimizə öz töhfələrini verdilər. | Dahi bəstəkar Üzeyir Hacıbəyli və görkəmli şairimiz Əhməd Cavad himnimizin müəllifləridir. |

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A, Ç (D.) |
| Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. B, C (D.) |
| Mövzu üzrə fikir bildirir və əsaslandırır. | Tap. D (D.) |
| Qeyd götürməklə mətni dinləyir. | Tap. E (D.) |
| Bədii və informativ mətnləri məzmun cəhətdən müqayisə edir. | Tap. Ə (İ.D.) |

| | |
|---|---|
| Kiçikhəcmli informativ mətn yazır. | Tap. F (D.) |
| Nəzmi nəsrə çevirib yazır. | Tap. A (İ.D.) |
| Mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tap. B (İ.D.) |
| Mətnin məzmununa aid məlumatları faktlarla təsdiq edir. | Tap. C (D.) |

## 2-ci dərs. Şərqdə ilk opera

• Dərslik: səh. 10 • İş dəftəri: səh. 4

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır (st. 1.2.1).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı seçir (st. 2.1.1).
• Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
• Əldə etdiyi məlumatlara əsasən fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir (st. 2.2.5).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).
• Sətiraltı fikir və informasiyanı izah edir (st. 2.2.3).
• Müəllifin məqsədini müəyyən edir (st. 2.2.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Birincilik nədir?" mövzusunda söhbət |
| 2 | **Danışma** | Verilmiş məlumatlar və suallar üzrə danışma |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Şərqdə ilk opera"mətninin oxusu; yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərlə bəstəkarlıq sənəti haqqında söhbət aparır.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Bəstəkarın həyat və fəaliyyəti haqqında Musiqi fənnindən məlumat aldıqları üçün şagirdlər müəyyən fikir söyləyə biləcəklər. Şagirdləri dinlədikdən sonra müəllim təxminən belə məlumat verə bilər:

Ü.Hacıbəyli 1885-ci ilin 18 sentyabrında Ağcabədi rayonunda anadan olmuşdur. Uşaqlığı Qarabağda – Şuşada keçmişdir. Hacıbəylinin adı Azərbaycanın musiqi tarixinə qızıl hərflərlə yazılmışdır. O, 7 opera, 3 operetta müəllifidir. Azərbaycan Respublikasının himni Bəstəkarın yaradıcılığında xüsusi yer tutur.

1.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər opera və operetta haqqında da Musiqi fənnindən müəyyən biliklərə malikdirlər.

**Düzgün cavab:** Opera böyük musiqi əsəridir. Musiqi bütün opera boyu səslənir. Qəhrəmanların hiss və düşüncələri həm solo ifada, həm də xorun ifasında musiqinin müşayiəti altında ifadə olunur.

Operetta xoşbəxt sonluqlu tamaşadır. Aktyorlar səhnədə əsasən danışırlar. Lakin bu əsərlərdə musiqi ilə müşayiət edilən parçalar da (vokal və rəqs) yer alır.

1.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlərə operanı ssenaridən fərqləndirmək bacarığını nümayiş etdirməyə imkan verir.

**Düzgün cavab:** Operanı yazmaq üçün güclü musiqi duyumu olmalıdır, onu yalnız bəstəkar yaza bilər. Operanın ədəbi əsasını libretto təşkil edir. Ssenari isə kino və telefilmlərin, müxtəlif tədbirlərin ədəbi-dramatik əsası kimi yazılır.

### Oxu

Şagirdlər "Şərqdə ilk opera" mətnini növbəli şəkildə oxuyurlar. Oxu prosesi başa çatdıqdan sonra tanış olmayan sözlər mənimsədilir.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Opera sözünə verilmiş yanlış izahı müəyyən edilməlidir.

**Düzgün cavab:** Gülməli səhnələrdən ibarətdir.

1.2.1 **Tapşırıq B (iş dəftəri).** "Söz boğçası"ndan uyğun sözlər seçib şəkilçilər artırmaqla cümlələri tamamlamaq lazımdır.

**Düzgün cavab:** 1. köşkdən; 2. dirijorluğun; 3. zümzüməsi; 4. qrimdən; 5. həvalə etdi.

## Oxuyub-qavrama

2.2.5 **Tapşırıq Ç (dərslik).** Oxuyub-qavramanı daha da möhkəmləndirməyə yönəlib.

**Düzgün cavab:** doğru – 1, 4; yanlış – 2, 3.

2.2.3 **Tapşırıq D (dərslik).** Mətnin tərkib hissələrini fərqləndirmək bacarığı yoxlanılır.

**Düzgün cavab:** giriş hissə – Ç; əsas hissə – A, C, D; sonluq hissə – B.

2.2.3 **Tapşırıq E (dərslik).** Tapşırığı yerinə yetirmək üçün mətndə altından xətt çəkilmiş cümlələrə istinad olunur. Şagirdlər həmin cümlələri bir daha oxumalı, onlardan çıxan nəticəni müəyyən etməlidirlər.

**Düzgün cavab:**

| Cümlə | Nəticə |
|---|---|
| O, gündüzlər su satmaqla ailəsini dolandırır, axşamlar isə teatrda çalışırdı. | O, maddi çətinliklərə baxmayaraq, teatrı sevirdi. Eyni zamanda ailə sinin qayğısını çəkirdi. |
| Çünki teatrda bütün rolları kişilər ifa edirdilər. | Opera səhnələşdirilən dövrdə Azərbaycan qadınına səhnədə oynamağa icazə verilmirdi. |
| Lakin orkestrdə skripkaçı olmadığına görə Üzeyir bəy skripkada çalmalı oldu. | Üzeyir bəy skripkada çalmağı bacarırdı. |
| Ə.Fərəcov ilk çıxışdan sonra qadın rolunu oynamaqdan boyun qaçırdı. | O dövrdə qadın rolunu oynayan kişi aktyorlar təzyiqlərə məruz qalırdılar. |

2.2.4 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər mətni yazmaqda müəllifin məqsədini müəyyən etməli və öz fikirlərini əsaslandırmalıdırlar.

**Düzgün cavab:**

C. “Leyli və Məcnun”un ilk tamaşasında Ü.Hacıbəylinin qarşılaşdığı çətinliklər haqqında məlumat vermək.

**Əsaslandırma:**

1. Qadınlar səhnəyə buraxılmırdılar.
2. Qadın rolunu oynayan kişi ifaçıları incidirdilər.
3. Musiqi alətində ifa edənlərin sayı az idi.
4. Üzeyir bəydən başqa peşəkar dirijor yox idi və s.

Tapşırığın əsas məqsədi şagirdlərin sərbəst fikir yürütməsini daha da inkişaf etdirməkdir.

2.2.4 **Tapşırıq Ç (iş dəftəri).** Tapşırığın məqsədi oxuyub-qavramanı möhkəmləndirməkdir.

**Düzgün cavab:**

| İlklər | İlklərə imza atan şəxslər |
|---|---|
| Şərqdə ilk operanın müəllifi | Üzeyir Hacıbəyli |
| Leyli rolunun ilk ifaçısı | Əbdürrəhman Fərəcov |
| Məcnun rolunun ilk ifaçısı | Hüseynqulu Sarabski |
| İlk operanın rejissoru | Hüseyn Ərəblinski |
| “Leyli və Məcnun” operasının ilk dirijoru | Əbdürrəhim bəy Haqverdiyev |

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A, B, C (D.) |
| Sözün izahını müəyyən edir. | Tap. A (İ.D.) |
| Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. B (İ.D.) |
| Fakt və məlumatların həqiqətə uyğunluğunu müəyyən edir. | Tap. Ç (D.) |
| Yarımbaşlıqların mətnin tərkib hissələrinə uyğunluğunu müəyyən edir. | Tap. D (D.) |
| Verilən məlumatlardan yeni informasiya əldə edir. | Tap. E (D.) |
| Müəllifin məqsədini müəyyən edir. | Tap. C (İ.D.) |
| Mətndəki əsas faktları seçir. | Tap. Ç (İ.D.) |

## 3-cü dərs. Məcazlar

• Dərslik: səh. 12 • İş dəftəri: səh. 5

**Təlim məqsədləri**

• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 1.1.1).
• Qeyd götürməklə dinləyir (st. 1.1.1).
• Söz və ifadələrin həqiqi və məcazi mənalarını fərqləndirir. (st. 2.1.2).
• Mətndəki obrazlı ifadələri fərqləndirir və izah edir (st. 2.1.3).
• Sözün kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Operetta janrının xatırlanması |
| 2 | **Dinləmə** | Mətnlərin məzmun cəhətdən müqayisəsi |
| 3 | **Dinləyib-qavrama** | Əsas faktların müəyyən edilməsi |
| 4 | **Söz ehtiyatı** | Məcazlar üzərində iş |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllimin yönəldici sualları ilə şagirdlər opera və operetta haqqında bildiklərini bir daha xatırlayırlar.

### Dinləmə

1.1.1 **Tapşırıq A (dərslik).** Şagirdlər aşağıdakı dinləmə mətni ilə dərslikdəki "Şərqdə ilk opera" mətnini müqayisə etməlidirlər.

### Dinləmə mətni

**Şərqin ən məşhur operettası**

*"Arşın mal alan" Ü.Hacıbəylinin üçüncü və son operettasıdır. Bu operettanı yazarkən o, Rusiyada yaşayırdı. Dahi bəstəkar yazırdı: "Durmadan çalışmaqda məqsədim odur ki, Azərbaycan teatrı elə bir səviyyəyə çatsın ki, onu hər bir şəhərdə göstərmək mümkün olsun. Mən Bakıda olarkən öz əsərlərimin qədrini bilməmişəm. Ancaq burada anladım ki, mənim əsərlərim gələcəkdə nəsə bir iş görəcək".*

*Operetta 1913-cü ildə Z.Tağıyevin teatrında tamaşaya qoyulub. Hadisələr Şuşada baş verir. Əsas obrazları: Əsgər bəyi Hüseynqulu Sarabski, Gülçöhrəni isə Əhməd Ağdamski oynayırdı. Tamaşa çox uğurla başa çatdı. Sonradan dəfələrlə nümayiş etdirildi.*

*"Arşın mal alan" dünyanın 80 dilinə tərcümə olunub. 76 ölkənin 187 səhnəsində tamaşaya qoyulub. 1913-cü ildə qələmə alınan bu əsər bir əsrdən çox keçməsinə baxmayaraq, Şərqin ən məşhur operettası kimi tanınır.*

**Müəllimin nəzərinə!** Şagirdlərə mətnin oxusu zamanı diqqətli olmaq, lazımi qeydlər götürmək tövsiyə olunur. Onlara mətn üzərində müxtəlif tapşırıqlar yerinə yetirəcəkləri xatırladılır.

**Düzgün cavab:**

Mətnlər mövzu və ideyaya görə oxşardır. Hər iki mətndə Şərqdə ilk yaranan incəsənət növündən bəhs olunur. Mətnlərdə hər bir ilkin həyata keçirilməsinin çətinliyi diqqətə çatdırılır.

Mətnlərdən çıxan ideya budur ki, zəhmət çəkən, əziyyətə qatlaşan insan mütləq uğur əldə edir. Təsadüfi deyil ki, hər iki əsər dahi bəstəkara dünya şöhrəti qazandırıb.

### Dinləyib-qavrama

1.1.1 **Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqda dinləmə mətni ilə bağlı olan və açar sözlər buraxılmış cümlələr verilib. Şagirdlər dinləmə mətnindən götürdükləri qeydlər əsasında cümlələri tamamlamalıdırlar.

**Düzgün cavab:**

1. "Arşın mal alan" Şərqin ən məşhur operettasıdır.
2. "Arşın mal alan" operettası 1913-cü ildə tamaşaya qoyulub.
3. "Məcnun"un ifaçısı bu operettada Əsgər bəy rolunu ifa edirdi.
4. Operettadakı hadisələr Şuşada baş verir.

Tapşırıq şagirdlərin dinləmə mətni üzrə işləmə bacarığını inkişaf etdirir.

1.1.1 **Tapşırıq B (iş dəftəri).** Tapşırıqda müxtəlif məlumatlar verilib. Həmin məlumatların "Şərqdə ilk opera" (A), "Şərqin ən məşhur operettası" (B), yoxsa hər ikisinə (C) aid olduğunu müəyyən etmək lazımdır.

**Düzgün cavab:** 1 – B; 2 – A; 3 – C; 4 – C; 5 – A.

Tapşırığın məqsədi şagirdlərin bədii və informativ mətnləri məzmun cəhətdən müqayisə etmək bacarığını inkişaf etdirməkdir.

2.1.2 **Tapşırıq B (dərslik).** Şagirdlər oxuduqları mətnin son cümləsini bir daha bu tapşırığın

şərtində oxuyurlar, altından xətt çəkilmiş sözlərin mətndəki mənasını müəyyən edirlər. Sonra isə onların həqiqi, yoxsa məcazi mənada işləndiyini müəyyən edərək fikirlərini əsaslandırırlar.

**Düzgün cavab:**

***ölməz*** – xalqın xatirəsindən silinməyən, unudulmayan;

***fəth etmək*** – təsir etmək, özünə yer eləmək, dərinə işləmək;

Hər iki söz məcazi mənada işlənib, çünki ölməz əsər ifadəsini həqiqi mənada düşünmək doğru deyil. Ölmək canlıya aiddir. Ürəkləri fəth etmək də həqiqi mənada ola bilməz. Torpağı, ərazini, ölkəni və s. fəth edirlər.

### Yadda saxla

Bu rubrikada məcazlar haqqında məlumat verilir. Məcazların bədii mətnləri daha təsirli və oxunaqlı etməsi nəzərə çatdırılır.

2.1.3 **Tapşırıq C (dərslik).** Şeir parçalarının tərkibindəki əlamət bildirən məcazlar müəyyən edilməlidir.

**Düzgün cavab:** qəmli, qəzəbli, nazlı, lal, şən.

Tapşırığın məqsədi əlamət bildirən məcazi mənalı ifadələri seçməklə məcazlar haqqında daha geniş təsəvvür yaratmaq və onları şagirdlərə mənimsətməkdir.

2.1.3 **Tapşırıq Ç (dərslik).** Nöqtələrin yerinə məcazi məna ifadə edən feillər seçilib yazılmalıdır.

**Düzgün cavab:** 1. pıçıldaşır; 2. oyanır; 3. nərildəyir; 4. yandırır; 5. uçuşur; 6. dağıldı.

Tapşırığın əsas məqsədi məcazlar haqqında öyrənilənləri möhkəmləndirməkdir.

2.1.2 **Tapşırıq C (iş dəftəri).** Cümlələr məcazi mənalı sözlərlə tamamlanmalıdır. Şagirdlərin məcazlarla bağlı qazandıqları bilik və bacarıqlar bu tapşırıqla daha da inkişaf etdirilir.

**Düzgün cavab:**

1 – şıltaq; 2 – buz; 3 – körpə; 4 – ipək; 5 – iti.

**Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq şagirdlərin məcazlar haqqında öyrəndiklərinin möhkəmləndirilməsinə yönəlib.

**Düzgün cavab:** 1. qış; 2. təbiət; 3. həyat; 4. payız; 5. arzular.

2.1.1 **Tapşırıq D (iş dəftəri).** Tapşırığın əsas məqsədi məcazlar haqqında öyrəndiklərini möhkəmləndirməklə yanaşı, sözü kontekstə görə işlətmək bacarığını da inkişaf etdirməkdir.

**Düzgün cavab:**

*Göydə ağlayır bulud,*
*Yerdə yuyunur meşə.*
*Yağış cana gətirir*
*Çölü, düzü həmişə.*

*Yağışın yağmasına*
*Sevinir susuz meşə.*
*Qorxsa da, baş qaldırır*
*Boynubükük bənövşə.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi və oxuduğu mətnləri məzmun, ideya cəhətdən müqayisə edir. | Tap. A (D.), tap. B (İ.D) |
| Mətndəki açar sözləri seçir. | Tap. A (İ.D.) |
| Sözün mətndəki mənasını müəyyən edir. | Tap. B (D.) |
| Mətndəki obrazlı ifadələri fərqləndirir. | Tap. C, Ç (D.), tap. C, Ç (İ.D.) |
| Sözün kontekstə uyğun mənasını müəyyən edir. | Tap. D (İ.D.) |

## 4-cü dərs. Sözün leksik və qrammatik mənası

• Dərslik: səh. 13 • İş dəftəri: səh. 6

**Təlim məqsədləri**

• Əsas nitq hissələrinin (isim, sifət, əvəzlik, zərf) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.3).
• Cümlələrdə köməkçi nitq hissələrindən yerliyerində istifadə edir (st. 4.1.3).
• Sözün kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Kitab”, “və” sözlərinin müqayisəsi |
| 2 | **Dil qaydaları** | Sözün leksik və qrammatik mənasının izahı |

## 3 Formativ qiymətləndirmə

### Mövzuya yönəltmə

Müəllim *kitab* sözünü səsləndirir. Şagirdlərdən sözün hansı suala cavab verdiyini soruşur. Sonra isə *və* sözünə sual verməlarini istəyir.

### Dil qaydaları

4.1.3 **Tapşırıq A (dərslik).** Bu tapşırıq motivasiya xarakterlidir. Verilmiş cümlədə altından xətt çəkilmiş sözlərin hansı qrammatik izaha aid olduğunu müəyyənləşdirməklə şagirdlər yeni mövzuya keçid edirlər.

**Düzgün cavab:** A – ifaçı; B – çox çətin; C – roluna.

**"Bunları bilməliyik"** rubrikasında sözün leksik və qrammatik mənaya malik olması şagirdlərin diqqətinə çatdırılır. Vətən sözünün leksik və qrammatik mənasını izah etməklə şagirdlərdə təsəvvür yaradılır. Eyni zamanda əsas nitq hissələrinin həm leksik, həm də qrammatik, köməkçi nitq hissələrinin isə yalnız qrammatik mənaya malik olması fikri izah edilir.

4.1.3 **Tapşırıq B (dərslik).** Bu tapşırıqda verilən cümlələrin tərkibində fərqləndirilmiş sözlər var. Həmin sözlərin leksik və qrammatik mənalarını müəyyən etmək tələb olunur.

**Düzgün cavab:**

| Sözlər | Leksik məna | Qrammatik məna |
|---|---|---|
| qıpqırmızı | tünd-qırmızı, çox qırmızı | çoxaltma dərəcəli, əlamət bildirən sifət |
| güllər | dibçəkdə və ya torpaqda yetişdirilən çiçək | isimdir, adlıq haldadır, cəmdədir, ümumidir, konkretdir, quruluşca sadədir. |
| bağçaya | kiçik bağ, həyətyanı bağ | isimdir, yönlük haldadır, konkretdir, ümumidir, təkdədir, quruluşca düzəltmədir. |
| komandamız | birgə fəaliyyət göstərən, eyni maraq, ideal və s. ətrafında birləşən insanlar qrupu | isimdir, adlıq haldadır, ümumidir, konkretdir, təkdədir, quruluşca sadədir. |
| sarımtıl | açıq-sarı, sarıtəhər | sifətdir, quruluşca sadədir, əlamət bildirir, azaltma dərəcəsindədir. |
| çıxış edirdilər | burada: idman və başqa yarışlarda iştirak etmək. | mürəkkəb feildir, təsdiqdədir, III şəxsin cəmindədir. |
| həyətdə | evin qabağında ətrafı hasar və ya başqa binaların divarı ilə örtülmüş sahə | isimdir, sadədir, təkdədir, ümumidir, konkretdir, yerlik haldadır. |
| çoxlu | xeyli, bol | saydır, konkret miqdar bildirmir, düzəltmədir. |
| mən | danışan adamı bildirən, *özüm mənasında söz* mənasındadır. | şəxs əvəzliyidir, I şəxsin təkini bildirir |
| tez-tez | çox ara vermədən | zərfdir, hərəkətin tərzini bildirir. |
| sahilində | dənizin, gölün və s. su hövzəsinin quru ilə birləşdiyi yer, kənarı | isimdir, sadədir, təkdədir, ümumidir, konkretdir, yerlik haldadır. |
| dincəlirdik | istirahət etmək | düzəltmə feildir, təsdiqdədir, I şəxsin cəmində işlənib. |

**Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin əsas və köməkçi nitq hissələrini fərqləndirmək bacarığının inkişafına xidmət edir.

**Düzgün cavab:**

| Leksik və qrammatik mənası olan sözlər | Yalnız qrammatik mənası olan sözlər |
|---|---|
| səhərə, hava, düzəlməz | vay-vay, qədər, ki, |
| Aydan, Sevda, parka, getdilər | və, tərəf |
| gecikərik, sən, Arzu, gedəsən | axı, bəlkə, də, ilə |

4.1.3 **Tapşırıq A (iş dəftəri).** Dərslikdəki Ç tapşırığını möhkəmləndirməyə xidmət edir.
**Düzgün cavab:**

**Həm leksik, həm də qrammatik mənası olan sözlər:** baba, kitab, teatr, yaşıl, ölkə, bayraq.

**Yalnız qrammatik mənası olan sözlər:** məgər, və, ki, axı, bəlkə, üçün.

4.1.3 **Tapşırıq B (iş dəftəri).** Əsas nitq hissələrini köməkçi nitq hissələrindən fərqləndirmək bacarığının inkişafına yönəlib.

**Düzgün cavab:** 1. həyətdə; 2. bu gündən;

3. həmişə; 4. sən; 5. dünən.

2.1.1 **Tapşırıq C (iş dəftəri).** Cümlələr uyğun sözlərlə tamamlanmalıdır.

**Düzgün cavab:** 1. bəlkə; 2. çünki; 3. tamamilə 4. məhz.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsas nitq hissələrinin leksik və qrammatik mənalarını fərqləndirir. | Tap. A, B (D.), tap. B (İ.D.) |
| Əsas nitq hissələrini köməkçi nitq hissələrindən fərqləndirir. | Tap. C (D.), tap. A, B (İ.D.) |
| Sözün kontekstə uyğun mənasını müəyyən edir. | Tap. C (İ.D.) |

fəsil 2

# GİNNESİN REKORDLAR KİTABI

## 1-ci dərs. Rekordlara imza atan rekordlar kitabı

• Dərslik: səh. 14 • İş dəftəri: səh. 7

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Kontekstdən çıxış edərək yeni sözün mənasını müəyyən edir (st. 2.1.1).
• Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərə münasibət bildirir (st. 2.2.5).
• Mətndəki obrazlı ifadələri fərqləndirir və izah edir (st. 2.1.3).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 2.1.1).
• Lüğətdən istifadə etməklə yeni sözün mənasını müəyən edir (st. 2.1.1).
• Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir (st. 2.2.4).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).
• İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 2.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Rekord” sözünün izahı |
| 2 | **Danışma** | Təqdim olunan sualların müzakirəsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | Mətnin növbəli oxusu; yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxuyub-qavrama** | Fakt və fikirlərə münasibət bildirilməsi; hadisənin səbəb və nəticəsinin müəyyən edilməsi; yeni informasiyanın əldə edilməsi; cümlələrin abzaslara uyğunlaşdırılması; faktların müəyyən edilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Köməkçi vasitələr:** izahlı lüğət, mətnə çəkilmiş illüstrasiyalar.

**Mövzuya yönəltmə**

Müəllim sinfə müraciət edir: “Rekord” sözünü necə başa düşürsünüz? Sual ətrafında müzakirə aparılır.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Tapşırığın icrası zamanı şagirdlərin sərbəst fikir yürütməsinə şərait yaratmaqla mətnin oxusuna keçid almaq olar.

### Oxu

Oxu prosesi növbəli şəkildə həyata keçirilir. Sonra iş dəftərində yeni sözlərin mənimsədilməsi ilə bağlı tapşırıq yerinə yetirilir.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq sözün mənasını kontekstə görə müəyyən etmək bacarığının inkişaf etdirilməsinə yönəlib.

**Düzgün cavab:** 1 – sertifikat; 2 – iddia edir; 3 – təsisçisi; 4 – qeydiyyatı; 5 – namizədlərdən.

2.1.3 **Tapşırıq Ç (dərslik).** Tapşırığın məqsədi şagirdlərin məcazlar haqqında öyrəndiklərini möhkəmləndirməkdir.

**Düzgün cavab:** Sorğu kitabı işıq üzü gördü. Görmək insana aiddir. Cansız əşyanın nəsə görməsi mümkün deyil. İşıq üzü ifadəsi də məcazi mənadadır. İşığın üzü ola bilməz.

2.1.1 **Tapşırıq D (dərslik).** Tapşırığın məqsədi yeni sözləri müxtəlif üsullarla daha bariz şəkildə analiz etdirmək və mənimsətməkdir.

**Düzgün cavab:** İzahlı lüğətdən və ensiklopediyadan lazım olan məlumatları əldə edirik. Ona görə də onlar sorğu kitabı hesab olunur. Lakin hekayələr toplusundan məlumat almırıq, yalnız mütaliə üçün hekayələr oxuyuruq.

**Tapşırıq E (dərslik).** Şagirdlər "*Mötəbər mənbə*" ifadəsindəki sözlərin izahını lüğətdən öyrənib onların birlikdə ifadə etdiyi mənanı müəyyən edə bilərlər. Bu onların lüğətlə işləmək bacarığını inkişaf etdirər.

**Düzgün cavab:**

***mötəbər*** – inanılan, etibarlı, etibar edilən;

***mənbə*** – hər hansı məlumatın götürüldüyü yer.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Tapşırıq mətnin məzmununun qavranılmasına xidmət edir.

**Düzgün cavab:** B, C – doğru; A, D – yanlış.

**Tapşırıq C (dərslik).** Tapşırığın tələbi ilə şagirdlər təqdim edilən üç sualdan hansının cavabının mətndə olmadığını müəyyənləşdirirlər.

**Düzgün cavab:** C

2.2.4 **Tapşırıq Ə (dərslik).** Şagirdlər sualın cavabını mətnin məzmunundan çıxış edərək müəyyən etməlidirlər.

**Düzgün cavab:** Rekordlar tez-tez dəyişir, yenilənir. Ona görə də kitab hər il yeni rekordları dərc etdirərək nəşr olunur.

Tapşırıq şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirməyə yönəlib.

**Tapşırıq F (dərslik).** Tapşırığın əsas məqsədi şagirdlərin oxuyub-qavrama bacarığını möhkəmlətməkdir.

**Düzgün cavab:** Cümlənin məzmunundan aydın olur ki, sorğu kitabında həyatın bütün sahələrinə aid məlumatlar öz əksini tapacaq.

2.2.3 **Tapşırıq G (dərslik).** Tapşırıq verilən məlumatların mətnin tərkib hissələrinə uyğunluğunu müəyyən etmək bacarığını möhkəmləndirməyə xidmət edir.

**Düzgün cavab:** 1-ci cümlə – 4-cü abzas; 2-ci cümlə – 6-cı abzas; 3-cü cümlə – 7-ci abzas; 4-cü cümlə – 2-ci abzas.

2.2.4 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər səbəb-nəticə cədvəlini tamamlamalıdırlar.

| Səbəb | Nəticə |
|---|---|
| Sorğu kitabı olmadığından dəqiq məlumat öyrənmək olmadı. | Ov zamanı yaranan mübahisə öz həllini tapmadı. |
| Hyu Biver müşahidə etdi ki, insanlar birinciliklə bağlı tez-tez mübahisə edirlər. | Hyu Biver sorğu kitabı nəşr etdirməyi qərara aldı. |
| Birinciliyə iddia edən şəxsin rekordu təsdiqlənir. | Rekordu təsdiqlənən şəxsə sertifikat verilir. |

Tapşırıq məntiqi təfəkkürü inkişaf etdirir.

2.2.2 **Tapşırıq C (iş dəftəri).** Tapşırıqda Ginnesin rekordlar kitabının rekordlara imza atdığını təsdiq edən faktları seçib yazmaq tələb olunur.

**Düzgün cavab:**

1. "Ginnesin dünya rekordları" kitabının ilk satışı rekord həddə olub.
2. Kitab dünyanın 100-dən çox ölkəsində 37 dildə milyon nüsxələrlə çap olunur.
3. Dünya kitabxanalarından ən çox oğurlanan kitab kimi rekorda imza atıb.

Tapşırıq oxuyub-qavramanı möhkəmləndirməyə xidmət edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A (D.) |
| Kontekstə görə yeni sözlərin mənasını müəyyən edir. | Tap. A (İ.D.) |
| Mətndəki faktlara münasibət bildirərkən əldə etdiyi məlumatlara istinad edir. | Tap. B, C (D.) |
| Mətndəki obrazlı ifadələri fərqləndirir. | Tap. Ç (D.) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. D (D.) |
| Lüğətdən istifadə etməklə yeni sözü izah edir. | Tap. E (D.) |
| Yeni informasiya əldə edir. | Tap. Ə, F (D.) |
| Mətndəki abzaslara uyğun fikirləri müəyyən edir. | Tap. G (D.) |
| Mətnin məzmununa əsasən hadisənin səbəb və nəticəsini müəyyən edir. | Tap. B (İ.D.) |
| Mətndəki faktları seçir. | Tap. C (İ.D.) |

## 2-ci dərs. Rekordlar haqqında məlumatlar

• Dərslik: səh. 16 • İş dəftəri: səh. 8

**Təlim məqsədləri**

• İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 2.2.2).
• Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir (st. 2.2.4).
• Mətnin məzmunu ilə bağlı suallar tərtib edir (st. 2.2.2).
• Qeyd götürməklə dinləyir (st. 1.1.1).
• Mətni götürdüyü qeydlər əsasında nəql edir (st. 1.2.2).
• Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st. 3.1.1).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Ginnesin dünya rekordları" kitabı ətrafında söhbət aparılması |
| 2 | **Danışma** | Mətndəki faktların müəyyən edilməsi; müəllifin məqsədinin müəyyənləşdirilməsi; mətnin məzmunu ilə bağlı sualların hazırlanması |
| 3 | **Dinləmə** | Dinləmə mətnindən qeydlər götürülməsi |
| 4 | **Danışma** | Qeydlər əsasında mətnin nəql edilməsi |
| 5 | **Yazı** | Faktların yazıda əks etdirilməsi |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sinfə suallarla müraciət edir:

Siz "Ginnesin dünya rekordları" kitabına annotasiya yazmalı olsaydınız, oxucuları hansı fikirlərlə cəlb edərdiniz?

Siz hansı göstəriciyə görə adınızın bu kitaba düşməsini istərdiniz?

Şagirdlərin fikirləri dinlənilir. Hər kəs fikrini əsaslandırdıqdan sonra yeni mövzuya keçilir.

**Müəllimin nəzərinə!** Yaxşı olar ki, "Ginnesin dünya rekordları" kitabının dərsdə verilmiş annotasiyası, mündəricatı, bölmələri üzrə ümumi tanışlıq məqsədilə kiçik bir iş aparılsın.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq A (dərslik).** Məqsəd diqqətin mətndəki əsas faktlara yönəldilməsidir

**Düzgün cavab:**

2. Forest ən hündürboylu zürafədir.

3. Andre eyni zamanda ən çox əşya atıb-tutan jonqlyordur.

4. Qədir Hüseynov şahmat üzrə ən gənc Avropa çempionu olmuşdur.

5. Bambuk ən böyük sürətlə boy atan ağacdır.

6. Rayan Toysun videoları dünyada ən çox baxış sayı toplayıb.

**Tapşırıq A (iş dəftəri).** Mətndəki faktları müəyyən etmək bacarığının inkişafına yönəlib.

| Rekord sahibi | Bölmə | Fəsil |
|---|---|---|
| Qədir Hüseynov | idman | şahmat |
| Kriştiano Ronaldo | idman | futbol |
| Andre | insanlar | bacarıqlı gənclər |
| Rayan Toys | insanlar | bacarıqlı gənclər |
| Zürafə Forest | heyvanlar | ev heyvanları |
| Bambuk | təbiət | bitki və göbələklər |

2.2.4 **Tapşırıq B (dərslik).** Şagirdlər şəxsi fikrini söyləməli və əsaslandırmalıdırlar. Sonra ümumi müzakirə keçirilə bilər.

2.2.2 **Tapşırıq C (dərslik).** Tapşırıq iki mərhələdən ibarətdir. Əvvəlcə şagirdlər verilən mündəricatın bölmələrində hansı rekordlar haqqında məlumat olduğunu söyləyirlər. Sonra isə nümunə əsasında suallar tərtib edirlər.

Tapşırıq oxuyub-qavramanı inkişaf etdirir.

### Dinləmə.

1.1.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıq iki mərhələdə icra olunur. Əvvəlcə şagirdlər mətni cədvələ uyğun qeyd götürməklə dinləyirlər.

### Dinləmə mətni

**Azərbaycan "Ginnesin dünya rekordları" kitabında**

*"Ginnesin dünya rekordları" kitabında müxtəlif ölkələrin yüzlərlə nümayəndələri haqqında maraqlı və qeyri-adi məlumatlar var.*

*Bu ölkələr arasında Azərbaycan da var. 2004-cü ildə ölkəmizdə püskürən palçıq vulkanı kitaba dünyanın ən böyük vulkanı kimi düşüb.*

*Əslən azərbaycanlı olan Fəxrəddin Vəliyev Belçikada yaşayır. O, 5 dəqiqə ərzində 20 nəfərin siluetini çəkir. Bu nailiyyətinə görə F.Vəliyev, adı məşhur kitaba düşmüş ilk azərbaycanlıdır.*

*Lənkəranlı Ələsgər Həsənzadənin adı "Ginnesin dünya rekordları" kitabına düşəndə 7 yaşı vardı. Bu balaca oğlan sinəsini yerə vurmadan 1 saat 45 dəqiqə ərzində barmaqlarının ucu ilə 3000 dəfə qalxıb-enir.*

*Zərifə Salahovanın miniatür kitab kolleksiyası var. Kitabların sayı 8 mini ötüb. Onların içərisində elə kitablar var ki, qalınlığı 7-8 santimetrdən çox deyil. İçərişəhərdə yerləşən bu kitabxanaya görə Zərifə xanımın adı "Ginnesin dünya rekordları" kitabına düşüb.*

*Lerik rayon sakini olmuş Şirəli Müslümovun adının məşhur kitaba düşməsinin səbəbi onun ən uzunömürlü insan olmasıdır. Şirəli Müslümov 168 il yaşayıb.*

*Yəqin ki, bundan sonra da bir çox azərbaycanlıların adı başqa rekordlara görə bu məşhur kitabda yer alacaq.*

**Müəllimin nəzərinə!** Şagirdlərə dinləmə mətni üzərində həm dərslikdə, həm də iş dəftərində tapşırıqlar yerinə yetiriləcəyini xatırlatmaq lazımdır. Onlara qeyd götürərkən diqqətli olmaq tövsiyə edilməlidir.

### Danışma

1.2.2 **Tapşırıq Ç (dərslik).** İkinci mərhələdə şagirdlər götürdükləri qeydlər əsasında mətni nəql etməlidirlər.

### Yazı

3.1.1 **Tapşırıq B (iş dəftəri).** Məqsəd şagirdlərin diqqətini dinləmə prosesinə cəlb etməklə onların dinlədiyi məlumatları yazıda əks etdirmək bacarığını inkişaf etdirməkdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| İnformativ mətndəki əsas faktları müəyyən edir. | Tap. A (D.), tap. A (İ.D.) |
| Müəllifin məqsədini müəyyən edir. | Tap. B (D.) |
| Mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tap. C (D.) |

| | |
|---|---|
| Mətni qeydlər əsasında nəql edir. | Tap. Ç (D.) |
| İnformativ mətnin mövzusu ilə bağlı faktları yazıda əks etdirir. | Tap. B (İ.D.) |

## 3-cü dərs. Esse nədir?

• Dərslik: səh. 18 • İş dəftəri: səh. 9

**Təlim məqsədləri**

• Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir (st. 2.2.4).
• Mövzu üzrə münasibətini bildirmək üçün esse yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Yazının əhəmiyyəti haqqında söhbət |
| 2 | **Oxuyub-qavrama** | Müəllifin məqsədinin müəyyən edilməsi |
| 3 | **Yazı** | Essenin yazılması |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim soruşur:

– Sizcə, bir hadisəyə münasibət bildirmək üçün hansı daha planlı və əlverişli olar: şifahi yolla öz fikrini bildirmək, yoxsa düşünərək yazılı şəkildə münasibət ifadə etmək?

### Oxuyub-qavrama

2.2.4. **Tapşırıq A (dərslik).** “Öz rekorduna imza at” mətni (essesi) ifadəli oxumağı bacaran bir şagird tərəfindən oxunur. Sonra mətnə aid suallar cavablandırılır. Cavablar təxminən belə ola bilər:

• Mətnin mövzusu belədir: həyatın müxtəlif sahələrində “ilk” və ya “ən” olmaq.

• Mətndə müəllifin qabartdığı əsas məsələ hədəfə çatmaq üçün qarşıya məqsəd qoyub nəyisə sübut etməkdir.

• Müəllifin fikrincə, özünəinam, özgüvən hissi olan, iradəli və çalışqan hər kəs rekordçu ola bilər.

• Müəllif oxucunu inandırmaq üçün iradə nümayiş etdirərək kompüterdə sürətli yazı bacarığına necə yiyələndiyini nümunə gətirir.

Tapşırığın əsas məqsədi şagirdlərə nümunə təqdim etməklə esse yazmaq bacarığı aşılamaqdır. Bu nümunə onlarda esse barədə təsəvvür yarada bilər.

“Faydalı məsləhət”də verilmiş məlumatlar şərh olunur.

**Müəllimin nəzərinə!** Hər hansı mövzu haqqında sönbət açmaq, şagirdlərin fikir və mülahizələrini dinləmək, onların bu məsələyə münasibət bildirmələrini, eləcə də mühakimə irəli sürmələrini tapşırmaq olar. Bu, növbəti mərhələdə esse yazılmasına yardım etmiş olar.

### Yazı

3.1.2 **Tapşırıq B (dərslik).** Şagirdlər məlumatlardan yararlanaraq esse yazmalıdırlar.

***Nümunə:***

**Tarixdə rekordlar və kəşflər**

*Lap qədim zamanlardan bu günə kimi dünyada müxtəlif kəşflər, ixtiralar edilib. Bir çox sahələrdə birinci olmaq istəyən insanlar əzmkarlıq göstərərək ən yüksək pilləyə qalxmış, rekordçu kimi məşhurlaşmışlar.*

*Bəs kəşflər və rekordlar olmasaydı, dünya inkişaf edərdimi? Əlbəttə ki, xeyr. İnsanlar rekord və kəşflərə can atmasaydı, dünyada heç bir yenilik olmazdı.*

*Bir anlıq təsəvvürümüzə odun olmadığı dövrü gətirsək, hər şey aydın olar. Kəşflər sayəsində insanların yaşaması üçün müxtəlif ərazilər tapılıb, həyat tərzi dəyişib, əl əməyi yüngülləşib.*

*Birincilik arzusu ilə yaşayan insanlar öz məqsədlərinə çatmaq üçün yeni-yeni rekordlara can atırlar. Ona görə də bir çox rekordlar yenilənir, rəqabət artır. İnsanlar rekord qazanmaq haqda düşünməsəydilər, heç bir inkişafdan söhbət gedə bilməzdi.*

*Radio, televizor ixtira edilənə qədər insanlar dünyadan xəbərsiz qalırdılar. Bu gün mobil telefon, kompüter, hər növ maşınlar olmasaydı, həyat çox maraqsız, rəngsiz və bezdirici olardı.*

*Ona görə də nə qədər ki Yer üzündə insanlar var, zaman-zaman kəşf də, ixtira da, yenilənən rekordlar da bir-birini əvəzləyəcək.*

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıqda mövzu, mövzuyla bağlı əsas məsələ və həmin məsələyə 2 cür yanaşma verilib. Şagirdlər düzgün

hesab etdikləri fikri əsaslandıraraq esse yazırlar. Məqsəd qazanılmış bilik və bacarıqları möhkəmləndirmək mümkündür.

***Nümunə:***

***1-ci fikir. Belə bir kitaba ehtiyac yoxdur. Rekordlar haqqında məlumatlar internetdə yerləşdirilsə, daha yaxşı olar.***

*Kompüter ixtira edilənəcən "Ginnesin dünya rekordları" hamının maraqla oxuduğu kitab idi. Hər il burada son rekord göstəricilərə aid məlumatlar dərc edilirdi. Növbəti ildə kitab çıxana qədər yenilənən rekordlar barədə geniş təsəvvür olmurdu. Ona görə də milyon nüsxələrlə çap olunsa da, yenə kitaba tələbat böyük idi.*

*Lakin indi, məncə, kitaba ehtiyac yoxdur. Bir yenilik olan kimi internet bütün dünyaya məlumat ötürür. Artıq kitabın köhnəlmiş məlumat dərc etməsi heç kimə lazım deyil. Kitabın çapına sərf edilən kağız, kağız istehsal etmək üçün kəsilən ağaclar, məhv edilən yaşıllığın yaratdığı oksigen çatışmazlığı – bütün bunlar hamısı həm vaxt itkisidir, həm də sağlamlığımıza ziyandır.*

*Düşünürəm ki, kağıza və vaxta qənaət etmək, internetdən yararlanmaq daha doğru olar.*

***2-ci fikir. Rekordlar haqqında məlumatı kitabdan oxumaq daha maraqlıdır.***

*Biz müasir dövrdə yaşayırıq. Baş verən yeniliklərdən dünyanın hər yerində insanlar eyni vaxtda xəbər tuta bilirlər. Bəzən deyirlər ki, internet olan yerdə kitaba maraq yoxdur. Amma mən belə düşünmürəm. Mən kitab oxumağı çox sevirəm. Kitab rəfimdə "Ginnesin dünya rekordları" kitabının xeyli nüsxəsi var.*

*Mən kitab oxuyanda zövq alıram. Kitabda olan məlumatlar mənim əlimdədir. İstədiyim vaxt rəfdən götürüb oxuya bilirəm. Amma internetdə bəzən yanlış məlumat da gedə bilir. Zaman keçdikcə bir çox məlumatlar silinə də bilir.*

*Güman edirəm ki, mütaliəni sevən hər kəs mənim kimi düşünür. İnternetdən quru, sıxıcı məlumat almaqdansa, nəfis tərtibatlı, rəngli, gözoxşayan illüstrasiyaları olan, gözəl dizayn verilmiş kitabı vərəqləyərək oxumaq daha xoşdur. Bir sözlə, kitabın yerini heç nə verməz.*

Müəllim yazıları oxutdura və kollektiv şəkildə müzakirə etdirə bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırır. | Tap. A (D.) |
| Fikrini əsaslandırmaq üçün esse yazır. | Tap. B (D.), tap. A, (İ.D.) |

## 4-cü dərs. Qoşma

• Dərslik: səh. 19 • İş dəftəri: səh. 10

**Təlim məqsədləri**

• Köməkçi nitq hissələrinin ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.3).
• Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir (st. 4.1.4).
• Köməkçi nitq hissələrinin düzgün yazılış qaydalarına əməl edir (st. 4.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Qoşma haqqında ümumi təsəvvür |
| 2 | **Dil qaydaları** | Qoşmanın ümumi qrammatik xüsusiyyətinin müəyyən edilməsi; qoşmaların yazılışı |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhəyə *məktəbə* sözünü yazır. Qarşısından isə *tərəf, yaqin, axı, amma* sözlərini yazır və şagirdlərə sual verir:

Lövhədəki hansı köməkçi nitq hissəsini məktəbə sözünə qoşmaq olur?

4.1.4 **Tapşırıq A (dərslik).** Tapşırıq motivasiya xarakterlidir. Şagirdlər "*kimi*" qoşmasının 1-ci cümlədə bənzətmə, 2-ci cümlədə zaman bildirdiyini kontekstə görə müəyyən edirlər.

"Bunları bilməliyik" rubrikasında qoşma haqqında məlumat verilir. Onun sözlərə qoşularaq ifadə etdiyi məna çalarları izah edilir.

4.1.4 **Tapşırıq B (dərslik).** Məqsəd qoşmaları cümlədə düzgün işlətmək bacarığını formalaşdırmaqdır.

**Düzgün cavab:** 1. qədər; 2. sonra; 3. savayı; 4. ilə.

4.1.4 **Tapşırıq C (dərslik).** Tapşırığın məqsədi qazanılmış bilikləri möhkəmləndirməkdir.

**Düzgün cavab:**

***1-ci sütun:***

1. şəhərə qədər – məsafə; 2. dosta görə – səbəb; ondan əvvəl – zaman.

***2-ci sütun:***

1. bizə doğru – istiqamət; 2. sizdən başqa – fərqləndirmə; 3. ailə üçün – məqsəd.

"Diqqət edin" rubrikasında qoşmaların yazılışı izah edilir.

4.1.4 **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq qoşmaların orfoqrafiyasına aiddir.

**Düzgün cavab:** *-can, -la* qoşmaları sözlərə bitişik, *sarı, kimi, sonra* ayrı yazılır.

4.1.4 **Tapşırıq A (iş dəftəri).** Natamam cümlələrdə nöqtələrin yerinə uyğun qoşmalar yazılmalıdır.

**Düzgün cavab:** 1. sonra; 2. üçün; 3. ötrü; 4. qədər; 5. başqa; 6. tək.

4.1.4 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq qoşmaları sözlərlə uyğunlaşdırmaqla yanaşı, onları cümlədə işlətmək bacarığını da inkişaf etdirir.

**Düzgün cavab:**

1. Evə doğru. Avtomobil evə doğru hərəkət etməyə başladı.
2. Dərsdən əvvəl. Uşaqlar dərsdən əvvəl məktəbin həyətində toplaşdılar.
3. İpək kimi. Məstanın tükləri ipək kimi yumşaq idi.
4. Vətən üçün. Mərd oğullar vətən üçün canlarından keçməyə hazır idilər.
5. Körpəyə görə. Həkim körpəyə görə otağın havasını dəyişməyi məsləhət gördü.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Köməkçi nitq hissələrinin ümumi qrammatik xüsusiyyətlərini müəyyən edir. | Tap. A, C (D.) |
| Cümlənin ifadə etdiyi fikrə uyğun gələn qoşmanı müəyyən edir. | Tap. B (D.), tap. A, B (İ.D.) |
| Qoşmaların düzgün yazılış qaydalarına əməl edir. | Tap. Ç (D.) |

## 1-ci dərs. Xristofor Kolumb

• Dərslik: səh. 21 • İş dəftəri: səh. 11

### Təlim məqsədləri

• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 1.2.2).
• Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərə münasibət bildirir (st. 2.2.5).
• Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir (st. 2.2.4).
• Lüğətdən istifadə etməklə sözün mənasını müəyyən edir (st. 2.1.1).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 2.1.1).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 2.2.4).
• Mətndəki obrazları xarakterizə edir (st. 2.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Qitələr haqqında söhbət |
| 2 | **Danışma** | Xəritədən istifadə etməklə mövzu üzrə danışma |
| 3 | **Oxuyub-qavrama** | Fakt və fikirlərə münasibət bildirmə; hadisənin səbəb və nəticəsinin müəyyən edilməsi; yeni informasiyanın əldə edilməsi; obrazın xarakterizə edilməsi |
| 4 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Köməkçi vasitələr:** mətnə çəkilmiş illüstrasiyalar, xəritə.

### Mövzuya yönəltmə

Müəllim sinfə müraciət edir: Qitə nədir? Hansı qitələri tanıyırsınız?

### Oxu

1.2.2 **Tapşırıq A (dərslik).** Sualların cavablandırılması oxu prosesi zamanı mətnin məzmununun qavranılmasına yardım edəcək. Aydın

olacaq ki, X.Kolumb gəmi səyahətinə Avropadan başlayıb, Atlantik okeanı ilə üzərək Amerikaya çatıb. Səyahət Amerikanın kəşfi ilə yekunlaşıb.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Şagirdlər mətnlə bağlı yanlış fikri müəyyən edirlər.

**Düzgün cavab:** B

2.2.4 **Tapşırıq C (dərslik).** Tapşırığın məqsədi oxuyub-qavramanı möhkəmlətməkdir.

**Düzgün cavab:**

1. Hindistan avropalıları cəlb edirdi, çünki bu ölkə qızıl, ədviyyat, bəzək əşyaları ilə zəngin idi.
2. Avropalılar Hindistana gedən dəniz yolunu tapmaq istəyirdilər, çünki quru yolu çox çətin və təhlükəli idi.
3. Kolumb Hindistana çatmaq üçün qərbə doğru yola düşdü, çünki o bilirdi ki, Hindistan Avropadan şərqdə yerləşir. Yer kürə şəklində olduğu üçün o, qərbdən yola çıxsa, Yer kürəsini fırlanıb istənilən şərq ölkəsinə gedə biləcək.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər lüğətdən istifadə etməklə mənaca yaxın olan *ekspedisiya* və *səyahət* sözləri arasındakı məna fərqini izah edirlər.

**Düzgün cavab:**

***ekspedisiya*** – hər hansı məqsəd üçün və ya elmi araşdırma məqsədilə edilən səfər;

***səyahət*** – dünyanı və ya hansısa ölkələri gəzmək üçün edilən səfər.

**Tapşırıq D (dərslik).** Bu tapşırıqda "vəsait" sözünə aid olan izahın mətndəki mənasını müəyyənləşdirmək tələb olunur.

**Düzgün cavab:** A

**Tapşırıq E (dərslik).** Bu tapşırıq da yeni sözün mənimsədilməsinə xidmət edir.

*"Xüsusi dad, xoş iy, bəzən də rəng vermək üçün xörəyə, şirniyyata qatılır"* izahına uyğun gələn sözü "söz boğçası"ndan tapmaq lazımdır.

**Düzgün cavab:** ədviyyat.

2.2.4 **Tapşırıq Ə (dərslik).** Şagirdlərin oxuyub-qavrama, analizetmə bacarığını daha da inkişaf etdirilməsinə yönəlib.

Şagirdlər suala müxtəlif cavablar verə bilərlər: Torpağa sahib çıxdığını elan edir. Bu torpağı ilk dəfə mən tapdım. Bu torpaq bizimdir və s.

**Tapşırıq F (dərslik).** Tapşırıq şagirdlərin təfəkkürünü yoxlamağa xidmət edir.

**Müəllimin nəzərinə!** Şagirdlərə aşağı siniflərdə keçdikləri xalq və ölkə adlarının uyğunluğunu xatırlatmaq olar. *Məsələn:* Çin – çinli, Koreya – koreyalı və s. Göründüyü kimi, Amerika ilə hindu sözləri arasında heç bir uyğunluq yoxdur.

Mətni diqqətlə oxuyan şagirdlər sualın cavabını müəyyən edəcəklər. Belə ki, Xristofor Kolumb Amerikaya gələndə oranın Hindistan olduğunu zənn edirdi. Ona görə də yerli əhalini "hindli", "hindu" çağırdılar. O vaxtdan da əhalinin adı hindu kimi tanındı.

**Tapşırıq A (iş dəftəri).** Bu tapşırıqda "Hindistana gedən quru yolun təhlükəli olmasına baxmayaraq, ora bu yolla sərvət dalınca gedənlərin sayı çox idi" cümləsindən çıxan nəticələri müəyyən etmək tələb olunur.

Şagirdlərə bu tipli tapşırıqlar aşağı siniflərdən təqdim olunub. Artıq onlar belə tapşırıqları işləmək bacarığına malikdirlər. Cümlədən müxtəlif nəticələr çıxarmaq mümkündür.

**Düzgün cavab:**

- Hindistanın zəngin sərvəti var idi.
- Avropalılır Hindistana quru yolla gedirdilər.
- Hindistana gedən quru yol təhlükəli idi.
- Avropalılar Hindistana sərvət dalınca gedirdilər.
- Hindistana quru yoldan başqa yol da var.
- Varlanmaq istəyən adamların sayı çox idi.
- Təhlükədən qorxmayan insanlar çox idi.

2.2.3 **Tapşırıq B (iş dəftəri).** Cədvəldə Koluma aid xüsusiyyətlər verilib. Cədvəli tamamlamaqla şagirdlər Kolumb obrazını tam təhlil etmiş olurlar. Bu da onların obrazı hərtərəfli xarakterizə etmək bacarığını möhkəmləndirir.

| Kolumb | Əsaslandırma |
|---|---|
| Ətrafındakıları öz fikrinə inandıra bilirdi. | Kolumb səyahət planı hazırladı, kraliçaya təqdim etdi. Kraliça planı bəyəndi və ekspedisiya üçün vəsait ayırdı. |
| Ağıl və düşüncəsinə arxayın idi. | Hindistanın Avropadan şərqdə yerləşdiyi Ko-lumba məlum idi. Yerin kürə şəklində olduğunu bildiyi üçün əmin idi ki, okeanla qərbə tərəf üz- məklə Hindistana gedib çatmaq olar. |

| | |
|---|---|
| Müşahidə qabiliyyəti güclü idi. | Qeydlərində yerli əhalini olduğu kimi təsvir edirdi. Onların avropalılardan çəkindiklərini, qılınc tanımadıqlarını, dəmir görmədiklərini ilk andaca anlamışdı. |
| Çətin vəziyyətdə özünü itirmirdi. | Okeanla xeyli üzən səyahətçilər artıq bezmişdilər. Ərzaq tükənmişdi. Lakin Kolumb ruhdan düşmədi. Onları sakitləşdirməyi bacardı. |
| Tarixdə iz qoymağı bacardı. | Ona qədər Amerikaya çox səyyahlar gedib çıxsalar da, Amerikanın kəşfi məhz Kolumbun adı ilə bağlıdır. |

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Xəritə əsasında mövzu üzrə danışır. | Tap. A (D.) |
| Mətndəki faktlara münasibət bildirərkən əldə etdiyi məlumatlara istinad edir. | Tap. B (D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir. | Tap. C (D.) |
| Lüğətdən istifadə etməklə yeni sözün mənasını dəqiqləşdirir. | Tap. Ç (D.) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. D, E (D.) |
| Faktlardan istifadə etməklə mətndə birbaşa əks olunmayan məlumatı əldə edir. | Tap. Ə, F, (D.), tap. A (İ.D.) |
| Əsərin baş qəhrəmanı haqqında fikirlərini əsaslandırır. | Tap. B (İ.D.) |

## 2-ci dərs. Nəyə görə “Amerika”?

• Dərslik: səh. 22 • İş dəftəri: səh. 12

### Təlim məqsədləri

• Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 2.1.1).
• Əldə etdiyi məlumatlara əsasən fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir (st. 2.2.5).
• Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir (st. 2.2.4).
• Mövzu üzrə münasibətini bildirmək üçün esse yazır (st. 3.1.2). (st. 3.1.2).
• Mətnin bitkin hissələrini yarımbaşlıqlarla adlandırır (st. 2.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ölkə adlarının yaranmasının xatırladılması |
| 2 | **Danışma** | Mətnin başlığına əsasən məzmunun təxmin edilməsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | Mətnin növbəli oxusu; yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxuyub-qavrama** | Mətn üzərində iş; mətnə plan yazılması |
| 5 | **Yazı** | Kiçikhəcmli mətnin yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər mətnin başlığına nəzər salırlar. Mətnin niyə belə adlanması ilə bağlı hərə öz fikrini deyir. Bu mətndə nədən danışılacağı ilə bağlı öz təxminlərini söyləyirlər.

### Oxu

Mətn bütün şagirdlərin iştirakı ilə növbəli şəkildə oxunur.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq B (dərslik).** *Təxəyyül, fakt* sözləri *fərziyyə* sözü ilə fərqli mənaya malikdir.

**Düzgün cavab:** mülahizə.

**Tapşırıq C (dərslik).** Mətndə işlənmiş yeni

sözlərlə izahları uyğunlaşdırmaq tələb olunur.

**Düzgün cavab:** 1 – b; 2 – c; 3 – a.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq yeni sözlərin mənimsədilməsinə xidmət edir.

**Düzgün cavab:** soy-kök sözü 1-ci sıraya, təkid sözü 2-ci sıraya əlavə olunur.

**Oxuyub-qavrama**

2.2.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər mətnə istinadən tapşırıqda verilən fikirləri sübut edən faktlar söyləməlidirlər.

**Düzgün cavab:**

***1-ci fikir.*** Çox qədimdə ilk olaraq Sibir türkləri Amerikaya ayaq basıblar.

**Əsaslandırma:** Alimlər sübut ediblər ki, Amerikada yaşayan bir çox hindu tayfaları Sibirdəki türk tayfaları ilə eyni soy-kökə mənsubdurlar. Həmin hindu tayfalarının dilində bəzi türk sözləri işlədilir

***2-ci fikir.*** Amerikaya ilk ayaq basan avropalılar vikinqlər olublar.

**Əsaslandırma:** Avropada yaşayan vikinqlər Amerikaya Kolumbdan 500 il əvvəl ayaq basıblar. Amerikada vikinqlərin yaşayış məskənləri tapılıb. .

**Tapşırıq D (dərslik).** Çinlilərin Amerikanı kəşf etməsi fakt yox, fərziyyədir.

**Düzgün cavab:** B

**Oxuyub-qavrama**

2.2.4 **Tapşırıq E (dərslik).** Mətni "Nəyə görə Amerika?" adlandırmaqla müəllif onu vurğulamaq istəyir ki, Amerikanın kəşfi Kolumbun adı ilə bağlıdır. Bəs niyə bu qitə Ameriqo Vespuççinin şərəfinə adlandırılıb? Məqsəd oxucuda maraq yaratmaqdır.

**Yazı**

3.1.2 **Tapşırıq Ə (dərslik).** Tapşırıq debat xarakterlidir. Şagirdlər seçim edirlər, hansı hökmlə razıdırlarsa, öz fikirlərini yazılı şəkildə əsaslandırırlar. *Məsələn:*

1. Amerikanın Ameriqo Vespuççinin şərəfinə adlandırılması ədalətlidir. Çünki Amerikaya ayaq basanlardan heç kim oranın yeni bir torpaq olduğunu bilməmişdi. Kolumb isə həmin torpağı Hindistan bilmişdi. Yalnız Vespuççi oranı həmin vaxta qədər kəşf olunmamış yeni torpaq elan etdi. Ona görə də Amerika elə onun şərəfinə adlandırılmalıdır.

2. Amerikanın Ameriqo Vespuççinin şərəfinə adlandırılması ədalətli deyil. Çünki Ameriqo ora ilk ayaq basan səyyah deyil. Ona qədər Amerikaya gedən səyyahlar olub. Vikinqlər bir müddət orada məskunlaşıblar. Kolumb kraliçanın ayırdığı vəsait hesabına ondan əvvəl həmin ərazidə olub. Ərazini Hindistan zənn etsə belə, torpağı kəşf edən Kolumbdur. Ona görə də Amerika Kolumbun şərəfinə adlandırılsaydı, daha ədalətli olardı.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər sualı öz fikir və mühakimələrini ifadə etməklə cavablandırmalıdırlar. Onlar artıq "*pioner*" sözünün mənasını müəyyənləşdiriblər (Dərslik. Tapşırıq D).

**Düzgün cavab:** ***pioner*** – ilk olaraq yeni bir ölkəyə gəlmiş və orada məskunlaşmış şəxsə deyilir. Kolumba qədər orada yaşayan insanlar haqqında məlumatlar var. Məsələn, çox əvvəllər həmin ərazidə Sibir türklərinin yaşaması sübut olunub. Vikinqlər bir müddət orada məskunlaşıblar. Ona görə də Kolumbu "*pioner*" adlandırmaq düzgün deyil.

2.2.5 **Tapşırıq C (iş dəftəri).** Məlumatların həqiqət, ya fərziyyə olduğu müəyyən edilməlidir.

**Düzgün cavab:** 1,2 – həqiqət; 3,4 – fərziyyə.

2.2.2 **Tapşırıq Ç (iş dəftəri).** Mətndəki hadisələrin ardıcıllığına uyğun tərkib hissələrini gözləməklə plan tərtib etmək tələb olunur.

***Nümunə***:

**Giriş hissə:** "Amerika açmaq" ifadəsi.

**Əsas hissə:**

1. torpağın ilk sakinləri – Sibir türkləri;
2. vikinqlərin Amerikaya səyahəti;
3. Amerikanı kəşf edənlər haqqında fərziyyələr;
4. Kolumbun Amerikanı avropalılara tanıtması.

**Sonluq hissə:** Amerikanın adlandırılması.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yaxınmənalı sözləri müəyyən edir. | Tap. B (D.) |

| | |
|---|---|
| Kontekstdən çıxış edərək izaha uyğun sözləri müəyyən edir. | Tap. C (D.), tap. A (İ.D.) |
| Əldə etdiyi məlumatlara əsasən fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir . | Tap. Ç, D (D.), tap.C (İ.D.) |
| Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir. | Tap.E, tap |
| Mətndəki faktlara münasibət bildirərkən əldə etdiyi məlumatlara istinad edir. | Tap. Ə (D.), B (İ.D.) |
| Mövzu üzrə münasibətini bildirmək üçün esse yazır. | Tap. F (D.), tap. B (İ.D.) |
| Mətnin məzmununa uyğun plan tərtib edir. | Tap. Ç (İ.D.) |

## 3-cü dərs. Mübaliğə nədir?

• Dərslik: səh. 24 • İş dəftəri: səh. 13

**Təlim məqsədləri**
• Mətndəki obrazlı ifadələri fərqləndirir və izah edir (st. 2.1.3).
• Kontekstə uyğun obrazlı ifadələr seçir (st. 2.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müqayisə aparmaqla mübaliğə haqqında ümumi təsəvvür yaratma |
| 2 | **Söz ehtiyatı** | Mübaliğənin fərqləndirilməsi və izahı; mətnin mübaliğələrlə zənginləşdirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** A tapşırığı üzrə iş aparılır.

### Söz ehtiyatı

2.1.3 "Faydalı məsləhət" rubrikasında mübaliğə haqqında məlumat verilir. Varlıq və ya hadisənin daha qabarıq ifadə olunması üçün istifadə olunan məcaz növü olduğu diqqətə çatdırılır.

**Tapşırıq B (dərslik).** Verilmiş cümlələrdə mübaliğəni müəyyən etmək tələb olunur.

**Düzgün cavab:** *min rəngə çalırdı, dağ-daş lərzəyə gəldi, hər tərəfə od ələyən, yer-göy titrədi* məcazları cümlələrdə ifadə olunan fikri daha təsirli edərək mübaliğə yaradıb.

**Tapşırıq C (dərslik).** "Kitabi-Dədə Qorqud"dan verilən parçada mübaliğələri müəyyən etmək lazımdır.

**Düzgün cavab:** daş qoyub atanda iki-üç düşməni atdan salırdı; üç yüz düşməni bir dəfəyə yerə yıxırdı; qoyunları sapanda qoyub atırdı; iki qardaşı ilə altı yüz düşmənin qarşısını kəsirdi; çoban ağacı kökündən çıxarır, ağac belində yola düzəlir ifadələri mübaliğədir. Bu mübaliğələrdən Qaraca çobanın qeyri-adi gücə malik olduğunu bildirmək üçün istifadə olunur.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər natamam cümlələrlə verilmiş ifadələri uyğunlaşdıraraq mübaliğə yaratmalıdırlar.

**Düzgün cavab:** 1 – c; 2 – ç; 3 – a; 4 – b.

**Tapşırıq A (iş dəftəri).** Məcazlar işlənmiş cümlələrin müəyyənləşdirilməsi tələb olunur.

**Düzgün cavab:**

• Şaxta az qala insanın sümüklərini dondururdu.

• Gecədən yağan qar çölü, çəməni qalın yorğan kimi örtmüşdü.

• Təkcə çayın üzü ulduz kimi bərq vururdu.

• Ağacların budaqlarından salxım kimi sallanan qar topaları göz oxşayırdı.

• Bu səssizlikdən istifadə edən qocaman meşə dincəlir, mışıl-mışıl yatırdı.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin mübaliğə haqqında qazandıqları biliyi möhkəmləndirməklə yanaşı, məcaz yaratmaq bacarığını inkişaf etdirir.

**Düzgün cavab:**

1. El bir olsa, dağı yerindən oynadar.
2. Həyətdə o qədər adam vardı ki, iynə atsan, yerə düşməzdi.
3. Küləyin vıyıltısından adamın qulaqları batırdı.
4. Xoş xəbərdən onun sevinci yerə-göyə sığmırdı.
5. Əli elə həyəcanlanmışdı ki, az qala ürəyi ye-

rindən çıxacaqdı.

6. Səmada elə gurultu qopdu ki, sanki ulduzlar qopub yerə töküləcək.

**Tapşırıq C (iş dəftəri).** Tərkibində mübaliğə işlənmiş atalar sözlərini müəyyənləşdirmək tələb olunur.

**Düzgün cavab:**

Əsl dost min ildə bir dəfə qazanılır.
Bir gözə bir dünya sığışar.
El atan daş dağdan aşar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Obrazlı ifadələri fərqləndirir. | Tap. A, B, C (D.), tap. A, C (İ.D.) |
| Kontekstə uyğun obrazlı ifadələr seçir | Tap. Ç (D.), tap.B (İ.D.) |

## 4-cü dərs. Ədat

• Dərslik: səh. 25 • İş dəftəri: səh. 14

### Təlim məqsədləri

- Köməkçi nitq hissələrinin ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.3).
- Cümlənin ifadə etdiyi fikrə əsasən müvafiq köməkçi sözlərdən istifadə edir (st. 4.1.4).
- Köməkçi nitq hissələrini ümumi qrammatik xüsusiyyətlərinə görə fərqləndirir (st. 4.1.3).
- Köməkçi nitq hissələrinin düzgün yazılış qaydalarına əməl edir (st. 4.1.2).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Ədat haqqında ümumi təsəvvür |
| 2 | **Dil qaydaları** | Ədatın ümumi qrammatik xüsusiyyətinin müəyyən edilməsi; ədatların yazılışı |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim lövhəyə üç cümlə yazır:
*Bəlkə*, hava soyuqdur.
Hava *olduqca* soyuqdur.
*Amma* hava soyuqdur.

Sonra soruşur: Hansı cümlədə fərqləndirilmiş söz fikri daha da qüvvətləndirir?

4.1.3 **Tapşırıq A (dərslik).** Bu motivasiya tapşırığıdır. Verilmiş iki cümlədən hansında fikrin daha qüvvətli ifadə olunduğu soruşulur. Şagirdlər tərkibində “*heç*” ədatı işlənmiş cümləni seçirlər.

“Bunları bilməliyik” rubrikasında ədatın sözün və ya cümlənin təsirini gücləndirdiyi diqqətə çatdırılır.

**Tapşırıq B (dərslik).** Hansı söz çıxarılsa, cümlənin təsir gücü azalar?

**Düzgün cavab:** 1. ən; 2. daha; 3. bəs; 4. necə; 5. axı.

“Diqqət edin” rubrikasında şagirdlərin diqqəti ədatların yazılışına yönəldilir. *-Ca, -mı, -sana* ədatlarının sözə bitişik, digərlərinin ayrı yazıldığı vurğulanır.

4.1.2 **Tapşırıq C (dərslik).** Cümlələrdə nöqtələrin yerinə uyğun ədatlar yazmaq tələb olunur.

**Düzgün cavab:** 1. qoy; 2. -ca; 3. -mi; 4. əsl; 5. ancaq.

**4.1.4** **Tapşırıq Ç (dərslik).** Tapşırığın məqsədi məna uyğunluğu olan ədatları müəyyənləşdirmək bacarığının formalaşdırılmasıdır.

**Düzgün cavab:** necə – nə; məgər – bəs; məhz – elə; lap – olduqca; yalnız – bircə.

**4.1.3** **Tapşırıq A (iş dəftəri).** Qoşmanı ədatdan fərqləndirmək bacarığını formalaşdırır.

**Düzgün cavab:** 1, 3, 4 – ədat; 2, 5 – qoşma.

**Tapşırıq B (iş dəftəri).** Bu tapşırıqda isə ədatı bağlayıcıdan fərqləndirmək tələb olunur.

**Düzgün cavab:** 1, 3, – bağlayıcı; 2, 4, 5 – ədatdır.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər köməkçi nitq hissələrini qruplaşdırırlar. Tapşırıq qazanılmış bilikləri möhkəmləndirməyə xidmət edir.

| Qoşma | Bağlayıcı | Ədat |
|---|---|---|
| görə, kimi | ona görə də | artıq, axı |
| sonra, əvvəl | ki, lakin, çünki | olduqca |
| haqqında | və | |

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Köməkçi nitq hissələrinin ümumi qrammatik xüsusiyyətlərini müəyyən edir. | Tap. A, B, Ç (D.), tap. A, B, C (İ.D.) |
| Ədatların düzgün yazılış qaydalarına əməl edir. | Tap. Ç (D.) |

# fəsil 4 SÜRƏT, SÜRƏT, SÜRƏT...

## 1-ci dərs. Ən sürətli

• Dərslik: səh. 26 • İş dəftəri: səh. 15

### Təlim məqsədləri

- İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 2.2.2).
- Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.2).
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 2.1.1).
- Əldə etdiyi məlumatlara əsasən fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir (st. 2.2.5).
- Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 2.2.4).
- Fikir və mühakimələrini əks etdirməklə kiçikhəcmli mətn yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Sürət nədir?” mövzusunda söhbət |
| 2 | **Oxuyub-qavrama** | İnformativ mətn üzərində iş |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 4 | **Yazı** | Essenin yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

**Köməkçi vasitələr:** mətnə çəkilmiş illüstrasiyalar.

### Mövzuya yönəltmə

Müəllim sinfə müraciət edir: Sürət deyəndə nə başa düşürsünüz?

### Oxuyub-qavrama

**2.2.2** **Tapşırıq A (dərslik).** Mətnin hissələri müəyyən vaxt ərzində səssiz şəkildə oxunur. Hər hissə oxunduqdan sonra məzmunu bir cümlə ilə ifadə olunur. Təbii ki, hər hissədəki əsas fakt həmin cümlədə qabardılmalıdır.

**Düzgün cavab:**

1. ***işıq sürəti*** – Təbiətdə işıq sürətinə çatan heç bir sürət yoxdur;

2. ***ən sürətli heyvan*** – dünyanın ən sürətli məməli heyvanı olan hepardın sürəti saatda 120 km-ə çatır;

3. ***dünyanın ən sürətli insanı*** – 100 metrlik məsafəni 9,58 saniyəyə qaçan 11 qat dünya çempionu Usain Bolt bir neçə dəfə öz rekordunu yeniləməklə adını Ginnesin dünya rekordları kitabına salıb;

4. ***ən sürətli qarışqa*** – böyük səhrada yaşayan və saatda 3 km sürətlə hərəkət edən gümüş qarışqa dünyanın ən sürətli qarışqası hesab olunur;

5. **ən sürətli quş** – ovunun üzərinə şığıyarkən 390 km sürət yığan şahin dünyanın ən sürətli quşudur.

Tapşırıq şagirdlərin oxuduğu mətndəki əsas faktı seçmək bacarığını inkişaf etdirir.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq B (dərslik).** "*Zirvə*" və "*ulduz*" sözlərinin hansı cümlələrdə məcazi mənada işləndiyini müəyyənləşdirmək tələb olunur.

**Düzgün cavab:** "Üzeyir Hacıbəyli musiqi sənətinin zirvəsində idi" və "Kriştiano Ronaldo futbol ulduzudur" cümlələrində.

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Tapşırığın məqsədi yeni sözləri mənimsətməklə şagirdlərin bu sözləri öz nitqində istifadə etmək bacarığını inkişaf etdirməkdir.

**Düzgün cavab:** 1. şahin; 2. sükan; 3. atlet.

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq C (dərslik).** Tapşırıq oxuyub-anlamanı möhkəmləndirməyə xidmət edir.

**Düzgün cavab:** 1, 3 – yanlış; 2, 4 – doğrudur.

2.2.4 **Tapşırıq Ç (dərslik). Fənlərarası inteqrasiya (riyaziyyat).** Sualları cavablandırmaq üçün riyazi hesablamalar aparmaq lazımdır.

***1-ci sualın cavabı:*** Hepardın saatda sürəti 120 km-dir. Hepardın 3 saata neçə kilometr məsafə gedə biləcəyini müəyyən etmək üçün vurma əməlindən istifadə etmək olar

120 x 3=360

***2-ci sualın cavabı:*** Hepard bir addımda 15 metr məsafə gedə bilir. Onun 360 km məsafəni neçə addıma qət edə biləcəyini müəyyən etmək üçün bölmə əməlindən istifadə etmək lazımdır:

360 : 15 =24.

Tapşırıq həm elmi, həm də məntiqi təfəkkürü inkişaf etdirir.

**Tapşırıq B (iş dəftəri).** Fakt və məlumatları müqayisə edərək mətnə aid sualları cavablandırmaqla şagirdlər oxuduqları mətni qavradıqlarını nümayiş etdirirlər.

***1-ci sualın cavabı:*** Usain Bolt rekorda imza atandan neçə il sonra heç kim onun sürətinə çata bilməyib. Amma Usain özü hər dəfə daha da sürətlə qaçaraq öz rekordunu təzələyib və hər yeni göstəriciyə görə adı dəfələrlə məşhur kitaba düşüb.

***2-ci sualın cavabı:*** Hepard hər sıçrayışda 15 metr irəli tullanır. 15 metr məsafə qət olunca havada olur, sanki uçur. 15 metr tamamlananda yüngülcə dabanı ilə yerə toxunur və yenidən həmin sürətlə havaya qalxır. Buna görə də o sanki yerdə deyil havada qaçır.

***3-cü sualın cavabı:*** İşıq səsdən daha sürətli yayılır. Buna əmin olmaq üçün şimşəyin çaxmasını xatırlamaq kifayətdir. Bu təbiət hadisəsi zamanı əvvəlcə hər tərəfə işıq saçılır, sonra səs eşidilir.

***4-cü sualın cavabı:*** Şahin quşu əsasən isti ölkələrdə yaşayır. Antraktida soyuq iqlim şəraitinə malik olduğu üçün şahin orada yaşaya bilməz

### Yazı

3.1.2 **Tapşırıq D (dərslik).** Şagirdlərə öz fikirlərini sərbəst şəkildə ifadə etmək üçün esse yazmaq tapşırılır.

**Müəllimin nəzərinə!** Əvvəlki dərsdə öyrədilmiş nümunə əsasında (başlıq, əsas məsələnin qabardılması, əsas məsələyə münasibət, fikri sübut edən faktlarla əsaslandırma) essenin yazılmasına nəzarət etmək lazımdır.

***Nümunə:***

**Sürətin həyatımıza faydası**

*Vaxta qənaət etmək insan həyatında çox vacibdir. İtirilən hər dəqiqə, hər saniyə insanın ömründən gedir. Boş yerə sərf olunan vaxt düzgün istifadə edilsə, hansısa bir uğura cığır aça bilər.*

*Bəs zamanı necə dəyərləndirmək olar? Vaxt itkisinin qarşısını alan ən gözəl şey sürətdir.*

*Həmişə düşünürəm ki, görəsən, qatar, avtobus, avtomobil və s. nəqliyyat vasitələri olmasaydı, bir-birindən uzaqda yaşayan doğma insanlar necə görüşərdilər...*

*Mənim babamla nənəm rayonda yaşayırlar. Atam deyir ki, əvvəllər anamla 2-3 ayda bir dəfə gedib onlara baş çəkirmişlər. 5-6 saatlıq yolu gedib-qayıtmaq xeyli vaxt aparırmış. İndi rayo-*

*numza sürətli qatarla 2 saata çatırıq. Ona görə də yaşlı baba-nənəmi tez-tez yoluxuruq.*

*Həmişə 10-cu sinifdə oxuyan qardaşıma zarafatla deyirəm ki, sən "sürətli qatar"san. O hər işi sürətlə görür. Dərsdən gələn kimi əllərini yuyub mətbəxə keçir. Çaydanı qızdırmaq üçün düyməni basır. Dərhal otağına keçib əynini dəyişir. Mətbəxdə özünə çay süzür, nahar edir. İşlətdiyi qabları qabyuyan maşına yerləşdirib dərslərini təkrarlamağa başlayır. Beləcə, axşamacan bütün işlərini eyni sürətlə görür və hər şeyi də çatdırır. Ona görə müəllimlərin də, dostlarının da, ailənin də sevimlisidir.*

*Mənə elə gəlir ki, həyatın bütün sahələrində sürətin rolu çox önəmlidir. Sürət olmasa, inkişaf olmaz. Elm və texnikanın, insanın yaradıcılıq qabiliyyətinin sürətli inkişafı nəticəsində mümkün olan müxtəlif ixtiralar, kəşflər həyatımızı daha da rəngarəng və maraqlı edir.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki əsas faktları seçir. | Tap. A (D.) |
| Sözün kontekstə uyğun mənasını müəyyən edir. Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. B (D.), tap. A (İ.D.) |
| Mətndəki fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir. | Tap. C (D.) |
| Mətndəki məlumatlar əsasında yeni informasiya əldə edir. | Tap. Ç (D.), B (İ.D.) |
| Açar sözlərdən istifadə etməklə esse yazır. | Tap. D (D.) |

**Növbəti dərsə hazırlıq:** Növbəti dərsdə şagirdlər 4 qrup üzrə təqdimat etməlidirlər. Ona görə də araşdırma aparmaq tapşırılır.

***I qrup*** – ən hündür dağ;

***II qrup*** – ən böyük göl;

***III qrup*** – ən uzun çay;

***IV qrup*** – ən hündür şəlalə.

## 2-ci dərs. İlk və ən

• Dərslik: səh. 28 • İş dəftəri: səh. 16

### Təlim məqsədləri

• Qeyd götürməklə dinləyir (st. 1.1.1).
• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 1.1.1).
• Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
• Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir (st. 3.1.3).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st. 3.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tapşırıq üzərində iş |
| 2 | **Dinləmə** | Dinləmə mətni üzərində iş |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 4 | **Yazı** | Qrafik təsvirin mətnə, mətnin qrafik təsvirə çevrilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər fikirlərini əsaslandırmaqla sualı cavablandırırlar.

**Düzgün cavab:** Bütün heyvanların sürəti elmə məlumdur. Yenidən ən sürətli heyvan növünün yaranması mümkün deyil. Hepardı sürətdə geridə qoyacaq məməli heyvan yoxdur. O ən sürətli məməli heyvan kimi həmişə birinci olacaq.

Ən sürətli maşın isə hər zaman yenilənə bilər. Elmin, texnikanın inkişafı sayəsində insanlar daha sürətli maşınlar ixtira edə bilərlər. Beləliklə, ən sürətli heyvan müəyyən vaxtdan sonra öz nəticəsini dəyişə bilməz. Amma ən sürətli maşın öz nəticəsini hər zaman dəyişə bilər.

### Dinləmə

**Müəllimin nəzərinə!** Şagirdlərin nəzərinə çatdırılır ki, dinləmə mətni üzərində geniş iş aparılacaq. Qeyd götürərkən diqqətli olmaq və ən vacib məqamları nəzərdən qaçırmamaq lazımdır.

**İlk, ən, rekord**

*Dünyada ilklər çoxdur: ilk əsər, ilk cümhuriy-*

*yət, ilk opera və s. Həyat davam etdikcə başqa ilklər yaranacaq. Lakin Şərqdə ilk cümhuriyyət, ilk opera bizim ölkəmizdə yaranıb, onu yeniləmək mümkün deyil. Və yaxud operanın vətəni İtaliyadır. Sonradan müxtəlif ölkələrdə yazılmış yüzlərlə opera bu gerçəkliyi dəyişə bilməz.*

*Tez-tez belə ifadələr eşidirik: ən sürətli, ən ağır, ən uzun... Elə "ən"lər var ki, onlar da "ilk" kimi dəyişməz olaraq qalır. Bunlar, əsasən, təbii aləmdə mövcud olan varlıqlardır. Dünyada ən hündür dağ Everest, ən dərin göl Baykaldır. Yenidən Everestdən də hündür bir dağın və ya Baykaldan da dərin bir gölün meydana gəlməsi inandırıcı deyil. Dərisi ən qalın heyvan kərgədandır. Kərgədandan da qalın dərisi olan yeni bir heyvanın doğulması mümkün deyil. Ona görə də bu "ən"lər birinciliyi qoruyub saxlayacaqlar.*

*Lakin elə "ən"lər var ki, onlar elmin, texnikanın, eləcə də insan təfəkkürünün inkişafı qarşısında tab gətirmir, tez-tez dəyişir. Məsələn: ən böyük gəmi, ən sürətli qatar, ən hündür bina ifadələrindəki "ən" sözü daimi olmaya bilər. İnsanın zəkası, düşüncəsi daha böyük gəmi, daha sürətli qatar yaratmağa qadirdir.*

*Bu günün ən sürətli təyyarə və ya maşını bir il sonra yerini özündən güclülərə verəcək. Rekord da dəyişən "ən"lər kimi daimi deyil. Ən sürətlə qaçan insana azarkeşlik edən gənc gərgin məşqlər sayəsində dünya rekordunu yeniləyə bilər.*

Beləliklə, *ilk, ən, rekord* sözləri arasında bənzərlik olsa da, fərqli mənaya malik sözlərdir.

### Dinləyib-qavrama

1.1.1 **Tapşırıq B (dərslik).** Sualları dinləmə mətni əsasında cavablandırmaq lazımdır.

***1-ci sualın cavabı:*** İlk olan həmişəlik ilk olaraq qalır. *Məsələn*, Şərqdə ilk opera yazan qadın bəstəkar Azərbaycanın görkəmli sənətkarı Şəfiqə Axundovadır. Ondan sonra bütün Şərq aləmində yüzlərlə qadın bəstəkar opera yaza bilər, amma ilk ola bilməz. Çünki bu ilkə imza atan Şəfiqə Axundovadır.

"Ən" isə dəyişə də bilər, dəyişməyə də bilər.

***2-ci sualın cavabı:*** Bu gün ən sürətli təyyarəni gələcəkdə ondan da sürətli təyyarə əvəz edər, amma ən hündür dağ dəyişməz. (başqa nümunələr də çəkmək olar)

***3-cü sualın cavabı:*** Coğrafi obyektlər: dağ, göl, çay və s. öz rekordunu qoruyur. Ən dərin göl, ən uzun çay, ən hündür zirvə və s. təbiətdə belə yaranıb. Onları yeniləmək insanın əlində deyil.

Tapşırığın məqsədi dinləmə mətnində qazanılmış biliklərin tətbiqinə yönəlib.

**Tapşırıq C (dərslik).** Bu tapşırığın cavabını da şagirdlər dinləmə mətnindən öyrəndiklərinin əsasında müəyyən edə biləcəklər.

**Düzgün cavab:** ən sürətli avtomobil, ən sürətli atlet.

**Tapşırıq A (iş dəftəri).** Yenilənə bilən və yenilənməsi mümkün olmayan varlıqları cədvəl üzrə qruplaşdırmaq tələb olunur.

**Düzgün cavab:**

| Yenilənə bilən göstərici | Yenilənməyən göstərici |
|---|---|
| ən hündür zürafə | ən böyük okean |
| ən kök insan | ən dərin çay |
| ən sürətli qatar | ən kiçik planet |
| ən uzunömürlü insan | ən duzlu dəniz |
| ən uzun küçə | ən soyuq ölkə |

Bu tapşırığın sayəsində şagirdlər qazandıqları bilik və bacarıqları möhkəmləndirmiş olurlar.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin təfəkkürünün inkişafına kömək edir.

*Hansısa konkret mövzuda "ilkə imza atmaq" insanın həyatında bir dəfə baş verə bilər: ilk radionun ixtirası, Amerikanın kəşfi və s. "Rekord qazanmaq" təkrarlana bilir. Hətta bir insan öz rekordunu (Usain Bolt kimi) bir neçə dəfə yeniləyə bilər.*

### Yazı

3.1.3 **Tapşırıq D (dərslik).** Qrafik informasiyanı mətnə çevirmək bacarığının inkişafına yönəlib. Cədvəldə qısa şəkildə verilmiş məlumatları rabitəli cümlələrə çevirmək tələb olunur.

**Düzgün cavab:**

Dünyanın ən hündür binası Dubay şəhərində yerləşir. Bina Bürc Xəlifə adlanır. Hündürlüyü 828 metrdir.

Suda yaşayan ən böyük canlı göy balinadır. Okeanı özünə məskən seçən bu nəhəng canlının çəkisi 160 tondur.

Quruda yaşayanlar içərisində ən nəhəng canlı fildir. Afrika filinin çəkisi 6 tondur.

Britaniya Milli Kitabxanası İngiltərədə yerləşir O, dünyanın ən zəngin kitabxanası hesab olunur.

Burada 150 milyon kitab saxlanılır.

Ən nəhəng fil və ən nəhəng balina həmişə birinci olacaq. Amma Bürc Xəlifədən də hündür bina tikmək, Britaniya kitabxanasından da zəngin kitabxana yaratmaq mümkündür.

**Tapşırıq B (iş dəftəri).** Bu əvvəlki tapşırığın əksidir. Verilən məlumatları cədvəldə yerləşdirmək tələb olunur.

**Düzgün cavab:**

| | Rekord | Ölçü | Məkan |
|---|---|---|---|
| Anhel | ən hündür şəlalə | 979 metr | Cənubi Amerika |
| Nil | ən uzun çay | 6650 kilometr | Afrika |
| Akaşi | ən uzun körpü | 1991 metr | Yaponiya |
| qızıl | ən çox istehsal | ildə 270 ton | Çin |

Fikirlərini daha yığcam, daha lakonik ifadə etmək üçün bu bacarıq şagirdlərə çox faydalıdır.

Bundan əvvəlki dərsdə şagirdlərə qruplar üzrə araşdırma mövzuları təqdim olunmuşdur. Həmin araşdırmaların nəticələri əsasında təqdimat edilir.

### Təqdimat

***1-ci qrup. Ən hündür dağ.*** Dünyada ən hündür dağ Everest hesab olunur. O, Himalay dağ sisteminə daxildir. İlk dəfə 1953-cü ildə T.Norgey və E.Hillari tərəfindən fəth olunub. Çin və Nepal ərazisində yerləşir. Hündürlüyü 8848 metrdir.

***2-ci qrup. Ən böyük göl.*** Dünyanın ən böyük gölü Xəzərdir. Sahilyanı ölkələr Azərbaycan, İran, Qazaxıstan, Rusiya, Türkmənistandır. Sahəsi 386.400 km$^2$, uzunluğu 1200 kilometrdir. Belə böyük olduğu üçün onu dəniz də adlandırırlar.

***3-cü qrup. Ən uzun çay.*** Nil dünyanın ən uzun çayıdır. Uzunluğu 6650 kilometrdir. Afrikanın 10 ölkəsinin ərazisindən keçir. İki əsas qolu var: Ağ və Mavi. Suyu Aralıq dənizinə tökülür. Üzərində elektrik stansiyaları və limanlar yerləşir.

**4-cü qrup. Ən böyük materik.** Dünyanın ən böyük materiki Avrasiyadır. Quru sahənin yarıdan çoxunu əhatə edir. Bütün okeanlarla həmsərhəddir. Sahəsi 54 min kvadrat kilometrdir.

Təqdimat başa çatdıqdan sonra qiymətləndirmə keçirilir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. A, B (D.) |
| Sözün kontekstə uyğun mənasını müəyyən edir. | Tap. Ç (D.) |
| Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir. | Tap. C (D.), tap. A (İ.D.) |
| Qrafik informasiya şəklində verilmiş məlumatları rabitəli mətn şəklində təqdim edir. | Tap. D (D.) |
| Məlumatları qrafik informasiya (məlumat vərəqi, cədvəl, diaqram, sxem) şəklində təqdim edir. | Tap. E (D.), tap. B (İ.D.) |

## 3-cü dərs. Esse

• Dərslik: səh. 29 • İş dəftəri: səh. 17

**Təlim məqsədləri**

• Mühakimə xarakterli esse yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Aforizm ətrafında müzakirə |
| 2 | **Yazı** | Fikirlərini əsaslandırmaqla essenin yazılması |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Aforizmə uyğun gələn fikri (B) seçməklə mövzuya keçid olunur.

### Yazı

"Faydalı məsləhət" rubrikasında essedə müəllifin oxucunu öz fikirlərinə inandırmaq üçün faktlardan istifadə etməsi diqqətə çatdırılır.

3.1.2 **Tapşırıq B (dərslik). Cütlərlə iş.** Müxtəlif tarixi faktlardan istifadə etməklə cütlər "Hər bir yenilik çətinliklə başa gəlir" fikrini əsaslandıraraq esse yazırlar. Essenin məzmunu təxminən aşağıdakı kimi ola bilər:

**Hər bir yenilik çətinliklə başa gəlir**

*Kəşflər, ixtiralar necə yaranır? Yenilik yaratmaq asandırmı? Bu sualların cavabını tapmaq üçün tarixdə kifayət qədər faktlar var. Doğrudan da hər bir yenilik çətinliklə başa gəlir. Nümunə olaraq, lk operanın – "Leyli və Məcnun"un səhnələşdirilməsini göstərə bilərik.*

*Bilirik ki, opera musiqi əsəridir. O vaxt musiqiçilərin sayı az idi. Üzeyir bəy dirijorluğu Əbdürrəhim bəy Haqverdiyevin öhdəsinə buraxıb özü skripkada çalmağa məcbur oldu.*

*Həmin dövrdə Azərbaycan səhnəsində aktrisaların olmaması da böyük problem idi. Qadın rollarını kişilər ifa edirdilər. Qadın rollarını ən çox ifa edən Əhməd bəy Ağdamski olub. Amma bunun da öz çətinliyi var idi. Mollalar, qoçular qadın rolunu ifa edən aktyorları təqib və təhqirlərə məruz qoyurdular. Onları qorxudurdular. Hər yolla səhnələşdirmənin qarşısını almağa çalışırdılar.*

*Belə bir aforizm var: "İstənilən nailiyyət cəhd etmək qərarı ilə başlayır". Doğrudan da, bütün çətinliklərə baxmayaraq, Üzeyir bəyin bu cəhdi uğurla başa çatdı. Operanın vətəni Avropada İtaliya, Şərqdə isə Azərbaycan oldu.*

*Amerikanın kəşfi də asanlıqla başa gəlməyib. Kolumb həyatının 12 ilini Amerikanı kəşf olunmasına həsr edib. O, 12 il okean sularında, gəmilərdə yaşayıb.*

*Kraliçanı ekspedisiya üçün vəsait ayırmağa razı salmaq xeyli zaman aparıb. Nəhayət, Kolumb onu inandırdıqdan sonra vəsait ayırsa da, çox keçmədən maddi köməyi dayandırıb. Amma Kolumb niyyətindən dönməyib. Elə olub ki, dənizçi yoldaşları ucu-bucağı görünməyən okeanda gəmi ilə üzməkdən beziblər, götürdükləri ərzaq tükənib, geri qayıtmaq istəyiblər. Kolumb çətinliklə onları bu ağır səyahəti başa çatdırmağa razı salıb. Belə bir aforizm var: "Ən böyük uğur yıxılmamaq deyil, hər yıxılanda ayağa qalxmaqdır".*

*Doğrudan da, çətinliklər, uğursuzluqlar Kolumbu qorxutmadı O, ruhdan düşmədi, tərəddüd etmədən məqsədinə doğru irəlilədi. Və nəhayət, bütün çətinliklərə qalib gələrək Amerikanı kəşf edən səyyah kimi adını tarixə yazdı.*

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Esse yazmaq bacarığını möhkəmləndirmək üçün növbəti mövzu təqdim olunur. Müəllim essenin yazılması işinə hazırlıq məqsədilə yönəldici suallarla şagirdləri mövzu üzrə düşündürə bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mühakimələrini faktlarla sübuta yetirərək esse yazır. | Tap. B (D.), tap. A (İ.D.) |

## 4-cü dərs. Modal sözlər

• Dərslik: səh. 30 • İş dəftəri: səh. 18

**Təlim məqsədləri**

• Köməkçi nitq hissələrinin ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.3).
• Köməkçi nitq hissələrinin düzgün yazılış qaydalarına əməl edir (st. 4.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Modal sözlərin məna növü haqqında təsəvvür yaratmaq |
| 2 | **Dil qaydaları** | Köməkçi nitq hissələrinin ümumi qrammatik xüsusiyyətlərinin müəyyənləşdirilməsi; modal sözlərdə vergülün işlənməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

**Köməkçi vasitələr:** izahlı lüğət.

**Mövzuya yönəltmə**

**Tapşırıq A (dərslik).** Tapşırığa cavab verməklə (2-ci cümlə) yeni mövzuya keçid edilir.

"Bunları bilməliyik" rubrikasında modal sözlər haqqında məlumat verilir.

4.1.3 **Tapşırıq B (dərslik).** Modal sözlərin məna növünü müəyyən etmək tələb olunur.

1. deyəsən – şübhə; 2. heyif ki – təəssüf; 3. beləliklə – nəticə; əlbəttə ki – əminlik.

"Diqqət edin" rubrikasında modal sözlərin cümlənin hər tərəfində işlənməsi və digər sözlərdən vergüllə ayrılması fikri diqqətə çatdırılır.

4.1.2 4.1.3 **Tapşırıq C (dərslik).** Tapşırıq "Diqqət edin" rubrikasında vergüllə bağlı verilən qaydanın möhkəmləndirilməsinə həsr olunub. Eyni zamanda modal sözlərin hansı məna növü-

nə aid olduğu soruşulur.

**Düzgün cavab:**

Görünür – şübhə; nəhayət – nəticə; düzü – əminlik; təəssüf ki – təəssüf; haqiqətən – əminlik; təbii ki – əminlik.

**Tapşırıq Ç (dərslik).** Nöqtələrin yerinə uyğun modal söz yazılmalıdır.

**Düzgün cavab:** bəlkə, nəhayət, sözsüz.

4.1.2 **Tapşırıq A (iş dəftəri).** Modal sözlərdə vergülün işlənmə qaydasına həsr olunub.

**Tapşırıq B (iş dəftəri).** Modal sözlərin məna növünü müəyyən etmək lazımdır.

1. nəticə; 2. əminlik; 3. təəssüf; 4. şübhə.

**Tapşırıq C (iş dəftəri).** Modal sözlərin məna növünü müəyyən edərək nöqtələrin yerinə yazmaq lazımdır.

**Düzgün cavab:** 1. bəlkə; 2. nəhayət; 3. həqiqətən; 4. heyif ki.

**Tapşırıq Ç (iş dəftəri).** Modal sözlərin məna növünə aid nümunə yazmaq tələb olunur.

1. əlbəttə; 2. deyəsən; 3. beləliklə; 4. heyif ki.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Köməkçi nitq hissələrinin ümumi qrammatik xüsusiyyətlərini müəyyən edir. | Tap. B (D.), tap. B, C (İ.D.) |
| Köməkçi nitq hissələrində durğu işarələrindən istifadə edir. | Tap. C, Ç (D.), tap. A (İ.D.) |

## 5-ci dərs. Ümumiləşdirici təkrar

• Dərslik: səh. 31 • İş dəftəri: səh. 18

### Təlim məqsədləri

• Mətndəki obrazlı ifadələri fərqləndirir və izah edir (st. 2.1.3).
• Köməkçi nitq hissələrinin ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.3).
• Əsas nitq hissələrinin ümumi leksik və qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.3).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | Köməkçi nitq hissələrinin xatırlanması |
| 2 | Dil qaydaları | Köməkçi nitq hissələrinin qrammatik xüsusiyyətlərinin müəyyənləşdirilməsi; köməkçi nitq hissələrində durğu işarələrindən istifadə |
| 3 | Söz ehtiyatı | Obrazlı ifadələri fərqləndirir |
| 4 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

Müəllim keçirilən modal sözləri sual-cavab vasitəsilə xatırladır.

### Dil qaydaları

4.1.3 **Tapşırıq A (dərslik).** Mətndə işlənmiş köməkçi nitq hissələri müəyyən edilməlidir.

**Düzgün cavab:**

1. ***və*** – bağlayıcı;
2. ***amma*** – bağlayıcı, ***heç*** – ədat;
3. ***üçün*** – qoşma;
4. ***yalnız*** – ədat;
5. ***kimi*** – qoşma;
6. ***sonra*** – qoşma;
7. ***ilə*** – qoşma;
8. ***cə*** – ədat;
9. ***nəhayət*** – modal söz;
10. ***ki*** – bağlayıcı.

4.1.3 **Tapşırıq B (dərslik).** Tapşırıqda şagirdlər qoşmaları məna növünə uyğun seçməlidirlər.

**Düzgün cavab:** qabaq – əvvəl; doğru – tərəf; qədər – kimi; -can – dək.

4.1.3 **Tapşırıq C (dərslik).** Ədatları cümlədəki boşluqlara əlavə etmək tələb olunur.

**Düzgün cavab:** 1. bəs; 2. daha; 3. ən; 4. olduqca; 5. axı.

4.1.3 **Tapşırıq Ç (dərslik).** Cümlələrdə nöqtələrin yerinə modal söz yazmaqla tapşırığı yerinə yetirir.

1. nəhayət; 2. həqiqətən; 3. bəlkə; 4. məncə.

**Söz ehtiyatı. Dil qaydaları**

2.1.3 4.1.3 **Tapşırıq A (iş dəftəri).** Kiçik mətn verilib. Tapşırıq bir neçə mərhələdən ibarətdir.

I. Obrazlı ifadələr işlənmiş cümlələrin altından xətt çəkmək tələb olunur.

**Düzgün cavab:**

1. Atdığı tilov daş kimi hərəkətsiz idi, tərpənmək bilmirdi.
2. Gözləməkdən gözünün kökü saralmışdı.
3. O, dərin fikrə getmişdi.
4. Balıqçının sevinci yerə-göyə sığmırdı.
5. Uşaqlarına gümüş kimi parıldayan balıq aparacaq.

II. Mətndəki köməkçi nitq hissələrini seçib yazmaq lazımdır. Mətndə işlənmiş köməkçi nitq hissələri aşağıdakılardır: Ki, kimi, axı

III. Mətndəki əsas nitq hissələrinə aid nümunələr seçib yazmaq tələb olunur.

İsim – balıq; sifət – iri; say – bir; əvəzlik – ondan; zərf – geri; feil – oturmuşdu.

4.1.3 **Tapşırıq B (iş dəftəri).** Tapşırıqda altından xətt çəkilmiş köməkçi nitq hissələrini cədvəl üzrə qruplaşdırmaq tələb olunur.

| Qoşma | Ədat | Bağlayıcı | Modal söz |
|---|---|---|---|
| üçün | daha | və | həqiqətən |
| kimi | artıq | da, də | yəqin |
| bəri | lap, təkcə | ki, ancaq | yaxşı ki |
| | olduqca | | təssüf ki, təbii ki |

Tapşırıq köməkçi nitq hissələri haqqında qazanılmış bilik və bacarıqları təkrarlamağa xidmət edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Köməkçi nitq hissələrini bir-birindən fərqləndirir. | Tap. A (D), Tap. A,B (İ.D) |
| Köməkçi nitq hissələrinin məna növlərini müəyyənləşdirir. | Tap. B,C,Ç (D) |
| Məcaz işlənmiş cümlələri seçir. | Tap. A (İ.D) |
| Əsas və köməkçi nitq hissələrini fərqləndirir. | Tap. A (İ.D) |

bölmə **6**

# TARİXİ ŞƏXSİYYƏTLƏR

| Mövzu | | Tarixi şəxsiyyətlər |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratların ifadə edilməsi;<br>• Mətnin məzmununu təxəyyülünə görə dəyişdirərək nəql edilməsi;<br>• Qrafik informasiyanı şərh etməklə rabitəli mətn şəklində təqdim edilməsi;<br>• Hər hansı bir mövzu ilə bağlı araşdırma apararaq təqdim edilməsi. |
| | Söz ehtiyatı | • Yeni sözlərin mənası haqqında təxminini izahlı lüğət vasitəsilə dəqiqləşdirməsi;<br>• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasının müəyyənləşdirilməsi;<br>• Mətndəki obrazlı ifadələrin fərqləndirilməsi. |
| | Oxu | • Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirilməsi. |
| | Yazı | • Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətnlərin yazılması;<br>• Annotasiyanın yazılması. |
| Akademik biliklər | Dil qaydaları | • Sözlərin qrammatik mənasının müəyyənləşdirilməsi;<br>• Mürəkkəb feillərin yaranma yolları;<br>• Şəxsə və kəmiyyətə görə dəyişməyən feillərin fərqləndirilməsi;<br>• Sual əvəzliklərinin fərqləndirilməsi. |
| | Filoloji anlayışlar | • Annotasiya, bədii mətndə təsvir, mifik obrazlar. |
| Kompetensiyalar | Tarixin yaddaşında iz qoyan tarixi şəxsiyyətlər ilə yaxından tanışlıq, vətənpərvərlik, həmrəylik kimi mənəvi keyfiyyətlərin aşılanması, dünyagörüşünün genişləndirilməsi. | |

Bu bölmədə şagirdlərə tarixin yaddaşında iz qoyan tarixi şəxsiyyətlər haqqında məlumat verilmişdir. Bir çox rəvayət və nağılların qəhrəmanına çevrilmiş tarixi şəxsiyyətlər haqqında söhbət açılmışdır. Şagirdlər bu tarixi şəxsiyyətlər haqqında bədii və informativ mətnlər ilə tanış olacaqlar. Bu da dünyagörüşünün artmasına təkan verəcək.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır;

• Fikir və mühakimələrini əks etdirməklə kiçikhəcmli esse yazır.

## Bölməyə giriş dərsi

• Dərslik: səh. 32-33 • İş dəftəri: səh. 20

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Oxuduğu və ya dinlədiyi mətni nəql edir (st. 1.2.2).
• İnformativ mətndəki əsas faktları müəyyən edir (st. 2.2.2).
• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 1.1.1).
• Mühakimə xarakterli esse yazır (st.3.1.2).

**Köməkçi vasitələr:** Şagirdlərin aşağı siniflərdən tanış olduqları tarixi şəxsiyyətlərin şəkli, və ya həmin şəxsiyyətlər haqqında çəkilmiş filmlərdən qısa fraqmentlər.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tarixi şəxsiyyətlərin şəkli, və ya həmin şəxsiyyətlər haqqında çəkilmiş filmlərdən qısa fraqmentlərin nümayişi |
| 2 | **Danışma** | “Tarixi şəxsiyyət”, “Tarixi hadisə”, “Tarixi mənbə” və “Tarixi əsər” anlayışları haqqında müzakirə |
| 3 | **Oxu** | “Tarix və onu yaradanlar” mətninin oxusu |
| 4 | **Danışma** | Götürdükləri qeydlər əsasında “Tarix və onu yaradanlar” mətninin məzmununun nəql edilməsi |
| 5 | **Oxuyub-qavrama** | İnformativ mətndən əsas faktların seçilməsi |
| 6 | **Dinləmə** | “Ya eşşək ölər, ya şah” lətifəsinin səsləndirilməsi; Dinlədiyi mətnin məzmununun qavranılması |
| 7 | **Danışma** | Tapşırıqda qoyulmuş sual ətrafında müzakirə aparılması |
| 8 | **Yazı** | Esse yazılması |
| 9 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə tarixi şəxsiyyətlərin şəkillərini və yaxud onlar haqqında çəkilmiş filmlərdən fraqmentlər nümayiş etdirir.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Mətnin oxusuna başlamazdan əvvəl müəllim şagirdlərin diqqətini tapşırıqda verilmiş yaddaş xəritəsinə cəlb edir. Oxu zamanı buradakı başlıqlara aid qeydlər götürülməlidir. Buna görə də şagirdlər əvvəl yaddaş xəritəsinin başlıqları ilə tanış olur, onların mənasını müzakirə edirlər. Müəllim şagirdlərə yönəldici suallar verir:

• “Tarixi şəxsiyyət” ifadəsini izah edin. Hansı tarixi şəxsiyyətləri tanıyırsınız?
• Bu şəxsiyyətlərlə bağlı hansı hadisələri xatırlayırsınız?
• Sizcə, “Tarixi hadisə” nə deməkdir? Azərbaycan tarixi ilə bağlı hansı mühüm hadisələr və faktları xatırlayırsınız?
• Tarixi şəxsiyyətlər, tarixi hadisələr haqqında oxuduqlarınızı xatırlayın. Sizcə, tarixi əsərlər nə üçün yazılır?
• “Tarixi mənbə” ifadəsini necə izah edərsiniz? Sizcə, keçmişə aid məlumatlar necə toplanır?

### Oxu

**Mətn üzrə iş. Qeydlər götürməklə oxu.** Şagirdlər mətni yaddaş xəritəsi üzrə tələb olunan qeydlər aparmaqla oxuyurlar.

### Söz ehtiyatı

Oxu zamanı şagirdlərə tanış olmayan söz və ifadələr izah edilir.

### Danışma

1.2.2 **Tapşırıq B (dərslik).** Şagirdlər yaddaş xəritəsi üzrə götürdükləri qeydlərə əsasən mətnin məzmununu nəql edirlər.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər informativ mətndən əsas faktları seçmək bacarıqlarını nümayiş etdirirlər.

### Dinləmə mətni

**“Ya eşşək ölər, ya şah”**

*Bir gün Teymurləngə bir eşşək bağışlayırlar. Mollanın da pulu qurtarıbmış. Teymur üzünü Mollaya tutub deyir:*

*– Hə Molla, danışmırsan? Yoxsa bu eşşəkdə istedad yoxdur?*

*Molla işıq yeri görüb tez cavab verir:*

*– Niyə yoxdur, qibleyi-aləm sağ olsun?! Bu eşşək ağıllı heyvana oxşayır. Onu mənə versəniz, ona adam kimi danışmaq öyrədərəm.*

*Temur çox maraqlanıb deyir:*

*– Yaxşı, verirəm. Şərtini de!*

*Molla deyir:*

*– Şərtim bir az ağırdır. Bu dəfə iş zəhmətlidir. Gərək mənə beş il möhlət verəsən. Hər gün də bir qızıl verəsən.*

*Teymur razılaşır. Molla hesablayıb günə bir qızıldan beşillik maaşınıTeymurdan alır, eşşəyin də noxtasından tutub gətirir evə. Pulu arvadına verib deyir:*

*– Bu pulları al xərclə, görək başımıza nə gəlir. Sonra əhvalatı arvada danışır.*

*Arvad deyir:*

*– A kişi, sən nə deyirsən? Eşşək də danışar?*

*Molla deyir:*

*– Arvad, mən elə bilirdim bircə Teymur avamdır ki, mənim sözümə inanıb. Demə, sən də onun tayı imişsən. Əlbəttə, eşşək danışmaz.*

*Arvad hirslənir:*

*– Bəs onda, niyə boynuna götürübsən?*

*Molla deyir:*

*– Qəribə sual verirsən. Görmürsən, bir anbar pul gətirmişəm?!*

*Arvad deyir:*

*– Yaxşı, bəs beş ildən sonra ki vədə tamam olacaq, onda nə cavab verəcəksən?*

*Molla bir az fikirləşib deyir:*

*– Arvad, götür pulları evə bazarlıq elə! Allah kərimdir. Beş ilə kimi ya eşşək ölər, ya Teymur. Elə ikisi də dünyanı tutub durmayacaq ki?*

1.1.1 **Tapşırıq C (dərslik), B, C (iş dəftəri).** Tapşırıqlar şagirdlərin dinləmə mətnini necə qavradıqlarını yoxlamağa yönəlmişdir.

**Tapşırıq Ç (dərslik).** Tapşırıqda verilmiş bəzi məlumatlar arasında ziddiyyət var. Məsələn, Əmir Teymur 1336–1405-ci illərdə, Molla Nəsrəddin isə 1208–1284-cü illərdə yaşamışdır. Onlar arasında təxminən iki əsrə yaxın zaman fərqi var. Deməli, bu iki şəxsin eyni dövrdə yaşaması və bir-biri ilə görüşməsi mümkün deyil.

**Müəllimin nəzərinə!** Bu tapşırıq şagirdlərin diqqətli oxucu kimi inkişafına təkan verir. Şagirdlərin nəzərinə çatdırmaq lazımdır ki, tarixi şəxsiyyətlər haqqında həm tarixi, həm də bədii əsərlərdən məlumat almaq mümkündür. Lakin diqqətli oxucu aldığı məlumatların həqiqiliyini araşdırmalı, onlar arasındakı ziddiyyətləri üzə çıxarmağı bacarmalıdır.

## Danışma

1.2.1 **Tapşırıq D (dərslik).** Şagirdlərin müzakirə aparmaq, hər hansı bir mövzu üzrə fikir söyləmək, arqumentlər vasitəsilə fikrini əsaslandırmaq kimi bacarıqlarını inkişaf etdirir.

## Yazı

3.1.2 **Tapşırıq E (dərslik).** Tapşırığın icrasından əvvəl müəllim şagirdlərə esse yazı haqqında xatırlatma edir. Yönəldici suallar vasitəsilə mövzu ətrafında müzakirəyə cəlb edir.

• Doğma yurdumuzun tarixini nə üçün öyrənməliyik?

• Tarixi hadisələr, tarixi şəxsiyyətlər haqqında məlumatlar bizə nəyi öyrədir?

Şagirdlər aşağı siniflərdə və bu dərs müddətində aldıqları məlumatlara əsasən verilmiş mövzuda esse yazırlar.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bildiyi məlumatlar əsasında mövzu üzrə danışır. | Tap. D (D.) |
| Oxuduğu və ya dinlədiyi mətni nəql edir. | Tap. B (D.) |
| İnformativ mətndəki əsas faktları müəyyən edir. | Tap. A (İ.D.) |
| Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir. | Tap. C (D.), tap. B, C (İ.D,) |
| Janr xüsusiyyətlərini nəzərə almaqla mətn yazır. | Tap. E (D.) |

**Növbəti dərsə hazırlıq:** Müəllim növbəti dərs şagirdlərə astronomiya elmi haqqında məlumat verəcək. Şagirdlərə nümayiş etdirmək üçün rəsədxana, teleskop və s. şəkillərini əldə etmək tövsiyə edilir.

fəsil 1 **ELM DÜNYASININ ŞAHI**

## 1-ci dərs. Nəsirəddin Tusi

• Dərslik: səh. 34-36 • İş dəftəri: səh. 21

**Təlim məqsədləri**

- Sözün həqiqi və məcazi (törəmə) mənaları arasındakı bağlılığı müəyyən edir (st. 2.1.2).
- Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st. 2.1.1).
- Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
- Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 2.2.4).
- Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st. 3.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual ətrafında danışma |
| 2 | **Oxu** | “Nəsirəddin Tusi” mətninin oxusu |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu və strukturu üzrə iş |
| 5 | **Yazı** | Məlumat vərəqinin hazırlanması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə rəsədxana, teleskop şəkillərini nümayiş etdirir.

**Tapşırıq A (dərslik).** Şagirdlər tanıdıqları alimləri xatırlayırlar, onlar haqqında bildiklərini söyləyirlər:

Səfiəddin Urməvi – türk dünyasının görkəmli alimi, musiqiçisidir. Şərqdə not sistemini yaradıb.

Əl-Xarəzmi – riyaziyyatçı alimdir. Ərəb rəqəmlərinin (*0, 1, 2, 3, 4, 5, 6, 7, 8, 9*) geniş yayılmasında rolu olmuşdur.

### Oxu. Söz ehtiyatı

**“Nəsirəddin Tusi” mətni üzrə iş. Səssiz oxu.** Mətn səssiz oxunur. Şagirdlər mətndən tanış olmayan sözləri dəftərlərinə qeyd edirlər.

**“Söz boğçası” rubrikası.** Şagirdlərdən tanış olmayan sözlərin təxmini mənası soruşulur.

2.1.2 **Tapşırıq B (dərslik).** Mətndə “ocaq” sözünün işləndiyi məna müəyyən edilir.

**Düzgün cavab:** varinat D – mərkəz, adamların toplaşdığı yer.

Tapşırıq eyni zamanda şagirdlərin sözün həqiqi və məcazi mənası haqqında biliklərinin təkrarına yönəlib.

**Düzgün cavab:** variant A – od yandırmaq üçün yer. (“ocaq” sözünün həqiqi mənası)

**Tapşırıq C (dərslik).** Şagirdlər frazeoloji birləşmələrin mənalarını təxmin etdikdən sonra müəllimin və yaxud lüğətin köməyi ilə ifadələrin mənalarını dəqiqləşdirirlər.

***ocağı sönmək*** – evi, ailəsi dağılmaq;

***ocağından tüstü çıxmamaq*** – evi dağılmaq, evində ocağı yanmamaq;

***özgə ocağına isinmək*** – başqalarından asılı olmaq;

***ocağını kor qoymaq*** – evini, ailəsini dağıtmaq;

***su üstündə ocaq qalamaq*** – mümkün olmayan bir işin arxasınca düşmək.

2.1.1 **Tapşırıq Ç (dərslik).** Bu tapşırığı yerinə yetirmək üçün müəllim şagirdlərin diqqətini mətnin üçüncü və dördüncü abzaslarına yönəldir. Şagirdlər mətnin məzmununa əsasən “Ensiklopedik biliklər” ifadəsinin mənasını izah edirlər. Mətndə Nəsirəddin Tusinin elmin müxtəlif sahələri ilə dərindən maraqlandığı, astronomiya, riyaziyyat, tibb, məntiq və digər elm sahələri ilə məşğul olduğu məlum olur.

**Düzgün cavab:** Elmin bir çox sahələrini əhatə edən; hər şeyi qavrayan, çoxcəhətli.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq yeni sözlərin möhkəmləndirilməsinə yönəldilib.

**Düzgün cavab:**

Soldan-sağa:

1. etika; 5. məhbus; 6. əxlaq.

Yuxarıdan aşağı:

2. astronomiya; 3. vəsiyyət; 4. tədqiqat.

### Oxuyub-qavrama

2.2.4 **Tapşırıq D (dərslik).** Bu tapşırıq şagirdlərin dil bacarıqları ilə yanaşı, riyazi təfəkkürünü də yoxlayır. Hadisələrin tarixini müəyyənləşdirmək üçün şagirdlər ilk növbədə bu məlumatı mətnin hansı hissəsindən əldə edəcəklərini müəyyən etməlidirlər.

1. "Şərqin ilk rəsədxanası" yarımbaşlığında deyilir ki, 1256-cı ildə Hülakü xan Asiya üzərinə yürüş edir, Ələmut qalasını alır və Tusini azad edir. Bu hadisədən 3 il sonra rəsədxana tikilir.

**Düzgün cavab:** 1256 + 3 = 1259

2. Mətnin "Ömrünün son günləri" yarımbaşlığında Nəsirəddin Tusinin 73 yaşında vəfat etdiyi, "Uşaqlığı və təhsili" yarımbaşlığında isə 1201-ci ildə anadan olduğu qeyd edilib. Bu iki məlumat alimin neçənci ildə vəfat etdiyini müəyyənləşdirməyə imkan verir.

**Düzgün cavab:** 1201 + 73 = 1274

2.2.4 **Tapşırıq E (dərslik).** Tapşırıq şagirdlərin mövzuya aid yeni məlumatları mətnin uyğun hissə və ya yarımbaşlıqlarla əlaqələndirmək bacarığının inkişafına yönəlib. Şagirdlər tapşırıqda verilmiş cümlələri oxuyur və açar sözlərə diqqət edirlər:

**Müəllif** bu əsərində yazırdı: "**İnsan çox danışmamalı, başqasının sözünü kəsməməlidir".**

Müəllim şagirdləri istiqamətləndirmək üçün yönəldici suallar verə bilər:

Müəllif kimdir? Mətndə hansı əsər haqqında məlumat verilib?

"Çox danışmamaq", "başqasının sözünü kəsməmək" sözləri isə həmin əsərdə etik normalardan bəhs edildiyini göstərir.

**Düzgün cavab:** Sitat "Əxlaqi-Nasiri" əsəri haqqında verilmiş abzasda istifadə edilə bilər.

2.2.3 **Tapşırıq Ə (dərslik).** Şagirdlər mətnin yarımbaşlıqlarını bir daha nəzərdən keçirdikdən sonra tapşırıqda verilmiş cümlələri mətnin həmin hissələri ilə uyğunlaşdırırlar.

**Düzgün cavab:** 1-ci cümlə mətnin "Yaradıcılığı" yarımbaşlığına; 2-ci "Ömrünün son günləri"; 3-cü "Şərqin ilk rəsədxanası"; 4-cü "Uşaqlığı və təhsili" yarımbaşlığına aiddir.

### Yazı

3.1.3 **Tapşırıq B (iş dəftəri).** Məlumat vərəqini doldurmaqla şagirdlər oxuyub-qavrama və yazı bacarıqlarını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün həqiqi və məcazi (törəmə) mənaları arasındakı bağlılığı müəyyən edir. | Tap. B (D.) |
| Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir. | Tap. C (D.) |
| Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir. | Tap. Ç (D.), tap. A (İ.D.) |
| Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir. | Tap. D (D.) |
| Mövzuya aid yeni məlumatları mətnin uyğun hissə və ya yarımbaşlıqları ilə əlaqələndirir. | Tap. Ə (D.) |
| Məlumatları qrafik informasiya (məlumat vərəqi, cədvəl, diaqram, sxem) şəklində təqdim edir. | Tap. B (İ.D.) |

## 2-ci dərs. Tusi və Hülakü xan

• Dərslik: səh. 36-37 • İş dəftəri: səh. 22

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.2).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
• Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərə münasibət bildirir (st. 2.2.5).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 2.2.5).
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Əfsanə, nağıl və rəvayətlərin xatırlanması |
| 2 | **Danışma** | Sual ətrafında müzakirə |
| 3 | **Oxu. Söz ehtiyatı** | "Tusi və Hülakü xan" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Obrazların davranışlarına münasibət bildirilməsi |
| 5 | **Yazı** | Mühakimə xarakterli mətnin və ssenarinin yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərə aşağı siniflərdə oxuduqları "Aldədə əfsanəsi", "Ayla Günəşin əfsanəsi", "Çahargah əfsanəsi", "Göyçə gölü əfsanəsi" və "Odlar qızı" haqqında əfsanələr, eyni zamanda Azərbaycan qalaları haqqında rəvayətləri və oxuduqları nağılları xatırladır.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Müəllim aşağı siniflərdə keçilmiş nağıl, əfsanə və rəvayətləri xatırlatmaq üçün frontal sorğu keçirir:

– Hansı əfsanələri xatırlayırsınız?
– Nə üçün onlar əfsanə adlanır?
– Hansı rəvayətləri xatırlayırsınız?
– Sizcə, əfsanə və rəvayətlərin fərqi nədir?

**Müəllimin nəzərinə!** Əfsanə və rəvayətlər həcmcə qısa, nağıllar isə geniş olur. Əfsanədə möcüzəli hadisələr təsvir edilir. Rəvayət isə daha çox tarixi şəxsiyyətlərlə bağlı olur, adətən, "Deyilənə görə", "Rəvayətə görə" sözləri ilə başlayır.

### Oxu. Söz ehtiyatı

**"Tusi və Hülakü xan" mətni üzrə iş. Səssiz oxu.** Mətn səssiz oxunur. Şagirdlər mətndən tanış olmayan sözləri dəftərlərinə qeyd edirlər.

2.1.2 **Tapşırıq B (dərslik).** "İnşa" sözünün mətndə işləndiyi məna müəyyənləşdirilir.

**Düzgün cavab:** Mətndə "inşa" sözü "yaratma, qurma, tikmə" mənasında işlənmişdir.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C (dərslik)**. Şagirdlər mətnlə bağlı faktoloji sualları cavablandırmaqla mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

2.2.5 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin mətndəki faktlar üzrə mülahizələr yürütmək bacarığının inkişafına yönəlib. Şagirdlər keçən dərsdə "astronomiya" sözünün mənası ilə tanış olublar. Bu da öz növbəsində tapşırığın asanlıqla yerinə yetirilməsinə kömək edir.

**Tapşırıq D (dərslik).** Şagirdlər rəvayət haqqında 3-cü sinifdə və bu dərsdə aldıqları məlumatlara istinad edərək "Tusi və Hülakü xan" mətninin rəvayət olduğunu əsaslandırırlar.

**Düzgün cavab:**

– Tarixi şəxsiyyətlərin adı çəkilib: Nəsirəddin Tusi, Əmir Teymur.

– Mətn "Deyilənə görə" sözləri ilə başlanıb.

**Tapşırıq E (dərslik).** Tapşırıq şagirdlərin obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirmək bacarığının inkişafına yönəlib. Tusi Hülakü xanı öz əsaslı arqumentləri ilə inandırır və rəsədxananın tikintisi üçün razılıq alır. Bu da onun çox ağıllı, məqsədyönlü olduğunu göstərir.

### Danışma

3.1.2 **Tapşırıq Ə (dərslik). Qruplarla iş.** Şagirdlər dərsliyin I hissəsində sitatlar haqqında məlumat alıblar. Müəllif yürütdüyü fikrə oxucularını inandırmaq üçün çox zaman sitatlardan istifadə edir. Bu tapşırıq vasitəsilə şagirdlərin bilikləri xatırladılır, sərbəst yazı bacarıqları inkişaf etdirilir. Şagirdlər qruplara ayrıldıqdan sonra tapşırıqda verilmiş aforizmlərlə tanış olurlar. Uyğun situasiyalar düşünərək təqdim olunmuş fikri əsaslandırmaq üçün tapşırıqda verilmiş aforizmlərdən istifadə edirlər.

Müəllim şagirdlərin yazılarını dinlədikdən sonra aşağıdakı hekayələri oxuya bilər:

***I Qrup:***

Gözəl gün idi. Elxan yaxşı bir iş görmək istəyirdi. O xəyallara daldı: "Əgər Leyla göldə batsa, onu xilas edərəm".

Elə bu vaxt balaca Leyla ona dedi: – Elxan, mənimlə oynayarsan? – Mane olma, Leyla. Özün tək oyna.

Elxan fikirləşdi: – Əgər canavar nənəmə hücum etsə, mən onu xilas edərəm.

Nənəsi Elxanı səslədi: – Elxan, bala, toyuqlara dən verərsən?

Elxan mızıldandı: – Nənə, işim var. Sonra.

Özü isə düşündü: “Əgər Toplan quyuya düşsəydi, onu xilas edərdim. Toplan quyruğunu bulaya-bulaya ona yaxınlaşdı. Sanki demək istəyirdi: – Elxan, mənə su ver.

Elxan ona tərəf acıqla baxdı: – Toplan, get buradan, mane olma. Elxan anasından soruşdu: – Anacan, yaxşı iş görmək üçün nə etmək lazımdır? Anası gülümsəyib dedi: – Leyla ilə oynaya bilərsən. Toyuqları yemləyə, Toplana su verə bilərsən.

***II Qrup***

Samir, Yusif və Nazim meşəyə getmişdilər. Onların başı oynamağa qarışdı. Bir də baxdılar ki, axşam düşüb. Narahat oldular. Valideynlərinə nə deyəcəkdilər.

Samir dedi:

– Mən deyəcəyəm ki, bizə canavar hücum etmişdi.

Yusif də bir az düşünüb dedi:

– Mən isə deyərəm ki, babamla rastlaşmışdım.

Nazim isə dedi:

– Mən isə düzünü deyəcəyəm. Doğru danışmaq həmişə asan olur.

Samir “canavar” haqqında danışmağa başlamışdı ki, atası dilləndi:

– Bizim meşələrdə canavar olmur axı.

Samirin atası oğlunun yalan danışmasına çox kədərləndi.

Yusif elə babasının adını çəkmişdi ki, babası qapını açıb içəri girdi. Yusifin anası oğlunun yalan danışmasını anlayıb çox təəssüfləndi.

Nazim isə gecikdiyi üçün üzr istədi. Bir daha məsuliyyətsizlik etməyəcəyinə söz verdi. Valideynləri onu bağışladılar.

***III Qrup***

Bir gün Tural dostları ilə məktəbdən qayıdırdı. O, yolun kənarında Səlim babanı gördü. Səlim baba fidanları yerə basdırırdı. Tural babasına yaxınlaşdı:

– Baba, nə edirsən?

– Ağac əkirəm. Qoy kəndimizə gedən yol kölgəlik olsun.

– Ay baba, niyə belə əziyyət çəkirsən? Bu fidanlar nə vaxt böyüyəcək?

– Tural, oğlum, yadında saxla, əgər xeyirli bir iş üçün əziyyət çəkirsənsə, gec-tez onun bəhrəsini görəcəksən. Bir gün mən olmasam da insanlar bu ağacların kölgəsində dincələcək, ağacı əkənə təşəkkür edəcəklər. Çalış pis işlər üçün əziyyət çəkməyəsən. Bax onda əziyyətin yerdə qalar, heç bir ləzzət almazsan.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin ssenari yazmaq bacarığının inkişafına yönəlib. Müəllim şagirdlərin diqqətini “ssenari” sözünə yönəldir və onlar üçüncü sinifdə bu haqda öyrəndiklərini xatırlayırlar. Şagirdlər əvvəlcə “Tusi və Hülakü xan” mətninin məzmununu xatırlayırlar daha sonra mətnə istinad edərək tapşırıqda verilmiş ssenarini tamamlayırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir. | Tap. A (D.) |
| Sözün mətndəki mənasını müəyyənləşdirir. | Tap. B (D.) |
| Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. | Tap. C (D.) |
| Mətndəki faktlar üzrə mülahizələr yürüdür. | Tap. Ç, D (D.) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tap. E (D.) |
| Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır. | Tap. Ə (D.), tap. A (İ.D.) |

**Növbəti dərsə hazırlıq:** Müəllimə növbəti dərsdə istifadə etmək üçün üzərində antonim sözlər yazılmış kartlar hazırlamaq tövsiyə edilir. Hər kartın üzərində bir söz yazılır (*soyuq, isti, pis, yaxşı, qara, ağ, aşağı, yuxarı, sağ, sol, kök, arıq, ucaboylu, gödək və sairə).*

## 3-cü dərs. Antonimlərin nitqdə rolu

• Dərslik: səh. 38 • İş dəftəri: səh. 23

**Təlim məqsədləri**

• Bədii nümunələrdə fikrin təsirli və dəqiq ifadə olunmasında yaxınmənalı və əksmənalı sözlərin rolunu müəyyən edir (st. 2.1.3).

• Mətndəki obrazlı ifadələri fərqləndirir və izah edir. (st. 2.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Üzərində antonim sözlər yazılmış kartlar vasitəsilə mövzunun xatırlanması |
| 2 | **Söz ehtiyatı** | Antonimlərin nitqdə rolu haqqında məlumatın verilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim üzərində antonim sözlər yazılmış kartları masanın üzərinə düzür. Şagirdlər bir-bir masaya yaxınlaşır, kartın birini götürür, oxuduğu sözə antonim söz söyləyirlər.

**Tapşırıq A (dərslik).** Şagirdlər cümləni oxuyur, əksmənalı sözləri müəyyənləşdirirlər.

**Faydalı məsləhət rubrikası.** Müəllim fikri və yaxud hissi daha qabarıq, təsirli ifadə etmək üçün antonimlərdən istifadə edildiyini nümunələrlə izah edir.

*Məsələn:* Bu bir həqiqətdir, düşüb dillərə,
İgid bir yol ölər, qorxaq min kərə.
(Nəbi Xəzri)

Bu nümunədə igid və qorxaq sözlərinin müqayisədə verilməsi fikrin daha təsirli çatdırılmasına imkan verir.

2.1.3 **Tapşırıq B (dərslik).** Şagirdlər antonimlərin nitqdə rolu haqqında aldıqları bilikləri tətbiq edirlər. Şagirdlər məntiqi təfəkkürlərinə əsasən yeri səhv düşmüş antonimləri müəyyən edərək atalar sözlərini yenidən düzgün şəkildə yazırlar.

**Düzgün cavablar:**
1. Böyük danışanı kiçik götürər.
2. Çox istəyən azdan da olar.
3. Qocadan demək, cavandan eşitmək.
4. Yaşın oduna quru da yanar.

**Tapşırıq C (dərslik).** Bu tapşırıqla şagirdlərin məntiqi təfəkkürü ilə yanaşı, atalar sözləri haqqında məlumatları da yoxlanılır.

**Düzgün cavablar:**
1. Gecənin xeyrindən, gündüzün şəri yaxşıdır.
2. Dost min isə azdır, düşmən bir isə çoxdur.
3. Acı danışan şirin söz eşitməz.
4. Yaxşı dostu, yaman gündə sına.
5. Aza qane olmayan çoxa yetişməz.

**“Diqqət et” rubrikası.** Bəzi şəkilçilər vasitəsilə düzələn əksmənalı sözlərin antonim hesab edilmədiyi şagirdlərin nəzərinə çatdırılır.

**Tapşırıq Ç (dərslik).** Şagirdlər antonim hesab edilməyən sözləri seçib cümlədə işlədirlər.

**Düzgün cavab:**
Duzlu – duzsuz, ağıllı – ağılsız, yazmaq – yazmamaq, dadlı – dadsız, mərd – namərd.

**Tapşırıq D (dərslik).** Şagirdlər Qaraca qız və Ağca xanım obrazlarının müqayisəsi üçün istifadə olunan antonimləri müəyyənləşdirirlər.

**Düzgün cavab:** zəngin – yoxsul, aciz – güclü, zərif – kobud.

2.1.3 **Tapşırıq A, B (iş dəftəri).** Möhkəmləndirmə xarakterli bu tapşırıqlar “Diqqət et” rubrikasında aldıqları biliklərin tətbiqinə imkan yaradır. Şagirdlər bir daha antonimlərin bədii əsərlərdəki rolunu hiss edirlər. **A** tapşırığında şagirdlər fərqləndirilmiş sözlərə antonim sözlər yazmaqla tapmacaları tamamlayırlar. Sonra çərçivədə verilmiş sözlərdən yararlanaraq onları cavablandırmağa çalışırlar. Tapşırıq şagirdlərə antonimlərin nitqdə rolunu bir daha izah etməklə yanaşı, onların söz ehtiyatının, məntiqi təfəkkürünün inkişafına yönəlib.

**Tapmacaların cavabı:**
1. *Ay,* 2. *dovşan,* 3. *kəpənək,* 4. *yağış,*
5. *balıq,* 6. *qoz*

**B** tapşırığında şagirdlər buraxılmış antonim sözləri əlavə etməklə mətni tamamlayırlar.

**Düzgün cavab:** Qızmar yay gedir. Əvəzinə sərin payız gəlir. Payızın ilk ayı havalar çox dəyişkən keçir: günün bir hissəsi günəşli, bir hissəsi buludlu olur. Buna görə də hava gah istiləşir, gah da soyuyur.

Havalar soyuduqca ağacların yarpaqları rəngini dəyişir. Ətraf al-əlvan rəngə boyanır. Bu rəngarənglik qəlblərdə şən hisslər oyadır. Elə təəssürat yaranır ki, bütün Yer kürəsi bayram edir. Heç bir yerdə kədərli heç nə yoxdur. Hər yerdə sakitlikdir, hamı xoşbəxtdir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii nümunələrdə fikrin təsirli və dəqiq ifadə olunmasında yaxınmənalı və əksmənalı sözlərin rolunu müəyyən edir. | Tap. A, B, C, Ç, D (D.)<br>Tap. A, B (İ.D.), |

## 4-cü dərs. Sözlərin qrammatik mənasının müəyyənləşdirilməsi

• Dərslik: səh. 39 • İş dəftəri: səh. 24

**Təlim məqsədləri**

• Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.2).
• Mürəkkəb cümlənin tərkib hissələri arasında vergül işarəsindən istifadə edir (st. 4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Söz birləşmələrinin yaradılması |
| 2 | **Dil qaydaları** | Omonim sözlərin kontekstə görə mənasının müəyyənləşdirilməsi; sözlərin qrammatik xüsusiyyətlərinin müəyyənləşdirilməsi; Vergül işarəsinin istifadəsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Bu tapşırıq motivasiya xarakteri daşıyır. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə kömək edə bilər:

– "Solmaz uzun hörüklərinə göy lent bağlamışdı" cümləsində göy sözü hansı suala cavab verir?

– Bu cümlədə "göy" sözü lentin hansı əlamətini göstərir?

– "Göydə buludlar uçuşurdu" cümləsində "göydə" sözü hansı suala cavab verir?

Sualları cavablandırmaqla şagirdlərin diqqəti yazılışı və tələffüzü eyni, lakin mənaları fərqli olan sözlərə yönəldilir.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər artıq əsas və köməkçi nitq hissələri haqqında məlumat alıblar. Müəllim buna istinad edərək rubrikadakı məlumatları şərh edir.

2.1.2 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin cümlənin kontekstinə görə sözlərin mənasını izah etmək bacarığını inkişaf etdirir, nitq hissələri haqqında aldıqları bilikləri tətbiq etmək üçün imkan yaradır. Bu tapşırığın kollektiv şəkildə yerinə yetirilməsi tövsiyə edilir. Müəllim yönəldici suallar vasitəsilə şagirdləri istiqamətləndirir və onların diqqətini birinci iki cümləyə yönəldir:

1. Yaxşı, daha sözün yoxdursa, gedək.
2. Yaxşı oğul neynər ata malını...

– Hansı cümlədə "yaxşı" sözü "hansı" sualına cavab verir? Bu cümlədə "yaxşı" sözü hansı varlığa aiddir? Əlamət bildirir, yoxsa keyfiyyət? Əgər söz suala cavab verirsə, deməli, bu söz əsas nitq hissəsinə aiddir.

– Hansı cümlədə "yaxşı" sözü suala cavab vermir, heç bir varlığa aid deyil, sadəcə münasibət ifadə edir, cümlədə digər sözlərdən vergül vasitəsilə ayrılıb? Deməli, bu cümlədə "yaxşı" sözü modal sözdür.

Bu üsulla digər cümlələr də oxunur və tapşırıq yerinə yetrilir.

**Tapşırıq A, B (iş dəftəri).** Tapşırıqlar cümlənin məzmununa görə sözlərin mənasını izah etmək bacarığını möhkəmləndirir.

**İş dəftərində verilmiş A tapşırığının düzgün cavabı:**

1. *feil*, 2. *ədat*, 3. *modal sözlər*, 4. *feil*, 5. *nida*, 6. *isim*.

**İş dəftərində verilmiş B tapşırığının düzgün cavabı:**

1 – b; 2 – c; 3 – a.

**Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin diqqətini "ki" sözünün müxtəlif qrammatik məna

daşımasına yönəldir. Daha sonra müəllim "Diqqət et" rubrikasındakı məlumatları şərh edir. Bu məlumatın verilməsinin başlıca səbəbi vergül işarəsinin işlənmə yerini göstərmək və şagirdlərdə düzgün yazı bacarığının yaradılmasıdır.

4.1.5 **Tapşırıq Ç (dərslik).** Tapşırıq "Diqqət et" rubrikasında verilmiş məlumatların möhkəmləndirilməsinə xidmət edir.

**Düzgün cavab:** Tapşırıqda verilmiş 2, 4 və 5-ci cümlədə "ki" bağlayıcıdır və ondan sonra vergül işarəsi qoyulacaq.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər aşağı siniflərdə bağlayıcılar haqqında məlumat alarkən "amma", "ancaq", "lakin" sözlərinin sinonim bağlayıcı olduğunu öyrəniblər. Bu tapşırığı yerinə yetirməklə, daha bir məlumat alırlar. "Ancaq" sözünü amma, lakin ilə əvəz etmək mümkündürsə, bağlayıcıdır. "Ancaq" sözünü yalnız, təkcə sözləri ilə əvəz etmək mümkündürsə, bu, ədatdır.

**Düzgün cavab:**
1. yalnız (*ədat*), 2. amma (*bağlayıcı*),
3. lakin (*bağlayıcı*), 4. təkcə (*ədat*).

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir. | Tap. B (D.), tap. A, B, C (İ.D.) |
| Mürəkkəb cümlənin tərkib hissələri arasında vergül işarəsindən istifadə edir. | Tap. B (D.) |

**Növbəti dərsə hazırlıq:** Müəllimə növbəti dərs şagirdlərə nümayiş etdirmək üçün "Makedoniyalı İsgəndər" kitabını əldə etmək tövsiyə edilir.







fəsil 2 **FATEHLƏR**

## 1-ci dərs. İsgəndər haqqında rəvayətlər

• Dərslik: səh. 40-41 • İş dəftəri: səh. 25

**Təlim məqsədləri**
- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
- Mətni intonasiya ilə oxuyur (st. 2.2.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
- Mətndəki obrazları xarakterizə edir (st. 2.2.3).
- Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir (st. 2.2.6).

**Köməkçi vasitələr:** kitablar.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Makedoniyalı İsgəndər" kitabının şagirdlərə nümayişi |
| 2 | **Danışma** | Mövzu ilə bağlı fikirlərin müzakirəsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | Makedoniyalı İsgəndər haqqında rəvayətlərin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Faktoloji sualların cavablandırılması; obrazların davranışlarına münasibət bildirilməsi, obraz xəritəsinin tərtib olunması, hadisələrin davamının təxmin edilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Makedoniyalı İsgəndər" kitabını şagirdlərə nümayiş etdirir.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər "Makedoniyalı İsgəndər" kitabının üz qabığına baxır, vərəqləyir, illüstrasiyalarına nəzər salır və kitab haqqında məlumatı oxuyurlar. Şagirdlər diqqətlərini cəlb edən məqamları və bu kitabı oxumaq istəmələrinin səbəbini izah edirlər.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Makedoniyalı İsgəndər haqqında rəvayətlər. Rollu oxu.** Əvvəlcə şagirdlər rəvayətləri səssiz oxuyurlar. Bu zaman obrazların

nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Müəllim rollar üzrə bölgü aparır. Bu dəfə şagirdlər mətni səsli oxuyurlar. Müəllim şagirdlərin jest və mimikalardan düzgün istifadə etmələrinə, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirmələrinə diqqət yetirir.

Şagirdlər söz boğçasında verilən sözlərin iştirak etdiyi cümlələri bir daha oxuyur, cümlənin məzmununa görə mənalarını izah edir, sonra isə lüğət vasitəsilə dəqiqləşdirirlər.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər cümlələri tamamlamaqla mətnləri diqqətlə oxuyub-qavradıqlarını nümayiş etdirirlər. Müəllim cümlələrin sayını artıra bilər.

2.2.3 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin məntiqi təfəkkürünün, analizetmə, nəticəçıxarma bacarıqlarının inkişafına yönəlib. Şagirdlər mətnlərdən uyğun epizodlara istinad edərək İsgəndərin xüsusiyyətlərini müəyyənləşdirirlər.

**Cavablar təxminən belə ola bilər:**

**Xarakteri:** müşahidəçi.

**Əsaslandırma:** İsgəndər görürdü ki, at öz kölgəsindən qorxur. Ona görə də atın yüyənindən tutub üzü günəşə tərəf çevirir. Bundan sonra o, ata minib çapmağa başlayır.

**Xarakteri:** ədalətli.

**Əsaslandırma:** Susuz çöllərdə döyüşçülərinə baxıb "Mən suyu tək içsəm, onlar ruhdan düşərlər" deyir və su içmir.

– **Xarakteri:** özgüvənli, hazırcavab.

**Əsaslandırma:** İran hökmdarı Dara öz dövlətinin böyük bir hissəsini təklif edərək döyüşü dayandırmaq istəyir. Sərkərdələrdən biri bunu eşidəndə İsgəndərə deyir:

– Mən İsgəndər olsaydım, razılaşardım.

– Mən də razılaşardım, – deyə İsgəndər cavab verir, – əgər İsgəndər olmasaydım.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərdə obrazlar xəritəsinin hazırlanması bacarığının möhkəmləndirilməsinə xidmət edir.

**Müəllimin nəzərinə!** Dərslikdə verilmiş Ç tapşırığının icrası bu tapşırığın asanlıqla yerinə yetirilməsinə zəmin yaradır.

**"Diqqət et" rubrikası.** Müəllim lakonik ifadələrin fikri yığcam, konkret və daha təsirli ifadə etməsini nümunələrlə göstərmək üçün aşağıdakı mətni səsləndirir:

*Molla Nəsrəddin yolla gedirdi. Çiynindən asdığı kisədən qorğa götürüb yeyirdi. Bərk külək əsirdi. Molla hər dəfə qorğanı ağzına qoymaq istəyəndə külək qorğanı əlindən alıb aparırdı. Bu vaxt qonşusu qarşısına çıxır. Kişi Mollanın nə isə yediyini görüb soruşur:*

*– Molla, nə yeyirsən?*

*Molla cavab verir:*

*– Belə getsə, heç nə.*

Şagirdlər Mollanın lakonik cavabını genişləndirərək ifadə edirlər. Yəni külək imkan vermir, əlimdəkiləri aparır, heç nə yeyə bilmirəm.

2.2.6 **Tapşırıq D (dərslik).** Tapşırıq oxuyub-qavrama və yazı məzmun xətləri arasında inteqrasiya yaradır. Şagirdlər "İsgəndərin cavabı" rəvayətini oxuduqdan sonra İsgəndərin Daraya verdiyi cavabı təxmin edirlər. İsgəndər Daraya məktub yazaraq onunla razılaşmadığını bildirir. Şagirdlər İsgəndərin Daraya məktubunu öz sözləri ilə yazırlar. Onlar fikirlərini qısa, lakin təsirli ifadə etməyə, situasiyaya uyğun lakonik ifadələr formalaşdırmağa çalışmalıdırlar. Bu onların fikri dərin və yığcam ifadə etmək bacarığının inkişafına xidmət edir. Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünün inkişafına xidmət edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (D.) |
| Mətni intonasiya ilə oxuyur. | Tap. B (D.) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. C (D.) |
| Mətndəki obrazları xarakterizə edir. | Tap. Ç (D.), tap. A (İ.D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. D (D.) |

## 2-ci dərs. "İsgəndərin buynuzu var..."

• Dərslik: səh. 42-43 • İş dəftəri: səh. 26

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st. 2.1.1).
• Sətiraltı fikri izah edir (st. 2.2.3).
• Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir (st. 2.2.4).
• Mətndə müəllif mövqeyini faktlardan, təxəyyülü real hadisədən fərqləndirir (st. 2.2.3).
• Qeyd götürməklə dinləyir (st. 1.1.1).
• Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st. 3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Makedoniyalı İsgəndər" mətni ilə bağlı frontal sorğu |
| 2 | **Danışma** | Mövzu ilə bağlı fikirlərin müzakirəsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | "İsgəndərin buynuzu var" mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Faktoloji sualların cavablandırılması; hadisənin səbəb və nəticəsinin müəyyən edilməsi; faktların seçilməsi |
| 5 | **Dinləmə** | "Böyük fateh" mətni üzrə iş; "Yaddaş xəritəsi" üzrə qeydlərin götürülməsi |
| 6 | **Yazı** | Dinləmə mətninin qısa məzmununun yazılması |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

"Makedoniyalı İsgəndər" haqqında rəvayətləri xatırlatmaq üçün frontal sorğu keçirilir.

### Danışma. Söz ehtiyatı

1.2.1 **Tapşırıq A (dərslik).** "Zülqərneyn" sözünün mənasını öyrəndikdən sonra şagirdlər İsgəndərin belə adlandırılmasının səbəbini təxmin edirlər.

### Oxu. Söz ehtiyatı

**İsgəndərin buynuzu var. Rollu oxu.** Əvvəlcə şagirdlər mətni səssiz oxuyurlar, obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Müəllim şagirdlər arasında rollar üzrə bölgü aparır. Bu dəfə mətn səsli oxunur. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan düzgün istifadə etmələrinə, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə səsləndirmələrinə diqqət edir.

Şagirdlər söz boğçasında verilən sözlərin işləndiyi cümlələri bir daha oxuyur, cümlənin məzmununa görə mənalarını izah edir, daha sonra isə lüğət vasitəsilə dəqiqləşdirirlər.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq B (dərslik).** Mətnin məzmunu ilə bağlı suallar şagirdlərin mətni diqqətlə oxuyub-qavradıqlarını yoxlamağa xidmət edir. Müəllim sualların sayını artıra bilər.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin kontekstə əsasən sözlərin mənasını izah etmək, məcazi mənalı sözləri fərqləndirmək bacarığının inkişafına yönəlib. Şagirdlər "Bütün elmlərin açarını qoymuşdu cibinə" deyildikdə İsgəndərin savadlı olmasının, mükəmməl təhsil almasının nəzərdə tutulduğunu təxmin edirlər.

2.2.3 **Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqda təqdim edilmiş şəklə yönəldir. Burada qədim Şərqdə sərkərdələrin istifadə etdiyi dəbilqənin şəkli verilmişdir. Şagirdlər dəbilqənin quruluşu ilə Zülqərneyn adı arasında əlaqə haqqında fikirlərini söyləyirlər.

**Müəllimin nəzərinə!** Əlbəttə, İsgəndərin buynuzunun olması haqqında məlumat xalqın, camaatın təxəyyülüdür. Çox güman ki, bu, sərkərdənin başına qoyduğu dəbilqənin quruluşu ilə, yəni dəbilqədə buynuzların olması ilə bağlıdır.

2.2.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətnin məzmunundan çıxış edərək hadisələrin səbəbini və nəticəsini müəyyənləşdirib cümlələri tamamlayırlar.

2.2.3 **Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin mətndəki məlumat və hadisələrin fakt və ya təxəyyül olduğunu fərqləndirmə bacarığının inkişafına yönəlib.

• İsgəndər Makedoniya hökmdarı Filipin oğlu olub.

• İsgəndərin atının adı Bukefal olub.
• Asiyada Bukefal adlı şəhər var.
• İsgəndər Hindistan üzərinə yürüş edib.
• Makedoniyalı İsgəndərlə İran hökmdarı Dara arasında müharibə olub.

## Dinləmə

1.1.1 **Tapşırıq E (dərslik).** Şagirdlərin tarixi-informativ mətndən qeyd götürmək bacarığını inkişaf etdirmək üçün dinləmə mətni üzrə iş aparılır. Müəllim mətni səsləndirməzdən öncə şagirdlərə yaddaş xəritəsindəki başlıqlar üzrə qeydlər götürməyi tapşırır.

**Böyük fateh.** Tarixin ilk nəhəng fatehi sayılan İsgəndər eramızdan əvvəl 356-cı ildə Makedoniyanın paytaxtı Pella şəhərində dünyaya gəlib. O, Makedoniya hökmdarı Filipin oğlu idi. Atası onun təlim-tərbiyəsinə ciddi fikir verirdi. İsgəndər kiçik yaşlarından Filipin generalı Lisimaxdan tərbiyə alıb. Oxumağı, lira çalmağı, at sürməyi, döyüşməyi öyrənib. İsgəndər hələ uşaq olarkən iti ağlı, qətiyyəti, cəsarəti, inadkarlığı, fiziki gücü ilə yaşıdlarından seçilib.

**Gəncliyi və təhsili.** İsgəndərin 13 yaşı olanda Filip görkəmli yunan filosofu Aristoteli saraya dəvət edir. İsgəndər 16 yaşına kimi Aristoteldən təbabət, fəlsəfə, əxlaq, din, məntiq və incəsənət sahələrində dərs alır. Gələcək hökmdar müəllimindən davranış qaydalarını, dövləti idarə etmənin sirlərini öyrənir.

**Hökmdarlıq illəri.** Atasının ölümündən sonra 20 yaşlı İsgəndər Makedoniyanın hökmdarı olur. 12 il ərzində uğurlu hərbi əməliyyatlar apararaq imperiyanın ərazilərini genişləndirir.

İsgəndər başqa sərkərdələrdən xeyirxahlığı və ədalətliliyi ilə fərqlənirdi. O zəbt etdiyi ərazilərdə yerli hakimləri dəyişmir, əhali ilə ehtiramla davranır, onların adət-ənənələrinə, dinlərinə hörmət edirdi.

Yunan tarixçisi Plutarx özünün «İsgəndər» əsərində yazır: «Qələbə çalan İsgəndər İran hökmdarı Daranın ailəsini əsir götürdü. Lakin hamıya tapşırdı ki, şah ailəsinə hörmətlə yanaşsınlar. Bu alicənablığına görə o, Asiya xalqları arasında böyük hörmət qazandı”.

İranı ələ keçirən İsgəndər 327-ci ildə Hindistana üz tutdu. Hindistanın padşahı Por İsgəndərin ordusuna qarşı saysız-hesabsız piyada və süvarilərdən başqa 300 döyüş fili də çıxardı. Lakin məğlubedilməz sərkərdə bu döyüşdən də qalib çıxdı. Poru əsir götürdü. Hind padşahının məğrurluğu İsgəndəri valeh etmişdi. Ona görə də tutduğu əraziləri idarə etməyi elə Porun özünə tapşırdı.

**Son illəri.** İsgəndərin növbəti hədəfi Avropa idi. O, Siciliya və İspaniyanı da tutmaq istəyirdi. Lakin xəstəliyi buna imkan vermədi. Yenilməz sərkərdə eramızdan əvvəl 323-cü ildə vəfat etdi.

İsgəndərin qurduğu imperiya onun ölümündən dərhal sonra parçalandı.

**Yaddaş xəritəsi üzrə qeydlər:**

**Uşaqlığı:**
• Eramızdan əvvəl 356-cı ildə anadan olub.
• Makedoniyanın paytaxtı Pella şəhərində dünyaya gəlib.
• Makedoniya hökmdarı Filipin oğludur.

**Təhsili:**
• Yunan filosofu Aristotelin tələbəsi olub.
• Təbabət, fəlsəfə, əxlaq, din, məntiq və incəsənət üzrə dərs alıb.

**Hökmdarlıq illəri:**
• İsgəndər 20 yaşında hökmdar olub.
• 12 il hökmdarlıq edib.
• İran, Hindistan üzərinə yürüşlər edib.
• İmperiyasının ərazilərini genişləndirib.

**Son illəri:**
• Eramızdan əvvəl 323-cü ildə vəfat edib.
• İmperiyası ölümündən dərhal sonra parçalanıb.

## Yazı

3.1.1 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin yazılı nitqinin inkişafına yönəldilmişdir.

## Oxuyub-qavrama

2.2.2 **Tapşırıq Ə (dərslik).** Şagirdlər bir neçə dərsdir ki, Makedoniyalı İsgəndər haqqında müxtəlif mənbələrdən məlumat alıblar. Tapşırıq şagirdlərin materialı nə dərəcədə mənimsədiklərini yoxlamağa imkan yaradır.

**Düzgün cavab:**

1. rəvayət; 2. nağıl; 3. informativ mətn; 4,5. rəvayət; 6. informativ mətn; 7. nağıl.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A (D.) |
| Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. | Tap. B, Ə (D.) |
| Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir. | Tap. C (D.) |
| Sətiraltı fikri izah edir. | Tap. Ç (D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir. | Tap. A (İ.D.) |
| Mətndə müəllif mövqeyini faktlardan, təxəyyülü real hadisədən fərqləndirir. | Tap. D (D.) |
| Qeyd götürməklə dinləyir. | Tap. E (D.) |
| Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir. | Tap. B (İ.D.) |

**Növbəti dərsə hazırlıq:** Müəllimə növbəti dərs üçün sinonim sözlər işlənmiş kiçik şeir parçaları əldə etmək tövsiyə olunur.

## 3-cü dərs. Sinonimlərin nitqdə rolu

• Dərslik: səh. 44 • İş dəftəri: səh. 27

**Təlim məqsədləri**

• Yaxınmənalı və əksmənalı sözlərin köməyi ilə söz və ifadələri izah edir. (st. 2.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Yaxınmənalı sözlərin xatırlanması |
| 2 | **Dil qaydaları** | Sinonimlərin nitqdə rolunun mənimsədilməsi; bir-birini əvəz etməyən yaxınmənalı sözlərin mənimsədilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim Səməd Vurğunun "Azərbaycan" şeirindən iki bəndi şagirdlərə təqdim edir:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam, məskənimsən,*
*Anam, doğma vətənimsən!*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

*Mən bir uşaq, sən bir ana,*
*Odur ki bağlıyam sana.*
*Hankı səmtə, hankı yana*
*Hey uçsam da, yuvam sənsən,*
*Elim, günüm, obam sənsən.*

Şagirdlər şeiri oxuyur, yaxınmənalı sözləri seçirlər: el, oba, yurd, yuva, məskən, vətən.

**Tapşırıq A, B (iş dəftəri).** Tapşırıqlar şagirdlərə aşağı siniflərdə keçdikləri yaxınmənalı sözlər haqqında məlumatları, söz ehtiyatını xatırladır.

2.1.4. **Tapşırıq A (dərslik).** Şagirdlər tapşırıqda təqdim edilmiş cümlələri oxuyur, fərqləndirilmiş sözlərə diqqət edirlər. İkinci cümlədə təkrarlanan "danışılır" sözünü "bəhs edilir" sözü ilə əvəz edirlər.

**"Yadda saxla" rubrikası.** Müəllim sinonimlərin nitqdəki rolunu izah edir.

**Tapşırıq B (dərslik). Tapşırıq C (iş dəftəri).** Şagirdlər cümlələrdə təkrarlanan ifadələri müəyyənləşdirir, həmin ifadələri yaxınmənalı sözlərlə əvəz edirlər.

**Dərslikdə verilmiş B tapşırığının düzgün cavabı:**

1. özündən çıxarmışdı 2. başa saldı
3. bir neçə dəfə, dönə-dönə 4. al-əlvan

**İş dəftərində verilmiş C tapşırığının düzgün cavabı:**

1. düşünürdü 2. gözəl 3. xeyli 4. maraqla

**"Diqqət et" rubrikası.** Müəllim "Diqqət et" rubrikasındakı məlumatları şərh edir.

**Müəllimin nəzərinə!** Sinonimlər məna çalarlığına, üslubi xüsusiyyətlərinə görə bir-birindən fərqlənə bilər. Belə sinonimlər cümlənin kontekstinə əsasən, bəzən bir-birini əvəz etmir. Məsələn: könül, ürək, qəlb sözlərinin yaxınmənalı olmasına baxmayaraq, "Onun ürəyi ağrıyır" cümləsində *könül* sözü *ürək* sözünü əvəz edə bilmir.

**Tapşırıq C (dərslik).** Cümlələr uyğun gələn sinonim söz artırmaqla tamamlanmalıdır.

**Düzgün cavab:**

1. Qarşıda gözəl mənzərə açılırdı.
2. Əsgərlər qəhrəmancasına döyüşürdülər.
3. Səbuhiyə yüksək vəzifə verildi.
4. Böyük danışanda kiçik qulaq asar.
5. Vüqar 100 metr məsafəni 14 saniyəyə qaçdı.

**Tapşırıq Ç (dərslik).** Sinonimlər və antonimlər haqqında biliklərin tətbiqi ilə yanaşı, məntiqi təffəkkürü də inkişaf etdirir.

**Düzgün cavab:**

1. uca – hündür; 2. böyük – balaca.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fikrin dəqiq ifadə olunmasında yaxınmənalı sözlərin rolunu müəyyən edir. | Tap. C (D.), tap.A (İ.D.) |
| Cümlədəki sözü yaxınmənalı qarşılığı ilə əvəz edir. | Tap. A, B (D.), tap. B, C (İ.D.) |
| Mürəkkəb sözün tərkib hissələri arasındakı məna əlaqəsini müəyyən edir. | Tap A (İ.D.) 4.1.1. |

## 4-cü dərs. Mürəkkəb feillər

• Dərslik: səh. 45 • İş dəftəri: səh. 28

**Təlim məqsədləri**

• Sözlər arasında uyğunluğu müəyyən edərək mürəkkəb sözlər düzəldir (st. 4.1.1).
• Mürəkkəb sözləri tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək düzgün yazır (st. 4.1.2).

**Dərsin qısa plan**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mürəkkəb sözlər haqqında biliklərin xatırlanması |
| 2 | **Dil qaydaları** | Mürəkkəb feillərin yaranma yollarının və yazılış qaydalarının mənimsədilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim mürəkkəb sözlərin tərkib hissəsi olan müxtəlif sözlər yazır. Şagirdlər bu sözlərə uyğun sözlər əlavə edərək mürəkkəb sözlər yaradırlar. Beləliklə, şagirdlərin diqqəti mürəkkəb sözlərə cəlb edilir.

### Dil qaydaları

**Tapşırıq A (dərslik).** Motivasiya xarakterli bu tapşırıq şagirdlərin mürəkkəb sözlər haqqında aldıqları biliklərin tətbiqinə yönəldilib.

**“Bunları bilməliyik” rubrikası.** Müəllim “Bunları bilməliyik” rubrikasındakı sxemi şərh edərək şagirdlərə mürəkkəb feillərin yaranma yolları haqqında məlumat verir.

4.1.1 **Tapşırıq B (dərslik).** Mürəkkəb feillərin yaranma yolları haqqında məlumatların möhkəmləndirilməsinə yönəlib.

**Düzgün cavab:**

1. çalışıb-vuruşmaq, bitib-tükənmək
2. açıb-bağlamaq, yazıb-pozmaq, oturub-durmaq
3. kömək eləmək, cəlb etmək, etiraz etmək, muğayat olmaq, həsr etmək.

**Tapşırıq C (dərslik).** Şagirdlər istifadə üçün verilən sözlərdən mürəkkəb feillər yaradırlar: atılıb-düşmək, silib-süpürmək, danışıb-gülmək, dərk etmək, yanıb-sönmək, küsüb-barışmaq, açıb-örtmək, peşman olmaq.

4.1.2 **Tapşırıq Ç (dərslik), A (iş dəftəri).** Tapşırıqlarda düzgün yazılış qaydalarına riayət etməklə mürəkkəb feillər yaratmaq və onları uyğun cümlələrdə işlətmək tələb olunur.

**Dərslikdə verilmiş Ç tapşırığının düzgün cavabı:**

1. bəzənib-düzəndi. 2. əkib-becərmişdi.
3. saralıb-solmuşdu. 4. izah etdi.

**Tapşırıq A (iş dəftəri).**

**Düzgün cavab:**

1. təkrar etdik. 2. qadağan etmişdilər.
3. məşğul olmuşdu. 4. xarab olmuşdu.

**Tapşırıq C (iş dəftəri).**

**Düzgün cavab:**

hoppanıb-düşmək, dəyib-dolaşmaq, keçib-getmək, xilas etmək, əngəl olmaq, ölçüb-biçmək.

**Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq şagirdlərin feilin quruluşca növləri haqqında biliklərini yoxlamağa imkan yaradır.

**Düzgün cavab:**

I sütunda "mane olmaq" mürəkkəb, digərləri isə düzəltmə feildir.

II sütunda "bişirib-düşürmək" mürəkkəb, digərləri isə sadə feillərdir.

III sütunda "danışmaq" sadə, digərləri isə mürəkkəb feillərdir.

**Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq şagirdlərin diqqətini mürəkkəb sözlərlə bağlı daha bir məqama yönəldir. Müəllim qeyd edir ki, bəzi mürəkkəb feillər yalnız "olmaq", və yaxud "etmək" sözləri ilə, bəziləri isə həm "olmaq", həm də "etmək" sözləri ilə yaranır.

**Düzgün cavab:**

**1-ci sütun:** and-aman etmək, bəhs etmək, cəhd etmək, mübahisə etmək.

**2-ci sütun:** bələd olmaq, mane olmaq, müğayat olmaq, göz-qulaq olmaq.

**3-cü sütun:** daxil olmaq, daxil etmək, əmin olmaq, əmin etmək, xilas olmaq, xilas etmək, peşman olmaq, peşman etmək.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb sözün tərkibinə daxil olan sözləri mənasına görə fərqləndirir. | Tap. B (D.) |
| Feilləri quruluşuna görə fərqləndirir. | Tap. Ç (İ.D.) |
| Mürəkkəb sözləri tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək düzgün yazır. | Tap. C, Ç (D.), tap. B, C (İ.D.) |
| Sözlər arasında uyğunluğu müəyyən edərək mürəkkəb sözlər düzəldir. | Tap. C (İ.D.) |
| Cümləni uyğun mürəkkəb feillə tamamlayır. | Tap. Ç (D), tap. A (İ.D.) |

fəsil 3

# ADİL HÖKMDAR

## 1-ci dərs. Şah Abbas və qarı

• Dərslik: səh. 46-47 • İş dəftəri: səh. 29

**Təlim məqsədləri**

• Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.2).
• Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st. 2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. (st. 2.2.2).
• Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir (st. 2.2.4).
• Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərə münasibət bildirir (st. 2.2.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tapşırıqda verilmiş suallar ətrafında müzakirə |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Şah Abbas və qarı" mətninin oxusu. "Söz boğçası" üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu ilə bağlı sualların cavablandırılması, hadisənin səbəb və nəticəsinin müəyyənləşdirilməsi; fakt və fikirlərə münasibət bildirilməsi; hekayə xəritəsinin tərtibi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə (Danışma)

**Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti tapşırıqda verilmiş motivasiya sualına yönəldilir. Şagirdlərin fikirləri dinlənilir. Müəllim ehtiyac olduqca şagirdlərə fikirlərini tam ifadə etmələri üçün yardımçı suallar da verə bilər.

### Oxu. Söz ehtiyatı

2.1.1 **"Şah Abbas və qarı" mətni üzrə iş. Səssiz oxu.** Şagirdlər mətni səssiz oxuyur, tanış olmayan sözləri dəftərlərinə qeyd edirlər. Şagirdlər əvvəlcə qeyd etdikləri və "söz boğçası"ndakı sözlərin mənasını kontekstə əsasən təxmin edir, sonra isə lüğət vasitəsilə dəqiqləşdirilər. Daha sonra şagirdlər onları müxtəlif cümlələrdə işlədirlər.

**2.1.2** **Tapşırıq B (dərslik).** Mətndə "yal" sözünün "itə vermək üçün hazırlanan yemək" mənasında işləndiyini müəyyənləşdirən şagirdlər onu digər mənalarda da cümlədə işlədirlər.

*Məsələn*: Koroğlu Qıratın yalını tumarlayırdı. Sabir yala dırmanıb kəndə gələn yola baxdı.

**2.1.1** **Tapşırıq C (dərslik).** Şagirdlər "öz hesabını götürmək" deyildikdə Şah Abbasın qarının dediyi sözlərdən nəticə çıxarmasının nəzərdə tutulduğunu təxmin edirlər.

## Oxuyub-qavrama

**2.2.2** **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyənləşdirmək məqsədi daşıyır.

**2.2.4** **Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin mətndəki hadisələri analizetmə və səbəb-nəticə əlaqəli hadisələri uyğunlaşdırma bacarığını inkişaf etdirir. Müəllim şagirdlərin diqqətini qarının itə dediyi sözlərə yönəldir və onun nə üçün şah Abbası məğmun adlandırmasının səbəbini soruşur.

**Cavab təxminən belə ola bilər:** Qarı səbirlə hərəkət etməyi, əvvəlcə şəhəri mühasirəyə almağı məsləhət görür.

**2.2.5** **Tapşırıq E (dərslik).** "Şah Abbas və qarı" tarixi şəxsiyyət haqqında bir rəvayətdir. Adətən, belə rəvayətlərdə adı çəkilən tarixi şəxsiyyət haqqında, onun yaşadığı dövr haqqında tarixi faktlar öz əksini tapır.

**Düzgün cavab:**

• Şah Abbasın Tiflisə hücumu;

• Qazaxın Tağarbəyli kəndinin adının dəyişdirilməsi, Abbasbəyli qoyulması.

**Tapşırıq Ə (dərslik).** Şagirdlər mətnin məzmununa əsaslanmaqla Qazaxın Tağarbəyli kəndinin adının dəyişdirilməsinin səbəbini mətnə istinad edərək izah edirlər. Bununla da demək olar ki, yer adları bəzən tarixdə iz qoymuş şəxsiyyətlərlə bağlı olur.

**2.2.2** **Tapşırıq A (iş dəftəri).** Şagirdlər "Şah Abbas və qarı" mətninə aid hekayə xəritəsi tərtib edirlər. Hekayə xəritəsi üzrə müstəqil iş şagirdlərin mətni nə dərəcədə qavradıqlarını öyrənməyə imkan verir.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir. | Tap. B (D.) |
| Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir. | Tap. C (D.) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. Ç (D.), tap. A (İ.D.) |
| Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir. | Tap. D (D.) |
| Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərə münasibət bildirir. | Tap. E, Ə (D.) |

## 2-ci dərs. Böyük Abbas

• Dərslik: səh. 48-49 • İş dəftəri: səh. 30

### Təlim məqsədləri

• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. (st. 2.2.2).
• Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir (st. 2.2.4).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 2.2.3).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st. 3.1.3).
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 3.1.2).
• Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır (st. 1.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Şah Abbas və qarı" mətni ilə bağlı frontal sorğu |
| 2 | **Oxuyub-qavrama** | Faktoloji sualların cavablandırılması; faktları müqayisə etməklə yeni informasiyanın əldə edilməsi; fikirlərin əsaslandırılması |
| 3 | **Yazı** | Məlumat vərəqinin hazırlanması; tarixi-informativ mətnin yazılması |
| 4 | **Danışma** | Müzakirə |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim keçən dərs oxunmuş mətni xatırlatmaq üçün frontal sorğu keçirir.

**Tapşırıq A (dərslik). Kollektiv iş.** Müəllim lövhədə BİBÖ cədvəli çəkir. Şagirdlər Şah Abbas haqqında bildiklərini söyləyirlər. Müəllim cədvəldə qısa qeydlər aparır. Bundan sonra şagirdlər Şah Abbas haqqında öyrənmək istədikləri məlumatlar barədə suallar tərtib edirlər. Təxminən aşağıdakı suallar ola bilər:

– Şah Abbas kim idi?
– O hansı dövlətin hökmdarı olub?
– Onun hansı xüsusiyyətləri olub?
– Dövləti üçün hansı işləri görüb? və s.

Müəllim BİBÖ cədvəlində şagirdlərin suallarını ümumiləşdirib müəyyən qeydlər aparır.

### Oxu. Söz ehtiyatı

**İstiqamətləndirilmiş oxu.** Şagirdlər yazdıqları suallara cavab tapmaq üçün mətni növbə ilə səsli oxuyurlar. Mətndən tanış olmayan sözləri dəftərlərinə qeyd edirlər. Şagirdlər qeyd etdikləri və "söz boğçası"ndakı sözlərin mənasını kontekstə əsasən təxmin edir, daha sonra isə lüğət vasitəsilə dəqiqləşdirilər.

2.1.1 **Tapşırıq A (İş dəftəri).** Tapşırıq yeni sözlərin mənimsədilməsinə yönəldilib.

**Düzgün cavab:** 1 – C, 2 – A, 3 – Ç, 4 – B.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq B (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyənləşdirmək məqsədi daşıyır.

2.2.4 **Tapşırıq C (dərslik).** Bu tapşırıq şagirdlərin dil bacarıqları ilə yanaşı, riyazi təfəkkürünü də yoxlayır. Şagirdlər "Böyük Abbas" mətnindəki faktlardan istifadə etməklə misal qurur, mətndə birbaşa əks olunmayan məlumatları əldə edirlər.

**Düzgün cavab:**

Anadan olmuşdur: 1571-ci il.
Vəfat etmişdir: 58 yaşında.
Vəfat etdiyi il: 1571 + 58 = 1629

2.2.3 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin xarakterizə etmək, nəticə çıxarmaq bacarıqlarının inkişafına yönəlib.

**Düzgün cavab:**

**1-ci fikirlə bağlı əsaslandırma:** I Şah Abbas qısa müddətdə dövlətini çətin vəziyyətdən qurtarmaq üçün bir çox işlər görüb. Ölkəsində nizam-intizam yaradıb, dövlətin təhlükəsizliyini qorumaq üçün nizami ordu qurub.

**2-ci fikirlə bağlı əsaslandırma:** I Şah Abbas əhalinin vəziyyətini yaxından öyrənmək üçün tez-tez libasını dəyişər, xalqın içində gəzərdi. Camaatı aldadanları dərhal cəzalandırardı. O, problemi müharibə ilə deyil, sülh yolu ilə həll etməyə çalışardı. Lakin müharibə başlanardısa, mükəmməl sərkərdə kimi döyüş meydanında ordusuna rəhbərlik edər, cəsur döyüşçü kimi özünü təhlükəyə atmaqdan çəkinməzdi.

**3-cü fikirlə bağlı əsaslandırma:** O, alimləri, şairləri yüksək qiymətləndirir, onları saraya dəvət edir, yazıb-yaratmağa ruhlandırırdı.

**4-cü fikirlə bağlı əsaslandırma:** "Şah Abbas və qarı" rəvayəti buna nümunə ola bilər.

**Tapşırıq D (dərslik).** Şagirdlərin mətnləri nə qədər diqqətlə oxuduqlarını üzə çıxarır.

**Düzgün cavab:**

Hər iki mətndə I Şah Abbasın tez-tez libasını dəyişib xalqın içində olması, əhalinin qarşılaşdığı problemlərlə yaxından tanış olmağı haqqında məlumat verilib.

### Yazı

3.1.3 **Tapşırıq B (iş dəftəri).** Oxuyub-qavrama və yazı bacarıqlarının inkişafına yönəlib. Eyni zamanda dərslikdəki **E** tapşırığının asanlıqla yerinə yetirilməsinə imkan verir. Şagirdlər I Şah Abbas haqqında tarixi-informativ mətn yazarkən məlumat vərəqindən istifadə edə bilərlər.

**3.1.2** **Tapşırıq E (dərslik).** Tapşırıq oxu və yazı məzmun xətlərinin inteqrasiyasına imkan yaradır. Şagirdlər oxuduqları mətnlərə, tapşırıqda verilmiş məlumata istinad edərək I Şah Abbas haqqında tarixi-informativ mətn yazırlar. Müəllim əvvəlcə şagirdlərin diqqətini tapşırıqdakı plana yönəldir. Şagirdlər planın bəndlərini oxuyur, yazacaqları məlumatları müzakirə edirlər. Mətn təxminən belə ola bilər:

**Səfəvi hökmdarı**

*I Şah Abbas görkəmli Səfəvi hökmdarı olub. O, 1587-ci ildə, 16 yaşında taxta çıxıb.*

*I Şah Abbas ortaboylu, yaşılgözlü bir şəxs idi. Nazik, ucları yuxarıya doğru qaldırdığı bığları ona xüsusi yaraşıq verirdi. O, təmtərağı sevməz, bir qayda olaraq sadə geyinərdi. Demək olar ki, zinət əşyalarından istifadə etməzdi. Təkcə qılıncının qəbzəsi qızıldan idi.*

*I Şah Abbas xalqın qayğısına qalan, cəsur, tədbirli, ədalətli, geniş dünyagörüşünə malik hökmdar idi. O, əhaliyə bərəkətli torpaqlar, sürülər bağışlamaqdan, mal-pul paylamaqdan yorulmazdı. Yəqin ki, elə bu xüsusiyyətləri ona xalq arasında böyük hörmət qazandırmışdı. Təsadüfi deyil ki, o, bir çox nağılların, rəvayətlərin qəhrəmanına çevrilmişdir.*

*I Şah Abbas uğurlu hərbi əməliyyatları, geniş quruculuq işləri ilə yadda qalıb. Hakimiyyətə gəldiyi ilk gündən dövlətini çətin vəziyyətdən qurtarmaq üçün bir çox işlər görüb. İlk növbədə nizami ordu yaradıb, doğma ana dilinə önəm vemişdi. Onun tələbi ilə sarayda hamı Azərbaycan dilində danışırdı. Hətta italyan səyyahı Della Valle bu haqda öz xatirələrində yazır: "Şah mənim Azərbaycan dilini bilib-bilmədiyimi soruşdu, "Xoş gəldin, səfa gəldin" deyərək səyahətimin səbəbləri haqda məni bu dildə sorğu-sual etdi".*

### Danışma

**1.2.1** **Tapşırıq Ə (dərslik).** Tapşırıq şagirdlərin müəyyən fikirlə bağlı öz mövqeyini bildirmək, fikirlərini arqumentlər gətirməklə əsaslandırmaq bacarığını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. A (İ.D.) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. B (D.) |
| Mətndəki faktları, məlumat və illüstrasiyaları müqayisə etməklə yeni informasiya əldə edir. | Tap. C (D.) |
| Mətndəki faktlara əsasən verilmiş fikirləri əsaslandırır. | Tap. Ç (D.) |
| Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. D (D.) |
| Məlumatları qrafik informasiya (məlumat vərəqi, cədvəl, diaqram, sxem) şəklində təqdim edir. | Tap. B (İ.D.) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. E (D.) |
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. Ə (D.) |

## 3-cü dərs. Omonimlər və çoxmənalı sözlər

• Dərslik: səh. 50 • İş dəftəri: səh. 31

**Təlim məqsədləri**

• Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.2).
• Sözün həqiqi və məcazi (törəmə) mənaları arasındakı bağlılığı müəyyən edir (st. 2.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Keçilmiş biliklərin xatırlanması |
| 2 | **Söz ehtiyatı** | Çoxmənalı sözlərin və omonimlərin fərqləndirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Verilmiş motivasiya sualı ətrafında şagirdlərin fikirləri dinlənilir. Müəllim şagirdlərə fikirlərini tam ifadə etmələri üçün yardımçı suallar da verə bilər.

**Düzgün cavab:**

Varlıqlar müxtəlif olsa da, adları eynidir.

Əqrəb: a) *həşərat* c)*saatın əqrəbi,*

*Top:* b) *oyuncaq* *ç) silah növü*

Tapşırıq vasitəsilə şagirdlərin diqqəti yazılışı və tələffüzü eyni olan, lakin tamamilə müxtəlif mənalar bildirən sözlərə yönəldilir.

**Tapşırıq B (dərslik).** Motivasiya xarakterli bu tapşırıq diqqəti aşağı siniflərdə haqqında məlumat alınan çoxmənalı sözlərə cəlb edir.

> **Müəllimin nəzərinə!** Aşağı siniflərdə şagirdlər sözün həqiqi və məcazi mənası haqqında məlumat almışlar. Müəllimin şagirdlərə həmin məlumatları xatırlatması, nümunələr əsasında təkrarlaması məqsədəuyğun sayılır.

**“Bunları bilməliyik” rubrikası.** Müəllim “Bunları bilməliyik” rubrikasında verilmiş məlumatları şərh edir. Omonimlər və çoxmənalı sözlər arasındakı fərqi izah edir.

> **Müəllimin nəzərinə!** Omonimlər və çoxmənalı sözlər bir-birinə bənzəsələr də, müəyyən fərqləri var:
> – omonimlərin bütün mənaları fərqlidir;
> – omonim sözlərin hər bir mənası həqiqidir;
> – omonim sözlərin hər biri izahlı lüğətlərdə ayrıca söz kimi verilir.
> – omonimlər həm eyni, həm də müxtəlif nitq hissəsinə aid olur;
> – çoxmənalı sözlər arasında məna bağlılığı olur;
> – çoxmənalı sözlərin ilkin mənası həqiqi, sonradan törəyənlər isə məcazi olur;
> – çoxmənalı sözlər eyni nitq hissəsinə aid olur.

## Söz ehtiyatı

2.1.2 **Tapşırıq C (dərslik), A (iş dəftəri).** Tapşırıqlar şagirdlərin sözün kontekstə uyğun mənasını müəyyənetmə bacarığının inkişafına yönəlib.

**Dərslikdə verilmiş C tapşırığının düzgün cavabı:** 1 – b; 2 – c; 3 – a.

**İş dəftərində verilmiş A tapşırığının düzgün cavabı:** 1 – b; 2 – c; 3 – a.

**Tapşırıq B (iş dəftəri).** Möhkəmləndirmə xarakterli bu tapşırıq “Bunları bilməliyik” rubrikasında aldıqları biliklərin tətbiqi üçün imkan yaradır. Şagirdlər cümlələrin kontekstinə görə “şam” sözünün mənalarını izah edirlər.

**Düzgün cavab:**

***şam**[1]* – işıqlandırmaq üçün əşya.

***şam**[2]* – axşam.

***şam**[3]* – ağac növü.

2.1.2 **Tapşırıq Ç (dərslik), C (iş dəftəri).** Tapşırıqlar şagirdlərin omonim və çoxmənalı sözləri fərqləndirmək bacarığının inkişafına yönəlib.

**Dərslikdə verilmiş Ç tapşırığının düzgün cavabı:**

I bənddə verilmiş cümlələrdəki “qol” sözü omonimdir. Çünki bu sözlər arasında məna yaxınlığı yoxdur.

II bənddə verilmiş cümlələrdəki “ətək” sözü çoxmənalıdır. Çünki bu sözlər arasında məna bağlılığı var: aşağı tərəf, aşağı hissə.

**İş dəftərində verilmiş C tapşırığının düzgün cavabı:** b variantı

2.1.2 **Tapşırıq D (dərslik), Ç, D (iş dəftəri).** Omonim və çoxmənalı sözlərlə bağlı biliklərinmöhkəmləndirməsi ilə yanaşı, söz ehtiyatının zənginləşdirilməsinə yönəldilib.

**Dərslikdə verilmiş D tapşırığının düzgün cavabı:**

**A**

1. Dovşan kök yeyir.
2. Ağacın altında kök pişik oturmuşdu.

**B**

1. Ağacın kökü dərində idi.
2. Onun nəsli, kökü hamıya məlumdur.

**A** variantında verilmiş cümlələrdə “kök” sözü omonimdir.

**B** variantında verilmiş cümlələrdə “kök” sözü çoxmənalı sözdür.

> **Müəllimin nəzərinə!** Dilimizdə elə sözlərə rast gəlinir ki, həmin sözlər həm çoxmənalı, həm də omonim ola bilər.

**İş dəftərində verilmiş Ç tapşırığının düzgün cavabı:**

1. bağ

a) Babam bağda ərik ağacı əkdi.

b) Səməd hələ də ayaqqabılarının bağını bağlaya bilmirdi.

2. yaş

a) Mənim 10 yaşım var.

b) Anam yaş paltarları ipdən asdı.

**İş dəftərində verilmiş D tapşırığının düzgün cavabı təxminən belə ola bilər:**

Kitablarımı şkafın aşağı gözünə yığdım.

Atam stolun sınmış ayağını düzəldirdi.

Mağazadan yeni dəftər üzü aldım.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir. | Tap. B, C (D.), tap. A, B (İ.D.) |
| Sözün həqiqi və məcazi (törəmə) mənaları arasındakı bağlılığı müəyyən edir. | Tap. Ç, D (D.), tap. Ç, D (İ.D.) |

## 4-cü dərs. Şəxsə və zamana görə dəyişməyən feillər

• Dərslik: səh. 51 • İş dəftəri: səh. 32

**Təlim məqsədləri**

• Əsas nitq hissələrinin (isim, sifət, say, feil, əvəzlik) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəxs, işarə, sual əvəzliklərinin xatırlanması |
| 2 | **Dil qaydaları** | Əsas nitq hissələrini əvəz edən sual əvəzliklərinin fərqləndirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Motivasiya xarakterli bu tapşırıq şagirdlərə aşağı siniflərdə feilin şəxsə və zamana görə dəyişməsi haqqında aldıqları bilkləri xatırlatmaq məqsədi daşıyır.

Şagirdlər "yazmaq" feilinə uyğun şəkilçilər artırmaqla tapşırıqda verilmiş cümlələri tamamlayırlar.

**Düzgün cavab:**

Mən dünən qardaşıma məktub yaz***dım***.

Bu mətni oxuduqdan sonra siz tarixi şəxsiyyətlər mövzusunda esse yaz***acaqsınız***.

Biz indi mövzu ilə bağlı fikirlərimizi yaz***ırıq***.

**Tapşırıq B (dərslik).** Tapşırıqda iki sütunda müxtəlif cümlələr təqdim edilmişdir. Şagirdlər hər iki sütundakı cümlələri oxuyur və "getmək" feilinin şəxsə görə dəyişmədiyi cümlələri seçirlər.

**Düzgün cavab:** II sütundakı cümlələrdə "gedəndə" feili şəxsə və kəmiyyətə görə dəyişməyib.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini şəxsə və kəmiyyətə görə dəyişməyən feillərə yönəldir.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim "Bunları bilməliyik" rubrikasındakı məlumatları şərh edərək şagirdlərə şəxsə və kəmiyyətə görə dəyişməyən feillər haqqında izahat verir, nümunələr söyləməklə məlumatı qavramağa yardımçı olur.

4.1.3. **Tapşırıq C, Ç (dərslik).** Tapşırıqlarda şagirdlər nöqtələrin yerinə şəxsə və kəmiyyətə görə dəyişməyən uyğun feillər artırmaqla cümlələri tamamlayırlar. Bu tapşırıq şagirdlərin şəxsə və kəmiyyətə görə dəyişməyən feilləri fərqləndirmək bacarığını inkişaf etdirir.

**Dərslikdə verilmiş C tapşırığının düzgün cavabı:**

1. ***Bilməmək*** eyib deyil, soruşmamaq eyibdir.
2. Bir əldə iki qarpız ***tutmaq*** olmaz.
3. Baş-başa ***verməyincə*** daş yerindən qalxmaz.
4. ***Qaçırılan*** fürsət ələ düşməz.
5. El ***keçən*** körpüdən sən də keç.
6. Böyük ***danışanda*** kiçik qulaq asar.
7. Ağac **böyüdükcə** suyu çox aparar.
8. On dəfə eşitməkdənsə, bir dəfə **görmək** məsləhətdir.

**Dərslikdə verilmiş Ç tapşırığının düzgün cavabı:**

1. Ana ***fərəhlənərək*** oğlunun başını tumarladı.
2. Kənan heç ***fikirləşmədən*** suala cavab verdi.
3. Biz meşədən ***qayıdanda*** yağış yağdı.
4. Mətni ***dinləyərək*** qeydlər götürün.
5. Fərhad ***düşünmək*** üçün vaxt istədi.

**Tapşırıq A, B, C (iş dəftəri).** Tapşırıqlar şagirdlərin şəxsə və kəmiyyətə görə dəyişməyən feilləri fərqləndirmək bacarığının inkişafına yönəldilib.

**İş dəftərində verilmiş A tapşırığının düzgün cavabı:**

**Şəxsə və zamana görə dəyişən feillər:** gözləyirəm, işləyərik, sildin, bişirəcəklər, güldük.

**Şəxsə və zamana görə dəyişməyən feillər:** gələndə, qurmaq, üzərək, tanımadan, qayıdarkən.

**İş dəftərində verilmiş B tapşırığının düzgün cavabı:**

1 – d, 2 – ç, 3 – a, 4 – c, 5 – b.

**İş dəftərində verilmiş C tapşırığının düzgün cavabı:**

**Şəxsə və zamana görə dəyişən feillər:** gileylənir, bitər, istirahət edir, getməz.

**Şəxsə və zamana görə dəyişməyən feillər:** düşünmədən, öyrənmək, itirməkdir, tapa bilməməkdən, düşünərək, görülən, fikirləşəndə, qorxan, danışmaq, susmaq.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Şəxsə və kəmiyyətə görə dəyişməyən feilləri fərqləndirir. | Tap. B, C, Ç (D.), tap. A, C (İ.D.) |
| Şəxsə və kəmiyyətə görə dəyişməyən feillərin suallarını müəyyən edir. | Tap. B (İ.D.) |

fəsil 4

# TARİXDƏ İZ QOYAN QADINLAR

## 1-ci dərs. Xurşidbanu Natəvan

• Dərslik: səh. 52-53 • İş dəftəri: səh. 33

**Təlim məqsədləri**

• Mətni intonasiya ilə oxuyur (st. 2.2.1).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 2.1.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyələşdirir. (st. 2.2.2).
• Sətiraltı fikir və informasiyanı izah edir (st. 2.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Tapşırıqda verilmiş suallar ətrafında müzakirə |
| 2 | **Oxu. Söz ehtiyatı** | “Xurşidbanu Natəvan” mətninin oxusu. “Söz boğçası” üzrə iş. Yeni sözlərin mənimsədilməsi |
| 3 | **Oxuyub-qavrama** | Faktoloji sualların cavablandırılması; sətiraltı fikir və informasiyanın izah edilməsi; ssenarini səciyyələndirən xüsusiyyətlərin müəyyənləşdirilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Tapşırıqda verilmiş motivasiya sualı ətrafında müzakirə aparılır, şagirdlərin ssenari haqqında bilikləri xatırlanır. Müəllim fikirlərini tam ifadə etmələri üçün şagirdlərə yardımçı suallar da verə bilər:

– Rollu oyuna başlamaq üçün əvvəlcə nə edirsiniz?

– Sizcə, teatr tamaşaları, filmlər, tədbirlər hansı mətnlər əsasında hazırlanır?

– Ssenari haqqında nə bilirsiniz? Sizcə, ssenari mətnlərinin quruluşu necə olur?

– Ssenari yazarkən və yaxud oxuyarkən nələrə diqqət edirsiniz?

### Oxu.

2.2.1 **“Xurşidbanu Natəvan” mətni üzrə iş. Rollu oxu.** Əvvəlcə şagirdlər mətni səssiz oxuyurlar. Sonra rollar üzrə bölgü aparılır. Müəl-

lim şagirdlərə tapşırır ki, mətni səsli oxuyarkən obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirsinlər. Mətnin bu üsulla oxunması dərslikdə verilmiş D tapşırığının (*ssenarinin səhnələşdirilməsi*) uğurla yerinə yetirilməsinə kömək edəcək.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq B (dərslik).** Şagirdlər üçüncü sinifdə köhnəlmiş sözlər haqqında məlumat almışlar. Bəzi nağıl və hekayələrdə istifadə olunan köhnəlmiş sözlər həmin dövrü təsəvvür etməyə yardımçı olur. Şagirdlər "söz boğçası"nda verilmiş canişin, knyaz kimi sözlərin müasir dövrdə istifadə olunmadığını müəyyənləşdirirlər. Tapşırığın məqsədi şagirdlərin oxuyub-qavrama bacarığının inkişafı ilə yanaşı, söz ehtiyatının artırılmasıdır.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər izahlara uyğun sözləri krosvordun müvafiq xanalarına yazmaqla yeni sözləri mənimsədiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

Yuxarıdan aşağı:

1. canişin; 2. madmazel; 4. knyaz.

Soldan-sağa:

3. mülk; 5. imperator; 6. varis.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C (dərslik), B (iş dəftəri).** Tapşırıqlar mətn üzrə faktoloji məlumatların yoxlanılmasına yönəlib.

2.2.3 **Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərin diqqətini tapşırıqdakı cümləyə yönəldir. Şagirdlər Banu bəyimin "Bu bizim faciəmizdir" deməsi ilə hansı tarixi hadisəyə işarə etdiyini təxmin edirlər. Şagirdlər dördüncü sinif dərsliyinin I hissəsində Azərbaycanın tarixi torpaqlarının Rusiya və İran dövlətləri arasında bölüşdürülməsi haqqında məlumat alıblar. Eyni zamanda "Xurşidbanu Natəvan" mətnində canişinin nitqinə, yəni "Mən azərbaycanlıların igidliyinə heyranam. Ancaq, təəssüf ki, belə cəsur xalqın yarısı sizdən ayrı düşüb" sözlərinə istinad edərək tapşırıqda qoyulmuş sualı cavablandırırlar.

**Tapşırıq D (dərslik).** Şagirdlərə "Xurşidbanu Natəvan" mətnini müzakirə və məşq etmək üçün bir qədər vaxt verilir. Şagirdlər arasından aktyorlar seçilir. Hər birinin rolu, hərəkətləri müzakirə olunur. Aktyorların söyləyəcəkləri nitq kiçik kağızlarda yazılır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni intonasiya ilə oxuyur. | "Xurşidbanu Natəvan" mətni üzrə iş |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tap. B (D.), tap. A (İ.D.) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. C (D.), tap. B (İ.D.) |
| Sətiraltı fikir və informasiyanı izah edir. | Tap. Ç (D.) |

## 2-ci dərs. Xan qızı

• Dərslik: səh. 54 • İş dəftəri: səh. 34

**Təlim məqsədləri**

• Mətni götürdüyü qeydlər əsasında nəql edir (st. 1.2.2).
• Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 2.2.3).
• Mətndəki obrazları xarakterizə edir (st. 2.2.3).
• Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir (st. 3.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Xurşidbanu Natəvan" mətninin xatırlanması |
| 2 | **Dinləmə. Danışma** | "Xan qızı" dinləmə mətni üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Mətnlərin müqayisəsi; obrazların xarakterizə edilməsi |
| 4 | **Yazı** | Sxemin şərh edilməsi |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim keçən dərsdə oxunmuş "Xurşidbanu Natəvan" mətni haqqında şagirdlərin təəssüratlarını soruşur və frontal sorğu keçirir.

Müəllim lövhədə BİBÖ cədvəli çəkir. Şagirdlər Xurşidbanu Natəvan haqqında bildiklərini söyləyirlər. Müəllim cədvəldə qısa qeydlər aparır. Bundan sonra şagirdlər Xurşidbanu Natəvan haqqında öyrənmək istədikləri məlumatlar barədə suallar tərtib edirlər.

Müəllim BİBÖ cədvəlində şagirdlərin suallarını ümumiləşdirib müəyyən qeydlər aparır.

### Dinləmə. Danışma

1.2.2. **Tapşırıq A (dərslik).** Əvvəlcə şagirdlər tapşırıqda verilmiş suallarla tanış olurlar. Mətni dinləyərkən hansı suallara cavab axtaracaqlarını əvvəlcədən müəyyənləşdirirlər. Daha sonra müəllim "Xan qızı" mətnini səsləndirir. Şagirdlər dəftərlərində lazımi qeydlər aparırlar.

**Xan qızı**

*Xurşidbanu Natəvan Qarabağ xanlığının banisi Pənahəli xanın nəticəsi, İbrahimxəlil xanın nəvəsi, Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızıdır.*

*Xurşidbanu Natəvan 6 avqust 1832-ci ildə Şuşada anadan olmuşdur. Mehdiqulu xan qızına öz anası Xurşidbanunun adını vermişdir. O, ailənin yeganə övladı idi. Buna görə də sarayda onu "Tək varis" deyə çağırmışlar. Xalq arasında isə Xan qızı adı ilə məşhur idi.*

*Xurşidbanu dövrün alim və sənətkarlarından dərs almışdır. Müxtəlif elmlərlə tanış olmuş, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Mütaliəyə olan həvəsi Xurşidbanunu ədəbiyyata bağlamış, özü də şeir yazmağa başlamışdır.*

*Xurşidbanu eyni zamanda cəsarətli addımları ilə adını Azərbaycan tarixinə yazdırmışdır. Banu bəyim hələ gənc yaşlarında olarkən atasından qalan mülkləri geri qaytarmağı canişindən tələb etmişdi. Bu məqsədlə Tiflisə gedən Banu bəyim burada canişinin köməkçisi Xasay bəylə tanış olur və onlar ailə qururlar.*

*Xurşidbanu bir müddət Tiflisdə yaşamalı olmuşdur. Şəhərin səfalı yerləri, təbii mənzərələri ona xoş gəlsə də, burada yaşamağa məcbur olduğu üçün sıxılmış, qəriblik çəkmişdir. Natəvan Tiflisdə yaşayarkən kübarlara məxsus davranışı və üç dildə sərbəst danışması ilə ətrafda maraq oyatmışdır. Bir sıra şəhərlərə səyahətə çıxması Xurşidbanunun dünyagörüşünün artmasına təkan vermişdir.*

*Xurşidbanu Azərbaycan tarixində təkcə yazdığı şeirlərlə deyil, xeyirxahlığı ilə də ad çıxarmışdı. Natəvan həmişə kasıbların, kimsəsizlərin yanında olmuş, çətin günlərdə onlara əl tutmuşdu. Şuşaya su çəkdirmiş, içməli su sarıdan əziyyət çəkən camaata kömək etmişdi. Onun çəkdirdiyi bulaq "Xan qızı bulağı" adı ilə məşhur idi.*

**Müəllimin nəzərinə!** Şagirdlər dəftərlərində "Yaddaş xəritəsi" çəkə bilərlər. Yaddaş xəritəsinin yarımbaşlıqları qeyd götürmə fəaliyyətini asanlaşdırar. "Yaddaş xəritəsinin" təxminən aşağıdakı başlıqları ola bilər:

1. uşaqlığı; 2. təhsili; 3. siyasi-ictimai fəaliyyəti; 4. yaradıcılığı.

Şagirdlər "Yaddaş xəritəsi"nə istinad edərək tapşırıqda qoyulmuş sualları cavablandırır, mətnin məzmununu danışırlar.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər tapşırıqda Xurşidbanu Natəvan haqqında təqdim edilmiş məlumat vərəqi ilə tanış olurlar. "Xan qızı" mətnində əksini tapan faktları müəyyənləşdirirlər.

**Faktlar:** Şuşada doğulub. Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızıdır. Ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Şairə kimi fəaliyyət göstərib. Xeyriyyə işləri ilə məşğul olub. Şuşaya su çəkdirmişdir.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlərdə obrazlar xəritəsinin hazırlanması bacarığının möhkəmləndirilməsinə xidmət edir. Şagirdlər Xurşidbanu Natəvana aid obraz xəritəsini tamamlamaqla bu obrazı xarakterizə edirlər.

### Yazı

3.1.3 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin qrafik informasiyanı yazıda rabitəli cümlələr

şəklində təqdimetmə bacarığının inkişafına yönəlib. Şagirdlər "Xan qızı" mətninə, məlumat vərəqinə və Qarabağ xanlığı haqqında bildiklərinə əsasən tapşırıqdakı sxemi şərh edirlər. İstifadə üçün verilmiş açar söz və ifadələr şagirdləri Qarabağ xanlığı haqqında bildikləri məlumatları xatırlamağa istiqamətləndirəcək.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə yönəldici suallar da verə bilər.

– "Soy", "Sülalə" sözlərinin mənasını xatırlayırsınızmı?
– Pənahəli xan kimdir?
– Şuşa şəhərinin keçmiş adı nə olub?
– Ağabəyim ağa haqqında nə bilirsiniz?
– Ağabəyim ağanın atasının adı nə idi?
– Gövhər ağa kimdir?
– Xurşidbanu Natəvan kimdir?
– Xurşidbanu Natəvanın atası kimdir?
– Ağabəyim ağa və Gövhər ağa ilə Natəvan arasında hansı qohumluq əlaqəsi var?

Şagirdlər sxemi təxminən aşağıdakı kimi şərh edə bilərlər.

**Cavanşirlər sülaləsi**

*Cavanşirlər Azərbaycanın qədim soylarından biridir. Bu nəslin nümayəndələri əsasən Qarabağda yaşamışlar.*

*Cavanşirlər sülaləsinə mənsub olan Pənahəli xan Qarabağ xanlığının qurucusu olub. O, 1747-ci ildə Nadir şahın ölümündən sonra Qarabağ xanlığını yaradıb. Pənahəli xan hakimiyyətə gələn kimi indiki Şuşa şəhərini saldırıb. Şəhər əvvəllər xanın şərəfinə Pənahabad adlandırılıb.*

*Cavanşirlər sülaləsinin daha bir nümayəndəsi İbrahimxəlil xan Cavanşir idi. Onun hakimiyyəti dövründə Şuşada elm, mədəniyyət və incəsənət inkişaf etmiş, Şuşa abadlaşdırılmış, xan sarayları, yaşayış evləri, qala divarları tikilmiş, yeni-yeni məktəblər açılmışdı.*

*Mehdiqulu xan Cavanşir İbrahimxəlil xan Cavanşirin oğlu və Qarabağ xanlığının sonuncu xanı olub. Ağabəyim ağa və Gövhər ağa Mehdiqulu xanın bacılarıdır. Xurşidbanu Natəvan Mehdiqulu xanın yeganə övladı və Qarabağ xanlığının sonuncu varisi idi.*

### Araşdırma

**Tapşırıq Ç (dərslik).** Araşdırma tapşırığı şagirdləri onların diqqətini çəkən, öz fəaliyyəti ilə maraq oyadan tarixi şəxsiyyətlər haqqında araşdırmalara yönəldir. Növbəti dərsdə şagirdlər araşdırma materiallarına əsasən informativ mətn yazacaqlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni götürdüyü qeydlər əsasında nəql edir. | Tap. A (D.) |
| Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. B (D.) |
| Mətndəki obrazları xarakterizə edir. | Tap. A (İ.D.) |
| Qrafik informasiyanı yazıda rabitəli cümlələr şəklində təqdim edir. | Tap. C (D.) |

## 3-cü dərs. Yazı işinin yoxlanılması

• Dərslik: səh. 55 • İş dəftəri: səh. 35

**Təlim məqsədləri**

• Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir (st. 3.1.4).
• Mənimsədiyi orfoqrafiya qaydalarını sözlərin yazılışında tətbiq edir (st. 4.1.2).
• Durğu işarələrinin funksiyasını müəyyən edir (st. 4.1.5).
• Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Motivasiya tapşırığı üzrə iş |
| 2 | **Dil qaydaları** | Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik). Kollektiv iş.** Motivasiya xarakteri daşıyır. Şagirdlər mətndəki səhvləri müəyyənləşdirib düzəldirlər. Öyrəndikləri qaydalara istinad edərək fikirlərini əsaslandırırlar.

**Düzgün cavab:**

1. "XIX-cu" sözü səhv yazılmışdır, "XIX" kimi yazılmalıdır, çünki Roma rəqəmləri ilə ifadə olunan sıra saylarından sonra şəkilçi yazılmır.

2. "Əsirdə" sözü "əsrdə" kimi yazılmalıdır. Şagirdlər dördüncü sinif dərsliyinin I hissəsində "Qoşa samitlə bitən təkhecalı sözlər" haqqında məlumat alıblar. Müxtəlif qoşa samitlə bitən təkhecalı sözlərin yazılışından fərqli səsləndiyi haqqında məlumatları var.

3. "1884–1885-inci" ifadəsində sıra sayı düzəldən -inci şəkilçisi "-ci" şəklində yazılmalıdır.

**"Faydalı məsləhət" rubrikası.** Müəllim "Faydalı məsləhət rubrikası"nda verilmiş məlumatları şərh edir.

**Müəllimin nəzərinə!** Bu dərs şagirdlərdə özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirmə bacarığının formalaşdırılması məqsədi daşıyır. Şagirdlər aşağı siniflərdən mənimsədikləri orfoqrafiya və punktuasiya qaydalarını tətbiq edərək tapşırıqları yerinə yetiriblər.

3.1.4 **Tapşırıq B (dərslik), A (iş dəftəri).** Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirmə bacarığının möhkəmləndirilməsinə yönəldilib.

**Dərslikdə verilmiş B tapşırığının düzgün cavabı:**

1. "III-cü" deyil, III. Roma rəqəmləri ilə ifadə olunan sıra saylarından sonra şəkilçi yazılmır.

2. "Maşınnar" deyil, maşınlar. İsmin cəm şəkilçisi -lar[2] bəzən fərqli tələffüz edilir.

3. "Qulağıma nənəmin səsi toxundu" cümləsində "toxundu" sözü kontekstə uyğun gəlmir, "dəydi" sözü ilə əvəz olunmalıdır.

4. Sitatlar dırnaq içərisində yazılır.

**İş dəftərində verilmiş A tapşırığının düzgün cavabı:**

1 – a, 2 – c, 3 – b.

4.1.2 **Tapşırıq C (dərslik), B (iş dəftəri).** Şagirdlər bu tapşırığı mənimsədikləri orfoqrafiya qaydalarına istinad edərək yerinə yetirirlər.

**Dərslikdə verilmiş C tapşırığının düzgün cavabı:**

1. ailə; 2. müəllifi, dostum;
3. tərtəmiz; 4. qızlar, çəmənlikdən.

**İş dəftərində verilmiş B tapşırığının düzgün cavabı:**

1. kitabları; 2. çərşənbədə, süfrəsi;
3. riyaziyyat, olimpiadada.

4.1.5 **Tapşırıq Ç (dərslik), C (iş dəftəri).** Müvafiq durğu işarələrindən istifadəetmə bacarığının yoxlanılmasına imkan yaradır.

**Dərslikdə verilmiş Ç tapşırığının düzgün cavabı:**

1. O, əsgərə məktub yazdı.
2. Ura, ordumuz zəfər çaldı.
3. Yaz gəlmişdi, ağaclar çiçək açmışdı.
4. Heydər Əliyev demişdir: "Azadlıq hər bir xalqın milli sərvətidir".

**İş dəftərində verilmiş C tapşırığının düzgün cavabı:**

1. O, birinci sırada əyləşmişdi.
2. Tamaşa bitdi, tamaşaçılar aktyorları alqışladılar.
3. Haradasan, ey əziz dost, köməyə gəl!

2.1.1 **Tapşırıq D (dərslik).** Şagirdlərin sözləri kontekstə uyğun işlətmə bacarıqları yoxlanılır.

**Düzgün cavab:**

1. Bu xəbərdən sonra babamın ürəyi ağrıdı.
2. Səhər açılar-açılmaz çil-çil xoruz banlayırdı.
3. Makedoniyalı İsgəndər xəstəlikdən vəfat etmişdi.
4. Cəmilənin güclü yaddaşı var.

**Tapşırıq Ç (iş dəftəri).** Mətndə səhv yazılmış sözlərin düzgün yazılışı:

meydanlarını, şəxsiyyətlərin, müəllifi

Kontekstə uyğun olmayan "tikilmişdir" sözü "ucaldılmışdır" sözü ilə əvəz olunmalıdır.

### Yazı

3.1.2 **Tapşırıq E (dərslik).** Bu bölmədə tarixdə iz qoyan bəzi şəxsiyyətlər haqqında rəvayətlər, nağıllar, informativ-tarixi mətnlər təqdim

olunub. Keçən dərs şagirdlərə həmin şəxsiyyətlər haqqında araşdırma aparmaq tapşırılıb. Bu dərsdə isə şagirdlər araşdırmaların nəticəsinə əsasən onlar haqqında tarixi-informativ mətn yazırlar. Daha sonra bir-birinin yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir. | Tap. A, B (D.), tap. A, Ç (İ.D.) |
| Mənimsədiyi orfoqrafiya qaydalarını sözlərin yazılışında tətbiq edir. | Tap. C (D.), tap. B (İ.D.) |
| Durğu işarələrinin funksiyasını müəyyən edir | Tap. Ç (D.), tap. C (İ.D.) |
| Cümləni tamamlamaq üçün kontekstə uyğun gələn sözü müəyyən edir. | Tap. D (D.) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. E (D.) |

## **4-cü dərs.** Sual əvəzlikləri

• Dərslik: səh. 56 • İş dəftəri: səh. 36

**Təlim məqsədləri**

• Əsas nitq hissələrinin (isim, sifət, say, feil, əvəzlik) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Söz, söz birləşməsi və cümlənin fərqləndirilməsi |
| 2 | **Dil qaydaları** | Şəxsə və kəmiyyətə görə dəyişməyən feillərin fərqləndirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Motivasiya xarakteri daşıyır. Şagirdlər fərqləndirilmiş sözlərin şəxs, yoxsa işarə əvəzliyi kimi işləndiyini müəyyən edirlər. Bununla da əvəzlik haqqında aldıqları bilikləri xatırlayırlar.

**Düzgün cavab:**

1. O, qoçaq oğlandır. (Kim? Şəxs əvəzliyidir)

2. O günləri çox xatırlayıram. (Hansı günləri? İşarə əvəzliyidir)

3. O, dostumla bir məktəbdə oxuyub. (Kim? Şəxs əvəzliyidir)

4. O qız mənim sinif yoldaşımdır. (Hansı qız? İşarə əvəzliyidir)

**Tapşırıq B (dərslik).** Motivasiya xarakterli bu tapşırıq isə şagirdlərin diqqətini əvəzliyin daha bir növünə, sual əvəzliklərinə cəlb edir.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim sual əvəzlikləri haqqında məlumatları izah edir.

4.1.3 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər əvəzlikləri cədvəl üzrə qruplaşdırmaqla sual işarə və şəxs əvəzliklərini bir-birindən fərqləndirdiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

Şəxs əvəzlikləri: sən, mən, siz, biz

İşarə əvəzlikləri: bu, elə, belə, həmin

Sual əvəzlikləri: necə, niyə, kim, hara

**Tapşırıq C (dərslik).** Şagirdlər cümlələrdəki fərqləndirilmiş sözləri uyğun sual əvəzlikləri ilə əvəz etməklə sual əvəzlikləri haqqında aldıqları bilikləri tətbiq edirlər.

**Müəllimin nəzərinə!** Şagirdlər artıq cümlənin məqsəd və intonasiyaya görə növləri haqqında məlumat alıblar. Bu tapşırığı yerinə yetirərkən şagirdlərin diqqətini cümlənin sonunda qoyulmuş durğu işarəsinə yönəltmək lazımdır. Tapşırıqda nəqli cümlələr təqdim edilmişdir. Lakin fərqləndirilmiş sözləri sual əvəzlikləri ilə əvəz edərkən cümlələr sual cümləsinə çevrilir. Bu halda cümlələrin sonunda sual işarəsi qoyulur.

**Düzgün cavab:**

1. Hansı qazanları ocağın üstünə düzmüşdülər?

2. Yarışda qalib gələnlər nə edirdilər?

3. Uşaqlar babalarını necə dinləyirdilər?

4. Kim əməliyyatla bağlı dərhal göstəriş verdi?

5. Hansı siniflər olimpiadada iştirak edəcəklər?

**Tapşırıq B, C (iş dəftəri).** Tapşırıqlar şagirdlərin sual əvəzlikləri haqqında aldıqları biliklərin tətbiqinə yönəlib.

**İş dəftərində verilmiş B tapşırığının düzgün cavabı:**

1. Bilik yarışması üçün sinfimizdən ən çalışqan şagirdlər seçildi. (*necə?*)
2. Tədbirdə yazıçı yeni kitabını oxuculara təqdim etdi. (*hansı?*)
3. Nənə hər axşam nəvələrinə nağıl danışırdı. (*nə vaxt?*) (*nə?*)
4. Sevinc şeiri əzbərləmək üçün xeyli vaxt sərf etdi. (*nə üçün?*) (*nə qədər?*)

**Tapşırıq C (iş dəftəri).** Cümlələrdə nöqtələrin yarinə uyğun sual əvəzliyi yazılmalıdır.

**Düzgün cavab:**

1. nə üçün? 2. neçənci? və ya hansı?
3. necə? 4. nə vaxt?

**Tapşırıq Ç (dərslik), Ç (iş dəftəri).** Şagirdlər sual əvəzliklərini cədvəl üzrə qruplaşdırır, bununla da həm digər əsas nitq hissələri (*isim, sifət, say, feil, zərf*), həm də sual əvəzlikləri haqqında aldıqları bilikləri tətbiq edirlər.

**Dərslikdə verilmiş Ç tapşırığının düzgün cavabı:**

İsmi əvəz edir: kim?, nə?, hara?

Sifəti əvəz edir: necə?, nə cür?, hansı?

Sayı əvəz edir: neçənci?, neçə?, nə qədər?,

Feili əvəz edir: nə etdi?, nə edir?, nə etmək?, nə edəcək?

Zərfi əvəz edir: necə?, nə qədər?, nə zaman?, niyə?, nə üçün?

**Müəllimin nəzərinə!** Şagirdlər bəzi sualları (*necə? nə qədər?*) cədvəlin iki sütununa (*sifət və zərf, say və zərf*) da qeyd edə bilərlər.

**İş dəftərində verilmiş Ç tapşırığının düzgün cavabı:**

1. Həkim (*kim?*) xəstəni müalicə etdi. (*isim*)
2. Atamı səbirsizliklə (*necə?*) gözləyirdik. (*zərf*)
3. Dünən (*nə vaxt?*) məni kimsə axtarıb. (*zərf*)
4. Sinifdə iyirmi iki (*neçə?*) şagird var. (*say*)
5. O, qapını ehtiyatla açdı (*nə etdi?*). (*feil*)
6. Gənc (necə?) idmançılar yarışa hazırlaşırlar. (sifət)

**Tapşırıq D (dərslik).** Şagirdlər sual əvəzliklərinin ardıcıllığına uyğun cümlə modelini müəyyənləşdirməklə əsas nitq hissələrinin ümumi leksik-qrammatik xüsusiyyətlərini fərqləndirdiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

1 – ç, 2 – c, 3 – a, 4 – b.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsas nitq hissələrinin (isim, sifət, əvəzlik, zərf) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir | Tap. C, Ç, D (D.), tap. A, B, C, Ç (İ.D.) |

## 5-ci dərs. Ümumiləşdirici təkrar

• Dərslik: səh. 57 • İş dəftəri: səh. 37

### Təlim məqsədləri

• Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.2).
• Mürəkkəb sözləri tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək düzgün yazır (st. 4.1.2).
• Əsas nitq hissələrinin (isim, sifət, əvəzlik, zərf) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Motivasiya tapşırığı üzrə iş |
| 2 | **Dil qaydaları** | Omonim sözlərin kontekstə uyğun mənasının müəyyənləşdirilməsi; mürəkkəb sözlərin düzgün yazılışı; şəxsə və kəmiyyətə görə dəyişməyən feillərin fərqləndirilməsi; sual əvəzliklərinin fərqləndirilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim bu bölmədə keçirilən dil qaydalarına aid terminləri lövhəyə yazır. Mövzuları xatırlatmaq məqsədilə sual verir:

– Bu sözlər sizə hansı məlumatları xatırladır?

### Dil qaydaları

**2.1.2** **Tapşırıq A, B (dərslik). Tapşırıq A (iş dəftəri).** Tapşırıqlar şagirdlərin cümlənin kontekstinə görə sözlərin mənasını izah etmək bacarığının möhkəmləndirilməsinə xidmət edir.

**Dərslikdə verilmiş A tapşırığının düzgün cavabı:**

ki 1. *ədat* 2. *bağlayıcı*
ancaq 3. *ədat* 4. *bağlayıcı*
ilə 5. *qoşma* 6. *bağlayıcı*

**Dərslikdə verilmiş B tapşırığının düzgün cavabı:**

bax 1. *feil* 2. *ədat*
təəssüf 3. *modal söz* 4. *isim*
Ay 5. *nida* 6. *isim*

**İş dəftərində verilmiş A tapşırığının düzgün cavabı:**

min 1. *say* 2. *feil*
*tək* *3. say* 4. *zərf*
ox 5. *nida* 6. *isim*)

**4.1.2** **Tapşırıq C (dərslik).** Tapşırıq mürəkkəb feillər yaratmaqla yanaşı, onları kontekstə uyğun işlətmək bacarığının möhkəmləndirilməsinə yönəldilib.

**Düzgün cavab:**

1. əsib-coşdu. 2. hiss edirdi.
3. çalıb-oynadılar. 4. həlak oldular.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin "olmaq", "etmək" sözlərinin köməyi ilə düzələn mürəkkəb sözlər haqqında biliklərinin tətbiqinə yönəlib.

**Düzgün cavab:**

1. mübahisə etdilər. 2. göz-qulaq olurdu.
3. seyr edirdi. 4. peşman olar.

**4.1.3** **Tapşırıq Ç (dərslik).** Bu tapşırıq şagirdlərin şəxsə və kəmiyyətə görə dəyişməyən feilləri fərqləndirmək bacarığını möhkəmləndirir.

**Düzgün cavab:**

1. sığınıb 2. yetişmiş
3. toplamaq 4. baxıb

**Tapşırıq C (iş dəftəri).** Şəxsə və kəmiyyətə görə dəyişməyən feillər şəxsə və kəmiyyətə görə dəyişən feillərdən fərqli olaraq başqa nitq hissələrinin suallarına cavab verir. Şagirdlər cümlələrdə fərqləndirilmiş sözlərin suallarını yazmaqla bu fərqi anladıqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:**

1. solmuş (*hansı?*)
2. işləməkdən (*nədən?*)
3. gələndə (*nə vaxt?*)

**Tapşırıq D (dərslik). Tapşırıq Ç (iş dəftəri).** Tapşırıqlar şagirdlərin sual əvəzlikləri haqqında aldıqları biliklərin tətbiqinə yönəlib.

**Dərslikdə verilmiş D tapşırığının düzgün cavabı:**

1. Arif **nə vaxt** idmanla məşğul olurdu?
2. **Nə üçün** divardan tutdu?
3. **Hansı** gəzintidən hamı razı qalmışdı?
4. **Kim** hər zaman uğur qazanır?

**İş dəftərində verilmiş Ç tapşırığının düzgün cavabı:**

1. Meydançaya xeyli uşaq toplaşmışdı.
Nə etmişdi? toplaşmışdı kim? – uşaq.
Nə qədər? – xeyli Haraya? – meydançaya.
2. O, fərqləndirilmiş sözlərə fikir vermədi.
Nə etdi? – fikir vermədi Kim? – o.
Hansı? – fərqləndirilmiş Nələrə? – sözlərə
3. Arzu dərsdən sonra şahmat dərnəyinə gedəcək.
Nə edəcək? – gedəcək Kim? – Arzu
Haraya? – şahmat dərnəyinə
Nə vaxt? – bu gün

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir. | Tap. A, B (D.), tap. A (İ.D.) |
| Mürəkkəb sözləri tərkib hissələri arasındakı məna əlaqəsindən çıxış edərək düzgün yazır. | Tap. C (D.), tap. B (İ.D.) |
| Şəxsə və kəmiyyətə görə dəyişməyən feilləri fərqləndirir. | Tap. Ç (D.), tap. C (İ.D.) |
| Əsas nitq hissələrinin (isim, sifət, əvəzlik, zərf) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir. | Tap. D (D.), tap. Ç (İ.D.) |

bölmə **7** 

# ELMİ FANTASTİKA

| **Mövzu** | | **Elmi fantastika** |
|---|---|---|
| Nitq bacarıqları | Dinləmə və danışma | Dinlədiyi mətnin ideyasının, məzmun, struktur və bədii xüsusiyyətlərinin şərh edilməsi; müəyyən fikirlə bağlı öz mövqeyinin əsaslandırılması. |
| | Söz ehtiyatı | sarsıntı keçirmək, özünü itirmək, nitqi tutulmaq, kəkələmək, gözlərini döymək, fizika, laboratoriya, eksperiment, sensasiya, əcaib, hövsələsi daralmaq, qara basmaq, dili topuq vurmaq, dilxor, eqoist, ibtidai, toppuz, kin-küdurət, siluet, totem, qəbilə, meqapolis, skan etmək, konserv, həb, rejim, intellekt, sensasiya, enerji bloku, elektromobil, proqram, kiborq, ağıllı ev, telepatiya, telekinez və s. |
| | Oxu | Elmi-fantastik mətnlərin oxunması və analizi |
| | Yazı | Mövzu üzrə essenin yazılması |
| Akademik biliklər | Dil qaydaları | Sözlərin qısa yazılışı, mürəkkəb adlar və onların yazılışı, mötərizə işarəsinin funksiyası |
| | Filoloji anlayışlar | Elmi-fantastik əsər, termin, mürəkkəb ad |
| Kompetensiyalar | | İbtidai və müasir dövrə nəzər salmaq və bəşəriyyətin gələcək inkişafı barədə düşünmək |

Bu bölmədə şagirdlərə bəşəriyyətin keçmişi, təkamül yolu, bu günü və gələcək inkişafından bəhs edən elmi-fantastik məzmunlu bədii mətnlər təqdim olunur. Bölmə seriya şəklində yazılmış elmi-fantastik məzmunlu üç əsər əsasındadır. Əsas məqsəd şagirdlərin elmi dünyagörüşünü artıran, həmçinin bir sıra mənəvi dəyərlər aşılayan bu mövzular vasitəsilə onların dinləmə, danışma, oxu və yazı bacarıqlarını, həmçinin yaradıcı təfəkkürünü inkişaf etdirmək, müxtəlif elm sahələrinə aid söz ehtiyatlarını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**
- Verilmiş mövzu ətrafında danışır və münasibət bildirir;
- Bədii mətnləri məzmun xüsusiyyətlərinə görə fərqləndirir;

**Mənimsəmədə çətinlik doğuran məsələlər:**
- Elmi-fantastik məzmunlu mətnlərin qavranılması;
- Mürəkkəb adların yazılışı.

## Bölməyə giriş dərsi

• Dərslik: səh. 58–59 • İş dəftəri: səh. 38

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Əldə etdiyi məlumatlara əsasən fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir (st. 2.2.5).
• Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st. 3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Sehrli xalat" uşaq filminin nümayişi |
| 2 | **Danışma** | "Uçan xalça" nağılının xatırlanması |
| 3 | **Oxuyub-qavrama** | "İkarın uçuşu" mətninin oxunması və məlumat vərəqi üzrə iş |
| 4 | **Yazı** | Mövzu ilə bağlı essenin yazılması |
| 5 | **Oxuyub-qavrama** | Fantastik məzmunlu "Balaca şahzadə" əsərinin annotasiyasının oxunması və sualların cavablandırılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

**Növbəti dərsə hazırlıq.** Növbəti bölmənin mövzusu elmi fantastik əsərlərlə bağlı olduğu üçün şagirdlərə "Sehrli xalat" uşaq filminə baxmaq tövsiyə olunur.

### Mövzuya yönəltmə

Müəllim "Sehrli xalat" filmindən fraqmentlər (Rəşidin keçmişdə şah sarayına düşməsi, Rəşidlə Zərifənin kosmosa səyahəti, gələcəkdəki muzey və s.) nümayiş etdirir. Şagirdlərlə filmdəki qeyri-adi epizodlar haqqında söhbət aparılır. Müəllim sözügedən qeyri-adi hadisələri bölmənin mövzusu ilə əlaqələndirir.

**Müəllimin nəzərinə!** Bir neçə dərsdən sonra elmi-fantastik əsərlərin xüsusiyyətləri haqqında şagirdlərə məlumat veriləcək.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər II sinifdə "Uçan xalça" nağılını oxuyublar. Tapşırıqdakı suallar və şəkillər vasitəsilə nağıl xatırlanır. Məqsəd şagirdlərin diqqətini nağıllardakı sehrli qüvvələrə yönəltməkdir.

Şagirdlər "Uçan xalça" nağılını xatırlamaqda çətinlik çəkərlərsə, müəllim nağılın qısa məzmununu səsləndirə bilər:

*Əhməd adlı bir oğlan yolda gördüyü iti və pişiyi xilas edib evə gətirir. Səhəri gün divlərə rast gəlir. Ağlı və fərasəti ilə divlərin əlindəki sehrli üzük və sehrli xalçanı onlardan alır. Xalçanın üstünə çıxıb evlərinə gəlir. O, sehrli üzükdən hündür, yaraşıqlı bir imarət istəyir və həmin vaxt ona sahib olur. Bundan xəbər tutan padşah küpəgirən qarını Əhmədin imarətinə yollayır. Küpəgirən qarı küpün içinə girib uçaraq Əhmədgilə çatır. Əhmədin nənəsi qarının şirin dilinə inanıb onu evə buraxır. Küpəgirən qarı gecəyarısı Əhmədin barmağındakı üzüyü çıxarır. Xalçanın üstünə çıxıb padşahın yanına yollanır. Əhmədlə nənəsi yuxudan oyananda görürlər ki, əvvəlki evlərindədirlər, sehrli xalça da, üzük də yoxdur.*

*Bir gün itlə pişik sahiblərinə yaxşılıq etmək üçün padşahın sarayına gedirlər. Çətinliklə də olsa, sehrli üzüyü və xalçanı tapıb sahibinə qaytarırlar.*

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq B (dərslik).** Şagirdlər I yarımildə mifik obrazlarla (Herakl, Stimfal quşları və s.) tanış olublar. Müəllim həmin obrazları nümunə gətirməklə mifik obrazların qeyri-adi xüsusiyyətlərini xatırladır.

Şagirdlər "İkarın uçuşu" əfsanəsini səssiz oxuyurlar. Əfsanədəki qeyri-adi hadisə (quş kimi qanadlanıb uçmaq) və mifik obrazları (Dedal və İkar) müəyyənləşdirirlər.

**Əlavə suallar:** *Dedal nə üçün uçmaq qərarına gəlir? O uçmaq üçün hansı işləri görür? İkar hansı səhvinə görə uğursuzluğa düçar olur? və s.*

Söz boğçasındakı ifadələrin izahı:

*Tuş gəlmək – rast olmaq, qarşısına çıxmaq, məruz qalmaq;*

*Manevr etmək – cəld hərəkət və üsullarla yerdəyişmə etmək. (səh.59-da məlumat vərəqində işlənib.)*

**Tapşırıq C (dərslik).** Şagirdlər "Uçan xalça" və "İkarın uçuşu" əsərlərində insanların uça bilmək arzusunun əks olunduğunu söyləyirlər.

### Yazı

3.1.1 **Tapşırıq Ç (dərslik). Cütlərlə iş.** Şagirdlər ilk təyyarə haqqında məlumat vərəqini oxuyub maraqlı faktları müzakirə edirlər. Müəllim

şagirdlərə məlumat vərəqi əsasında suallar tərtib etməyi tapşıra bilər.

Sonrakı prosesdə şagirdlər aldıqları informasiyadan gəldikləri qənaət əsasında "gerçəyə çevrilən xəyallar" adlı esse yazırlar. Esse təxminən belə ola bilər:

*Qədim insanların ən böyük arzularından biri də uçmaq olub. Bu arzuya çatmaq üçün nağıllarda, əfsanələrdə müxtəlif sehrli, qeyri-adi qüvvələrdən istifadə ediblər. Məsələn, Əhməd uçan xalça ilə evlərinə qayıdır. Küpəgirən qarı öz küpünə girib uçaraq Əhmədin yanına gedir. Dedal ilə oğlu quş lələklərindən qanad düzəldib səmaya qalxırlar.*

*Nəhayət, uzun zamanlardan sonra insanların arzusu gerçəyə çevrilir. Bu gün insanlar təyyarə ilə uzaq məsafələrə gedir. Kosmik gəmilərlə kosmosa səyahətə çıxırlar.*

*İnsanın uça bilmək xəyalı çox çətinliklərlə reallaşa bilmişdir. 1903-cü ildə ilk dəfə Rayt qardaşlarının düzəltdikləri təyyarə səmada cəmi 59 saniyə qalmış və 260 metr məsafə qət etmişdir. Onların hazırladıqları təyyarənin materialı şam ağacından idi. Sonralar təyyarəni daha da təkmilləşdirmişlər. Bu gün daha sürətli təyyarələrdən istifadə olunur.*

*Təyyarəni düzəltmək üçün insanlar quşlardan bir çox şeylər öyrənmişlər. Bu gün müasir təyyarənin də qanadları və quyruq hissələri vardır.*

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq D (dərslik).** Şagirdlər "Balaca şahzadə" əsərinin annotasiyasını oxuyurlar, verilmiş sualları cavablandırırlar. Əsərin mövzusu haqqında danışır, "fantastika" sözünü kontekstdən çıxış edərək izah etməyə çalışırlar. Məqsəd şagirdləri fantastik məzmunlu əsərlərlə tanış etmək, onları mütaliəyə cəlb etməkdir.

**Müəllimin nəzərinə!** Ola bilər ki, bəzi şagirdlər artıq "Balaca şahzadə" əsərini oxuyublar. Müəllim həmin şagirdləri əsərdəki qeyri-adi hadisələr haqqında danışdıra bilər. Bu, şagirdlərin fantastika mövzusu ilə bağlı təsəvvürlərini genişləndirməyə kömək edə bilər.

**Tapşırıq E (dərslik).** Şagirdlərin diqqəti yenidən nağıllarda sehrli qüvvələr mövzusuna yönəldilir. Məqsəd şagirdlərə elmi-fantastik əsərlərin nağıl və əfsanələrdən fərqini izah etməkdir. Şagirdlər oxuduqları nağıllardan çıxış edərək sehrli qüvvələri elmi cəhətdən izah etməyin mümkün olmadığını söyləyirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər müəllimin tapşırığına əsasən "Sehrli xalat" filminə baxıblar. Şagirdlər həmin film haqqında iş dəftərində verilmiş mətni oxuyur və mətnə əsasən doğru fikirləri müəyyənləşdirirlər.

**Düzgün cavab: 1,3,4,5**

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər "Sehrli xalat" filmindən verilmiş epizodu bildiklərinə və ya təxəyyüllərinə əsasən təsvir edib yazırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir. | Tap. A, C (dərslik) |
| Mətndə təsvir olunan hadisələrin həqiqətə uyğunluğunu müəyyən edir. | Tap. B, D, E (dərslik), tap. A (iş dəftəri) |
| Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir. | Tap. Ç (dərslik), tap. B (iş dəftəri) |

**Növbəti dərsə hazırlıq.** Növbəti dərsdə Səma cisimləri və yadplanetlilər mövzusunda məlumat xarakterli videoçarxın nümayiş etdirilməsi tövsiyə olunur.

fəsil **1** **YADPLANETLİLƏR**

## **1-ci dərs.** Yadplanetlilər mövcuddurmu?

Dərslik: səh. 60 • İş dəftəri: səh. 39

**Təlim məqsədləri**

- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
- Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 1.1.1).
- Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir. (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Yadplanetlilər mövzusunda videoçarxın nümayişi |
| 2 | **Danışma** | Kosmos, kainat, planetlər haqqında söhbət |
| 3 | **Dinləmə** | “Yadplanetlilər mövcuddurmu?” dinləmə mətni üzrə iş |
| 4 | **Danışma** | Mövzu ətrafında müzakirə |
| 5 | **Yazı** | Yadplanetlilər mövzusunda hekayənin yazılması |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Bölmədə təqdim edilən seriya əsərlərin mövzusu yadplanetlilərlə bağlıdır. Şagirdlərin elmi-fantastik əsərləri oxuyub-qavramasına kömək məqsədilə bu dərsdə yadplanetlilər mövzusu üzrə hazırlıq aparılır.

Şagirdlərin diqqətini bu mövzuya yönəltmək üçün məlumat xarakterli videoçarxın nümayiş etdirilməsi tövsiyə olunur.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər suallara cavab verməklə kosmos haqqında bildiklərini nümayiş etdirirlər. Şagirdlər təxminən bu cavabları verə bilərlər:

- “Ulduz”, “planet”, “peyk” sözlərini izah edin.

**Cavab:** Kainat – yer, göy, ulduzlar, planetlər və b. səma cisimlərinin hamısı; Ulduz – işıq və istilik saçan, ətrafında planetlər fırlanan səma cismi; Planet – ulduz ətrafında dövr edən kürəşəkilli səma cismi; Peyk – planet ətrafında hərəkət edən obyekt.

- İnsanlar kosmosu necə tədqiq edirlər? İndiyə kimi kosmonavtlar hansı göy cisminə ayaq basıblar?

**Cavab:** İnsanlar kosmosu rəsədxanalarda astronomik cihazlar vasitəsilə tədqiq edirlər. Ay insan ayağının dəydiyi yeganə səma cismidir. 1969-cu ildə Aya enən ilk insan amerikalı Nill Armstronq olmuşdur.

- Ay nədir? Sizcə, Yerə Ay yaxındır, yoxsa planetlər? Nəyə görə Yerdən baxanda Ay müxtəlif formalarda görünür?

**Cavab:** 1) Ay Yerin peykidir. 2) Ay yaxındır, çünki Ay Yerin peykidir və onun ətrafında fırlanır. Biz Ayı görürük. Planetləri isə uzaq olduqları üçün aydın görə bilmirik. 3) Ay işıq saçmır, o, səthinə düşən Günəş şüalarını əks etdirir.

Ay Yerin ətrafına fırlandıqca onun görünüşü tədricən dəyişir: birinci gün o görünmür. Sonra aypara şəklində görünür. 14 gün ərzində bu aypara tədricən böyüyür və nəticədə ay bütöv görünür.

- Günəş sistemində Yerdən başqa hansı planetlər var?

**Cavab:** Merkuri, Venera, Yer, Mars, Yupiter, Saturn, Uran və Neptun.

**Tapşırıq (A) iş dəftəri.** Tapşırığın məqsədi şagirdlərə mövzu üzrə bəzi sözləri mənimsətməkdir.

**Düzgün cavab:** 1 – c; 2 – ç; 3 – b; 4 – a.

**Tapşırıq B (dərslik). Kollektiv iş.** 2-ci sinifdə keçilən “Yadplanetlinin dərsi” adlı mətndə göstərilir ki, baş qəhrəman Aydın yediyi konfet kağızlarını ətrafa atır. Bunu görən yadplanetli təəccüblənir ki, insanlar nə üçün öz planetlərini qorumur, onu zibilləyirlər. O, Aydına dərs vermək qərarına gəlir. Aydının yerə atdığı zibilləri onun yatağına daşıyır. Aydın səhvini başa düşür və bir daha ətrafı zibilləmir.

### Dinləmə

**1.1.1 Tapşırıq C (dərslik).** Müəllim aşağıdakı mətni səsləndirir:

**Yadplanetlilər mövcuddurmu?**

*Kainatda milyardlarla ulduz var. Hər bir ulduzun ətrafında da planetlər dövr edir. Alimlərin qənaətinə görə, Yer planetindən başqa planetlərdə də həyat mövcud ola bilər. Ancaq elmi axtarışlar hələ ki bir nəticə vermir. Dünyanın bir çox yerlərində müxtəlif insanlar səmada boşqaba bənzər uçan obyektlər gördüklərini iddia etmişlər. Onların dediyinə görə, uçan boşqablar işıq saçaraq Yerə yaxınlaşır və bir müddətdən sonra yoxa çıxır.*

*Hətta bəzi insanlar yadplanetlilərlə qarşılaşdıqlarını iddia edirlər. Bu iddialara görə onların iri uçbucaq formalı başları və gözləri var. Dərilərinin rəngi yaşıldır. Yadplanetlilər həmçinin qeyri-adi xüsusiyyətlərə malikdirlər. Məsələn, onlar bir-birinin fikrini oxumağı bacarırlar. Bu, telepatiya adlanır.*

*Bu məxluqlar baxışlarının gücü ilə müxtəlif əşyaları yerindən tərpədə, insanların davranışlarına təsir göstərə bilirlər. Bu bacarıq isə telekinez adlanır.*

*Araşdırmalara görə, telepatiya və telekinez qabiliyyətlərinə malik insanlar da var. Lakin elə adamlara çox nadir təsadüf edilir.*

*Yadplanetlilərlə bağlı dünyanın müxtəlif yerlərində saysız-hesabsız məlumatlar, fotolar, videolar yayımlanır, filmlər çəkilir, əsərlər yazılır. Ancaq bu iddialar elmi cəhətdən sübut olunmadığı üçün bütün məlumatlar fərziyyə olaraq qalmaqdadır.*

*Alimlər düşünürlər ki, əgər yadplanetlilər mövcuddursa, onlar işıq sürətinə malik olan texnikaya sahib olmalıdırlar ki, Yer kürəsinə gəlib çıxa bilsinlər. Yaxud Yerdə texnologiyalar o dərəcədə inkişaf etməlidir ki, biz ən uzaq planetlərdə həyatın mövcudluğunu araşdıra bilək.*

**Dinləmə mətni üzrə suallar:** *Nə üçün yadplanetlilərin mövcudluğuna inam var? Yadplanetlilərin mövcudluğu sübut olunubmu?*

Şagirdlər mətni dinlədikdən sonra “telepatiya” və “telekinez” sözlərinin mənalarını şəklə baxaraq izah edirlər. 1-ci şəkildə kağızın yerindən tərpədilməsi təsvir olunub. Bu, telekinez bacarığına aiddir. 2-ci şəkildə isə insanların birbirinə fikir ötürməsi sxematik formada təsvir edilmişdir. Bu isə telepatiya bacarığına aiddir.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətnlə bağlı doğru fikirləri müəyyənləşdirməklə mətni diqqətlə dinlədiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:** 1 və 2-ci fikirlər

**Tapşırıq C (iş dəftəri). Təsviri incəsənətlə inteqrasiya.** Şagirdlər fərziyyələrə və təxəyyüllərinə uyğun olaraq rəsm çəkirlər.

### Danışma

**1.2.1 Tapşırıq Ç (dərslik). Kollektiv müzakirə.** Şagirdlər “Yadplanetlilərin gəlişinə hazır olmalıyıq” mövzusu üzrə qoyulan problemlə tanış olub öz münasibətlərini bildirməlidirlər. Müzakirə iki mərhələdə təşkil oluna bilər:

1-ci mərhələdə “Yadplanetlilər texnoloji cəhətdən bizdən üstündürlər. “Bu üstünlük insanlar üçün təhlükəlidirmi?” sualı ətrafında kiçik debat keçirilir. Bir qrup şagird yadplanetlilərin təhlükə yarada biləcəyini, digərləri isə yadplanetlilərin mərhəmətli olub insanlarla dost ola biləcəyini söyləyə bilərlər. Fikirlərini oxuduqları əsərlərdən, baxdıqları filmlərdən örnəklər gətirib əsaslandıra bilərlər.

Növbəti mərhələdə şagirdlər “Təhlükənin qarşısını necə almaq olar?” sualı ətrafında düşünürlər. Cavab verə bilərlər ki, elm və texnikanı inkişaf etdirməliyik. İnsanların yaşaya biləcəyi başqa planetlər kəşf etməliyik. Əgər Yer planeti təhlükə ilə üzləşsə, insanlar həmin planetə köçə bilməlidirlər. Yer planetini yad təsirlərdən qoruya bilən aparatlar ixtira olunmalıdır, yadplanetliləri dərhal aşkar edib məhv etmək olar və s.

### Yazı

**3.1.2 Tapşırıq D (dərslik).** Kollektiv müzakirə zamanı şagirdlərin yadplanetlilər haqqında ümumi təsəvvürləri yaranır. Şagirdlər tapşırıqda verilmiş situasiya ətrafında hekayə yazarkən əvvəlcə onlara qarşı hansı fikirdə olduqlarını müəyyənləşdirməlidirlər.

1. Onlar mərhəmətlidir, xeyirxah məqsədlə Yer planetinə gəliblər.

2. Onlar Yer planetini ələ keçirmək məqsədilə buraya gəliblər.

Şagirdlər öz düşüncələrinə uyğun hekayənin planını tərtib edə bilərlər. Müəllim sinfin səviy-

yəsini nəzərə alaraq kömək məqsədilə plan və mətn nümunəsi səsləndirə bilər:

Hekayənin planı

1. Məktəb yolunda
2. Uçan boşqabın gəlişi
3. Yadplanetli ilə söhbət
4. Yadplanetli ilə dostluq və ya onun məhvi

Mətn: Yadplanetlinin xəbərdarlığı

*Mən məktəbə adətən dostlarımla birlikdə gedirdim. Bu dəfə gecikdiyimdən məktəbə tək getməli oldum. Elə evdən təzəcə çıxmışdım ki, birdən uğultu səsi eşitdim. Başımı qaldırıb yuxarı baxdım. Diskə bənzəyən dairəvi bir əşya rəngbərəng işıqlar saçaraq üstümə gəlirdi. Nə qədər qaçsam da, ardımca gəldi. Birdən sanki kimsə məni tutub dayandırdı. Uçan boşqab yavaşca düz yanımda yerə endi. Uçan boşqabın pilləkənləri var idi. İçəridən üçbucaq formada üzü olan bir məxluq düşdü. Mənə əl verib salamlaşdı. O danışdıqca sanki mən onu başa düşürdüm. O bizə kömək etmək istəyirdi. Deyirdi ki, planetiniz çox çirklənib. Havası təmiz deyil. Sağlığınız təhlükə altındadır. Planetinizi qoruyun. Ətrafı təmiz saxlayın, ağacları qırmayın.*

*Bir neçə dəqiqədən sonra o, uçan boşqaba minib bir göz qırpımında uzaqlaşdı.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir. | Tap. A, B (dərslik), tap. A (iş dəftəri) |
| Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir. | Tap. C (dərslik), tap. B, C (iş dəftəri) |
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. Ç (dərslik) |
| Fikir və mühakimələrini əks etdirməklə kiçikhəcmli mətn yazır. | Tap. D (dərslik) |

## 2-ci dərs. Yaşılgözlü qız

Dərslik: səh. 61-64 • İş dəftəri: səh. 40

**Təlim məqsədləri**

- Mətni intonasiya ilə oxuyur (st. 2.2.1).
- Mətnin bitkin hissələrini yarımbaşlıqlarla adlandırır (st. 2.2.3).
- Mətnin məzmunu ilə bağlı suallar tərtib edir (st. 2.2.2).
- Frazeoloji birləşməni həqiqi mənalı söz birləşməsindən fərqləndirir (st. 2.1.2).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
- Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir (st. 2.2.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | Fantastik əsərlər barədə söhbət |
| 2 | Oxu | “Yaşılgözlü qız” əsərinin oxunması |
| 3 | Söz ehtiyatı | Yeni ifadələrin mənimsədilməsi |
| 4 | Oxuyub-qavrama | Mətnin məzmunu üzrə iş |
| 5 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin mütaliə səviyyəsini yoxlamaq üçün sual verir:

– *Hansı fantastik əsərləri oxumusunuz?*

Sonra şagirdlərin diqqəti Reyhan Yusifqızının “Yaşılgözlü qız” əsəri əsasında işlənmiş mətnin oxunmasına yönəldilir.

### Oxuyub-qavrama

2.2.1 **Tapşırıq A (dərslik). Qruplarla iş.** Müəllim şagirdləri qruplara ayırır. Mətnin hissələrini qruplar arasında bölüşdürür. Dərslikdə verilən təlimatı izah edir.

**Müəllimin nəzərinə!** Mətnin giriş hissəsinin (Lemi ilə Kanın qəzaya uğraması) bütün qruplar tərəfindən oxunması tövsiyə olunur.

2.2.3 Şagirdlər mətnin bitkin hissələrini uyğun yarımbaşlıqlarla adlandırırlar. Yarımbaşlıqlar təxminən belə ola bilər:

I hissə: Lemi ilə tanışlıq
II hissə: Lemi Ayselin dərsində
III hissə: Üzgüçülük hovuzunda

2.2.2 Qruplar mətnin müəyyən bir hissəsini oxuyub suallar tərtib edirlər. Suallar təxminən aşağıdakı kimi ola bilər:

I hissə: *Lemi Aysellə harada tanış oldu? Lemi Ayselin əlində telefon görəndə nə üçün təəccübləndi? Leminin planetində insanlar nə ilə əlaqə saxlayırdılar? Aysel ilə Kənan nə üçün Leminin yadplanetli olmasını gizlətdilər? Onlar Leminin harada qalmasına qərar verdilər? və s.*

II hissə: *Lemi hansı dərslərdə iştirak etdi? Lemi riyaziyyat dərsində özünü necə aparırdı? Onun hansı məsələsinə uşaqlar gülüşdülər? Azərbaycan dili dərsində Lemi öz yurdu haqqında nə danışdı? və s.*

III hissə: *Üzgüçülük hovuzuna nə üçün getmişdilər? Leminin saatını kim oğurlamışdı? Necə oldu ki, İlqar Leminin saatını qaytardı?* və s.

Sonda qruplar mətnin hissələrini ardıcıl olaraq nəql edirlər. Bununla da şagirdlərdə mətnin bütün hissələri üzrə tam təsəvvür formalaşır. Mətn nəql olunan zaman şagirdlərin obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirmələrinə diqqət edilməsi tövsiyə olunur. Sonra hər bir qrup öz hissəsinə uyğun hazırladığı sualları digər qrup üzvlərinə verirlər. Beləliklə, mətnin həmin hissəsinin nə dərəcədə diqqətlə dinlənildiyi müəyyən olunur.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq B (dərslik). Kollektiv iş.** Şagirdlər mətnin 1-ci hissəsində Aysellə Leminin dialoqunu oxuyurlar. Mətndə mavi rənglə verilmiş "Aydan gəlmək" ifadəsinin təxmini mənasını  izah etməyə çalışırlar, sonra tapşırıqda uyğun izahı (hamının bildiyi adi şeylərdən məlumatsız olmaq) seçirlər. Şagirdlər "aydan gəlmək" ifadəsinin məcazi mənada işlədiyini izah edir, Leminin bu ifadəni həqiqi mənada anladığı qənaətinə gəlirlər.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırığın məqsədi şagirdlərin mətni nə dərəcədə qavradıqlarını yoxlamaqdır.

**Doğru fikirlər:** 2 və 5-ci fikirlər

2.2.4 **Tapşırıq C (dərslik)**. Tapşırıq vasitəsilə şagirdlərin diqqəti mətndə obrazların davranışlarına yönəldilir.

*1. Kənan nə üçün Lemiyə şübhə ilə baxdı?*
<u>Cavab:</u> Kənan onun yadplanetli olmasına inanmadı.

*2. Sizcə, Aysel Leminin qulağına nə pıçıldadı?*

<u>Cavab:</u> Aysel sinif yoldaşlarına Lemini Almaniyadan gəlmiş rəfiqəsi kimi təqdim etdiyi halda, Lemi öz planeti haqqında danışırdı. Aysel onun qulağına pıçıldadı ki, Lemi sirrimizi açma. Öz planetin üçün deyil, Almaniya üçün darıxdığını söyləməlisən.

*3. Lemi nə üçün gözlərini qızın gözlərinə dikmişdi? (III hissə)*

<u>Cavab:</u> Lemi telepatiya bacarığına sahib idi. O bütün diqqətini saatı oğurlayan qızın gözlərinə yönəltməklə onun fikirlərini oxumağa çalışırdı.

*4. Lemi nə üçün İlqara heç bir söz söyləmədən ovcunu açdı? (III hissə)*

<u>Cavab:</u> Lemi İlqarın gözlərinin içinə baxaraq ovcunu açdı. Bununla o, telekinez bacarığından istifadə edib İlqara təsir göstərdi. İlqar etiraz etmədən saatı onun ovcuna qoymağa məcbur oldu.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş hadisələr arasında səbəb və nəticə əlaqəsini müəyyənləşdirib cədvəli tamamlamalıdırlar.

1-ci hadisənin nəticəsi: Lemi paraşüt-şarla Yer planetinə endi.

2-ci hadisənin səbəbi: Böyüklərin Leminin yadplanetli olmasına inanmayacaqlarını düşündülər.

3-cü hadisənin səbəbi: Leminin saatı oğurlanmışdı.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər 5-ci bölmədə "Ginnesin rekordları kitabı" haqqında məlumat alıblar. Həmin bilgilərindən istifadə edib sualı cavablandırırlar.

**Əlavə tapşırıq:** Şagirdlər Kənan ilə anasının söhbətini (I hissə, son abzasa əsasən) təsəvvür edib yaza bilərlər.

<u>Dialoq təxminən belə ola bilər:</u>

– Ana, səncə, yadplanetlilər mövcuddur? Yadplanetli görsən, onun varlığına inanarsan?

– Yox, oğlum. Bunlar hamısı uydurmadır. İnanma belə şeylərə. Hərdən bəziləri deyir ki, uçan boşqab gördüm, yadplanetli ilə görüşdüm. Hətta buna aid şəkillər, filmlər də var. Amma heç biri sübut olunmayıb. Belə şeylərə heç vaxt inanmamışam.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir. | Tap. A (dərslik) |
| Mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | Tap. A (dərslik) |
| Frazeoloji birləşməni həqiqi mənalı söz birləşməsindən fərqləndirir. | Tap. B (dərslik) |
| Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. | Tap. A (iş dəftəri) |
| Mətnin məzmunundan çıxış edərək hadisənin səbəbini və nəticəsini müəyyən edir. | Tap. C (dərslik) tap. B, C (iş dəftəri) |

## 3-cü dərs. Elmi-fantastik əsərlər

Dərslik: səh. 65 • İş dəftəri: səh. 41

**Təlim məqsədləri**

- Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 2.2.5).
- Əldə etdiyi məlumatlara əsasən mətndəki fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir (st. 2.2.5).
- Müəllifin məqsədini (məlumat vermək, əyləndirmək, inandırmaq, təlimat vermək, cavab axtarmaq) müəyyən edir (st. 2.2.4).
- Mətndəki obrazları xarakterizə edir (st. 2.2.3).
- Bədii mətndə hadisələrin ardıcıllığını müəyyən edir (st. 2.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | “Yaşılgözlü qız” əsərinin xatırladılması |
| 2 | **Oxuyub-qavrama** | Mətndəki obrazların davranışlarına münasibətin bildirilməsi; ELmi-fantastik əsərlər haqda məlumatın mənimsədilməsi; obraz xəritəsinin tərtibi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim “Yaşılgözlü qız” əsərini xatırlatmaq məqsədilə şagirdlərə suallar verir:

– *Yaşılgözlü qız kim idi? Lemi Yer planetinə nə üçün gəlmişdi? O, Yer planetində kimlərlə qarşılaşdı? Başına hansı hadisələr gəldi?*

### Oxuyub-qavrama

2.2.5 **Tapşırıq A (dərslik).** Tapşırıqda verilmiş suallara mətndə konkret cavab yoxdur. Şagirdlər özlərini Ayselin yerində təsəvvür edərək yadplanetli ilə qarşılaşdıqda ona verilə bilən sualları düşünüb söyləyirlər. Məsələn, *sən hansı planetdə yaşayırsan? Necə oldu ki, buraya gəldin? Sən əgər yadplanetlisənsə, bizim dildə necə danışırsan? Sən niyə belə geyinmisən? və s.*

**Tapşırıq B (dərslik).** Şagirdlər Kənanın anası ilə söhbətini xatırlayıb sualı cavablandırırlar:

– Böyüklər, çox güman ki, uşaqlara inanmayacaqdılar. İnansalar da, Lemini rahat buraxmazdılar.

**Tapşırıq C (dərslik).** Mətndəki obrazların davranışlarını şagirdlərin təhlil etmələrinə nail olmaq üçün debat keçirmək olar. Debat üçün Aysel və Kənanı müdafiə edən və ya onların hərəkətini düzgün hesab etməyən şagirdlər seçilir. Seçilən şagirdlər fikirlərini əsaslandırmaq üçün arqumentlər düşünürlər.

Müdafiə edən şagirdlərin arqumentləri bunlar ola bilər:

1. Lemiyə kömək etmək üçün onların başqa yolu yox idi.

2. Onlar Lemini qorumaq istəyirdilər. Əgər Aidə xalaya həqiqəti desəydilər, Aidə xala onlara inanmaz və Lemini evində saxlamağa razı olmazdı. Həm də bu haqda polisə məlumat verərdi. Leminin həyatı təhlükə altına düşərdi.

3. Onların yalanı heç kim üçün təhlükə yaratmır, əksinə bir qızın xilası üçün vacibdir.

Aysel ilə Kənanın yalan danışmasına mənfi münasibət göstərən şagirdlərin arqumentləri bunlar ola bilər:

1. Heç bir halda yalan danışmaq olmaz.

2. Yalan ayaq tutar yeriməz. Gec-tez üstü açılacaq. Elə əvvəldən doğrunu danışmalı idilər.

3. Onlar həqiqəti desəydilər, böyüklər də Lemi ilə söhbət edib ona inanacaq, kömək etmək istəyəcəkdilər.

4. Onu elm mərkəzlərinə təhvil verib, yadplanetlilər haqda daha çox məlumat öyrənə bilərdilər.

2.2.2 **Tapşırıq Ç (dərslik).** Mətndə Leminin bir neçə qeyri-adi xüsusiyyətinə rast gəlinir.

Leminin telekinez bacarığı geyim otağında Leminin saatının oğurlanması epizodunda ortaya çıxır.

Leminin telepatiya bacarığı isə İlqarın saatı Lemiyə təhvil verməsi epizodunda ortaya çıxır.

2.2.5 **Tapşırıq D (dərslik).** Bu tapşırıq şagirdlərin diqqətini elmi-fantastik əsərlərə yönəltmək məqsədi daşıyır. Şagirdlər mətndəki qeyri-adi hadisələr haqqında danışırlar.

**Qeyri-adi hadisələr:** 1) Uşaqların kosmik gəmi ilə səyahəti; 2) Sürəti saatda 460 km olan maşın; 3) 140 yaşlı insan; 4) Uzun müddət suyun altında qala bilən adam; 5) Başqalarının fikirlərini oxumaq; 6) Baxışlarının gücü ilə başqalarına təsir etmək və s.

**“Yadda saxla” rubrikası.** Şagirdlər elmi-fantastik əsərlərlə bağlı rubrikada verilmiş məlumatları oxuyub müəllimin köməyi ilə aydınlaşdırırlar. Şagirdlərə izah olunur ki, elmi-fantastik əsərlərdə inandırıcı olmayan istənilən bir uydurmanı müəllif elmi cəhətdən elə əsaslandırmalıdır ki, oxucu bu əhvalata inansın.

2.2.4 **Tapşırıq E (dərslik).** Şagirdlər müəllifin fikirlərinin inandırıcı olmasına münasibətlərini bildirirlər.

Verilmiş epizodda Leminin Azərbaycan dilini necə öyrənməsi məsələsinə müəllif yanaşması əks olunur. Əgər əsərdə oxucunu düşündürən bu sualın əsaslandırılmış cavabı olmasa idi, oxucunun əsərə marağı zəifləyərdi.

2.2.2 **Tapşırıq Ə (dərslik).** Tapşırıq şagirdlərin ehtimal irəli sürmək bacarıqlarının formalaşdırılmasına kömək edir. Şagirdlər təxminən bu ehtimalları söyləyə bilərlər:

<u>Fantastika:</u> Maşın saatda 460 km yol gedir.

<u>Ehtimal:</u> Texnologiya inkişaf etdikcə daha sürətli avtomobillər ixtira olunur.

<u>Fantastika</u>: Atanın 140 yaşı var idi.

<u>Ehtimal:</u> Tibb elminin inkişafı nəticəsində insanlar daha çox ömür sürə bilərlər.

2.2.3 **Tapşırıq A (iş dəftəri).** “Yaşılgözlü qız” əsərinə aid obraz xəritəsini tərtib etməklə mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

2.2.2 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş epizodu oxuyaraq sualları cavablandırırlar.

1. Mətnin 2-ci hissəsində Lemi Ayselin məktəbinə gedir və bir neçə dərsdə iştirak edir. Bu epizodda Lemi idman dərsində təsvir olunur. Deməli, epizod mətnin 2-ci hissəsinə aiddir.

2. Epizodda Leminin telekinez bacarığından istifadə etdiyini görürük. O, baxışlarının gücü ilə topun dəfələrlə səbətə düşməsinə nail olur və komandasına xallar qazandırır.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların davranışlarına münasibət bildirir. | Tap. A, B, C (dərslik). |
| Mətn üzrə faktoloji sualları cavablandırır. | Tap. Ç (dərslik). |
| Mətndəki fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir. | Tap. D (dərslik). |
| Mətni yazmaqda müəllifin məqsədini (inandırmaq) müəyyən edir. | Tap. E (dərslik). |
| Obrazlar xəritəsi tərtib edir. | Tap. A (iş dəftəri) |
| Epizodların mətndəki ardıcıllığını müəyyən edir. | Tap. B (iş dəftəri) |

## **4-cü dərs.** "Yaşılgözlü qız" əsərinin davamı

• Dərslik: səh. 66 • İş dəftəri: səh. 42

**Təlim məqsədləri**

• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır (st. 3.1.2).
• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 1.1.1).
• Oxuduğu mətn haqqında rəy yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Yaşılgözlü qız" əsərinin davamının təxmin edilməsi |
| 2 | **Yazı** | "Yaşılgözlü qız" mətninin sonluq hissəsinin yazılması |
| 3 | **Dinləmə** | "Yaşılgözlü qız" əsərinin sonluq hissəsinin səsləndirilməsi |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim soruşur:

*– Dərslikdə Leminin Yer planetindəki macəralarına dair bir hissə təqdim olunmuşdur. Sizcə, Leminin taleyi necə olacaq? O öz planetinə qayıdacaqmı?*

### Yazı

3.1.2 **Tapşırıq A (dərslik).** Şagirdlər qruplara bölünür. Qrup üzvləri tapşırıqda verilmiş qısa sonluğu və açar sözləri oxuyur, şəkilləri diqqətlə nəzərdən keçirir və suallar ətrafında müzakirə aparırlar. Müzakirədən sonra qrup üzvləri yazacaqları hekayənin planını tuturlar:

Təxminən belə ola bilər:

1. Rüstəmin və ya Kənanın internetdə axtarışları;
2. Rüstəmin və ya Kənanın saytda Kanı tapması və məktublaşması;
3. Kanın Yer planetinə gəlişi üçün vaxt və məkanın qərarlaşdırılması;
4. İlqarın görüş planından xəbər tutması və polisə xəbər verməsi;
5. Kanın gəlişi və Lemi ilə vidalaşma.

Qrup üzvləri plan üzrə fikirlərini ümumiləşdirib növbə ilə epizodları təsvir edib yazırlar. Sonda yazdıqları hekayəni oxuyub redaktə edirlər.

Qrupların təqdimatı dinlənilir. Hər bir qrup digərinin yazdığı hekayəni aşağıdakı meyarlara görə qiymətləndirir.

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Hadisələr məntiqi ardıcıllıqla təsvir edilib. | | | |
| İnandırıcıdır. | | | |
| Aydın və oxunaqlıdır. | | | |

1.1.1 **Tapşırıq B (dərslik).** Müəllim "Yaşılgözlü qız" əsərinin sonluq hissəsini səsləndirir:

**Leminin öz planetinə qayıdışı**

*Rüstəm internetdə araşdırma etdi. Öyrəndi ki, yadplanetlilərlə nə vaxtsa ünsiyyətdə olanların öz saytı var. Onlar bir-biri ilə əlaqə saxlayır, təəssüratlarını bölüşürlər. Rüstəm də o sayta üzv olub yadplanetli yaşılgözlü bir qızla tanış olduğunu yazdı. Buna qarşılıq olaraq Rüstəmə məktub gəldi. Məktubda yazılmışdı:*

*– Yadplanetli yaşılgözlü qızla maraqlanıram. Lütfən, e-mailimə cavab yazmağınızı istərdim: 1667663.*

*Rüstəm məktubu Lemiyə göstərdi. Lemi "Bu, Kanın e-mail ünvanıdır! – deyə həyəcanla qışqırdı. Uşaqlar məsləhətləşib Kana cavab yazdılar. Beləcə, Lemi və dostları Kanla əlaqə yaratmağa nail oldular. Məsləhətləşib görüşmək üçün vaxt və məkanı qərarlaşdırdılar. Rüstəm Lemiyə hədiyyə etmək üçün Yer kürəsi haqqında bir neçə kitab seçdi.*

*Kənan isə hər şeyi atasına danışdı. Atası Kənana inanmasa da, razılaşdı:*

*– Yaxşı, de görüm, məndən nə kömək istəyirsən?*

*– Ata, bu gün Lemi öz planetinə qayıtmalıdır. Kosmik gəmidə onun dalınca gələnlər axşam saat səkkizdə şəhər kənarında onu gözləyəcəklər. Vaxtımız çox azdır, biz onu yola salmalıyıq. Bizi maşınla apararsan?*

*Atası fikrə getdi. Kənan intizarla onun üzünə baxırdı.*

*– Hə, Kənan! Bütün bunların cəfəngiyyat olduğunu sənə sübut etmək üçün başqa yol yoxdur! Gedək, görək!*

*Bir azdan uşaqlar maşına minib yola çıxmaq istəyəndə bir də gördülər ki, həyətdə polis ma-*

*şını dayanıb. İlqar da oradadır. Görünür, İlqar Lemi ilə əlaqədar nədənsə şübhələnib!*

*Uşaqlar mümkün qədər aşağı yatıb gizləndilər. Ata onlara baxıb dodaqaltı gülümsədi. O bütün bunları oyun sayır, özünü də bu oyunun iştirakçısı hesab edirdi.*

*Nəhayət, maşın həyətdən çıxdı. Uşaqlar rahat nəfəs aldılar. Həyəcanını gizlədə bilməyən Leminin gözü qolundakı iri saatda idi. O, Kandan siqnal gözləyirdi. Maşın boz torpaqlı bir ərazidə dayandı.*

*– Buradır, – Lemi əli ilə göstərdi, – mən paraşütlə buraya düşmüşdüm!*

*Uşaqlar maşından çıxdılar. Birdən Leminin qolundakı saatın işıqları yanıb-sönməyə başladı. Bu, siqnal idi. Hamı sevinclə qışqırdı:*

*– Ura!!!*

*Göyün bir hissəsi işıqlanmağa başladı. Kiçik bir obyekt yavaş-yavaş Yerə enərək onlardan bir qədər aralıda dayandı. Bu heyrətamiz obyektin hər tərəfində işıqlar yanıb-sönürdü. Aysel Lemiyə tərəf döndü. Qızlar qucaqlaşdılar, göz yaşları bir-birinə qarışdı. Lemi heyrət içində donub-qalmış ataya baxıb gülümsədi.*

*– Yalan söylədiyimizə görə bizi bağışlayın.*

*Bilmirəm nə deyim, bəlkə də, düz eləmisiniz, – söyləyən ata Lemi ilə sağollaşdı. Lemi saatını qolundan açıb uşaqlara hədiyyə etdi və sağollaşaraq onu gözləyən obyektə tərəf getdi. Avtomatik açılan qapıdan içəri daxil olub gözdən itdi.*

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər “Yaşılgözlü qız” əsəri ilə bağlı rəy yazırlar. Bununla onlar oxuduqları elmi-fantastik əsəri təhlil etmək bacarıqlarını nümayiş etdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Açar sözlər və şəkillərin köməyi ilə mətnin sonluğunu yazır. | Tap. A (dərslik) |
| Dinlədiyi və yazdığı mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. B (dərslik). |
| Oxuduğu mətn haqqında rəy yazır. | Tap. A (iş dəftəri) |

## 5-ci dərs. İxtisar və durğu işarələri

Dərslik: səh. 67 • İş dəftəri: səh. 43

**Təlim məqsədləri**

• Durğu işarələrinin funksiyasını müəyyən edir (st. 4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Durğu işarələrinin xatırladılması |
| 2 | **Dil qaydaları** | Sözlərin qısa yazılışı və nöqtə, qoşa nöqtə, yarımmötərizə işarələrinin funksiyaları |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər aşağı siniflərdə durğu işarələri üzrə bir sıra bilik və bacarıqlara yiyələnmişlər. Müəllim müəyyən bilgiləri xatırlatmaqla onların diqqətini mövzuya yönəldir.

### Dil qaydaları

4.1.5 **Tapşırıq B (dərslik).** Dərsin mövzusu sözlərin qısa şəkildə yazılışı – ixtisar haqqındadır. Bu tapşırıq vasitəsilə şagirdlərdə ixtisar edilmiş sözlər haqqında ilkin təsəvvür yaradılır.

**“Bunları bilməliyik” rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları nəzərdən keçirmək üçün şagirdlərə müəyyən vaxt verir. Vaxt bitdikdən sonra müəllim lövhədə rubrikadakı hər bir məlumata uyğun nümunələr yazıb sorğu-sual aparmaqla şagirdlərin məlumatı nə dərəcədə mənimsədiklərinə əmin olmalıdır.

**Tapşırıq C, Ç (dərslik).** Tapşırıq yeni biliklərin möhkəmləndirilməsi məqsədi daşıyır. Ç tapşırığı üzrə cavablar:

1. iki tam yüzdə otuz üç – 2,33
2. doqquz tam yüzdə səkkiz – 9, 08
3. altı tam yüzdə on beş – 6, 15
4. beş tam onda beş – 5, 5

**“Bunları bilməliyik” rubrikası.** Rubrikada ölçü vahidlərinin qısa yazılışı ilə bağlı istisna qayda təqdim edilmişdir. Rubrikadakı məlumat şərh olunur.

**Tapşırıq D (dərslik).** Tapşırıq "Bunları bilməliyik" rubrikasındakı məlumatın mənimsədilməsinə xidmət edir. Şagirdlər dəftərlərində cədvəl çəkərək tapşırığı yerinə yetirirlər.

**Düzgün cavab:**

Uzunluq vahidi – dm, km, m, sm
Kütlə vahidi – q, l, mq, ml,
Zaman vahidi – san, dəq.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər cədvəldə verilmiş qrafik informasiyanı cümlələr şəklində ifadə etməklə biliklərini müstəqil şəkildə nümayiş etdirirlər.

1. Aprelin 7-si cümə axşamıdır.
2. Aprelin 12-si çərşənbə axşamıdır.
3. Aprelin 25-i bazar ertəsidir.

**Müəllimin nəzərinə!** Şagirdlər 3-cü sinifdə sıra saylarının qısa yazılışını (2-ci, 10-cu) öyrəniblər. Tapşırığı işləyərkən şagirdlərə həmin bilgiləri xatırlatmaq tövsiyə olunur. Cümlə daxilində sayı ərəb rəqəmləri ilə göstərərkən say bildirən söz rəqəmlə ifadə olunur, yerdə qalan hissəsi isə ərəb rəqəmindən sonra defislə yazılır. Məsələn, Aprelin yeddi**si** – aprelin 7-si.

**Tapşırıq B (iş dəftəri).** Tarixlərin qısa yazılışı üzrə biliklər möhkəmləndirilir. Tapşırıqda verilmiş tarixlərin qısa yazılış forması: *26.03.2021; 18.10.1991; 20.11.1960*

**Tapşırıq C (iş dəftəri).** Şagirdlərin diqqəti qısa yazılışı düzgün oxumağa yönəldilir. Qısa yazılan sözləri tam şəkildə ifadə etməklə ixtisarları düzgün oxuduqlarını nümayiş etdirirlər.

**Düzgün oxunuş:** Bakı şəhəri Səməd Vurğun küçəsi 88.

**Tapşırıq Ç (iş dəftəri).** Tapşırıq şagirdlərin dil qaydaları üzrə yeni biliklərini tətbiq etməyə imkan yaradır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Uyğun durğu işarələrindən (nöqtə, qoşa nöqtə, yarımmötərizə) istifadə etməklə söz və ifadələri qısa yazır. | Tap. B, C, Ç, D (dərslik). Tap. A, B, C, Ç (iş dəftəri) |

fəsil **2** **KEÇMİŞƏ SƏYAHƏT**

## 1-ci dərs. Zamanın əsirləri

Dərslik: səh. 68-71 • İş dəftəri: səh. 44

**Təlim məqsədləri**

- Mətnin tərkib hissələrini, struktur elementlərini (illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).
- Mətni intonasiya ilə oxuyur (st. 2.2.1).
- Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
- Kontekstdən çıxış edərək frazeoloji ifadənin mənasını müəyyənləşdirir (st. 2.1.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Keçmiş dövrlə bağlı şagirdlərin biliklərinin xatırladılması |
| 2 | **Oxu** | "Zamanın əsirləri" mətninin oxusu |
| 3 | **Söz ehtiyatı** | Yeni sözlərin mənimsədilməsi |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər aşağı siniflərdə keçmiş dövr haqqında öyrəndiklərini (Azıx mağarası, Odun kəşfi, Qobustan və s.) xatırlayıb şəkillər üzrə danışırlar.

### Oxu

2.2.3 **Tapşırıq B (dərslik).** Şagirdlər annotasiyanı oxuyub əsərin adını izah etməyə çalışırlar.

İzah: Əsir – müharibədə ələ keçirilən düşmən əsgəri, zabiti və s.

Əsərin adında "əsir" sözü məcazi mənada işlənib. Annotasiyadan da bəlli olur ki, əsərdə zaman maşını ilə uzaq keçmişə düşən iki dostun təhlükələrlə üzləşdiyi və çox çətin həyat yaşamaları əks olunur.

2.2.1 **"Zamanın əsirləri" mətni.** Mətn 5 bitkin hissəyə ayrılıb. Mətnin oxunması üçün

qruplarla iş forması tövsiyə olunur. Qrup üzvləri mətnin müvafiq hissəsinin məzmunu üzrə aşağıdakı işləri görürlər:

1. Oxuduqları hissəni adlandırırlar;

2. Həmin hissədə rast gəldikləri yeni ifadələri izahlı lüğətin köməyi ilə aydınlaşdırırlar;

3. Mətnin müvafiq hissəsinin məzmunu üzrə suallar tərtib edirlər;

4. Sonda qruplar mətni növbə ilə ifadəli şəkildə (obrazların davranışlarını nəzərə alaraq) rollu oxuyurlar.

**Müəllimin nəzərinə!** Qruplara mətnin yalnız bir hissəsini oxumaq tapşırıldığı üçün həmin hissəni oxuyarkən şagirdlərdə müəyyən anlaşılmazlıq yarana bilər. Bu zaman müəllim şagirdlərə tapşırır ki, oxuduqları hissədə qaranlıq qalan məqamları qeyd edib digər qrupların təqdimatı zamanı həmin məqamları aydınlaşdırsınlar.

## Söz ehtiyatı

2.1.1 **Tapşırıq C (dərslik).** Şagirdlər yeni öyrəndikləri sözlərdən istifadə etməklə cümlələri tamamlayırlar.

1. Bu gözlənilməz xəbər məktəblərdə **sensasiya** yaratdı.

2. Ayın səthində **eksperiment** keçirildi, nəticədə pambıq toxumları cücərdi.

3. Məktəbin **laboratoriyasına** yeni mikroskop və lupa gətirildi.

4. Qədim türklərdə qurd **totemi** cəsarət, azadlıq rəmzi hesab edilirdi.

**Tapşırıq A (iş dəftəri).** Krosvord mətndə rast gəlinən yeni sözlərin şagirdlərə mənimsədilməsi məqsədi daşıyır.

1. Gözlənilməz hadisə ilə bağlı xəbərin cəmiyyətdə yaratdığı həyəcan – **sensasiya**;

2. Yalnız öz xeyrini düşünən adam – **eqoist;**

3. Çox pərt, əhvalı pozulmuş, qəmgin, kədərli, məyus – **dilxor;**

4. Elmi fərziyyələrin təsdiqi üçün həyata keçirilən təcrübə – **eksperiment;**

5. Başlığı daş olan qədim silah növü – **topuz;**

6. İbtidai dövrdə bir şəxsin idarəsi altında birlikdə yaşayan tayfa, nəsil – **qəbilə;**

7. Nəslin əcdadı, xilaskarı sayılan heyvan, bitki, təbiət hadisəsi və s. – **totem;**

8. Fiqur və əşyaların yalnız kənar cizgilərinin birrəngli təsviri – **siluet.**

2.1.1 **Tapşırıq B (iş dəftəri).** Tapşırığın məqsədi şagirdlərə mətndə rast gəldikləri frazeoloji ifadələri mənimsətməkdir.

**Düzgün cavab:** 1. Səhvini anlayan qızın **dili topuq vurdu,** nə cavab verəcəyini bilmədi.

2. Məni **qara basırdı**, elə bilirdim, yuxu görürəm.

3. Elxanın dostu gəlib çıxmırdı, artıq onun **hövsələsi daralmışdı.**

## Oxuyub-qavrama

2.2.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlər mətnin məzmunu ilə bağlı faktoloji sualları cavablandırmaqla mətni oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

**Tapşırıq C (iş dəftəri).** Bu tapşırıq vasitəsilə şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamaq mümkündür.

Şagirdlər mətnin məzmunundan çıxış edərək obraz adlarını müəyyənləşdirib yazırlar.

1. Rüstəm ilə Kənanın laboratoriyada yox olmasını təkcə **Aysel** görmüşdü.

2. Kənan ilə Rüstəm Daş dövründə **Axo** ilə dost oldular.

3. Qəbilədən qovulduğu üçün **Qunn** Kənandan heyfini çıxmaq istəyirdi.

4. **Lemi** Kənan ilə Rüstəmi Qunnun qəzəbindən xilas etdi.

5. Rüstəm **Axonu** özü ilə aparmaq istəyirdi.

### Diferensial təlim

Çətinlik çəkən şagirdlərin doğru fikirlər yazması üçün mətni nəzərdən keçirməsi tövsiyə olunur. Bu həmin şagirdlərin mətndən lazımi məlumatı seçmək bacarığını inkişaf etdirir.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndəki obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə uyğun səsləndirir. | “Zamanın əsirləri” mətni |

| | |
|---|---|
| Cümləni tamamlamaq üçün kontekstə uyğun gələn sözü və ifadəni müəyyən edir. | Tap. C (dərslik), tap. B (iş dəftəri) |
| Kontekstdən çıxış edərək izaha uyğun sözləri müəyyən edir. | Tap. A (iş dəftəri) |
| Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır. | Tap. Ç (dərslik), tap. C (iş dəftəri) |

## 2-ci dərs. "Zamanın əsirləri" elmi-fantastik əsərinin təhlili

• Dərslik: səh. 72 • İş dəftəri: 45

**Təlim məqsədləri**

• Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir (st. 2.2.3).
• Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır (st. 1.2.1).
• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır (st. 1.2.2).
• Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st. 3.1.2).
• Fikir və mühakimələrini əks etdirməklə kiçikhəcmli mətn yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Zamanın əsirləri" mətninin xatırlanması. |
| 2 | **Oxuyub-qavrama** | "Zamanın əsirləri" mətninin məzmunu üzrə iş |
| 3 | **Danışma** | "İbtidai insanların yaşayış tərzi" mövzusu üzrə təqdimat |
| 4 | **Yazı** | Mövzu üzrə essenin və mətnin qısa məzmununun yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim suallar verməklə "Zamanın əsirləri" mətnini xatırladır.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq A (dərslik).** Mətnin I hissəsində sonuncu abzasda göstərilir:

*Kənan çantasını çiyninə aşırıb ayağa qalxdı. Bu zaman otağın qapısı açıldı və Aysel başını içəri saldı. Elə bu vaxt dəhşətli partlayış baş verdi...*

Diqqətli şagirdlər "Kənan ilə Rüstəmin yoxa çıxmasını kim görmüşdü?" sualını məhz həmin abzasdan aldığı məlumata (Aysel) əsasən cavablandıra bilərlər. Elə bu məlumat şagirdlərə tapşırıqda qoyulan ikinci sualın cavabını təxmin etməyə də kömək edir. Şagirdlər sualı təxminən belə cavablandıra bilərlər:

– Əgər Kənan ilə Rüstəmin yoxa çıxdığını Aysel görmüşdüsə, deməli, Lemiyə də xəbəri çox güman ki, Aysel çatdırıb.

Şagirdlər başqa fərqli cavablar da verə bilərlər:

– Ola bilsin ki, Kənan Lemidən yadigar qalan qol saatının köməyi ilə Lemiyə xəbər verib.

– Elxan müəllim zaman maşını ilə Rüstəmlə Kənanın axtarışına çıxıb və orada Lemi ilə rastlaşıb.

Bu və ya digər təxminetmələr şagirdlərin yaradıcı təfəkkürünün də inkişafına kömək edir.

Müəllim mətni səsləndirir:

**Leminin köməyi**

*Aysel sarsıntı keçirirdi: həmişə yanında gördüyü, arxalandığı sevimli qardaşı itmişdi, özü də, onun gözünün qabağında yoxa çıxmışdı.*

*Qonşu otaqdan səs gəlirdi. Atası və anası xısın-xısın danışırdı. Onlar işə getməmişdilər: dostları, tanışları ilə bərabər uşaqların axtarışında idilər. Telefon aramsız zəng çalır, hamı istintaqın gedişi ilə maraqlanırdı. Zaman maşını ilə bağlı məlumatlar gizli saxlanılsa da, bütün şəhər bundan danışırdı. Cihazın mikrosxemlərini çıxarıb Fizika İnstitutuna aparmışdılar. Elxan müəllim başda olmaqla mikrosxemlərin üzərində gecə-gündüz iş gedirdi.*

*Aysel çarəsiz idi, düşünürdü ki, belə halda yalnız Lemi onlara kömək edə bilər. Ancaq ona məktub yazmaq istəmirdi. Çünki Lemiyə indiyə qədər yazılan məktublar cavabsız qalırdı. Buna baxmayaraq, könülsüz halda Lemiyə məktub yazıb ondan kömək istədi. Lemi mesajı oxuyan kimi dərhal cavab göndərmişdi. Özü də, Ayselin bütün ümidlərini üzdüyü bir vaxtda.*

*"Mənim Yer dostlarım! Sizi heç unutmadım, hər gün, hər saat yadımdasınız. Mesajlarınızı da alıram, amma cavab yaza bilmirəm – buna ixtiyarım yoxdur. İndi isə qaydanı pozmağa məcburam, çünki dostlarıma kömək etməliyəm.*

*Keçək əsas məsələyə. Zaman sonsuzdur və uşaqları zamanda axtarmaq xeyli uzun çəkə bilər. Mən onların hansı dövrə düşdüyünü bilməliyəm. Bir sözlə, Aysel, mənə kömək eləməlisən. Bunun üçün zaman maşınının siferblatına bax və əqrəbin hansı rəqəmin üstündə durduğunu mənə bildir. Cavab gözləyirəm!"*

*Aysel çətinliklə də olsa, Leminin tapşırığını yerinə yetirdi. Zaman maşınının siferblatında əqrəb sıfırın üzərində idi. Bunun nə demək olduğunu Aysel bilməsə də, bunu Lemiyə xəbər verdi. Lemi üçün hər şey aydın idi.*

Müəllim şagirdlərin diqqətini yoxlamaq üçün suallar verir:

*– Nə üçün Lemi dostlarının mesajına cavab vermirdi?*

*– Ayselin atası və anası nə üçün işə getməmişdilər?*

*– Rüstəmlə Kənanı kimlər axtarırdı?*

*– Zaman maşınının siferblatında əqrəb hansı rəqəmin üstündə idi? və s.*

### Danışma

1.2.1 **Tapşırıq B (dərslik).** Obrazların davranışlarına şagirdlərin münasibət bildirməsi üçün kiçik debat təşkil etmək olar.

"Rüstəm haqlıdır" deyənlər aşağıdakı arqumentləri gətirə bilərlər:

*1. Rüstəm və Kənan zaman maşını ilə Daş dövrünə düşdüklərini başqalarına inandırmaq üçün Axonu XXI əsrə aparmalı idilər.*

*2. Axonun XXI əsrə aparmaqla Axodan Daş dövrü ilə bağlı xeyli məlumat öyrənmək olardı.*

*3. Axo XXI əsrdə daha rahat həyat yaşayardı.*

*"Kənan haqlıdır?" deyənlər aşağıdakı arqumentlərlə fikirlərini əsaslandıra bilərlər.*

*1. Axo Daş dövründə doğulub, rahat yaşamaq üçün hər cür bacarığa malikdir.*

*2. Kənan ilə Rüstəmə keçmiş zamanda yaşamaq necə darıxdırıcıdırsa, Axo da müasir zamanda eyni hissləri keçirə bilər.*

*3. Axo yaxınlarından, dostlarından ayrı yaşaya bilməz.*

**Tapşırıq C (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sualı cavablandırarkən mətnə istinad edib deyə bilərlər ki, məhz həmin dövrdə insanların əmək alətləri daşdan idi:

Mətnin III hissəsində: ...Əlində ağır **daş balta** var idi.

Mətnin V hissəsində: Bir gün çayın kənarında əlində iri **toppuz** onların qabağını kəsdi...

1.2.2 **Tapşırıq Ç (dərslik).** Tapşırıq qruplarla yaxud cütlərlə iş formasında yerinə yetirilə bilər. Tapşırığa əsasən şagirdlər mətnin müxtəlif hissələrindən aldıqları məlumatları ümumiləşdirib "İbtidai insanların yaşayış tərzi" mövzusunda təqdimat edirlər.

<u>Təqdimatın məzmunu təxminən belə ola bilər:</u>

*İbtidai insanların yaşayış məskənlərindən biri də mağaralar olub. Onlar soyuğa tab gətirmək və vəhşi heyvanlardan qorunmaq üçün mağarada gecələyirmişlər.*

*İki quru ağac parçasını bir-birinə sürtməklə od əldə edib tonqal qalayırmışlar.*

*Ovladıqları heyvanın dərisindən özlərinə geyim hazırlayırmışlar.*

*Daş dövründə ibtidai insanların əmək alətləri daşdan ibarət olub. Onlar daşdan sivri uclu balta, toppuz düzəldib ov və digər işlərdə istifadə edirmişlər.*

*Qidaları, əsasən, müxtəlif bitkilərdən, vəhşi heyvanlardan, quş və həşəratlardan ibarət olub.*

*İbtidai insanlar hər hansı canlını öz nəslinin əcdadı sayıb ona səcdə edirmişlər.*

### Yazı

3.1.2 **Tapşırıq D (dərslik).** Mövzu üzrə esse yazmaq üçün şagirdlərə müəyyən istiqamət vermək tövsiyə olunur.

Şagirdlər öz həyatlarında xoş keçən hadisələri yada salıb həmin dövrə, biliklərindən istifadə edib müəyyən bir tarixi keçmişə, yaxud da fantaziyalarına uyğun olaraq yaxın və ya uzaq gələcəyə səyahət etmək istədiklərini yazıb fikirlərini əsaslandıra bilərlər.

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlərə dinlədikləri mətndən bəlli oldu ki, Aysel Lemiyə məktub yazıb ondan kömək istəyir. Həmin məktubun məzmununu təxmin edib yazırlar.

*"Lemi! Sənə bu məktubu göz yaşları içində yazıram! Kənanla Rüstəm yoxa çıxıblar! Onları hər yerdə axtarırlar. Mən onların necə itdiyini bilirəm. Lemi, oğlanlar zaman maşınında yox olublar! Onlar başqa zamandadırlar, mən buna əminəm! Onların həyatı təhlükədə ola bilər, Lemi! Kömək elə, nə olar, cavab ver!"*

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq şagirdlərin oxuduqları irihəcmli əsərlərin məzmununu ümumiləşdirmək, əsas hadisələri müəyyənləşdirib qısa şəkildə yazmaq bacarığını inkişaf etdirir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunundan çıxış edərək hadisələrin davamını təxmin edir. | Tap. A (dərslik) |
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. B, C (dərslik) |
| Mətndən və illüstrasiyalardan əldə etdiyi məlumatlar əsasında şifahi təqdimat hazırlayır. | Tap. Ç (dərslik) |
| Verilmiş mövzuda esse yazır. | Tap. D ( dərslik) |
| Obrazın dilindən baş qəhrəmana məktub yazır. | Tap. A (iş dəftəri) |
| Oxuduğu mətnin qısa məzmununu yazır. | Tap. B (iş dəftəri) |

## 3-cü dərs. Terminlər

Dərslik: səh. 73 • İş dəftəri: səh. 46

**Təlim məqsədləri**

- Kontekstdən çıxış edərək terminin aid olduğu elm sahəsini müəyyən edir (st. 2.1.1).
- Terminləri ümumişlək sözlərdən fərqləndirir (st. 2.1.1).
- Kontekstə əsasən terminin mənasını müəyyən edir (st. 2.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Azərbaycan dilinin qrammatikasına dair sual-cavab |
| 2 | **Söz ehtiyatı** | Terminlərin mənimsədilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərə dil qaydalarına aid suallar verə bilər. Şagirdlər sualların cavablarını səsləndirdikcə (qoşma, bağlayıcı, ədat, isim, feil, əvəzlik, sait, samit və s.) müəllim lövhədə həmin sözləri yazır və soruşur:

– Bu sözlərə riyaziyyatda, yaxud da musiqi dərsində rast gəlirsinizmi?

Şagirdlərin "Xeyr" cavabından sonra müəllim dərsin mövzusu haqqında məlumat verir:

– Elə sözlər var ki, müəyyən bir elm sahəsinə aid olur. Lövhədə yazılan sözlər məhz Azərbaycan dili fənninə aid sözlərdir və termin adlanır.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (dərslik).** Şagirdlərin diqqəti mətnin III hissəsində II abzasda işlənmiş *siluet* sözünə yönəldilir. Bu sözün Təsviri incəsənət fənninə aid olması aydınlaşdırılır.

**Siluet:** Qrafika texnikası növü, fiqur və əşyaların əlavə detalları olmadan, yalnız kənar cizgilərinin birrəngli təsviri; kölgə.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər rubrikada verilmiş məlumatları oxuduqdan sonra müəllimin göstərişi ilə müxtəlif fənlərə aid bəzi nümunələr söyləyirlər.

**Tapşırıq B (dərslik).** Şagirdlər yeni biliklərini tətbiq edərək cədvəl tərtib edir və terminləri qruplaşdırıb yazırlar.

**Tibb:** virus, angina, pnevmoniya, qrip, dezinfeksiya;

**Astronomiya:** rəsədxana, peyk, planet, orbit;

**Rəssamlıq:** natürmort, portret, dekorativ;

**Musiqi:** vokal, not, melodiya, akkord.

2.1.1 **Tapşırıq C (dərslik).** Dilimizdə elə sözlər var ki, onlar həm termin, həm də ümumişlək söz kimi işlənir. Şagirdlər *sifət* və *xəbər* sözlərinin termin kimi işləndiyi cümlələri müəyyənləşdirir, bu sözlərin dilçiliyə aid terminlər olduğunu söyləyirlər.

**Cavab:** 1 və 4-cü cümlələr.

2.1.1 **Tapşırıq Ç (dərslik).** Tapşırıq vasitəsilə şagirdlərin müxtəlif fənlər üzrə bilgiləri yoxlanılır, bununla da şagirdlərin yeni bilikləri möhkəmləndirilir.

1. akvarel (təsviri incəsənət); 2. simmetriya (riyaziyyat); 3. yapma (texnologiya); 4. alqoritm (informatika).

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər krosvordu həll edib, cədvəli tamamlamaqla terminlərlə bağlı bilik və bacarıqlarını nümayiş etdirirlər.

*1. portret; 2. oriqami; 3. hasil; 4. solo; 5. feil. 6. dirijor; 7. heca; 8. üstəgəl.*

**Tapşırıq D (dərslik).** Şagirdlər terminlərin aid olduğu elm sahələrini müəyyənləşdirməklə müxtəlif fənlər üzrə öz biliklərini nümayiş etdirirlər.

**Müəllimin nəzərinə!** Tapşırığın cütlərlə iş formasında yerinə yetirilməsi tövsiyə olunur.

"Kim daha çox termin yaza bilər?" adlı müsabiqə də təşkil etmək olar.

2.1.1 **Tapşırıq E (dərslik).** Şagirdlər tapşırıqda verilmiş sözləri cümlədə termin kimi işlədib yazırlar.

**Diferensial təlim.**

Bilik və bacarıqları daha yaxşı inkişaf etmiş şagirdlərə sözləri bəzi cümlələrdə ümumişlək, bəzi cümlələrdə isə termin kimi işlətməyi tapşırmaq olar.

Məsələn, 1. Gülay, səbətdəki meyvələri **say.** 2. **Sayın** iki növü var: Sıra sayı və miqdar sayı;

1. Bir ədədin başqa ədədə bölünməsindən alınan ədəd **qismət** adlanır. 2. Qarabağın hər tərəfini gəzmək bizə də **qismət** olsun.

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş mətn parçasını oxuyub terminləri seçirlər.

**Elm sahəsi:** Astronomiya

**Terminlər:** Planet, asteroid, səma cismi, orbit, kosmik fəza.

**Müəllimin nəzərinə!** Xüsusi isimlər (Mars, Yupiter, Yer) termin hesab olunmur. Əgər şagirdlər planet adlarını da termin kimi götürərsə, bunu şagirdə səhv tutmaq tövsiyə olunmur.

**Tapşırıq C (iş dəftəri).** Elə terminlər var ki, müxtəlif elm sahələrinə aid olur. Tapşırıqda verilmiş *ton* sözü də belə terminlərdəndir. Şagirdlər kontekstdən çıxış edərək *ton* sözünün musiqi termini kimi işləndiyi cümləni müəyyənləşdirirlər. Tapşırıq vasitəsilə şagirdlər həm söz ehtiyatını zənginləşdirir, həm də terminlər üzrə biliklərini möhkəmləndirirlər.

**Doğru cavab:** 2-ci cümlə.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək terminin aid olduğu elm sahəsini müəyyən edir. | Tap. A, B, D (dərslik), tap. A, B (iş dəftəri) |
| İzahın aid olduğu termini müəyyən edir. | Tap. Ç (dərslik), tap. B (iş dəftəri) |
| Terminləri ümumişlək sözlərdən fərqləndirir. | Tap. C, E (dərslik), tap. A (iş dəftəri) |
| Terminin kontekstə uyğun mənasını müəyyən edir. | Tap. C (iş dəftəri) |

## **4-cü dərs.** Mürəkkəb adlar və onların yazılışı

• Dərslik: səh. 74 • İş dəftəri: səh. 47

| **Təlim məqsədləri** |
|---|
| • Mürəkkəb adları söz və söz birləşmələrindən fərqləndirir (st. 4.1.4). <br> • Mürəkkəb adları düzgün yazır (st. 4.1.2). |

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mətnlə bağlı sualın cavablandırılması |
| 2 | **Dil qaydaları** | Mürəkkəb adların fərqləndirilməsi və yazılış qaydasının mənimsədilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Məqsəd mətnin məzmunu ilə bağlı sualın cavablandırılması ilə şagirdlərin diqqətini mürəkkəb ad mövzusuna yönəltməkdir. Şagirdləri təxminən bu cavabı verməyə istiqamətləndirmək lazımdır:

– Əmək alətləri daşdan olduğuna görə həmin dövrü digər dövrlərdən fərqləndirmək üçün "Daş dövrü" adlandırıblar. Bu ad söz birləşməsi ilə ifadə olunur.

### Dil qaydaları

4.1.4 **Tapşırıq B (dərslik).** Aşağı siniflərdən şagirdlərin mürəkkəb söz, söz birləşmələri, ümumi və xüsusi isimlər haqqında bilgiləri vardır. Tapşırığın məqsədi bu anlayışların fərqini izah etmək və onların diqqətini mürəkkəb ad anlayışına yönəltməkdir.

**Cavab:** 1– b; 2 – c; 3 – a; 4 – ç.

**"Bunları bilməliyik" rubrikası.** Dilimizdə mürəkkəb adlardan geniş istifadə olunur. Mürəkkəb adların xüsusi yazılış qaydaları olduğu üçün şagirdlərin ibtidai təhsildə bu mövzu üzrə müəyyən biliklərə yiyələnməsi məqsədəuyğundur.

Müəllim rubrikada mürəkkəb adlar haqqında verilmiş məlumatları və nümunələri şərh edir.

**Tapşırıq C (dərslik).** "Bunları bilməliyik" rubrikasında verilmiş nəzəri biliklərin tətbiqi məqsədi daşıyır.

**Düzgün cavab:**
1. Xəzər dənizi; 2. Novruz bayramı;
3. Azərbaycan Qızıl Aypara Cəmiyyəti;
4. Topxana meşəsi; 5. Zəfər Günü.

4.1.2 **Tapşırıq Ç (dərslik). Kollektiv iş.** Öyrədici xarakter daşıyan bu tapşırıq vasitəsilə şagirdlərin diqqəti mürəkkəb adların yazılışına yönəldilir. Müəllim 1-ci sırada verilmiş nümunələri lövhədə yazır və şagirdlərə həmin sıranın qarşısındakı dil qaydasını tamamlamağı tapşırır. Şagirdlər müəyyənləşdirirlər ki, 1-ci sıradakı nümunələrdə *rayon, çay, dağ, küçə* sözləri kiçik hərflə yazılıb. Nümunədən çıxış edərək dil qaydasını belə tamamlayırlar:

– *Çay, dağ, küçə, şəhər və s. yer adlarının sonuncu sözü kiçik hərflə yazılır.*

Digər nümunələr və dil qaydaları bütün sinfin iştirakı ilə müzakirə olunub tamamlanır. Müəllim bu qaydaları yadda saxlamağı tövsiyə edir.

**Müəllimin nəzərinə!** Şagirdlərin yaş səviyyəsi nəzərə alınaraq mürəkkəb adların yazılış qaydaları ilə bağlı məlumatlar nəzəri şəkildə deyil, öyrədici tapşırıq kimi təqdim olunmuşdur. Bu mövzu üzrə yuxarı siniflərdə daha ətraflı məlumat veriləcəkdir.

**Tapşırıq D (dərslik).** Tapşırıq şagirdlərin mürəkkəb adlarla bağlı yeni biliklərini tətbiq etmək imkanı yaradır. Şagirdlər anketlərindəki mürəkkəb adları fərqləndirib səsləndirə bilərlər.

4.1.4 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırıqda verilmiş mürəkkəb adları seçməklə mövzunu mənimsədiklərini nümayiş etdirirlər.

1. *Şah İsmayıl Xətai;*
2. *Ağsu rayonu;*
3. *Milli Paralimpiya Komitəsi;*
4. *28 May – Müstəqillik Günü;*
5. *Azadlıq meydanı;*
6. Qız qalası;
7. Azərbaycan Yazıçılar Birliyi.

**Müəllimin nəzərinə!** Tapşırıq yerinə yetirildikdən sonra kollektiv müzakirə təşkil etmək olar. Tapşırıqda mürəkkəb adlarla yanaşı, mürəkkəb sözlər, xüsusi

isimlər, söz birləşmələri verilmişdir. Bununla bağlı şagirdlərin biliklərini yoxlamaq məqsədəuyğun olar.

**Tapşırıq B, C, Ç (iş dəftəri).** Tapşırıqlar mürəkkəb adların yazılışı üzrə şagirdlərin bilik və bacarıqlarının möhkəmləndirilməsinə xidmət edir.

**B tapşırığının düzgün cavabı**:
1-ci cümlə – Ramazan bayramı;
3-cü cümlə – Sakit okean.

**C tapşırığının düzgün cavabı**: Dövlət Bayrağı Günü; Xüdafərin körpüsü; Yeni il bayramı; Rəşid Behbudov küçəsi; Ərgünəş dağı.

**Ç tapşırığının düzgün cavabı**: 1. Araz çayı; 4. Qələbə meydanı; 5. Kazımlı Lalə Elşən qızı; 7. Gələrsən-görərsən qalası; Siyəzən rayonu; 10. Müşfiqabad qəsəbəsi.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mürəkkəb adları söz və söz birləşmələrindən fərqləndirir. | Tap. A, B, C (dərslik), tap. A (iş dəftəri) |
| Mürəkkəb adları düzgün yazır. | Tap. D (dərslik), tap. B, C, Ç (iş dəftəri) |

fəsil 3 **KOSMOSA SƏYAHƏT**

## 1-ci dərs. “Uzaq planetin sirri”

Dərslik: səh. 75–79 • İş dəftəri: səh. 48

### Təlim məqsədləri

- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir.
- Mətnin məzmunu ilə bağlı suallar tərtib edir (st. 2.2.3).
- Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
- Kontekstdən çıxış edərək terminin aid olduğu elm sahəsini müəyyən edir (st. 2.1.1).
- Sözün tərkibinə əsasən sözün mənasını izah edir (st. 2.1.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
- Mətni məzmun və janrın tələbinə uyğun dəyişdirir, genişləndirir və ya tamamlayır (st. 2.2.6).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzu ətrafında sual-cavab |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Uzaq planetin sirri" mətninin oxusu. Söz boğçası üzrə iş |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu ilə bağlı sualların cavablandırılması |
| 4 | **Yazı** | Mətnin sonluq hissəsinin yazılması |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər “Yaşılgözlü qız” və “Zamanın əsirləri” əsərlərini xatırlayır, məkan, zaman və obrazlar baxımından müqayisə edirlər. Məlum olur ki, hər iki əsərin baş qəhrəmanları Lemi, Aysel, Kənan, Rüstəmdir. Məkan və zamanlar müxtəlifdir. “Yaşılgözlü qız” əsərindən fərqli olaraq, “Zamanın əsirləri” əsərində hadisələr keçmiş zamanda və meşədə yırtıcı heyvanların əhatəsində baş verir.

### Danışma

1.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər oxuduqları iki əsərin elmi fantastik məzmunda olmasını nəzərə alaraq bu əsərlərin davamını təxmin edib danışırlar. Bununla da eyni seri-

yaya daxil olan 3-cü əsərin – “Uzaq planetin sirri” mətninin oxunmasına maraq yaradılır.

**Oxu. Söz ehtiyatı**

2.2.3 **“Uzaq planetin sirri” mətni.** Şagirdlərdən biri mətnin giriş hissəsini səsli oxuyur. Haşiyədə verilmiş və mətnin məzmunu ilə bağlı 3 açar ifadənin (kiborq, süni intellekt və ağıllı ev) mənası aydınlaşdırılır və müzakirə olunur.

**Müəllimin nəzərinə!** Haşiyədə verilmiş sözlər adətən ulduz işarəsi ilə göstərilirdi. Şagirdlərin diqqətinə çatdırılır ki, bəzən eyni səhifədə bir neçə söz haqqında haşiyədə izah vermək lazım gələndə həmin söz və ifadələr nömrələnir.

**Səssiz oxu.** Müəllim şagirdlərə mətnin I hissəsini oxumaq üçün müəyyən vaxt verir və tapşırır ki, hər kəs 1-ci hissəyə aid 3 sual hazırlasın. 1-ci hissənin oxu prosesindən sonra şagirdlər suallarını səsləndirir və digərləri həmin sualları cavablandırırlar. Bu zaman təkrar sualların səslənməsinə yol verilməməlidir.

Mətnin 2-ci hissəsi üzrə oxu prosesi də eyni qaydada həyata keçirilir.

2.1.1 Söz boğçasında yer alan söz və söz birləşmələri müzakirə olunur.

**Sözlərin izahı:**

**Skan etmək –** mətnləri, foto və ya qrafik təsvirləri kompüterin yaddaşına ötürmək;

**Konserv –** xüsusi işləmə (duzlama, bişirmə) yolu ilə hazırlanıb kip bağlanmış bankalara doldurulmuş qida;

**Həb –** toz dərmandan hazırlanmış kürəcik;

**Meqopolis –** bir çox şəhərlərin və iri yaşayış məntəqələrinin birləşməsi və sürətli inkişafı nəticəsində yaranan müasir nəhəng şəhər;

**İntellekt –** ağıl, düşüncə, bilik, mühakimə;

**Sensor –** elektron qurğularda həssas element, qəbuledici;

**Rejim –** yaşamaq, işləmək, istirahət etmək, yemək-içmək, yatmaq və s. üçün dəqiq müəyyən olunmuş qayda, üsul; nizam;

**Enerji bloku –** enerjinin toplandığı yer, müxtəlif ərazilərə enerji paylayan mərkəz;

**Elektromobil –** elektriklə işləyən avtomobil;

**Proqram –** Kompüterdə hər hansı funksiyanı gerçəkləşdirməyə imkan verən sistem.

2.1.1 **Tapşırıq C (dərslik).** Mətndə işarələnmiş terminlərin (proqram, skan, sensor, monitor) “informatika” sahəsinə aid olmasını müəyyənləşdirirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər mətndə işlənmiş “proqram” sözünün informatika termini kimi işləndiyi cümləni seçməklə sözün kontekstə görə mənasını anladıqlarını nümayiş etdirirlər.

2.1.1 **Tapşırıq Ç, D (dərslik).** Tapşırıqlar vasitəsilə yeni sözlərin ümumi mənasını anlamaq üçün sözün tərkibinə diqqət yetirməyin vacibliyi vurğulanır.

Tapşırıqlarda tərkibində “mobil” sözü və “meqa” hissəciyi olan mürəkkəb sözlərə diqqət ayrılmışdır və şagirdlərə nümunələr əsasında bu və ya digər sözlərin mənasını təxmin etmək öyrədilir.

Mətndə *meqapolis* və *elektromobil* sözləri işlənmişdir. Tapşırıqda verilmiş məlumatlardan aydın olur ki, “meqa” hissəciyi nəyinsə böyük ölçülü, “mobil” sözü isə hərəkətli, çevik, sürətli olmaq deməkdir. Bu izaha əsaslanaraq şagirdlər *meqamarket, meqabayt (Ç tap.), avtomobil, elektromobil, mobil telefon, mobil ordu* (*D tap.*) ifadələrinin mənalarını aydınlaşdırırlar.

*Meqamarket* – daha böyük olan market

*Meqabayt* – elektron informasiyanın ölçü vahidləri sırasında bit, bayt və kilobaytdan böyük olan ölçü vahidi. 1 meqabayt 1 milyon bayta bərabərdir.

*Elektromobil* – inkişaf etmiş ölkələrdə benzinlə işləyən nəqliyyat vasitələrinin təbiətə vurduğu zərəri azaltmaq məqsədilə istifadə olunan elektriklə işləyən və daha sürətli olan avtomobil növüdür.

*Mobil telefon* – informasiya qəbul etmək və ötürmək üçün ən sürətli, çevik vasitə;

*Mobil ordu* – xüsusi hazırlıqlı, peşəkar hərbçilərdən ibarət müasir ordu.

**Oxuyub-qavrama**

2.2.2 **Tapşırıq E (dərslik).** Şagirdlərin mətni oxuyub-qavramasını yoxlamaq məqsədi daşıyır. Mətnin məzmunu ilə bağlı doğru fikirləri müəyyənləşdirməklə mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Doğru cavab:** 2, 3, 5

**Tapşırıq B (iş dəftəri).** Mətndə Kibo və Doktor Fobo obrazlarının qeyri-adi xüsusiyyətlərini yazmaqla mətni anladıqlarını nümayiş etdirirlər.

**Doğru cavab:** Kibo – zahirən insana bənzəsə də, insan deyil. Yemək yemir, yorulmur. Qorxu, sevinc kimi hissləri yoxdur.

Doktor Fobo – 140 yaşı var.

**2.2.6 Tapşırıq C (iş dəftəri). Yazı ilə inteqrasiya.** Şagirdlər mətndəki hadisələrin məntiqi gedişinə əsaslanıb plan əsasında mətnin sonluğunu yazırlar. Təxminən belə ola bilər:

*Doktor Fobo ana kompüterin beynini yenidən proqramlaşdırıb kiborqların idarəsini öz əlinə keçirdi.*

*Kənan ilə Rüstəm elektrik enerjisini bərpa etdilər. Hər tərəf işıqlandı. Planetdə təhlükə sovuşdu.*

*Doktor Fobo və Lemi Kənan ilə Rüstəmə planeti kiborqlardan xilas etdikləri üçün təşəkkür etdilər.*

*Artıq planetdən sürgün olunanların qayıdışı başladı.*

*Lemi Kənan ilə Rüstəmi öz planetlərinə yola salmaq üçün zaman maşınını işə saldı. Dostlar vidalaşdılar.*

### Araşdırma

**Tapşırıq Ə (dərslik).** Növbəti dərs üçün şagirdlərə "ağıllı ev" və "ağıllı şəhər" haqqında araşdırma aparmaq tapşırılır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır. | Tap. A, B (dərslik) |
| Mətnin məzmunu ilə bağlı suallar tərtib edir. | "Uzaq planetin sirri" mətni |
| Kontekstdən çıxış edərək terminin aid olduğu elm sahəsini müəyyən edir. | Tap. C (dərslik), tap. A (iş dəftəri) |
| Sözün tərkibinə əsasən sözün mənasını izah edir. | Tap. Ç, D (dərslik) |
| Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. | Tap. E (dərslik), tap. B (iş dəftəri) |
| Mətnin sonluğunu plan əsasında yazır. | Tap. C (iş dəftəri) |

## 2-ci dərs. "Uzaq planetin sirri" əsərinin təhlili

Dərslik: səh. 79 • İş dəftəri: səh. 49

**Təlim məqsədləri**

- Əldə etdiyi məlumatlara əsasən fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir (st. 2.2.5).
- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
- Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir (st. 2.2.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | "Uzaq planetin sirri" mətninin xatırladılması |
| 2 | **Oxuyub-qavrama** | Bölmədə keçilən və seriya təşkil edən əsərlərin məzmuna görə müqayisəsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim "Uzaq planetin sirri" mətnini suallar vasitəsilə şagirdlərə xatırladır.

### Oxuyub-qavrama

**2.2.5 Tapşırıq A (dərslik).** Şagirdlər mətndə altından xətt çəkilmiş cümlələri (1. O bizi görmür, biz isə onu görürük! 2. Burada təbii ərzaq az tapılır, süni ərzaq və vitamin həblərdən istifadə edirik. 3. Onun 140 yaşı var.) oxuyub fantastik təsvirlərin mümkün ola biləcəyi ehtimalı haqqında düşünürlər. Tapşırıqda verilmiş abzasda müəllif çox uzun ömür sürməyin mümkün olmasını elmi cəhətdən əsaslandırır və oxucunu inandırmağa çalışır.

**Doğru cavab:** Onun 140 yaşı var.

## Danışma

1.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlərin mövzu üzrə yaradıcı düşünməsinə kömək edir. Mətndə ağıllı evin nümunəsi ilə tanış olan şagirdlər təxəyyüllərini işlədərək başqa təkliflər də verə bilərlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər tapşırığı müstəqil şəkildə yerinə yetirməklə yaradıcı düşünmə qabiliyyətlərini inkişaf etdirirlər.

## Oxuyub-qavrama

2.2.3 **Tapşırıq C, Ç (dərslik). Kollektiv iş.** Bu dərsdə şagirdlər elmi-fantastik məzmunda oxuduqları seriya əsərlər haqqında ümumiləşdirmə aparırlar.

**Tapşırıq D (dərslik). Qruplarla iş.** Qrupların hər birinə seriyaya daxil olan bir əsərin hekayə xəritəsini tərtib etmək tapşırılır. Hekayə xəritəsində obrazlar, baş qəhrəmanlar, zaman, məkan, mövzu, qısa məzmun yazıla bilər.

Sonda qrupların tərtib etdikləri hekayə xəritələrinin təqdimatı keçirilir. Müəllimin köməyi ilə kollektiv şəkildə əsərlər arasında eyni və fərqli məqamlar aydınlaşdırılır.

**Eyni məqamlar:** elmi-fantastik məzmun və baş qəhrəmanlar

**Fərqli məqamlar:** Məkan, zaman, hadisələr

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər oxuduqları seriya əsərlərin oxşar və fərqli xüsusiyyətlərini müstəqil şəkildə müqayisə edib yazırlar.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əldə etdiyi məlumatlara əsasən fakt və fikirlərin həqiqətə uyğunluğunu müəyyən edir. | Tap. A (dərslik) |
| Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir. | Tap. B (dərslik), tap. A (iş dəftəri) |
| Müxtəlif mətnləri mövzu, məzmun, ideya baxımından müqayisə edir. | Tap. C, Ç, D (dərslik), tap. B (iş dəftəri) |

# 3-cü dərs. Mötərizə

Dərslik: səh. 80 • İş dəftəri: səh. 50

**Təlim məqsədləri**

• Durğu işarələrinin funksiyasını müəyyən edir (st. 4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mötərizə işarəsi haqqında biliklərin xatırladılması |
| 2 | **Dil qaydaları** | Cümlə daxilində əlavə məlumatın mötərizədə yazılması və bəzi mürəkkəb adların yazılışında dırnaq işarəsindən istifadə edilməsi haqqında biliklərin mənimsədilməsi |
| 3 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

Müəllim şagirdlərin mötərizə işarəsi haqqında biliklərini soruşur. Şagirdlər riyaziyyat fənnindən mötərizəli ifadələr haqqında məlumatlıdırlar. Həmçinin bir neçə dərs öncə yarımmötərizənin istifadə məqamı ilə də bağlı (səh. 67) biliklərə yiyələniblər.

## Dil qaydaları

4.1.5 **Tapşırıq A (dərslik).** Məqsəd mötərizədə verilmiş məlumata diqqəti yönəltməkdir.

Cavab: elektromobil

**"Bunları bilməliyik" rubrikası.** Rubrikadakı məlumat müəllimin köməyi ilə aydınlaşdırılır. Məqsəd şagirdlərə mötərizə işarəsinin funksiyasını izah etmək, mötərizədəki məlumatın fikri dəqiqləşdirmək, əlavə şərh vermək üçün istifadə edildiyini anlatmaq, həmçinin istənilən mövzuda mətn yazarkən məlumatları düzgün yerləşdirmək bacarığını aşılamaqdır.

**Tapşırıq B (dərslik).** "Bunları bilməliyik" rubrikasında verilmiş nəzəri biliklərin tətbiqi məqsədi daşıyır.

Cavablar: 1-ci cümlədə mötərizədə fikrin müəllifinin kimliyi haqqında məlumat verilmişdir.

2-ci cümlədə mötərizədə qəzetin nəşr olunduğu tarix göstərilmişdir.

3-cü cümlədə mötərizədə oxucuya obrazla bağlı maraqlı olan əlavə bir məlumat verilir.

**Tapşırıq C (dərslik).** Şagirdlər mötərizədən istifadə etməklə cümlələrə əlavə məlumat daxil edirlər.

Təxminən belə yaza bilərlər:

1. Dünən kiborqlar (süni yaradılmış insanlar) haqqında maraqlı film izlədik.
2. Əsgər məzuniyyət götürüb kəndə (babasıgilə) getdi.
3. Uşaqlar laboratoriyada eksperiment (həyat bilgisi fənnindən) keçirdilər.

**Tapşırıq Ç, D (dərslik).** Tapşırıqlar vasitəsilə şagirdlərin diqqəti dırnaq işarəsindən istifadə məqamlarına yönəldilir.

**"Bunları bilməliyik" rubrikası.** Şagirdlər rubrikadakı məlumat və nümunələrlə tanış olurlar.

**Tapşırıq E, Ə (dərslik).** Tapşırıqlar yeni biliklərin tətbiqinə yönəlmişdir.

**E tapşırığı:** "Azərbaycan" qəzeti, "Tom Soyyerin macəraları" əsəri, "Qırmızı planet" filmi, "İgidliyə görə" medalı, Nizami Gəncəvinin "Yeddi gözəl" əsəri, "Sevinc" kafesi, Nəsimi rayonunda yerləşən "Körpəm" bağçası.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərə aldıqları biliklərin tətbiqi üçün imkan yaradır. Şagirdlər tapşırıqda verilmiş mətn parçasını oxuyur, əlavə məlumatı necə yerləşdirəcəklərini müəyyənləşdirir və mötərizədən istifadə etməklə mətni yenidən yazırlar.

1. Piza qülləsi (İtaliya, Piza şəhəri) dünyanın məşhur abidələrindən biridir. Bu abidə əyri görünüşü ilə diqqət çəkir.
2. "Alisa möcüzələr diyarında" əsəri (müəllifi Lüis Kerroldur) fantastik məzmundadır. Qeyri-adi diyara düşən Alisa adlı qız burada möcüzəli hadisələrlə qarşılaşır.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıqda verilmiş mətndə qəzet, jurnal, kitab, şeir adları dırnaq içərisində yazılmalı, mötərizədə verilmiş əlavə məlumatların altından xətt çəkilməlidir.

Düzgün yazılış:

*Mirzə Ələkbər Sabir (1862–1911) Azərbaycanın görkəmli şairlərindəndir. "Molla Nəsrəddin" jurnalında, "Günəş" və "Həqiqət" qəzetlərində onun şeirləri çap olunmuşdur. "Hophopnamə" kitabında (şairin ölümündən sonra çap edilmişdir) çoxlu sayda şeirləri toplanmışdır. Bu şeirlərdən bir çoxu uşaqlar üçün yazılmışdır. Müəllifin "Gəl, gəl, a yaz günləri", "Uşaq və buz", "Yalançı çoban" və digər şeirləri bu gün də sevilə-sevilə oxunur.*

**Tapşırıq C (iş dəftəri).** Tapşırıqda verilmiş cümlələr aşağıdakı kimi redaktə olunmalıdır:

1. "Bolluq" mağazasında (bizim evin yaxınlığındadır) bütün məhsullara endirim var.
2. "Şir evdən getdi" filmində (Azərbaycan filmidir) heyvanlarla uşaqların dostluğundan bəhs edilir.
3. "Günəş" qəzetinin bu sayında əsas məqalə İlham Zəkiyev (paralimpiyaçıdır) haqqındadır.
4. Dünya rəqslərindən bircə "Şirlər" rəqsini (hindlilərə məxsusdur) xatırlayıram.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mötərizə işarəsinin funksiyasını müəyyən edir. | Tap. A, B (dərslik) |
| Fikri dəqiqləşdirmək üçün əlavə məlumatdan istifadə edir. | Tap. C (dərslik) |
| Dırnaq işarəsinin funksiyasını müəyyən edir. | Tap. Ç, D (dərslik) |
| Dırnaq və mötərizə işarəsindən düzgün istifadə edir. | Tap. E, Ə (dərslik), tap. A, B, C (iş dəftəri) |

## 4-cü dərs. Ümumiləşdirici təkrar

Dərslik: səh. 81 • İş dəftəri: səh. 51

**Təlim məqsədləri**

- Durğu işarələrinin funksiyasını müəyyən edir (st. 4.1.5).
- Kontekstdən çıxış edərək terminin aid olduğu elm sahəsini müəyyən edir (st. 2.1.1).
- Mürəkkəb adları düzgün yazır (st. 4.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual ətrafında müzakirə |
| 2 | **Dil qaydaları** | Dil qaydalarının təkrarı |
| 3 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

Müəllim soruşur:

*– Bu bölmədə dil qaydaları üzrə hansı mövzularla bağlı yeni biliklər öyrəndiniz?*

## Dil qaydaları

4.1.5 **Tapşırıq A (dərslik). Kollektiv iş.** Şagirdlər növbə ilə rəqəmlərlə ifadə olunmuş tarixləri və onluq kəsrləri sözlərlə ifadə edirlər. Tapşırıqda verilmiş nümunələrin sayını artırmaqla fəaliyyəti davam etdirmək olar. Daha sonra şagirdlərə rəqəmlərlə ifadə olunmuş nümunələri cümlədə işlədib yazmaq tapşırılır.

Məsələn: *Bu gün 10:30-da məktəbdə tədbir var.*

**Tapşırıq B (dərslik).** Şagirdlər cümlələri oxuyur, verilmiş ölçü vahidlərinin qısa yazılışını (*km, l, kq, sm*) müəyyən edərək, cümlələri köçürürlər.

4.1.2 **Tapşırıq C, Ç, D (dərslik).** Şagirdlər tapşırıqları yerinə yetirməklə mürəkkəb adlar üzrə dil qaydalarını mənimsədiklərini nümayiş etdirirlər.

**C tapşırığı:** Şah İsmayıl Xətai, Milli Dirçəliş Günü, Qara dəniz, 20 Yanvar, Məhəmməd Füzuli.

**Ç tapşırığı: c) Azərbaycan Dövlət Bayrağı Günü.**

**D tapşırığı:** 1. "Nəlbəki" rəqsi; 2. "Cücələrim" mahnısı; 3. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü; 4. Azadlıq meydanı; 5. "Koroğlu" operası.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıqda verilmiş cümlələrdə səhv yazılmış mürəkkəb adlar bunlardır:

1. Samur çayı;
2. Alıyev Ayxan Həsən oğlu;
3. Nizami küçəsi;
4. Dünya Kosmonavtika Günü
5. Şəhidlər xiyabanı
6. Novruz bayramı

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər tapşırığa uyğun mürəkkəb adlar yazmaqla mövzu üzrə bilik və bacarıqlarını nümayiş etdirirlər.

## Söz ehtiyatı

2.1.1 **Tapşırıq E (dərslik). Cütlərlə iş.** Şagirdlər tapşırığı müxtəlif fənlər üzrə biliklərini xatırlamaqla yerinə yetirirlər. Tapşırıq şagirdlərin terminlərlə bağlı biliklərini, lüğətdən istifadə bacarıqlarını möhkəmləndirir, söz ehtiyatlarını inkişaf etdirir.

**Sözlərin izahı:**

1.Radius (riyaz.) – çevrənin hər hansı nöqtəsini mərkəzi ilə birləşdirən düz xətt;

2. Not (mus.) – musiqi səslərini göstərən şərti işarə, eləcə də həmin səsin özü;

3. Pauza (mus.) – musiqi əsərlərinin ifası zamanı işlədilən fasilə

4. Tənlik (riyaz.) – məchulu olan bərabərlik;

5. Himn (mus.) – təntənəli musiqi əsəri

6. Solo (mus.) – bir çalğıçı, bir müğənni tərəfindən ifa olunan musiqi əsəri;

7. Portret (təs. inc.) – bir şəxsin və ya bir dəstə adamın rəssam tərəfindən çəkilmiş şəkli yaxud heykəltaraş tərəfindən verilmiş təsviri;

8. Xor (mus.) – hər hansı vokal əsəri bir vaxtda ifa edən oxuyanlar dəstəsi.

9. Nəqərat (mus.) – nəğmənin hər bəndindən sonra təkrarlanan misralar;

10. İllüstrasiya (təs. inc.) – kitab və jurnallarda mətnin məzmununa aid şəkillər;

11. Peyzaj (təs. inc.) – bədii əsərdə müəyyən bir yerin, təbiətin təsviri.

12. Qrafika (təs. inc.) – boyasız cizgilərlə çəkilmiş şəkil;

13. Ədəd oxu (riyaz.) – üzərində başlanğıc nöqtə və istiqamət seçilmiş düz xətt parçası.

**Tapşırıq C, Ç (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlərin terminlər haqqında əldə etdikləri nəzəri biliklər yoxlanılır.

**Düzgün cavablar:**

**C tap:** müxtəlif elm sahələrinə aid sözlər termin adlanır.

**Ç tap:** atmosfer, əlifba, məchul, leksik, samit, peyzaj, kub, heca.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Durğu işarələrinin funksiyasını müəyyən edir | Tap. A, B (dərslik) |
| Mürəkkəb adları düzgün yazır. | Tap. C, Ç, D (dərslik), tap. A, B (iş dəftəri) |
| Kontekstdən çıxış edərək terminin aid olduğu elm sahəsini müəyyən edir. | Tap. E (dərslik), tap. C, Ç (iş dəftəri) |

bölmə 8

# İXTİRALAR VƏ KƏŞFLƏR

| Mövzu | | İxtiralar və kəşflər |
|---|---|---|
| Nitq bacarıqları | Şifahi nitq | • Araşdırma əsasında təqdimat;<br>• Dinləmə və danışma bacarığı. |
| | Söz ehtiyatı | • Verilmiş izah, əlamətə uyğun sözün müəyyən olunması;<br>• Yeni sözlər: sələf, mənbə, mənsəb, valehedici, məntəqə, savanna, antilop, durbin, tədarük, astana, marşrut, fantaziya, təfəkkür, süni, robot, məqalə, mexaniki, ticarət, simic, çarşı, peyvənd, aqibət, səfir, epidemiya, pandemiya, immunitet, virus. |
| | Oxu | • Bədii və elmi mətnlərdən qeydlər götürmək. |
| | Yazı | • Mövzu üzrə informativ və bədii mətn yazmaq. |
| Akademik biliklər | Dil qaydaları | • I-IV siniflərdə keçilən dil qaydalarının təkrarı. |
| | Filoloji anlayışlar | • Məsəllərin yaranması və işlənmə situasiyası haqqında məlumat vermək. |
| Kompetensiyalar | Müxtəlif ixtira və kəşflərin yaranması ilə tanışlıq, dünyagörüşün inkişafı, yeni ideyaların yaranması, yaradıcılığın inkişafı. | |

Bu bölmədə müxtəlif ixtira və kəşflərlə bağlı mövzulardan bəhs edən bədii və informativ mətnlər təqdim olunur. Əsas məqsəd şagirdlərin maraq dairəsində olan mövzulardan istifadə etməklə onların dinləmə, danışma, oxu və yazı bacarıqlarını inkişaf etdirmək, mövzu ilə bağlı söz ehtiyatını zənginləşdirməkdir.

**Öncədən vacib olan bilik və bacarıqlar:**

• İnformativ mətn və hekayə yazmaq;
• Mətndən qeyd götürmək, yaddaş xəritəsi, məlumat vərəqi tərtib etmək;
• I-IV siniflərdə keçirilən dil qaydaları.

**Mənimsəməkdə çətinlik doğuran məqamlar:**

• Məsəllərin yaranması ilə bağlı tarixçə düşünüb yazmaq.

**Bu bölmədə nəzərdə tutulan köməkçi vəsaitlər:**

• Araşdırma materialları.

## Bölməyə giriş dərsi

• Dərslik: səh. 82-83 • İş dəftəri: səh. 52

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir. (st. 2.2.2).
• Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır (st. 1.2.1).
• Mövzu ilə bağlı fakt və münasibət bildirən fikirləri yazıda əks etdirir (st. 3.1.2).
• Dinlədiyi fikirlə bağlı mövqeyini şərh edir (st. 1.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | İxtira və kəşf anlayışlarının müzakirəsi |
| 2 | **Danışma** | Mövzu üzrə danışma |
| 3 | **Oxuyub-qavrama** | Şeir oxuma və sualları cavablandırma |
| 4 | **Danışma** | Mövzu ilə bağlı suallara cavab vermə |
| 5 | **Yazı** | Fikirlərini yazıda əks etdirmə |
| 6 | **Dinləmə** | “Məhv olmuş canlılar” mətni |
| 7 | **Yazı** | Dinləmə mətni üzrə suallara cavab yazma |
| 8 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim yönəldici suallarla diqqəti bölmənin adına yönəldir: *“ixtira” və “kəşf”* sözlərini necə izah edərdiniz? Hansı ixtira və kəşflər haqqında məlumatınız var?

**Müəllimin nəzərinə!** Müəllim kömək üçün şagirdlərin yadına əvvəlki siniflərdə öyrəndikləri ixtira və kəşfləri salır. Onlar artıq I sinifdən müxtəlif kəşf və ixtiralar haqqında məlumatlara sahibdirlər.

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Tapşırığı yerinə yetirməklə şagirdlər əvvəlki siniflərdən öyrəndiyi ixtira və kəşflər haqqında biliklərini yada salırlar. Tapşırığın məqsədi şagirdləri ixtira və kəşf anlayışı ilə bağlı müqayisəyə yönəltməkdir.

**Düzgün cavab:** 1. əlifbanın ixtirası; 2. Amerikanın kəşfi; 3. odun kəşfi; 4. təkərin ixtirası.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq B (dərslik).** Şagirdlər şeiri oxuyurlar. Şeirdəki nümunələr əsasında ixtira və kəşf anlayışlarını müqayisə edirlər.

**Tapşırıq C (dərslik).** Şagirdlər tapşırığı yerinə yetirməklə şeiri diqqətlə oxuduqlarını və anladıqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:**

1. Tural ətrafında gördüyü əşyaların necə yarandığı haqqında məlumat almaq üçün atasına müraciət etdi.

2. Ata kəşf anlayışını Amerika qitəsinin kəşfi ilə izah etdi.

3. İxtira olmayan bir şeyi yaratma, icad etmək deməkdir. Kəşf isə təbiətdə var olan bir şeyi tapıb ortaya çıxarmaqdır.

### Danışma

1.2.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər “Amerikanın kəşfi” mətnində öyrəndiyi məlumatları yada salır və yeni mətnlə əlaqələndirir. Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarıqlarının möhkəmlənməsinə kömək edir.

**Düzgün cavab:** Xristofor Kolumb.

**Tapşırıq D (dərslik).** Şagirdlər bir kəşf və bir ixtira haqqında verilmiş məlumatı oxuyurlar. Qabyuyan maşının ixtira, Troya şəhərinin qalıqlarının tapılmasının isə kəşf olduğu qənaətinə gəlirlər, bununla da şeirdən əldə etdikləri məlumatları möhkəmləndirirlər.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər *“ixtira”* və *“kəşf”* anlayışlarının fərqini yazırlar. Bununla da mövzunu anladıqlarını nümayiş etdirirlər.

### Danışma

1.1.2 **Tapşırıq E (dərslik).** Müəllim əvvəlcə şagirdlərə sual verir: Sizcə, həqiqətən, dinozavrlar yaşayıbmı? İnsanlar bunu necə sübut edə bilərlər?

Müzakirədən sonra “Məhv olmuş canlılar” adlı dinləmə mətnini səsləndirir.

**Məhv olmuş canlılar**

*Filmlərdən və ya animasiyalardan bizə tanış olan dinozavrların bir zaman dünyamızda gəzdiyini təsəvvür etmək belə, insana qəribə gəlir. Bəs, görəsən, dinozavrlar doğrudanmı dünyada mövcud olub?*

*Bu nəhəng cüssəli canlıların varlıqları insanlara tapılmış qalıqlar vasitəsilə məlum olmuşdur. Belə ki, 1841-ci ildə Riçard Ouen tərəfindən aparılan araşdırmalar nəticəsində aşkar edilən dinozavr qalıqları elm aləmində dinozavr dövrünün başlanğıcını qoydu. Bundan sonra ard-arda dinozavrın 850-dən çox növü aşkarlandı. Tapılmış hər qalıq bir vaxtlar mövcud olmuş bu heyvanlara diqqəti bir az daha artırırdı. Onların yaşam şəraitləri, kütləvi məhvolma səbəbləri, nə zaman yaşadıqları alimləri düşündürürdü.*

*Növbəti qalıqlar 1933-cü ildə qazıntılar zamanı Rusiyada aşkarlandı. Burada 1948-ci ilə kimi 11 dinozavr skeleti tapılmışdı.*

*Bu günə qədər aşkar edilən qalıqlar arasında ən çox heyrət doğuranı Argentinada tapılanlardır. Bu qalıqların təxminən 90 milyon il əvvələ aid olduğu bildirilir. Tədqiqatlar zamanı ölçülərinə görə olduqca böyük skeletlər əldə olundu. Dinozavrların boylarının təxminən 3 mərtəbəli bina hündürlüyündə olduğu ehtimal olunur. Bu, dünyada tapılmış üç ən böyük dinozavrdan biridir.*

*Sonrakı illərdə bütün materiklərdə dinozavr qalıqları aşkar edilib. Tapılan hər bir parça dinozavrların varlığı fikrini daha da möhkəmləndirir.*

**Müəllimin nəzərinə!** Müəllim dinləmə mətnini səsləndirməzdən əvvəl şagirdlərə dinləmə zamanı qeyd götürməyi tövsiyə edə bilər. Bu zaman onlar iş dəftərində verilmiş tapşırığı daha rahatlıqla işləyə bilərlər.

### Yazı

3.1.2 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq vasitəsilə şagirdlər dinləmə mətnini anladıqlarını nümayiş etdirirlər.

**Düzgün cavab:**

1. İlk dinozavr qalıqları 1841-ci ildə Riçard Ouen tərəfindən aşkarlandı.

2. Tədqiqat aparan alimlər dinozavrların yaşam şəraitləri, kütləvi məhvolma səbəbləri, nə zaman yaşadıqları haqqında düşünürdülər.

3. Bu günə qədər aşkar edilən qalıqlar arasında ən çox heyrət doğuranı Argentinada tapılanlardır. Ölçülərinə görə ən böyük dinozavrlar hesab edilir. Boylarının təxminən 3 mərtəbəli bina hündürlüyündə olduğu ehtimal olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu üzrə fikirlərini şərh edir. | Tap. A (D.) |
| Şeiri oxuyur və məzmuna uyğun suallara cavab verir. | Tap. B, C (D.) |
| Mətndən əldə etdiyi məlumatlar əsasında fikirlərini əsaslandırır. | Tap. Ç, D (D.) |
| Mövzu ilə bağlı fikirlərini yazıda əks etdirir və suallara cavab verir. | Tap. A, B (İ.D.) |
| Mətni dinləyir və fikirlərini mətndəki məlumatlarla müqayisə edir. | Tap. E (D.) |

fəsil 1 **COĞRAFİ KƏŞFLƏR**

## 1-ci dərs. Hava şarında səyahət. I hissə

• Dərslik: səh. 82-84 • İş dəftəri: səh. 53

**Təlim məqsədləri**

- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
- Mətni intonasiya ilə oxuyur (st. 2.2.1).
- Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
- Mətndəki obrazları xarakterizə edir (st. 2.2.3).
- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzu üzrə müzakirə |
| 2 | **Oxuyub-qavrama** | Annotasiya və məlumat vərəqinin müzakirəsi |
| 3 | **Oxu. Söz ehtiyatı** | “Hava şarında səyahət” mətninin oxusu |
| 4 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 5 | **Danışma** | Mövzu üzrə müzakirə |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər artıq 5-ci bölmədə Amerikanın kəşfi ilə tanış olublar. Müəllim yönəldici suallarla şagirdlərin diqqətini fəslin adına yönəldir və coğrafi kəşflə bağlı suallar verir:

• Coğrafi kəşf dedikdə nə başa düşürsünüz?

• Hansı ərazilərin kəşfi haqqında məlumatınız var?

Sonra tapşırıqda verilən suallar müzakirə edilir.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq B (dərslik).** Şagirdlər verilmiş annotasiyanı oxuyur və suallara cavab verirlər.

**Tapşırıq C (dərslik).** Tapşırıqda Nil çayı haqqında məlumat vərəqi təqdim olunmuşdur. Şagirdlər məlumat vərəqi ilə tanış olurlar. Məlumat vərəqindən və tapşırıq B-də verilmiş annotasiyadan əldə etdikləri məlumatlar əsasında suala cavab verirlər.

**Düzgün cavab:** Nil çayının mənbəyi olan Viktoriya gölünü tapmaq.

**Müəllimin nəzərinə!** B və C tapşırıqlarının müzakirəsi şagirdləri mətnin oxusuna hazırlayır. Mətn coğrafi kəşflə bağlı olduğu üçün şagirdlərin Afrika qitəsi, Nil çayı haqqında müəyyən biliklərə sahib olması onların mətni daha yaxşı anlamasına imkan verəcək.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Hava şarında səyahət. Növbəli oxu.** Şagirdlər mətni növbəli oxuyurlar. Mətn oxunduqca yeni sözlərin izahı verilir.

2.1.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər artıq frazeoloji ifadələri keçiblər. Burada kontekstdən çıxış edərək verilmiş ifadələrin mənasını izah edirlər.

**Tapşırıq D (dərslik).** Şagirdlər “*mənbə*” sözünün müxtəlif mənalarda işləndiyini izah edirlər. Əvvəlki dərslərdən bu sözün məlumatın mənbəyi mənasında işləndiyini bilirdilər, indi isə mənbə sözünün həm də çayın başlanğıcını ifadə etdiyini öyrənirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər “söz boğçası”nda verilmiş sözlərin izahına uyğun sözləri müəyyən edir və həmin sözləri cümlədə işlədib yazırlar. Tapşırıq söz ehtiyatının praktik mənimsənilməsinə xidmət edir.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq E (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır. Şagirdlər mətn əsasında sualları cavablandırır, bununla da diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətndən əldə etdikləri məlumatlar əsasında cümlələri tamamlayırlar. Tapşırıq mətnin məzmununu necə qavradıqlarını yoxlamaq məqsədi daşıyır.

**Düzgün cavab:** Dik dostunun səyahətə çıxmağına etiraz edirdi, çünki dostunun həyatı üçün narahat idi.

Fergüson qulluqçusu Conu da özü ilə səyahətə aparmaq fikrində idi, çünki çəldliyi, çevikliyi ilə ona kömək edəcəyini düşünürdü.

Fergüson səyahətə hava şarı ilə çıxmağa qərar vermişdi, çünki quru yolla səyahət edənlərin rastlaşdığı çətinliklərlə qarşılaşmaq istəmirdi.

Dik Samuellə səyahətə çıxmağa razı oldu, çünki dostunu bu çətin yolda tək qoya bilməzdi.

**Tapşırıq Ə (dərslik).** Şagirdlər mətndəki illüstrasiyada verilmiş məlumata əsasən sualı cavablandırırlar.

2.2.3 **Tapşırıq F (dərslik).** Şagirdlər baş qəhrəmanın davranışları əks olunmuş cümlələri oxuyur və uyğun xüsusiyyətləri müəyyən edirlər. Tapşırıq obrazın xarakterinin təhlili, ona uyğun xüsusiyyətlərin müəyyən edilməsi üzrə bilik və bacarıqların inkişafına xidmət edir.

**Düzgün cavab:** 1. yenilikçi; 2. cəsur; 3. inadcıl; 4. ehtiyatlı.

### Danışma

1.2.1 **Tapşırıq G (dərslik).** Şagirdlər həm annotasiyadan, həm mətndən, həm də Afrika qitəsi haqqında bildikləri məlumatlar əsasında suala cavab verirlər. Müəllim şagirdləri yönləndirmək üçün suallar verə bilər:

- Afrika qitəsi haqqında nə bilirsiniz?
- Burada hava necədir?
- Hansı heyvanlar yaşayır?
- Belə bir yerə səyahət edən insanlar hansı çətinliklərlə qarşılaşa bilərlər? və s.

**Tapşırıq H (dərslik).** Şagirdlər baş qəhrəmanların qarşılaşa biləcəkləri çətinliklər haqqında fərziyyələrini irəli sürürlər. Bildikləri məlumatlardan çıxış edərək fikirlərini əsaslandırırlar.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu üzrə suallara cavab verir və fikirlərini əsaslandırır. | Tap. B, C, G, H (D.) |
| Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir. | Tap. Ç, D (D.), tap. A (İ.D.) |
| Mətnin məzmunu ilə bağlı suallara cavab verir. | Tap. E, Ə (D.), tap. B (İ.D.) |
| Obrazın xarakterinə uyğun xüsusiyyətləri müəyyən edir. | Tap. F (D.) |

## 2-ci dərs. Hava şarında səyahət. II hissə

• Dərslik: səh. 87-89 • İş dəftəri: səh. 54

**Təlim məqsədləri**

- Dinlədiyi mətndəki məlumatları mənimsədiyini nümayiş etdirir (st. 1.1.1).
- Mətni sürətli, səlis, aydın səslə oxuyur (st. 2.2.1).
- Bədii mətndəki obrazları, hadisələri, zaman və məkanı müəyyənləşdirir (st. 2.2.2).
- Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
- Araşdırdığı məlumatlar və tərtib etdiyi suallar əsasında müsahibi ilə dialoq qurur (st. 1.2.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | Mövzuya yönəltmə | Mövzu üzrə müzakirə |
| 2 | Danışma | Dinləmə mətni üzrə sualları cavablandırma |
| 3 | Oxu. Söz ehtiyatı | “Hava şarında səyahət” II hissə mətnin oxusu |
| 4 | Oxuyub-qavrama | Mətnin məzmunu üzrə iş; hekayə xəritəsinin yazılması. |
| 5 | Danışma | Mövzu üzrə danışma; müsahibə hazırlama və təqdimetmə |
| 6 | Formativ qiymətləndirmə | |

### Mövzuya yönəltmə

Müəllim şagirdlərin diqqətini Samuelin hava şarı ilə səyahətinə yönəltmək üçün suallar verir:

– Nə üçün Samuel hava şarını seçdi? Sizcə, o, hava şarı ilə məqsədinə nail ola biləcəkmi?

### Dinləmə

1.1.1 **Tapşırıq A (dərslik).** Şagirdlərlə müzakirə aparılır: *Sizcə, Dik nə üçün Samuelin hava şarı ilə səyahətə çıxmağından qorxurdu? Hava şarı ilə səyahət zamanı hansı çətinliklər yarana bilərdi?*

Daha sonra dinləmə mətni səsləndirilir.

**Hava şarı**

*Qədim zamanlardan bəri insanlar səmada uçmaq arzusunda idilər. Hava şarını ixtira etməklə onların bu arzusu həyata keçdi. Əvvəllər hava şarını isti hava ilə doldururdular, indi isə*

*hidrogen və ya helium qazı ilə doldururlar. Bəs hava şarı necə ixtira edilmişdir?*

*Hava şarında ilk uçuş 1783-cü ildə Jozef və Eten Monqolfe qardaşları tərəfindən həyata keçirilmişdir. İlk şarın diametri 11 m, kütləsi 227 kq idi. Hava şarı üzəri kətanla örtülmüş tor şəklində idi. İlk hava şarı hündürlüyə qalxaraq 10 dəq sonra böyük sürətlə aşağıya doğru hərəkət etmişdi. Bu uçuşda 3 km məsafə qət edilmişdi. Böyük tamaşaçı kütləsi qazanan ilk uçuş təcrübəsi haqqında xəbər tezliklə bütün Avropaya yayıldı. İki ay sonra görkəmli alim Jak Şarlın rəhbərliyi altında Parisdə içərisi hidrogenlə doldurulmuş başqa bir hava şarı qaldırıldı. Şarın örtüyünü ipək parça ilə əvəz etdilər. Şar start götürdüyü yerdən 28 km məsafədə eniş etdi.*

*Monqolfe qardaşları bir neçə dəfə keçirilən təlimdən sonra yenidən uçuş həyata keçirmək qərarına gəldilər. 19 sentyabr 1783-cü ildə uğurla həyata keçirilən uçuş zamanı hava şarının səbətinə bir xoruz, bir ördək və bir qoyun qoyulmuşdu. Onlar hava şarının ilk sərnişinləri idi.*

*Hava şarının ixtirası və getdikcə təkmilləşməsi elmin inkişafına böyük təkan verdi. Artıq hava şarı mühüm nəqliyyat vasitəsinə çevrilmişdi. Bir çox yerləri, hətta atmosferin yuxarı qatlarını tədqiq etmək üçün ölkələrin müxtəlif məntəqələrindən hava şarları göndərilirdi. 1999-cu ildə isə tarixdə ilk dəfə olaraq uçan hava şarının heyəti Yer kürəsinin ətrafında təhlükəsiz şəkildə tam dövr edərək sağ salamat yerə enmişdir.*

**Müəllimin nəzərinə!** Müəllimə şagirdlərin hava şarının havaya qalxmasını anlaması üçün kiçik təcrübə aparması tövsiyə edilir. Adi hava ilə doldurulmuş şar və qazla doldurulmuş şarı nümayiş etdirə bilər. Şagirdlər qazla doldurulmuş şarın uçduğunu müşahidə edəcəklər. Bu, mətndə verilmiş məlumatların asan qavranılmasına imkan yaradar.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Tapşırıq B (dərslik). "Hava şarında səyahət" II hissə. Növbəli oxu.** Müəllim şagirdlərə sual verir: Sizcə, Fergüson öz məqsədinə nail olacaqmı? Müəllim şagirdlərin diqqətini illüstrasiyaya yönəldir: şagirdlər hadisələr haqqında təxminlərini bildirirlər. Sonra isə şagirdlər mətni səsli oxuyurlar. Mətn oxunduqca müzakirə edilir və sözlərin izahı verilir.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır. Şagirdlər mətn əsasında sualları cavablandırırlar, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər "Hava şarında səyahət" mətninə aid hekayə xəritəsi tərtib edirlər. Hekayə xəritəsi üzrə müstəqil iş şagirdlərin mətni nə dərəcədə qavradıqlarını öyrənməyə imkan verir.

### Danışma

1.2.1 **Tapşırıq Ç (dərslik).** Müəllim şagirdlərin diqqətini hava şarının adına yönəldir: Sizcə, nə üçün hava şarı "Viktoriya" adlanır? Şagirdlər artıq "İşarələr və simvollar" bölməsindən "*qələbə*" işarəsi ilə tanışdırlar. Kimi hava şarının adını bununla, kimi Nil çayının mənbəyi olan gölün adı ilə əlaqələndirə bilər.

Tapşırıq şagirdlərin təhliletmə, fikrini əsaslandırma, şifahi nitq bacarıqlarının inkişafına xidmət edir.

1.2.1 **Tapşırıq D (dərslik).** Şagirdlər müsahibə hazırlamağı aşağı siniflərdən öyrəniblər. Burada mövzu üzrə bilikləri bir az da dərinləşir. Şagirdlər yaradıcı bacarıqlarından, verilən təlimatdan istifadə edərək qruplar üzrə "Hava şarında səyahət" mətninin obrazları ilə müsahibə üçün suallar tərtib edirlər. Tapşırıq aşağıdakı mərhələlərlə həyata keçirilir:

1. İlk olaraq şagirdlər qruplara ayrılırlar. Tapşırıq onlara təqdim olunur. Onlar birlikdə müsahibə üçün suallar hazırlayırlar.
2. Sonra qrup üzvləri rol bölgüsü aparırlar. Müsahibi çıxmaq şərti ilə digər qrup üzvləri jurnalistlərin zənglərindən təngə gəlmiş müsahibi razı salmaq üçün nitq tərtib edirlər.
3. Bundan sonra isə rollu oyun şəklində təqdimatı yerinə yetirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndən əldə etdiyi məlumatlar əsasında suallara cavab verir. | Tap. A (D.) |

| | |
|---|---|
| Mətni səlis, aydın, sürətlə oxuyur. | Hava şarında səyahət mətni |
| Mətnin məzmunu ilə bağlı suallara cavab verir. | Tap. C (D.), tap. A (İ.D.) |
| Mətndən əldə etdiyi məlumatlar əsasında fikirlərini şərh edir və əsaslandırır. | Tap. Ç (D.) |
| Verilmiş mövzu üzrə müsahibə hazırlayır və təqdim edir. | Tap. D (D.) |

**Növbəti dərsə hazırlıq.** Müəllim növbəti dərsdə dərslikdəki C tapşırığının (*səh. 90*) yerinə yetirilməsi üçün şagirdlərə qruplar üzrə (*I qrup: Antraktida; II qrup: Böyük Səhra; III qrup: Cənubi Amerika cəngəllikləri; IV qrup: Avstraliya meşələri*) araşdırma verir. Şagirdlər verilmiş ərazilərin coğrafi mövqeyi, iqlimi, təbiəti haqqında məlumat toplayırlar. Məlumatlar əsasında coğrafi mövqeyi, iqlimi, heyvanlar aləmi, bitkilər yarımbaşlıqları altında yaddaş xəritəsində qeydlərini yazırlar.

## 3-cü dərs. Jül Vern və əsərləri

• Dərslik: səh. 90 • İş dəftəri: səh. 55

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 3.1.1).
• Mövzu üzrə apardığı araşdırmaların nəticələrini təqdim edir (st. 1.2.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəkil üzrə danışma |
| 2 | **Dinləmə** | Dinləmə mətni əsasında mövzu üzrə müzakirə |
| 3 | **Yazı** | İnformativ mətn yazma |
| 4 | **Danışma** | Araşdırma materialları əsasında təqdimat |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər şəkil və suallar, eləcə də oxuduqları mətnlər əsasında Jül Vernin əsərlərinin ortaq xüsusiyyəti, onlardan əldə etdikləri məlumatlar haqqında fikirlərini bildirirlər. Şagirdlərin cavabları dinlənilir və müzakirə edilir.

### Dinləmə

1.2.1 **Tapşırıq B (dərslik).** Müəllim dinləmə mətni səsləndirir, şagirdlər mətn və verilmiş cədvəl əsasında Jül Vernin əsərlərində yazıçı təxəyyülünün məhsulu olan texnoloji ideyalar, illər sonra yaranan ixtiralar haqqında danışırlar.

**Müəllimin nəzərinə!** Tapşırıqda məqsəd şagirdlərin diqqətini yazıçı təxəyyülünə yönləndirməkdir. Yazıçının görmədiyi yer, həyatda mövcud olmayan varlıq haqqında fikirlərini araşdırma materialları və öz təxəyyülü əsasında təsvir etməsinə diqqət çəkməkdir. Şagirdlərdə bədii mətn yazarkən öz təxəyyüllərindən istifadə edə biləcəklərinə inam yaratmaqdır.

**Dinləmə mətni**

**JÜL VERNİN YARADICILIĞI**

*Dünyada texnikanın inkişafında, məişətdə hansısa öncəgörmə meydana çıxanda fantastik yazıçılar yada düşür. Onların bir çoxlarının fərziyyələri zamanla elmi reallığa çevrilib. Belə yazıçılardan biri də Jül Vern olmuşdur. Bəs o öz əsərlərində hansı icadların proqnozlarını vermişdir?*

*Jül Vernin bir çox əsərləri maraqlı texnoloji ideyalarla zəngindir. Yazıçı əsərlərində zamanında mövcud olmayan, bəşəriyyəti heyran qoya biləcək bir çox qurğuları təsvir etmişdir.*

*Dahi yazıçının belə əsərlərindən biri “Paris XX əsrdə” romanıdır. 1863-cü ildə qələmə aldığı bu əsər yazıldıqdan 130 il sonra nəşr olunmuşdur. Bunun səbəbi isə yazıçının əsərdə təsvir etdiyi yeni icadların naşir tərəfindən qəbul edilməməsi idi. Belə ki, hələ avtomobilin ixtira olunmadığı, göydələnlərin ucalmadığı bir dövrdə Jül Vern Paris küçələrini göydələnlər və özüyeriyən sürətli arabalarla bəzəmişdi.*

*Texniki yeniliklərlə zəngin olan əsərlərindən biri də “Aya səyahət” romanıdır. 1865-ci ildə yazılan bu əsərdə yazıçı öz qəhrəmanını Yerdən Aya göndərmək üçün nəhəng toplardan istifadə etmişdir. Topdan atılan mərmi kosmik gəmini əvəz edirdi. O öz kosmik uçuş cihazını aluminiumdan hazırlamışdır. Halbuki insanlar real həyatda hələ bu metaldan istifadə etmirdilər. Aya ilk insan uçuşu isə əsərin yazılmasından 104 il sonra reallaşmışdı.*

*Növbəti əsər isə “Fateh Robur” olmuşdur. 1886-cı ildə yazılan əsərin qəhrəmanı elm adamı idi. Bu əsər öz qəhrəmanının adını daşıyır. Bu çılğın ixtiraçı*

*"Albatros" adlı pərvanəli hava gəmisi yaradır. Roburun bu ixtirasından illər sonra yazıçının ideyası rus mühəndis İqor Sisorski tərəfindən gerçəkləşdirilir və ilk helikopter ixtira edilir.*

*Göründüyü kimi, Jül Vern əsərlərində təsvir etdiyi texnoloji ideyalarla bir çox elm adamlarına ilham vermişdir. Avtomobil, helikopter, təyyarə, raket, kosmosa uçuş kimi yeniliklər onun təxəyyülünün bəhrəsi olmuşdur.*

3.1.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər Jül Vernin əsərləri haqqında əldə etdikləri məlumatlar, verilmiş məlumat vərəqi əsasında informativ mətn yazırlar. Bu zaman məlumatı seçmək və ardıcıllıqla təqdim etmək bacarığı inkişaf etdirilir. Şagirdlərdə məlumatları ümumiləşdirmə və qruplaşdırma bacarıqları möhkəmləndirilir. Tapşırıq şagirdlərin informativ mətn yazmaq bacarığının möhkəmlənməsinə xidmət edir.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə məlumatları qruplaşdıraraq yazmağı, hər bir əsər haqqında məlumat verməyi tövsiyə edir. Bu şagirdlərin məlumatları seçmək, ümumiləşdirmək bacarıqlarından istifadə etməsinə imkan yaradacaq.

**Qeyd:** Müəllim yazıdan əvvəl mətnin məzmun və strukturunu qiymətləndirmək üçün meyarlar təqdim edir. Şagirdlər yazılarını meyarlar əsasında qiymətləndirirlər.

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Mətndə giriş hissə öz əksini tapmışdır. | | | |
| Mətndə keçid cümlədən istifadə olunub. | | | |
| Əsas hissəyə uyğun məlumatlar doğru yazılmışdır. | | | |
| Mətnin sonluq hissəsi doğru tamamlanmışdır. | | | |

### Danışma

1.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər qruplara ayrılır və araşdırma materialı əsasında mövzuya uyğun təqdimat hazırlayırlar. Tapşırıq məlumatları araşdırma, seçmə, qruplaşdırma, ümumiləşdirmə, təqdimetmə bacarıqlarının inkişafına xidmət edir. Eyni zamanda əməkdaşlıq, ünsiyyət bacarıqlarının möhkəmlənməsinə zəmin yaradır.

**Qeyd:** Təqdimatın qiymətləndirilməsi zamanı təqdimatda öz əksini tapmalı olan məqamlar, şagirdlərin şifahi nitq və təqdimetmə bacarıqları diqqətdə saxlanılır. Müəllimin bu meyarları şagirdlərə təqdimatdan əvvəl xatırlatması tövsiyə olunur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əldə etdiyi məlumatlar əsasında mövzu üzrə danışır və fikirlərini əsaslandırır. | Tap. B (D.) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. A (İ.D.) |
| Araşdırma materialları əsasında şifahi təqdimat hazırlayır. | Tap. C (D.) |

## **4-cü dərs.** Dil qaydaları. Orfoqrafiya

• Dərslik: səh. 91 • İş dəftəri: səh. 56

**Təlim məqsədləri**

• Sözlərdə sait və samitlərin düzgün yazılış qaydalarına əməl edir (st. 4.1.2).
• Özünün və başqasının yazısını ədəbi dilin normaları baxımından təkmilləşdirir (st. 3.1.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual-cavab |
| 2 | **Dil qaydaları** | Sait və samitin fərqləndirilməsi; saitlərin növlərinin müəyyən edilməsi; ahəng qanunu; sait və samitlərin düzgün yazılışı |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim suallar verir:
– Səslərin hansı növləri var?
– Saitlərin hansı növləri var?
– Ahəng qanunu nədir? və s.

### Dil qaydaları

**Tapşırıq A (dərslik).** Şagirdlər verilmiş izahlara uyğun sözlər yazırlar.

*Məsələn, belə yaza bilərlər:*
1. dərslik, gəmi, üzük, gümüş, xətkeş;
2. qapı, bulud, torba, qayda, qalın;

3. kitab, divar, elan, samit, velosiped.

Tapşırıq vasitəsilə II sinifdə öyrəndikləri incə, qalın saitləri, ahəng qanunu üzrə biliklərini yada salırlar.

**Tapşırıq B (dərslik).** Şagirdlər verilən sözləri sətirdən sətrə keçirilə bilən hissələrə ayırırlar. Tapşırıq sözlərin sətirdən sətrə keçirilmə qaydası üzrə biliklərin xatırlanmasına xidmət edir.

**Düzgün cavab:**

ağac-dələn, ağacdə-lən; ənə-nə; ma-neə; işa-rə; ai-lə.

**Tapşırıq C (dərslik).** Şagirdlər verilən sözləri əlifba sırası ilə yazırlar.

**Düzgün cavab:** ağıllı, bağban, komandir, qardaş, lent, limon, tilov, tor, zəfəran, ziyan.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş sözləri cədvəl üzrə qruplaşdırıb yazırlar. Tapşırıq dodaqlanan və dodaqlanmayan saitlər üzrə biliklərin xatırlanmasına xidmət edir.

**Düzgün cavab:**

| Yalnız dodaqlanan saitli sözlər | Yalnız dodaqlanmayan saitli sözlər | Həm dodaqlanan, həm dodaqlanmayan saitli sözlər |
|---|---|---|
| böyük | səhər | yoldaş |
| gündüz | kətan | qoçaq |
| bulud | məktəb | tozsoran |

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər ahəng qanuna görə ardıcıllığı tamamlayırlar.

**Düzgün cavab:** 1. kitab; 2. torpaq.

3.1.4 **Tapşırıq Ç (dərslik).** Şagirdlər buraxılmış hərfləri əlavə etməklə sözləri köçürürlər. Tapşırıq orfoqrafiya qaydalarının möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:** bıçaq, ulduz, mübahisə, lövhə, nəqərat, qəzet, kənd, maraqlı, süzgəc, kərpic, əsgər, dibçək, dəstə, rəqqas, təbaşir, avtobus, konfet.

**Tapşırıq C (iş dəftəri).** Şagirdlər kontekstdən çıxış edərək cümlələrdəki boşluqlara uyğun sözlər yazırlar, sözlərin düzgün yazılışına diqqət edirlər. Tapşırıq həm söz ehtiyatı, həm də orfoqrafiya qaydaları üzrə biliklərin yoxlanmasına xidmət edir.

**Düzgün cavab:**

1. Bir həftədə yeddi gün var.
2. Beş ilə dördün cəmi doqquz edir.
3. Həftənin üçüncü günü çərşənbə adlanır.
4. Payız fəsli sentyabr ayından başlayır.

4.1.2 **Tapşırıq D (dərslik).** Şagirdlər tapşırığı iki mərhələdə yerinə yetirirlər:

1. Əvvəlcə şəkilçi artırdıqda q-ğ, k-y əvəzlənməsi baş verməyən sözləri seçirlər.
2. Həmin sözləri cümlədə işlədirlər.

**Düzgün cavab:** iştirak, təbrik, xalq, yük.

4.1.2 **Tapşırıq E (dərslik).** Şagirdlər cümlələrdəki səhv yazılmış sözlərin düzgün yazılışını müəyyən edirlər. Tapşırıq -lıq$^4$, -lı$^2$, -lar$^2$ şəkilçilərinin düzgün yazılış qaydası üzrə biliklərin möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:** çəmənlikdə, soxulcanları, rütubətli, əsgərlərimiz, sərhədlərimizi, əlcəyini, fənlər.

**Tapşırıq Ç (iş dəftəri).** Şagirdlər yazılışına görə səhv olan sözü müəyyən edirlər.

**Düzgün cavab:** 1. – c, 2. – b, 3. – c, 4. – a.

**Tapşırıq Ə (dərslik).** Şagirdlər verilmiş mətndəki səhv yazılmış sözləri düzgün yazaraq mətni köçürürlər. Tapşırıq redaktə bacarığının inkişafına kömək edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Ahəng qanununa uyğun sözlər yazır. | Tap. A (D.), tap. B (İ.D.) |
| Sözlərin sətirdən sətrə keçirilmə qaydasını müəyyən edir. | Tap. B (D.) |
| Dodaqlanan və dodaqlanmayan saitləri fərqləndirir. | Tap. A (İ.D.) |
| Sözləri əlifba sırası ilə yazır. | Tap. C (D.) |
| Sözlərdə buraxılmış hərfləri düzgün yazır. | Tap. Ç (D.) |
| Səhv yazılmış sözləri müəyyən edir. | Tap. E, Ə (D.), tap. Ç (İ.D.) |
| Sözləri düzgün yazmaqla cümlələri tamamlayır. | Tap. D (D.), tap. C (İ.D.) |

fəsil 2 **SÜNİ İNTELLEKT**

## 1-ci dərs. Robotlar

• Dərslik: səh. 92-93 • İş dəftəri: səh. 57

**Təlim məqsədləri**

• Mətni sürətli, səlis, aydın səslə oxuyur (st. 2.2.1).
• Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
• Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır (st. 2.2.2).
• Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır (st. 1.2.1).
• Tanış olduğu və ya təsəvvür etdiyi məlumatları yazıda əks etdirir (st. 3.1.1).
• Hər hansı hadisəni ssenari və ya dialoq şəklində yazılı təqdim edir (st. 3.1.1).

**Köməkçi vasitələr:** adi və ağıllı tozsoran şəkli.

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzu üzrə danışma |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Robotlar" mətninin oxusu; yeni sözlərin izahı |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 4 | **Danışma** | Mövzu üzrə fikir bildirmə |
| 5 | **Yazı** | Mövzu üzrə fikirlərini yazıda əksetdirmə; ssenari tərtibetmə |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim sual verir: "Süni intellekt" dedikdə nə başa düşürsünüz? Müəllim yönəldici suallarla 7-ci bölmədə robotlar haqqında öyrəndikləri məlumatları xatırlada bilər. Şagirdlər robotlar haqqında bildiklərini danışırlar.

### Oxu. Söz ehtiyatı

2.2.1 **Robotlar mətninin oxusu. Növbəli oxu.** Mətn oxunduqca yeni sözlər izah edilir.

2.1.1 **Tapşırıq B (dərslik).** Müzakirə zamanı müəllim şagirdlərin diqqətini hər iki sözün insan tərəfindən yaradılan robotları ifadə etdiyinə yönəldir.

**Tapşırıq A (iş dəftəri).** Tapşırıq şagirdlərin yeni sözləri necə qavradıqlarını müəyyən edir.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən edir.
**Düzgün cavab:** 1.– Y; 2.– Y; 3.– D; 4.– Y; 5.– D.

### Danışma

1.2.1 **Tapşırıq Ç (dərslik).** Müəllim sual verir:

– "Ağıllı maşın" hansı xüsusiyyətlərə sahibdir?

Şagirdlər mətndən aldıqları məlumatlar əsasında suala cavab verirlər, sonra mətndə Eriklə bağlı verilən məqaləni yenidən səssiz oxuyurlar. Erikin sahib olduğu bacarıqlar haqqında fikirlərini bildirirlər. Tapşırıq mətndə verilən məlumatların daha dərindən mənimsənilməsinə imkan yaradır.

**Tapşırıq D (dərslik).** Müəllim adi tozsoran və ağıllı tozsoran şəkli nümayiş etdirir. Şagirdlər həm "Uzaq planetin sirri", həm də "Robotlar" mətnlərində ağıllı maşına məxsus xüsusiyyətlər haqqında müəyyən biliklərə yiyələniblər və bunların əsasında mexaniki və ağıllı tozsoranları müqayisə edirlər. Tapşırıq təhliletmə, şifahi nitq bacarıqlarının inkişafına xidmət edir.

### Yazı

3.1.1 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər əldə etdikləri məlumatlar əsasında ağıllı və mexaniki maşının fərqini yazırlar.

**Tapşırıq C (iş dəftəri).** Tapşırığın məqsədi mətndən əsas faktları seçmə bacarığının yoxlanılmasına xidmət etməkdir. Məsələn, şagirdlər bu məlumatları seçə bilərlər:

1. Süni insanlara "robot " adını çex yazıçısı K.Çapek vermişdir.
2. Robot "iş" mənası verən "robota" sözündəndir.
3. Erik adlı ilk robot 1928-ci ildə İngiltərədə yaradılmışdır.
4. Robotlar, sadəcə, mexaniki iş görmür, işinə yaradıcı yanaşır.

5. Robotların intellekti insan tərəfindən yaradılmış, daha doğrusu, proqramlaşdırılmış süni intellektdir.

6. Müasir dövrdə robotlar müəyyən işləri insandan tez, dəqiq və səhvsiz görsə də, insanı tam əvəz edə bilmir.

7. Gələcəkdə insanı bütün sahələrdə əvəz edən ağıllı maşınlar yaradıla bilər. və s.

3.1.1 **Tapşırıq E (dərslik). Qruplarla iş.** Şagirdlər Erik haqqında məqalədəki dialoqu genişləndirərək ssenari tərtib edirlər. Sonra rol bölgüsü aparır və səhnələşdirirlər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni səlis, aydın, sürətli oxuyur. | Robotlar mətninin oxusu. |
| Kontekstdən çıxış edərək cümlələri uyğun sözlərlə tamamlayır. | Tap. A (İ.D.) |
| Mətnin məzmunu ilə bağlı suallara cavab verir. | Tap. C (D.) |
| Mövzu üzrə fikir bildirir və əsaslandırır. | Tap. Ç, D (D.) |
| Mövzu üzrə fikirlərini yazıda əks etdirir. | Tap. B, C (İ.D.) |
| Verilmiş dialoqu genişləndirərək ssenari tərtib edir və səhnələşdirir. | Tap. E (D.) |

## 2-ci dərs. İnsan və robot

• Dərslik: səh. 94-95 • İş dəftəri: səh. 58

**Təlim məqsədləri**

• Dinlədiyi fikirlə bağlı mövqeyini şərh edir (st. 1.1.2).
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Mətnin struktur elementlərini (illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).
• Fikir və mühakimələrini əks etdirməklə kiçikhəcmli mətn yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Şəkil üzrə danışma |
| 2 | **Dinləmə** | "İnsan və robot" mətni üzrə iş |
| 3 | **Danışma** | Mövzu üzrə danışma |
| 4 | **Oxuyub-qavrama** | Ensiklopedik məlumatların mənimsənilməsi |
| 5 | **Danışma** | Mövzu üzrə fikir bildirmə və əsaslandırma |
| 6 | **Yazı** | Esse yazma |
| 7 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər şəkil üzrə robot və insanın fərqi haqqında fikirlərini bildirirlər. Sonra isə öz bildikləri məlumatlar əsasında düşüncələrini genişləndirirlər.

### Dinləmə

1.1.2 **Tapşırıq B (dərslik).** Müəllim dinləmə mətnini səsləndirir:

**İnsan və robot**

*Robot sözünü eşitdikdə çoxlarının təsəvvüründə içərisi dəmir-dümür və sxemlərlə dolu insana bənzəyən bir varlıq canlanır. Əslində isə, robot – verilmiş proqram əsasında əvvəlcədən nəzərdə tutulan işləri yerinə yetirən avtomatik qurğudur. O, müxtəlif formalarda yaradıla bilər. Bu, sadəcə, dizayn məsələsidir. Robotu zahirən insana bənzətmək isə yalnız onu daha cəlbedici etmək məqsədi daşıyır.*

*Siz artıq bilirsiniz ki, robot insana xas bir çox xüsusiyyətlərə malikdir: onun nitq bacarıqları, düşüncə və dərketmə qabiliyyəti var. Müasir robotlar, sadəcə, iş görmür, o, insan kimi öyrənir, özü-özünü öyrədə bilir. Beləliklə, zaman keçdikcə təcrübəsini və biliklərini artırır, zehnini inkişaf etdirir.*

*Bununla belə, robot onu yaradan insandan və digər canlılardan fərqlənir. Əsas fərq insanların təbii, maşınların isə süni varlıq olmasından irəli gəlir. İnsan bioloji varlıqdır. O qidalandığı ərzaqdan enerji alır. Robotun enerji mənbəyi isə elektrik cərəyanıdır. Robotlar ba-*

*zən zahiri görünüşləri ilə də adama oxşaya bilərlər, amma heç bir maşın insana xas olan duyğulara malik olmur. Maşın təəccüblənmir, sevinmir, qorxmur, kədərlənmir, ağrı hiss etmir. Siz bir robotla tanış olub onunla dostlaşa bilərsiniz. Amma bilməlisiniz ki, bu "dostunuz" sizin nəinki yaxınlarınızda, hətta ev heyvanlarınızda – itinizdə, pişiyinizdə olan doğmalıq hissindən uzaqdır.*

*Doğrudur, bu gün robotlarla həyatımızın bütün sahələrində qarşılaşırıq. Ona görə də biz onlardan istifadə etməyi öyrənməliyik. Yalnız istifadə etməyi yox, həm də onu yaratmağı. Amma unutmamalıyıq ki, biz insanıq, o isə bizim yaratdığımız məhsuldur. Çalışmalıyıq ki, bizim məhsulumuz insanlığa xas olan ən ali keyfiyyətlərə – mərhəmətə, vicdana, məhəbbətə xələl gətirməsin.*

Şagirdlər dinləmə mətnindən əldə etdikləri məlumatlar əsasında insan və robotu müqayisə edir və fikirlərini bildirirlər.

### Danışma

1.2.1 **Tapşırıq C (dərslik).** Şagirdlər ensiklopediyadan verilmiş bir hissəni oxuyurlar. Burada müxtəlif sahələrdə robotlardan istifadə haqqında məlumat əldə edirlər. Sonra isə həmin məlumatlardan və bildikləri əlavə informasiyadan çıxış edərək robotların faydası haqqında danışırlar. Tapşırıq şagirdlərin nəticəçıxarma, əlaqələndirmə, şifahi nitq bacarıqlarının inkişafına xidmət edir.

### Yazı

3.1.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlər ensiklopediyadan verilmiş hissəyə yenidən diqqət yetirirlər. Həmin hissənin mövzusunu müəyyən edirlər. Sonra isə müəllim sual verir:

– Sizcə, bu hissə giriş, əsas, ya sonluq hissədir? Müzakirə nəticəsində əsas hissə olduğu qənaətinə gəlirlər. Sonra isə həmin mətnə uyğun giriş və əsas hissə yazırlar. Şagirdlərin yazıları oxunur və müzakirə edilir. Tapşırıq mətnin strukturu üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir.

**Qeyd:** Müəllim şagirdlərə keçid cümləni yazmağı tövsiyə edə bilər.

**Düzgün cavab** təxminən belə ola bilər:

**Giriş hissə:** Son illərdə artıq bir çox sahələrdə robotlardan istifadə edilir. Robotlar insanları tamamilə əvəz edə bilməsələr də, müəyyən sahələrdə insanlara köməkçi olaraq çalışırlar. Bəs hansı sahələrdə robotlar daha çox istifadə edilir?

**Sonluq hissə:** Göründüyü kimi, robotlar bir çox sahələrdə insanların işini asanlaşdırır və onlara köməkçi olurlar. Buna baxmayaraq, robotlar insanları tamamilə əvəz edə bilmirlər.

### Oxuyub-qavrama

2.2.3 **Tapşırıq D (dərslik).** Şagirdlər verilmiş məlumatlarla tanış olurlar. Bu məlumatların ensiklopediyaya hansı yarımbaşlıq altında daxil ola biləcəyini müəyyən edirlər. Buna görə həmin robotların işləyə biləcəyi sahələr müzakirə edilir. Sonra isə bu sahələrə uyğun yarımbaşlıqları müəyyən edirlər. Tapşırıq şagirdlərin bildiyi məlumatları yeni öyrəndikləri ilə əlaqələndirmə funksiyası daşıyır.

**Düzgün cavab:** təhlükəsizlik; tikinti.

### Danışma

1.2.1 **Tapşırıq E (dərslik).** Şagirdlər robotlar haqqında əldə etdikləri məlumatlar əsasında ağıllı və adi avtomobili müqayisə edirlər. Artıq ağıllı maşına məxsus xüsusiyyətləri bildikləri üçün "Ağıllı avtomobil adi avtomobillə müqayisədə hansı üstünlüklərə sahib ola bilər?" mövzusunda fikir bildirmək daha da asanlaşır. Tapşırıq şagirdlərin yaradıcı və məntiqi düşünmə bacarığının inkişafına xidmət edir.

**Düzgün cavab:** Şagirdlərin cavabları təxmini belə ola bilər: Adi avtomobili insan idarə edir. Ağıllı avtomobil isə özü proqram əsasında idarə oluna bilər. Ağıllı avtomobillər sahibinin ən çox getdiyi marşrutları yadda saxlayaraq, sürücüdən icazə aldıqdan sonra park etmə yerlərini öncədən sifariş edə bilər. Avtomobillər sükanda quraşdırılmış cihazlar vasitəsilə sürücünün səhhətinin vəziyyətini izləyə bilər və s.

**Tapşırıq Ə (dərslik).** Şagirdlər özləri yaratmaq istədikləri robotlar və onları nə üçün yaratdıqları haqqında danışırlar.

**Qeyd:** Burada əsas məqsəd yaratdıqları robotun faydası, əhəmiyyəti haqqında danışmaq və fikirlərini əsaslandırmaqdır.

### Yazı

3.1.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş mövzu üzrə esse yazırlar. Esseni yazarkən verilən arqumentlərdən seçərək fikirlərini əsaslandırırlar.

**Müəllimin nəzərinə!** Essenin yazılmasına keçməzdən əvvəl mövzu üzrə kiçik müzakirə təşkil oluna bilər. Bu müzakirə fərdi tapşırıqda şagirdlərə kömək edə bilər. Sonra bir daha essenin strukturu və yazılması yada salınır. Esse yazarkən tərkib hissələri, fikir bildirmə, fikirlərini təsdiqləmək üçün arqumentlərdən istifadə olunması xatırlanır.

**Qeyd:** Şagirdlər robotların faydası və təhlükəsi mövzusunda seçim edir və fikirlərini essedə buna uyğun bildirirlər.

Müəllim yazıdan əvvəl mətnin məzmun və strukturunu qiymətləndirmək üçün meyarlar təqdim edir. Şagirdlər yazılarını meyarlar əsasında qiymətləndirirlər.

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Essedə giriş, əsas və sonluq hissə əks olunur. | | | |
| Mövzuya uyğun arqumentlər əks olunub. | | | |
| Yazılan arqumentlər əsaslandırılıb. | | | |

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mövzu üzrə danışır və fikirlərini əsaslandırır. | Tap. B, C, E, Ə (D.) |
| Mətnə uyğun giriş və sonluq yazır. | Tap. Ç (D.) |
| Verilmiş məlumata uyğun yarımbaşlıq müəyyən edir. | Tap. D (D.) |
| Verilmiş mövzu üzrə esse yazır. | Tap. A (İ.D.) |

## 3-cü dərs. Dil qaydaları. Nitq hissələri

• Dərslik: səh. 96 • İş dəftəri: səh. 59

**Təlim məqsədləri**

• Əsas nitq hissələrinin (isim, sifət, əvəzlik, zərf) ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.3).
• Köməkçi nitq hissələrinin ümumi leksik-qrammatik xüsusiyyətlərini müəyyənləşdirir (st. 4.1.3).
• Nitqində köməkçi nitq hissələrindən yerli-yerində istifadə edir (st. 4.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Nitq hissələrini xatırlama |
| 2 | **Dil qaydaları** | Əsas nitq hissələrini müəyyən etmə; zərfi digər nitq hissələrindən fərqləndirmə; sifətin dərəcələrini müəyyən etmə; köməkçi nitq hissələrini müəyyən etmə, nitqində düzgün istifadə etmə |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim nitq hissələri ilə bağlı keçilən mövzuları yada salmaq üçün suallar verir:

– Hansı nitq hissələrini tanıyırsınız?
– Əsas nitq hissələri hansılardır?
– Köməkçi nitq hissələri hansılardır? və s.

### Dil qaydaları

4.1.3 **Tapşırıq A (dərslik).** Şagirdlər fikirlərin doğru ya yanlış olduğunu dil qaydalarının əsasında izah edirlər. Tapşırıq bu qaydaları bir daha xatırlatma məqsədi daşıyır.

**Düzgün cavab:** 1. – Y. Böyük hərflə xüsusi isimlər yazılır; 2. – D; 3. – Y. Rəng varlığın əlamətini bildirir, gözlə görünür; 4. – Y. Roma rəqəmləri ilə sıra sayları göstərilir; 5, 6 – D;

**Tapşırıq B (dərslik).** Şagirdlər verilmiş sözləri cədvəl üzrə qruplaşdırıb yazırlar.

**Müəllimin nəzərinə!** Tapşırığın icrasına keçməzdən əvvəl nitq hissələrinin sualları xatırlana bilər.

**Düzgün cavab:** isim – göbələk, bahar, meşə, dəniz; sifət – maraqlı, nazik, səmimi, xeyirxah, cəld; say – bir az, yüz, onuncu, çox; əvəzlik – biz, bu, həmin; feil – boylan, sakitləş, dinlə; zərf – cəld, irəli, dünən.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər söz sırasındakı qanunauyğunluğu müəyyən edərək sıranı uyğun sözlə tamamlayırlar. Tapşırıq nitq hissələri üzrə biliklərin yoxlanmasına xidmət edir.

**Düzgün cavab:** 1. meşə; 2. yaraşıqlı; 3. qabyuyan; 4. enli; 5. cəsur; 6. çox.

4.1.3 **Tapşırıq C (dərslik).** Şagirdlər cümlələri oxuyur və fərqləndirilmiş sözlərin aid olduğu nitq hissəsini müəyyən edirlər.

**Müəllimin nəzərinə!** Tapşırığa keçid almazdan əvvəl müəllim zərf mövzusunu xatırlatmaq üçün suallar verə bilər.

**Düzgün cavab:** 1. a) zərf, b) say; 2. a) sifət, b) zərf; 3. a) zərf, b) isim.

4.1.3 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq ismin halları üzrə biliklərin yoxlanmasına xidmət edir.

**Düzgün cavab:**

1. Arzu dəftəri Rüfətə verdi.
2. Mən bacımı məktəbdən evə gətirdim.
3. Məktəbimizin şagirdləri yarışda iştirak etdilər.

4.1.3 **Tapşırıq C (iş dəftəri).** Şagirdlər cümlələrdə verilmiş əvəzlikləri müəyyən edir və cədvəli tamamlayırlar. Tapşırıq əvəzlik üzrə biliklərin yoxlanmasına xidmət edir.

**Düzgün cavab:**

| Şəxs əvəzliyi | İşarə əvəzliyi | Sual əvəzliyi | Sualı |
|---|---|---|---|
| - | - | bu | hansı? |
| biz | - | - | kim? |
| mən | | - | kim? |
| - | həmin | - | hansı? |
| - | - | neçənci? | neçənci? |
| - | belə | - | necə? |
| o | - | - | kim? |

4.1.3 **Tapşırıq Ç (dərslik).** Müəllim əvvəl sual verir: Sifətin hansı dərəcələri var?

Sonra şagirdlər sözlər arasındakı qanunauyğunluğu müəyyən edərək uyğun sifətlərlə sıranı tamamlayıb yazırlar.

**Düzgün cavab:** 1. sapsarı; 2. uzunsov.

4.1.3 **Tapşırıq D (dərslik).** Əvvəl şagirdlərə köməkçi nitq hissələri haqqında öyrəndikləri qaydalar xatırladılır. Sonra şagirdlər cümlələrdəki köməkçi nitq hissələrini müəyyən edirlər.

**Müəllimin nəzərinə!** Şagirdlərə əlavə olaraq cümlələrdəki köməkçi nitq hissələrinin növünü müəyyən etmək tapşırıla bilər.

**Düzgün cavab:** 1. lap (ədat); 2. kimi (qoşma); 3. ancaq (bağlayıcı); 4. deməli (modal söz); 5. bəh-bəh (nida).

**Tapşırıq E (dərslik).** Şagirdlər cümlənin kontekstindən çıxış edərək uyğun köməkçi nitq hissələri artırıb yazırlar.

1. Danışmazdan əvvəl yaxşı-yaxşı düşün.
2. Bu işi ancaq sənə tapşıra bilərəm.
3. Nəhayət, oyun başa çatdı.
4. Bu kitabda təyyarə və gəmilərə aid məlumat var.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əsas nitq hissələrini müəyyən edir və qaydaları şərh edir. | Tap. A, B, C (D.), tap. A (İ.D.) |
| İsmə uyğun hal şəkilçisi əlavə edir. | Tap. B (İ.D.) |
| Əvəzliyin növlərini müəyyən edir. | Tap. C (İ.D.) |
| Sifətin dərəcələrini müəyyən edir. | Tap. Ç (D.) |
| Köməkçi nitq hissələrini müəyyən edir. | Tap. D (D.) |
| Nitqində köməkçi nitq hissələrindən istifadə edir. | Tap. E (D.) |

# fəsil 3 ÖLÇÜ VAHİDLƏRİ

## 1-ci dərs. Öz arşınınla ölçmə

• Dərslik: səh. 97-98 • İş dəftəri: səh. 60

**Təlim məqsədləri**
- Mətni sürətli, səlis, aydın səslə oxuyur (st. 2.2.1).
- Sözün kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.1).
- Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır (st. 2.2.2).
- Mətndə sətiraltı fikir və informasiyanı izah edir. (st. 2.2.4).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Müzakirə |
| 2 | **Oxu. Söz ehtiyatı** | Öz arşınınla ölçmə mətninin oxusu |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər "Arşın mal alan" filminin adındakı "*arşın*" sözünü bildikləri, eşitdikləri məlumatlar əsasında izah edirlər. Şagirdlər fikirlərini bildirdikdən sonra müəllim sual verir:

– Filmin baş qəhrəmanı arşınla nə ölçürdü?

– Sizcə, arşının uzunluğu təxminən nə qədərdir? Sonra müəllim "Arşın mal alan" filmindən Əsgər bəyin arşınla parça ölçdüyü səhnəni nümayiş etdirir və şagirdlər fikirlərini dəqiqləşdirirlər.

### Oxu. Söz ehtiyatı

2.2.1 **"Öz arşınınla ölçmə" mətni. Növbəli oxu.** Mətn şagirdlər tərəfindən səsli oxunur. Mətn oxunduqca yeni sözlər müzakirə edilir.

2.1.1 **Tapşırıq B (dərslik).** Şagirdlər "*beynəlxalq ticarət*" ifadəsini izah edirlər. Hər iki söz əvvəlki dərslərdən şagirdlərə tanışdır. İndi isə söz birləşməsi şəklində mənimsəyirlər.

**Tapşırıq C (dərslik).** Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşməsinə imkan yaradır.

### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq Ç (dərslik).** Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

**Düzgün cavab:** Çünki tacirlər ticarətdə insanları aldadırdılar.

**Tapşırıq D (dərslik).** Şagirdlər mətndən müxtəlif ölkələrdə işlənən arşınların uzunluqlarını öyrəniblər. İndi isə hansının daha uzun olduğunu müəyyən edirlər.

**Düzgün cavab:** a) türk memar arşını.

**Tapşırıq E (dərslik).** Şagirdlər mətndəki məlumatlar əsasında suala cavab verirlər.

**Düzgün cavab:** Ölkələr arasında beynəlxalq ticarətdə çətinlik yaradırdı. Bir ölkədə 61 sm 1 arşın hesab edilirdisə, digər ölkədə 61 sm bir arşından az olurdu.

2.2.4 **Tapşırıq Ə (dərslik).** Şagirdlər verilmiş situasiyanı oxuyur və suala cavab verirlər. Tapşırıq şagirdlərin təhliletmə bacarıqlarının, məntiqi təfəkkürlərinin inkişafına xidmət edir. Həmçinin riyaziyyatda ölçü vahidləri haqqında əldə etdikləri məlumatlar inteqrasiya imkanı yaradır.

**Düzgün cavab:** Alıcının qolu qısa olduğu üçün parçanı o ölçsə, satıcıya sərf edər.

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər məsələni oxuyur və mətndən əldə etdikləri məlumatlar əsasında həll edirlər. Tapşırıq şagirdlərin məlumatları praktiki tətbiqetmə bacarıqlarının, riyazi təfəkkürlərinin inkişafına xidmət edir.

**Düzgün cavab:**

Türkiyədə 1 arşın – təxminən 68 sm (tacir parça aldığı üçün çarşı arşını götürülür), 100 arşın = 68 sm x 100 = 6800 sm.

Rusiyada 1 arşın – 71 sm olduğu üçün 6800 sm : 71 sm = 95. Deməli, Rusiyada təxminən 95 arşın olacaq.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətndən əldə etdikləri məlumatlar əsasında verilmiş məsələləri həll edirlər. Tapşırıq həm yeni informasiyanın qavranılmasına və istifadəsinə, həm də riyazi bacarıqların inkişafına imkan yaradır.

**Düzgün cavab:**

1) 7 km = 12000 addım olduğu üçün 1 km = 12000 : 7, 1 km = 1714.

2) 1 ağac = 7 km olarsa, 6 ağac – 7 km x 6 = 42 km olacaq. Deməli, Şamaxıdan Altıağaca qədər olan məsafə 42 km-dir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni aydın və sürətli oxuyur. | "Öz arşınınla ölçmə" mətninin oxusu |
| Mətndəki məlumatlarla bağlı suallara cavab verir. | Tap. B, C, Ç, D, E (D.) |
| Mətndəki faktlardan çıxış edərək yeni məlumat əldə edir. | Tap. Ə (D.), tap. A, B (İ.D.) |

## **2-ci dərs.** Qədim ölçü vahidləri

• Dərslik: səh. 98 • İş dəftəri: səh. 61

**Təlim məqsədləri**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını ifadə edir (st. 1.2.1).
• Çoxmənalı sözün və omonimin kontekstə uyğun mənasını müəyyən edir (st. 2.1.2).
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar əsasında müzakirə |
| 2 | **Danışma** | Dinləmə mətni əsasında suallara cavab vermə |
| 3 | **Söz ehtiyatı** | Cümlə qurma |
| 4 | **Yazı** | İnformativ mətn yazma |
| 5 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

– İnsan bədənin daha hansı hissələrindən uzunluq ölçmək üçün istifadə edir?

– Həmin ölçü vahidləri necə adlanır? Onlar hansı hallarda istifadə olunur?

### Danışma

1.2.1 **Tapşırıq A (dərslik).** Şagirdlər dinləmə mətnindən əldə etdikləri məlumatlar əsasında suallara cavab verirlər. Tapşırıq qeydgötürmə, təhliletmə, riyazi bacarıqların inkişafına xidmət edir.

**Müəllimin nəzərinə!** Şagirdlər dinləmə mətni səsləndikcə qeyd götürürlər. Qeyd götürmək üçün iş dəftərində 2 A tapşırığındakı cədvəldən istifadə etmək tövsiyə olunur. Bu zaman mətnin abzas-abzas səslənməsi və şagirdlərə qeyd götürmək imkanının verilməsi mütləqdir.

**Qədim ölçü vahidləri**

*Ölçü vasitələri insanların həyatında mühüm əhəmiyyət kəsb edir. Metrik ölçü vahidləri kəşf olunmazdan əvvəl qədimdə insanlar şərti ölçü vahidlərindən istifadə ediblər. Bəs bu ölçü vasitələri hansılar idi?*

*Nisbətən kiçik ölçü vahidlərindən biri qarış idi. İndinin özündə də çox dəqiqlik tələb olunmayan yerlərdə qarışdan istifadə edilir. Qarış əli açıq vəziyyətdə tutduqda baş barmağın ucundan çeçələ barmağın ucuna qədər olan uzunluğu bildirir. Bu da təqribən 20 sm-ə bərabərdir.*

*Xalq arasında geniş yayılmış digər ölçü vahidi addım adlanır. Bu vahid normal yerişlə gedən adamın bir addımının uzunluğunu bildirir. Bu isə təxminən 60 sm-ə bərabərdir.*

*Qədim dövrdə qulac ("qol" və "aç" sözlərindən əmələ gəlmişdir) deyilən ölçü vahidindən də istifadə olunub. Qulac iki əli də çiyin bərabəri açıq tutduqda sağ əlin baş barmağının ucundan sol əlin baş barmağının ucuna qədər olan məsafəyə bərabər götürülür. Bu da təxminən 150 sm hesab olunur.*

*Şərti ölçü vahidlərindən biri də girvənkə idi. Girvənkə ən çox işlədilən çəki vahidi olmuşdur. Bir girvənkə 400 qrama bərabərdir. Vaxtilə girvənkə daha çox ərzaq ticarətində işlədilmişdir.*

*Bu ölçü vahidlərinin nə zaman meydana gəldiyi məlum deyil. İnsanların gündəlik həyatı*

*onları müxtəlif ölçülər aparmağa vadar edirdi və buna görə də fərqli ölçü vahidləri ortaya çıxırdı.*

Mətn bitdikdən sonra şagirdlər öz qeydləri əsasında suallara cavab verirlər.

**Düzgün cavab:** 1) 1 qulac – 150 sm olarsa, 2 qulac – 150 sm x 2 = 300 sm; 2) İki arşın bir qarış – 1 arşın – 70 sm olarsa, 2 arşın 70 sm x 2 = 140 sm olacaq. Onun da üzərinə 1 qarış – 20 sm əlavə edilir, 140 sm + 20 sm = 160 sm; 3) girvənkə.

### Söz ehtiyatı

2.1.2 **Tapşırıq B (iş dəftəri).** Tapşırıq söz ehtiyatının zənginləşməsinə, cümlə qurmaq vərdişlərinin inkişafına xidmət edir.

**Düzgün cavab:**

1. Qarış. Biz şəhəri qarış-qarış gəzdik. Lövhənin uzunluğu 20 qarışdır.
2. Ağac. Həyətdəki ağaclar günü-gündən böyüyür. İki şəhər arasındakı məsafə on ağaca bərabərdir.

### Yazı

3.1.1 **Tapşırıq B (dərslik).** Şagirdlər ölçü vahidləri haqqında mətnlərdən əldə etdikləri məlumatlar və verilmiş cədvəl əsasında "Ölçü vahidləri" adlı informativ mətn yazırlar. Mətni yazarkən məlumatı seçmək və ardıcıllıqla təqdim etmək bacarığı inkişaf etdirilir. Şagirdlərdə məlumatları ümumiləşdirmə və qruplaşdırma bacarıqları möhkəmləndirilir. Tapşırıq şagirdlərin informativ mətn yazmaq bacarığının möhkəmlənməsinə xidmət edir.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə məlumatları uzunluq və çəki vahidləri olaraq qruplaşdırıb yazmağı tövsiyə edə bilər. Bu, məlumatları seçmək, ümumiləşdirmək bacarığından istifadə olunmasına imkan yaradacaq.

**Qeyd:** Müəllim yazıdan əvvəl mətnin məzmun və strukturunu qiymətləndirmək üçün meyarlar təqdim edir. Şagirdlər yazılarını meyarlar əsasında qiymətləndirirlər.

| Meyarlar | Bəli | Qismən | Xeyr |
|---|---|---|---|
| Mətndə giriş hissə öz əksini tapmışdır. | | | |
| Mətndə keçid cümlədən istifadə olunub. | | | |
| Əsas hissəyə uyğun məlumatlar doğru yazılmışdır. | | | |
| Mətnin sonluq hissəsi doğru tamamlanmışdır. | | | |

Şagirdlərin qurduqları mətn təxmini belə ola bilər:

*Qədim zamanlarda dəqiq ölçü vahidləri yox idi. Ona görə də insanlar müxtəlif şərti ölçü vasitələrindən istifadə edirdilər. Bəs bu ölçü vasitələri hansılar idi?*

*İnsanlar uzunluq ölçü vahidi kimi arşın, qarış, addım, qulac, ağac və fərsəngdən istifadə edirdilər. Arşın, qarış, addım daha çox kiçik məsafəni ölçmək üçün istifadə edilirdi. Ağac və fərsəng isə daha uzun məsafəni, yəni şəhərlər arasındakı məsafəni göstərmək üçün işlədilirdi.*

*Şərti ölçü vasitələrindən çəkini ölçmək üçün də istifadə edirdilər. Bunlar arasında ən böyük çəki vahidi batman idi. Bir batman 20 girvənkəyə bərabər hesab edilirdi. Girvənkə isə yarım kiloqramdan az, yəni 400 qrama bərabər idi. Ən kiçik çəki vahidi isə misqal idi. Misqal zərgərlik və boyaçılıqda daha çox işlədilirdi.*

*Bu gün artıq insanlar ölçmələri dəqiq ölçü vahidləri vasitəsilə həyata keçirirlər. Buna baxmayaraq, bəzən məişətdə şərti ölçü vasitələrindən də istifadə edirlər.*

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn əsasında suallara cavab verir. | Tap. A (D.) |
| Omonim sözləri seçir və cümlədə işlədir. | Tap. B (İ.D.) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tap. B (D.) |

## **3-cü dərs.** Məsəllər

• Dərslik: səh. 99 • İş dəftəri: səh. 62

**Təlim məqsədləri**

• Mətndə açıq şəkildə ifadə olunmuş məlumatları mənimsədiyini nümayiş etdirir. (st. 2.2.2).
• Dinlədiyi mətnin ideyasını, məzmun, struktur və bədii xüsusiyyətlərini şərh edir (st. 1.1.1).
• Şifahi nitqində standart ifadələrdən (nitq etiketləri, atalar sözü və məsəllər) istifadə edir. (st. 1.2.3).
• Janrın tələblərini gözləməklə kiçikhəcmli sadə bədii mətn yazır (st. 3.1.2).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Situasiya əsasında müzakirə |
| 2 | **Oxuyub-qavrama** | “Yadda saxla” rubrikası; rəvayətin məzmunu üzrə iş |
| 3 | **Dinləmə** | Məsəl dinləmə |
| 4 | **Yazı** | Məsəlin tarixçəsini yazma |
| 5 | **Oxuyub-qavrama** | Məsəl üzrə suallara cavab vermə |
| 6 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Müəllim şagirdlərə VI bölmədə keçdikləri “Ya eşşək ölər, ya Teymur” rəvayətini xatırladır və sual verir:

– Sizcə, bu ifadə hansı situasiyada işlənir?

**Müəllimin nəzərinə!** Birinin qarşısında uzunmüddətli öhdəlik götürüb sonradan bu öhdəliyə məsuliyyətsiz yanaşmanı əks etdirən ifadə.

### Oxuyub-qavrama

**“Yadda saxla” rubrikası.** Müəllim “Yadda saxla” rubrikasında məsəllə bağlı verilmiş məlumatları şərh edir.

2.2.2 **Tapşırıq B (dərslik). Səssiz oxu.** Şagirdlər rəvayəti səssiz oxuyurlar. Sonra “Qılınc həmin qılıncdır, qol o qol deyil” ifadəsinin işlənmə situasiyası haqqında fikirlərini bildirirlər. Müzakirədən sonra müəllim məsəlin işlənmə situasiyasını şagirdlərə təqdim edir və şagirdlər fikirlərini dəqiqləşdirirlər. Tapşırıq “Yadda saxla” rubrikasında verilmiş məlumatların mənimsənilməsinə xidmət edir.

**Düzgün cavab:** Birisi hər hansı bir alət və ya cihazla işlədikdə, işin öhdəsindən gələ bilmədiyi zaman günahı həmin alət və ya cihazda gördükdə istifadə olunur.

### Dinləmə

1.1.1 **Tapşırıq C (dərslik).** Tapşırıq iki mərhələdə yerinə yetirilir. Birinci mərhələdə şagirdlər tapşırıqda verilən məsəlləri oxuyur, sonra həmin məsəllərin yaranma tarixi ilə bağlı mətnləri dinləyirlər.

**Müəllimin nəzərinə!** Məsəlləri tək-tək səsləndirib, hər birinə aid situasiya müzakirə edildikdən sonra digər məsələ keçilməsi tövsiyə olunur.

**Məsəllər**

**1. Bağda ərik var idi...**

*Bağında əriklərin yetişdiyi vaxt tez-tez bağbanın yanına gəlib-gedən, onunla “dostluq edən” yalançı dostlar ərik qurtaran kimi bağdan ayaqlarını kəsir, bağbanı görəndə isə yanından düz keçir, ona salam vermirlər.*

**2. Saqqızımı oğurladın.**

*Rəvayətə görə, oğurluğu ilə məşhur olan birisinin məclisdə bir varlı çobanla mübahisəsi düşür. Çoban lovğalanır ki, heç kim onun sürüsündən oğurluq edə bilməz. Oğru dostlarına əminliklə “nəinki onun qoyunlarını, hətta ağzında çeynədiyi saqqızı belə oğurlayaram” deyərək öyünür. Bununla bağlı dostlar arasında mərc bağlanır. Bu söhbətdən sonra oğru, çobanı güdməyə başlayır.*

*Payızdan qışa keçən uzun gecələrin birində gecəyarısına yaxın çobanı yuxu aparır. Lakin o, yuxunu qovmaq üçün ot kökündən olan saqqızı çeynəməyə başlayır, amma yuxusunun qarşısını ala bilmir. Oğru gizləndiyi kolun arxasından çıxıb çobana yaxınlaşır. Əlindəki nazik otu onun ağzına salır. Şirin yuxuda olan çoban sonuncu dəfə saqqızı heysiz şəkildə çeynəyir və bununla otun və saqqızın bir-birinə yapışmasına imkan verir. Mahir oğru ota yapışmış saqqızı ehtiyatla onun ağzından çıxarır. Bundan sonra çoban dərin yuxuya gedir və oğru sürünü aparır.*

*Bir müddət sonra bu ifadə oğurluq məzmunundan uzaqlaşır, hansısa üsullarla kimisə yola gətirmək mənasında işlənir.*

**3. Əqrəbin adəti sancmaqdır.**

*"Əqrəbin adəti" olan sancmaq onun bioloji keyfiyyətidir. Yalnız sancma yolu ilə əqrəb özünü qoruyub yaşaya bilir. Onun başqa yaşama yolu yoxdur. Ovunu sancıb öldürür, sonra yeyir. Ona toxunan hər şeyi, bütün canlıları sancır.*

1.2.3 **Tapşırıq C (dərslik).** İkinci mərhələdə şagirdlər tapşırıqda təqdim olunan kiçik mətnləri oxuyub hansı məsələ aid olduğunu müəyyən edirlər. Tapşırıq vasitəsilə şagirdlər məsəl üzrə bilikləri nə dərəcədə mənimsədiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:** 1. – B; 2. – A; 3. – C.

## Yazı

3.1.2 **Tapşırıq Ç (dərslik).** Şagirdlər verilmiş ifadənin yaranması ilə bağlı fikir bildirirlər. Sonra isə hər biri buna uyğun tarixçə düşünüb yazırlar. Tapşırıq məsəl üzrə biliklərin möhkəmlənməsinə, şagirdlərin yaradıcı bacarıqlarının inkişafına kömək edir.

**Müəllimin nəzərinə!** Şagirdlər mətni yazdıqdan sonra həmin ifadə ilə bağlı tarixçə səsləndirilir və şagirdlər onu öz yazdıqları ilə müqayisə edirlər.

**Qeyd:** Tapşırıq qruplarla iş şəklində də işlənə bilər.

**Düzgün cavab:** Rəvayətə görə, bir acgöz molla iki yerdə, həm özü yaşadığı kənddə Vəli adlı bir nəfərin qonaqlıq etdiyini, həm də qonşu kənddə ehsan aşı, yəni Əli aşı verildiyini eşidir. Tamah ona güc gəlir: hər iki məclisdə yemək istəyir. Əvvəl qonşu kəndə gedib ehsan aşından yemək, sonra öz kəndlərinə qayıdıb Vəlinin qonaqlığında iştirak etmək qərarına gəlir. Yubanmadan yola düzələn molla qonşu kəndə çatanda iş-işdən keçmiş olur, görür ki, ehsan bitib və adamlar dağılışır. Kor-peşman geriyə dönür, sürətlə addımlayır ki, Vəlinin qonaqlığına çata bilsin. Amma molla qonaqlığa da gecikir. Beləliklə, acgöz molla həm Əli aşından, həm də Vəli aşından olur.

## Oxuyub-qavrama

2.2.2 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər məsəllə bağlı tarixçəni oxuyur və suallara cavab verirlər. Tapşırıq şagirdlərin məsəl üzrə biliklərinin yoxlanılmasına xidmət edir.

**Düzgün cavab:**

1. Ərəb ilana təklif etdi ki, ona hər gün süd versin, o da qarşılığında qızıl versin.
2. Məkkəyə gedən ata oğluna tapşırdı ki, hər gün ilana süd aparsın və ondan qızıl alsın.
3. Oğlan ilanı öldürmək istədi, çünki bütün qızıla birdən sahib olmaq istəyirdi.
4. İlan ərəbin təklifini qəbul etmədi, çünki bir dəfə razılaşmaları pozulmuşdu.

**Tapşırıq B (iş dəftəri).** Düzgün cavab: B.

## Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmunu ilə bağlı suallara cavab verir. | Tap. B, C (D.), tap. A (İ.D.) |
| Nitq situasiyasına uyğun standart ifadə (nitq etiketləri, atalar sözü və məsəllər) seçir. | Tap C (D) |
| Verilmiş məsələ uyğun tarixçə yazır. | Tap. Ç (D.) |

# 4-cü dərs. Dil qaydaları

• Dərslik: səh. 100 • İş dəftəri: səh. 63

**Təlim məqsədləri**

• Söz və söz birləşmələrini cümlələrdə müxtəlif sintaktik vəzifələrdə işlədir. (st. 4.1.4).
• Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir (st. 4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual-cavab |
| 2 | **Dil qaydaları** | Söz və söz birləşməsindən cümlə qurma; cümlə və cümlə üzvlərinin fərqləndirilməsi; mürəkkəb cümlə yaratma |
| 3 | **Formativ qiymətləndirmə** | |

## Mövzuya yönəltmə

Müəllim suallar verir:

– Söz və söz birləşməsinin fərqi nədir?
– Cümlə nədir?
– Cümlənin məqsədə görə hansı növləri var?
– Cümlə üzvü nədir?  Baş üzvlər hansılardır?

### Dil qaydaları

4.1.4 **Tapşırıq A (dərslik).** Şagirdlər verilmiş cümlələrdə baş üzvləri müəyyən edirlər.

**Düzgün cavab:**
1. Tamaşa, başlayacaq. 2. Nazim, ifa etdi.
3. Aşpaz, qalib oldu. 4. Külək, əsirdi.
5. Buludlar, bənzəyir.

**Tapşırıq B (dərslik).** Şagirdlər ikinci dərəcəli üzvlərin işləndiyi cümlələri seçib yazırlar. Bununla baş və ikinci dərəcəli üzvləri fərqləndirdiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**
1. Uşaqlar meydançada futbol oynayırlar.
2. Fəhlələr alma yeşiklərini maşına daşıdılar.
3. Gecələr Bakı küçələri əlvan işıqlara bürünür.

4.1.4 **Tapşırıq C (dərslik).** Şagirdlər verilmiş söz və söz birləşmələrindən cümlələr düzəldib yazırlar. Tapşırıq cümlə qurmaq vərdişlərinin möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:**
1. Köçəri quşlar soyuq ölkələrdən uçub gəldilər.
2. Ağacın budaqları yuvanı küləkdən qoruyurdu.
3. Mağazadan sadə karandaş aldım.
4. Qurumuş yarpaqlar ayaq altında xışılda-yırdı.
5. Fabrikdə ipək parçalar toxunur.
6. Dəftərləri aşağı şakafa yığdı.

4.1.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər məqsəddən asılı olaraq cümlələri uyğun durğu işarələri ilə tamamlayıb yazırlar.

**Düzgün cavab:**
Axı onlar bizə gələcəklər!
Bəs bu sinif yarışda iştirak etmir?
Bəh-bəh necə gözəl güllər var!
Aynur həvəslə kitab oxuyur.
Müəllim nə vaxt gələcək?

4.1.4 **Tapşırıq D (dərslik).** Şagirdlər verilmiş cümlələrə daha bir fikir əlavə edərək mürəkkəb cümlə yaradırlar.

**Qeyd:** Tapşırığın icrasına keçməzdən əvvəl şifahi sual-cavab vasitəsilə mürəkkəb cümlə üzrə şagirdlərin keçdiklərini yada salmaq tövsiyə olunur.

**Düzgün cavab nümunəsi:**
1. Yağış yağır, külək əsir.
2. Dərs bitdi, tənəffüs başladı.
3. Aparıcı soruşur, uşaq cavab verir.
4. Payız gəldi, havalar soyudu.
5. Tədbir başlandı, iştirakçılar səhnəyə çıxdı.

4.1.4 **Tapşırıq B (iş dəftəri).** Şagirdlər cümlələrin xəbərinin feli yoxsa ismi xəbər olduğunu müəyyən edir və sualını yazırlar. Bununla feli və ismi xəbəri fərqləndirdiklərini nümayiş etdirirlər.

**Düzgün cavab:**

| İsmi xəbər | Feli xəbər | Sualı |
|---|---|---|
| - | gedəcəklər | nə edəcəklər? |
| nərgizdir | - | nədir? |
| - | daşıyır | nə edir? |
| bağdır | - | haradır? |
| maraqlıdır | - | necədir? |

4.1.4 **Tapşırıq C (iş dəftəri).** Verilmiş cümlələrə ikinci dərəcəli üzvlər artırmaqla, genişləndirib yazırlar.

**Düzgün cavab:**
1. Dərs saat səkkizdə başladı.
2. Qonaqlar axşam gəldilər.
3. Quşlar həzin səslə oxuyur.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz və söz birləşmələrindən cümlə qurur. | Tap. A, (D.) |
| Cümləni uyğun durğu işarəsi ilə tamamlayır. | Tap. B (D.) |
| Mürəkkəb cümlə yaradıb yazır. | Tap. C (D.) |
| Cümlədə baş və ikinci dərəcəli üzvləri fərqləndirir. | Tap. Ç, D (D.) |
| Cümlə üzvlərinin sualını müəyyən edir. | Tap. A (İ.D.) |
| İsmi və feli xəbəri fərqləndirir. | Tap. B (İ.D.) |
| İkinci dərəcəli üzvlər artırmaqla cümləni genişləndirir. | Tap. C (İ.D.) |

## fəsil 4 TİBDƏ İXTİRALAR

### 1-ci dərs. Peyvəndin ixtirası

• Dərslik: səh. 101-102 • İş dəftəri: səh. 64

**Təlim məqsədləri**

• Mətni sürətli, səlis, aydın səslə oxuyur (st. 2.2.1).
• Kontekstdən çıxış edərək tanış olmayan sözün mənasını müəyyən edir (st. 2.1.1).
• Mətndə açıq şəkildə ifadə olunmuş məlumatlarla bağlı sualları cavablandırır (st. 2.2.2).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir (st. 2.2.3).
• İnformativ mətndəki fakt və fikirlərdən çıxış edərək müəllifin məqsədini müəyyən edir (st. 2.2.4).
• Oxuduğu informativ mətndəki əsas faktları yazıda əks etdirir (st. 3.1.1).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzu üzrə müzakirə |
| 2 | **Oxu. Söz ehtiyatı** | "Peyvəndin ixtirası" mətninin oxusu; yeni sözlərin izahı |
| 3 | **Oxuyub-qavrama** | Mətnin məzmunu üzrə iş; mətnin strukturu üzrə iş |
| 4 | **Yazı** | Annotasiya yazma; məlumat vərəqini tamamlama |
| 5 | **Formativ qiymətləndirmə** | |

#### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlər peyvənd haqqında bildiklərini danışırlar. Peyvəndin əhəmiyyəti, peyvənd olunma səbəbləri və s. müzakirə edilir.

#### Oxu. Söz ehtiyatı

2.2.1 **"Peyvəndin ixtirası" mətni. Növbəli oxu.** Şagirdlər mətni növbə ilə oxuyurlar. Mətn oxunduqca əsas faktlar və yeni sözlər müzakirə edilir. Mətnin müəyyən abzaslarından sonra müəllim şagirdlərin diqqətini yoxlamaq üçün faktoloji suallar verə bilər.

2.1.1 **Tapşırıq B (dərslik).** Şagirdlər kontekstdən çıxış edərək sözlərin mənasını izah edirlər. Tapşırıq söz ehtiyatı üzrə biliklərin möhkəmlənməsinə xidmət edir.

#### Oxuyub-qavrama

2.2.2 **Tapşırıq C (dərslik).** Şagirdlər mətndən əldə etdikləri məlumatlar əsasında verilmiş informasiyanın doğru, yoxsa yanlış olduğunu müəyyən edirlər. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

**Düzgün cavab:** 1. – D; 2. – Y; 3. – D; 4. – Y.

2.2.3 **Tapşırıq Ç (dərslik).** Şagirdlər tapşırığı üç mərhələdə yerinə yetirirlər.

1. Mətnin məzmununa görə ardıcıllığı müəyyən edirlər.
2. Mətnin giriş, əsas və sonluq hissələrini müəyyən edirlər.
3. Verilmiş yarımbaşlıqların hansı hissələrə aid olduğunu müəyyən edirlər.

Tapşırıq həm mətnin məzmunu, həm də strukturu üzrə bilik və bacarıqların inteqrasiyasına imkan yaradır.

**Düzgün cavab:** ardıcıllıq: C, A, D, B.

Giriş hissə – C; əsas hissə – A və D; sonluq hissə – B.

**Tapşırıq D (dərslik).** Şagirdlər mətnin giriş hissəsindən əsas hissəyə keçid olan cümləni müəyyən edirlər. Tapşırıq mətnin tərkib hissələri arasında əlaqə yaratmaq üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:** Bəs insanlar bu xəstəlikdən necə xilas oldular?

**Tapşırıq A (iş dəftəri).** Şagirdlər verilmiş məlumatların mətnin hansı abzasına aid olduğunu müəyyən edirlər. Tapşırıq vasitəsilə həm mövzu üzrə yeni informasiya əldə edir, həm də məzmun və strukturun əlaqələndirilməsi üzrə bilik və bacarıqlarını möhkəmləndirirlər.

**Düzgün cavab:**

1. 1980-ci ildə təbii çiçək xəstəliyinin tamam yox edildiyi elan olundu. Bu gün artıq təbii çiçək virusu təbiətdə yoxdur – VI abzas.

2. Bu xəstəliyə yoluxan insanın sağalma şansı çox az idi. Sağalsa belə, bədənində yara izləri qalırdı. Ağır hallarda görmə qabiliyyətini itirirdi – I abzas.

3. Peyvəndin ilk dəfə Çində tətbiq olunduğu güman edilir. Belə ki, çinlilər çiçək xəstəliyinə tutulmuş insanın yarasından toz hazırlayır, insanın burnuna üfürərək bədəndə xəstəliyə qarşı immunitet yaradırdılar – III abzas.

2.2.4 **Tapşırıq E (dərslik).** Mətni yazmaqda müəllifin məqsədi müəyyən edilir. Tapşırıq mətndən ümumi nəticə çıxarma bacarığını inkişaf etdirir.

**Düzgün cavab:** Müəllifin məqsədi peyvəndin ixtirası haqqında məlumat verməkdir.

### Yazı

3.1.1 **Tapşırıq Ə (dərslik).** Şagirdlər mətnə uyğun annotasiya yazırlar. Tapşırıq şagirdlərin əldə etdiyi məlumatları ümumiləşdirmə və lakonik ifadə etmə bacarığının inkişafına xidmət edir.

**Düzgün cavab:** Mətndə insanların təbii çiçək xəstəliyinə yoluxması və ondan xilas olmaq üçün üsullar axtarmasından bəhs edilir. Mətnin əsas məqsədi təbii çiçək xəstəliyinə son qoyan peyvəndin ixtirası haqqında məlumat verməkdir. Burada Eduard Cennerin peyvəndi ixtira etməsi və dünyanın bu xəstəlikdən xilas olmasından danışılır.

**Tapşırıq B (iş dəftəri).** Şagirdlər mətndən əldə etdikləri məlumatlar əsasında məlumat vərəqini tamamlayırlar. Tapşırıq məlumatları qrafik informasiyaya çevirmə üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətni səlis və aydın oxuyur. | "Peyvəndin ixtirası" mətni |
| Kontekstdən çıxış edərək sözləri müqayisə edir. | Tap. B (D.) |
| Mətnin məzmunu ilə bağlı sualları cavablandırır. | Tap. C (D.) |
| Verilmiş yarımbaşlıqlara uyğun mətnin tərkib hissəsini müəyyən edir. | Tap. Ç (D.) |
| Məlumatların hansı abzasa aid olduğunu müəyyən edir. | Tap. A (İ.D.) |
| Girişdən əsas hissəyə keçid ola biləcək cümləni müəyyən edir. | Tap. D (D.) |
| Mətni yazmaqda müəllifin məqsədini müəyyən edir. | Tap. E (D.) |
| Mətnə uyğun annotasiya yazır. | Tap. Ə (D.) |
| Mətndəki məlumatlar əsasında məlumat vərəqini tamamlayır. | Tap. B (İ.D.) |

**Növbəti dərsə hazırlıq:** Müəllim növbəti dərsdə dərslikdəki B tapşırığının (*səh. 103*) yerinə yetirilməsi üçün şagirdlərə yoluxucu xəstəliklər və onlardan qorunma ilə bağlı şəkillər toplamalarını tapşırır.

## 2-ci dərs. Yoluxucu xəstəliklər

• Dərslik: səh. 103 • İş dəftəri: səh. 65

### Təlim məqsədləri

• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 3.1.3).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Suallar əsasında müzakirə |
| 2 | **Danışma** | Dinləmə mətni əsasında müzakirə |
| 3 | **Yazı** | Mövzular üzrə plakat hazırlama |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

**Tapşırıq A (dərslik).** Şagirdlərlə suallar əsasında müzakirə təşkil olunur:

– Yoluxucu xəstəlik dedikdə nə başa düşürsünüz?

– Hansı yoluxucu xəstəliklər var?

– İnsanlar bu xəstəliklərdən necə qorunur? və s.

### Yazı

3.1.3 **Tapşırıq B (dərslik).** Tapşırıq iki mərhələdə icra edilir:

1. Müəllim "Yoluxucu xəstəliklər" haqqında dinləmə mətni səsləndirir. Şagirdlər mətni din-

ləyərkən iş dəftərində verilmiş yaddaş xəritəsində əsas məlumatları qeyd edirlər.

**Yoluxucu xəstəliklər**

*Sağlamlığını qorumayan hər bir insan xəstələnə bilər. Xəstəliklərin bir qismi yoluxucudur. Yoluxucu xəstəliklər xəstə adamdan sağlam adama keçib sürətlə yayıla bilir. Bu cür xəstəlikləri bakteriya və viruslar törədir. Bəs hansı yoluxucu xəstəliklərə uşaqlar arasında daha çox rast gəlinir?*

*Uşaqlar arasında ən çox rast gəlinən xəstəliklər su çiçəyi, qızılca, məxmərək, qrip, göyöskürək kimi xəstəliklərdir. Su çiçəyi daha çox 5-10 yaşlı uşaqlar arasında qışın sonu, yazın əvvəllərində müşahidə olunur. Bu virusa yalnız insanlar yoluxur və daşıyıcı olur.*

*Qızılca epidemik xəstəlikdir. 6 aya qədər körpələr xəstəliyə nadir hallarda yoluxur. Bədəndə yaranan səpgilər 1 həftə davam edir. Xəstə adama bol maye içmək və istirahət etmək tövsiyə olunur. Peyvənd etdirmək insanı bu xəstəlikdən qoruyur.*

*Uşaqlar arasında yayılmış xəstəliklərdən biri də göyöskürəkdir. Bu xəstəliyi keçirən insanlarda ömürlük immunitet yaranır. Evdə müalicə aparılır. Tez-tez və az-az qida qəbul etmək lazımdır. Xəstənin otağı tez-tez havalandırılmalıdır.*

*Ən çox yayılan infeksion xəstəlik isə qripdir. Hər il 3-5 milyon insan bu virusa yoluxur. Virus xəstə insan öskürən, asqıran zaman damlacıqlarla ətrafa yayılır. Ona görə də bu zaman ağız və burunun dəsmalla tutulması tövsiyə edilir. Hər yaşda yoluxma müşahidə edilir. İstirahət, bol maye qəbulu məsləhət görülür. Qripə qarşı peyvənd isə hər il vurulur.*

*Yoluxucu xəstəliklər hazırda dünyanın ən mühüm problemlərindən biridir. Hər il yeni bir yoluxucu xəstəlik əmələ gəlir. Bu yoluxucu xəstəliklərdən necə qorunmalıyıq?*

*Biz, adətən, çalışırıq ki, xəstəliyə yoluxmuş insandan uzaq duraq. Ancaq bu xəstəliyin qarşısını almaq üçün kifayət etmir.*

*İlk növbədə uşaqları körpə ikən peyvənd edirlər. Peyvənd hər hansı xəstəliyin qarşısını almaq və ya onu zəifl ətmək üçün əsas vasitədir. Kiçik yaşlarda uşaqları qızılca, məxmərək, göyöskürək kimi xəstəliklərə qarşı peyvənd edirlər. Çünki bu xəstəliklər uşaqlar arasında ən çox rast gəlinən xəstəliklərdir.*

*Uşaqların immuniteti zəif olduğundan xəstəliklərə tez yoluxurlar. İmmuniteti artırmaq üçün sağlam qidalanmalı, meyvə, tərəvəz, bol vitaminli ərzaqlardan istifadə etməliyik.*

*Növbəti addım şəxsi gigiyena qaydalarına əməl etməkdir. Bədənin təmizliyinə nəzarət etməli, tez-tez əlləri yumalı, dırnaqları təmiz saxlamalı, dişləri səhər və axşam fırçalamalıyıq. Çünki elə virus və bakteriyalar var ki, onlar təmizləyici vasitələrin təsirindən məhv olurlar. Məsələn, qrip virusu, belə viruslar sırasındadır.*

*Təmizliklə yanaşı, otağın havasını da tez-tez dəyişmək lazımdır. Uşaqlar əsasən insanların çox olduğu qapalı məkanlarda xəstəliklərə yoluxurlar. Ona görə də havalandırmaya diqqət etmək lazımdır.*

*Xəstə insanlar da bir sıra qaydalara əməl etmədirlər. Xəstələndikdə evdə həkimin nəzarətində yataq rejimində olmalıdırlar. Bu həm onları, həm də digər insanları təhlükədən qoruyur.*

*Bir sözlə, yoluxucu xəstəliklərdən qorunmaq üçün birinci özümüzə, sonra isə başqalarına qarşı məsuliyyətli olmalı, düzgün qidalanmalı, təmizliyə riayət etməli, idmanla məşğul olmalı, yuxu rejiminə əməl etməli və xəstəliklərə qarşı vaxtında peyvənd etdirməliyik.*

**Müəllimin nəzərinə!** Dinləmə mətnini səsləndirərkən şagirdlərin qeyd götürmələri tövsiyə olunur. Şagirdlər tapşırığın ikinci mərhələsində plakat hazırlayarkən qeydlərindən istifadə edəcəklər.

Şagirdlər 4 qrupa bölünür. Hər qrupa vatman kağızı və ya A3 vərəqi təqdim olunur və mövzulara uyğun plakat hazırlamaq tapşırılır. Qrup üzvləri əvvəlcə mövzu ətrafında şüarlar düşünür və qeyd vərəqlərində yazırlar. Sonra müzakirə edərək plakat üçün uğurlu bir şüar seçirlər. Plakatda mövzuya uyğun istifadə edəcəkləri məlumatları müzakirə edirlər. Plakat üçün uyğun şəkillər seçirlər. Şəkli və mətni plakatda necə yerləşdirəcəklərini qərarlaşdırırlar. Şagirdlərin müzakirəsi bitdikdən sonra qruplar işə başlayır. Plakat üzərində şüarı diqqəti cəlb etmək üçün tünd böyük hərflərlə yazırlar. Sonda qrupların təqdimatı dinlənilir.

**Müəllimin nəzərinə!** Plakatın hazırlanmasına başlamazdan əvvəl yoluxucu xəstəliklər, onlardan qorunma yolları, gigiyena qaydaları haqqında həm verbal, həm də vizual məlumatların qiymətləndiriləcəyi şagirdlərin diqqətinə çatdırılır. Plakatın tərtibində müxtəlif işarə və simvollardan istifadə edə biləcəkləri şagirdlərə xatırladılır.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş mövzular üzrə əldə etdiyi məlumatlar əsasında plakat hazırlayır. | Tap. B (D.) |

## 3-cü dərs. Tibbi ixtiralar

• Dərslik: səh. 104 • İş dəftəri: səh. 66

**Təlim məqsədləri**

• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı (məlumat vərəqi, cədvəl, diaqram, sxem və s.) hazırlayır (st. 3.1.3).
• Müəyyən fikirlə bağlı öz mövqeyini bildirir və onu əsaslandırır (st. 1.2.1).
• Mətni götürdüyü qeydlər əsasında nəql edir (st. 1.2.2).
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 2.1.1).

### Dərsin qısa planı

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Mövzu üzrə müzakirə |
| 2 | **Yazı** | Məlumat vərəqi hazırlama |
| 3 | **Danışma** | Mövzu üzrə danışma və fikirlərini əsaslandırma |
| 4 | **Söz ehtiyatı** | Krosvord həll etmə; lüğət tərtib etmə |
| 4 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim sual verir:

– Tibb sahəsində hansı ixtiraları tanıyırsınız?

Şagirdlər bildiklərini danışırlar.

### Yazı

3.1.3 **Tapşırıq A (dərslik). "Steteskopun ixtirası" mətni. Səssiz oxu.** Şagirdlər mətni oxuduqca əsas faktları qeyd edirlər. Sonra bu məlumatlar əsasında məlumat vərəqi hazırlayırlar. Tapşırıq oxuyub-qavrama bacarıqlarının inkişafına, məlumatların qrafik informasiyaya çevrilməsi üzrə bilik və bacarıqların möhkəmlənməsinə xidmət edir.

**Düzgün cavab:**

***İxtiranın adı:*** Steteskop

***İxtiraçı:*** Rene Lennek

***İxtiranın ili:*** 1816-cı il

***İxtira olunduğu ölkə:*** Fransa, Paris şəhəri

***Əlavə məlumat:*** "*Steteskop*" yunancadan tərcümədə "*döş qəfəsi*" anlamını verir. Bu gün isə təkmilləşdirilərək fonendeskop kimi istifadə edilir.

### Danışma

1.2.1 **Tapşırıq B (dərslik).** Şagirdlər mətnlərdən çıxardıqları nəticələr əsasında suala cavab verirlər. Tapşırıq analizetmə bacarığının inkişafına kömək edir.

**Düzgün cavab:** Hər ikisi müşahidə bacarığına malik, yenilikçi və cəsarətli olduqları üçün ixtiraçı oldular.

1.2.2 **Tapşırıq C (dərslik).** Tapşırıq üç mərhələdə icra edilir:

1. Şagirdlər verilmiş suallarla tanış olurlar.
2. Müəllim dinləmə mətnini səsləndirir və şagirdlər suallar üzrə qeyd götürürlər.
3. Götürdükləri qeydlər və suallar əsasında mətni nəql edirlər.

Tapşırıq qeydgötürmə və nəqletmə bacarıqlarının möhkəmlənməsinə xidmət edir.

**Tibbi ixtiralar**

*Tibb sahəsində yaranan ixtiralar insanları xəstəliklərdən qoruyur, onları düzgün müayinə və müalicə etməyə imkan yaradır. Bəs hansı ixtiralar tibb sahəsində köklü dəyişikliklərə səbəb olmuşdur?*

*Bu gün həkimlərin üstünlük verdikləri müayinə vasitələrindən biri* ***rentgendir****. Rentgen cihazı dəqiq diaqnozun qoyulmasında mühüm rol oynayır. Bu cihazı 1878-ci ildə alman ixtiraçı Vilhelm Rentgen kəşf edib. O, X şüalarının təsi-*

*rindən insanın sümük toxumasının ekranda açıq rəngdə, yumşaq toxumaların isə tünd kölgə şəklində göründüyünü müəyyən edib. Daha sonra X (iks) şüaları yerləşdirilən cihaz vasitəsilə insanın daxili orqanlarının görüntülərini çəkib. Bu görüntülər xəstəliklərin dəqiq diaqnozunu qoymağa imkan yaradıb. Bu kəşf tibb üçün qiymətli hesab olunduğundan alimin şərəfinə Rentgen adlandırılıb.*

*Bədən hərarətini ölçmənin əvəzsiz cihazı olan* ***termometr*** *tibbin əsas ixtiralarından biridir. İlk tibbi termometri 1867-ci ildə Tomas Olbut hazırlayıb. Bu cihazla bədən hərarətini ölçmək təxminən beş dəqiqə çəkirdi. Termometr şəffaf şüşədən olur. İşıqda diqqətlə baxdıqda içərisində parlaq gümüşü rəngli maddə görünür. Bu maddənin adı civədir. Civə qızıldan, gümüşdən fərqli olaraq maye halında olur və istilik çoxalanda genişlənir. Ona görə də termometrin içərisindəki civə bədən hərarəti yüksək olduqda yuxarıya qalxır. Yüz ildən çoxdur ki, termometrlər əsasən dəyişməyib. Bu gün termometrlərə elektron sensorlar əlavə edilib.*

*Tibb sahəsinin mühüm ixtiralarından biri də* ***penisillin*** *olmuşdur. Penisillin ilk antibiotikdir. Bu dərman vasitəsilə milyonlarla insanın həyati xilas olmuşdur. Antibiotiklər zərərli mikroorqanizmləri məhv edir, onlara qarşı immunitet yaradır, infeksion xəstəliklərin yayılmasının qarşısını alır. Pensillini 1928-ci ildə təsadüf nəticəsində Aleksandr Fleminq kəşf etmişdir. O, adi tədqiqat işi zamanı, mikroskopun altında yaddan çıxardığı qabın üzərində kif gördü. Kifin olduğu yerdə bakteriyalar azalmışdı. Sonra yeni testlər etməyə başladı və kifin bakteriyaları məhv etdiyini müşahidə etdi. Beləliklə, bir çox əlacsız xəstəliklərin müalicəsinə imkan yarandı.*

1.2.1 **Tapşırıq Ç (dərslik).** Şagirdlər dinləmə mətnindən əldə etdikləri məlumatlar, şəkillər və öz bildikləri əsasında termometrin təkmilləşməsi haqqında danışırlar. Burada məqsəd yaranan ixtiraların zaman içərisində təkmilləşdirilərək daha dəqiq və asan istifadə olunan formaya salınmasına diqqəti yönəltməkdir. Tapşırıq həm şifahi nitq bacarığının inkişafına xidmət edir, həm də şagirdlərə yeniliyə açıq olmaq ideyasını aşılayır.

### Söz ehtiyatı

2.1.1 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər krossvordu həll edərək bu fəsildə öyrəndikləri tibbi terminlər və onların izahını yada salırlar. Tapşırıq növbəti tapşırığın icrasına zəmin yaradır.

**Tapşırıq D (dərslik).** Şagirdlər bu fəsildə öyrəndikləri tibbi terminlər əsasında lüğət tərtib edirlər. Tapşırıq həm söz ehtiyatının möhkəmlənməsinə, həm də lüğət tərtibetmə bacarıqlarının inkişafına xidmət edir.

**Müəllimin nəzərinə!** Tapşırığın icrası cütlərlə iş şəklində də təşkil oluna bilər.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndən əldə etdiyi məlumatlar əsasında məlumat vərəqi hazırlayır. | Tap. A (D.) |
| Mövzuya uyğun fikir bildirir və əsaslandırır. | Tap. B,Ç (D.) |
| Götürdüyü qeydlər əsasında mətni nəql edir. | Tap. C (D.) |
| Öyrəndiyi yeni terminlər əsasında lüğət tərtib edir. | Tap. D (D.) |

## 4-cü dərs. Durğu işarələri

• Dərslik: səh. 105 • İş dəftəri: səh. 67

**Təlim məqsədləri**

• O, bu əvəzliklərindən sonra vergülün düzgün işlənmə qaydasını müəyyən edir (st. 4.1.5).
• Durğu işarələrinin funksiyasını müəyyən edir (st. 4.1.5).
• Məqsəddən asılı olaraq cümlələrin sonunda müvafiq durğu işarələrindən istifadə edir (st. 4.1.5).

**Dərsin qısa planı**

| | | |
|---|---|---|
| 1 | **Mövzuya yönəltmə** | Sual-cavab |

| | | |
|---|---|---|
| 2 | **Dil qay-daları** | Vergülün düzgün işlənmə yerini müəyyən etmə; cümlələrə uyğun durğu işarələrini müəyyən etmə; durğu işarələrinin funksiyasını izah etmə və yerini müəyyənləşdirmə; ixtisar edilmiş və ya rəqəmlə yazılmış sözləri düzgün yazma |
| 3 | **Formativ qiymətləndirmə** | |

### Mövzuya yönəltmə

Müəllim keçilən durğu işarələrini yada salmaq üçün sual-cavab edir.

### Dil qaydaları

4.1.5 **Tapşırıq A (dərslik).** Şagirdlər o, bu əvəzliklərindən sonra vergülün funksiyasını izah edirlər.

**Düzgün cavab:**

1. O əvəzliyindən sonra feil gəldikdə vergül işlənmir.
2. O əvəzliyi mübtədanı əvəz etdikdə vergül işlənir.
3. Bu işarə əvəzliyindən sonra vergül işlənmir.
4. O işarə əvəzliyindən sonra vergül işlənmir.
5. O əvəzliyindən sonra əvəzlik gəldikdə vergül işlənmir.
6. O əvəzliyindən sonra sifət gəldikdə vergül işlənir.

4.1.5 **Tapşırıq A (iş dəftəri).** Şagirdlər durğu işarələrinin funksiyası ilə bağlı öyrəndikləri qaydalardan istifadə edərək tapşırığı yerinə yetirirlər. Tapşırıq biliklərin yoxlanmasına xidmət edir.

Düzgün cavab: 1. – Y; 2. – D; 3. – D; 4. – Y; 5. – D; 6. – Y; 7.– D.

4.1.5 **Tapşırıq B (dərslik).** Şagirdlər buraxılmış yerlərdə vergülü əlavə etməklə cümlələri köçürürlər. Tapşırıq vergülün işlənmə qaydası ilə bağlı biliklərin yoxlanılmasına xidmət edir.

**Düzgün cavab:**

1. Unutma, Aydan, sabah səhər görüşməliyik.
2. O gülür, əylənir, rəqs edirdi.
3. Bir sözlə, nəticələr çox yaxşıdır.
4. Murad, Elşən, Tahir eyni komandada oynayırlar.
5. Biz elə izah etməliyik ki, onlar anlaya bilsinlər.
6. Araz, sən bunu bilmirsən?

4.1.5 **Tapşırıq C (dərslik).** Şagirdlər verilmiş nümunələrə uyğun üç nöqtənin funksiyasını izah edirlər.

**Düzgün cavab:** 1 – sitatın ixtisar olduğunu göstərir; 2 – fikrin bitmədiyini bildirir; 3 – danışanın həyəcanlı olduğunu ifadə edir.

4.1.5 **Tapşırıq Ç (dərslik).** Şagirdlər ixtisar edilmiş və rəqəmlə yazılmış sözləri tam ifadə etməklə cümlələri oxuyurlar.

**Düzgün cavab:**

1. Arzu işlərini bu cür planlaşdırdı: birinci – nahar etmək, ikinci – dərnəyə getmək, üçüncü – istirahət etmək.
2. Sizi üçüncü gün saat doqquzda teatrın qarşısında gözləyəcəklər.
3. Kisədəki unun çəkisi qırx beş tam onda beş kiloqramdır.

4.1.5 **Tapşırıq D (dərslik).** Şagirdlər buraxılmış yerlərdə uyğun durğu işarələrini müəyyən edirlər. Tapşırıq dırnaq işarəsinin işlənmə qaydası ilə bağlı biliklərin yoxlanılmasına xidmət edir.

**Düzgün cavab:**

1. Uşaqlar “İxtiralar” adlı divar qəzeti tərtib etdilər.
2. Arzu öz-özünə düşündü: “Mən qalib olmalıyam”.
3. Jül Vernin “Beş həftə hava şarında” əsəri maraqlı idi.
4. Dünən kinoteatrda “Sehrli xalat” filmi nümayiş olundu.

**Tapşırıq B (iş dəftəri).** Tapşırıq iki mərhələdə icra edilir:

1. Şagirdlər mətni oxuyur və uyğun yerlərdə durğu işarələrini yazırlar.
2. Fərqləndirilmiş cümlələrdə o əvəzliyindən sonra vergülün qoyulmama səbəbini izah edirlər.

**Düzgün cavab:**

1. Göldə bir qaz üzürdü. O özündən çox razı idi. Odur ki fəxrlə dedi:

– Mən çox gözəl quşam, çünki üç böyük hünər sahibiyəm. Göydə uçuram, suda üzürəm, quruda gəzirəm. Quşların şahı mənəm.

Durna onun bu sözlərini eşidib dedi:

– Sənin axmaqlığına şübhəm yoxdur. Boynun uzun olsa da, ağlın gödəkdir. De görək, göydə tərlan tək uçmağın varmı? Quruda maral kimi

qaça bilərsənmi? Suda balıq tək üzə bilərsənmi? Nə üçün boş yerə özünü tərifləyirsən?

Qaz durnanın sözlərini eşidib xəcalət çəkdi. O anladı ki, çox şeyi yarımçıq bacarmaqdansa, bir işi mükəmməl bilmək yaxşıdır.

(S.Ə.Şirvani).

2. "O" əvəzliyindən sonra birinci cümlədə əvəzlik, ikinci cümlədə feil işləndiyi üçün vergül qoyulmamışdır.

**Tapşırıq C (iş dəftəri).** Tapşırıq həm durğu işarələrinin, həm də əlavə məlumat üzrə biliklərin yoxlanmasına xidmət edir.

**Düzgün cavab:** Evdən dəftərimi, kitabımı (riyaziyyat dərsliyini) götürüb qayıtdım.

### Formativ qiymətləndirmə

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar vasitəsilə qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| O, bu əvəzliklərindən sonra vergülün işlənmə qaydasını izah edir. | Tap. A (D.) |
| Durğu işarələrinin işlənmə qaydasını bilir. | Tap. A (İ.D.) |
| Cümlələri uyğun yerlərdə vergül işarəsini yazmaqla köçürür. | Tap. B (D.) |
| Üç nöqtənin funksiyasını izah edir. | Tap. C (D.) |
| İxtisarla və rəqəmlə verilmiş sözləri düzgün oxuyur. | Tap. Ç (D.) |
| Uyğun yerlərdə durğu işarələrini bərpa edir. | Tap. D (D.), tap. B, C (İ.D.) |

## II Yarımil üzrə ümumiləşdirici təkrar

• İş dəftəri: səh. 68-70

II yarımilin sonunda iş dəftərində 4-cü sinifdə keçilən dil qaydaları və filoloji anlayışlarla bağlı təqdim olunan tapşırıqlar müvafiq standartların nə dərəcədə reallaşdığını yoxlamağa imkan verir. Tapşırıqlar dil qaydalarını əhatə edir. Fərdi yerinə yetirilən tapşırıqların sonda ümumi siniflə müzakirə edilməsi məqsədəuyğundur.

**Düzgün cavab:**

| | |
|---|---|
| 1. b | 14. c |
| 2. c | 15. d |
| 3. a | 16. a |
| 4. c | 17. d |
| 5. c | 18. d |
| 6. d | 19. b |
| 7. c | 20. c |
| 8. c | 21. b |
| 9. d | 22. c |
| 10. d | 23. a |
| 11. b | 24. d |
| 12. c | 25. c |
| 13. d | 26. b |

*BURAXILIŞ MƏLUMATI*

*Ümumi təhsil müəssisələrinin 4-cü sinifləri üçün*
*Azərbaycan dili (tədris dili) fənni üzrə dərsliyin*
***metodik vəsaiti***

**Tərtibçi heyət**

| | |
|---|---|
| Müəlliflər | **Rafiq İsmayılov**<br>**Ülkər Nurullayeva**<br>**Şəhla Zahidova**<br>**İradə Bayramova**<br>**Aysel Xanalıyeva**<br>**Könül Cəlilova** |
| Layihə rəhbəri | **Rafiq İsmayılov** |
| Bədii redaktor | **Taleh Məlikov** |
| Dil-üslub redaktoru | **Dilrüba Cəfərova** |
| Texniki redaktor | **Zeynal İsayev** |
| Dizayner | **Taleh Məlikov** |
| Korrektor | **Aysu Məmmədova** |


**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun
hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

ISBN 978-9952-8402-5-4

Hesab-nəşriyyat həcmi: 27,5. Fiziki çap vərəqi: 29.
Səhifə sayı 232. Formatı: 57×82 1/8. Kəsimdən sonra ölçüsü:
195×275. Şriftin adı və ölçüsü: Calibri 11 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ___. Tirajı 200. Bakı – 2022.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).

Pulsuz